موسوعة الأحاديث النبوية

# PEYĞƏMBƏR HƏDİSLƏRİ ENSİKLOPEDİYASINDAN SEÇMƏLƏR

azərbaycanca | أذري

المنتقى من موسوعة الأحاديث النبوية

ⓒجمعية خدمة المحتوى الإسلامي باللغات ، ١٤٤٦هـ

جمعية خدمة المحتوى الإسلامي
المنتقى من موسوعة الأحاديث النبوية - أذري. / جمعية خدمة المحتوى الإسلامي - ط١. .- الرياض ، ١٤٤٦هـ
٣٢٥ ص ؛ ..سم

رقم الإيداع: ١٤٤٦/١١٨٥٨
ردمك: ٩٧٨-٦٠٣-٨٥١٧-٢٢-٢

Partners in Implementation

Content Association
Rowad Translation
Rabwah Association
IslamHouse

This publication may be printed and disseminated by any means provided that the source is mentioned and no change is made to the text.

Tel: +966 50 244 7000
info@islamiccontent.org
Riyadh 13245- 2836
www.islamhouse.com

# المنتقى
## من
# موسوعة الأحاديث النبوية

اللغة الأذربيجانية

إعداد القسم العلمي

جمعية خدمة المحتوى
الإسلامي باللغات

جمعية الدعوة
وتوعية الجاليات بالربوة

## Mərhəmətli və Rəhmli Allahın adı ilə

## Müqəddimə

Həmd olsun aləmlərin Rəbbi olan Allaha, Allahın salavatı və salamı peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinə və Qiyamət gününə qədər onlara gözəl şəkildə tabe olanların üzərinə olsun, daha sonra:

Allahın kitabından sonra, müsəlmanın diqqət etməli olduğu, oxuyub düşünəcəyi və tədəbbür edəcəyi, elm alıb əməl edəcəyi ən böyük şey Peyğəmbərin (sallallahu aleyhi və səlləm) sünnəsidir. Peyğəmbər (sallallahu aleyhi və səlləm) demişdir: **«Ey insanlar, mən sizə elə bir şeyi qoyub gedirəm ki, ona əməl etsəniz, heç vaxt azmazsınız: Allahın kitabını və peyğəmbərin sünnəsini»**. Hədisi İmam Məlik rəvayət etmişdir. Uca Allah buyurmuşdur: «Allahın rəsulu sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin.» [əl-Həşr:7]. Buna görə də **«Müxtəlif Dillərdə İslamı Mətnlərə Xidmət Birliyi»** və **«Rabva Təbliğ və Maarif Birliyi»** peyğəmbər hədisləri ensiklopediyasının hazırlanması və müxtəlif dillərə tərcümə edilməsinə həvəs göstərmişlər.

Artıq Uca Allah bu ensiklopediyadan müsəlmanın dinində və gündəlik həyatında  ehtiyac duyduğu mövzuların seçilməsini, onun qısa izah edilməsini, məna və dəlalətini və bəzi faydalarının açıqlanmasını asanlaşdırmışdır. Və o bu cür adlanan kitabda təqdim olunur: "Peyğəmbər hədisləri ensiklopediyasından seçmələr" - hər kəsə faydalı olması və Allah Rəsulunun (sallallahu aleyhi və səlləm) sünnəsinin bəşəriyyətə öz dillərində çatdırılması üçün

bunun, dünyanın bütün canlı dillərinə tərcüməsi üzərində işlənilir.

Allahdan bu əməli bizdən qəbul etməsini, onu bərəkətli və Allahın razılığı umulan ixlaslı əməl etməsini və bu kitabın hazırlanması, tərcüməsi və yayılmasında əməyi keçən hər bir kəsi mükafatlandırmasını istəyirik. Perğəmbərimizə Allahın salavatı və salamı olsun.

(1) – عن عمر بن الخطاب رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «إِنَّمَا الْأَعْمَالُ بِالنِّيَّةِ، وَإِنَّمَا لِامْرِئٍ مَا نَوَى، فَمَنْ كَانَتْ هِجْرَتُهُ إِلَى اللهِ وَرَسُولِهِ، فَهِجْرَتُهُ إِلَى اللهِ وَرَسُولِهِ، وَمَنْ كَانَتْ هِجْرَتُهُ لِدُنْيَا يُصِيبُهَا أَوِ امْرَأَةٍ يَتَزَوَّجُهَا، فَهِجْرَتُهُ إِلَى مَا هَاجَرَ إِلَيْهِ».

وفي لفظ للبخاري: «إِنَّمَا الْأَعْمَالُ بِالنِّيَّاتِ، وَإِنَّمَا لِكُلِّ امْرِئٍ مَا نَوَى». [صحيح]-[متفق عليه]

(1) – Ömər bin Əl-Xattabdan (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Əməllər niyyətə görədir, həqiqətən insan niyyəti üzərindədir, kimin hicrəti Allah və rəsulu üçün olarsa, onun hicrəti Allah və rəsulu üçündür, kimin hicrəti əldə edəcəyi dünya və evlənəcəyi qadın olarsa, hicrəti də niyyətinə uyğun olar". Buxarinin ləfzində: "Əməllər niyyətlərə görədir, hər kəsə niyyətinə görə verilir." [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)].

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, bütün əməllər niyyətlə tam olub etibarlı sayılır və bu hökm, ibadətdə və insanlar arasındakı müxtəlif əlaqəli əməllərə şamil olunan ümumi hökmdür, kim əməliylə mənfəət güdərsə, yalnız o mənfəətə nail olar, savaba çatmaz, lakin kim əməliylə, uca Allaha yaxınlaşmağı niyyət edərsə - hətta bu əməli gündəlik etdiyi yemək və içmək kimi əməllər olsa belə - əməlinin mükafatına və savabına çatmış olar.

Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) edilən əməllərin zahirinə görə bənzər olmasına baxmayaraq, onlara niyyətin təsirini bəyan etmək üçün misal çəkərək bildirir ki, kim hicrəti və vətənini tərk etməklə Rəbbinin razılığını umarsa, onun hicrəti qəbul edilmiş şərii hicrətdir, niyyətinin doğruluğuna görə  savab qazanacaq, kim hicrətiylə mal-dövlət, şöhrət, ticarət, evlənəcəyi qadın kimi dünyəvi mənfəət güdərsə, hicrətindən yalnız  niyyət etdiyi mənfəəti əldə edəcək, lakin əcr və savab qazanmayacaq.

## Hədisin faydalarından:

1. İxlasa təşviq, çünki Allah yalnız Onun razılığı üçün edilmiş əməli qəbul edir.
2. İzzət və cəlal sahibi olan Allaha yaxınlaşdıran əməlləri mükəlləf olan insan adət olaraq edərsə, bunları Allah üçün etmədikcə, savab əldə etməz.

(4560)

(2) – عَنْ عَائِشَةَ رضي الله عنها قَالَتْ: قَالَ رَسُولُ اللهِ صلى الله عليه وسلم: «مَنْ أَحْدَثَ فِي أَمْرِنَا هَذَا مَا لَيْسَ فِيهِ فَهُوَ رَدٌّ» متفق عليه.

ولمسلم: «مَنْ عَمِلَ عَمَلًا لَيْسَ عَلَيْهِ أَمْرُنَا فَهُوَ رَدٌّ».  [صحيح] – [متفق عليه]

(2) – Aişə (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğunu rəvayət edir: “Kim bizim yolumuza zidd , ona aid olmayan bir yenilik gətirərsə, o rədd olunar” (Buxari və Muslim). Müslimin rəvayətinə görə: “Kim bizim şəriətimizə

uyğun olmayan bir əməl edərsə, o rədd olunar”. [Səhih] - [Müttəfuqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)].

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, kim dinə yenilik gətirərsə, yaxud Quran və sünnədə təsdiqini tapmayan bir əməli edərsə, həmin əməl sadəcə özü üçün etdiyi faydasız bir əməl olar və Allah tərəfindən qəbul olunmaz.

**Hədisin faydalarından:**

1. İbadətlər Quran və sünnədə gələn dəlillərə əsaslanır, ona görə də biz uca Allaha dinə artırılmış yeniliklər və ya sonradan uydurulmuş bidətlərlə deyil, Onun əmr etdiyi qayda-qanunlara tam uyğun olaraq ibadət edirik.
2. Din hər hansı bir kəsin fikri və xoşuna gəldiyi tərzdə deyil, Allah Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun) tabe olmaqla gerçəkləşir.
3. Bu hədis dinin kamilliyinə dəlildir.
4. Bidət, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) və onun səhabələrinin dövründə öz əksini və təsdiqini tapmayan əqidədə, eləcə də söz və əməldə sonradan əlavə edilən yeniliklərdir.
5. Bu hədis İslamın əsaslarından biridir və əməllər üçün tərəzi misalındadır. Necə ki, uca Allahın razılığı umulmayan hər bir işin savabı olmadığı kimi, Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə

olsun) buyurduğu şəriətə uyğun olmayan əməl də onu edən üçün faydasız olar.

6. Qadağan olunan yeniliklər dini məsələləri əhatə edir, dünya işlərindəki yeniliklərə aid deyildir.

(4792)

(3) – عن عمر بن الخطاب رضي الله عنه قال: بَيْنَمَا نَحْنُ عِنْدَ رَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ ذَاتَ يَوْمٍ إِذْ طَلَعَ عَلَيْنَا رَجُلٌ شَدِيدُ بَيَاضِ الثِّيَابِ، شَدِيدُ سَوَادِ الشَّعَرِ، لَا يُرَى عَلَيْهِ أَثَرُ السَّفَرِ، وَلَا يَعْرِفُهُ مِنَّا أَحَدٌ، حَتَّى جَلَسَ إِلَى النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، فَأَسْنَدَ رُكْبَتَيْهِ إِلَى رُكْبَتَيْهِ، وَوَضَعَ كَفَّيْهِ عَلَى فَخِذَيْهِ، وَقَالَ: يَا مُحَمَّدُ، أَخْبِرْنِي عَنِ الْإِسْلَامِ، فَقَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «الْإِسْلَامُ أَنْ تَشْهَدَ أَنْ لَا إِلَهَ إِلَّا اللهُ، وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللهِ، وَتُقِيمَ الصَّلَاةَ، وَتُؤْتِيَ الزَّكَاةَ، وَتَصُومَ رَمَضَانَ، وَتَحُجَّ الْبَيْتَ إِنِ اسْتَطَعْتَ إِلَيْهِ سَبِيلًا» قَالَ: صَدَقْتَ، قَالَ: فَعَجِبْنَا لَهُ، يَسْأَلُهُ وَيُصَدِّقُهُ، قَالَ: فَأَخْبِرْنِي عَنِ الْإِيمَانِ، قَالَ: «أَنْ تُؤْمِنَ بِاللهِ، وَمَلَائِكَتِهِ، وَكُتُبِهِ، وَرُسُلِهِ، وَالْيَوْمِ الْآخِرِ، وَتُؤْمِنَ بِالْقَدَرِ خَيْرِهِ وَشَرِّهِ» قَالَ: صَدَقْتَ، قَالَ: فَأَخْبِرْنِي عَنِ الْإِحْسَانِ، قَالَ: «أَنْ تَعْبُدَ اللهَ كَأَنَّكَ تَرَاهُ، فَإِنْ لَمْ تَكُنْ تَرَاهُ فَإِنَّهُ يَرَاكَ» قَالَ: فَأَخْبِرْنِي عَنِ السَّاعَةِ، قَالَ: «مَا الْمَسْؤُولُ عَنْهَا بِأَعْلَمَ مِنَ السَّائِلِ» قَالَ: فَأَخْبِرْنِي عَنْ أَمَارَتِهَا، قَالَ: «أَنْ تَلِدَ الْأَمَةُ رَبَّتَهَا، وَأَنْ تَرَى الْحُفَاةَ الْعُرَاةَ الْعَالَةَ رِعَاءَ الشَّاءِ يَتَطَاوَلُونَ فِي الْبُنْيَانِ» قَالَ: ثُمَّ انْطَلَقَ، فَلَبِثْتُ مَلِيًّا ثُمَّ قَالَ لِي: «يَا عُمَرُ، أَتَدْرِي مَنِ السَّائِلُ؟» قُلْتُ: اللهُ وَرَسُولُهُ أَعْلَمُ، قَالَ: «فَإِنَّهُ جِبْرِيلُ، أَتَاكُمْ يُعَلِّمُكُمْ دِينَكُمْ». [صحيح] - [رواه مسلم]

(3) – Ömər bin Əl Xattabdan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə dedi: Bir gün biz Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) ətrafında oturduğumuz zaman qəflətən içəriyə dümağ paltarlı, zil qara saçlı, üzərində səfərdən əsər-əlamət olmayan və heç birimizin tanımıdığı bir adam daxil oldu. O Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) önündə oturub, dizlərini onun dizlərinə söykədi. Sonra əllərini dizləri üzərinə qoyub belə dedi: "Ey Muhəmməd, mənə İslam haqqında xəbər ver!" Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "İslam, Allahdan başqa ibadətə layiq ilah olmadığına, Muhəmmədin Allahın elçisi olduğuna şəhadət etməyin, namaz qılmağın, zəkat verməyin, Ramazan ayının orucunu tutmağın və imkanın olduğu təqdirdə Allahın evini (Kəbəni) həcc etməyindir." Sual verən şəxs: "doğru söylədin" - dedi. "Biz buna təəccübləndik, o həm soruşur, həm də təsdiqləyirdi." Sonra o dedi: "Ey Muhəmməd, mənə iman haqqında xəbər ver!". Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "İman: Allaha, Onun mələklərinə, peyğəmbərlərinə, kitablarına, axirət gününə və qədərə - xeyrinə və şərinə - inanmağındır." Sual sahibi: "Doğru söylədin." dedi. Sonra: "Ey Muhamməd! Mənə İhsan haqqında söylə" deyə buyurdu. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun): "İhsan odur ki, Allaha ibadəti sanki Onu görürmüşsən kimi edirsən, əgər bunu bacarmasan, O səni görürmüş kimi ibadət et." deyə cavab verdi. Sual sahibi (bu dəfə): "Qiyamət nə vaxt qopacaq?" deyə soruşdu. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun): "Soruşulan bu xüsusda soruşandan daha məlumatlı deyildir." - deyə cavab verdi.

Həmin adam təkrar sual verdi: "O halda, Qiyamətin əlamətləri nədir?" Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "Cariyənin öz ağasını dünyaya gətirməsi, həmçinin yalın ayaq, çılpaq, yoxsul çobanların (yəni bədəvilərin), yüksək binalar tikməkdə bir birilərilə yarışdıqlarını görməyindir." Sonra həmin şəxs çıxıb getdi. (Ömər dedi): Bir müddət dayandım, sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) mənə: "Ey Ömər! O sualları soruşan şəxsin kim olduğunu bilirsənmi?" deyərək soruşdu. Dedim: "Allah və Rəsulu doğrusunu bilir." Peyəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "O, Cəbrayıl idir. Sizə dininizi öyrətmək üçün gəlmişdi." [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Ömər bin Əl-Xattab (Allah ondan razı olsun) xəbər verir ki, Cəbrayıl (Allahın ona salamı olsun) kimsənin tanımadığı insan şəklində onların yanına gəlir. O, ağappaq libaslı, qap-qara saçlı, üzərində toz-torpaq, yorğunluq, dağınıq saç, bulaşmış paltar kimi hər hansı bir səfər əlaməti olmayan və aramızda onu heç kimin tanımadığı bir adam surətində idi. Sahabələr Peyğmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) ətrafında ikən, o yaxınlaşıb Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) qarşısında tələbə oturuşu ilə əyləşir və İslam haqqında soruşur. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) cavab olaraq: şəhadət kəliməsi, beş vaxt namaz qılmaq, layiq olanlara zəkat vermək,

Ramazan ayını oruc tumaq, imkanı çatdığı təqdirdə həcc etmək kimi İslamın ərkanları barədə ona məlumat verir.

Sual verən kəs dedi: Doğru buyurdun! Məlumatsız olduğuna bənzəyən şəxsin ilk olaraq sual verib, sonra isə sualın cavabını təsdiq etməsinə səhabələr təəccüb etdilər.

Sonra o iman haqqında soruşduqda Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) da uca Allahın mövcudluğuna və Onun sifətlərinə iman, yaratma kimi bütün fellərində tək olmasına, həmçinin ibadətə yalnız  tək Onun layiq olduğuna, Allahın mələkləri nurdan yaratdığına, Ona üsyan etməyən və əmrlərini yerinə yetirən hörmətli qulları olduğuna, uca Allah tərəfindən peyğəmbərlərinə endirilən Quran, Tövrat, İncil və digər kitablara iman, Nuh, İbrahim, Musa, İsa, peyğəmbərlərin sonuncusu olan Muhəmməd (Allahın salavatı və salamı onların üzərinə olsun) və digər bütün peyğəmbərlərə və onların Allahın dinini insanlara çatdırdıqlarına iman, ölümdən sonrakı qəbr həyatına və bərzəx dünyasına, insanların dirilib hesaba çəkiləcəyi və bunun nəticəsində ya cənnətə, ya cəhənnəmə gedəcəyini əhatə edən axirət gününə, Allahın bütün hər şeyi əzəli elmi və doğuran hikməti ilə təqdir etməsinə, bunları qeydlə yazdığına, istədiyi və təqdir etdiyi şəkildə reallaşacağına və yaradacağına iman etmək barədə altı əsası bildirmişdir. Sonra ihsan haqqında soruşduqda Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, ihsan Allahı sanki görürmüşsən kimi ibadət etməkdir, hətta bu məqama yetişilməsə belə, uca Allaha elə ibadət et ki, sanki

Onun nəzarəti altındasan. Buna görə də birinci və ən uca məqam Allahı görürmüş kimi ibadət etməkdir, ikinci məqam isə, Onun səni gördüyünü, Onun nəzarətini bilərək ibadət etməkdir.

Sonra bu adam Qiyamətin nə zaman qopacağını soruşur. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, Qiyamətin qopacağı gün yalnız Allaha məlumdur, onu yaradılmışlardan kimsə bilmir, bu haqda nə soruşulan, nə də soruşan məlumatlı deyildir.

Sonra Qiyamətin əlamətləri haqqında soruşduqda Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, kölələrin və övladlarının sayının artmaları, yaxud övladların valideynlərin üzünə ağ olub, onlarla kölə kimi davranmaları, qoyun otaranların və kasıbların Qiyamətə yaxın zənginləşib, binalar ucaltmaları və onları bəzəmədə yarışaraq bir-biri qarşısında fəxr etmələri Qiyamətin əlamətlərindəndir.

Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, sual verən kəs, mələk-Cəbrayıldır (Allahın ona salamı olsun), sahabələrə tövhid dini olan İslamı öyrətmək üçün gəlmişdir.

### Hədisin faydalarından:

1. Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) sahabələrlə birgə oturması və səhabələrin də onun ətrafında toplanması, onun gözəl əxlaqının göstəricisindəndir.

2. Soruşan kəsin qorxmadan və sıxınmadan sual verə bilməsi üçün ona qarşı yumşaq olmaq və yaxınlaşmasına icazə vermək.
3. Müəllimə qarşı ədəb. Cəbrayıl (Allahın salamı üzərinə olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) önündə öyrənmək istəyən ədəbli bir tələbə kimi əyləşir.
4. İslamın rükunları beşdir, imanın əsasları altıdır.
5. İslam və iman bir yerdə qeyd edilkdə, İslam zahiri əməllər, iman isə daxili əməllər olaraq şərh edilir.
6. Dinin dərəcələrinin ardıcıllıqla fərqliliyi bəyan edilmişdir, ilk dərəcə İslamdır, ikinci iman, üçüncü isə ihsandır ki, o da ən yüksək dərəcədir.
7. Adətən sual verən kəs bilmədiyi şeyi soruşar, bilmədiyi üçün sual verər. Ona görə sahabələr verilən suala və onun təsdiqinə təəccüb etdilər.
8. Məsələlər ən önəmli olanlarla başlanır. Buna görə də İslamın izahında birinci olaraq şəhadət kəliməsi ilə, imanın izahında isə Allaha imanla başlanılmışdır.
9. Sual verən kəsin bildiyi bir şeyi başqalarının öyrənməsi üçün elm əhlindən soruşması.
10. Qiyamətin qopacaq vaxtının bilgisi yalnız Allaha məxsusdur.

(4563)

(4) – عَنْ عَبْدِ اللهِ بنِ عُمَر رضي الله عنهما قال: قال رسولُ الله صلى الله عليه وسلم: «بُنِيَ الْإِسْلَامُ عَلَى خَمْسٍ: شَهَادَةِ أَنْ لَا إِلَهَ إِلَّا اللهُ، وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ، وَإِقَامِ الصَّلَاةِ، وَإِيتَاءِ الزَّكَاةِ، وَحَجِّ الْبَيْتِ، وَصَوْمِ رَمَضَانَ». [صحيح] - [متفق عليه]

(4) – Abdullah bin Ömər (Allah onların hər ikisindən razı olsun) Allahın Elçisinin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğunu rəvayət edir: “İslam beş təməl üzərində qurulub: Allahdan başqa ibadətə layiq haqq məbud olmadığına, Muhəmmədin Onun qulu və rəsulu olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat vermək, Allahın evini həcc etmək və Ramazan orucunu tutmaq". [Səhih] - [Müttəfuqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) beş sütun üzərində qurulan İslamı inşa olunmuş möhkəm bir binaya bənzədib, İslamın digər xüsusiyyətləri isə bu binanın tamamlanması kimidir. Bu sütunlardan birincisi: iki şəhadət - Allahdan başqa ibadətə layiq məbud olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şəhadət gətirməkdir ki - bu da bir sütundur, biri digərindən ayrılmazdır. İnsan, Allahın təkliyini, yalnız Onun ibadətə layiq olduğunu etiraf edib, şəhadətin tələblərinə uyğun əməl edib və Muhəmmədin (Allahın salavatı və salamı onun üzərinə olsun) şəriətinə iman gətirib və ona tabe olaraq bu şəhadəti tələffüz edir. İkinci sütun: gün ərzində vacib olan beş namazı - sübh, zöhr, əsr,

məğrib, işa namazlarını şərtlərinə, ərkanlarına və vaciblərinə uyğun qılmaq. Üçüncü sütun: vacib zəkatın ödənilməsi - bu, vacib ibadət olaraq şəriətlə tənzimlənir, sərvətin miqdarı müəyyən həddə çatdıqda təyin edilmiş hissəsi ehtiyaclılara verilir. Dördüncü sütun: həcc - tələb olunan əməlləri yerinə yetirmək məqsədi ilə Məkkəyə yollanmaq və bununla da uca Allaha ibadət etmək. Beşinci sütun: Ramazan orucu, Allaha ibadət niyyəti ilə səhər dan yeri ağarandan-gün batana qədər yemək, içmək və orucu pozan başqa şeylərdən çəkinməkdir.

**Hədisin faydalarından:**

1. İki şəhadətin bir-birindən ayrılmazlığı, ona görə də onlardan biri digəri olmadan etibarlı deyil. Buna görə də, şəriət onları birlikdə - bir sütun edib.
2. İki şəhadətin dinin əsası olması, bu iki şəhadətsiz nə söz, nə də əməl qəbul deyildir.

(65000)

(5) – عَنْ مُعَاذٍ رَضِيَ اللَّهُ عَنْهُ، قَالَ: كُنْتُ رِدْفَ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ عَلَى حِمَارٍ يُقَالُ لَهُ عُفَيْرٌ، فَقَالَ: «يَا مُعَاذُ، هَلْ تَدْرِي حَقَّ اللَّهِ عَلَى عِبَادِهِ، وَمَا حَقُّ العِبَادِ عَلَى اللَّهِ؟»، قُلْتُ: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ، قَالَ: «فَإِنَّ حَقَّ اللَّهِ عَلَى العِبَادِ أَنْ يَعْبُدُوهُ وَلا يُشْرِكُوا بِهِ شَيْئًا، وَحَقَّ العِبَادِ عَلَى اللَّهِ أَنْ لا يُعَذِّبَ مَنْ لا يُشْرِكُ بِهِ شَيْئًا»، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ أَفَلاَ أُبَشِّرُ بِهِ النَّاسَ؟ قَالَ: «لا تُبَشِّرْهُمْ، فَيَتَّكِلُوا». [صحيح] - [متفق عليه]

(5) – Muazdan - Allah ondan razı olsun - olan rəvayətdə o dedi: Bir dəfə Allah Rəsulu (Allahın salavatı və salamı onun

üzərinə olsun) Ufeyr adlanan uzunqulağın belində öndə, mən isə arxada oturmuşdum. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) (mənə) dedi: “Ey Muaz, Allahın qulları üzərindəki və qulların Allah üzərindəki haqlarını bilirsənmi?”. Dedim: “Allah və Rəsulu ən doğrusunu bilir”. Dedi: "Allahın qulları üzərində haqqı Ona ibadət edərək, Ona heç bir şeyi şərik qoşmamaqdır. Qulların Allah üzərində haqları isə, Ona şərik qoşmayan kəsə əzab verməməsidir". Mən dedim: "Ey Allahın Rəsulu! Bununla insanları müjdələməyimmi?”. O isə: “Müjdələmə, yoxsa arxayınlaşarlar” - dedi. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) Allahın qullar üzərində olan haqqını və qulların Allah üzərində olan haqqını bəyan edir və bildirir ki, Allahın qullar üzərində haqqı yalnız Ona ibadət etmək və Ona heç nəyi şərik qoşmamaqdır. Qulların Allah üzərində haqqı, Ona heç nəyi şərik qoşmayan tövhid əhlinə əzab verməməsidir. Sonra Muaz deyir: Ey Allahın Rəsulu, insanlar bu sevindirici xəbərlə sevinsinlər və şad olsunlar deyə onları müjdələməyim? Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanların buna arxayın olmasından qorxduğu üçün müjdələməyi ona qadağan edir.

## Hədisin faydalarından:

1. Allahın qullarına vacib etdiyi haqlarının bəyanı: Ona ibadət edib, heç nəyi Ona şərik qoşmamaları.

2. Qulların Allah üzərində olan, Onun tərəfindən onlara fəzilət və nemət olaraq Allahın özünə vacib etdiyi haqlarının bəyanı: Onları cənnətinə daxil etməsi və onlara əzab verməməsi.
3. Burada Uca Allaha şərik qoşmayan tövhid əhlinə, son mənzillərinin cənnət olması ilə bağlı böyük müjdə vardır.
4. Muaz (Allah ondan razı olsun) elmi gizlətməyin günahından qorxduğu üçün ölümündən öncə bu hədisi söyləyir.
5. Bəzi insanların, mənalarını anlamayacaqlarından ehtiyat edib, onların yanında əməl etməklə və şəriətin hədlərindən hər hansı hədlə əlaqəsi olmayan bəzi hədisləri yaymamaq.
6. Tövhid əhli arasındakı günahkarlar Allahın istəyi altındadır, istəsə onları bağışlayar, istəsə onlara əzab verər, lakin sonda gedəcəkləri yer cənnətdir.

(65007)

(6) – عن أنس بن مالك رضي الله عنه: أَنَّ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ وَمُعَاذٌ رَدِيفُهُ عَلَى الرَّحْلِ قَالَ: «يَا مُعَاذُ بْنَ جَبَلٍ»، قَالَ: لَبَّيْكَ يَا رَسُولَ اللهِ وَسَعْدَيْكَ، قَالَ: «يَا مُعَاذُ»، قَالَ: لَبَّيْكَ يَا رَسُولَ اللهِ وَسَعْدَيْكَ، ثَلَاثًا، قَالَ: «مَا مِنْ أَحَدٍ يَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللهِ صِدْقًا مِنْ قَلْبِهِ إِلَّا حَرَّمَهُ اللهُ عَلَى النَّارِ»، قَالَ: يَا رَسُولَ اللهِ، أَفَلَا أُخْبِرُ بِهِ النَّاسَ فَيَسْتَبْشِرُوا؟ قَالَ: «إِذًا يَتَّكِلُوا». وَأَخْبَرَ بِهَا مُعَاذٌ عِنْدَ مَوْتِهِ تَأَثُّمًا.

[صحيح] - [متفق عليه]

(6) – Malik bin Ənəsdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Bir gün Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) səfərdə yəhər üzərində arxasına aldığı yol yoldaşı Muaza üç dəfə: “Ey Muaz ibn Cəbəl” - deyə səslənir, Muaz da 3 dəfə: “Buyur, ey Allahın Rəsulu, əmrindəyəm” - deyə cavab verir. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) isə deyir:“ Kim Allahdan başqa məbud olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna ürəkdən ixlasla şəhadət edərsə, Allah cəhənnəmi ona haram edər”. Bu zaman Muaz soruşur: "Ey Allahın Rəsulu, bu şad xəbəri insanlara çatdırımmı, sevinsinlər?”. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurur: “Onda insanlar arxayınlaşarlar”. Yalnız ölümünə yaxın Muaz - elmi gizlətmək günahından - qurtulmaq üçün bu bilgini xəbər vermişdir. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gürdöyö hədislər)]

**Şərh (izah):**

Muaz bin Cəbəl (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) arxasında onun miniyinin (heyvanının) üzərində idi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona deyəcəklərinin əhəmiyyətini vurğulamaq üçün üç dəfə: «Ey Muaz?" - deyə səsləndi.

Hər dəfə ona səsləndikdə Muaz: "Buyur, Ey Allahın rəsulu, əmrindəyəm" - deyə cavab verir. Yəni - "təkrar-təkrar sənin çağırışına cavab verirəm və bu cavabla səadət diləyirəm" demək istəyir.

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ona xəbər verdi ki, Allahdan başqa ibadətə layiq ilah olmadığına, yəni Allahdan başqa həqiqi məbud olmadığına və Məhəmmədin Allahın Rəsulu olduğuna sidq-qəlblə, yalan olmadan şəhadət verən hər kəs bu halı üzrə ölərsə Allah ona cəhənnəmi haram edər.

Və Muaz Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşur ki, bu xəbəri insanlara çatdırımmı ki, sevinsinlər və bu onlar üçün müjdə olsun?

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) insanların buna arxayınlaşıb, əməllərini azaltmaqlarından qorxdu.

Muaz yalnız ölümünə yaxın - elmi gizlətmək günahına batmasından qorxaraq - bunu insanlara xəbər verir.

## Hədisin faydalarından:

1. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) Muazı, öz miniyndə arxasına alması, onun təvözakarlığının göstəricisidir.
2. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) təlim üslubu, belə ki, Muazı bir neçə dəfə səsləyərək söyləcəyi mövzuya diqqətini cəlb etmək metodu.
3. Şəhadətin şərtlərindən: Allahdan başqa ibadətə layiq ilah olmadığını və Məhəmmədin Allahın Rəsulu olduğunu, yalan saymadan, sidq-qəlblə və şübhə olmadan əminliklə söyləməkdir.

4. Tövhid əhli cəhənnəm odunda əbədi qalmayacaqlar, günahlarına görə ora daxil olsalar belə, təmizləndikdən sonra oradan çıxarılacaqlar.
5. Şəhadət kəliməsinin sidq ürəklə deyən kəs üçün fəziləti.
6. Hədisi söyləmək fəsad doğuracaqsa, bəzi hallarda onu söyləməmək icazəlidir.

(10098)

(7) – عن طارق بن أشيم الأشجعي رضي الله عنه قال: سمعتُ رسولَ الله صلى الله عليه وسلم يقول: «مَنْ قَالَ: لَا إِلَهَ إِلَّا اللهُ، وَكَفَرَ بِمَا يُعْبَدُ مِنْ دُونِ اللهِ حَرُمَ مَالُهُ وَدَمُهُ، وَحِسَابُهُ عَلَى اللهِ». [صحيح] - [رواه مسلم]

(7) – Tariq bin Əşyəm Əl-Əşcaidən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Kim "Ləə iləhə illallah" deyər və Allahdan başqa ibadət edilənləri inkar edərsə, malı, qanı toxunulmaz olar, hesabı isə Allaha aiddir." [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, kim diliylə şəhadət edərək " Ləə iləhə illah" - yəni Allahdan başqa haqq məbud olmadığını deyərsə, Allahdan başqa ibadət edilən hər şeyi inkar edərsə və İslamdan başqa digər dinləri tərk edərsə, onun malı, qanı müsəlmanlara haram olar və bizə yalnız əməlinin zahirinə görə hökm vermək qalar. Buna görə də

İslam əhkamlarına əsasən kim, qanını və malını halal edəcək bir günah və cinayət etməyincə, malı alınmaz və qanı da axıdılmaz.

Allah Qiyamət günü onun hesabını çəkəcək, əgər müsəlman kimi dediklərində doğru, səmimi idisə onu mukafatlandıracaq, münafiq idisə cəzalandıracaq.

**Hədisin faydalarından:**

1. "Lə iləhə illallah" söyləmək və Allahdan savayı ibadət edilənlərin hamısını inkar etmək İslama daxil olmaq üçün şərtdir.
2. "Lə iləhə illallah"ın mənası bütlər, qəbirlər və digər Allahdan savayı ibadət edilənlərin hamısını inkar etmək, yalnız tək olan Allaha ibadət etməkdir.
3. Kim tövhidi tətbiq edər və onun tələblərinə zahirən əməl edərsə, buna zidd əməli ortaya çıxmayınca toxunulmaz olar.
4. Haqlı səbəb olmadan müsəlmanın malı, qanı və şərəf və ləyaqətinin toxunulmazlığı.
5. Bu dünyadakı hökm zahirə görədir, axirətdə isə niyyət və məqsədlərə görədir.

(6765)

(8) – عَنْ جَابِرٍ رضي الله عنه قَالَ: أَتَى النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ رَجُلٌ فَقَالَ: يَا رَسُولَ اللهِ، مَا الْمُوجِبَتَانِ؟ فَقَالَ: «مَنْ مَاتَ لَا يُشْرِكُ بِاللهِ شَيْئًا دَخَلَ الْجَنَّةَ، وَمَنْ مَاتَ يُشْرِكُ بِاللهِ شَيْئًا دَخَلَ النَّارَ» [صحيح] - [رواه مسلم]

(8) – Cabirdən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə dedi: Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına bir kişi gəlib belə dedi: Ey Allahın Rəsulu, (insanı cənnətə və cəhənnəmə salan) iki səbəb nədir? Dedi: “Kim Allaha şərik qoşmadan ölərsə cənnətə daxil olar, kim Allaha şərik qoşaraq ölərsə cəhənnəmə daxil olar”. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Kişi peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) iki səbəb barəsində soruşdu: Cənnətə aparan və cəhənnəmə vasil edən səbəb. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) cavab verir ki: Cənnətə aparan səbəb insanın tək olan Allaha ibadət edib, Ona heç bir şeyi şərik qoşmadan ölməsidir. Cəhənnəmə salan səbəb isə insanın, Allahın uluhiyyətində və ya rübubiyyətində və ya ad və sifətlərində Ona hər hansı şeyi tay tutması və şərik qoşaraq ölməsidir.

**Hədisin faydalarından:**

1. Tövhidin fəziləti və iman gətirib Allaha şərik qoşmadan ölən insanın cənnətə daxil olması.
2. Şirkin təhlükəsi və Allaha şərik qoşanın cəhənnəmə daxil olması.
3. Tövhid əhli arasındakı günahkarlar Allahın istəyi altındadır, istəsə onları bağışlayar, istəsə onlara əzab verər, lakin sonda gedəcəkləri yer cənnətdir.

(65008)

(9) – عَنْ عَبْدِ اللهِ بنِ مَسْعُودٍ رضي الله عنه قال: قَالَ النَّبِيُّ صلى الله عليه وسلم كَلِمَةً وَقُلْتُ أُخْرَى، قَالَ النَّبِيُّ صلى الله عليه وسلم: «مَنْ مَاتَ وَهُوَ يَدْعُو مِنْ دُونِ اللهِ نِدًّا دَخَلَ النَّارَ» وَقُلْتُ أَنَا: مَنْ مَاتَ وَهُوَ لَا يَدْعُو لِلَّهِ نِدًّا دَخَلَ الْجَنَّةَ. [صحيح] - [متفق عليه]

(9) – Abdullah bin Məsudun (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bir söz dedi, mən başqa bir söz dedim. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "Kim Allahdan başqasına dua edərsə və bunun üzərində ölərsə cəhənnəmə girər". Mən dedim: “Allahdan başqasına dua etmədən ölən, cənnətə daxil olar." [Səhih] - [Müttəfuqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə xəbər verir ki, Uca Allahdan başqasına dua etmək, Ondan qeyrisindən yardım diləmək, Allaha xas olan hər bir növ ibadəti başqasına yönəldərsə və bu üzrə ölərsə, cəhənnəm əhlindən olar. İbn Məsud (Allah ondan razı olsun) əlavə etdi ki, kim Allaha şərik qoşmadan ölərsə, son gedəcəyi yer cənnət olar.

**Hədisin faydalarından:**

1. Dua ibadətdir, yalnız Uca Allaha edilər.

2. Tövhidin fəzilətindəndir ki, tövhid üzərində ölən kəs bəzi günahlarına görə cəzalansa da, sonda cənnətə daxil olar.
3. Şirkin təhlükəsi odur ki, onun üzərində ölən kəs cəhənnəmə daxil olar.

(3419)

(10) – عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ لِمُعَاذِ بْنِ جَبَلٍ، حِينَ بَعَثَهُ إِلَى الْيَمَنِ: «إِنَّكَ سَتَأْتِي قَوْمًا أَهْلَ كِتَابٍ، فَإِذَا جِئْتَهُمْ فَادْعُهُمْ إِلَى أَنْ يَشْهَدُوا أَنْ لَا إِلَهَ إِلَّا اللهُ، وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللهِ، فَإِنْ هُمْ أَطَاعُوا لَكَ بِذَلِكَ، فَأَخْبِرْهُمْ أَنَّ اللهَ قَدْ فَرَضَ عَلَيْهِمْ خَمْسَ صَلَوَاتٍ فِي كُلِّ يَوْمٍ وَلَيْلَةٍ، فَإِنْ هُمْ أَطَاعُوا لَكَ بِذَلِكَ، فَأَخْبِرْهُمْ أَنَّ اللهَ قَدْ فَرَضَ عَلَيْهِمْ صَدَقَةً تُؤْخَذُ مِنْ أَغْنِيَائِهِمْ فَتُرَدُّ عَلَى فُقَرَائِهِمْ، فَإِنْ هُمْ أَطَاعُوا لَكَ بِذَلِكَ، فَإِيَّاكَ وَكَرَائِمَ أَمْوَالِهِمْ، وَاتَّقِ دَعْوَةَ الْمَظْلُومِ، فَإِنَّهُ لَيْسَ بَيْنَهُ وَبَيْنَ اللهِ حِجَابٌ». [صحيح] - [متفق عليه]

(10) – İbn Abbasdan - Allah ondan və atasından razı olsun - rəvayət edilən bir hədisdə o belə demişdir: Rəsulullah -salləllahu aleyhi va səlləm - Muaz bin Cəbəli Yəmənə göndərdiyi zaman ona belə buyurdu: "Sən Kitap əhli olan bir qövmə gedəcəksən. Onların yanına getdikdə, onları Allahdan başqa haqq bir ilah olmadığına, Muhammədin də Onun Rəsulu olduğuna şəhadət etməyə dəvət et. Əgər onlar bu işdə sənə tabe olsalar, Allahın onlara gün ərzində beş vaxt namaz qılmağı əmr etdiyini bildir. Əgər onlar bu işdə sənə tabe olsalar, onlara zənginlərdən alınıb fəqirlərə veriləcək olan zəkatı da fərz

etdiyini bildir. Əgər onlar bu işdə də sənə tabe olsalar, bu zaman mallarının ən yaxşısını almaqdan çəkin! Məzlumun duasından qorx! Çünki məzlumun duası ilə Allah arasında heç bir pərdə yoxdur". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu - salləllahu aleyhi va səlləm - Muaz bin Cəbəli - Allah ondan razı olsun - Yəmənə Allahın dininə dəvət edən və müəllim olaraq göndərdiyi zaman xristian bir qövmlə qarşılaşacağını və onlara qarşı hazırlıqlı olmasını söyləmişdir. Sonra da onları ən önəmli olan xüsusdan başlayaraq dəvət etməsini nəsihət etmişdir. Allahdan başqa haqq bir ilah olmadığına, Muhamməddin - salləllahu aleyhi va səlləm - də Onun Rəsulu olduğuna şahidlik edərək öncəliklə onların əqidələrini islah etməyə dəvət etmişdir. Çünki onlar, İslama şəhadət kəlməsini tələffüz edərək daxil olarlar. Əgər bunu qəbul edərlərsə, namaz qılmalarını onlara əmr et, çünki namaz tövhiddən sonra ən əzəmətli fərzdir. Əgər onlar namaz qılmağı qəbul edərlərsə, zənginlərinə mallarının zəkatını yoxsullara vermələrini əmr etmişdir. Sonra Allah Rəsulu - salləllahu aleyhi va səlləm - Muaz bin Cəbəli - Allah ondan razı olsun - zəkat olaraq onların mallarının ən yaxşısını götürməsindən çəkindirmişdir. Çünki fərz olan orta keyfiyyətdə olan mallardan zəkatın verilməsidir. Sonra Rəsulullah - salləllahu aleyhi va səlləm - Muaz bin Cəbələ - Allah ondan razı olsun - məzlumun ona bəd dua etməməsi üçün

zülmdən çəkinməyi nəsihət etmişdir. Çünki məzlumun duası geri çevrilməz.

## Hədisin faydalarından:

1. Lə iləhə illəllah şəhadətinin mənası Allahı ibadətdə təkləşdirmək və Ondan başqasına ibadət etməyi tərk etməkdir.
2. Muhamməddin - salləllahu aleyhi va səlləm - Allahın Rəsulu olduğuna şəhadət etmənin mənası isə ona və onun gətirdiklərinə iman edib təsdiqləmək və onun bəşəriyyətə göndərilən Allahın son Rəsulu olduğunu təsdiq etməkdir.
3. Məlumatlı və şübhə içində olan kimsələrə xitab etmək cahil kəslərə xitab etmək kimi eyni deyildir. Buna görə də Allah Rəsulu - salləllahu aleyhi va səlləm - Muaz bin Cəbələ: "Sən Kitab əhli olan bir qövmə gedirsən" - deyərək onu xəbərdar etmişdir.
4. Müsəlmanın şübhə sahiblərinin şübhələrindən xilas olması üçün dinində bəsirət sahibi olması önəmlidir. Bu da ancaq elm tələb etməklə mümkündür.
5. Allah Rəsulunun - salləllahu aleyhi va səlləm - peyğəmbər olaraq göndərilməsindən sonra yəhudi və xristian dininin batil hesab olunmuşdur. Kitab əhli İslamı qəbul etmədikləri və Peyğəmbərə -sallələllahu aleyhi va səlləm - iman gətirmədikləri müddətcə, qiyamət günü qurtuluş əhlindən olmayacaqlar.

(3390)

(11) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه أَنَّهُ قَالَ: قِيلَ: يَا رَسُولَ اللهِ، مَنْ أَسْعَدُ النَّاسِ بِشَفَاعَتِكَ يَوْمَ الْقِيَامَةِ؟ قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «لَقَدْ ظَنَنْتُ يَا أَبَا هُرَيْرَةَ أَنْ لَا يَسْأَلَنِي عَنْ هَذَا الْحَدِيثِ أَحَدٌ أَوَّلُ مِنْكَ؛ لِمَا رَأَيْتُ مِنْ حِرْصِكَ عَلَى الْحَدِيثِ، أَسْعَدُ النَّاسِ بِشَفَاعَتِي يَوْمَ الْقِيَامَةِ، مَنْ قَالَ لَا إِلَهَ إِلَّا اللهُ خَالِصًا مِنْ قَلْبِهِ أَوْ نَفْسِهِ»».

[صحيح] - [رواه البخاري]

(11) – Əbu Hureyradan - Allah ondan razı olsun - rəvayət edilən bir hədisdə o, belə demişdir: Allah Rəsulundan - salləllahu aleyhi va səlləm: "Ey Allahın Rəsulu! Qiyamət günü sənin şəfaətinə nail olan ən xoşbəxt insan kimdir?" deyərək soruşuldu. Allah Rəsulu - salləllahu aleyhi va səlləm: "Ey Əbu Hureyra, hədis öyrənməyə həris olduğunu gördüyüm üçün bu hədis barədə səndən əvvəl kimsənin məndən soruşmayacağını zənn etmişdim. Qiyamət günü şəfaətimə nail olan ən xoşbəxt insan qəlbindən və ya içindən ixlasla "Lə iləhə illallah" deyən kimsədir" - deyə buyurdu. [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va səlləm - bu hədisdə qiyamət günü şəfaətinə nail olan ən xoşbəxt insanın qəlbindən ixlasla: "Lə iləhə illallah" yəni, Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur deyən, şirkdən və riyadan uzaq olan kimsə olacağını xəbər vermişdir.

**Hədisin faydalarından:**

1. Peyğəmbərə - salləllahu aleyhi va səlləm - axirətdə şəfaət etmək hüququ veriləcəkdir. Bu şəfaət də ancaq tövhid əhli üçündür.
2. Peyğəmbərin - salləllahu aleyhi va səlləm - şəfaəti tövhid əhlindən Cəhənnəmə layiq olanların girməməsi və Cəhənnəmə girənlərin də oradan çıxması üçün vasitəçi olmasıdır.
3. Allah üçün ixlaslı bir şəkildə tövhid kəlməsini söyləməyin fəziləti və böyük təsiri vardır.
4. Tövhid kəlməsinin tətbiq edilməsi, bu kəlmənin mənasını bilərək və tələblərinə əməl edərək olur.
5. Əbu Hureyranın - Allah ondan razı olsun - fəziləti və elmə olan hərisliyi.

(3414)

(12) – عن أبي هريرة رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم:
«الْإِيمَانُ بِضْعٌ وَسَبْعُونَ -أَوْ بِضْعٌ وَسِتُّونَ- شُعْبَةً، فَأَفْضَلُهَا قَوْلُ لَا إِلَهَ إِلَّا اللهُ، وَأَدْنَاهَا إِمَاطَةُ الْأَذَى عَنِ الطَّرِيقِ، وَالْحَيَاءُ شُعْبَةٌ مِنَ الْإِيمَانِ». [صحيح] - [متفق عليه]

(12) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "İman, yetmiş və bir neçə, və ya altmış və bir neçə şaxədən ibarətdir. Ən üstünü ləə iləhə illallah söyləmək, ən zəifi isə yolda olan maneəni aradan qaldırmaqdır, həya da imanın şaxələrindəndir". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, iman şöbələrə bölünmüş və özündə çox xüsusiyyətləri ehtiva etmişdir: əməllər, etiqadlar və sözlər buna daxildir.

Həmçinin bildirir ki, imanın ən üstün və uca mərtəbəsi, lə iləhə illəllah kəlməsini söyləmək və bununla yanaşı mənasını bilərək və bu kəlmənin tələblərinə uyğun əməl edərək, həqiqtən Allahın tək ilah olduğunu, Ondan başqa ibadətə layiq heç bir məbudun olmadığını etiraf etməkdir.

İman baxımından əməllərin ən zəifi insanların yolundan, onlara əziyyət verən maneəni götürməkdir.

Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, həya imandandır, həya gözəl əməllər edib, çirkin işlərdən çəkinməyə təşviq edən əxlaqdır.

## Hədisin faydalarından:

1. İman dərəcələrdən ibarətdir, bəziləri digərlərindən üstündür.
2. İman söz, əməl və etiqaddır.
3. Uca Allahdan edilən həya, Allahın səni qadağalarda görməmək, əmr etdiklərində isə sənin kənarda qalmamağını tələb edir.
4. Ədədin qeyd edilməsi imanın bu həddə məhdud olması mənasını daşımır, əksinə iman mövzusunda əməllərin çoxluğuna dəlalət edir, çünki adətən ərəblər müəyyən bir şey üçün rəqəm qeyd edib

söyləsələr də, o saydan əlavəsinin inkarını qəsd etmirlər.

(6468)

(13) – عَنْ عَبْدِ اللهِ بنِ مَسْعُودٍ رضي الله عنه قال: سَأَلْتُ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: أَيُّ الذَّنْبِ أَعْظَمُ عِنْدَ اللهِ؟ قَالَ: «أَنْ تَجْعَلَ لِلَّهِ نِدًّا وَهُوَ خَلَقَكَ» قُلْتُ: إِنَّ ذَلِكَ لَعَظِيمٌ، قُلْتُ: ثُمَّ أَيُّ؟ قَالَ: «وَأَنْ تَقْتُلَ وَلَدَكَ؛ تَخَافُ أَنْ يَطْعَمَ مَعَكَ» قُلْتُ: ثُمَّ أَيُّ؟ قَالَ: «أَنْ تُزَانِيَ حَلِيلَةَ جَارِكَ». [صحيح] - [متفق عليه]

(13) – Abdullah bin Məsudun (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) Allah qatında ən böyük günah hansıdır?”- deyə soruşduğumda: “Səni yaratmış olduğu halda Allaha şərik qoşmağındır” - deyə cavab verdi. Mən dedim: “Həqiqətən də bu böyük məsələdir. Sonra hansı?” - deyə soruşdum. O Dedi: “Övladının sənin yeməyinə şərik olub səninlə yeməsi qorxusuna (ruzi qorxusuna) görə onu öldürmək". Dedim: "Sonra hansı?". Dedi: "Qonşunun həyat yoldaşıyla cinsi yaxınlıq etmək". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ən böyük günah haqqında soruşuldu, o isə dedi: Ən böyük günah şirkdir və bu, Allahı uluhiyyətində və ya rübubiyyətində və ya isim və sifətlərində Ona nəyisə, kimisə tay-bərabər etməkdir. Bu günah Uca Allah

tərəfindən ancaq tövbə ilə bağışlanar və əgər bunu edən həmin (şirk) üzrə ölərsə, əbədi olaraq cəhənnəmdə qalar. Sonra insanın övladını ruzi qıtlığı qorxusuyla öldürməsi.

İnsanı öldürmək haramdır, qan bağı olan bir qohumu öldürmək daha böyük günahdır və Allahın insana verdiyi ruzidə öldürdüyü kimsənin şərik olmasından, bu səbəbə görə ruzisinin daralmasından qorxaraq öldürmək daha böyük günahdır. Sonra qonşusunun həyat yoldaşıyla zina etmək. Qonşusunun həyat yoldaşını özünə cəlb edər və onunla cinsi əlaqəyə girmək üçün onu aldatmağa çalışar. Zina haramdır, lakin bu yaramaz hərəkət, haqqında şəriətin xeyirxahlıq və gözəl münasibət əmr etdiyi qonşunun həyat yoldaşıyla etdikdə isə günah daha da böyük olur.

## Hədisin faydalarından:

1. Saleh əməllər üstünlüyünə görə fərqləndiyi kimi, günahlar da böyüklüyünə görə fərqlənir.
2. Ən böyük günah: Uca Allaha şərik qoşmaq, sonra yeməyinə şərik olacağından qorxaraq övladı öldürmək, sonra qonşunun həyat yoldaşıyla zina etməkdir.
3. Ruzi pak olan Allahın əlindədir, O yaradılmışların ruzilərinə zamindir.
4. Qonşunun haqqı böyükdür, qonşuya əziyyət vermək qeyrilərinə əziyyət verməkdən daha böyük günahdır.
5. İbadətə yalnız Yaradan layiqdir və Onun şəriki yoxdur.

(5359)

(14) – عن أبي هريرة رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «قَالَ اللهُ تَبَارَكَ وَتَعَالَى: أَنَا أَغْنَى الشُّرَكَاءِ عَنِ الشِّرْكِ، مَنْ عَمِلَ عَمَلًا أَشْرَكَ فِيهِ مَعِي غَيْرِي تَرَكْتُهُ وَشِرْكَهُ». [صحيح] - [رواه مسلم]

(14) – Əbu Hureyradan - Allah ondan razı olsun - rəvayət edilir ki, Peyğəmbər - salləllahu aleyhi va səlləm - belə demişdir: "Allah - Təbarakə va Təalə - buyurmuşdur: “Mən, şərik olmağa möhtac deyiləm. Kim bir əməl edərsə və etdiyi əməldə bir başqasını Mənə şərik qoşarsa, Mən onu və şərik qoşduğunu tərk edərəm". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va səlləm - bu hədisdə Uca Allahın şəriklərə ehtiyacı olmadığını, həmçinin əgər insan bir yaxşı əməl edərsə və etdiyi əməli həm Allah, həm də Allahdan qeyrisi üçün edərsə, həmin əməlin ondan qəbul olmayacağını xəbər vermişdir. Beləliklə əməli ixlasla Uca Allah üçün etmək lazımdır. Çünki, Uca Allah yalnız Onun üçün edilən əməli qəbul edir.

**Hədisin faydalarından:**

1. Şirkin bütün növlərindən çəkindirmək lazımdır, çünki şirk əməlin qəbul olmasına maneədir.
2. Uca Allahın əzəmətini və Onun heç bir şeyə ehtiyacı olmadığını bilib düşünmək insana əməl edərkən ixlaslı olmağa yardım edir.

(3342)

(15) – عن أبي هريرة رضي الله عنه أن رسول الله صلى الله عليه وسلم قال: «كُلُّ أُمَّتِي يَدْخُلُونَ الْجَنَّةَ إِلَّا مَنْ أَبَى»، قَالُوا: يَا رَسُولَ اللهِ، وَمَنْ يَأْبَى؟ قَالَ: «مَنْ أَطَاعَنِي دَخَلَ الْجَنَّةَ، وَمَنْ عَصَانِي فَقَدْ أَبَى». [صحيح] - [رواه البخاري]

(15) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Ümmətimdən hər kəs cənnətə daxil olacaq, ondan üz çevirənlərdən başqa". Soruşdular: “Ey Allahın Rəsulu, kim ondan üz çevirər?”. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi:" Kim mənə itaət edərsə, cənnətə daxil olar, kim mənə asilik edərsə, (cənnətdən) üz çevirmiş olar". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, ümmətindən cənnəti istəməyəndən başqa hər kəs ora daxil olacaq.

Sahabələr (Allah onlardan razı olsun) dedilər: "Ey Allahın Rəsulu kim cənnəti istəməz ki?!".

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) cavab verdi ki, mənə boyun əyib, tabe olan və itaət edən kəs cənnətə daxil olar, lakin mənə qarşı çıxıb, şəriətin əmr və qadağalarına əməl etməyən, pis əməlləriylə cənnətdən imtina etmiş olur.

## Hədisin faydalarından:

1. Allah Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun) itaət, Uca Allaha itaətdəndir, ona qarşı üsyan Allaha üsyandandır.
2. Allah Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun) itaət etmək cənnəti vacib edir, ona üsyan cəhənnəmə daxil olmağı vacib edir.
3. Bu ümmətdən itaət edənlərin müjdələnməsi, belə ki, Allaha və Rəsuluna üsyan edənlərdən başqa, onların hamısı cənnətə daxil olacaqlar.
4. Allah rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) ümmətinə olan şəfqəti və onların hidayətinə olan hərisliyi.

(4947)

(16) – عَن عُمَرَ بنِ الخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ قال: سَمِعْتُ النَّبِيَّ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «لَا تُطْرُونِي كَمَا أَطْرَتِ النَّصَارَى ابْنَ مَرْيَمَ؛ فَإِنَّمَا أَنَا عَبْدُهُ، فَقُولُوا: عَبْدُ اللهِ وَرَسُولُهُ». [صحيح] - [رواه البخاري]

(16) – Ömər bin Xəttab - Allah ondan razı olsun - rəvayət edərək deyir ki, mən Peyğəmbərin - salləllahu aleyhi va səlləm - belə dediyini eşitdim: "Xristianlar Məryəm oğlu İsanı ucaltdıqları (həddindən artıq tərifləməklə) kimi siz də məni ucaltmayın. Mən Allahın quluyam. (Mənə) Allahın qulu və Onun rəsulu deyin". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər - salləllahu aleyhi va səlləm - xristianların Məryəm oğlu İsanı – aleyhi-ssələm - şəriətin qoyduğu çərçivəni aşaraq ifrat dərəcədə təriflədiyi, onu Allahın vəsfləri və Ona aid felləri ilə vəsf etdiyi və onun qeybi bildiyini yaxud da Allah ilə birlikdə dua edilib yalvarılacağı kimi onun da bu cür ucaldılmasını qadağan etmişdir. Sonra özünün Allahın bir qulu olduğunu bildirərək özü barədə: Allahın qulu və Onun rəsulu deməyimizi əmr etmişdir.

## Hədisin faydalarından:

1. Təzim və tərifləməkdə şəri hüdudların aşılması qadağan edilmişdir. Çünki bu, şirkə aparan bir yoldur.
2. Peyğəmbərin - salləllahu aleyhi va səlləm - çəkindirdiyi şey artıq bu ümmətdə baş vermişdir. Belə ki, bir qrup insan Allah Rəsuluna, salləllahu aleyhi ve səlləm, bir qrup insan əhli beytə, başqa bir qrup insan isə saleh kimsələrə olan sevgidə həddi aşaraq şirkə düşmüşlər.
3. Allah Rəsulu - salləllahu aleyhi va səlləm - özünün Allahın qulu olduğunu və Allaha xas olan hər hansı bir xüsusiyyəti ona aid edilməsinin caiz olmadığını bəyan etmişdir.
4. Peyğəmbər - salləllahu aleyhi va səlləm - özünü Allahın rəsulu kimi vəsf etmiş və onun Allah tərəfindən göndərilən bir elçi olduğunu göstərmək üçün ona inanmaq və tabe olmaq lazımdır.

(3406)

(17) – عن أنس رضي الله عنه قال: قال النبي صلى الله عليه وسلم: «لَا يُؤْمِنُ أَحَدُكُمْ حَتَّى أَكُونَ أَحَبَّ إِلَيْهِ مِنْ وَالِدِهِ وَوَلَدِهِ وَالنَّاسِ أَجْمَعِينَ». [صحيح] - [متفق عليه]

(17) – Ənəsdən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Sizlərdən biriniz, mən ona valideynindən, övladından və bütün insanlardan sevimli olmayınca iman gətirmiş olmaz”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə xəbər verir ki, müsəlman, Allah Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun) olan sevgisini anasına, atasına, oğluna, qızına, bütün insanlara olan sevgisindən üstün tutmadıqca kamil imana nail olmaz. Bu məhəbbət, ona itaəti, dəstək olmağı və ona asi olmamağı tələb edir.

## Hədisin faydalarından:

1. Allah Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun) məhəbbətin vacibliyi və bütün yaradılmışlara olan sevgidən üstün olması.
2. Mükəmməl məhəbbətin əlamətindən: Allah Rəsulunun sünnəsini dəstəkləmək və bu yolda canı və malı ilə çalışmaq.
3. Peyğəmbəri (Allahın salavatı və salamı onun üzərinə olsun) sevmək, onun əmrlərinə itaət etməyi, xəbər verdiklərini təsdiq etməyi, qadağan etdiklərindən

uzaq durmağı gərəkdirir, ona tabe olmağı və bidətləri tərk etməyi zəruri edir.

4. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) üzərimizdə olan haqqı bütün insanlardan daha əzəmətli və daha önəmlidir, çünki o, bizim zəlalətdən çıxıb hidayətə qovuşmağımıza, cəhənnəmdən xilasımıza və cənnəti qazanmağımıza səbəbdir.

(5953)

(18) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه عَنِ النَّبِيِّ صلى الله عليه وسلم قَالَ: «دَعُونِي مَا تَرَكْتُكُمْ، إِنَّمَا هَلَكَ مَنْ كَانَ قَبْلَكُمْ بِسُؤَالِهِمْ وَاخْتِلَافِهِمْ عَلَى أَنْبِيَائِهِمْ، فَإِذَا نَهَيْتُكُمْ عَنْ شَيْءٍ فَاجْتَنِبُوهُ، وَإِذَا أَمَرْتُكُمْ بِأَمْرٍ فَأْتُوا مِنْهُ مَا اسْتَطَعْتُمْ». [صحيح] - [متفق عليه]

(18) – Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "Sizlərə tərk etdiyim (haqqında əmr və qadağa gəlməyən) şeylərdə məni rahat buraxın (artıq suallar verməyin). Sizdən öncəkilər verdikləri sual və peyğəmbərlərinə müxalif olmaları səbəbi ilə həlak oldular, buna görə də sizə bir şeyi qadağan etdikdə ondan uzaq durun, bir şeyi əmr etdikdə onu bacardığınız qədər yerinə yetirin”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu ki, şəriət hökmləri üç qismə bölünür: Haqqında susulmuş hökmlər, qadağalar və əmrlər.

Birinciyə gəlincə: o şəriətin haqqında susduğu şeydir: belə ki, onun haqqında hökm yoxdur və əşyalarda əsl olan onların vacib olmamasıdır; Onun (Allahın salavatı və salamı onun üzərinə olsun) zamnında baş verməyən bir şey haqqında, həmin şeyin vacib və ya haram edilməsi hökmü nazil olmaması üçün soruşmaqdan çəkinmək gərəkirdi, çünki Allah bu şeyləri bəndələrinə olan rəhmətindən dolayı tərk etmişdir. Lakin, onun (Allahın salavatı və salamı onun üzərinə olsun) vəfatından sonra əgər sual din məsələsində ehtiyac duyulan şeylər üçün fətva almaq və ya öyrənmək üçündürsə, bu icazəlidir və hətta əmr edilmişdir. Lakin, inad və çətinləşdirmə formasında olarsa, bu hədisdə qadağan edilən sualdan qəsd elə budur. Çünki, bu İsrail övladlarının başına gələnin bənzərinə gətirib çıxara bilər. Belə ki, onlara bir inək kəsmək əmr edildi və əgər onlar hər hansı bir inək kəssəydilər, buna əməl etmiş olardılar, lakin onlar bu məsələni (əlavə suallar verməklə) çətinləşdirdilər və onlar üçün (hökmlər) çətinləşdirildi.

İkinci: Qadağalar; onlar o əməllərdir ki: onları tərk edən mükafatlandırılar və onları işləyən isə cəzalandırılar, buna görə də onların hamısından çəkinmək vacibdir.

Üçüncü: Əmrlər; onlar o əməllərdir ki: onu edən mükafatlandırılar, onu tərk edən isə cəzalandırılar, ona görə də bacarıldığı qədər bu əməllər edilməlidir.

## Hədisin faydalarından:

1. Ehtiyac duyulan ən vacib olanla məşğul olmaq, hazırda ehtiyac olmayan şeyləri tərk etmək və baş

verməyən şeylər haqqında sual verməklə məşğul olmamaq lazımdır.

2. Məsələləri çətinləşdirə biləcək sual verməyin və çoxlu ixtilafa səbəb olacaq şübhələr qapısını açmağın haramlılığı.
3. Bütün qadağaları tərk etmək əmr edilmişdir; çünki onu tərk etməyin heç bir çətinliyi yoxdur və buna görə də onun qadağan edilməsi ümumidir.
4. Əmr olunanı bacarılan miqdarda yerinə yetirməyin tələb edilməsi; çünki onu yerinə yetirmək çətin və ya mümkünsüz ola bilər. Buna görə də o bacarılan miqdarda əmr edilib.
5. Çox sual verməyin qadağan edilməsi.
6. Alimlər sualı iki qismə bölmüşdür: Onlardan biri: Din məsələsində ehtiyac duyulan şeyləri öyrənmək üçün olandır ki, bunun özü əmr edilmişdir. Səhabələrin sualları da bu növdəndir.
7. İkincisi: İnadkarlıq və çətinləşdirmə şəklində olan suallar və bu növ qadağan olunandır.
8. Bu ümmət, öncəki ümmətlərin etdiyi kimi edib peyğəmbərinə müxalif olmaqdan qadağan edilmişdir.
9. Ehtiyac olmayan şeylərdə, xüsusən də yalnız Allahın bildiyi qeybi məsələlər və Qiyamət gününün halları kimi əl çatmayan işlərdə çoxlu sual vermək və peyğəmbərlərə müxalif olmaq həlak olmağın səbəbidir.
10. Çətin məsələlərdə sual verməyin qadağan edilməsi, əl-Əvzəi demişdir: "Allah qulunu elmin bərəkətindən

məhrum etmək istəyərsə, onun dilinə mübahisə etməyi salar, mən onların insanların ən az elmlisi olduğunu gördüm". İbn Vəhb demişdir: Malikin belə dediyini eşitdim: "Elmdə mübahisə etmək, insanın qəlbindən elm nurunu aparar".

(4295)

(19) – عن عبد الله بن عمرو رضي الله عنهما أن النبي صلى الله عليه وسلم قال:

«بَلِّغُوا عَنِّي وَلَوْ آيَةً، وَحَدِّثُوا عَنْ بَنِي إِسْرَائِيلَ وَلَا حَرَجَ، وَمَنْ كَذَبَ عَلَيَّ مُتَعَمِّدًا فَلْيَتَبَوَّأْ مَقْعَدَهُ مِنَ النَّارِ». [صحيح] - [رواه البخاري]

(19) – Abdullah ibn Amr ibn As - Allah ondan və atasından razı olsun - rəvayət edir ki, Peyğəmbər - salləllahu aleyhi va səlləm - belə demişdir: "Məndən bir ayə olsa belə insanlara çatdırın. İsrail oğullarından da danışın, bunda bir qəbahət yoxdur. Kim mənim adımdan qəsdən yalan danışarsa, Cəhənnəmdə yerini hazırlasın". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va səlləm - bizə Kitab və sünnədən olan elmin insanlara çatdırılmasını əmr etmişdir. Hətta çatdırılan elm Qurandan bir ayə və ya bir hədis olsa belə. Lakin bu çatdırdığı və dəvət etdiyi şey barədə elmli olması şərtdir. Sonra Peyğəmbər - salləllahu aleyhi va səlləm - dinimizə müxalif olmayan İsrail oğullarının başına gələn ibrətamiz qissələrin də danışılmasında bir qəbahət olmadığını açıqlamışdır.

Peyğəmbər - salləllahu aleyhi va səlləm - onun adından yalan danışmağı qadağan etmiş və onun adından qəsdən yalan danışan kimsənin Cəhənnəmdə özünə yer hazırladığını bəyan etmişdir.

**Hədisin faydalarından:**

1. Hədisdə Allahın dinini təbliğ etmək və bir insanın az olsa belə əzbərlədiyi və ya anladığı bir şeyi insanlara çatdırılması təşviq edilmişdir.
2. Uca Allaha ibadət etmək və həmçinin Onun şəriətini doğru bir şəkildə təbliğ etmək üçün şəri elmin öyrənilməsi vacibdir.
3. Şiddətli əzaba məruz qalmamaq üçün hər hansı bir hədisi yayıb təbliğ etmədən öncə həmin hədisin səhihliyini dəqiqləşdirmək vacibdir.
4. Hədisdə, xüsusən də Uca Allahın şəriətində yalana düşməmək üçün danışan zaman doğru sözlü və təmkinli olmağa təşviq vardır.

(3686)

(20) – عن المقدام بن معدِيْكَرِب رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «أَلَا هَلْ عَسَى رَجُلٌ يَبْلُغُهُ الْحَدِيثُ عَنِّي وَهُوَ مُتَّكِئٌ عَلَى أَرِيكَتِهِ فَيَقُولُ: بَيْنَنَا وَبَيْنَكُمْ كِتَابُ اللهِ، فَمَا وَجَدْنَا فِيهِ حَلَالًا اسْتَحْلَلْنَاهُ، وَمَا وَجَدْنَا فِيهِ حَرَامًا حَرَّمْنَاهُ، وَإِنَّ مَا حَرَّمَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ كَمَا حَرَّمَ اللهُ». [صحيح] -

[رواه أبو داود والترمذي وابن ماجه]

(20) – Miqdəd bin Madikərib (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət etmişdir: “Bilin ki, bir kişinin ona məndən çatan hədis barədə öz oturacağının qoltuğuna rahat söykənərək belə söyləyəcəyi zaman yaxındadır: “Bizimlə sizin aranızda Allahın kitabı var, orada nəyi halal gördüksə, onu halal bilərik, haram gördüyümüzü isə haram bilərik”. Bilin ki, Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) haram etdikləri Allahın haram etdikləri kimidir”. [Səhih] - [Əbu Davud, Ət-Tirmizi və İbnu Məcə rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, bir qrup insanın toplaşdığı məclisdə, onlardan birinin öz oturacağının qoltuğuna söykəndiyi halda Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) ona bir hədis deyildikdə, o hədis barədə: "Bizimlə sizin aranızdakı məsələlərdə hökm verən Qurani Kərimdir və o bizə kifayətdir, orada nə halal tapsaq ona əməl edərik və nə haram görsək ondan uzaqlaşarıq" deməsi zamanı artıq yaxınlaşmışdır. Sonra Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, onun sünnəsində haram etdiyi və ya qadağan etdiyi hər şey Allahın haram etdiyinin hökmü kimidir, çünki o, öz Rəbbinin hökmlərini çatdırır.

**Hədisin faydalarından:**

1. Sünnənin Quran kimi təzim edilməsi və ondan şəriət əhkamlarının götürülməsi.
2. Allah Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun) itaət Allaha itaətdir, ona asi olmaq isə Uca Allaha asi olmaqdır.
3. Sünnənin hüccət olmasının sübutu və sünnəni qəbul etməyib inkar edənlərə cavab.
4. Kim sünnədən üz çevirib, yalnız Quranla kifayətlənməyi iddia edərsə, o, onların hər ikisindən üz çevirmiş olur və Qurana tabeçiliyindəki iddiasında yalançıdır.
5. Peyğəmbərimizin (Allahın salavatı və salamı onun üzərinə olsun) gələcəkdə baş verəcək şeylər haqqında xəbər verməsi peyğəmbərliyin sübutudur və xəbər verdiyi kimi baş tutur.

(65005)

(21) – عن عائشة أم المؤمنين وعبد الله بن عباس رضي الله عنهما قالا: لَمَّا نَزَلَ بِرَسُولِ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ طَفِقَ يَطْرَحُ خَمِيصَةً لَهُ عَلَى وَجْهِهِ، فَإِذَا اغْتَمَّ بِهَا كَشَفَهَا عَنْ وَجْهِهِ، فَقَالَ وَهُوَ كَذَلِكَ: «لَعْنَةُ اللَّهِ عَلَى اليَهُودِ وَالنَّصَارَى، اتَّخَذُوا قُبُورَ أَنْبِيَائِهِمْ مَسَاجِدَ» يُحَذِّرُ مَا صَنَعُوا. [صحيح] - [متفق عليه]

(21) – Aişə və İbn Abbasdan (Allah onlardan razı olsun) rəvayət edildiyinə görə onlar belə demişlər: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ölümündən qabaq örtüyünü üzünə atmağa başladı. (Ürəyi) sıxıldıqda

isə onu üzündən götürürdü. O bu halda ikən belə dedi: "Allah yəhudilərə və xristianlara lənət eləsin! Onlar peyğəmbərlərinin qəbirlərini məscidlərə çevirdilər". (Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, bu sözləri ilə ümmətini) - onların etdikləindən çəkindirirdi.

[Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Aişə və İbn Abbas (Allah onlardan razı olsun) bizlərə Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) vəfatına yaxın son anlarında üzünü bir bez parçası ilə örtdüyünü, ölümün çətin anlarının yaxınlaşması səbəbi ilə nəfəsi daraldıqda üzünü açdığını və Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) bu çətin halda ikən belə dediyini xəbər vermişdilər: "Allah yəhudilərə və xristianlara lənət etsin və onları Öz rəhmətindən uzaqlaşdırsın. Çünki onlar, peyğəmbərlərinin qəbirləri üzərində məscidlər tikdilər. Əgər onların etdikləri bu iş, bu qədər təhlükəli olmasaydı Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə bir (çətin) anda bunu söyləməzdi. Buna görə Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ümmətini bu işi etməklə onlara bənzəməyi qadağan etmişdir. Çünki bu yəhudi və xristianların əməlidir və həmçinin Uca Allaha şərik qoşmağa aparan bir vəsilədir.

**Hədisin faydalarından:**

1. Peyğəmbərlərin və salehlərin qəbirlərinin orada Allah üçün namaz qılınan məscidlər edilməsi qadağan edilmişdir. Çünki bu şirkə aparan bir səbəbdir.
2. Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) şiddətli bir şəkildə tövhidə önəm verməsi və qəbirlərin təzim edilməsindən qorxması, bu əməlin şirkə aparan bir yol olmasından dolayıdır.
3. Yəhudi və xristianlara, həmçinin qəbirlərin üzərində bina tikib oranı məscidlər edərək onların etdiklərinin eynisini edənlərə lənət etməyin icazəli olması.
4. Qəbirlərin üzərində bina tikmək yəhudi və xristianların adətidir. Hədisdə onlara bənzəmək qadağan edilmişdir.
5. Hədisdə həmçinin, üzərində məscid tikilməsə belə qəbirlərin səcdəgah edilərək orada namaz qılınması və namaz qılarkən qəbirlərə tərəf yönəlməsi qadağan edilmişdir.

(3330)

(22) – عن أبي هريرة رضي الله عنه عن النبي صلى الله عليه وسلم: «اللَّهُمَّ لَا تَجْعَلْ قَبْرِي وَثَنًا، لَعَنَ اللهُ قَوْمًا اتَّخَذُوا قُبُورَ أَنْبِيَائِهِمْ مَسَاجِدَ». [صحيح] - [رواه أحمد]

(22) – Əbu Hureyradan - Allah ondan razı olsun - rəvayət edilir ki, Peyğəmbər - salləllahu aleyhi va səlləm - belə demişdir: "Allahım! Qəbrimi ibadət edilən bir büt (ibadət və sitayiş yeri) etmə! Peyğəmbərlərinin qəbirlərini məscidlər (ibadətgah) edən qövmə Allah lənət emişdir". [Səhih] - [Əhməd rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər - salləllahu aleyhi va səlləm - Rəbbinə qəbrinin insanların təzim edərək ibadət edilən bütə çevirilməməsi və ona yönələrək səcdə edilməməsi üçün dua etdi. Sonra Peyğəmbər - salləllahu aleyhi va səlləm - peyğəmbərlərinin qəbirlərini məscidlərə çevirənlərin Allahın rəhmətindən qovulduqlarını xəbər verdi. Çünki qəbirləri məscidlərə çevirmək onlara ibadət etməyə və onların xeyir və ya zərər verə biləcəyinə etiqad etməyə səbəbdir.

## Hədisin faydalarından:

1. Peyğəmbərlərin və salehlərin qəbirlərində şəriətin qoyduğu həddi aşmaq, o qəbirləri Allahdan başqa ibadət olunan yerlərə çevirir. Şirkə vəsilə olan hər bir şeydən çəkinmək vacibdir.
2. Qəbir sahibinin Allaha nə qədər yaxın olub olmamasından asılı olmayaraq, qəbirlərinin təzim edilmək və yanında ibadət etmək üçün ziyarət edilməsi icazəli deyildir.
3. Qəbirlər üzərində məscidlərin bina (təsis) edilməsinin haram olması.
4. Qəbirlər yanında namaz qılmağın haram olması, hətta orada məscid tikilməsə belə, istisna olaraqa yalnız [vəfat etmiş şəxs] üzərinə hələ qılınmamış cənazə namazıdır.

(3336)

(23) – عن أبي هريرة رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «لَا تَجْعَلُوا بُيُوتَكُمْ قُبُورًا، وَلَا تَجْعَلُوا قَبْرِي عِيدًا، وَصَلُّوا عَلَيَّ؛ فَإِنَّ صَلَاتَكُمْ تَبْلُغُنِي حَيْثُ كُنْتُمْ». [حسن] - [رواه أبو داود]

(23) – Əbu Hureyrə - Allah ondan razı olsun - rəvayət edir ki, Peyğəmbər - salləllahu aleyhi va səlləm - belə demişdir: "Evlərinizi qəbirsanlıqlara və mənim qəbrimi də ziyarətgaha çevirməyin, mənə salavat (salallahu aleyhi va səlləm) deyin, siz harada olsanız, dediyiniz salavatlar mənə çatar". [Həsən] - [Əbu Davud rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va səlləm - evlərdə namaz qılmağı tərk edib oranı qəbirsanlıqlar kimi namaz qılınmayan yerə çevirməyi qadağan etmişdir. Peyğəmbər - salləllahu aleyhi va səlləm - həmçinin öz qəbrini adət halına salınaraq təkrar-təkrar ziyarət etməyi və qəbri yanında toplanmağı qadağan etmişdir, çünki bu şirkə bir vəsilədir. Peyğəmbər - salləllahu aleyhi va səlləm - müsəlman kimsəyə yer kürəsinin hansı tərəfində olmasından asılı olmayaraq, ona salavat deməyi əmr etmişdir, çünki deyilən salavatlar insanın yaxın və ya uzaq olmasından asılı olmayaraq ona eyni səviyyədə çatır. Məhz buna görə də onun qəbrini təkrar-təkrar ziyarət etməyə ehtiyac yoxdur.

**Hədisin faydalarından:**

1. Evlərdə Allaha ibadət etməməyin qadağan olunması.

2. Peyğəmbərin - salləllahu aleyhi va səlləm - qəbrini ziyarət etmək üçün səfərə çıxmaq qadağan olunmuşdur. Çünki Peyğəmbər - salləllahu aleyhi va səlləm - ona salavat deməyi əmr etmiş və harada olmasından asılı olmayaraq, deyilən salavatın ona çatacağını xəbər vermişdir. Ancaq Peyğəmbərin - salləllahu aleyhi va səlləm - məscidini ziyarət etmək və orada namaz qılmaq məqsədi ilə səfərə çıxıla bilər.
3. Peyğəmbərin - salləllahu aleyhi va səlləm - qəbrinin müəyyən zamanlarda xüsusu bir qaydada təkrar-təkrar ziyarət edilərək bayram yerinə çevirməyin və həmçinin bu qaydada digər qəbirləri də ziyarət etməyin haram olması.
4. Peyğəmbər - salləllahu aleyhi va səlləm - Rəbbi yanında hörmət sahibidir. Elə buna görə də Uca Allah Peyğəmbərə - salləllahu aleyhi va səlləm - hər bir zamanda və hər bir məkanda salavat deməyi dinin ayinlərindən etmişdir.
5. Belə ki, qəbirlər yanında namaz qılmağın qadağan olması səhabələr tərəfindən qəbul olunmuşdur. Buna görə Peyğəmbər - salləllahu aleyhi va səlləm - qəbirsanlıqlarda namaz qılınmadığı kimi evlərin də o hala gətirilməsini qadağan etmişdir.

(3350)

(24) – عَنْ عَائِشَةَ أُمِّ المؤمنين رضي الله عنها: أَنَّ أُمَّ سَلَمَةَ ذَكَرَتْ لِرَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ كَنِيسَةً رَأَتْهَا بِأَرْضِ الْحَبَشَةِ، يُقَالُ لَهَا مَارِيَةُ، فَذَكَرَتْ لَهُ مَا رَأَتْ فِيهَا مِنَ الصُّوَرِ، فَقَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «أُولَئِكَ قَوْمٌ إِذَا مَاتَ فِيهِمُ الْعَبْدُ

الصَّالِحُ، أَوِ الرَّجُلُ الصَّالِحُ، بَنَوْا عَلَى قَبْرِهِ مَسْجِدًا، وَصَوَّرُوا فِيهِ تِلْكَ الصُّوَرَ، أُولَئِكَ شِرَارُ الْخَلْقِ عِنْدَ اللهِ». [صحيح] - [متفق عليه]

(24) – Möminlərin anası Aişədən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Ummu Sələmə Allahın Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun) Həbəşistanda gördüyü Məriya adlanan bir kilsə və onun içərisində gördüyü təsvirlər barədə bəhs etdi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) isə buyurdu: “Onlar elə bir tayfadır ki, içərilərindən əməlisaleh bir qul və ya əməlisaleh kişi öldüyü zaman onun qəbri üzərində məscid tikərlər və həmin təsvirləri orada çəkərlər. Onlar Allah dərgahında məxluqatın ən şərlisi və ən pisidir". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Möminlərin anası Ummu Sələmə (Allahın ondan razı olsun) Allah Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun) Həbəşistan torpaqlarında Mariyə adlanan və içərisində təsvirlər, bəzəklər olan kilsə gördüyünü söylədi və təəccübünü bildirdi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) da bu təsvirlərin kilsədə yerləşdirmə səbəblərini izah etdi və buyurdu ki: Sənin qeyd etdiyin həmin toplumda, əgər bir nəfər saleh insan dünyasını dəyişərsə onun qəbri üzərində məscid tikərlər, orada namaz qılarlar və həmin rəsmləri çəkərlər. Sonra da izah etdi ki, bunu edən Uca Allahın qatında

məxluqatın ən pisidir, çünki bu əməl Uca Allaha şərik qoşmağa gətirib çıxarır.

**Hədisin faydalarından:**

1. Şirkə aparan vasitələrin qarşısını almaq məqsədi ilə qəbirlər üzərində məscid tikməyin, orada namaz qılmağın və ya məscidlərdə cənazəni dəfn etməyin haram olması.
2. Məscidləri qəbirlər üzərində inşa etmək, orada təsvirlər həkk etmək yəhudi və xristianların əməllərindəndir, bunu edən isə onlara bənzəmiş olar.
3. Ruhu olan yaradılmışların rəsmlərini çəkməyin haram olması.
4. Kim qəbir üzərində məscid inşa edər, içərisində şəkillər çəkərsə, Uca Allahın ən şərli məxluqlarındandır.
5. Şəriətin, şirkə apara biləcək bütün vasitələrin qarşısını almaqla tövhid cinahını kamil surətdə himayə etməsi.
6. Salehlərin şənini, zatını şişirtməyin qadağan edilməsi, çünki bu şirkə düşməyə səbəbdir.

(10887)

(25) – عن جندب رضي الله عنه قال: سَمِعْتُ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَبْلَ أَنْ يَمُوتَ بِخَمْسٍ وَهُوَ يَقُولُ «إِنِّي أَبْرَأُ إِلَى اللهِ أَنْ يَكُونَ لِي مِنْكُمْ خَلِيلٌ فَإِنَّ اللهَ تَعَالَى قَدِ اتَّخَذَنِي خَلِيلًا كَمَا اتَّخَذَ إِبْرَاهِيمَ خَلِيلًا، وَلَوْ كُنْتُ مُتَّخِذًا مِنْ أُمَّتِي خَلِيلًا لَاتَّخَذْتُ أَبَا

بَكْرٍ خَلِيلًا! أَلَا وَإِنَّ مَنْ كَانَ قَبْلَكُمْ كَانُوا يَتَّخِذُونَ قُبُورَ أَنْبِيَائِهِمْ وَصَالِحِيهِمْ مَسَاجِدَ، أَلَا فَلَا تَتَّخِذُوا الْقُبُورَ مَسَاجِدَ! إِنِّي أَنْهَاكُمْ عَنْ ذَلِكَ». [صحيح] - [رواه مسلم]

(25) – Cundub - Allah ondan razı olsun - rəvayət edir ki, mən Peyğəmbərin - salləllahu aleyhi va səlləm - vəfat etməzdən beş gün öncə belə dediyini eşitdim: "Mən aranızda sizlərdən birinin dostumun (xəlil) olmasından Allaha sığınıram. Çünki Uca Allah İbrahimi Özünə dost etdiyi kimi məni də Özünə dost etmişdir. Əgər ümmətimdən birini özünə dost tutsaydım, əlbəttə ki, Əbu Bəkiri özümə dost tutardım. Agah olun ki, sizdən öncəkilər peyğəmbərlərinin və aralarındakı saleh kimsələrin qəbirlərini məscidlərə çevirdilər. Diqqət edin! Qəbirləri əsla məscidlərə çevirməyin. Mən sizi bundan çəkindirirəm". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va səlləm - bu hədisdə Allah qatındakı dərəcəsini və həmçinin İbrahimin – aleyhi-ssəlam - Allah qatında məhəbbətin ən yüksək dərəcələrinə çatdığı kimi, onun da məhəbbətin ən yüksək dərəcələrinə çatdığını xəbər vermişdir. Elə buna görə də özünün Allahdan başqa dostunun olmasını inkar etmişdir. Çünki qəlbi Uca Allaha olan məhəbbəti, Onu təzim etməsi və Onu tanıması ilə dolmuş və qəlbində Allahdan başqasına yer qalmamışdır. Əgər Peyğəmbər - salləllahu aleyhi va səlləm - insanlardan birini özünə dost tutsaydı, o zaman bu Əbu Bəkir Əs-Sıddiq - Allah ondan razı olsun - olardı. Sonra Peyğəmbər - salləllahu aleyhi va səlləm - sevgidə həddi

aşan yəhudi və xristianların etdikləri kimi peyğəmbərlərinin və aralarındakı saleh kimsələrin qəbirlərini ilahiləşdirərək oranı Allahdan başqa ibadət edilən yerlərə çevirməkdən və o qəbirlər üzərində məscidlər və ibadətgahlar bina etməkdən çəkindirmişdir. Peyğəmbər - salləllahu aleyhi va səlləm - ümmətinə yəhudi və xristianların etdikləri bu əməli qadağan etmişdir.

## Hədisin faydalarından:

1. Əbu Bəkir Siddiqin - Allah ondan razı olsun - fəziləti. O, səhabələrin ən fəzilətlisi və Peyğəmbərin - salləllahu aleyhi va səlləm - vəfatından sonra insanlar arasında xilafətə ən layiqli olanıdır.
2. Qəbirlər üzərində məscidlərin bina edilməsi keçmiş ümmətlərdən qalan münkər əməllərdəndir.
3. Qəbirləri ibadətgahlara çevirməyin, qəbirlər yanında və ya qəbirlərə tərəf namaz qılmağın yaxud qəbirlər üzərində məscidlər və ya qübbələr bina edilməsinin qadağan olma səbəbi insanları şirkə düşməkdən çəkindirmək üçündür.
4. Şirkə apardığına görə saleh kimsələri təzim edərək həddi aşmaq qadağan olunmuşdur.
5. Peyğəmbərin - salləllahu aleyhi va səlləm - vəfat etməzdən beş gün öncə ümmətini bu işdən təkrar olaraq çəkindirməsi bunun necə də təhlükəli bir iş olmasına dəlalət edir.

(3347)

(26) – عن أبي الهيَّاج الأسدي قال: قَالَ لِي عَلِيُّ بْنُ أَبِي طَالِبٍ: أَلَا أَبْعَثُكَ عَلَى مَا بَعَثَنِي عَلَيْهِ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ؟ أَنْ لَا تَدَعَ تِمْثَالًا إِلَّا طَمَسْتَهُ، وَلَا قَبْرًا مُشْرِفًا إِلَّا سَوَّيْتَهُ. [صحيح] - [رواه مسلم]

(26) – Əbul-Həyyac Əl-Əsədidən belə dediyi rəvayət edilir: Əli bin Əbi Talib (Allah ondan razı olsun) mənə dedi: Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) məni göndərdiyi tapşırıqla mən də səni göndərimmi? Bütün heykəlləri məhv et, hündür qəbrləri yerlə bir et. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) səhabələrini mövcud olan hər ruha malik canlının təsvirini və ya timsallarını aradan götürmək və yox etmək üçün göndərərdi.

Onlara əmr edərdi ki, yüksək inşalı qəbrləri yerlə bir etsinlər, üzərilərində olan tikilini dağıdaraq qəbri yerə yaxın bir qarış səviyyəsində saxlasınlar.

**Hədisin faydalarından:**

1. Ruhu olan canlıların rəsmini çəkmək haramdır, çünki bu şirkə aparan vasitələrdəndir.
2. Gücü, ixtiyarı və ya vəzifə səlahiyyəti buna imkan verən şəxsin münkəri (şəriətə zidd olan əməli) əli ilə dəyişməyin şəriətdə buyurulması.
3. Üzərində tikililər ucaldılan qəbirlər, rəsm, heykəl kimi cahiliyyəyə aid atributların aradan

qaldırılmasına Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) hərisliyi.

(5934)

(27) – عَنْ عَبْدِ اللهِ بْنِ مَسعودٍ رضي الله عنه عن رَسولِ اللهِ صلى الله عليه وسلم قال: «الطِّيَرَةُ شِرْكٌ، الطِّيَرَةُ شِرْكٌ، الطِّيَرَةُ شِرْكٌ، -ثلاثًا-»، وَمَا مِنَّا إِلَّا، وَلَكِنَّ اللهَ عَزَّ وَجَلَّ يُذْهِبُهُ بِالتَّوَكُّلِ. [صحيح] - [رواه أبو داود والترمذي وابن ماجه وأحمد]

(27) – Abdullah bin Məsuddan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: “(Bədbinlik etiqadı ilə) quş uçurmaq şirkdir" - üç dəfə təkrarladı. Bizdən hər birimizin ağlına belə bir fikir gələ bilər, lakin izzət və cəlal sahibi olan Allah onu bizim qəlblərimizdən təvəkkül etməklə uzaqlaşdırır. [Səhih] - [Əbu Davud, Ət-Tirmizi, İbn Məcə, Əhməd rəvayət ediblər]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bədbinlik niyyəti ilə quş uçurmaqdan, bu məqsədlə istər eşidilən, istərsə də gözlə görünən quşlar, heyvanlar, əlillər, rəqəmlər, günlər və sairə bu kimi növ vasitələrdən istifadə etməklə bədbinlik gözləməkdən çəkindirmişdir. O, burada məhz quşu qeyd etdi, çünki cahiliyyə dövründə-islamdan əvvəl quş uçurtmaq məşhur idi. Səyahətə, ticarətə və ya başqa işlərə başlarkən quş uçurulardı, əgər sağa uçarsa, şəxs nikbin olardı və işinə davam edərdi, yox əgər quş sola uçardısa, insan bədbin olar və niyyətindən əl

çəkərdi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bunun şirk olduğunu xəbər verir, çünki xeyir yalnız Allahdandır, şərri də yalnız şəriki olmayan, tək olan Allah dəf edər.

İbn Məsud (Allah ondan razı olsun) qeyd edir ki, bəzən müsəlmanın qəlbində bədbinlik düşüncəsi yer ala bilər, lakin müsəlman səbəbləri tətbiq etməklə Allaha təvəkkül edib, həmin düşüncələrin qarşısını almalıdır.

## Hədisin faydalarından:

1. Quş uçurmaq şirkdir, çünki bu əməldə qəlbin Allahdan başqasına bağlılığı vardır.
2. Mühüm məsələlərin yadda qalması və qəlbdə qərar tutması üçün təkrarlanmasının əhəmiyyəti.
3. Bədbinlik Uca Allaha təvəkkül etməklə aradan qaldırılır.
4. Yalnız Allaha təvəkkül etmək və qəlbin Ona bağlılığın əmr edilməsi.

(3383)

(28) – عن عمران بن حصين رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «لَيْسَ مِنَّا مَنْ تَطَيَّرَ أَوْ تُطُيِّرَ لَهُ، أَوْ تَكَهَّنَ أَوْ تُكُهِّنَ لَهُ، أَوْ سَحَرَ أَوْ سُحِرَ لَهُ، وَمَنْ عَقَدَ عُقْدَةً، وَمَنْ أَتَى كَاهِنًا فَصَدَّقَهُ بِمَا يَقُولُ فَقَدْ كَفَرَ بِمَا أُنْزِلَ عَلَى مُحَمَّدٍ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ». [حسن] - [رواه البزار]

(28) – İmran bin Husayndan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Bəxti, uğuru öyrənmək

iddiası ilə quş uçuran və ya bu məqsədləri güdən quş uçurana müraciət edən, fala baxan və baxdıran, sehr etməklə məşğul olan və ya ona sehrbazlıq tələbi ilə müraciət edən şəxs və saplardan [cadugər] düyünü bağlayan bizdən deyil. Kim falçıya gedib onun dediklərinə inanarsa, o, Muhəmmədə (Allahın salavatı və salamı onun üzərinə olsun) nazil olana küfr etmiş olar." [Həsən] - [Əl-Bəzzar rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ümmətindən olan insanların bəzi əməllərinə görə: "o, bizdən deyil” sözləri ilə, onlara xəbərdarlıq etmişdir. Həmin əməllərdən bəziləri:

Birincisi: "Uğursuzluğa inanıb quş uçurmaq və ya onun üçün quş uçurulması". Məsələnin əsli: səyahət, ticarət və ya başqa bir işə başlayarkən quşu uçurmaqdır. Əgər quş sağa uçarsa, həmin adam nikbin olar və istədiyini etməyə gedər, yox sola uçarsa o bədbin olar və istədiyindən əl çəkər. Onun nə özünün bu əməli görməsi, nə də başqasına həvalə etməsi caiz deyildir. Sözügedən bədbinliyə istər eşidilən əlamətlər, istərsə də gözlə görülən əlamətlər daxildir - quşlar, heyvanlar, əlilliyi olan insanlar, rəqəmlər, günlər və ya başqa əlamətlərə - aid ola bilər.

İkincisi: “Kim kahinliklə məşğul olarsa və ya kahindən fala baxmağı tələb edərsə”. Beləliklə, kim ulduzlardan və başqa şeylərdən istifadə edərək qeybi bildiyini iddia edərsə və ya qeyb elmini iddia edən kahinə və ya oxşar insanlara gedib qeyb elminə malik olması iddialarına

inanarsa, Muhəmmədə (Allahın salavatı və salamı onun üzərinə olsun) nazil olanı inkar etmiş olar.

Üçüncüsü: “Sehr edən və ya özü üçün sehr etdirən”, yəni kiməsə fayda və ya ziyan vurmaq, yaxud iplə düyün vurmaq və üzərinə haram sehrli sözlər oxuyub üfürməklə sehr edən və ya öz mənafeyini güdərək kiməsə cadu, sehr edilməsini tələb edən kəsdir.

## Hədisin faydalarından:

1. Allaha təvəkkül etməyin, Onun qəza və qədərinə iman etməyin vacibliyi, uğursuzluğa, bədbinliyə, sehrə, kahinliyə inanmağın, həmin adamlardan bu zidd əməlləri istəməyin haram olması.
2. Qeyb elmini idda etmək tövhidə zidd olan şirkdir.
3. Kahinlərə inanmaq və onlara təşrif buyurmaq qadağandır, hətta məlumat xatirinə olsa belə, əl falı, fincan və bürclərə baxmaq kimi əməllər bu qadağaya aid edilir.

(5981)

(29) – عَنْ أَنَسِ بْنِ مَالِكٍ رضي الله عنه عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «لَا عَدْوَى، وَلَا طِيَرَةَ، وَيُعْجِبُنِي الْفَأْلُ» قَالَ قِيلَ: وَمَا الْفَأْلُ؟ قَالَ: «الْكَلِمَةُ الطَّيِّبَةُ».

[صحيح] - [متفق عليه]

(29) – Ənəs bin Malikdən (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: «Özbaşına yoluxma yoxdur, uğursuzluq yoxdur və mən fə'li sevirəm». Deyildi:

«Fə'l nədir?». Dedi: "Yaxşı söz". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, cahiliyyə dönəmi insanlarının bir xəstəliyin Allahın təqdiri olmadan öz-özünə başqasına keçdiyinə inandıqları yoluxma batildir. Uğursuzluğa inanmaq da batildir. O quşlara, heyvanlara, əlillərə, rəqəmlərə, günlərə və səsli və ya görünən digər şeylərə bağlanılan bədbinlik inancıdır. O, quşu yalnız İslamdan əvvəlki cahiliyyə dövründə məşhur olduğu üçün qeyd etdi. O zaman insanlar səfər, ticarət və ya başqa bir işə başlamaq istədikdə, quşu havaya buraxardılar. Və əgər quş sağa uçardısa, nikbinliyə düşər və istədikləri işə davam edərdilər. Yox, əgər sola uçardısa, bədbinliyə inanar və istədikləri o işə başlamazdılar. Sonra o (Allahın salavatı və salamı onun üzərinə olsun) insanın eşitdiyi xoş sözdən dolayı başına gələn fərəh və sevinci xoşladığını və bu şeyin, onun Rəbbi haqqında gözəl düşünməsinə səbəb olduğunu dedi.

**Hədisin faydalarından:**

1. Uca Allaha təvəkkül etmək. Allahdan başqa heç kəs xeyir verə bilməz və Allahdan başqa heç kəs şərri dəf edə bilməz.
2. “Tiyərə” qadağan edilmişdir. O insanı bədbinliyə salan və iş görməsindən uzaqlaşdıran şeylərdir. (Batil inanclara bağlı əlamətlərdir).

3. Fə'l (nikbinlik) qadağan edilmiş tiyəradan (bədbinlikdən) deyil. Əksinə, o Uca Allah haqqında gözəl zənndə olmaqdır.
4. Hər bir şey izzət və cəlal sahibi, bir olan və heç bir şəriki olmayan Allahın təqdiri ilə baş verir.

(3422)

(30) – عَنْ زَيْدِ بْنِ خَالِدٍ الجُهَنِيِّ رضي الله عنه أَنَّهُ قَالَ: صَلَّى لَنَا رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ صَلَاةَ الصُّبْحِ بِالْحُدَيْبِيَةِ عَلَى إِثْرِ سَمَاءٍ كَانَتْ مِنَ اللَّيْلَةِ، فَلَمَّا انْصَرَفَ أَقْبَلَ عَلَى النَّاسِ، فَقَالَ: «هَلْ تَدْرُونَ مَاذَا قَالَ رَبُّكُمْ؟» قَالُوا: اللهُ وَرَسُولُهُ أَعْلَمُ، قَالَ: «أَصْبَحَ مِنْ عِبَادِي مُؤْمِنٌ بِي وَكَافِرٌ، فَأَمَّا مَنْ قَالَ: مُطِرْنَا بِفَضْلِ اللهِ وَرَحْمَتِهِ، فَذَلِكَ مُؤْمِنٌ بِي وَكَافِرٌ بِالْكَوْكَبِ، وَأَمَّا مَنْ قَالَ: بِنَوْءِ كَذَا وَكَذَا، فَذَلِكَ كَافِرٌ بِي وَمُؤْمِنٌ بِالْكَوْكَبِ».

[صحيح] - [متفق عليه]

(30) – Zeyd bin Xalid əl-Cuhənidən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə dedi: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) gecə yağış yağdıqdan sonra əl-Hudeybiyyə ərazisində bizə sübh namazını qıldırdı. Namazını bitirincə üzünü insanlara çevirib dedi: "Bilirsinizmi, Rəbbiniz nə buyurdu?". Oradakılar: "Allah və Rəsulu daha doğrusunu bilir" dedilər. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "(Allah buyurdu ki) Qullarımdan bir qismi mənə iman, bir qismi isə mənə küfr edərək sabahladı. Allahın lütfü və rəhməti ilə bizə yağış yağdırıldı deyənlər mənə iman etmiş və ulduzlara küfr etmişdir. Lakin, filan

ulduz sayəsində bizə yağış yağdırıldı deyənlər isə mənə küfr edib, ulduzlara inananlardılar". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) gecə yağış yağdıqdan sonra sübh namazını Hudeybiyyədə - Məkkəyə yaxın kənddə qıldı. Salam verib namazı bitirdikdən sonra üzünü insanlara tutub sual verdi: Bilirsinizmi izzət və cəlal sahibi olan Rəbbiniz nə dedi?: (Onlar) Allah və Rəsulu ən doğrusunu bilir - deyə cavab verdilər. O dedi: Uca Allah bəyan etdi ki, yağış yağdıqda insanlar iki qismə böləndülər: Uca Allaha iman gətirənlər və Ona küfr edənlər. "Allahın lütfü və rəhməti ilə yağış yağdı" deyənlər və yağışı Uca Allaha nisbət edənlər, Yaradan, kainatı idarə edən Allaha iman gətirənlərdir və ulduzlara inanmayanlardır. Lakin, "yağış ulduzlar sayəsində yağdı" deyənlər isə Allaha küfr edib, ulduzlara inananlardır və bu kiçik küfrdür, çünki, yağışın yağmasını ulduzlara nisbət etdilər, halbuki bunu Allah şərii və ya kövnü səbəb etməmişdir. Lakin, kim, yağışın yağması və yer üzündə baş verən digər hadisələri, ulduzların çıxması və batmasındakı hərəkətlərlə əlaqələndirərsə və onların hərəkətlərinin bu hadisələrə həqiqi mənada təsir edəcəyini etiqad edərsə, o böyük küfr edərək kafir olar.

## Hədisin faydalarından:

1. Yağış yağdıqdan sonra "Allahın lütfü və rəhməti ilə yağış yağdı" söyləməyin mustəhəb olması.

2. Kim yağışın yağmasını və başqa hadisələri ulduzlardan yaradılış və meydana çıxma kimi qələmə verərsə, o böyük küfrlə kafir olar, lakin, ulduzları (bu hadisələrin baş vermәsindә) bir səbəb kimi götürərsə, kiçik küfr etmiş olar, çünki bu, nə şərii, nə də ki, kövnü səbəb deyil.
3. Nemətə küfr edilərsə küfrə səbəb olar, şükr edilərsə imana səbəb olar.
4. "Filan ulduza görə yağış yağdı" sözünün mənaca şirkə dəlalət etməsinin qarşısını almaq məqsədi ilə burada zaman qəsd edilərsə belə bu sözü qadağan etmək.
5. Nemətlərin cəlb olunmasında və bəlaların dəf edilməsndə qəlbin Uca Allaha bağlılığının vacibliyi.

(65010)

(31) – عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ الْجُهَنِيِّ رضي الله عنه: أَنَّ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ أَقْبَلَ إِلَيْهِ رَهْطٌ، فَبَايَعَ تِسْعَةً وَأَمْسَكَ عَنْ وَاحِدٍ، فَقَالُوا: يَا رَسُولَ اللهِ، بَايَعْتَ تِسْعَةً وَتَرَكْتَ هَذَا؟ قَالَ: «إِنَّ عَلَيْهِ تَمِيمَةً»، فَأَدْخَلَ يَدَهُ فَقَطَعَهَا، فَبَايَعَهُ، وَقَالَ: «مَنْ عَلَّقَ تَمِيمَةً فَقَدْ أَشْرَكَ». [حسن] - [رواه أحمد]

(31) – Uqbə bin Amir əl-Cuhənidən (Allah ondan razı olsun) belə dediyi rəvayət olunur: Rəsulullahın (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına bir qrup gəldi ve o, doqquz nəfərin beyətini qəbul etdi ve birinin beyətini qəbul etmədi. Onlar dedilər ki: Ey Allahın Rəsulu, doqquz kişinin beyətini qəbul edib, bunu tərk etdinmi? Allahın Rəsulu: "Onun üzərində təmimə (muska) var" dedi.

Həmin adam əlini (paltarının içinə) saldı və təmiməni kəsdi. Allah Rəsulu da, həmin adamın beyətini qəbul etdi və dedi: "Kim təmimə taxarsa, artıq Allaha şərik qoşmuş olar". [Həsən] - [Əhməd rəvayət etdi]

**Şərh (izah):**

Bir qrup dəstə Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldi və sayları on idi. Onlardan doqquzu ilə İslama girmək və tabe olmaq üzərinə beyət etdi, onuncu nəfərlə isə beyət etmədi. Bunun səbəbi haqqında soruşulduqda, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dedi: Onun üzərində təmimə (amulet, muska) var. Bu, göz və ya zərərdən qorunmaq üçün bağlanmış və ya asılmış muncuq və digər şeylərdir. Kişi əlini təmimə olan yerə saldı, onu kəsib atdı və ondan qurtuldu. Bu zaman Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) onun beyətini qəbul etdi və təmimələrdən çəkindirərək və onların hökmünü bəyan edərək buyurdu: "Hər kim təmimə taxarsa, o, artıq şirk qoşmuş olar".

**Hədisin faydalarından:**

1. Kim Allahdan qeyrisinə güvənərsə, Allah da onunla niyyətinin əksinə davranar.
2. Təmimələri taxmağın zərər və gözdən qorunmağa səbəb olduğuna etiqad etmək kiçik şirkdir. Lakin, onların öz-özlüyündə fayda verdiklərinə inansa, böyük şirkdir.

(6762)

(32) – عن عبد الله بن مسعود رضي الله عنه قال: سمعتُ رسولَ الله صلى الله عليه وسلم يقول: «إنَّ الرُّقَى والتَّمَائِمَ والتِّوَلَةَ شِرْكٌ». [صحيح] - [رواه أبو داود وابن ماجه وأحمد]

(32) – Abdullah bin Məsuddan (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Həqiqətən, ruqyə, təmimələr və tivələ (sevgi tilsimi) şirkdir." [Səhih] - [Əbu Davud, İbnu Məcə və Əhməd rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Allaha şərik qoşulacaq bəzi əməlləri bəyan etmişdir:

Birincisi: Ruqyə - Cahiliyyə dövrü insanların şəfa dilədikləri şirki ehtiva edən sözlər.

İkincisi: Təmimələr - nəzərdən qorunmaq üçün uşaqların, heyvanların və s. boyunlarına taxılan, muncuqlar və bənzəri şeylərdən hazırlanmış əşyalar.

Üçüncüsü: Tivələ - ər və qadının birinin digərini sevməsi üçün hazırlanan əşya.

Sözügedən əşyaların səbəb kimi istifadə edilməsinə görə bu əməllər şirkdən hesab edilir, həqiqətdə bu əşyalar nə şərii dəlillərə əsaslanan səbəblərdir, nə də ki, təcrübə ilə əldə edilən duyulan, hissi səbəblərdir. Lakin Quran oxumaq kimi şərii və dərman qəbulu kimi təcrübə ilə sabit olan toxunma və hissi orqanlarla dərk edilən səbəblər və bunların sadəcə səbəb olmasına etiqad etmək icazəlidir və

hər bir halda xeyirin və zərərin Allahın əlində olmasına etiqad etmək gərəkir.

**Hədisin faydalarından:**

1. Tövhid və əqidənin ona xələl gətirəcək şeylərdən qorunması.
2. Təmiməni, tivələni və şirki ehtiva edən ruqyəni istifadə etməyin haramlığı.
3. İnsanın bu üç şeyi səbəb olaraq etiqad etməsi kiçik şirkdir, çünki səbəb olmayan bir şeyi səbəb etmişdir, lakin onların özlərinin fayda və zərər verdiklərinə etiqad etmək isə böyük şirkdir.
4. Şirk və haram olan səbəbləri etməyin qadağan edilməsi.
5. Şərii olan ruqyədən başqa, digər ruqyələrin haramlığı və şirk olması.
6. Qəlb yalnız Allaha bağlı olmalıdır. Zərər və fayda, şəriki olmayan Allahdandır, xeyir yalnız Allahdan gələr və şərləri də yalnız Allah dəf edər.
7. İcazəli ruqyənin üç şərti var:
   a) Onun səbəb olaraq istifadəsinə və yalnız Allahın izni ilə fayda verəcəyinə etiqad etmək.
   b) Quranla, Allahın isim və sifətləri ilə, sünnədə gələn dualar və digər icazəli dualarla etmək.
   c) Başa düşülən dildə olmalı, içində sehr və tilsim olmamalıdır.

(5273)

(33) – عن بعض أزواج النبي صلى الله عليه وسلم عن النبي صلى الله عليه وسلم قال:

«مَنْ أَتَى عَرَّافًا فَسَأَلَهُ عَنْ شَيْءٍ لَمْ تُقْبَلْ لَهُ صَلَاةٌ أَرْبَعِينَ لَيْلَةً». [صحيح] - [رواه مسلم]

(33) – Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) bəzi xanımlarından Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilmişdir: "Kim bir baxıcının yanına gedərsə və ondan bir şey soruşarsa, qırx gün namazı qəbul edilməz". [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) baxıcının yanına getməyin müsəlman üçün təhlükəli olduğunu bildirir. Baxıcı - istifadə etdikləri şeylər vasitəsilə qeybi məlumatlar verən falçı, münəccim, qum üzərində fala baxanlar və bu kimi şəxslərə verilən ümumi addır. İnsanın bu kimi şəxslərdən qeyb məsələləri haqqında sadəcə bir şey soruşmasına görə, Allah onu qırx gün qıldığı namazlarının savabından məhrum edir. Bu, onun böyük günahının cəzasıdır.

## Hədisin faydalarından:

1. Kahinliyin, həmçinin kahinlərin yanına getməyin və onlara qeyb məsələləri barədə sual verməyin haramalığı.
2. İnsan bəzən günah etdiyinə görə cəza olaraq, itaətin savabından məhrum ola bilər.
3. Bu hədisdəki qadağalara hətta məlumat məqsədi olsa belə bürclər, onlara baxmaq, əlin içindəki və

fincandakı falı oxumaq kimi əməllər daxildir. Çünki bütün bunlar falçılıq və qeyb elmini iddia etməkdir.
4. Əgər bu, baxıcının yanına gedənin cəzasıdırsa, o zaman baxıcının cəzası necə olar?
5. Qırx gün ərzində qılınan namaz keçərlidir, qəzasını qılmağa gərək yoxdur, lakin savabı olmayacaq.

(5986)

(34) – عن ابْنِ عُمَرَ رضي الله عنهما أَنَّه سَمِعَ رَجُلًا يَقُولُ: لَا وَالْكَعْبَةِ، فَقَالَ ابْنُ عُمَرَ: لَا يُحْلَفُ بِغَيْرِ اللَّهِ، فَإِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «مَنْ حَلَفَ بِغَيْرِ اللهِ فَقَدْ كَفَرَ أَوْ أَشْرَكَ». [صحيح] - [رواه أبو داود والترمذي وأحمد]

(34) – İbn Ömər - Allah ondan razı olsun - bir kişinin: Xeyr, Kəbəyə and olsun dediyini eşitdi. Bunu eşidən İbn Ömər - Allah ondan razı olsun - ona belə dedi: Allahdan başqasına and içilməz. Çünki mən, Peyğəmbərin - salləllahu aleyhi va səlləm - belə dediyini eşitdim: "Kim Allahdan başqasına and içərsə ya küfür edər ya da şərik qoşar". [Səhih] - [Əbu Davud, Ət-Tirmizi, Əhməd]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va səlləm - bu hədisdə Uca Allahdan və Onun ad və sifətlərindən başqası adına and içən kimsənin Allaha küfür etdiyini yaxud Ona şərik qoşduğunu xəbər vermişdir. Çünki kişinin bir şeyə and içməsi, onun and içdiyi şeyi təzim etdiyinə görədir. Bütün təzim və böyüklük isə yalnız tək Allaha aiddir. Buna görə də yalnız Uca Allaha və Onun ad və sifətlərinə and içilər. Bu

and kiçik şirkin bir növüdür. Lakin and içən kimsə Allahdan başqa and içdiyini Allahı təzim etdiyi kimi yaxud ondan daha çox təzimlə and içərsə, bu zaman onun bu andı böyük şirk növünə daxil olar.

## Hədisin faydalarından:

1. And içərək təzim edilmək Uca Allahın haqqıdır. Yalnız Uca Allaha və ya Onun ad və sifətlərinə and içilər.
2. Səhabənin yaxşılığı əmr edib pislikdən çəkindirməyə həris olması, xüsusən də münkər olan əməl şirk və ya küfür ilə əlaqəli olarsa.

(3359)

(35) – عَنْ أَبِي مُوسَى الأَشْعَرِيِّ رضي الله عنه قَالَ: أَتَيْتُ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ فِي رَهْطٍ مِنَ الأَشْعَرِيِّينَ أَسْتَحْمِلُهُ، فَقَالَ: «وَاللَّهِ لاَ أَحْمِلُكُمْ، مَا عِنْدِي مَا أَحْمِلُكُمْ» ثُمَّ لَبِثْنَا مَا شَاءَ اللَّهُ فَأُتِيَ بِإِبِلٍ، فَأَمَرَ لَنَا بِثَلاَثَةِ ذَوْدٍ، فَلَمَّا انْطَلَقْنَا قَالَ بَعْضُنَا لِبَعْضٍ: لاَ يُبَارِكُ اللَّهُ لَنَا، أَتَيْنَا رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ نَسْتَحْمِلُهُ فَحَلَفَ أَنْ لاَ يَحْمِلَنَا فَحَمَلَنَا، فَقَالَ أَبُو مُوسَى: فَأَتَيْنَا النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ فَذَكَرْنَا ذَلِكَ لَهُ، فَقَالَ: «مَا أَنَا حَمَلْتُكُمْ، بَلِ اللَّهُ حَمَلَكُمْ، إِنِّي وَاللَّهِ -إِنْ شَاءَ اللَّهُ- لا أَحْلِفُ عَلَى يَمِينٍ، فَأَرَى غَيْرَهَا خَيْرًا مِنْهَا، إِلَّا كَفَّرْتُ عَنْ يَمِينِي، وَأَتَيْتُ الَّذِي هُوَ خَيْرٌ». [صحيح] - [متفق عليه]

(35) – Əbu Musa Əl-Əşaridən (Allah ondan razı olsun) belə rəvayət edilir: Əşari qəbiləsindən bir dəstə ilə Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldim ki, ondan (cihad üçün) minik istəyim. Allah

Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Vallahi sizi apara bilmərəm, sizi aparacaq miniyim yoxdur". Biz Allahın istədiyi qədər qaldıqdan sonra ona dəvələr gəldi və bizə üç dəvə göndərdi. Elə ki, getmək istədikdə bəzilərimiz dedilər: Allah bizə bərəkət verməz, çünki, Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına minik üçün getdik, o isə bizi aparmayacağına and içdi. Lakin indi aparır. Əbu Musa dedi: Biz Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldik və bunu ona danışdıq. O, isə dedi: "Sizi döyüşə aparan (buna müvvəfəq edən) Allahdır, mən deyiləm, Allaha and olsun ki - Allah istəyərsə - mən and içirəm, sonra bundan (and içdiyimdən) daha xeyirlisini gördüyümdə andımın kəffarəsini verirəm və daha xeyirli olanı edirəm”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Əbu Musa Əl-Əşari (Allah ondan razı olsun) xəbər verir ki, o, öz qəbiləsindən bir dəstə ilə Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldi və onların məqsədi cihadda iştirak edə bilmələri üçün Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) onlara minmək üçün dəvə verməsi idi. Lakin Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) onları aparmayacağına və onlar üçün miniyi olmadığına and içdi. Onlar qayıdıb bir müddət qaldılar, sonra Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) üç dəvə gəldi və o, bu dəvələri onların yanına

göndərdi və onlardan bəziləri bir-birinə dedilər: Allah bu dəvələri bizim üçün bərəkətli etməz, çünki Peyğəmbər (sallallahu aleyhi və səlləm) bizi aparmayacağına and içdi.

Bunun üçün onun yanına gedib ondan soruşdular. O (Allahın salavatı və salamı onun üzərinə olsun) isə dedi: Sizi döyüşə aparan Uca Allahdır, çünki müvəffəq edən və ruzi verən Odur, mən sadəcə olaraq bir səbəbəm ki, bu şey mənim əlimlə baş vermişdir. Sonra o (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: Allaha and olsun ki, mən – inşallah - nə isə etməyə və ya nəyisə tərk etməyə and içib, sonra, başqa bir şeyin bu and içilən şeydən daha xeyirli və fəzilətli olduğunu bilsəm, fəzilətli olanı edib, and içiləni tərk edirəm və andımın kəffarəsini ödəyirəm.

## Hədisin faydalarından:

1. And içmək tələb edilməsə də, hətta gələcəklə əlaqəli olsa da belə, xəbəri dəqiqləşdirmək üçün insanın özünün and içməsi icazəlidir.
2. And içdikdən sonra “İnşallah” deməklə istisna etmək icazəlidir. Və əgər istisna and ilə birlikdə niyyət edilibsə və ona bitişik olubsa, andını pozan kəs üçün kəffarə vermək vacib deyil.
3. Bir kəs başqa şeyin and içdiyi şeydən daha xeyirli olduğunu bilərsə, andını pozmağı daha yaxşıdır və andını pozduğuna görə də kəffarə verir.

(2961)

(36) – عَنْ حُذَيْفَةَ رضي الله عنه أَنَّ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «لَا تَقُولُوا: مَا شَاءَ اللهُ وَشَاءَ فُلَانٌ، وَلَكِنْ قُولُوا: مَا شَاءَ اللهُ ثُمَّ شَاءَ فُلَانٌ». [صحيح بمجموع طرقه] - [رواه أبو داود والنسائي في الكبرى وأحمد]

(36) – Huzeyfə (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğunu rəvayət edir: “Deməyin ki, Allah və filankəs istədiyi oldu, əksinə deyin ki: “Allah istədi sonra isə filankəs istədi oldu”. [Rəvayət yollarının məcmusuyla səhih olan] - [Əbu Davud, Ən-Nəsai Əl-Kubrada və Əhməd rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlmana: “Allah istədiyi oldu və filankəsin istədiyi oldu” söyləməyi qadağan etmişdir. "Və ya Allah və filankəsin istədiyi oldu" deməyi də qadağan etmişdir. Çünki, Allahın istəyi qətidir, mütləqdir və bu istəkdə başqa kimsə iştirak etmir. Burada “vəv” hərfinin bağlayıcı kimi işlədilməsi, Allahın başqası ilə şərikliyinə və aralarındakı bərabərliyə işarə edir. Ona görə deməlidir: Allah istədiyi oldu, sonra filankəsin istədiyi. “Və” əvəzinə “sonra” deməklə qulun istədiyini Allahın istədiyinə tabe etdirir, çünki ərəb dilində “sonra” ardıcıllıq və sonralıq bildirir.

## Hədisin faydalarından:

1. “Allah istədiyi oldu və sən istədiyin oldu” ifadəsinin içərisində “və” birləşdirmə bağlayıcısı da olmaqla

Allaha bərabərlik bildirən bu kimi ifadələrin haramlığı. Çünki bunlar şirk sözlər və ifadələrdir.

2. "Allah istədiyi oldu, sonra sən istədiyin oldu" ifadəsinin içərisində Allah kəliməsinə "sonra" zaman zərf bağlanmasının artırılması ilə birlikdə buna bənzər ifadələrin icazəli olması, çünki belə cümlə forması təhlükəli yanlış ifadənin qarşısını alır.
3. Allahın istəyinin və qulun istəyinin isbatı və qulun istəyinin Uca Allahın istəyinə tabe olması.
4. Sözlə olsa belə, Allahın istəməsində məxluqun şərik olmasının qadağan edilməsi.
5. İzzət və cəlal sahibi olan Allahın istəməsiylə qulun istəməsinin mütləq olaraq bərabər və əhatəli olduğunu və ya qulun müstəqil istəyi olduğuna etiqad edərək söyləmək böyük şirkdir, lakin Allahın istəyindən aşağı olduğuna etiqad etmək (və səhv ifadədən istifadə etmək) kiçik şirkdir.

(3352)

(37) – عَنْ مَحْمُودِ بْنِ لَبِيدٍ رضي الله عنه أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «إِنَّ أَخْوَفَ مَا أَخَافُ عَلَيْكُمُ الشِّرْكُ الْأَصْغَرُ» قَالُوا: وَمَا الشِّرْكُ الْأَصْغَرُ يَا رَسُولَ اللَّهِ؟ قَالَ: «الرِّيَاءُ، يَقُولُ اللَّهُ عَزَّ وَجَلَّ لَهُمْ يَوْمَ الْقِيَامَةِ إِذَا جُزِيَ النَّاسُ بِأَعْمَالِهِمْ: اذْهَبُوا إِلَى الَّذِينَ كُنْتُمْ تُرَاؤُونَ فِي الدُّنْيَا، فَانْظُرُوا هَلْ تَجِدُونَ عِنْدَهُمْ جَزَاءً؟». [حسن] - [رواه أحمد]

(37) – Mahmud bin Ləbiddən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Sizin üçün ən çox

qorxduğum kiçik şirkdir". Dedilər: “Kiçik şirk nədir, ey Allahın Rəsulu?” O belə buyurdu: “Riya. İzzət və cəlal sahibi olan Allah Qiyamət günü, insanların əməllərinin qarşılığı veriləcəyi zaman onlara deyəcək: “Dünya həyatında özünüzü göstərdiyiniz insanların yanına gedin və baxın görün özünüz üçün onlarda bir mükafat tapırsınızmı?”.
[Həsən] - [Əhməd rəvayət etdi]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, ümməti üçün ən çox qorxduğu məsələ, kiçik şirkdir ki, bu da riyadır - yəni adam insanlar üçün əməl edir. Sonra Qiyamət günü riyakarların cəzasından xəbər verir ki, onlara deyiləcək: Könüllərini almaq üçün çalışdığınız insanların yanına gedin və baxın görün, onlar sizi mükafatlandırmaq iqtidarındadılarmı?!

## Hədisin faydalarından:

1. İzzət və cəlal sahibi olan Allah üçün ixlasla əməl etmənin və riyadan çəkinmənin vacibliyi.
2. Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) ümmətinə olan şəfqəti, onların hidayətinə olan hərisliyi və onlara nəsihəti.
3. Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) qorxu və narahatlığı salehlərin ən hörmətliləri olan səhabələrinə görə idisə, onlardan sonra gələn nəsillər üçün bu qorxu və narahatlıq daha şiddətlidir.

(3381)

(38) – عن أبي مَرْثَدٍ الغَنَوِيّ رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «لَا تَجْلِسُوا عَلَى الْقُبُورِ، وَلَا تُصَلُّوا إِلَيْهَا». [صحيح] - [رواه مسلم]

(38) – Əbu Mərsəd əl-Ğənəviydən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Qəbirlər üzərində oturmayın və (orada) onların istiqamətində namaz qılmayın". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) qəbirlər üzərində oturmağı qadağan etmişdir.

Həmçinin qəbirlərə tərəf namaz qılmağı da qadağan etmişdir, belə ki, qəbir namaz qılanın qibləsi istiqamətində olarsa, bu şirkə aparan vasitələrdən olur.

**Hədisin faydalarından:**

1. Qəbirstanlıqda, qəbirlər arasında, onlara tərəf namaz qılmaq qadağan edilmişdir və burada istisna olan cənazə namazıdır, necə ki bu öz təsdiqini sünnədə tapmışdır.
2. Şirkə aparan vasitənin qarşısını almaq üçün, qəbirlər istiqamətində namaz qılmaq qadağan edilmişdir.
3. İslam qəbirlərə münasibətdə həddi aşmağı və onlara hörmətsizlik etməyi, təhqir etməyi qadağan etmişdir. İfrata varmaq icazəli olmadığı kimi, onlara qarşı hörmətsizlik də etmək olmaz.
4. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) "Ölünün sümüyünü sındırmaq, diri ikən onu

sındırmaq kimidir" buyruğuna əsasən müsəlmanın toxunulmazlığı ölümündən sonra da davam edir.

(10647)

(39) – عَنْ أَبِي طَلْحَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «لاَ تَدْخُلُ الْمَلاَئِكَةُ بَيْتًا فِيهِ كَلْبٌ وَلاَ صُورَةٌ». [صحيح] - [متفق عليه]

(39) – Əbu Talhadan (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: “İçində it və şəkil olan evə mələklər girməz”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verdi ki, rəhmət mələkləri, içində it və ya ruhu olan canlıların şəkli olan evə girməzlər. Çünki ruhu olan bir canlının şəklini çəkmək böyük günahdır və onda Allahın yaratmasına bənzəmək və şirkə aparan vasitələrdən bir vasitə vardır, bəziləri isə Allahdan başqa ibadət edilən şeylərin şəklidir. İt olan evdən çəkinmələrinin səbəbinə gəlincə: İtlərin çox nəcasət yediyinə və bəzilərinin şeytan adlandırıldığına görədir; mələklər isə şeytanların ziddidir. Həmçinin itin pis iyili olmasına görədir; mələklər isə pis qoxunu sevmirlər, həmçinin it saxlamağın şəriət tərəfindən qadağan edilməsinə görədir; buna görə də, it saxlayan şəxs, rəhmət mələklərinin evinə daxil olmalarından, orada namaz

qılmaqlarından, onun üçün bağışlanma diləməklərindən, ona və evinə xeyir-dua verməklərindən və şeytanın pisliyini ondan dəf etməklərindən məhrum olunmaqla cəzalandırılır.

## Hədisin faydalarından:

1. Ov, mal-qara və ya əkin üçün olan it istisna olmaqla, it saxlamaq haramdır.
2. Şəkil saxlamaq mələklərin nifrət etdiyi pis əməllərdəndir və it məsələsində olduğu kimi, şəkillərin də müəyyən bir məkanda olması, oranın rəhmətdən məhrum olmasına səbəbdir.
3. İçərisində it və ya şəkil olan evə girməyən mələklər rəhmət mələkləridir, lakin qoruyucu mələklər və ölüm mələyi kimi müəyyən bir vəzifəsi olan digər mələklər isə hər evə daxil olurlar.
4. Ruhu olan canlıların şəkillərini divarlardan və başqa yerlərdən asmağın qadağan olması.
5. Xəttabi demişdir: “Mələklər yalnız, saxlanması haram olan it və şəkillərin olduğu evə girməzlər. Lakin ov, əkin və ya mal-qara üçün saxlanılan it, eləcə də xalça, yastıq və s. kimi yerlərdə tapdanan və istifadə olunan (hörmət edilməyən) şəkillər bu hökmə daxil deyil, mələklərin belə evlərə girməsinə mane olmaz”.

(8950)

(40) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه أَنَّ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «لَا تَصْحَبُ الْمَلَائِكَةُ رُفْقَةً فِيهَا كَلْبٌ وَلَا جَرَسٌ». [صحيح] - [رواه مسلم]

(40) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: “Aralarında it və zəng (zınqırov) olan bir camaata mələklər yoldaşlıq etməz". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, səfərdə olan bir qrup insanı it və ya heyvanların üstündən asılan və hərəkət etdikdə səs çıxaran zəng müşayiət edərsə, mələklər onlara yoldaşlıq etməz.

**Hədisin faydalarından:**

1. Ovçu və ya gözətçi itləri istisna olmaqla, itlərə sahib olmaq və saxlamaq qadağandır.
2. Yoldaşlıq etməkdən çəkinən mələklər rəhmət mələkləridir, əməlləri yazan mələklərə gəlincə, onlar qulları məskənlərində də, səfərlərində də tərk etmirlər.
3. Zənglərin qadağan edilməsi; çünki o şeytanın çalğı alətlərindən biridir və xristianların ibadətə çağırış alətinə bənzəyir.
4. Müsəlman mələkləri ondan uzaqlaşdıracaq hər şeydən uzaq durmağa həris olmalıdır.

(8951)

(41) – عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «يَأْتِي الشَّيْطَانُ أَحَدَكُمْ فَيَقُولُ: مَنْ خَلَقَ كَذَا؟ مَنْ خَلَقَ كَذَا؟ حَتَّى يَقُولَ: مَنْ خَلَقَ رَبَّكَ؟ فَإِذَا بَلَغَهُ فَلْيَسْتَعِذْ بِاللهِ وَلْيَنْتَهِ». [صحيح] - [متفق عليه]

(41) – Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət edilidyində görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: "Şeytan, sizdən birinizə gələrək "bunu kim yaratdı, onu kim yaratdı? suallarını verər və ən son olaraq "Sənin Rəbbini kim yaratdı?" sualını ortaya atar. Kim belə bir vəziyyətlə qarşılaşarsa, Allaha sığınsın və bu vəsvəsələrə son qoysun." [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) şeytanın möminə vəsvəsə olaraq fısıldadığı sualların təsiredici əlacı haqda xəbər vermişdir. Şeytan "Bunu kim yaratdı? Onu kim yaratdı? Səmanı kim yaratdı? Yeri kim yaratdı?" kimi suallar verər. Mömin, dini, fitrətı və ağlı ilə şeytanın bu suallaına "Allah" deyə cavab verir. Şeytan bu vəsvəsələrinə son qoymaz, davam edər və "Rəbbini kim yaratdı?" sualını verər. Bu halda mömin vəsvəsələri üç yolla dəf edə bilər:

Allaha iman gətirərək.

Şeytandan Allaha sığınaraq.

Şeytandan gələn vəsvəsəni kəsərək, onun barədə düşünməməklə.

## Hədisin faydalarından:

1. Şeytanın vəsvəsə və fikirlərindən yayınmaq, bunları düşünməmək və bu şeylərdən qurtulmaq üçün Uca Allaha sığınmaq.
2. İnsanın qəlbinə gələn dinə müxalif olan hər vəsvəsə şeytandandır.
3. Uca Allahın zatı haqqında düşünməyin qadağan olması, Allahın yaratdıqları və Onun ayətləri barəsində təfəkkür etməyə təşviq edilməsi.

(65013)

(42) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «إِنَّ اللَّهَ قَالَ: مَنْ عَادَى لِي وَلِيًّا فَقَدْ آذَنْتُهُ بِالحَرْبِ، وَمَا تَقَرَّبَ إِلَيَّ عَبْدِي بِشَيْءٍ أَحَبَّ إِلَيَّ مِمَّا افْتَرَضْتُ عَلَيْهِ، وَمَا يَزَالُ عَبْدِي يَتَقَرَّبُ إِلَيَّ بِالنَّوَافِلِ حَتَّى أُحِبَّهُ، فَإِذَا أَحْبَبْتُهُ: كُنْتُ سَمْعَهُ الَّذِي يَسْمَعُ بِهِ، وَبَصَرَهُ الَّذِي يُبْصِرُ بِهِ، وَيَدَهُ الَّتِي يَبْطِشُ بِهَا، وَرِجْلَهُ الَّتِي يَمْشِي بِهَا، وَإِنْ سَأَلَنِي لَأُعْطِيَنَّهُ، وَلَئِنِ اسْتَعَاذَنِي لَأُعِيذَنَّهُ، وَمَا تَرَدَّدْتُ عَنْ شَيْءٍ أَنَا فَاعِلُهُ تَرَدُّدِي عَنْ نَفْسِ المُؤْمِنِ، يَكْرَهُ المَوْتَ وَأَنَا أَكْرَهُ مَسَاءَتَهُ». [صحيح] - [رواه البخاري]

(42) – Əbu Hureyradan (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Allah belə buyurdu: Kim mənim bir vəlimə (dostuma) düşmənçilik edərsə, mən ona müharibə elan edərəm. Qulum ona fərz etdiyim şeydən daha sevimli olan heç bir şeylə mənə yaxınlaşmaz, qulum mənə nafilə (sünnət) ibadətlərlə yaxınlaşmağa o qədər davam edər ki, nəhayət Mən onu sevərəm. Mən onu

sevdikdə, onun eşidən qulağı, görən gözü, tutan əli və gəzən ayağı olaram, Məndən bir şey istəsə, ona verərəm, Mənə sığınsa, onu qoruyaram. Mən etdiyim heç bir şeydə mömin qulumun canını almaq kimi tərəddüt etmədim. Qulum ölümü sevmir, mən də onu incidən şeyi sevmirəm".

[Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) qüdsü hədisdə xəbər vermişdir ki, izzət və cəlal sahibi olan Uca Allah deyir: Hər kim mənim dostlarımdan birinə əziyyət verər, onu qəzəbləndirər və ona nifrət edərsə, mən ona xəbər verərəm və ona düşmənçilik elan edərəm.

Vəli (dost): təqvalı mömindir. Qulun iman və təqvası qədərincə, Allahın dostluğundan payı olar. Müsəlman, Allahın ona fərz və vacib etdiyi itaətləri etmək və haramaları tərk etməkdən daha sevimli olan başqa bir şeylə Rəbbinə yaxınlaşmaz. Müsəlman fərzləri yerinə yetirərək və nafilə ibadətləri edərək Allaha o qədər yaxınlaşar ki, hətta Allahın məhəbbətinə nail olar. Əgər Allah onu sevərsə, bu dörd bədən üzvündə onu doğruya yönəldər:

Eşitməsini doğruya yönəldər və beləliklə yalnız Allahı razı salan şeyləri eşidər.

Görməsini doğruya yönəldər və beləliklə yalnız Allahın sevdiyi və razı qaldığı şeylərə baxar.

Əlini dorğuya yönəldər və beləliklə əli ilə yalnız Allahın razı qaldığı işləri görər.

Ayağını doğruya yönəldər və beləliklə yalnız Allahın razı qaldığı yerə gedər və yalnız xeyir olan yerə getməyə səy göstərər.

Bununla bərabər, əgər Allahdan bir şey istəyərsə, Allah ona istədiyini verər, duasına cavab verilən kəs olar. Əgər qorunmaq üçün Allaha sığınıb, ona yönələrsə, pak olan Allah onu qorxduğu şeydən qoruyar və himayə edər.

Sonra Uca Allah buyurdu: Mən gördüyüm heç bir işdə, möminə qarşı olan rəhmətimə görə, onun canını almaqda tərəddüd etdiyim kimi tərəddüt etmədim. Çünki o, ağrı-acısına görə ölümü xoşlamır, Allah da mömini incidən şeyi xoşlamır.

## Hədisin faydalarından:

1. Bu hədis Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) öz Rəbbindən rəvayət etdiyi hədislərdən biridir, Qüdsi və ya ilahi hədis adlanır. Bu, mənası və sözləri Allah tərəfindən olan hədisdir. Lakin bu hədislərdə, Qurana xas olan və Quranı başqalarından fərqlənirən xüsusiyyətlər yoxdur. Məsələn, onu oxumaqla ibadət etmək, onun üçün pak olmaq, onunla meydan oxumaq, möcüzəvi olması və s. (bu xüsusiyyətlər yalnız Qurana xasdır, qüdsi hədisdə isə yoxdur).
2. Allahın dostlarına əziyyət verməyin qadağan edilməsi, onları sevmək və fəzilətlərini etiraf etməyə isə təşviq etmək.

3. Allahın düşmənləri ilə düşmənçilik etməyin əmr olunması və onlarla dostluq etməyin qadağan olunması.
4. Hər kim Allahın şəriətinə tabe olmadan Onun dostu olduğunu iddia edərsə, o, iddiasında yalançıdır.
5. Allahın dostluğu vacibləri yerinə yetirmək və haramları tərk etməklə əldə edilir.
6. Allahın qulu sevməsinin və onun duasına cavab verməsinin səbəblərindən biri də, vacibləri yerinə yetirib, haramları tərk etdikdən sonra nafilə (vacib olmayan əlavə) ibadətlər etməkdir.
7. Allah dostlarının şərəfinə və onların Allah qatında yüksək məqama sahib olmalarına işarə.

(6337)

(43) – عَنِ الْعِرْبَاضِ بْنِ سَارِيَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَامَ فِينَا رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ ذَاتَ يَوْمٍ، فَوَعَظَنَا مَوْعِظَةً بَلِيغَةً وَجِلَتْ مِنْهَا الْقُلُوبُ، وَذَرَفَتْ مِنْهَا الْعُيُونُ، فَقِيلَ: يَا رَسُولَ اللَّهِ، وَعَظْتَنَا مَوْعِظَةَ مُوَدِّعٍ فَاعْهَدْ إِلَيْنَا بِعَهْدٍ. فَقَالَ: «عَلَيْكُمْ بِتَقْوَى اللَّهِ، وَالسَّمْعِ وَالطَّاعَةِ، وَإِنْ عَبْدًا حَبَشِيًّا، وَسَتَرَوْنَ مِنْ بَعْدِي اخْتِلَافًا شَدِيدًا، فَعَلَيْكُمْ بِسُنَّتِي وَسُنَّةِ الْخُلَفَاءِ الرَّاشِدِينَ الْمَهْدِيِّينَ، عَضُّوا عَلَيْهَا بِالنَّوَاجِذِ، وَإِيَّاكُمْ وَالْأُمُورَ الْمُحْدَثَاتِ، فَإِنَّ كُلَّ بِدْعَةٍ ضَلَالَةٌ». [صحيح] - [رواه أبو داود والترمذي وابن ماجه وأحمد]

(43) – İrbad bin Səriyənin (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bir gün aramızda ikən ayağa qalxıb bizə, qəlblərimizi titrədən, gözlərimizi yaşardan

bəlağətli bir xütbə söylədi. Ona dedilər ki: “Ey Allahın Rəsulu, bizə sanki vida xütbəsi verdin, ona görə bizə vəsiyyət et”. O dedi: “Sizə Allahdan qorxmağı tövsiyyə edirəm, (rəhbəriniz) həbəşi bir kölə olsa belə, ona tabe olub, itaət edin. Məndən sonra şiddətli ixtilaflar görəcəksiniz, mənim və doğru yolda olan raşidi xəlifələrin yoluna tabe olun və ondan azı dişlərinizlə yapışın. Dinə artırılmış yeniliklərdən çəkinin, çünki hər bir yenilik zəlalətdir.” [Səhih] - [Əbu Davud, Ət-Tirmizi, İbn Məcə, Əhməd rəvayət ediblər]

## Şərh (izah):

Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) qəlbləri qorxuya salan, gözləri yaşardan bəlağətli bir xütbə söylədi. Onlar Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) təsirli çıxışını görüb dedilər: "Ey Allahın Rəsulu, bu sanki vida xütbəsi idi". Onlar Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) sonra gələn dövrlərdə sarıla biləcəkləri məsləhətlər barədə ondan tövsiyələrini istədilər. Buyurdu: Sizə fərzləri yerinə yetirməklə və haramları tərk etməklə izzət və cəlal sahibi olan Allahdan qorxmağı tövsiyə edirəm. Rəhbərlərə tabe olub, itaət etmək. Əgər bir kölə sizin üzərinizdə rəhbər və ya hakimiyyət sahibi olarsa, yəni cəmiyyətin ən aşağı təbəqəsindən olan bir kəs sizə hökmdar olarsa, bundan boyun qaçırmayın və fitnələrin oyanmaması üçün ona itaət edin, çünki sizdən kimə ömür vəfa etsə, çoxlu ixtilaflar görəcək. Sonra onlara bu ixtilafdan çıxış yolunu izah etdi ki, bu da onun yoluna və

özündən sonra gələn raşidi xəlifələrin - Əbu Bəkr əs-Siddiq, Ömər bin Əl-Xəttab, Osman bin Əffan və Əli ibn Əbi Talibin (Allah onların hamısından razı olsun) yolundan bərk yapışmaqdır və azı dişləri ilə bu yola sarılmaqdır. Bu misalla sünnəyə əməl etməyin və ondan bərk yapışmağın əhəmiyyətini nəzərdə tuturdu. Onları dindəki bidətlərdən (yeniliklərdən) çəkindirdi, çünki hər bir bidət zəlalətdir.

## Hədisin faydalarından:

1. Sünnəyə sarılmaq və ona tabe olmağın əhəmiyyəti.
2. Moizələrə və qəlblərin yumşalmasına verilən önəm.
3. Ondan sonra gələn raşidi xəlifələrinə - Əbu Bəkr əs-Siddiq, Ömər bin Əl-Xəttab, Osman bin Əffan və Əli bin Əbi Talibə (Allah onların hamısından razı olsun) tabe olmağın əmr edilməsi.
4. Dində yeniliyin qadağan edilməsi və dindəki hər yeniliyin zəlalət olması.
5. Möminlərə rəhbərlik edən şəxsə - günahlardan başqa - digər məsələlərdə tabe olub, itaət etməyin əmr edilməsi.
6. Bütün zaman və hallarda izzət və cəlal sahibi olan Allahdan qorxmağın əhəmiyyəti.
7. Bu ümmətdə ixtilaflar baş verəcək, bu baş verdikdə Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) və raşidi xəlifələrinin yoluna müraciət etməyin vacibliyi.

(65057)

(44) – عن أبي هريرة رضي الله عنه عن النبي صلى الله عليه وسلم أنه قال: «مَنْ خَرَجَ مِنَ الطَّاعَةِ، وَفَارَقَ الْجَمَاعَةَ فَمَاتَ، مَاتَ مِيتَةً جَاهِلِيَّةً، وَمَنْ قَاتَلَ تَحْتَ رَايَةٍ عِمِّيَّةٍ، يَغْضَبُ لِعَصَبَةٍ، أَوْ يَدْعُو إِلَى عَصَبَةٍ، أَوْ يَنْصُرُ عَصَبَةً، فَقُتِلَ، فَقِتْلَةٌ جَاهِلِيَّةٌ، وَمَنْ خَرَجَ عَلَى أُمَّتِي، يَضْرِبُ بَرَّهَا وَفَاجِرَهَا، وَلَا يَتَحَاشَى مِنْ مُؤْمِنِهَا، وَلَا يَفِي لِذِي عَهْدٍ عَهْدَهُ، فَلَيْسَ مِنِّي وَلَسْتُ مِنْهُ». [صحيح] - [رواه مسلم]

(44) – Əbu Hureyra (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət etmişdir: "Kim itaətdən çıxar, camaatdan ayrılar və bu hal üzərində ölərsə, cahiliyyə ölümü ilə ölmüş olur. Kim də kor-koranə cahiliyyə bayrağı altında döyüşər, irqçilik üçün qəzəblənər və ya irqçiliyə dəvət edər yaxud da irqçiliyə yardım edər və bu əsnada öldürülürsə bu ölüm də cahiliyyə ölümüdür. Kim ümmətimə qarşı çıxıb, yaxşı olanını da, pis olanını da (ayırd etmədən) vurar, mömin olanlarına hörmət etməz, əhd sahibinə verdiyi sözü də yerinə yetirməzsə o, məndən deyildir, mən də ondan deyiləm". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) əmr sahiblərinə itaətsizlik edən, onlara beyət etməyi qəbul edən İslam camaatından ayrılan, bu ayrılıq və itaətsizlik halında ölən kimsənin cahiliyyə əhli kimi öldüyünü xəbər vermişdir. Çünki onlar əmirə itaət etməyən və bir camaata bağlı olmayan, əksinə, bir-birləri ilə döyüşən ayrı-ayrı fiqələrə bölünən bir toplumdur.

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, kim, haqq ilə batili ayırd edilmədiyi bir bayraq altında döyüşərsə, dini və haqqı dəstəkləmək üçün deyil, əksinə, qövmünə və ya qəbiləsinə təəssübkeşlikdən dolayı qəzəblənərsə, bəsirət və elm olmadan döyüşər və bu hal üzərə öldürülürsə, o kimsə cahiliyyə adəti üzərində ölmüşdür.

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) həmçinin, ümmətinə qarşı çıxmağın, saleh olanı, facir olandan ayırd etmədən hər birini vurmağın, etdiyi əmələ fikir verməməyin və mömin bir kimsəni öldürməsinin cəzasından qorxmamağın, özləri ilə əhd bağlayan əmr sahiblərinə və ya kafirlərə verdiyi əhdi tutmamağın böyük günahlardan olduğunu xəbər vermişdir. Kim bunları edərsə, hədisdə keçən şiddətli təhdidə məruz qalar.

## Hədisin faydalarından:

1. Uca Allaha asi olan işlər istisna olmaqla, əmr sahiblərinə itaət etməyin vacib olması.
2. Bu hədis, əmr sahiblərinə qarşı çıxmaqdan, həmçinin, müsəlman camaatından ayrılmaqdan şiddətli bir şəkildə çəkindirmiş və xəbər vermişdir ki, kim də bu hal üzərində ölərsə, o kimsənin, cahiliyyə dönəmində yaşayan insanların öldüyü yol üzərində ölmüş kimidir.
3. Hadisdə irqçilik edərək döyüşmək qadağan edilmişdir.
4. Əhdlərə vəfalı olmağın vacibliyi.

5. Əmr sahiblərinə itaət etməkdə, camaatla birlikdə olmaqda: çoxlu xeyir, əmin-amanlıq, arxayınlıq və xoş güzəran içində yaşamaq vardır.
6. Cahiliyyə dönəmindəki insanların durumlarına bənzər yaşamaq qadağan edilmişdir.
7. Müsəlman camaatına bağlı olmaq əmr edilmişdir.

(58218)

(45) – عن مَعقِلِ بن يَسار المُزَنِيّ رضي الله عنه قال: إني سمعتُ رسولَ الله صلى الله عليه وسلم يقول: «مَا مِنْ عَبْدٍ يَسْتَرْعِيهِ اللهُ رَعِيَّةً، يَمُوتُ يَوْمَ يَمُوتُ وَهُوَ غَاشٌّ لِرَعِيَّتِهِ، إِلَّا حَرَّمَ اللهُ عَلَيْهِ الْجَنَّةَ». [صحيح] - [متفق عليه]

(45) – Məqil bin Yəsar əl-Muzənidən (Allah ondan razı olsun) demişdir: Mən Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: “Allah kimə rəhbərlik etməyi nəsib edərsə, rəhbərliyi altında olan insanları aldadaraq ölərsə, Allah cənnəti ona haram edər”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Uca Allah tərəfindən insanlar üzərində rəhbərlik etməyi nəsib olunan hər bir şəxs - istər dövlət başçısı kimi ümumi rəhbər olsun, istərsə də kişi və yaxud qadın öz evində cavabdeh olsun - onlar öz məsuliyyəti altında olan insanlarla pis davranarsa, onları aldadarsa, onlara qarşı səmimi olmazsa, onların dini və

dünyəvi hüquqlarını yerinə yetirməzsə, bu şiddətli cəzaya layiq olarlar.

**Hədisin faydalarından:**

1. Bu xəbərdarlıq yalnız rəhbər və onun yardımçılarına aid deyil, əksinə Allahın məsul etdiyi hər bir idarə etmək məsuliyyəti olanlara aid edilir.
2. Müsəlmanlara aid olan bir məsələdə rəhbər olan şəxs onlarla səmimi olmalı, əmanətə sadiq olmalı və xəyanətdən çəkinməlidir.
3. Ümumi və ya xüsusi, böyük və ya kiçik rəhbərliyə sahib olan hər kəsin məsuliyyətinin ciddi olması.

(5335)

(46) – عَنْ أُمِّ سَلَمَةَ أُمِّ الْمُؤمنين رضي الله عنها: أَنَّ رَسُولَ اللهِ صلى الله عليه وسلم قَالَ: «سَتَكُونُ أُمَرَاءُ فَتَعْرِفُونَ وَتُنْكِرُونَ، فَمَنْ عَرَفَ بَرِئَ، وَمَنْ أَنْكَرَ سَلِمَ، وَلَكِنْ مَنْ رَضِيَ وَتَابَعَ» قَالُوا: أَفَلَا نُقَاتِلُهُمْ؟ قَالَ: «لَا، مَا صَلَّوْا». [صحيح] - [رواه مسلم]

(46) – Möminlərin anası Ummu Sələmədən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: “Elə rəhbərlər hakimiyyətə gələcəklər, siz onların (bəzi) əməllərini (düzgün) görəcək və (digərlərini isə) inkar edəcəksiniz. Beləliklə, kim (qəlblə) etiraz edəcəksə qurtulacaq, kim inkar edəcəksə xilas olacaq, amma həmin əməllərdən razı qalıb ardınca gedənlər günah qazanacaqlar”. Bu an soruşdular: “Onlara qarşı vuruşmayaqmı?”. Allah Rəsulu (Allahın salavatı və salamı

onun üzərinə olsun) buyurdu: “Namaz qıldıqları müddətdə xeyr”. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

O (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, bizə rəhbərlər təyin olunacaq və biz onların bəzi əməllərindən - şəriətlə uyğun olanlardan - xəbərdar olacağıq. Bəzi əməllərini isə şəriətə müxalif olduğu üçün inkar edəcəyik. Kim münkəri inkar etməyə qadir deyilsə, lakin qəlbində ona nifrət edərsə, günah və nifaqdan qurtular. Kim onu əli və ya dili ilə inkar etməyə qadir olsa və onları inkar edərsə, günahdan və ona ortaq olmaqdan salamat olar. Kim belələrinin əməllərindən razı qalıb onlara tabe olarsa, onların həlak olduqları kimi həlak olar.

Sonra Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşdular: Bu xüsusiyyətlərə malik olan rəhbərlərə qarşı vuruşmayaqmı? Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) isə onlara bunu qadağan etdi və dedi: "Xeyr, namaz qıldıqları müddətdə etməyin".

**Hədisin faydalarından:**

1. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) peyğəmbərliyinin sübutlarından biri də baş verəcək qeybi hadisələr barədə xəbər verməsi və onun dediyi kimi baş verməsidir.
2. Münkərlə razılaşmaq və onun tətbiqinə dəstək olmaq yolverilməzdir, əksinə onu inkar etmək vacibdir.
3. Rəhbərlər şəriətə zidd əməl etsələr, o zaman həmin əməllərdə onlara itaət etmək olmaz.

4. Yaranacaq fəsad, qan tökülməsi və əmin-amanlığın pozulmasına görə müsəlman rəhbərlərinə qarşı çıxmaq qadağandır. Günahkar rəhbərlərin münkər əməllərinə dözümlülük nümayiş etdirib, onların əziyyətlərinə səbr etmək bundan daha yüngül və təhlükəsizdir.
5. Namazın əhəmiyyəti böyükdür, o küfrlə İslamı fərqləndirən atributdur.

(3481)

(47) – عَنِ ابْنِ مَسْعُودٍ رضي الله عنه عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «سَتَكُونُ أَثَرَةٌ وَأُمُورٌ تُنْكِرُونَهَا» قَالُوا: يَا رَسُولَ اللَّهِ فَمَا تَأْمُرُنَا؟ قَالَ: «تُؤَدُّونَ الحَقَّ الَّذِي عَلَيْكُمْ، وَتَسْأَلُونَ اللَّهَ الَّذِي لَكُمْ». [صحيح] - [متفق عليه]

(47) – İbn Məsud (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət etmişdir: "Sizin (başınızda duracaq rəhbərlər tərəfindən) inkar edəcəyiniz işlər və mənimsəmələr görəcəksiniz. Soruşdular: “Ey Allahın Rəsulu, bizə nə əmr edirsən?”. O Dedi: Üzərinizdə olan haqqı yerinə yetirin, öz haqqınızı isə Allahdan istəyin". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, müsəlmanların üzərinə hökmdarlar gələcək ki, onlar müsəlmanların ümumi sərvətini və digər

dünya işlərini şəxsi maraq dairələrinə salacaqlar, onları istədikləri kimi xərcləyəcək və müsəlmanları bu haqlarından məhrum edəcəklər. Onlar dində inkar olunan əməllər edəcəklər. Səhabələr (Allah onlardan razı olsun) bu vəziyyətdə nə etməli olduqlarını soruşdular. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) onlara bildirdi ki, həmin hökmdarların mal-dövləti mənimsəmələri, sizi onlara tabeçilikdən və itaət etmək kimi üzərinizdə olan vacibdən yayındırmamalıdır, əksinə, səbirli olun, onlara qulaq asın, itaət edin, onlarla münaqişə, ixtilaf etməyin. Allahdan haqqınızı diləyin və onların islah olunmalarını, şər və zülmlərinin dəf edilməsini istəyin.

## Hədisin faydalarından:

1. Hədis Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) peyğəmbərliyinin sübutlarındandır, çünki ümmətində baş verəcək hadisələr barədə verdiyi məlumatlar, söylədiyi kimi də olmuşdur.
2. Müsibətə düçar ola biləcək şəxsə, başına gəldiyi zaman ona hazır olması məqsədi ilə və səbr edib mükafat umması üçün, gözlənilən müsibət barədə ona məlumat verməyin icazəli olması.
3. Quran və sünnəyə sarılmaq fitnə və ixtilafdan çıxış yoludur.
4. İnsanları rəhbərlərinə günah olmayan işlərdə tabe olmağa və itaət etməyə, haqsızlıq etsələr belə, onlara qarşı üsyan etməməyə təşviq.
5. Fitnə zamanı hikmətli olmaq və sünnəyə əməl etmək.

6. İnsan, özünə qarşı haqsızlıq edilsə belə üzərində olan haqqı yerinə yetirməlidir.
7. Hədisdə "İki şərdən ən az olanı və ya iki zərərdən ən yüngül olanı seçilir" qaydasına dəlil vardır.

(3156)

(48) – عَنْ عَبْدِ اللَّهِ بنِ عُمرَ رَضِيَ اللَّهُ عَنْهُما أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «كُلُّكُمْ رَاعٍ فَمَسْئُولٌ عَنْ رَعِيَّتِهِ، فَالأَمِيرُ الَّذِي عَلَى النَّاسِ رَاعٍ وَهُوَ مَسْئُولٌ عَنْهُمْ، وَالرَّجُلُ رَاعٍ عَلَى أَهْلِ بَيْتِهِ وَهُوَ مَسْئُولٌ عَنْهُمْ، وَالمَرْأَةُ رَاعِيَةٌ عَلَى بَيْتِ بَعْلِهَا وَوَلَدِهِ وَهِيَ مَسْئُولَةٌ عَنْهُمْ، وَالعَبْدُ رَاعٍ عَلَى مَالِ سَيِّدِهِ وَهُوَ مَسْئُولٌ عَنْهُ، أَلاَ فَكُلُّكُمْ رَاعٍ وَكُلُّكُمْ مَسْئُولٌ عَنْ رَعِيَّتِهِ». [صحيح] - [متفق عليه]

(48) – Abdullah ibn Ömərdən (Allah onların hər ikisindən razı olsun) rəvayət edilir ki, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dedi: "Sizin hər biriniz başçısınız və hamınız öz əlinizin altında olanlara cavabdehsiniz. İnsanların üzərində olan əmir başçıdır və onlardan sorumludur, kişi isə ailəsi üzərində başçıdır və onlara cavabdehdir. Qadın ərinin evi və uşaqları üzərində başçıdır və onlara cavabdehdir və nökər ağasının malında başçıdır və o, buna cavabdehdir. Həqiqətən, sizin hər biriniz başçısınız və hər biriniz əlinizin altında olanlara cavabdehsiniz." [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, cəmiyyətdəki hər bir müsəlmanın diqqət etməli və daşımalı olduğu bir məsuliyyəti vardır. İmam və əmir Allahın ona əmanət etdiyi şeylərin mühafizəçisidir. Onların qanunlarını qorumalı, onları zülm edənlərdən qorumalı, onların düşmənləri ilə vuruşmalı və onların haqqlarını zay etməməlidir. Kişi öz ailəsinin maddi ehtiyacını təmin etmək, onlarla gözəl rəftar etmək, onları maarifləndirmək və tərbiyə etmək vəzifəsini daşıyır. Qadın ərinin evində ev işlərini gözəl şəkildə idarə etmək və övladların tərbiyəsi ilə məşğuldur və buna görə də cavabdehdir. Sahib olunan xidmətçi və muzdlu, əlində olan ağasının malını qoruyub saxlamaqla, ona xidmət etməklə məsuldur və o, buna görə cavabdehdir. Hər bir kəs özünə tapşırılan şeyin başçısıdır və hər kəs öz rəiyyətinə cavabdehdir.

**Hədisin faydalarından:**

1. Müsəlman cəmiyyətində məsuliyyət ümumidir və hər kəs öz halına, gücünə və məsuliyyətinə görə cavabdehdir.
2. Qadının məsuliyyəti böyükdür. Bu ərinin evinin haqqını və övladlarına qarşı borcunu yerinə yetirməkdir.

(5819)

(49) – عن عائشة رضي الله عنها قالت: سمعتُ من رسول الله صلى الله عليه وسلم يقول في بيتي هذا: «اللَّهُمَّ مَنْ وَلِيَ مِنْ أَمْرِ أُمَّتِي شَيْئًا فَشَقَّ عَلَيْهِمْ فَاشْقُقْ عَلَيْهِ، وَمَنْ وَلِيَ مِنْ أَمْرِ أُمَّتِي شَيْئًا فَرَفَقَ بِهِمْ فَارْفُقْ بِهِ». [صحيح] - [رواه مسلم]

(49) – Aişə (Allahın ondan razı olsun) dedi: "Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) mənim bu evimdə belə dediyini eşitdim: "Allahım, hər kim ümmətimin işlərinə rəhbərlik edib, onlara çətinlik yaradarsa, Sən də onun üçün çətinlik yarat. Hər kim də, ümmətimin işlərinə rəhbərlik edib, onlarla yumşaq davranarsa, Sən ona rəhm et”. [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlmanların böyük və yaxud xırda məsələlərdə işlərinin idarə etməsinə sahiblənən kəs üçün dua etmişdir. Fərq etməz bu ümumi rəhbərlik olsun və ya xüsusi rəhbərlik olsun, rəhbərlik etdiyi kəslərə çətinlik yaradarsa və onlara qarşı mülayim olmazsa, Uca Allah da ona çətinlik yaradar, onun əməlinin növündə ona qarşılıq verər.

Kim tabeliyində olan insanlarla yumşaq davranıb, onların işlərini asanlaşdırarsa, Allah da ona lütf edib, işlərini asanlaşdırar.

## Hədisin faydalarından:

1. Müsəlmanların işlərini idarə edən kəsin, ona tabe olan insanlarla yumşaq davranması vacibdir.
2. Əməlin mükafatı yaxud cəzası, onun növündəndir.

3. Yumşaqlığın və sərtliyin dərəcəsi və meyarı, Quran və Sünnətə müxalif olmamalıdır.

(5330)

(50) – عن تميم الداري رضي الله عنه أن النبي صلى الله عليه وسلم قال: «الدِّينُ النَّصِيحَةُ» قُلْنَا: لِمَنْ؟ قَالَ: «لِلَّهِ وَلِكِتَابِهِ وَلِرَسُولِهِ وَلِأَئِمَّةِ الْمُسْلِمِينَ وَعَامَّتِهِمْ».

[صحيح] - [رواه مسلم]

(50) – Təmim Əd-Dəridən (Allahın ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Din nəsihətdir". Biz dedik: Kimə? Peyğəmərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun): "Allaha, kitabına, rəsuluna, müsəlmanların rəhbərlərinə və bütün müsəmanlara" - deyə buyurdu. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, din ixlas və doğruluq üzərində qurulmuşdur, Allahın vacib buyurduğu kimi tam, nöqsansız və yalan olmadan yerinə yetirilməlidir.

Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşdular: Nəsihət kimin üçün olmalıdır? Belə cavab verdi:

Birincisi: Uca və pak olan Allah  üçün olan nəsihət. Bu, əməllərdə ixlaslı olmaq, Ona şərik qoşmamaq, Onun aləmlərin Rəbbi olmasına (rububiyyətinə) iman gətirmək, bütün ibadətlərin yalnız Ona məxsus olmasına və sərf

edilməsinə (uluhiyyətinə) iman etmək, ad və sifətlərinə iman etmək, Onun şənini ucaltmaq və Ona iman etməyə çağırmaqla olur.

İkincisi: Allahın Kitabına - Qurani Kərimə olan nəsihət: Quranın Allahın kəlamı oluğuna, onun kitabların sonuncusu olduğuna, özündən öncəki bütün şəriətlərin hökümünü qaldırdığını etiqad edirik, onu təzim edirik. Onu layiqincə oxuyub, muhkəm (aydın olan) ayələrinə əməl edib, mütəşabih ayələrə təslim oluruq, onun ayələrini təhrif edənlərin təvillərini (öz ağıllarının məhsuluna uyğun yozmalarını) dəf edib, Quranın öyüdlərindən ibrət alıb, Quran elminin təbliği ilə ona dəvət edirik.

Üçüncüsü: Allahın Rəsulu Muhəmməd (Allahın salavatı və salamı onun üzərinə olsun) üçün olan nəsihət: Onun elçilərin sonuncusu olduğuna etiqad edib, dediklərini təsdiq edirik, əmrlərinə tabe olub, qadağalarından çəkinirik, yalnız ona nazil olan şəriətlə Allaha ibadət edirik, onun haqqını uca tutub, ona hörmət edirik, dəvətini yayırıq, şəriətini insanlara çatdırırıq, ona qarşı edilən ittihamları rədd edirik.

Dördüncüsü: Müsəlmanların rəhbərlərinə nəsihət: Haqq üzərə olmalarına yardım edir, idarəetmə işlərində mübahisə edib işlərinə qarışmırıq, Allaha itaət çərçivəsində onlara eşidib itaət edirik.

Beşincisi: Müsəlmanlara nəsihət: Onlara xeyirxahlıq edib, haqqa dəvət edirik, onlara əziyyət verməkdən çəkinirik, onlar üçün xeyir istəyib, təqva və yaxşılıq üzərində onlarla yardımlaşırıq.

**Hədisin faydalarından:**

1. Hər kəs üçün nəsihət əmr edilmişdir.
2. Dində nəsihətin məqamının ucalığı.
3. Din, etiqad, söz və əməllləri əhatə edir.
4. İnsanın nəsihət olunan üçün qəlbini ona qarşı saxtakarlıqdan təmizləməsi və ona xeyir istəməsi nəsihətdən sayılır.
5. Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) gözəl təlimi, belə ki, o, bir məsələni ümumi olaraq qeyd edir, sonra onun təfsilatını açıqlayır.
6. Ən önəmli olandan başlamaq. Belə ki, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ilk olaraq Allah üçün, sonra kitabı üçün, sonra rəsulu üçün, sonra müsəlmanların rəhbərlərinə, daha sonra isə bütün müsəlmanlar üçün olan nəsihəti qeyd etmişdir.

(4309)

(51) – عَنْ عَائِشَةَ رَضِيَ اللهُ عَنْهَا قَالَتْ: تَلَا رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ هَذِهِ الْآيَةَ: {هُوَ الَّذِي أَنْزَلَ عَلَيْكَ الْكِتَابَ مِنْهُ آيَاتٌ مُحْكَمَاتٌ هُنَّ أُمُّ الْكِتَابِ وَأُخَرُ مُتَشَابِهَاتٌ فَأَمَّا الَّذِينَ فِي قُلُوبِهِمْ زَيْغٌ فَيَتَّبِعُونَ مَا تَشَابَهَ مِنْهُ ابْتِغَاءَ الْفِتْنَةِ وَابْتِغَاءَ تَأْوِيلِهِ، وَمَا يَعْلَمُ تَأْوِيلَهُ إِلَّا اللَّهُ، وَالرَّاسِخُونَ فِي الْعِلْمِ يَقُولُونَ آمَنَّا بِهِ كُلٌّ مِنْ عِنْدِ رَبِّنَا وَمَا يَذَّكَّرُ إِلَّا أُولُو الْأَلْبَابِ} [آل عمران: 7]. قَالَتْ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ

وَسَلَّمَ: «فَإِذَا رَأَيْتِ الَّذِينَ يَتَّبِعُونَ مَا تَشَابَهَ مِنْهُ فَأُولَئِكَ الَّذِينَ سَمَّى اللهُ، فَاحْذَرُوهُمْ».

[صحيح] - [متفق عليه]

(51) – Aişədən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bu ayəni oxudu: “Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan mütəşabih ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: “Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir”. Bunu isə ancaq ağıl sahibləri dərk edərlər”.[Əli İmran: 7]. (Aişə) dedi: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: " Əgər mütəşabihlərdən yapışanları görsən, bil ki, onları Allah bu cür adlandırdı və onlardan uzaq durun”.
[Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bu ayəni oxudu: “Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan mütəşabih ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə

Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: “Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir”. Bunu isə ancaq ağıl sahibləri dərk edərlər”.

Burada Uca Allah xəbər verir ki, peyğəmbərinə Quranı nazil edən odur. Quranda bəzi ayələr nəyə dəlalət etdiyi aydın olan, əhkamları məlum olan, anlamı çətin olmayan ayələrdir ki, bunlar kitabın anası və təməlidir. Onlar ixtilaf zamanı müraciət ediləsi ayələrdir. Bir qism ayələr isə bir və ya çox məna daşıyır, bu mənalar bəzi insanlara aydın olmur və ya onlar bu ayə ilə digər ayə arasında ziddiyyət olduğunu zənn edirlər. Sonra Allah insanların bu ayələrə yanaşmasını bəyan edir. Qəlblərində haqdan sapmağa meyli olan insanlar möhkəm ayələri tərk edir, müxtəlif mənalar ehtiva edən mütəşabihlərdən yapışıraq, şübhə yaratmaq, insanları azdırmaq və ayələri öz arzularına uyğun təfsir etmək istəyirlər. Lakin elmdə sabit olanlar isə bunların mütəşabih olduğunu bilərək onları möhkəm ayələrlə təfsir edər, bu ayələrə və onların Pak və Uca Allahdan olduğuna iman gətirərlər. Onlar bilirlər ki, bu ayələr qeyri-müəyyənlik mənasını daşımır və ziddiyyət təşkil etmir. Bunu isə sağlam ağıl sahibləri dərk edib, öyüd ala bilərlər. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) möminlərin anası Aişəyə (Allah ondan razı olsun) deyir ki, əgər mütəşabihlərə yapışanları görsə, bilsin ki, onlar Allahın ayədə adı çəkdiyi həmin şəxslərdir: “Qəlblərində əyrilik olanlar”. Onlardan çəkinin və onlara qulaq asmayın.

## Hədisin faydalarından:

1. Quranın ayələrindən muhkəm olan: ayənin məğzinə işarə edən mənanın aydın və zahir olanıdır, mütəşabih isə bir və ya çox məna daşıyan və analiz və fəhmə ehtiyac olan ayələrdir.
2. Qəlblərində əyrilik olanlar, bidət əhli, insanları şübhəyə salmaq üçün ortaya azdırıcı suallar çıxaranlarla bir yerdə oturmaqdan çəkindirmək.
3. Ayənin sonunda Uca Allahın: “Bunu isə yalnız ağıl sahibləri dərk edərlər” deməsi, qəlbləri əyri olanların ifşasına bir işarədir, elmdə sabit və qüvvətli olanlara isə tərifdir. Yəni: Kim düşünüb müsbət nəticə çıxarmazsa və öz nəfsinin istəklərinə uyarsa, o ağıl sahiblərindən olmaz.
4. Qəlbin əyriliyinin səbəbi mütəşabehə tabe olmaqdır.
5. Mənaları hər kəs tərəfindən anlaşılmayan mütəşabeh ayələrin mənasını, muhkəm ayələrə müraciət edərək təhlil etməyin vacibiyi.
6. Pak olan Allah, insanları sınağa çəkərək iman əhlini zəlalət əhlindən fərqləndirmək üçün Quranın bəzi ayələrini muhkəm, bəzilərini isə mənası aydın olmayan mütəşabih etmişdir.
7. Quranda mütəşabihin olması: alimlərin digərləri üzərində üstünlüyünün, insanların ağıllarının naqisliyinin, Yaradana acizliklərini etiraf edərək təslim olmalarının göstəricisidir.
8. Elmdə qüvvətli olmağın fəziləti və sabit olmağın zəruriliyi.

9. Uca Allahın “Halbuki onun yozumunu Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar” ayəsi ilə əlaqədar təfsirçilərin iki rəyi vardır: "Allah" sözündə dayananlara görə, "onun yozumunu" ifadəsində müəyyən bir şeyin həqiqi bilgisindən və mahiyyətindən bəhs olunur. Buna misal, ruhla bağlı və ya Qiyamət gününün vaxtı kimi məsələlər barədə açıqlama və ya bilgi yalnız Allaha məxsusdur və onu bilmək mümkün deyil. Ona görə elmdə qüvvətli olanlar adı keçən qeybi məsələlərə iman gətirər, həqiqətlərini Allaha həvalə edər, təslim olaraq salamat qalarlar. Amma kim "Allah" sözündə dayanmayıb, cümləyə davam edərsə, bu zaman təfsirçilərin rəyinə görə "yozum" sözündən qəsd edilən məna təfsir, açıqlama və izahdır. Beləliklə mənası - onun yozumunu Allah bilir, elmdə qüvvətli, sabit olanlar bilir, ona iman gətirirlər və mənasını muhkəm ayələrə müraciət etməklə təsbit edirlər.

(65062)

(52) – عن أبي سعيد الخُدْرِيِّ رضي الله عنه قال: سمعتُ رسولَ الله صلى الله عليه وسلم يقول: «مَنْ رَأَى مِنْكُمْ مُنْكَرًا فَلْيُغَيِّرْهُ بِيَدِهِ، فَإِنْ لَمْ يَسْتَطِعْ فَبِلِسَانِهِ، فَإِنْ لَمْ يَسْتَطِعْ فَبِقَلْبِهِ، وَذَلِكَ أَضْعَفُ الْإِيمَانِ». [صحيح] - [رواه مسلم]

(52) – Əbu Səid əl-Xudridən (Allah ondan razı olsun) rəvayətə görə o belə demişdir: Mən, Allah Rəsulunun (Allahın salamı və salavatı onun üzərinə olsun) belə dediyini eşitdim: "Sizlərdən biriniz bir münkər gördükdə,

onu əli ilə dəyişsin, əgər bacarmırsa, dili ilə dəyişsin, əgər onu da bacarmırsa, qəlbi ilə dəyişsin, bu isə imanın ən zəif dərəcəsidir". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salamı və salavatı onun üzərinə olsun) müsəlmana, Allahın və Onun rəsulunun qadağan etdiyi hər bir münkəri gücü çatacağı şəkildə dəyişməyi əmr etmişdir. Əgər bir şəxs münkər görərsə, gücü çatırsa, onu əli ilə dəyişməsi vacibdir. Əgər bunu bacarmazsa, onu dili ilə dəyişməlidir. Yəni: həmin əməl sahibini o pis işdən çəkindirməli, bu əməlin ona olan zərərini bəyan etməli və onu, bu şərin əvəzinə xeyirli bir işə yönəltməlidir. Əgər bu üslubla da bacarmazsa, bu zaman onu qəlbi ilə dəyişməlidir. Yəni: o əmələ qəlbi ilə nifrət etməli və gücü çataçağı təqdirdə onu dəyişəcəyinə əzm etməlidir. Münkəri qəlblə inkar etmək, münkəri dəyişmədə imanın ən zəif dərəcəsidir.

**Hədisin faydalarından:**

1. Bu hədis, münkərin dəyişdirilmə mərtəbələrini izah edən əsas hədisdir.
2. Münkəri qadağan etməkdə mərhələlər və hər kəsin bacarığı və qüdrəti daxilində olmasının əmr ediməsi.
3. Münkərdən çəkindirmək, dində hər bir müsəlmana vacib olan əzəmətli mövzudur və hər bir müsəlman da bacardığı qədər bununla mükəlləfdir.
4. Yaxşılığı əmr edib, münkərdən çəkindirmək imanın xüsusiyyətlərindəndir. İman artır və azalır.

5. Edilən bir felin münkər olduğunu bilmək, münkərdən çəkindirməkdə şərtdir.
6. Həmçinin münkəri dəyişdirdikdə, ondan da daha böyük bir münkərin ortaya çıxmaması, münkəri dəyişdirməkdə olan şərtlərdən biridir.
7. Münkərdən çəkindirmənin ədəb və şərtləri vardır ki, müsəlmanın onları öyrənməsi lazımdır.
8. Münkəri inkar etmək, şəri siyasəti bilməyi və həmçinin elm və bəsirət sahibi olmağı tələb edir.
9. Münkəri qəlb ilə də olsa inkar etməmək, imanın zəif olduğuna dəlalət edir.

(65001)

(53) – عَنِ النُّعْمَانِ بْنِ بَشِيرٍ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «مَثَلُ القَائِمِ عَلَى حُدُودِ اللَّهِ وَالوَاقِعِ فِيهَا، كَمَثَلِ قَوْمٍ اسْتَهَمُوا عَلَى سَفِينَةٍ، فَأَصَابَ بَعْضُهُمْ أَعْلاَهَا وَبَعْضُهُمْ أَسْفَلَهَا، فَكَانَ الَّذِينَ فِي أَسْفَلِهَا إِذَا اسْتَقَوْا مِنَ المَاءِ مَرُّوا عَلَى مَنْ فَوْقَهُمْ، فَقَالُوا: لَوْ أَنَّا خَرَقْنَا فِي نَصِيبِنَا خَرْقًا وَلَمْ نُؤْذِ مَنْ فَوْقَنَا، فَإِنْ يَتْرُكُوهُمْ وَمَا أَرَادُوا هَلَكُوا جَمِيعًا، وَإِنْ أَخَذُوا عَلَى أَيْدِيهِمْ نَجَوْا، وَنَجَوْا جَمِيعًا». [صحيح] - [رواه البخاري]

(53) – Numan bin Bəşir (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət etmişdir: “Allahın qayda-qanunlarına riayət edən və onları tərk edən toplumun məsəli gəmidə püşk atıb, onların bir qisminə gəminin yuxarısı, digər bir qisminə isə aşağı hissəsi nəsib olan bir camaatın misalı kimidir. Aşağıda olanlar su əldə etmək üçün yuxarıdakıların yanına gedib dedilər: “Nə yaxşı olardı

biz öz hissəmizdə bir deşik açardıq və bizdən üstəkilərə zərər verməzdik". Əgər yuxarıdakılar onların istədiklərinə manə olmasalar, hamısı bütövlükdə həlak olarlar, yox əgər onlara mane olsalar, birlikdə xilas olarlar”. [Səhih] - [Əl-Buxari rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Allahın qayda-qanunlarına riayət edən, Allahın əmrini yerinə yetirən, yaxşı işlər görməyi əmr edən, pislikdən çəkindirən insanları misal gətirmişdir. Bir də, Allahın qanunlarından kənara çıxanları, haqqı tərk edənləri, pislik edənləri və bunun da toplumun nicat tapmasına mənfi təsiri olanları misal gətirmiş və bəyan etmişdir ki, bunların misalı, gəmiyə minən bir tayfanın misalı kimidir. Gəminin üstündə kimin, alt hissəsində kimin oturacağına dair püşk atarlar və onların bəzilərinə üstdə, bəzilərinə isə altda yerləşmək nəsib olar. Bu arada alt hissədə yerləşənlər su istədikdə yuxarıdakıların yanına gedərdilər. Sonra altda olanlar dedilər: “Biz yuxarıdakılara əziyyət verməmək üçün aşağıda öz yerimizdə bir deşik açsaydıq".

Əgər yuxarıdakılar onlara bunu etməyə izn versələr, gəmi hamı ilə birlikdə batar. Yox əgər bunu onlara qadağan edib, mane olsalar, hər iki dəstə nicat tapar.

## Hədisin faydalarından:

1. Toplumları qorumaq və onların nicat tapmasına dəstək üçün xeyir işləri təbliğ edib, pislikdən çəkindirmənin əhəmiyyəti.

2. Tədris üsullarından biri də, gözlə görünən və hissiyatla dərk edilən mənaları daha aydın çatdırmaq üçün misallar gətirməkdir.
3. İnkar edilməyən zahiri pis əməlin zərəri, cəmiyyətə qarşı edilmiş bir fəsaddır.
4. Toplumun həlak olması, pis əməl sahiblərinin yer üzündə fəsad yaymaqlarına qarşı çıxmamaqdan irəli gəlir.
5. Gözəl niyyət edib pis iş görmək, əməlin saleh olmasına kifayət deyil.
6. Müsəlman toplumunda məsuliyyət müştərəkdir və konkret bir kəsə həvalə edilmir.
7. Fərdin günahı inkar edilmədikdə, xalqın ona görə əzab görməsi.
8. Pis iş görənlər də nifaq əhli kimi öz pisliklərini cəmiyyət üçün "xeyirli" şəkildə göstərirlər.

(3341)

(54) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه أَنَّ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «مَنْ دَعَا إِلَى هُدًى كَانَ لَهُ مِنَ الْأَجْرِ مِثْلُ أُجُورِ مَنْ تَبِعَهُ، لَا يَنْقُصُ ذَلِكَ مِنْ أُجُورِهِمْ شَيْئًا، وَمَنْ دَعَا إِلَى ضَلَالَةٍ كَانَ عَلَيْهِ مِنَ الْإِثْمِ مِثْلُ آثَامِ مَنْ تَبِعَهُ، لَا يَنْقُصُ ذَلِكَ مِنْ آثَامِهِمْ شَيْئًا». [صحيح] – [رواه مسلم]

(54) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: "Kim doğru yola dəvət edərsə, o kəs, arxasınca gedənlərin savabı qədər savab qazanar və

bu onların savablarından heç nəyi əksiltməz, kim də zəlalətə dəvət edərsə, onun arxasınca gedənlərin günahı qədər günah qazanar və bu onların günahından heç nəyi əksiltməz". [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) açıq-aydın bildirmişdir ki, kim insanları söz və ya əməllə, haqq və xeyir yoluna irşad etsə, yönəltsə və təşviq etsə, mükafatı, ona tabe olan kəslərin mükafatı qədər olacaq və buna görə ona tabe olanların mükafatından heç bir şey azalmayacaq. Kim insanları söz və ya əməllə, batil yola, günah, şərr və ya haram bir işə yönəltsə, ona tabe olanların günahı qədər günah qazanacaq və ona tabe olanların günahlarından da heçnə əksilməyəcək.

## Hədisin faydalarından:

1. İstər az olsun, istərsə də çox - doğru yola dəvətin fəziləti və dəvət edənin mükafatı, əməl edənin əldə etdiyi mükafat qədər, eynilə həmin mükafata sahib olması. Bu da Allahın böyük lütfündən və səxavətinin kamilliyindəndir.
2. Zəlalətə çağırışın istər az, istərsə də çox olması təhlükəlidir və bu yola çağıran da o əməli edən qədər günah qazanar.
3. Əməlin mükafatı və yaxud cəzası, onun növündəndir, kim xeyirə dəvət edərsə, bu xeyirə əməl edənin mükafatı qədər savab qazanar. Kim isə şərr əməllərə dəvət edərsə, bu əməli törədənin günahı qədər günah qazanar.

4. Müsəlman, insanların gözü önündə günah işlərdə nümunə olmaqdan çəkinməlidir, çünki onu özünə örnək götürən insanları günaha təşviq etməsə belə onların törətdiyi günahlara görə də günah daşıyır.

(3373)

(55) – عن أبي مسعود الأنصاري رضي الله عنه قال: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ فَقَالَ: إِنِّي أُبْدِعَ بِي فَاحْمِلْنِي، فَقَالَ: «مَا عِنْدِي»، فَقَالَ رَجُلٌ: يَا رَسُولَ اللهِ، أَنَا أَدُلُّهُ عَلَى مَنْ يَحْمِلُهُ، فَقَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «مَنْ دَلَّ عَلَى خَيْرٍ فَلَهُ مِثْلُ أَجْرِ فَاعِلِهِ». [صحيح] - [رواه مسلم]

(55) – Əbu Məsud Əl-Ənsaridən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Bir kişi Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gələrək dedi: "Mənim miniyim-heyvanım həlak oldu, mənə minik ver". Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Yoxumdur". Orada olan bir kişi dedi: "Ey Allahın Rəsulu, mən ona minik verəcək kimsəyə yönəldərəm". Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "Kim xeyirə yönəldərsə, o, xeyir iş görənlə əcrdə şərik olar". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Bir kişi Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gələrək dedi: Mənim miniyim həlak oldu, məni miniyə mindir və ya məni mənzilimə çatdıracaq bir minik ver. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona miniyinin olmadığını

bildirdi. Orada iştirak edən bir kişi dedi ki, ey Allahın Rsəulu, mən onu minik verəcək birinə yönəldərəm. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) də onun əcrdə sədəqə edənlə şərik olması ilə müjdələyir, çünki o, ehtiyacı olan kəsi axtardığına yönləndirmişdir.

**Hədisin faydalarından:**

1. Xeyirə vasitəçiliyə təşviq.
2. Xeyir əməli etməyə maraq oyatmaq, müsəlman toplumunun mükəmməl surətdə qurulmasına və onun həmrəyliyinə səbəbdir.
3. Uca Allahın fəzilətinin genişliyi.
4. Bu hədis bütün xeyir əməlləri əhatə edən ümumi şəri qaydadır.
5. İnsan ondan yardım istəyənin ehtiyacını ödəyə bilmirsə, o zaman onu başqasına yönəltməlidir.

(5354)

(56) – عَنْ سَهْلِ بْنِ سَعْدٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ يَوْمَ خَيْبَرَ: «لَأُعْطِيَنَّ هَذِهِ الرَّايَةَ غَدًا رَجُلًا يَفْتَحُ اللَّهُ عَلَى يَدَيْهِ، يُحِبُّ اللَّهَ وَرَسُولَهُ وَيُحِبُّهُ اللَّهُ وَرَسُولُهُ»، قَالَ: فَبَاتَ النَّاسُ يَدُوكُونَ لَيْلَتَهُمْ أَيُّهُمْ يُعْطَاهَا، فَلَمَّا أَصْبَحَ النَّاسُ غَدَوْا عَلَى رَسُولِ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ كُلُّهُمْ يَرْجُو أَنْ يُعْطَاهَا، فَقَالَ: «أَيْنَ عَلِيُّ بْنُ أَبِي طَالِبٍ؟» فَقِيلَ: هُوَ يَا رَسُولَ اللَّهِ يَشْتَكِي عَيْنَيْهِ، قَالَ: «فَأَرْسِلُوا إِلَيْهِ»، فَأُتِيَ بِهِ فَبَصَقَ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ فِي عَيْنَيْهِ وَدَعَا لَهُ، فَبَرَأَ حَتَّى كَأَنْ لَمْ يَكُنْ بِهِ وَجَعٌ، فَأَعْطَاهُ الرَّايَةَ، فَقَالَ عَلِيٌّ: يَا رَسُولَ اللَّهِ، أُقَاتِلُهُمْ حَتَّى يَكُونُوا مِثْلَنَا؟ فَقَالَ: «انْفُذْ عَلَى

رِسْلِكَ حَتَّى تَنْزِلَ بِسَاحَتِهِمْ، ثُمَّ ادْعُهُمْ إِلَى الإِسْلَامِ، وَأَخْبِرْهُمْ بِمَا يَجِبُ عَلَيْهِمْ مِنْ حَقِّ اللَّهِ فِيهِ، فَوَاللَّهِ لَأَنْ يَهْدِيَ اللَّهُ بِكَ رَجُلًا وَاحِدًا، خَيْرٌ لَكَ مِنْ أَنْ يَكُونَ لَكَ حُمْرُ النَّعَمِ». [صحيح] - [متفق عليه]

(56) – Səhl bin Səddən (Allah ondan razı olsun) rəvayət edilir ki, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Xeybər günü dedi: “Sabah bu bayrağı elə bir kişiyə verəcəm ki, Allah onun əli ilə zəfər nəsib edəcək, o, Allah və Rəsulunu sevir, Allah və Rəsulu da onu sevir". Ravi dedi: İnsanlar o gecəni, bayrağın kimə veriləcəyini düşünərək keçirdilər. Sabah olduğunda onların hər biri bayrağın özünə veriləcəyi ümidilə Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına getdi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Əli bin Əbu Talib hardadır?". Dedilər: Ey Allahın Rəsulu, gözlərindən şikayət edir (gözləri ağrıyır). Dedi: “Onun yanına adam göndərin (gəlsin)”. Əlini gətirdilər və Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) onun gözlərinə tüpürdü və onun üçün dua etdi. Əli, sanki heç bir ağrısı olmamış kimi dərhal sağaldı və (Peyğəmbər), bayrağı ona verdi. Əli (Allah ondan razı olsun) dedi: "Ey Allahın Rəsulu! Onlar da bizim kimi olana qədər onlarla döyüşəcəmmi?". Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "Sən, onların olduqları yerə yavaş-yavaş get (yəni dərhal döyüşə girmə). Sonra onları İslama dəvət et və Allahın haqqı olaraq yerinə yetirmələri vacib olan şeyləri onlara bildir.

Allaha and olsun ki, Allahın, sənin əlinlə tək bir insana hidayət etməsi, sənin üçün qırmızı dəvələrə sahib olmağından daha xeyirlidir". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) növbəti gündə müsəlmanların Xeybər yəhudiləri üzərində qələbə çalacağını və bunun bayrağı verəcəyi kişinin əli ilə olacağını səhabələrə xəbər verdi. Bu bayraq, əsgərlərin şüar olaraq götürdüyü bayraqdır. Bu kişinin vəsfindən, Allahı və Rəsulunu (Allahın salavatı və salamı onun üzərinə olsun) sevməsi, Allah və Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) da onu sevməsidir. Səhabələr bu böyük şərəfi arzulayaraq, bayrağın kimə veriləcəyi barədə gecə müzakirə aparıb, danışdılar. Səhər açılanda hamısı Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına getdilər. Onların hər biri bu şərəfi qazanacağına ümid edirdi.

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Əli bin Əbu Talib (Allah ondan razı olsun) haqqında soruşdu.

Dedilər: O, xəstədir, gözlərindən şikayət edir.

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) onun yanına adam göndərdi və onu gətirdilər. Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) şərəfli ağız suyundan Əlinin gözlərinə tüpürdü və onun üçün dua etdi və o, heç bir ağrısı olmamış kimi sağaldı. Peyğəmbər (Allahın salavatı və salamı onun

üzərinə olsun) bayrağı ona verdi və ona əmr etdi ki, ehtiyatla gedərək düşmən qalasına yaxınlaşsın və onları İslama daxil olmağa çağırsın. Əgər cavab versələr, onlara hansı fərzlərin vacib olduğunu xəbər versin.

Sonra, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Əliyə Allahın yoluna dəvət etməyin fəzilətini bəyan edərək bildirdi ki, dəvətçinin bir adamın hidayətinə səbəb olması onun üçün ərəblərin ən qiymətli sərvəti olan qırmızı dəvələrə sahib olmağı və ya onları sədəqə verməyindən daha xeyirlidir.

## Hədisin faydalarından:

1. Əli ibn Əbu Talibin (Allah ondan razı olsun olsun) fəziləti və Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) Allah və Rəsulunun ona olan sevgisinə və onun da Allah və Rəsuluna olan sevgisinə şahidlik etməsi.
2. Səhabələrin xeyrə olan hərisliyi və xeyrdə yarışmaları.
3. Döyüş zamanı ədəbli olmağın bəyənilməsi, yüngüllüyün və lazımsız, narahatedici səslərin tərk edilməsi.
4. Onun (Allahın salavatı və salamı onun üzərinə olsun) peyğəmbərliyinin dəlillərindən biri də, yəhudilər üzərində qələbə xəbərini verməsi və Allahın izni ilə Əli ibn Əbu Talibin (allah ondan razı olsun) gözlərinin onun əli ilə sağalmasıdır.
5. Cihadın ən böyük məqsədi, insanların İslama daxil olmasıdır.

6. Dəvət tədricən (yavaş-yavaş) edilir, kafirdən əvvəlcə iki şəhadət kəliməsini söyləyərək İslama daxil olması istənilir və ondan sonra ona İslamın fərzlərini yerinə yetirməsi əmr edilir.
7. İslama dəvət etməyin fəziləti və onda, dəvət edilənə və dəvət edənə olan xeyirlər. Dəvət edilən şəxs hidayət oluna bilər, dəvətçi isə böyük bir savab qazanır.

(3409)

(57) – عن ابنِ عُمَرَ رضي الله عنهما قال: قال رسولُ الله صلَّى الله عليه وسلم:

«مَن تَشَبَّهَ بِقَوْمٍ فَهُوَ مِنْهُمْ». [حسن] - [رواه أبو داود وأحمد]

(57) – İbn Ömərdən (Allah onların hər ikisindən də razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Kim özünü bir topluma oxşadarsa, o da onlardandır". [Həsən] - [Əbu Davud, Əhməd rəvayət ediblər]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, kim kafirlər, fasiqlər yaxud salehlərdən bir camaata özünü bənzədərsə - belə ki, onların əqidə, ibadət və adətlərindəki xüsusiyyətlərdən birini edərsə, o da onlardandır, çünki, onlara zahirdə bənzəmək daxilən bənzəməyə aparır - şübhə yoxdur ki, bir camaata özünü oxşatmaq onlara heyranlıqdan doğur - bəzən də onlara məhəbbət bəsləməyə, onları ucaltmağa,

onlara güvənməyə, daxildə və ibadətdə onlara bənzəməyə aparıb çıxarır. Bundan Allaha sığınırıq.

**Hədisin faydalarından:**

1. Kafirlərə və fasiqlərə bənzəməkdən çəkindirmə.
2. Salehlərə bənzəmək və onların yolu ilə getməyə çağırış.
3. Zahirdə bəznərlik daxildə məhəbbət doğurar.
4. İnsan hədə xəbərdarlığını və günahı, bənzəmənin miqdarı və növünə görə qazanır.
5. Kafirlərə dinlərində və onlara xas olan adətlərində bənzəməyin qadağan edilməsi, lakin bu qəbildən olmayan, məsələn, istehsalatın öyrənilməsi və bənzəri məsələlərdəki oxşarlıq qadağaya daxil deyil.

(5353)

(58) – عن أبي هريرة رضي الله عنه أن النبيَّ صَلّى اللهُ عَلَيْهِ وسَلَّم قَالَ: «الرَّجُلُ عَلَى دِينِ خَلِيلِهِ، فَلْيَنْظُرْ أَحَدُكُم مَنْ يُخَالِلُ». [حسن] - [رواه أبو داود والترمذي وأحمد]

(58) – Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "İnsan dostunun dini üzərindədir və sizdən hər biriniz kiminlə dostluq etdiyinə baxsın". [Həsən] - [Əbu Davud, Ət-Tirmizi, Əhməd]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) insanın həyat tərzi və vərdişlərində dostu və ən yaxın yoldaşına bənzədiyini, dostluğun insanın əxlaqına,

davranışına və hərəkətlərinə təsir etdiyini bəyan etmiş və bu səbəbdən yaxşı dost seçiminə yönəltmişdir. Çünki o, dostunu imana, hidayətə və xeyirxahlığa yönəldir və yoldaşına yardımçı olur.

**Hədisin faydalarından:**

1. Yaxşı insanlarla dostluq etmək və onları seçməyin əmr edilməsi, pis insanlarla yoldaşlıq etməyin isə qadağan edilməsi.
2. Qohumu deyil dostu xüsusiləşdirdi; çünki dostu seçən sənsən, qardaş və qohuma gəlincə, sənin bunda heç bir seçimin yoxdur.
3. Yoldaş seçmək, fikirləşdikdən sonra olmalıdır.
4. İnsan möminlərlə dostluq etməklə dinini gücləndirir, fasiqlərlə dostluq etməklə isə onu zəiflədir.

(3122)

(59) – عن تَميم الداري رضي الله عنه، قال: سمعتُ رسولَ الله صلى الله عليه وسلم يقول: «لَيَبْلُغَنَّ هَذَا الأَمْرُ مَا بَلَغَ اللَّيْلُ وَالنَّهَارُ، وَلَا يَتْرُكُ اللهُ بَيْتَ مَدَرٍ وَلَا وَبَرٍ إِلَّا أَدْخَلَهُ اللهُ هَذَا الدِّينَ، بِعِزِّ عَزِيزٍ أَوْ بِذُلِّ ذَلِيلٍ، عِزًّا يُعِزُّ اللهُ بِهِ الإِسْلَامَ، وَذُلًّا يُذِلُّ اللهُ بِهِ الكُفْرَ» وَكَانَ تَمِيمٌ الدَّارِيُّ يَقُولُ: قَدْ عَرَفْتُ ذَلِكَ فِي أَهْلِ بَيْتِي، لَقَدْ أَصَابَ مَنْ أَسْلَمَ مِنْهُمُ الْخَيْرُ وَالشَّرَفُ وَالْعِزُّ، وَلَقَدْ أَصَابَ مَنْ كَانَ مِنْهُمْ كَافِرًا الذُّلُّ وَالصَّغَارُ وَالْجِزْيَةُ. [صحيح] - [رواه أحمد]

(59) – Təmim Əd-Dəridən (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: “Mən Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini

eşitdim: "Gecə və gündüzün çatdığı hər yerə bu iş də (İslam dini) çatacaqdır. Allah, qüdrətlinin izzəti və zəlilin zilləti ilə, bu dini daxil etmədiyi nə bir şəhər, nə də ki bir kənd evi buraxmayacaq, Allahın İslamla izzətləndirdiyi şərəflənəcək, küfrlə zəlil etdiyi isə zəlil olacaqdır". Və Təmim əd-Dəri deyərdi: "Mən bunu öz ailəmdə müşahidə etdim, artıq onlardan İslamı qəbul edənlərə xeyir, şərəf və izzət nəsib oldu. Onlardan kafir olanlara isə zillət, alçaldılma və cizyə vermək nəsib oldu". [Səhih] - [Əhməd rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, bu din yer üzünün hər tərəfinə yayılacaq, gecə və gündüzün çatdığı hər yerə bu din də çatacaq. Allahu Təələ şəhər və kəndlərdə, səhrada və ya çöllüklərdə bu dini daxil etmədiyi bir ev buraxmayacaq. Kim bu dini qəbul edər və ona iman edərsə, İslamın izzəti ilə izzətlənər. Kim onu rədd edər və onu inkar edərsə, zəlil və alçalmış olar.

Sonra səhabə Təmim əd-Dəri (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verdiyi bu şeyi xüsusi olaraq öz ailəsində müşahidə etdiyini xəbər verdi. Çünki onlardan kim müsəlman oldusa, o, şərəf, izzət və xeyirə nail oldu. Onlardan hər kim kafir oldusa, müsəlmanlara mal (pul) verməklə yanaşı, zillətə və alçalmağa məruz qaldı.

**Hədisin faydalarından:**

1. Müsəlmanlara müjdə vardır ki, onların dini yer üzünün hər tərəfinə yayılacaq.
2. İzzət İslam və müsəlmanlara, zillət isə küfr və kafirlərə məxsusdur.
3. Hadisənin, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verdiyi kimi baş verməsində, onun peyğəmbərliyinə dair dəlillərdən bir dəlil və əlamətlərindən bir əlamət vardır.

(11220)

(60) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه عَنْ رَسُولِ اللهِ صلى الله عليه وسلم أنه قال:

«وَالَّذِي نَفْسُ مُحَمَّدٍ بِيَدِهِ لَا يَسْمَعُ بِي أَحَدٌ مِنْ هَذِهِ الْأُمَّةِ يَهُودِيٌّ وَلَا نَصْرَانِيٌّ، ثُمَّ يَمُوتُ وَلَمْ يُؤْمِنْ بِالَّذِي أُرْسِلْتُ بِهِ إِلَّا كَانَ مِنْ أَصْحَابِ النَّارِ». [صحيح] - [رواه مسلم]

(60) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Muhəmmədin nəfsi əlində olan Allaha and olsun ki, bu ümmətdən yəhudi və ya xristian mənim haqqımda eşidərsə, sonra göndərildiyimə (bu dinə) iman gətirmədən ölərsə, cəhənnəm əhlindən olar”. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Allaha and içir ki, bu ümmətdən istər yəhudi, istər xristian, istərsə də başqa bir millətin nümayəndəsinə Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə

olsun) İslama çağırışı, dəvəti çatarsa, sonra ona iman gətirmədən ölərsə, cəhənnəm əhlindən olub, orada əbədi qalar.

**Hədisin faydalarından:**

1. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) risalətinin (çağırışının) bütün aləm üçün ümumiliyi, ona tabe olmağın vacibliyi və onun şəriəti ilə artıq bütün digər şəriətlərin qanunlarının ləğv olması.
2. Kim Peyğəmbəri (Allahın salavatı və salamı onun üzərinə olsun) küfr edərsə, onun digər peyğəmbərlərə (Allahın salavatı və salamı onların üzərinə olsun) iman gətirmək iddiası ona heç bir fayda verməz.
3. Kim Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) haqqında eşitməyibsə və İslam dəvəti ona çatmamışsa, üzrlüdür və axirətdə onun aqibəti Uca Allaha aiddir.
4. Ölümə yaxın olsa belə, hətta ağır xəstəlik zamanı, taki can boğaza çatmayınca İslamı qəbul edib bəhrələnmək mümkündür.
5. Yəhudi və xristianlar da daxil olmaqla kafirlərin dinini doğru saymaq küfrdür.
6. Hədisdə yəhudi və xristianın qeyd edilməsi - digər kafirlərə də xəbərdarlıqdır. Çünki yəhudi və xristianların kitabı var, əgər onlara xəbərdarlıq edilirsə, kitabı olmayanlar bu xəbərdarlığa daha çox layiqdirlər və onların hamısının Peyğəmbərin

(Allahın salavatı və salamı onun üzərinə olsun) dininə daxil olub ona itaət etmələri vacibdir.

(3272)

(61) – عَنْ ابْنِ عَبَّاسٍ رضي الله عنهما قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ غَدَاةَ الْعَقَبَةِ وَهُوَ عَلَى نَاقَتِهِ: «الْقُطْ لِي حَصًى» فَلَقَطْتُ لَهُ سَبْعَ حَصَيَاتٍ، هُنَّ حَصَى الْخَذْفِ، فَجَعَلَ يَنْفُضُهُنَّ فِي كَفِّهِ وَيَقُولُ: «أَمْثَالَ هَؤُلَاءِ فَارْمُوا» ثُمَّ قَالَ: «أَيُّهَا النَّاسُ، إِيَّاكُمْ وَالْغُلُوَّ فِي الدِّينِ، فَإِنَّمَا أَهْلَكَ مَنْ كَانَ قَبْلَكُمْ الْغُلُوُّ فِي الدِّينِ». [صحيح] - [رواه ابن ماجه والنسائي وأحمد]

(61) – İbn Abbasdan (Allah hər ikisindən razı olsun) belə söylədiyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Əqabə gününün səhəri dəvəsinin üstündə ikən belə buyurdu: “Mənə daşlar topla”. Mən onun üçün atılacaq böyüklükdə yeddi daş topladım. Onları ovucunda silkələdi və dedi: “Bu böyüklükdə olanları atın!” Sonra dedi: “Ey insanlar, dində həddi aşmaqdan çəkinin, həqiqətən də sizdən əvvəlkiləri dində həddi aşmaqları məhv etdi”. [Səhih] - [İbn Məcə, Ən-Nəsai və Əhməd rəvayət ediblər]

**Şərh (izah):**

İbn Abbas (Allah hər ikisindən razı olsun) xəbər verir ki, o, Cəmarətul-Əqəbəyə daş atılan günün səhəri - Qurban bayramı günü, vida həccində Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanında idi.

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona çınqıl daşları yığmasını əmr etdi. O, da bir dənəsi noxud və ya fındıq böyüklüyündə olan yeddi daş topladı. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) onları əlinə qoydu, sonra onları silkələdi və dedi:
“Bu böyüklükdə olanları atın”. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) dini məsələlərdə ifratçılıq, şiddətli olmaq və həddi aşmaqdan çəkindirdi. Çünki, əvvəlki ümmətləri yalnız dində həddi aşmaq, ifratçılıq və şiddətli olmaq həlak etmişdir.

**Hədisin faydalarından:**

1. Dində həddi aşmağın qadağan edilməsi, bunun pis aqibətinin və həlak səbəbi olmasının bəyan olunması.
2. Bizdən öncəki ümmətlərin düşdüyü xətalardan qorunmaq üçün onlardan ibrət almaq.
3. Sünnəyə tabe olmağa təşviq etmək.

(3395)

(62) – عن عبد الله بن مسعود قال: قال رسول الله صلى الله عليه وسلم: «هَلَكَ الْمُتَنَطِّعُون» قالها ثلاثًا.  [صحيح] - [رواه مسلم]

(62) – Abdullah bin Məsud - Allah ondan razı olsun - rəvayət edir ki, Allah Rəsulu - salləllahu aleyhi va səlləm - belə buyurmuşdur: "İfratçılar həlak oldular". Bunu üç dəfə təkrar etmişdir. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va sələm - din və dünyalarında, söz və əməllərində Allah Rəsulunun - salləllahu aleyhi va sələm - gətirdiyi şəri hüdudları aşan hidayət və elmdən uzaq olan kimsələrin xüsran və məyusluq içində olduqlarını xəbər vermişdir.

**Hədisin faydalarından:**

1. Hər bir işdə ifrata varmaq və həddi aşmaq haram edilmişdir. Xüsusən də ibadətlərdə və saleh kəslərin təzim edilməsi kimi işlərdə bunlardan çəkinməyə təşviq edilmişdir.
2. İbadət və digər işlərdə şəriətin tələblərinə tabe olaraq kamil olanı etməyə çalışmaq təriflənən bir əməldir.
3. Önəmli olan bir işin təkrar vurğulanması müstəhəbdir. Çünki Peyğəmbər - salləllahu aleyhi va sələm - bu cümləni üç dəfə təkrarlamışdır.
4. İslamın xoşniyyət və asanlıq dini olması.

(3420)

(63) – عَنْ عَدِيِّ بْنِ حَاتِمٍ عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «الْيَهُودُ مَغْضُوبٌ عَلَيْهِمْ، وَالنَّصَارَى ضُلَّالٌ». [صحيح] - [رواه الترمذي]

(63) – Adiy bin Hətimdən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Yəhudilər qəzəbə düçar olmuş, xristianlar isə zəlalətə düşmüşlər". [Səhih] - [Ət-Tirmizi rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurmuşdur ki, yəhudilər Allahın qəzəbinə gəlmiş bir qövmdür. Çünki onlar həqiqəti bildilər və ona əməl etmədilər. Xristianlar isə azmış qövmdür, çünki onlar elmsiz əməl etdilər.

## Hədisin faydalarından:

1. Elmlə əməli cəm etmək, qəzəbə düçar olmaqdan və zəlalətə düşməkdən qurtuluşdur.
2. Yəhudi və xristianların yolundan çəkindirmək, düz yola - İslama bağlı olmaq.
3. Yəhudi və xristianlardan hər biri zəlalətə və qəzəbə düçar olmuşdur, lakin yəhudilərin xüsusi sifəti qəzəbə uğramaları, xristianların xüsusi sifətləri isə zəlalətə düçar olmalarıdır.

(65061)

(64) – عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رضي الله عنهما قَالَ: سَمِعْتُ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «كَتَبَ اللهُ مَقَادِيرَ الْخَلَائِقِ قَبْلَ أَنْ يَخْلُقَ السَّمَاوَاتِ وَالْأَرْضَ بِخَمْسِينَ أَلْفَ سَنَةٍ، قَالَ: وَعَرْشُهُ عَلَى الْمَاءِ». [صحيح] - [رواه مسلم]

(64) – Abdullah bin Amr bin Asdan (Allah onlardan razı olsun) rəvayət edildiyinə görə belə dedi: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: “Allah məxluqatın qədərini, yeri və göyləri yaratmazdan əlli min il öncə yazmışdır və (o zaman) Ərşi suyun üzərində idi”. [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Allah yeri və göyləri yaratmazdan əlli min öncə məxluqatın qədəriylə əlaqəli olan; həyat, ölüm, ruzi və digər baş verəcəkləri lövhu məhfuzda təfsilatı ilə yazmışdır və bütün bunlar, izzət və cəlal sahibi olan Allahın yazdığı kimi baş verir. Hər baş verən və olan Allahın qəza və təqdiriylədir. Qul üçün təqdir edilən şey ondan yan keçməz, ona yazılmayan şey isə onun başına gəlməz.

## Hədisin faydalarından:

1. Qəza və qədərə imanın vacibliyi.
2. Qədər: Allahın olacaq hər şeyi bilməsi, yazması, istəməsi və bunları yaratmasıdır.
3. Yerin və göylərin yaradılmasından öncə hər şeyin qədərinin yazıldığına iman etmək, qədərə razılıq və təslimiyyət doğurur.
4. Yerin və göylərin yaradılmasından öncə Rəhmanın ərşi suyun üzərində idi.

(65038)

(65) – عَنْ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ: حَدَّثَنَا رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ وَهُوَ الصَّادِقُ المَصْدُوقُ: «أَنَّ خَلْقَ أَحَدِكُمْ يُجْمَعُ فِي بَطْنِ أُمِّهِ أَرْبَعِينَ يَوْمًا وَأَرْبَعِينَ لَيْلَةً، ثُمَّ يَكُونُ عَلَقَةً مِثْلَهُ، ثُمَّ يَكُونُ مُضْغَةً مِثْلَهُ، ثُمَّ يُبْعَثُ إِلَيْهِ المَلَكُ، فَيُؤْذَنُ بِأَرْبَعِ كَلِمَاتٍ، فَيَكْتُبُ: رِزْقَهُ وَأَجَلَهُ وَعَمَلَهُ وَشَقِيٌّ أَمْ سَعِيدٌ، ثُمَّ يَنْفُخُ فِيهِ الرُّوحَ، فَإِنَّ أَحَدَكُمْ لَيَعْمَلُ بِعَمَلِ أَهْلِ الجَنَّةِ حَتَّى لاَ يَكُونُ بَيْنَهَا وَبَيْنَهُ إِلَّا ذِرَاعٌ،

فَيَسْبِقُ عَلَيْهِ الكِتَابُ، فَيَعْمَلُ بِعَمَلِ أَهْلِ النَّارِ فَيَدْخُلُ النَّارَ، وَإِنَّ أَحَدَكُمْ لَيَعْمَلُ بِعَمَلِ أَهْلِ النَّارِ حَتَّى مَا يَكُونُ بَيْنَهَا وَبَيْنَهُ إِلَّا ذِرَاعٌ، فَيَسْبِقُ عَلَيْهِ الكِتَابُ، فَيَعْمَلُ عَمَلَ أَهْلِ الجَنَّةِ فَيَدْخُلُهَا». [صحيح] - [متفق عليه]

(65) – Abdullah bin Məsuddan (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Doğru söz sahibi və doğruluğu Allah tərəfindən təsdiqlənən Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə belə buyurdu: "Sizlərdən birinizin yaradılışının başlanğıcı (embrion) anasının bətnində qırx gün və qırx gecədə toplanır, sonra həmin müddətdə laxtalanmış qana çevrilir, sonra növbəti qırx gündə ət parçasına çevrilir, sonra ona mələk göndərilir və dörd şeyi yazmağı əmr edilir: ruzisini, əcəlini, əməlini, bədbəxt, yoxsa xoşbəxt olacağını. Sonra ona ruh üfürülür. Sizlərdən biriniz cənnət əhlinin əməlini edir, onun cənnətə daxil olmasına bir arşın qalmış, ana bətnində yazılmış qədəri onu qabaqlayır və o cəhənnəm əhlinin əməlini edərək cəhənnəmə daxil olur və sizlərdən biriniz cəhənnəm əhlinin əməlini edir, onun cəhənnəmə düşməsinə bir arşın qalmış, ana bətnində yazılmış qədəri onu qabaqlayır və o cənnət əhlinin əməlini edərək cənnətə daxil olur." [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Abdullah bin Məsud (Allah ondan razı olsun) dedi ki, sözlərində düzgün olan və doğruluğu Uca Allah tərəfindən təsdiqlənən Allah Rəsulu (Allahın salavatı və salamı onun

üzərinə olsun) bizə belə buyurdu: Sizlərdən birinizin yaradılışının mərhələləri bu şəkildədir: Kişi ilə qadın cinsi əlaqədə olduqda kişidən gələn sperma qadının rəhmində qırx gün nütfə (embrion) olaraq qalır. Sonra laxtalanmış qana çevrilir və bu ikinci qırx gündə baş verir. Sonra növbəti qırx gündə bir parça çeynənmiş ətə çevrilir. Sonra Allah üçüncü qırx günün sonunda mələk göndərir və mələk ona ruh üfürür. Bu mələyə dörd şeyi yazmaq əmr edilmişdir:

İnsanın ömrü boyu əldə edəcək ruzisi, əcəli, yəni bu dünyada qalacaq müddət və əməlinin nəticəsi: xoşbəxt yaxud bədbəxt olacağı. Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) and içərək bildirir ki, bir kəs cənnət əhlinin əməlini görür, insanların gözündə əməlisaleh olur, onun cənnətə girməsinə bir arşın qalmış, ana bətnində yazılmış qədəri onu qabaqlayır və o cəhənnəm əhlinin əməlini görərək əməli bitmiş olur və cəhənnəmə daxil olur. Çünki əməlin qəbul olma şərti, onun üzərində sabit olmaq və dəyişdirməməkdir. Başqa bir qrup insan isə cəhənnəm əhlinin əməllərini edir, cəhənnəmə düşməyinə bir arşın qalmış, yazılmış qədəri onu qabaqlayır və o cənnət əhlinin əməlini görərək cənnətə daxil olur.

## Hədisin faydalarından:

1. Hər bir məsələ sonda qədərdə yazıldığı kimi olur və təqdir edilən reallaşır.
2. "Əməllərə güvənib aldanmamaq" - xəbərdarlığı, çünki əməllər sonuna görə dəyərləndirilir.

(65037)

(66) – عن ابن مسعود رضي الله عنه قال: قال النبي صلى الله عليه وسلم: «الْجَنَّةُ أَقْرَبُ إِلَى أَحَدِكُمْ مِنْ شِرَاكِ نَعْلِهِ، وَالنَّارُ مِثْلُ ذَلِكَ». [صحيح] - [رواه البخاري]

(66) – Abdullah bin Məsuddan - Allah ondan razı olsun - rəvayət edildiyine görə Allah Rəsulu - salləllahu aleyhi va səlləm - belə buyurmuşdur: "Cənnət sizə ayaqqabınızın bağından daha yaxındır. Cəhənnəm də həmçinin". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va səlləm - Cənnət və Cəhənnəmin insana ayağındakı ayaqqabı bağı qədər yaxın olduğunu xəbər vermişdir. Çünki insan, Allahın razı olacağı bir yaxşı əməl edib onun səbəbi ilə Cənnətə girə bilər yaxud da bir günah edib onun səbəbi ilə Cəhənnəmə girə bilər.

**Hədisin faydalarından:**

1. Hədis az da olsa xeyir əməl etməyə təşviq etmiş və pis əməl etməkdən çəkindirmişdir.
2. Müsəlman həyatını Allahın rəhmətinə ümid bəsləyib əzabından qorxaraq yaşamalı və hazırkı halına aldanmaması üçün daima Uca Allahdan haqq üzərində sabit qalmasını istəməlidir.

(3581)

(67) – عن أبي هريرة رضي الله عنه أن رسول الله صلى الله عليه وسلم قال: «حُجِبَتِ النَّارُ بِالشَّهَوَاتِ، وَحُجِبَتِ الْجَنَّةُ بِالْمَكَارِهِ». [صحيح] - [رواه البخاري]

(67) – Əbu Hureyradən - Allah ondan razı olsun - rəvayət edildiyinə görə, Allah Rəsulu - salləllahu aleyhi va səlləm - belə buyurmuşdur: "Cəhənnəm şəhvətlərlə (nəfsə xoş gələn şeylərlə), Cənnət isə nəfsin istəmədiyi şeylərlə əhatə edilmişdir". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va səlləm - Cəhənnəmin haramları etmək və fərzlərə laqeyd və səhlənkar yanaşmaq kimi nəfsin arzuladığı şeylər ilə əhatə edildiyini xəbər vermişdir. Kim nəfsinin istəklərinə uyarsa, Cəhənnəmə layiq olar. Cənnət isə əmr edilənləri yerinə yetirməyə səbr etmək, haramları tərk edib bunda qərarlı olmaq kimi nəfsin xoş görmədiyi şeylər ilə əhatə edilmişdir. Kim bu çətin yolları aşar və bu işdə nəfsi ilə mücadələ edərsə, Cənnətə daxil olmağa layiq olar.

**Hədisin faydalarından:**

1. İnsanı şəhvətinin arxasınca sürükləyən səbəblərdən biri də şeytanın insana şər və çirkin şeyləri gözəl göstərməsidir. Beləcə, nəfs onu gözəl görür və ona meyil edir.
2. Hədisdə nəfsə xoş gələn haramlardan uzaq durmaq əmr edilmişdir. Çünki bu, Cəhənnəmə aparan yoldur. Həmçinin nəfsə xoş gəlməyən şeylərə də səbr etmək əmr edilmişdir. Çünki bu da Cənnətə aparan yoldur.
3. Hədisdə nəfslə mücadilə etməyin, ibadətlərə həris olmağın, nəfsin xoşlamadığı şeylərə və itaətləri əhatə

edən çətinliklərə səbr etməyin fəziləti bəyan edilmişdir.

(3702)

(68) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه عَنْ رَسُولِ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «لَمَّا خَلَقَ اللَّهُ الْجَنَّةَ وَالنَّارَ أَرْسَلَ جِبْرِيلَ عَلَيْهِ السَّلَامُ إِلَى الْجَنَّةِ، فَقَالَ: انْظُرْ إِلَيْهَا وَإِلَى مَا أَعْدَدْتُ لِأَهْلِهَا فِيهَا. فَنَظَرَ إِلَيْهَا فَرَجَعَ، فَقَالَ: وَعِزَّتِكَ لَا يَسْمَعُ بِهَا أَحَدٌ إِلَّا دَخَلَهَا. فَأَمَرَ بِهَا فَحُفَّتْ بِالْمَكَارِهِ، فَقَالَ: اذْهَبْ إِلَيْهَا فَانْظُرْ إِلَيْهَا وَإِلَى مَا أَعْدَدْتُ لِأَهْلِهَا فِيهَا. فَنَظَرَ إِلَيْهَا، فَإِذَا هِيَ قَدْ حُفَّتْ بِالْمَكَارِهِ، فَقَالَ: وَعِزَّتِكَ لَقَدْ خَشِيتُ أَنْ لَا يَدْخُلَهَا أَحَدٌ. قَالَ: اذْهَبْ فَانْظُرْ إِلَى النَّارِ وَإِلَى مَا أَعْدَدْتُ لِأَهْلِهَا فِيهَا. فَنَظَرَ إِلَيْهَا فَإِذَا هِيَ يَرْكَبُ بَعْضُهَا بَعْضًا، فَرَجَعَ فَقَالَ: وَعِزَّتِكَ لَا يَدْخُلُهَا أَحَدٌ. فَأَمَرَ بِهَا فَحُفَّتْ بِالشَّهَوَاتِ، فَقَالَ: ارْجِعْ فَانْظُرْ إِلَيْهَا. فَنَظَرَ إِلَيْهَا فَإِذَا هِيَ قَدْ حُفَّتْ بِالشَّهَوَاتِ، فَرَجَعَ وَقَالَ: وَعِزَّتِكَ لَقَدْ خَشِيتُ أَنْ لَا يَنْجُوَ مِنْهَا أَحَدٌ إِلَّا دَخَلَهَا». [حسن] - [رواه أبو داود والترمذي والنسائي]

(68) – Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dedi: “Allah cənnət və cəhənnəmi yaradanda Cəbrayılı (Allahın salamı onun üzərinə olsun) cənnətə göndərdi və dedi: Ona və onun əhli üçün orada nə hazırladığıma bax. Cəbrayıl ona baxdı və qayıdaraq dedi: İzzətinə and olsun ki, onu eşidən ora daxil olmaq istəyəcək. Sonra Allah cənnəti nəfsin sevmədiyi şeylərlə əhatə edilməsini əmr etdi və dedi: “Get, ona və onun əhli üçün

orada nə hazırladıqlarıma bax”. O gedib baxdı və cənnətin nəfsə ağır və çətin gələn əməllərlə əhatələndiyinü gördü və: “İzzətinə and olsun ki, ora kimsənin daxil olmayacağından qorxuram” - dedi. Allah buyurdu: "Get, cəhənnəmə və orada onun əhli üçün hazırladıqlarıma bax". Gedib cəhənnəmə baxanda onun bir hissəsinin digər hissəsinin üstünə çıxdığını gördü. Geri döndü və dedi: "İzzətinə and olsun ki, heç kəs ora girməyəcək". Sonra Allah cəhənnəmin şəhvətlərlə əhatələnməsini əmr etdi və dedi: "Qayıt və ona bax". Cəbrayıl cəhənnəmin şəhvətlərlə əhatələndiyini gördü və qayıdıb dedi: “İzzətinə and olsun ki, bir nəfər belə qalmayıb hər kəsin ora girəcəyindən qorxuram”. [Həsən] - [Əbu Davud, Ət-Tirmizi, Ən-Nəsai rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Allah cənnəti yaradan zaman Cəbrayıla (Allahın salamı onun üzərinə olsun) deyir ki: "Cənnətə get və ona bax". Cəbrayıl cənnətə baxır sonra qayıdır. Cəbrayıl deyir: Ey Rəbbim, İzzətinə and olsun ki, cənnəti və onda olan neməti, ikram və xeyirləri eşidən hər kəs ora daxil olmaq istəyəcək və onun üçün əməl edəcək. Sonra Allah cənnəti nəfsin sevmədiyi şeylər və həmçinin əmrləri yerinə yetirmək, qadağalardan çəkinmək kimi çətinliklər ilə əhatələdi və ora daxil olmaq istəyənin, nəfsin sevmədiyi bu çətin yollardan keçməsini istədi. Cənnət sevilməyən şeylərlə əhatələndikdən sonra izzət və cəlal sahibi olan Allah dedi: Ey Cəbrayıl, get, cənnətə bax,

(Cəbrayıl) getdi, ona baxdı, sonra qayıdaraq dedi: Ey Rəbbim, İzzətinə and olsun ki, onun yolundakı çətinliklər və şiddətlər səbəbiylə heç kimsənin ora daxil olmamasından qorxuram. Allah cəhənnəmi yaratdıqda dedi: Ey Cəbrayıl, get ona da bax. (O da) gedib baxdı. Sonra qayıdaraq dedi: Ey Rəbbim, izzətinə and olsun, cəhənnəmdəki əzabı, sıxıntı və cəzanı eşidən heç bir kəs ora daxil olmaq istəməz və ona aparan yollardan uzaq durar. Sonra Allah cəhənnəmi şəhvətlərlə əhatələyib, ona aparan yolları şəhvət və ləzzətlərlə etdi. Sonra dedi: "Ey Cəbrayıl, get ona bax". Cəbrayıl gedib cəhənnəmə baxdı və gəlib dedi: İzzətinə and olsun ki, o şəhvətlər və ləzzətlərlə əhatələndiyindən bir nəfərin belə ondan xilas olmayacağından qorxuram və narahatam.

## Hədisin faydalarından:

1. Cənnət və cəhənnəmin hazırda mövcud olmalarına iman etmək.
2. Qeybə, izzət və cəlal sahibi olan Allah və Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) gələn hər bir şeyə iman gətirməyin vacibliyi.
3. Nəfsin sevmədiyi şeylərə qarşı səbr etməyin əhəmiyyəti, çünki o cənnətə aparacaq səbəbdir.
4. Haramlardan uzaq durmağın əhəmiyyəti, çünki, onlar cəhənnəmə aparacaq yollardır.
5. Cənnətin sevilməyən şeylərlə, cəhənnəmin şəhvətlərlə əhatələnməsi dünya həyatında imtahan və sınağın labüdlüyüdür.

6. Cənnət yolu çətin və məşəqqətlidir, imanla bərabər səbr və çətinliklərə sinə gərmək gərəklidir, cəhənnəm yolu isə dünyada şəhvət və ləzzətlərlə doludur.

(65034)

(69) – عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «نَارُكُمْ جُزْءٌ مِنْ سَبْعِينَ جُزْءًا مِنْ نَارِ جَهَنَّمَ»، قِيلَ: يَا رَسُولَ اللَّهِ، إِنْ كَانَتْ لَكَافِيَةً. قَالَ: «فُضِّلَتْ عَلَيْهِنَّ بِتِسْعَةٍ وَسِتِّينَ جُزْءًا كُلُّهُنَّ مِثْلُ حَرِّهَا». [صحيح] - [متفق عليه]

(69) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Yandırdığınız alov, cəhənnəm alovunun yetmiş qatından bir qatıdır". Deyildi ki: "Ey Allahın Rəsulu, hətta bu alov belə (zalımları cəzalandırmağa) yetərli idi". Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "Cəhənnəm alovu dünya alovundan altmış doqquz qat üstün edildi. Hər bir qatın istiliyi, dünya alovunun istiliyi qədərdir". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) dünya alovunun, cəhənnəm odundan yetmişdə bir qatı qədər olduğunu bəyan etmişdir. Axirət alovu dünya alovundan altmış doqquz qat istidir. Hər bir qatın istiliyi dünya alovunun istiliyinə bərabərdir. Deyilir: Ey Allahın Rəsulu, dünya alovu ora daxil olanların əzab edilməsi üçün

kifayət idi. Və Allah rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun): Cəhənnəm odu dünya alovundan altmış doqquz qat üstün edildi. Hər bir qatın istiliyi, dünya alovunun istiliyi qədərdir – cavabı gəldi.

**Hədisin faydalarından:**

1. Cəhənəmmə aparacaq əməllərdən uzaq durmaları üçün insanların cəhənnəmdən çəkindirilmələri.
2. Cəhənnəm odunun və əzabının əzəməti və istiliyinin şiddəti.

(65036)

(70) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «يَقْبِضُ اللَّهُ الأَرْضَ، وَيَطْوِي السَّمَوَاتِ بِيَمِينِهِ، ثُمَّ يَقُولُ: أَنَا المَلِكُ، أَيْنَ مُلُوكُ الأَرْضِ». [صحيح] - [متفق عليه]

(70) – Əbu Hureyra (Allah ondan razı olsun) demişdir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Allah Qiyamət günü yeri ovucuna alar, göyləri isə sağ əlində bükər, sonra deyər: Mənəm hökmdar, yer üzünün hökmdarları haradadır?". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurmuşdur ki, Qiyamət günü Uca Allah yeri ovucuna alaraq toplayacaq, göyləri sağ əli ilə bükəcək, bir hissəsini digərinin üzərinə qatlayacaq və onları

uzaqlaşdırıb yox edəcək, sonra deyəcək: Mənəm hökmdar, yer üzünün hökmdarları haradadır?!

**Hədisin faydalarından:**

1. Allahın mülkünün əbədi, digərlərin mülkünün isə fani olmasının xatırlanması.
2. Allahın böyüklüyü, qüdrətinin və hökmranlığının əzəməti və mülkünün kamilliyi.

(65028)

(71) – عَنْ عَائِشَةَ أُمِّ الْمُؤمنينَ رضي الله عنها قَالَتْ: دَخَلَ عَلَيَّ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، وَقَدْ سَتَرْتُ سَهْوَةً لِي بِقِرَامٍ فِيهِ تَمَاثِيلُ، فَلَمَّا رَآهُ هَتَكَهُ وَتَلَوَّنَ وَجْهُهُ وَقَالَ: «يَا عَائِشَةُ، أَشَدُّ النَّاسِ عَذَابًا عِنْدَ اللهِ يَوْمَ الْقِيَامَةِ الَّذِينَ يُضَاهُونَ بِخَلْقِ اللهِ» قَالَتْ عَائِشَةُ: «فَقَطَعْنَاهُ فَجَعَلْنَا مِنْهُ وِسَادَةً أَوْ وِسَادَتَيْنِ». [صحيح] - [متفق عليه]

(71) – Möminlərin anası Aişədən (Allah ondan razı olsun) rəvayət edilir ki, o, dedi: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) mənim yanıma daxil oldu və mən səhvən üzərində şəkillər olan pərdə ilə şkafın üstünü örtmüşdüm. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bunu görəndə pərdəni dartıb çəkdi, üzünün rəngi dəyişdi və dedi: “Ey Aişə, Qiyamət günü Allah yanında insanların ən şiddətli əzab olunanları, Allahın yaratmasına bənzəməyə çalışanlardır”. Aişə dedi: “Biz onu kəsdik və ondan bir və ya iki yastıq düzəltdik”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) evinə, Aişənin (Allah ondan razı olsun) yanına girdikdə gördü ki, o, əşyaların saxlandığı kiçik şkafın üzərini canlıların şəkilləri olan parça ilə örtüb. Sonra Allah üçün qəzəbdən onun üzünün rəngi dəyişdi və parçanı çıxarıb dedi: Qiyamət günü əzabı ən şiddətli olacaq insanlar, çəkdikləri şəkillər ilə Allahın yaratmağına bənzər işlər görənlərdir. Aişə dedi: "Biz də ondan bir və ya iki yastıq düzəltdik.

## Hədisin faydalarından:

1. Daha böyük fitnə-fəsad törətmədikcə, münkəri (pis bir işi) gördükdə onu dərhal inkar etmək və bu işdə yubanmamaq.
2. Qiyamət günü əzab, günahın böyüklüyünə görə fərqlənir.
3. Ruhu olan şeylərin (canlıların) şəklini çəkmək böyük günahlardandır.
4. (Ruhu olan şeylərin) şəkillərini çəkməyin qadağan edilməsində olan hikmətlərindən biri, niyyətində olub-olmamasından asılı olmayaraq, rəsm çəkənin Uca Allahın yaratmasına bənzər əməl etməsidir.
5. Şəriət, haramlardan çəkindikdən sonra malı istifadə edərək onu qoruyub saxlamağa həvəsləndirir.
6. Hansı formada olursa-olsun, hətta kiçik görülsə belə, ruhu olan şeylərin şəkillərinin düzəltməyin qadağan olunması.

(5931)

(72) – عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «وَالَّذِي نَفْسِي بِيَدِهِ، لَيُوشِكَنَّ أَنْ يَنْزِلَ فِيكُمْ ابْنُ مَرْيَمَ حَكَمًا مُقْسِطًا، فَيَكْسِرَ الصَّلِيبَ، وَيَقْتُلَ الخِنْزِيرَ، وَيَضَعَ الجِزْيَةَ، وَيَفِيضَ المَالُ حَتَّى لاَ يَقْبَلَهُ أَحَدٌ». [صحيح] - [متفق عليه]

(72) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: "Nəfsim əlində olan Allaha and olsun ki, Məryəm oğlunun yer üzünə enərək sizin aranızda ədalətlə hökm verəcəyi, xaçı sındıracağı, donuzları öldürəcəyi, cizyəni aradan qaldıracağı, bolluğa görə heç kimin mal-dövlətə ehtiyacı olmayacağı zaman artıq yaxındır”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) and içir ki, Məryəm oğlu İsanın (Allahın salamı onun üzərinə olsun) insanlar arasında ədalət və Muhəmməd şəriətiylə hökm verməsi üçün yer üzünə enməsi yaxındır. O xristianların əzəmətləşdirdiyi xaçı sındıracaq, həmçinin İsa (Allahın salamı onun üzərinə olsun) donuzları öldürəcək və o (Allahın salamı onun üzərinə olsun) cizyəni aradan qaldırıb, bütün insanların üzərinə İslamı qəbul etmək məsuliyyətini qoyacaq. Bolluğa görə heç kimin mal-dövlətə ehtiyacı olmayacaq və heç kim kənardan sərvət qəbul etməyəcək, - bu bolluğa görə olacaq - və hər bir

insan əlində olanla kifayətlənəcək, bərəkətlər enəcək, xeyirlərin ardı-arası kəsilməyəcək.

**Hədisin faydalarından:**

1. İsanın (Allahın salamı onun üzərinə olsun) axır zamanda enməsinin isbatı  və onun Qiyamət gününün əlamətlərindən olması.
2. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) şəriətini başqa şəriət silə bilməz.
3. Axır zamanda mal-dövlətə bərəkətin nazil olması və bununla belə insanların ona qarşı zahidlik göstərməsi.
4. İslam dininin daimi olmasına müjdə; çünki axır zamanda İsa (Allahın salamı onun üzərinə olsun) bu dinlə hökm verəcək.

(65025)

(73) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ لِعَمِّهِ: «قُلْ: لَا إِلَهَ إِلَّا اللهُ، أَشْهَدُ لَكَ بِهَا يَوْمَ الْقِيَامَةِ»، قَالَ: لَوْلَا أَنْ تُعَيِّرَنِي قُرَيْشٌ، يَقُولُونَ: إِنَّمَا حَمَلَهُ عَلَى ذَلِكَ الْجَزَعُ لَأَقْرَرْتُ بِهَا عَيْنَكَ. فَأَنْزَلَ اللهُ: {إِنَّكَ لا تَهْدِي مَنْ أَحْبَبْتَ وَلَكِنَّ اللَّهَ يَهْدِي مَنْ يَشَاءُ } [القصص: 56]. [صحيح] - [رواه مسلم]

(73) – Əbu Hureyrədən (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilmişdir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) əmisinə belə dedi: "Lə iləhə illallah" de ki, buna görə Qiyamət günü sənə şahidlik edim". Əmisi dedi: Qureyş məni ələ salıb, “o qorxduğu üçün bunu etdi" - deməsəydilər, sənin istədiyini edərdim. Uca Allah bu

ayəni nazil etdi: “Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəldər” (Əl-Qasas 28 surəsi, ayə 56). [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) əmisi Əbu Talibdən, ölüm ayağında olarkən "lə iləhə illallah" deməsini istəyir ki, Qiyamət günü ona şəfaət edə bilsin və onun müsəlmanlığına şahidlik etsin. O isə Qureyşin onun haqqında pis sözlər söyləməsindən, "zəiflik və ölümdən qorxduğu üçün müsəlman oldu" demələrindən qorxduğu üçün şəhadət kəliməsini söyləməkdən imtina edir. Allah Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun)  deyir ki: "Əgər bu olmasaydı, şəhadət kəliməsi ilə səni sevindirərdim və sən razı olana qədər istədiyini deyərdim". Uca Allah Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlman olmaq üçün hidayət verməyə qadir olmadığına dəlalət edən ayə endirdi. Əksinə, yalnız qüdrət və cəlal sahibi olan Allah istədiyinə hidayət verər. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) insanları hidayətə qovuşdurmağı, yalnız dəlil sübutlara əsaslanaraq istiqamətləndirməkdən, başa salmaqdan, doğru yola dəvət etməkdən ibarətdir.

## Hədisin faydalarından:

1. Haqq, insanların dedi qodusundan qorxaraq tərk edilməz.

2. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) yalnız haqqa dəlalət edən, doğru yola yönəldən hidayətə sahibdir, hidayətə müvəffəq etmək, qovuşdurmaq isə onun əlində deyil.
3. İslama dəvət etmək məqsədi ilə xəstə kafiri ziyarət etməyin icazəli olması.
4. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) hər bir halda Uca Allahın dininə dəvət etməsinə hərisliyi.

(65069)

(74) – عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو رضي الله عنهما قَالَ: قال النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «حَوْضِي مَسِيرَةُ شَهْرٍ، مَاؤُهُ أَبْيَضُ مِنَ اللَّبَنِ، وَرِيحُهُ أَطْيَبُ مِنَ المِسْكِ، وَكِيزَانُهُ كَنُجُومِ السَّمَاءِ، مَنْ شَرِبَ مِنْهَا فَلاَ يَظْمَأُ أَبَدًا». [صحيح] - [متفق عليه]

(74) – Abdullah bin Amrdan (Allah onların ikisindən də razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: “Mənim hovuzum bir aylıq yol məsafəsi qədər böyükdür, suyu süddən daha ağdır, qoxusu miskdən daha gözəldir, qədəhləri göyün ulduzları qədər çoxdur, ondan içən kəs heç zaman susamaz”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Qiyamət günü öz hovuzundan bəhs edərək, onun uzunluğu və genişliyinin bir ay gedəcək qədər böyüklükdə

olduğu barədə xəbər vermişdir. Həmçinin suyunun süddən daha bəyaz, ondan gələn qoxunun miskdən daha gözəl, qədəhlərinin səma ulduzları qədər çox olması və bu qədəhlərdən içənin isə heç zaman susuzlamaycağını xəbər vermişdir.

**Hədisin faydalarından:**

1. Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) hovuzu, onun ətrafında Qiyamət günü ümmətinin möminlərinin toplaşacağı böyük su hövzəsidir.
2. Hovuzdan içən kəs böyük nemətə nail olur, o heç zaman susamayacaq.

(65030)

(75) – عَنْ أَبِي سَعِيدٍ الخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «يُؤْتَى بِالْمَوْتِ كَهَيْئَةِ كَبْشٍ أَمْلَحَ، فَيُنَادِي مُنَادٍ: يَا أَهْلَ الجَنَّةِ، فَيَشْرَئِبُّونَ وَيَنْظُرُونَ، فَيَقُولُ: هَلْ تَعْرِفُونَ هَذَا؟ فَيَقُولُونَ: نَعَمْ، هَذَا المَوْتُ، وَكُلُّهُمْ قَدْ رَآهُ، ثُمَّ يُنَادِي: يَا أَهْلَ النَّارِ، فَيَشْرَئِبُّونَ وَيَنْظُرُونَ، فَيَقُولُ: وهَلْ تَعْرِفُونَ هَذَا؟ فَيَقُولُونَ: نَعَمْ، هَذَا المَوْتُ، وَكُلُّهُمْ قَدْ رَآهُ، فَيُذْبَحُ ثُمَّ يَقُولُ: يَا أَهْلَ الجَنَّةِ خُلُودٌ فَلاَ مَوْتَ، وَيَا أَهْلَ النَّارِ خُلُودٌ فَلاَ مَوْتَ، ثُمَّ قَرَأَ: {وَأَنْذِرْهُمْ يَوْمَ الحَسْرَةِ إِذْ قُضِيَ الأَمْرُ وَهُمْ فِي غَفْلَةٍ} [مريم: 39]، وَهَؤُلاَءِ فِي غَفْلَةٍ أَهْلُ الدُّنْيَا {وَهُمْ لاَ يُؤْمِنُونَ} [مريم: 39]». [صحيح] - [متفق عليه]

(75) – Əbu Səid Əl Xudridən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Ölüm, ağ-qara qoç

şəklində gətiriləcək və mələk səslənəcək: "Ey Cənnət əhli!" və onlar başlarını qaldırıraq baxacaqlar, mələk deyəcək: "Bunu tanıyırsınızmı?”. Onlar - Bəli, bu ölümdür - deyəcəklər, hamı onu artıq dadmışdır. Sonra mələk səslənəcək: - "Ey cəhənnəm əhli"- və onlar başlarını qaldırıb baxacaqlar, sonra isə mələk onlara deyəcək: "Bunu tanıyırsınızmı?". Onlar - Bəli, bu ölümdür - deyəcəklər, hamı onu artıq dadmışdır. Sonra bu qoç kəsiləcək və mələk deyəcək: “Ey cənnət əhli, artıq ölüm yox, əbədilik var. Ey cəhənnəm əhli, artıq ölüm yox, əbədilik var". Ardınca Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bu ayəni oxudu: "Sən onları işin bitmiş olacağı peşmançılıq günü ilə qorxut! İndi onlar hələ qəflətdədirlər" [Məryəm 19 surəsi, ayə 39] - dünyada olanlar hələ qəflətdədirlər: "və onlar iman gətirmirlər" [Məryəm 19 surəsi, ayə 39]. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, Qiyamət günü ölüm erkək ağ-qara rəngində olan qoç şəklində gətriləcək, və "Ey Cənnət əhli!" - deyə çağrılırlar və onlar boyunlarını uzadıb, başlarını qaldırıb baxırlar. Və mələk onlara deyir: “Bunu tanıyırsınızmı?!”. Onlar – “Bəli, bu ölümdür” - deyəcəklər, hamısı onu görüb dadmışdır. Sonra mələk: - "Ey cəhənnəm əhli" - deyə çağırır və onlar boyunlarını uzadıb, başlarını qaldırıb baxırlar və onlara deyir: "Bunu tanıyırsınızmı?!". Onlar – “Bəli, bu ölümdür” - deyəcəklər, hamısı onu görüb

dadmışdır. Sonra bu qoç kəsilir və mələk deyir: “Ey cənnət əhli, artıq ölüm yox, əbədilik var. Ey cəhənnəm əhli, artıq ölüm yox, əbədilik var”. Bu, möminlərin nemətini, kafirlərin isə əzabını artırmaq üçündür. Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bu ayəni oxudu: "Sən onları işin bitmiş olacağı peşmançılıq günü ilə qorxut! İndi onlar hələ qəflətdədirlər və onlar iman gətirmirlər" [Məryəm 19 surəsi, ayə 39]. Və Qiyamət günü cənnət əhli ilə cəhənnəm əhli bir-birindən ayrılacaq. Hər biri əbədi qalacaqları yerə daxil olacaq. Pis əməl sahibi xeyir əməllər etmədiyinə görə, səhlənkar davranan isə əməllərini artırmadığına görə peşman olacaq.

### Hədisin faydalarından:

1. İnsanın axirətdəki aqibəti, Cənnət və ya Cəhənnəmdə əbədi qalmasıdır.
2. Qiyamət gününün dəhşətindən şiddətli çəkindirmək. O gün peşmançılıq və kədər günüdür.
3. Cənnət əhlinin sevincinin, cəhənnəm əhlinin hüznünün davamlı olması.

(65035)

(76) – عن عمر بن الخطاب رضي الله عنه قال: إنه سمع نبي الله صلى الله عليه وسلم يقول: «لَو أَنَّكُمْ تَتَوَكَّلُونَ عَلَى اللهِ حَقَّ تَوَكُّلِهِ، لَرَزَقَكُمْ كَمَا يَرْزُقُ الطَّيْرَ، تَغْدُو خِمَاصًا وَتَرُوحُ بِطَانًا». [صحيح] - [رواه الترمذي وابن ماجه وأحمد]

(76) – Ömər bin Əl-Xattabdan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə

olsun) belə dediyi rəvayət edilir: "Əgər siz Allaha layiqincə təvəkkül etsəniz, O sizə də ruzini səhər yuvasından ac çıxıb, (axşam) tox qayıdan quşun ruzisi kimi yetirər". [Səhih] - [Ət-Tirmizi, İbnu Məcə və Əhməd rəvayət etdi]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bizi dünyəvi və dini işlərdə faydalı əməllərə sarınmaqla və zərərli şeyləri dəf etməklə izzət və cəlal sahibi olan Allaha güvənməyə təşviq edir, çünki bizə neməti verən, onu bizdən uzaqlaşdıran, zərəri dəf edib, xeyiri bizə əta edən yalnız pak və Uca Allahdır. Allaha sidq qəlblə təvəkkül edib, zərərləri uzaqlaşdırmaq və faydaları əldə etmək üçün səbəblərdən yapışmalıyıq, bunu etdiymiz zaman Allah bizi, səhər ac ikən yuvasından çıxıb, sonra axşam qarnı tox qayıdan quşu ruziləndirdiyi kimi ruziləndirər. Quşun bu hərəkəti, tənbəllik etməyib və başqalarına arxayın olmayıb, ruzi ardınca getmə misallarından biridir.

## Hədisin faydalarından:

1. Təvəkkülün fəziləti və onun ruzi əldə etməkdə ən böyük səbəblərdən biri olması.
2. Təvvəkkül ilə səbəbləri yerinə yetirmək arasında ziddiyyət yoxdur, çünki bizə xəbər verir ki, həqiqi təvəkkül ilə səhər ruzi üçün yola çıxmaq təzad təşkil etmir.
3. Şəriətin qəlb əməllərinə diqqəti, çünki təvəkkül qəlb əməlidir.

4. Sadəcə səbəblərdən yapışmaq dində naqislikdir, səbəbləri tərk etmək isə ağılda naqislikdir.

(4721)

(77) – عَن أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ:

«يُسَلِّمُ الرَّاكِبُ عَلَى المَاشِي، وَالمَاشِي عَلَى القَاعِدِ، وَالقَلِيلُ عَلَى الكَثِيرِ».

وَلِلبُخَارِيِ: «يُسَلِّمُ الصَّغِيرُ عَلَى الكَبِيرِ، وَالمَارُّ عَلَى القَاعِدِ، وَالقَلِيلُ عَلَى الكَثِيرِ».

[صحيح] - [متفق عليه]

(77) – Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: «Minik üzərində olan piyada gəzənə, piyada gəzən oturan kəsə, az olanlar isə çoxluğa salam verir». Buxarinin rəvayətinə görə: «Kiçik olan böyüyə, yoldan keçən oturana, azlıq isə çoxluğa salam verir». [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) insanlar arasında salamlaşmanın ədəbini bu şəkildə bildirmişdir: "Əs-sələmu aleykum və rahmətullahi və bərakətuh" (Allahın salamı, rəhməti və bərəkəti üzərinizə olsun) yaşı az olan  böyüyə, minikdə olan piyadaya, piyada oturana və sayca az olanlar çoxluğa salam verir.

## Hədisin faydalarından:

1. Hədisdə bildirildiyi şəkildə salam vermək bəyənilən forma sayılır. Əgər piyada minikdə olana salam

verərsə və ya qeyd edilən salam vermək formalarının əksi olarsa, bu da icazəlidir. Lakin bu, daha xeyirli və daha fəzilətli olana müxalifdir.

2. Salamın hədisdə qeyd edildiyi şəkildə yayılması, sevgi və ünsiyyətin səbəblərindən biridir.
3. Əgər deyilən şeylərdə bərabərdirlərsə, o zaman onların ən xeyirlisi salama birinci başlayandır.
4. Bu dinin kamilliyi - insanların ehtiyac duyduqları hər şeyi açıqlamasındadır.
5. Salam vermək ədəbini öyrətmək və hər kəsə öz haqqını vermək.

(4243)

(78) – عن أبي ذر رضي الله عنه: عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ فِيمَا رَوَى عَنِ اللهِ تَبَارَكَ وَتَعَالَى أَنَّهُ قَالَ: «يَا عِبَادِي إِنِّي حَرَّمْتُ الظُّلْمَ عَلَى نَفْسِي، وَجَعَلْتُهُ بَيْنَكُمْ مُحَرَّمًا، فَلَا تَظَالَمُوا، يَا عِبَادِي كُلُّكُمْ ضَالٌّ إِلَّا مَنْ هَدَيْتُهُ، فَاسْتَهْدُونِي أَهْدِكُمْ، يَا عِبَادِي كُلُّكُمْ جَائِعٌ إِلَّا مَنْ أَطْعَمْتُهُ، فَاسْتَطْعِمُونِي أُطْعِمْكُمْ، يَا عِبَادِي كُلُّكُمْ عَارٍ إِلَّا مَنْ كَسَوْتُهُ، فَاسْتَكْسُونِي أَكْسُكُمْ، يَا عِبَادِي إِنَّكُمْ تُخْطِئُونَ بِاللَّيْلِ وَالنَّهَارِ وَأَنَا أَغْفِرُ الذُّنُوبَ جَمِيعًا فَاسْتَغْفِرُونِي أَغْفِرْ لَكُمْ، يَا عِبَادِي إِنَّكُمْ لَنْ تَبْلُغُوا ضَرِّي فَتَضُرُّونِي، وَلَنْ تَبْلُغُوا نَفْعِي فَتَنْفَعُونِي، يَا عِبَادِي لَوْ أَنَّ أَوَّلَكُمْ وَآخِرَكُمْ وَإِنْسَكُمْ وَجِنَّكُمْ كَانُوا عَلَى أَتْقَى قَلْبِ رَجُلٍ وَاحِدٍ مِنْكُمْ مَا زَادَ ذَلِكَ فِي مُلْكِي شَيْئًا، يَا عِبَادِي لَوْ أَنَّ أَوَّلَكُمْ وَآخِرَكُمْ وَإِنْسَكُمْ وَجِنَّكُمْ كَانُوا عَلَى أَفْجَرِ قَلْبِ رَجُلٍ وَاحِدٍ مَا نَقَصَ ذَلِكَ مِنْ مُلْكِي شَيْئًا، يَا عِبَادِي لَوْ أَنَّ أَوَّلَكُمْ وَآخِرَكُمْ وَإِنْسَكُمْ وَجِنَّكُمْ قَامُوا فِي صَعِيدٍ وَاحِدٍ

فَسَأَلُونِي فَأَعْطَيْتُ كُلَّ إِنْسَانٍ مَسْأَلَتَهُ مَا نَقَصَ ذَلِكَ مِمَّا عِنْدِي إِلَّا كَمَا يَنْقُصُ الْمِخْيَطُ إِذَا أُدْخِلَ الْبَحْرَ، يَا عِبَادِي إِنَّمَا هِيَ أَعْمَالُكُمْ أُحْصِيهَا لَكُمْ ثُمَّ أُوَفِّيكُمْ إِيَّاهَا، فَمَنْ وَجَدَ خَيْرًا فَلْيَحْمَدِ اللهَ، وَمَنْ وَجَدَ غَيْرَ ذَلِكَ فَلَا يَلُومَنَّ إِلَّا نَفْسَهُ».

[صحيح] - [رواه مسلم]

(78) – Əbu Zərrdən (Allah odan razı olsun) belə ediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Uca Allahdan belə rəvayət etmişdir: "Ey qullarım, Mən zülmü Özümə haram etdim və sizin də aranızda onu haram buyurdum, elə isə bir-birinizə zülm etməyin. Ey qullarım! Hidayət verdiyim kəslərdən başqa hamınız zəlalətdəsiniz, elə isə Məndən hidayət diləyin, sizi doğru yola yönəldim. Ey qullarım! Mənim yedirdiyim kəslərdən başqa hamınız acsınız, elə isə Məndən yemək istəyin, sizi yedirdim. Ey qullarım! Mənim geyindirdiyim kəslərdən başqa hamınız çılpaqsınız! Elə isə Məndən geyim istəyin, sizi geyindirim. Ey qullarım! Siz gecə-gündüz günah işlər görürsünüz. Mən isə bu günahların hamısını bağışlayıram. Elə isə Məndən bağışlanma diləyin, Mən də sizi bağışla-yım. Ey qullarım! Siz heç vaxt Mənə zərər verə bilməzsiniz və siz heç vaxt Mənə fayda verə bilməzsiniz. Ey qullarım! Əgər sizdən əvvəlkilər və sonrakılar, insanlarınız və cinləriniz bütövlüklə, aranızda Allahdan ən çox qorxan adamın qəlbinə sahib olsalar belə, bu, Mənim mülkümdə bir şeyi belə artırmaz. Ey qullarım! Sizdən əvvəlkilər və sonrakılar, insanlarınız və cinləriniz bütövlüklə, aranızdakı ən günahkar adamın qəlbinə sahib olsalar belə, bu, Mənim

mülkümdən heç nəyi əskiltməz. Ey qullarım! Sizdən əvvəlkilər və sonrakılar, insanlarınız və cinləriniz bir yerə toplanıb Məndən istəsələr və Mən onların hər birinin istədiyini versəm, bu, sanki nəhəng dənizə iynəni batırıb çıxaran zaman dəniz suyunun əskilmədiyi kimi, Mənim də mülkümdən heçnə əskilməz. Ey qullarım, bu sizin əməllərinizdir. Onları sizin üçün hesaba alıram, sonra əvəzini verəcəm. Odur ki, kim xeyir tapsa, Allaha həmd etsin, əks halda qoy kimsə özündən başqa heç kəsi qınamasın”. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) pak və uca Allahın özünə zülmü haram etdiyini, məxluqatı arasında da bunu haram buyurduğunu və kiminsə kiməsə zülm etməməsinin vacibliyi barədə xəbər vermişdir. Allah xəbər verir ki, müvvəffəq etdiyi və doğru yola yönəltdiyi qulları istisna olmaqla, insanların hamısı haqq yoldan azıblar və kim Allahdan hidayət diləyərsə, Allah onu müvəffəq edib, doğru yola yönəldər. İnsanlar imkansız, bütün işlərində Allaha möhtacdırlar. Kim Allahdan istəsə, onun ehtiyacını ödəyər və ona yetər. Onlar gecə və gündüz günah edərlər, sonra isə qul uca Allahdan bağışlanma dilədikdə, O bu günahları örtüb gizlədər və onu əfv edər. Onlar Allaha nə zərər, nə də fayda verə bilməzlər, Onların qəlbi ən təqvalı insanın qəlbi kimi olsa belə, təqavaları Allahın mülkünə bir şey əlavə etməz. Əgər onlar ən günahkar insanlar olsalar, günahları Onun mülkündən bir şey əskiltməz, çünki onlar zəifdirlər, hər bir halda və

hər zamanda və hər məkanda Allaha möhtacdırlar. Allah isə pak və zəngindir. Əgər cinlər və insanların əvvəlkiləri və sonuncuları bir yerə toplaşıb, uca Allahdan istəsələr, Allah onların hər birinə istədiklərini versə, bu dənizə batırılıb çıxarılan iynənin dənizdən bir şey əksiltmədiyi kimi, Allahın mülkündən də bir şey əksiltməz. Bu pak olan Allahın mükəmməl və sonsuz zənginliyinin göstəricisidr.

Pak olan Allah qulların əməllərini qoruyub onlar üçün sayır, sonra Qiyamət günü onların qarşılığını verəcək. Kim əməlinə görə xeyirlə mükafatlanarsa, Allaha itaətə müvəffəq olduğu üçün Ona həmd etsin, kimin əməlinin nəticəsi xeyirli olmazsa, onu ziyana sürükləyən pis nəfsindən başqa heç kimi qınamasın.

## Hədisin faydalarından:

1. Bu hədis Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) Rəbbindən rəvayət etdiyi hədislərdən biridir. Bu hədislər Qüdsü və ya İlahi hədis adlanır ki, ləfzi və mənası Allahdandır. Lakin bu hədislərdə Quran oxumaq savabı kimi, ona dəstəmazlı toxunmaq kimi, Quranın əhkamlarına əməl etmək kimi, bəlağəti və ecazkarlığı kimi fərqli xüsusiyyətləri yoxdur.
2. Qulun əldə etdiyi elm və hidayət, Allahın hidayəti və təlimi ilə baş verir.
3. Qulun xeyirə nail olması uca Allahın lütfündən, başına gələn şər isə öz nəfsindən və nəfsinin tamahındandır.
4. Kim xeyir iş görərsə, bu Allahın onu müvəffəq etməsinə görədir, mükafatı Onun lütfüdür və həmd

Ona məxsusdur. Kim də pis əməl sahibidirsə, özündən başqa heç kimi qınamasın.

(4810)

(79) – عَنْ جَابِرِ بْنِ عَبْدِ اللهِ رضي الله عنهما أَنَّ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «اتَّقُوا الظُّلْمَ، فَإِنَّ الظُّلْمَ ظُلُمَاتٌ يَوْمَ الْقِيَامَةِ، وَاتَّقُوا الشُّحَّ، فَإِنَّ الشُّحَّ أَهْلَكَ مَنْ كَانَ قَبْلَكُمْ، حَمَلَهُمْ عَلَى أَنْ سَفَكُوا دِمَاءَهُمْ وَاسْتَحَلُّوا مَحَارِمَهُمْ». [صحيح] - [رواه مسلم]

(79) – Cabir bin Abdullahdan (Allah ondan razı olsun) rəvayət edilir ki, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: “Zülm etməkdən çəkinin, çünki zülm Qiyamət günü zülmət olacaq və xəsislik etməkdən çəkinin, həqiqətən də xəsislik sizdən əvvəlkiləri məhv etdi, onları bir-birinin qanını tökməyə və haramlarını halal saymağa sövq etdi”. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) zülmdən çəkindirmişdir. Bura insanların başqasına zülm etməsi, özünə zülm etməsi və Uca Allahın haqlarında zülm etməsi də daxildir. Zülm hər kəsə haqqını verməyi tərk etməkdir.

Həqiqətən də zülm qiyamət günü öz sahiblərinə çətinliklər və qorxuların baş verməsi ilə zülmət olacaqdır. O, şiddətli xəsisliyi qadağan etmişdir. Bura malla olan haqları ödəməkdə olan səhlənkarlıq və dünyaya olan hərislik də daxildir. Bu növ zülm bizdən əvvəlki ümmətləri

bir-birini öldürməyə və Allahın haram etdiklərini halal saymağa sövq etdiyi üçün məhv etdi.

**Hədisin faydalarından:**

1. Mal-mülkü Allah üçün xərcləmək və din qardaşlarına yardım etmək, qarşılıqlı sevgi və ünsiyyətin səbəblərindən biridir.
2. Xəsislik və mala olan şiddətli hərislik, asilik, əxlaqsızlıq və günahlara səbəb olur.
3. Əvvəlki ümmətlərin hallarından ibrət almaq.

(5787)

(80) – عن أبي موسى رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «إِنَّ اللهَ لَيُمْلِي لِلظَّالِمِ، حَتَّى إِذَا أَخَذَهُ لَمْ يُفْلِتْهُ» قَالَ: ثُمَّ قَرَأَ: «{وَكَذَلِكَ أَخْذُ رَبِّكَ إِذَا أَخَذَ الْقُرَى وَهِيَ ظَالِمَةٌ إِنَّ أَخْذَهُ أَلِيمٌ شَدِيدٌ}[هود: 102]» [صحيح] - [متفق عليه]

(80) – Əbu Musadan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Həqiqətən, Allah zalıma möhlət verir ki, onu yaxalayanda boyun qaçırmasın". Buyurdu ki, sonra bu ayəni oxudu: "Rəbbin haqsızlıq edən məmləkətləri yaxaladığı zaman məhz belə yaxalayır. Onun yaxalaması həqiqətən də üzücüdür, şiddətlidir" [Hud 11 surəsi, ayə 102]. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) zülmə günahlar və şirk edərək israr etməkdən və

insanlara zülm etməkdən çəkindirir və bildirir ki, uca Allah zalıma möhlət verir, onun işini sonraya saxlayır, onun ömrünü uzadır və mal-dövlətini davamlı edir, cəza verməkdə tələsmir. Əgər tövbə etməzsə, etdiyi çoxsaylı haqsızlıqlara görə onu yaxalayar, onu sərbəst buraxmaz və ondan əl çəkməz.

Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bu ayəni oxudu: “Rəbbin haqsızlıq edən məmləkətləri yaxaladığı zaman məhz belə yaxalayır. Onun yaxalaması həqiqətən də üzücüdür, şiddətlidir” [Hud 11 surəsi, ayə 102].

## Hədisin faydalarından:

1. Aqil insan dərhal tövbə etməyə çalışmalıdır, bilməlidir ki, əgər zülm etməyə davam edərsə, Allahın məkrindən salamt qala bilməz.
2. İzzət və cəlal sahibi olan Allahın zalımlara möhlət verməsi və acil əzab verməməsi, tövbə etmədikləri təqdirdə əzablarının ikiqat artırılması üçündür.
3. Allahın keçmiş ümmətləri cəzalandırmasının səbəblərindən biri də zülmdür.
4. Əgər Allah bir məmləkəti məhv etsə, orada əməlisaleh insanlar olsa belə, bu insanlar Qiyamət günü öldükləri saleh halları üzərində dirilərlər və əzaba düçar olmalarına baxmayaraq onlara o əzəmətli gün zərər dəyməz.

(5811)

(81) – عن ابن عباس رضي الله عنهما عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ فِيمَا يَرْوِي عَنْ رَبِّهِ عَزَّ وَجَلَّ قَالَ: قَالَ: «إِنَّ اللهَ كَتَبَ الْحَسَنَاتِ وَالسَّيِّئَاتِ، ثُمَّ بَيَّنَ ذَلِكَ، فَمَنْ هَمَّ بِحَسَنَةٍ فَلَمْ يَعْمَلْهَا كَتَبَهَا اللهُ لَهُ عِنْدَهُ حَسَنَةً كَامِلَةً، فَإِنْ هُوَ هَمَّ بِهَا فَعَمِلَهَا كَتَبَهَا اللهُ لَهُ عِنْدَهُ عَشْرَ حَسَنَاتٍ إِلَى سَبْعِمِائَةِ ضِعْفٍ، إِلَى أَضْعَافٍ كَثِيرَةٍ، وَمَنْ هَمَّ بِسَيِّئَةٍ فَلَمْ يَعْمَلْهَا كَتَبَهَا اللهُ لَهُ عِنْدَهُ حَسَنَةً كَامِلَةً، فَإِنْ هُوَ هَمَّ بِهَا فَعَمِلَهَا كَتَبَهَا اللهُ لَهُ سَيِّئَةً وَاحِدَةً». [صحيح] - [متفق عليه]

(81) – İbn Abbbasdan (Allah onların hər ikisindən razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) izzət və cəlal sahibi Rəbbindən belə rəvayat etmişdir: "Şübhəsiz ki, Allah yaxşılıq və pislikləri yazdıqdan sonra, onları belə açıqladı: Kim bir yaxşılıq etmək istərsə, lakin bunu edə bilməzsə, Allah bunu onun üçün Öz dərgahında bir yaxşılıq kimi yazar. Əgər bir kəs xeyir əməli istəyib onu edərsə, Allah Öz dərgahında həmin şəxs üçün bu yaxşılığı on mislindən yeddi yüz mislinə qədər, hətta daha çox yazar. Əgər insan pis bir əməli etmək istəyər, lakin onu etməkdən əl çəkərsə, Allah bunu onun üçün bir yaxşılıq olaraq yazar, əgər bu pis əməli etmək istəyər və edərsə, Allah sadəcə onun üçün bunu bir günah olaraq yazar". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, Allah yaxşılıq və pislikləri öncədən

müəyyən etmiş və sonra (yazan) iki mələyə onları necə yazacaqlarını bildirmişdir:

Kim xeyir əməli etmək istəyib ona niyyətlənər və ona əzm göstərərsə, bu əməli etməsə belə, ona bir savab yazılar, əgər bu xeyir işi edərsə, ona on mislindən yeddi yüz mislinə, hətta daha çox savab yazılar. Savabdakı bu əlavə - qəlbdəki ixlas və faydalı əməllərin dərəcəsinə və miqdarına və buna bənzər əməllərə görədir.

Hər kim də, pis əmələ niyyət edər, ona əzm edər, lakin, Allah üçün onu tərk edərsə, Allah bunu onun üçün bir savab olaraq yazar və əgər məşğul olub səbəblərini yerinə yetirmədiyi üçün bu əməli etməzsə, ona heç bir şey yazılmaz. Aciz olub bu əməli etməyi bacarmazsa, niyyətinə görə yazılar. Əgər pis əməli edərsə, onun üçün bir günah olaraq yazılar.

## Hədisin faydalarından:

1. Xeyir əməlin savabının qat-qat artması, bunun Allah dərgahında yazılması və pis əməllərin sadəcə misliylə əvəzinin verilməsi, Allahın bu ümmətə olan böyük lütfüdür.
2. Əməllərdə niyyətin əhəmiyyəti və onlara təsiri.
3. İzzət və cəlal sahibi olan Allahın lütfü, şəfqəti və rəhmətidir ki, kim bir xeyir əmələ niyyət edərsə, lakin ona müvəffəq olmazsa, Allah həmin niyyəti xeyir əməl olaraq yazar.

(4322)

(82) – عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ، قَالَ: قَالَ رَجُلٌ: يَا رَسُولَ اللهِ، أَنُؤَاخَذُ بِمَا عَمِلْنَا فِي الْجَاهِلِيَّةِ؟ قَالَ: «مَنْ أَحْسَنَ فِي الْإِسْلَامِ لَمْ يُؤَاخَذْ بِمَا عَمِلَ فِي الْجَاهِلِيَّةِ، وَمَنْ أَسَاءَ فِي الْإِسْلَامِ أُخِذَ بِالْأَوَّلِ وَالْآخِرِ». [صحيح] - [متفق عليه]

(82) – İbn Məsuddan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə demişdir: Bir kişi dedi: “Ey Allahın Rəsulu, cahiliyyə zamanında etdiyimizə görə hesaba çəkiləcəyikmi?”. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) cavab verərək buyurdu: “Kim İslamda yaxşı işlər görərsə, cahiliyyədə etdiklərinə görə hesaba çəkilməz, kim İslamda pis işlər görərsə, cahilikdə və İslamda etdiyi əməllərə görə hesaba çəkilər”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) İslama daxil olmağın fəzilətini bəyan edir. Kim İslamı qəbul edib yaxşı əməllər edərsə, əməllərində sadiq və ixlaslı olarsa, cahiliyyə dövründə etdiyi günahlara görə hesaba çəkilməz. Kim də münafiq olar yaxud dinindən dönərsə, həm küfrdə olduğu dövrdə, həm də İslamda olduğu zaman etdiyi əməllərə görə hesaba çəkiləcəkdir.

## Hədisin faydalarından:

1. Sahabələrin (Allah onlardan razı olsun) cahiliyyə dövründə etdikləri əməllərdən dolayı qorxmaları və bu barədə maraqlanmaları.
2. İslamda sabitqədəm olmağa təşviq edilmişdir.

3. Hədisdə İslama daxil olmanın fəziləti və bunun keçmiş günahlara kəffarə olması ifadə edilmişdir.
4. Mürtəd və münafiq kimsə, həm cahiliyyə dövründə etdiyi bütün əməllərə görə, həm də İslamda etdiyi hər bir günaha görə hesaba çəkiləcəkdir.

(65002)

(83) – عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللهُ عَنْهُمَا: أَنَّ نَاسًا مِنْ أَهْلِ الشِّرْكِ، كَانُوا قَدْ قَتَلُوا وَأَكْثَرُوا، وَزَنَوْا وَأَكْثَرُوا، فَأَتَوْا مُحَمَّدًا صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ فَقَالُوا: إِنَّ الَّذِي تَقُولُ وَتَدْعُو إِلَيْهِ لَحَسَنٌ، لَوْ تُخْبِرُنَا أَنَّ لِمَا عَمِلْنَا كَفَّارَةً، فَنَزَلَ {وَالَّذِينَ لا يَدْعُونَ مَعَ اللهِ إِلَهًا آخَرَ وَلا يَقْتُلُونَ النَّفْسَ الَّتِي حَرَّمَ اللهُ إِلا بِالْحَقِّ وَلا يَزْنُونَ}[الفرقان: 68]، وَنَزَلَتْ: {قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنْفُسِهِمْ لا تَقْنَطُوا مِنْ رَحْمَةِ اللهِ} [الزمر: 53]. [صحيح] - [متفق عليه]

(83) – Abdullah bin Abbasdan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə (o belə demişdir): Şirk əhlindən olub bir çox insan öldürmüş, çox zina etmiş bir toplum insan Məhəmmədə (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəlib: “Sənin söylədiklərin və dəvət etdiyin şey gözəldir. Kaş ki bizim etdiyimiz günahların bir kəfarəsi olduğunu bizə xəbər versəydin” - dedilər. Bu zaman Uca Allahın: “Onlar Allahla yanaşı başqa məbuda ibadət etməz, Allahın haram etdiyi canı haqsız yerə qətlə yetirməz və zina etməzlər....” [Furqan 25 surəsi, ayə 68] və “(Ey Peyğəmbər!) de: “Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmətindən ümidinizi üzməyin....” [Zümər 39 surəsi, ayə

53] ayəsi nazil oldu. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına bir çox insanı öldürmüş, çox zina etmiş bəzi müşriklər gəldilər və Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dedilər: İslama və onun təlimlərinə dəvət etdiyin şeylər çox gözəldir, lakin bizim halımız, etdiyimiz şirk və böyük günahlar necə olacaq, bunların kəffarəsi varmı?

Bu zaman Uca Allahın, günahlarının çox və böyük olmasına rəğmən insanlardan tövbəni qəbul etdiyini əgər belə olmasaydı onların küfür və azğınlıqlarında davam edəcəklərini və bu dini qəbul etməyəcəklərini bildirən iki ayəsi nazil oldu.

**Hədisin faydalarından:**

1. İslamın fəzilətli və əzəmətli bir din olması və həmçinin keçmiş günahları bağışlaması ifadə edilmişdir.
2. Uca Allahın qullarına olan rəhmətinin genişliyi, məğfirəti və onları bağışlaması.
3. Şirkin, haqsız yerə adam öldürməyin və zina etməyin haram olması və bu günahları işləyənlərə əzab olunacağı barədə xəbər verilmişdir.
4. Səmimi tövbə, ixlas və saleh əməllərlə birlikdə olarsa, Uca Allaha küfür də daxil olmaqla bütün büyük günahlara kəffarə olur.

5. Uca Allahın rəhmətindən ümidini kəsib ümidsizliyə qapılmağın haram olması.

(65071)

(84) – عَنْ حَكِيمِ بْنِ حِزَامٍ رَضِيَ اللَّهُ عَنْهُ، قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ، أَرَأَيْتَ أَشْيَاءَ كُنْتُ أَتَحَنَّثُ بِهَا فِي الجَاهِلِيَّةِ مِنْ صَدَقَةٍ أَوْ عَتَاقَةٍ، وَصِلَةِ رَحِمٍ، فَهَلْ فِيهَا مِنْ أَجْرٍ؟ فَقَالَ النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «أَسْلَمْتَ عَلَى مَا سَلَفَ مِنْ خَيْرٍ». [صحيح] - [متفق عليه]

(84) – Həkim bin Hizəmdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Dedim: “Ey Allahın Rəsulu, cahiliyyədə etdiyim sədəqə vermək, qul azad etmək, qohumluq əlaqələrini saxlamaq kimi xeyir əməllərə görə mənim əcrim varmı?”. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Sən keçmişdə etdiyin xeyir əməllərlə müsəlman oldun”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, kafir müsəlman olduqda İslamdan öncə cahiliyyə dövründə etdiyi sədəqə, qul azad etmək, qohumluq əlaqələrini saxlamaq kimi saleh əməllərə görə də savab qazanır.

**Hədisin faydalarından:**

1. Kafir əgər küfr üzərində ölərsə, dünyadakı etdiyi xeyir əməllərə görə axirətdə savab qazanmır.

(65016)

(85) – عَنْ أَنَسِ بْنِ مَالِكٍ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «إِنَّ اللهَ لَا يَظْلِمُ مُؤْمِنًا حَسَنَةً، يُعْطَى بِهَا فِي الدُّنْيَا وَيُجْزَى بِهَا فِي الْآخِرَةِ، وَأَمَّا الْكَافِرُ فَيُطْعَمُ بِحَسَنَاتِ مَا عَمِلَ بِهَا لِلَّهِ فِي الدُّنْيَا، حَتَّى إِذَا أَفْضَى إِلَى الْآخِرَةِ، لَمْ تَكُنْ لَهُ حَسَنَةٌ يُجْزَى بِهَا». [صحيح] - [رواه مسلم]

(85) – Ənəs bin Məlikdən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: “Şübhəsiz ki, Allah möminin yaxşı əməlinin savabını silməklə ona zülm etməz, yaxşılığın əvəzini bu dünyada verər və axirətdə də mukafatlandırar, kafiri isə Allah xətrinə etdiyi xeyir əməllərinin dadını bu dünyada daddırar, axirətə gəldikdə isə onun mukafatlanacaq heç bir savabı qalmaz”. [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun), Allahın möminlərə olan əzəmətli lütfünü və kafirlərə qarşı ədalətini bəyan edir. Möminə gəldikdə onun xeyir əməllərinin əcri azalmaz, əksinə bu dünyada itaətinə görə verildiyi savabla yanaşı, axirətdə onun üçün savabı toplanar. Bəzən savabının hamısı axirət üçün saxlanılar. Kafirə gəlincə isə onun etdiyi yaxşılıqların əvəzini, Allah ona dünya nemətləri ilə verər, axirətə yetişdikdə isə onun mukafatlanacaq savabı qalmaz, çünki yalnız müsəlmanın saleh əməlləri ona bu dünyada və axirətdə fayda verər.

## Hədisin faydalarından:

1. Küfr üzərə ölən kimsənin əməli ona fayda verməz.

(65015)

(86) – عَنْ أَنَسِ بْنِ مَالِكٍ رضي الله عنه قَالَ: سَمِعْتُ رَسُولَ اللهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «قَالَ اللَّهُ تَبَارَكَ وَتَعَالَى: يَا ابْنَ آدَمَ إِنَّكَ مَا دَعَوْتَنِي وَرَجَوْتَنِي غَفَرْتُ لَكَ عَلَى مَا كَانَ فِيكَ وَلاَ أُبَالِي، يَا ابْنَ آدَمَ لَوْ بَلَغَتْ ذُنُوبُكَ عَنَانَ السَّمَاءِ ثُمَّ اسْتَغْفَرْتَنِي غَفَرْتُ لَكَ، وَلاَ أُبَالِي، يَا ابْنَ آدَمَ إِنَّكَ لَوْ أَتَيْتَنِي بِقُرَابِ الأَرْضِ خَطَايَا ثُمَّ لَقِيتَنِي لاَ تُشْرِكُ بِي شَيْئًا لأَتَيْتُكَ بِقُرَابِهَا مَغْفِرَةً». [حسن] - [رواه الترمذي]

(86) – Ənəs bin Malikdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyini eşitdim: «Uca Allah buyurdu: Ey Adəm oğlu, nə qədər ki, Mənə dua edib ümid bəsləyirsən, sənin etdiyin günahları bağışlayaram və onlara əhəmiyyət vermərəm. Ey Adəm oğlu, əgər sənin günahların göydəki buludlara çatsa, sonra Məndən bağışlanma diləsən, Mən səni bağışlayaram və onlara əhəmiyyət vermərəm, ey Adəm oğlu, əgər sən Mənə yer dolusu günahla gəlsən və Mənə heç bir şeyi şərik qoşmadan mənimlə qarşılaşsan, Mən səni yer dolusu bağışlanmayla qarşılayaram". [Həsən] - [Ət-Tirmizi rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, Uca Allah qüdsü hədisdə buyurub: Ey Adəm oğlu, nə qədər ki, Mənə dua edib

rəhmətimə ümid bəsləyirsən və ümidini kəsmirsən; bu günah və itaətsizlik böyük günahlardan olsa da belə, sənin günahını örtər və ona əhəmiyyət vermədən silərəm. Ey Adəm övladı, əgər sənin günahların göylə yerin arasını dolduraraq, onun hər tərəfinə çatıb, hər yerini bürüyəcək qədər çox olsa, sonra Məndən bağışlanma diləsən, çoxluğuna əhəmiyyət vermədən hamısını silib, bağışlayaram.

Ey Adəm övladı, əgər ölümdən sonra yer dolusu günah və asiliklə mənim yanıma gəlsən və Mənə heç bir şeyi şərik qoşmadan tövhid əhli olaraq ölmüsənsə - Mən bu günah və asilikləri yer dolusu bağışlanma ilə qarşılayaram. Çünki Mən bağışlaması geniş olanam və şirkdən başqa bütün günahları bağışlayıram.

## Hədisin faydalarından:

1. Uca Allahın rəhmətinin, bağışlamasının və lütfünün genişliyi.
2. Tövhidin fəziləti və Allahın muvahhidlərin (Allaha, heç bir şeyi şərik qoşmadan ibadət edən kəslərin) günah və asiliklərini bağışlaması.
3. Şirkin təhlükəsi və Allahın müşrikləri bağışlamaması.
4. İbn Rəcəb demişdir: “Bu hədis özündə, günahların bağışlanmasının hasil olduğu üç səbəbi əhatə etmişdir: Birincisi: ümid edərək dua etmək, ikincisi: istiğfar - Allahdan bağışlanma diləmək və tövbə etmək, üçüncüsü: tövhid üzərində ölmək”.
5. Bu hədis Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) öz Rəbbindən nəql etdiyi

hədisdir və o “qüdsü və ya ilahi” hədis adlanır və onun ləfzi və mənası Allahdandır, lakin Quranın hər şeydən fərqləndiyi, qiraəti ilə ibadət etmək, onun üçün təmiz olmaq, onunla (kafirlərə) meydan oxumaq və onları aciz buraxmaq və digər özünəməxsus xüsusiyyətləri onda yoxdur.

6. Günahlar üç növdür: Birincisi: Allaha şərik qoşmaq; və bunu Allah bağışlamır, İzzət və Cəlal sahibi olan Allah buyurur: “Həqiqətən, kim Allaha şərik qoşarsa, Allah ona Cənnəti haram etmişdir” [Maidə 5 surəsi, ayə 72].
7. İkincisi: Qulun Rəbbi ilə öz arasında olan günah və asiliklərlə özünə zülm etməsi: İzzət və cəlal sahibi olan Allah istəsə bunu bağışlayar və üzərindən keçər.
8. Üçüncüsü. Allahın heç birini (cəzasız) buraxmadığı günahlardır ki, bu da, qulların bir-birinə zülm etməsidir, onlara görə də (quldan) qisas alınacaqdır.

(5456)

(87) – عن أبي هريرة رضي الله عنه عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، فِيمَا يَحْكِي عَنْ رَبِّهِ عَزَّ وَجَلَّ، قَالَ: «أَذْنَبَ عَبْدٌ ذَنْبًا، فَقَالَ: اللَّهُمَّ اغْفِرْ لِي ذَنْبِي، فَقَالَ تَبَارَكَ وَتَعَالَى: أَذْنَبَ عَبْدِي ذَنْبًا، فَعَلِمَ أَنَّ لَهُ رَبًّا يَغْفِرُ الذَّنْبَ، وَيَأْخُذُ بِالذَّنْبِ، ثُمَّ عَادَ فَأَذْنَبَ، فَقَالَ: أَيْ رَبِّ اغْفِرْ لِي ذَنْبِي، فَقَالَ تَبَارَكَ وَتَعَالَى: عَبْدِي أَذْنَبَ ذَنْبًا، فَعَلِمَ أَنَّ لَهُ رَبًّا يَغْفِرُ الذَّنْبَ، وَيَأْخُذُ بِالذَّنْبِ، ثُمَّ عَادَ فَأَذْنَبَ، فَقَالَ: أَيْ رَبِّ اغْفِرْ لِي ذَنْبِي، فَقَالَ تَبَارَكَ

وَتَعَالَى: أَذْنَبَ عَبْدِي ذَنْبًا، فَعَلِمَ أَنَّ لَهُ رَبًّا يَغْفِرُ الذَّنْبَ، وَيَأْخُذُ بِالذَّنْبِ، اعْمَلْ مَا شِئْتَ فَقَدْ غَفَرْتُ لَكَ». [صحيح] - [متفق عليه]

(87) – Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edilir ki: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) izzət və cəlal sahibi olan Rəbbindən rəvayət edərək belə buyurdu: "Bir qul günah edərək: "Ey Rəbbim, günahımı bağışla!" – dedi. Müqəddəs və pak olan Allah buyurdu: "Qulum günah etdi və bildi ki, günahı bağışlayan və bu günaha görə hesaba çəkən Rəbbi vardır". Sonra qul yenidən günah etdi və dedi: "Rəbbim mənim günahımı bağışla". Müqəddəs və pak olan Allah dedi: "Qulum günah etdi və bildi ki, günahı bağışlayan və bu günaha görə hesaba çəkən Rəbbi vardır". Sonra qul yenidən günah etdi və dedi: "Rəbbim mənim günahımı bağışla". Müqəddəs və pak olan Allah dedi: "Qulum günah etdi və dərk etdi ki, günahı bağışlayan və bu günaha görə hesaba çəkən Rəbbi vardır. Nə istəsən et, artıq səni əfv etdim!" [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Rəbbindən rəvayət edir ki, qul günah edib, sonra: "Allahım mənim günahımı bağışla" deyə dua edərsə, uca Allah buyurar: Qulum günah etdi və dərk etdi ki, onun günahını bağışlayan, günahını başqalarından gizlədən, əfv edən və ya bu günaha görə cəzalandıran Rəbbi vardır. Ona görə Mən onu bağışladım". Sonra qul yenidən günah edər və: "Allahım mənim günahımı bağışla" deyər, uca Allah:

Qulum bir günah etdi və dərk etdi ki, onun günahını bağışlayan, eybini örtən, əfv edən və bu günaha görə cəzalandıran Rəbbi vardır, Mən qulumu bağışladım" deyə buyurar. Sonra qul yenidən günah etməyə davam edər və deyər: "Allahım mənim günahımı bağışla", və uca Allah cavabında: Qulum günah etdi və dərk etdi ki, onun günahını bağışlayan, eybini örtən, günahından keçən və bu günaha görə cəzalandıran Rəbbi vardır. Ona görə Mən qulumu bağışladım. Bir halda ki, qulum hər dəfə günah edib sonra peşman olur, günahlara dönməyəcəyinə əzm edir, lakin nəfsi ona qalib gəlir və yenidən günah edir və nə qədər ki, günah edib, sonra tövbə edəcək, bağışlanma diləyəcək, qoy qulum istədiyini etsin. Tövbə öncəkiləri yox edər" deyə buyurar.

### Hədisin faydalarından:

1. Allahın qullarına qarşı rəhmətinin genişliyi. İnsan nə qədər günah edərsə, nə pis iş görərsə, tövbə edib Ona döndüyü təqdirdə, Allah onun tövbəsini qəbul edər.
2. Uca Allaha iman edən qul Rəbbinin əfvinə ümid edər, Onun cəzasından qorxar, tövbəyə can atar, günahda israrlı, davamlı olmaz.
3. Doğru tövbənin şərtləri: Günahı tərk etmək, günah etməkdən peşman olmaq, bu günahı təkrarlamamağa əzm etmək. Əgər tövbə, mal, ismət, can kimi, qullara edilən zülmlərdəndirsə tövbəyə bir şərt də əlavə edilir ki bu da haqq sahibindən halallıq almaq və ya ona haqqını ödəməkdir.

4. Bəndənin dini mələsələlərdə elmə yiyələnməsinə yardım edən, xəta etdikdə tövbə etməsinə, ruhdan düşməməsinə və israr etməməsinə səbəb olan Allahı, elmə əsaslanaraq tanımağın əhəmiyyəti.

(4817)

(88) – عن عَلِيٍّ قَالَ: إِنِّي كُنْتُ رَجُلًا إِذَا سَمِعْتُ مِنْ رَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ حَدِيثًا نَفَعَنِي اللهُ مِنْهُ بِمَا شَاءَ أَنْ يَنْفَعَنِي بِهِ، وَإِذَا حَدَّثَنِي رَجُلٌ مِنْ أَصْحَابِهِ اسْتَحْلَفْتُهُ، فَإِذَا حَلَفَ لِي صَدَّقْتُهُ، وَإِنَّهُ حَدَّثَنِي أَبُو بَكْرٍ، وَصَدَقَ أَبُو بَكْرٍ، قَالَ: سَمِعْتُ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «مَا مِنْ رَجُلٍ يُذْنِبُ ذَنْبًا، ثُمَّ يَقُومُ فَيَتَطَهَّرُ، ثُمَّ يُصَلِّي، ثُمَّ يَسْتَغْفِرُ اللهَ، إِلَّا غَفَرَ اللهُ لَهُ»، ثُمَّ قَرَأَ هَذِهِ الْآيَةَ: {وَالَّذِينَ إِذَا فَعَلُوا فَاحِشَةً أَوْ ظَلَمُوا أَنْفُسَهُمْ ذَكَرُوا اللهَ فَاسْتَغْفَرُوا لِذُنُوبِهِمْ} [آل عمران: 135].

[صحيح] - [رواه أبو داود والترمذي والنسائي في الكبرى وابن ماجه وأحمد]

(88) – Əlidən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Mən elə bir adamam ki, Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) bir hədis eşitdiyim zaman uca Allah məni o hədislə istədiyi tərzdə faydalandırırdı. Əgər mənə Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) səhabələrindən kimsə hədis rəvayət etsəydi ona and içdirərdim, əgər and içsə, mən ona inanardım. Əbu Bəkr mənə hədis rəvayət etdi və dediklərində sadiq idi, dedi ki: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyini eşitdim: "Əgər bir kəs günah edər, sonra dəstəmaz alaraq namaz qılar, sonra Allahdan bağışlanma

diləyərsə, Allah onu bağışlayar". Ardınca bu ayəni oxudu: “O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm et-dik-də Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər” [Ali İmran 3 surəsi, ayə 135]. [Səhih] - [Əbu Davud, Ət-Tirmizi, Ən-Nəsai Əl-Kubrada, İbnu-Məcə və Əhməd rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, əgər bəndə günah edərsə, sonra gözəl dəstəmaz alarsa, ardınca ayağa qalxıb bu günahdan tövbə niyyəti ilə iki rükət namaz qılarsa və nəhayət Allahdan bağışlanma dilərsə, Allah da onu bağışlayar.

Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) uca Allahın bu kəlamını oxudu:

“O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, - günahları Allahdan başqa kim bağışlaya bilər? Onlar bilə-bilə günah əməllərində israr etməzlər” [Ali imran 3 surəsi, ayə 135].

## Hədisin faydalarından:

1. Namaza təşviq, həmçinin günah etdikdən sonra bağışlanma diləməyə həvəsləndirmək.
2. İzzət və cəlal sahibi olan Allahın məğfirətinin genişliyi, tövbə və istiğfarı qəbul etməsi.

(65063)

(89) – عَنْ أَبِي مُوسَى رضي الله عنه عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «إِنَّ اللهَ عَزَّ وَجَلَّ يَبْسُطُ يَدَهُ بِاللَّيْلِ لِيَتُوبَ مُسِيءُ النَّهَارِ، وَيَبْسُطُ يَدَهُ بِالنَّهَارِ لِيَتُوبَ مُسِيءُ اللَّيْلِ، حَتَّى تَطْلُعَ الشَّمْسُ مِنْ مَغْرِبِهَا». [صحيح] - [رواه مسلم]

(89) – Əbu Musadan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: “Həqiqətən, Allah Əzzə və Cəllə günəş batdığı yerdən çıxana qədər gecə əlini uzadır ki, gündüzün günahkarı tövbə etsin, gündüz də əlini uzadır ki, gecənin günahkarı tövbə etsin". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Uca Allah qullarından tövbəni qəbul edir. Əgər qul gündüz günah edib gecə tövbə etsə, Allah onun tövbəsini qəbul edər, əgər gecə günah edib gündüz tövbə etsə, Allah onun tövbəsini qəbul edər. Pak olan Allah qulunun tövbəsinə sevindiyindən və onu qəbul etmək üçün tövbəyə əlini uzadar və dünyanın sonunu bildirən günəşin qərbdən çıxmasına qədər tövbə qapısı açıq qalır. (Günəş) qərbdən çıxdıqda, artıq tövbə qapısı bağlanacaq.

**Hədisin faydalarından:**

1. Tövbə qapısı açıq olduğu müddətdə qəbul olunmağa davam edər. Günəşin qərbdən çıxması ilə onun qapısı bağlanar. Bir də, ölüm qarqarasından əvvəl - ruh boğaza yetişməzdən əvvəl insanın tövbə etməsi (qəbuldur).

2. Günaha görə ümidsizliyə düşmək olmaz. Çünki, Pak olan Allahın bağışlaması və rəhməti genişdir və tövbə qapısı açıqdır.
3. Tövbənin şərtləri: Birincisi: günahı tərk etmək, ikincisi: günah etdiyinə görə peşman olmaq, üçüncüsü: əgər günah Uca Allahın haqlarındandırsa, ona bir daha qayıtmamağa əzmli olmaq, yox əgər qulların haqlarından olan bir haqla əlaqəlidirsə, tövbənin düzgün olması üçün həmin haqqı sahibinə qaytarmaq və ya haqq sahibinin onu bağışlaması şərtdir.

(4318)

(90) – عن أبي هريرة رضي الله عنه: أن رسول الله صلى الله عليه وسلم قال: «يَنْزِلُ رَبُّنَا تَبَارَكَ وَتَعَالَى كُلَّ لَيْلَةٍ إِلَى السَّمَاءِ الدُّنْيَا حِينَ يَبْقَى ثُلُثُ اللَّيْلِ الْآخِرُ، يَقُولُ: «مَنْ يَدْعُونِي فَأَسْتَجِيبَ لَهُ؟ مَنْ يَسْأَلُنِي فَأُعْطِيَهُ؟ مَنْ يَسْتَغْفِرُنِي فَأَغْفِرَ لَهُ؟». [صحيح] - [متفق عليه]

(90) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: “Hər gecə uca və müqəddəs Rəbbimiz gecənin son üçdə birində dünya səmasına enərək deyir: “Mənə dua edən varmı duasını qəbul edim? Məndən istəyən varmı ona istədiyini verim? Məndən bağışlanma diləyən varmı onu bağışlayım?". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, hər gecə, uca və müqəddəs Rəbbimiz gecənin son üçdə bir hissəsində dünya səmasına enərək, qullarını Ona dua etməyə çağırır, çünki O qulun duasını qəbul edəndir. İstəklərini Ondan diləməyə təşviq edir, çünki O istəkləri yerinə yetirəndir. Günahlarının bağışlamasını Ondan diləməyə çağırır, çünki O mömin qullarını bağışlayandır.

## Hədisin faydalarından:

1. Gecənin son üçdə biri hissəsinin fəziləıtinə görə həmin vaxt namazın, duanın və istiğfarın önəmli olması.
2. İnsan bu hədisi eşitdikdə duanın qəbul olma vaxtlarından faydalanmağa həris olmalıdır.

(10412)

(91) – عن النُّعمان بن بَشِير رضي الله عنه قال: سَمِعْتُ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ -وَأَهْوَى النُّعْمَانُ بِإِصْبَعَيْهِ إِلَى أُذُنَيْهِ-: «إِنَّ الْحَلَالَ بَيِّنٌ وَإِنَّ الْحَرَامَ بَيِّنٌ، وَبَيْنَهُمَا مُشْتَبِهَاتٌ لَا يَعْلَمُهُنَّ كَثِيرٌ مِنَ النَّاسِ، فَمَنِ اتَّقَى الشُّبُهَاتِ اسْتَبْرَأَ لِدِينِهِ وَعِرْضِهِ، وَمَنْ وَقَعَ فِي الشُّبُهَاتِ وَقَعَ فِي الْحَرَامِ، كَالرَّاعِي يَرْعَى حَوْلَ الْحِمَى يُوشِكُ أَنْ يَرْتَعَ فِيهِ، أَلَا وَإِنَّ لِكُلِّ مَلِكٍ حِمًى، أَلَا وَإِنَّ حِمَى اللهِ مَحَارِمُهُ، أَلَا وَإِنَّ فِي الْجَسَدِ مُضْغَةً، إِذَا صَلَحَتْ صَلَحَ الْجَسَدُ كُلُّهُ، وَإِذَا فَسَدَتْ فَسَدَ الْجَسَدُ كُلُّهُ، أَلَا وَهِيَ الْقَلْبُ».

[صحيح] - [متفق عليه]

(91) – Ən-Numan bin Bəşirdən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o barmağıyla qulaqlarına işarə edərək: Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim" dedi: "Şübhəsiz ki, halal olan şeylər bəllidir, haram olan şeylər bəllidir, onların arasında əksər insanların bilmədiyi şübhəli məsələlər var. Kim şübhələrdən çəkinərsə, dinini və şərəfini qorumuş olar. Lakin kim şübhələrə uyarsa, harama düşmüş olar. (Onun misalı) Qoruğun ətrafında sürüsünü otaran çobanın misalı kimidir, onun sürüsü sanki qadağan edilən qoruğa daxil olmaq istəyir. Bilin ki, hər hökmdarın öz qoruğu vardır. Allahın qoruğu da, onun haramlarıdır. Agah olun ki, bədəndə bir ət parçası vardır ki, o sağlam olarsa bütün bədən sağlam olar, o pozularsa, bədənin bütün əzaları pozular. Bilin ki, bu qəlbdir”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) əşyalara dair ümumi qaydanı açıqlayır və dində bunun üç qisim olduğunu bildirir: aşkar halallar, aşkar haramlar, halal və haramlığı aydın olmayan bənzər məsələlər, bunları isə əksər insanlar bilmirlər.

Və kim bu şübhəli məsələləri tərk edərsə, harama batmaqdan çəkindiyinə görə dinini və ləyaqətini qoruyar, insanların qınağından salamat olar. Şübhəli məsələlərdən uzaq durmayan kəs isə ya özünü harama düşməklə təhlükəyə atar, yaxud da öz şərəf ləyaqəti barədə insanların dedi qodusuna yol açar. Peyğəmbər (Allahın

salavatı və salamı onun üzərinə olsun) şübhəli məsələlərə uyanın halını bəyan etmək üçün, sahibi tərfindən qorunan qoruğun ətrafında sürüsünü otaran çobanı misal gətirir, qoruğun yaxın olduğu üçün sürünün onun ərazisinə keçmə ehtimalı və təhlükəsi var. Eləcə də, kim şübhəli bir şey edərsə, harama düçar olmağa yaxın olar və bununla da özünü təhlükəyə atar. Daha sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bədəndə bir ət parçasından, o sağlam olduqda bütün bədənin sağlam, o pozulduqda isə bütün bədənin pozulduğunu və bunun da qəlb olduğunu xəbər verrir.

### Hədisin faydalarından:

1. Hökmü bəlli olmayan şübhəli məsələni tərk etməyə rəğbətləndirmək.

(4314)

(92) – عَنْ أَبِي سَعِيدٍ الخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «لاَ تَسُبُّوا أَصْحَابِي، فَلَوْ أَنَّ أَحَدَكُمْ أَنْفَقَ مِثْلَ أُحُدٍ ذَهَبًا مَا بَلَغَ مُدَّ أَحَدِهِمْ، وَلاَ نَصِيفَهُ». [صحيح] - [متفق عليه]

(92) – Əbu Səid Əl-Xudridən (Allah ondan razı olsun) rəvayət edilir ki, o, dedi: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: “Səhabələrimi söyməyin! Əgər sizdən biriniz Uhud dağı qədər qızıl xərcləsə belə, onların birinin bir müdd (bir ovuc qədər) sədəqəsinə, hətta onun yarısına da çata bilməz”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) səhabələri, xüsusən də İslamı ilk qəbul edən və öndə gedən mühacir və ənsarları söyməyi qadağan edərək xəbər verir ki, insanlardan biri Uhud dağı boyda qızıl sədəqə versə, onun savabı səhabələrdən birinin verdiyi bir mudd- orta ölçülü adamın ovuclarını dolduracaq miqdar - yemək və ya onun yarısının savabına çatmaz. Bu, onların ixlaslarının çoxluğu, niyyətlərinin saflığı, Məkkənin fəthindən əvvəl ehtiyacın şiddətli olduğu vaxt hər kəsdən qabaq Allah yolunda xərcləmələri və döyüşlərdə iştirak etdiklərinə görədir.

## Hədisin faydalarından:

1. Səhabələri (Allah onlardan razı olsun) söymək haramdır və böyük günahlardandır.

(11000)

(93) – عن ابن عباس رضي الله عنهما قال: كُنْتُ خَلْفَ رَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَوْمًا، فَقَالَ: «يَا غُلَامُ، إِنِّي أُعَلِّمُكَ كَلِمَاتٍ، احْفَظِ اللهَ يَحْفَظْكَ، احْفَظِ اللهَ تَجِدْهُ تُجَاهَكَ، إِذَا سَأَلْتَ فَاسْأَلِ اللهَ، وَإِذَا اسْتَعَنْتَ فَاسْتَعِنْ بِاللهِ، وَاعْلَمْ أَنَّ الْأُمَّةَ لَوِ اجْتَمَعَتْ عَلَى أَنْ يَنْفَعُوكَ بِشَيْءٍ، لَمْ يَنْفَعُوكَ إِلَّا بِشَيْءٍ قَدْ كَتَبَهُ اللهُ لَكَ، وَلَوِ اجْتَمَعُوا عَلَى أَنْ يَضُرُّوكَ بِشَيْءٍ، لَمْ يَضُرُّوكَ إِلَّا بِشَيْءٍ قَدْ كَتَبَهُ اللهُ عَلَيْكَ، رُفِعَتِ الْأَقْلَامُ وَجَفَّتِ الصُّحُفُ». [صحيح] - [رواه الترمذي]

(93) – İbn Abbasdan (Allah ondan və atasından razı olsun) belə dediyi rəvayət edilir: Bir gün mən Allah

Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) (miniyində) onun tərkində ikən o mənə buyurdu: "Oğul! Mən sənə bir neçə kəlimə öyrədəcəm: Allahı qoru (xatırlayaraq hududlarına qərəzsiz riayət et) ki, Allah da səni qorusun. Allahı qoru (hüdudlarına riayət et) ki, Onu öz qarşında görəsən. Nəyisə istədikdə, Allahdan istə. Kömək istədikdə, yalnız Allahdan kömək istə. Bil ki, bütün insanlar sənə xeyir vermək üçün toplaşsalar belə, Allahın yazdığından artıq sənə heç bir xeyir verə bilməzlər. Həmçinin sənə zərər vermək üçün cəm olsalar belə yenə də Allahın sənə yazdığından artıq zərər verə bilməzlər. (Artıq) qələmlər qaldırılmış, səhifələr (mürəkkəbi) qurumuşdur". [Səhih] - [Ət-Tirmizi rəvayət etdi]

**Şərh (izah):**

İbn Abbas (Allah ondan və atasından razı olsun) xəbər verir ki, o azyaşlı olarkən Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ilə birgə minik üstündə idi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona belə buyurdu: Sənə Allah qatında fayda verəcək bəzi məsələləri və qaydaları öyrədəcəm:

Allahı, əmrlərini yerinə yetirərək və qadağalarından çəkinərək mühafizə ki, səni, itaətdə və Ona yaxınlaşdıran əməllərdə qeyd etsin, haram və günahlarda adını çəkməsin. Bunu etsən, sənin mükafatın, Allahın səni dünya və axirət müsibətlərindən qoruması, hara getsən işlərində sənə yardım etməsi olacaq.

Bir şey istədikdə, yalnız Allahdan istə, çünki dua edənlərin duasını yalnız O qəbul edir.

Kömək istədikdə, yalnız Allahdan kömək istə.

Əmin ol ki, yer üzündə olan bütün insanlar sənə fayda vermək üçün toplaşsalar, Allahın sənə yazdığından artıq fayda verə bilməzlər. Yer üzündəki bütün insanlar toplaşıb sənə zərər vermək istəsələr, Allahın sənə təqdir etdiyindən artıq zərər verə bilməzlər.

İzzət və cəlal sahibi Allah bu məsələni, hikmətinin və elminin tələbinə uyğun təqdir edib yazmışdır. Allahın yazdığı məsələlərdə isə heç bir dəyişiklik ola bilməz.

## Hədisin faydalarından:

1. Azyaşlılara və uşaqlara tövhid (Allahın təkliyi), ədəb və digər dini məsələlərinin öyrədilməsinin əhəmiyyəti.
2. Əməlin mükafatı yaxud cəzası, onun növündəndir.
3. Yalnız Allaha təvəkkül edib, ona etimad etmək əmr edilmişdir. O nə gözəl qoruyandır.
4. Qəza və qədərə iman edib, ondan razı qalmaq.
5. Bilmək lazımdır ki həqiqətən Allah hər şeyi təqdir etmişdir.
6. Kim Allahın əmrinə riayət etməzsə, Allah da onu qoruyub, mühafizə etməz.

(4811)

(94) – عَنْ سُفْيان بن عَبْدِ اللهِ الثَّقَفِيّ رضي الله عنه قال: قُلْتُ: يَا رَسُولَ اللهِ، قُلْ لِي فِي الْإِسْلَامِ قَوْلًا لَا أَسْأَلُ عَنْهُ أَحَدًا غَيْرَكَ، قَالَ: «قُلْ: آمَنْتُ بِاللهِ، ثُمَّ اسْتَقِمْ».

[صحيح] - [رواه مسلم وأحمد]

(94) – Sufyan bin Abdullah Əs-Səqafidən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Dedim: “Ey Allahın Rəsulu, mənə İslamda elə bir şey söylə ki, onu səndən başqa heç kimdən soruşmayım. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: De ki: "Allaha iman gətirdim, ardınca da doğru yolu tut". [Səhih] - [Muslim və Əhmməd rəvayət etdi]

## Şərh (izah):

Sahabə Sufyan bin Abdullah (Allah ondan razı olsun) Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) ona İslam dininin mənalarını əhatə edən bir kəlam öyrətməsini istədi ki, ona riayət etsin və bu haqda ondan başqa heç kimdən soruşmasın. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona dedi: De: “Allahın təkliyini etiraf etdim və Onun mənim Rəbbim, mənim İlahım, mənim Yaradanım və şəriki olmayan haqq Məbudum olduğuna iman gətirdim. Sonra o, Allahın fərzlərini yerinə yetirərək və Allahın qadağalarını tərk edərək, Allaha itaətə yönəlir və bunun üzərində davamlı olur.

## Hədisin faydalarından:

1. Dinin əsası Allahın rububiyyətinə, uluhiyyətinə, isim və sifətlərinə iman gətirməkdir.
2. İman gətirdikdən sonra doğru yola riayət etməyin, ibadətlərdə davamlı olmağın və bunun üzərində sabit qalmağın əhəmiyyəti.
3. İman əməlin qəbul olunması üçün şərtdir.

4. Allaha iman özündə, əqidə ilə etiqad edilən imanı və onun əsaslarını, bundan irəli gələn qəlblərin əməllərini, daxilən və zahirən Allaha təslim olub və Ona boyun əyməyi ehtiva edir.
5. Doğru yol - vaciblərə əməl edib, qadağaları tərk etməklə bu yolda davamlı olmaqdır.

(65018)

(95) – عَنِ النُّعْمَانِ بْنِ بَشِيرٍ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «مَثَلُ الْمُؤْمِنِينَ فِي تَوَادِّهِمْ وَتَرَاحُمِهِمْ وَتَعَاطُفِهِمْ مَثَلُ الْجَسَدِ، إِذَا اشْتَكَى مِنْهُ عُضْوٌ تَدَاعَى لَهُ سَائِرُ الْجَسَدِ بِالسَّهَرِ وَالْحُمَّى». [صحيح] - [متفق عليه]

(95) – Numan bin Bəşirdən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilmişdir: «Möminlər bir-birlərini sevməkdə, bir-birlərinə mərhəmət etməkdə və bir-birlərinə qarşı şəfqətli olmaqda bir bədən kimidirlər. Bədənin bir üzvü şikayət etsə (xəstə olsa), digər bədən üzvləri də bu səbəbdən yuxusuzluğa və qızdırmaya tutular». [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər - sallallahu aleyhi və səlləm - bəyan etmişdir ki, müsəlmanların bir-birlərinə yaxşılıq etmək, mərhəmətli olmaq, yardımlaşmaq və bir-birlərinə dəstək olmaq və başlarına gələn zərərdən əziyyət çəkməkdə olan halları bir bədən kimi olmalıdır. Bədənin bir üzvü

xəstələnərsə, bütün bədən o xəstə üzvlə birlikdə yuxusuzluğa və qızdırmaya tutular.

**Hədisin faydalarından:**

1. Müsəlmanların haqlarına böyük önəm verilməli, onların bir-birlərinə yardım etmələri və bir-birlərinə qarşı lütfkar olmalarına təşviq edilməlidir.
2. İman əhli arasında məhəbbət və yardımlaşma olmalıdır.

(4969)

(96) – عن عثمان بن عفان رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «مَنْ تَوَضَّأَ فَأَحْسَنَ الْوُضُوءَ خَرَجَتْ خَطَايَاهُ مِنْ جَسَدِهِ حَتَّى تَخْرُجَ مِنْ تَحْتِ أَظْفَارِهِ». [صحيح] - [رواه مسلم]

(96) – Osman bin Affandan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: "Kim gözəl surətdə dəstəmaz alarsa, günahları cəsədindən, hətta dırnaqlarının altından çıxar". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, kim dəstəmazı sünnəyə uyğun və ədəblərinə riayət edərək yerinə yetirərsə, günahlarının və xətalarının silinməsinə səbəb olar, hətta günahlar ayaq və əl dırnaqlarının altından belə çıxar.

### Hədisin faydalarından:

1. Dəstəmazın, sünnələrinin və ədəblərinin təliminə diqqət yetirməyə və onlara əməl etməyə təşviq.
2. Dəstəmazın fəziləti və onun kiçik günahları silməsi. Böyük günahlara gəldikdə isə burada tövbə gərəkdir.
3. Günahların silinməsinin şərti, dəstəmazı Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirdiyi kimi kamil və ona xələl gətirmədən almaqdır.
4. Bu hədisdə bəhs edilən günahların təmizlənməsi, böyük günahlardan çəkinib və onlardan tövbə etməyə bağlıdır. Uca Allah buyurur: “Sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin təqsirlərinizdən keçərik” [Nisa 4 surəsi, ayə 31].

(6263)

(97) – عَنْ أَبِي أَيُّوبَ الأَنْصَارِيِّ رضي الله عنه أَنَّ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «إِذَا أَتَيْتُمُ الغَائِطَ فَلاَ تَسْتَقْبِلُوا القِبْلَةَ، وَلاَ تَسْتَدْبِرُوهَا وَلَكِنْ شَرِّقُوا أَوْ غَرِّبُوا» قَالَ أَبُو أَيُّوبَ: فَقَدِمْنَا الشَّأْمَ فَوَجَدْنَا مَرَاحِيضَ بُنِيَتْ قِبَلَ القِبْلَةِ فَنَنْحَرِفُ، وَنَسْتَغْفِرُ اللَّهَ تَعَالَى. [صحيح] - [متفق عليه]

(97) – Əbu Əyyub Əl-Ənsaridən (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dedi: “Ayaqyoluna getdiyiniz zaman üzünüzü və arxanızı qibləyə tərəf çevirməyin, əksinə, şərqə və ya qərbə tərəf çevirin”. Əbu Əyyub dedi: “Şama gəldik və tualetlərin qibləyə tərəf tikildiyini gördük

və buna görə başqa tərəfə çevrilərdik və Uca Allahdan bağışlanma diləyərdik”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) kiçik və ya böyük ehtiyacını ödəmək istəyən hər kəsə üzünü qibləyə və Kəbəyə tərəf yönəltməyi və həmçinin ona arxa çevirməyi qadağan etmişdir. Əksinə, əgər onun qibləsi Mədinə əhlinin qibləsi kimi olarsa, o, şərqə və ya qərbə tərəf dönməlidir. Sonra Əbu Əyyub (Allah ondan razı olsun) xəbər verdi ki, onlar Şama gəldikdə, ehtiyaclarını ödəmək üçün hazırlanmış tualetlərin Kəbəyə tərəf tikildiyini gördülər. Buna görə onlar bədənlərini qiblədən digər tərəfə çevirərdilər və bununla yanaşı Allahdan bağışlanma da diləyərdilər.

**Hədisin faydalarından:**

1. Bunda olan hikmət müqəddəs Kəbəyə təzim və ehtiram etməkdir.
2. Ayaqyolundan (kiçik və böyük ehtiyac ödənilən məkandan) çıxdıqdan sonra bağışlanma diləmək.
3. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) gözəl təlimi (öyrətmək üslubu). Çünki o, haramları qeyd edərkən, icazəli olana da işarə etmişdir.

(3078)

(98) – عَنْ أَبِي قَتَادَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «لَا يُمْسِكَنَّ أَحَدُكُمْ ذَكَرَهُ بِيَمِينِهِ وَهُوَ يَبُولُ، وَلَا يَتَمَسَّحْ مِنَ الْخَلَاءِ بِيَمِينِهِ، وَلَا يَتَنَفَّسْ فِي الْإِنَاءِ». [صحيح] - [متفق عليه]

(98) – Əbu Qatədədən (Allah ondan razı olsun) Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Sizin heç biriniz kiçik su başına çıxarkən cinsi orqanını sağ əli ilə tutmasın, ayaqyolunda sağ əli ilə təmizlənməsin və qaba üfürməsin". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəzi ədəbləri açıqlamışdır: O, kişinin su başına çıxarkən cinsiyyət üzvünü sağ əli ilə tutmasını və sağ əli ilə cinsiyyət üzvü və ya arxa nahiyədən nəcasəti təmizləməsini qadağan etmişdir. Çünki sağ əl yaxşı əməllər etmək üçündür. Həmçinin o, insanın içdiyi qaba üfürməsini da qadağan etmişdir.

**Hədisin faydalarından:**

1. İslamın ədəb və təmizlikdə öndə olmasının bəyanı.
2. Çirkli şeylərdən uzaq durmaq lazımdır. Əgər insan bunları etmək məcburiyyətində qalarsa, sol əllə etsin.
3. Sağ əlin şərəfli və sol əldən üstün olmasının bəyanı.
4. İslam şəriətinin kamilliyi və onun təlimlərinin (bir çox məsələləri) əhatə etməsi.

(3079)

(99) – عَنْ أَنَسٍ رضي الله عنه قَالَ: كَانَ النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَغْسِلُ، أَوْ كَانَ يَغْتَسِلُ، بِالصَّاعِ إِلَى خَمْسَةِ أَمْدَادٍ، وَيَتَوَضَّأُ بِالْمُدِّ. [صحيح] - [متفق عليه]

(99) – Ənəsdən (Allah ondan razı olsun) rəvayət edilir ki: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bir saa ilə beş mudd arası miqdarında su ilə qüsl və bir mudd ilə dəstəmaz alardı. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) cənabətdən bir saa ilə beş mudd arası miqdarında su ilə qüsl, bir mudd ilə dəstəmaz alardı. Bir saa: dörd muddur, bir mudd: orta ölçülü adamın ovuclarını dolduracaq miqdardır.

**Hədisin faydalarından:**

1. Dəstəmaz və qüsl alarkən suya qənaət etməyin və su bol olsa belə, ona israf etməməyin məşruiyyəti (şəriətə müvafiq olması).
2. Dəstəmaz və qüsl üçün istifadə olunan suyun miqdarının lazım olduğu qədər azaldılmasının müstəhəbliyi və bu, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yoludur.
3. Məqsəd, dəstəmaz və qüslun sünnət və ədəblərə riayət edilməklə, israf və əskiklik olmadan tam və düzgün şəkildə yerinə yetirilməsidir. Eyni zamanda, vaxt, suyun çoxluğu və azlığı və digər amillər də nəzərə alınmalıdır.

4. Cənabət dedikdə, meni ifraz edən və ya cinsi əlaqədə olan şəxs nəzərdə tutulur. Bu şəxs pak olana qədər namaz və digər ibadətlərdən uzaq durduğu üçün belə adlandırılmışdır.
5. Saa: Məlum çəkidir və bununla Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) dövründəki saa nəzərdə tutulur və çəkiylə (480 misqal) yaxşı buğda ağırlığına və litrlə (3 litrə) uyğun gəlir.
6. Mudd: Şər'i ölçü vahididir ki, orta ölçülü adamın ovuclarını doldurduqda və onları uzatdıqda olan miqdarıdır. Fəqihlərin ittifaqı ilə mudd saanın dörddə biridir və onun miqdarı (750) millilitrdir.

(8387)

(100) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه عَنِ النَّبِيِّ صلى الله عليه وسلم قَالَ: «لَا يَقْبَلُ اللهُ صَلَاةَ أَحَدِكُمْ إِذَا أَحْدَثَ حَتَّى يَتَوَضَّأَ». [صحيح] - [متفق عليه]

(100) – Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Sizlərdən birinizin dəstmazı pozulduqda, dəstəmaz almayınca Allah onun namazını qəbul etməz". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurur ki, namazın səhihlik şərtlərindən biri də təmizlikdir. Ona görə də namaz qılmaq istəyən yuxudan

ayıldıqda, nəcis və sidiyin ifrazı və bu kimi digər dəstəmazı batil edən hallar baş verdikdə dəstəmaz almalıdır.

## Hədisin faydalarından:

1. Böyük cənabətdən qüsl almayınca (çimmək), sidik və nəcis ifrazından dəstəmaz alıb təmizlənməyincə, namaz qəbul olunmaz.
2. Dəstəmaz: suyu götürərək, ağızda bütünlüklə dövr etdirmək və çıxarmaq, sonra nəfəsi ilə suyu burnunun içinə çəkmək, sonra çıxarmaq, sonra üç dəfə üzünü yumaq, sonra əlləri dirsəklər də daxil olmaqla üç dəfə yumaq, sonra bütün başına bir dəfə məsh çəkmək, sonra üç dəfə ayaqları topuqlar da daxil olmaqla yumaqdır.

(3534)

(101) – عَنْ جَابِرٍ رضي الله عنه قال: أَخْبَرَنِي عُمَرُ بْنُ الْخَطَّابِ: أَنَّ رَجُلًا تَوَضَّأَ فَتَرَكَ مَوْضِعَ ظُفُرٍ عَلَى قَدَمِهِ فَأَبْصَرَهُ النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ فَقَالَ: «ارْجِعْ فَأَحْسِنْ وُضُوءَكَ» فَرَجَعَ، ثُمَّ صَلَّى. [صحيح بشواهده] - [رواه مسلم]

(101) – Cabirdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Ömər bin Əl-Xəttab (Allah ondan razı olsun) mənə dedi: Bir kişi dəstəmaz aldı və ayağında dırnaq boyda yuyulmayan yer buraxdı. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bunu gördü və dedi: “Geri qayıt və dəstəmazı gözəl şəkildə al!”. O kişi qayıdıb yenidən dəstəmaz aldı, sonra namaz qıldı. [Şahidlərlə səhih olan] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Ömər (Allah ondan razı olsun) xəbər verir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bir kişinin dəstəmazını bitirdiyini və ayağında dırnaq boyda su dəyməyən yer buraxdığını gördü. O, dəstəmazdakı nöqsan olan yerə işarə edərək dedi: Geri qayıt və dəstəmazını gözəl şəkildə al, dəstəmazı tamamla və hər bir üzvə lazım olan miqdarda su ver. Kişi qaytdı, dəstəmazını tamamladı, sonra namaz qıldı.

## Hədisin faydalarından:

1. Yaxşılığı əmr etmək, cahil və qafilləri doğru yola yönəltmək üçün tələsməyin vacibliyi, xüsusən də münkər (şərr, pislik, haram) onun ibadətinin fəsadına səbəb olarsa.
2. Dəstəmaz əzalarını tam yumaq vacibdir və kim bu əzaların müəyyən bir hissəsini - az da olsa - tərk edərsə (yumazsa), onun dəstəmazı səhih olmaz və dəstəmazdan sonra çox vaxt keçibsə, dəstəmazı yenidən almalıdır.
3. Dəstəmazı gözəl şəkildə almaq şər'i tələbdir. Bu isə şəriətin əmr etdiyi şəkildə dəstəmazı tamamlamaq və dəstəmaz əzalarını tam yumaqla olur.
4. Ayaqlar dəstəmaz üzvlərindəndir və onların üzərinə məsh çəkmək kifayət etmir, əksinə onları yumaq lazımdır.
5. Dəstəmaz əzaları arasında fasilə verilmədən ardıcıllıq olmalıdır. Yəni hər bir üzv öncəki üzv qurumadan əvvəl yuyulmalıdır.

6. Cahillik (bilməməzlik) və unutqanlıq vacib olan şeyləri hökmdən salmır, sadəcə olaraq günahı qaldırır. Cəhaləti səbəbi ilə dəstəmazını düzgün yerinə yetirməyən bu kişi üçün Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) vacibi-dəstəmazı hökmdən salmadı, əksinə olaraq ona təkrar dəstəmaz almağı əmr etdi.

(8386)

(102) – عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرٍو رَضِيَ اللهُ عنهما قَالَ: رَجَعْنَا مَعَ رَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ مِنْ مَكَّةَ إِلَى الْمَدِينَةِ حَتَّى إِذَا كُنَّا بِمَاءٍ بِالطَّرِيقِ تَعَجَّلَ قَوْمٌ عِنْدَ الْعَصْرِ، فَتَوَضَّؤُوا وَهُمْ عِجَالٌ، فَانْتَهَيْنَا إِلَيْهِمْ وَأَعْقَابُهُمْ تَلُوحُ لَمْ يَمَسَّهَا الْمَاءُ فَقَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «وَيْلٌ لِلْأَعْقَابِ مِنَ النَّارِ أَسْبِغُوا الْوُضُوءَ». [صحيح] - [متفق عليه]

(102) – Abdullah bin Amr (Allah onların hər ikisindən razı olsun) demişdir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ilə Məkkədən Mədinəyə qayıdarkən yolda su tapdıq və insanlar əsr namazı üçün tələsdi və tələsik formada dəstəmaz aldılar. Biz onların yanına gəldikdə, dabanlarına su dəymədiyi görünürdü. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Cəhənnəm odunda (yanan) dabanlara vay olsun, dəstəmazı tam alın". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) səhabələri ilə birlikdə Məkkədən Mədinəyə səfər etdi və yolda su tapdılar. Bəzi sahabələr əsr namazı üçün dəstəmaz almağa o qədər tələsdilər ki, ayaqlarının arxalarının quru olduğu baxan kəsə aşkar göründü. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: Dəstəmaz alarkən ayaqlarının arxasını yumaqda səhlənkarlıq edənlərə cəhənnəmdə əzab və həlak vardır və onlara dəstəmazı kamil almağı əmr etdi.

## Hədisin faydalarından:

1. Dəstəmaz alarkən ayaqları yumaq vacibdir. Çünki məsh çəkmək icazəli olsaydı, dabanını yumayan kəsi atəşlə hədələməzdi.
2. Yuyulması fərz olan bədən üzvlərinin hər tərəfini tam şəkildə yumaq vacibdir. Əgər bir kəs yuyulması vacib olan yerdən az bir hissəni biləraəkdən və ya səhlənkarlıqla tərk edərsə, onun namazı səhih sayılmaz.
3. Cahilləri öyrətməyin və yönəltməyin əhəmiyyəti.
4. Alim vacib və sünnələrdə yol verilən nöqsanlardan gördüklərini münasib üslubda inkar edir.
5. Muhəmməd İshaq Əd-Dəhləvi demişdir: “İsbağ üç növdür:
    a. Vacib olan, bu (yuyulması gərəkən) yerləri bir dəfə yumaqdır.
    b. Sünnət olan - üç dəfə yumaq.

c. Müstəhəb olan - üç dəfə olmaqla uzun müddət yumaq".

(66392)

(103) – عن عَمْرِو بْنُ عَامِرٍ عَنْ أَنَس بن مالك قَالَ: كَانَ النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَتَوَضَّأُ عِنْدَ كُلِّ صَلَاةٍ، قُلْتُ: كَيْفَ كُنْتُمْ تَصْنَعُونَ؟ قَالَ: يُجْزِئُ أَحَدَنَا الْوُضُوءُ مَا لَمْ يُحْدِثْ. [صحيح] - [رواه البخاري]

(103) – Amr bin Amirdən (Allah ona rəhmət etsin) rəvayət edildiyinə görə Ənəs bin Malik (Allah ondan razı olsun) belə demişdir: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) hər namaz üçün dəstəmaz alardı. Dedim ki: "Bəs siz necə edirdiz?". O da: "Bizdən birisi dəstəmazını pozmadığı müddətcə aldığı dəstəmaz ona kifayət edərdi" - deyərək cavab verdi. [Səhih] - [Əl-Buxari rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) fəzilət və savaba nail olmaq üçün dəstəmazı pozulmasa da hər namaz üçün dəstəmaz alırdı.

Bir kimsənin dəstəmazı olduğu müddətcə aldığı dəstəmazla birdən çox fərz namazı qılması caizdir.

## Hədisin faydalarından:

1. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) ən çox əməli, mükəmməl olanı əldə etmək üçün hər namaza dəstəmaz alması idi.
2. Hər namaz üçün dəstəmaz almaq müstəhəbdir.

3. Bir dəstəmazla birdən çox fəzr namazı qılmaq caizdir.

(65080)

(104) – عَنِ ابْنِ عَبَّاسٍ رضي الله عنهما قَالَ: تَوَضَّأَ النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ مَرَّةً مَرَّةً. [صحيح] - [رواه البخاري]

(104) – İbn Abbasdan (Allah ondan və atsından razı olsun) rəvayət edildiyinə görə o belə demişdir. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) (dəstəmaz azalarının hər birini) bir dəfə yuyaraq dəstəmaz aldı. [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəzən dəstəmaz alarkən hər bir dəstəmaz azasını bir dəfə yuyardı. Üzünü - ağıza və buruna su çəkmək də buna daxildir - qollarını və ayaqlarını bir dəfə yuyardı. Bu vacib olan miqdardır.

**Hədisin faydalarından:**

1. Dəstəmaz əzalarının bir dəfə yuyulması vacibdir. Bir dəfədən artıq yuyulması isə müstəhəbdir.
2. Bəzən dəstəmaz azalarının bir dəfə yuyulması caizdir.
3. Dəstəmaz alarkən başa bir dəfə məsh edilir.

(65081)

(105) – عَنْ عَبْدِ اللهِ بْنِ زَيْدٍ رضي الله عنه: أَنَّ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ تَوَضَّأَ مَرَّتَيْنِ مَرَّتَيْنِ. [صحيح] - [رواه البخاري]

(105) – Abdullah bin Zeyddən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə demişdir: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) (dəstəmaz azalarını) iki dəfə yuyaraq dəstəmaz aldı. [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəzən dəstəmaz alarkən hər bir dəstəmaz azasını iki dəfə yuyardı. Üzünü - ağıza və buruna su çəkmək də buna daxildir - qollarını və ayaqlarını iki dəfə yuyardı.

**Hədisin faydalarından:**

1. Dəstəmaz azalarının bir dəfə yuyulması vacibdir. Bir dəfədən artıq yuyulması isə müstəhəbdir.
2. Bəzən dəstəmaz azalarının iki dəfə yuyulması caizdir.
3. Dəstəmaz alarkən başa bir dəfə məsh edilir.

(65082)

(106) – عَنْ حُمْرَانَ مَوْلَى عُثْمَانَ بْنِ عَفَّانَ رضي الله عنه: أَنَّهُ رَأَى عُثْمَانَ بْنَ عَفَّانَ دَعَا بِوَضُوءٍ، فَأَفْرَغَ عَلَى يَدَيْهِ مِنْ إِنَائِهِ، فَغَسَلَهُمَا ثَلَاثَ مَرَّاتٍ، ثُمَّ أَدْخَلَ يَمِينَهُ فِي الْوَضُوءِ، ثُمَّ تَمَضْمَضَ وَاسْتَنْشَقَ وَاسْتَنْثَرَ، ثُمَّ غَسَلَ وَجْهَهُ ثَلَاثًا، وَيَدَيْهِ إِلَى الْمِرْفَقَيْنِ ثَلَاثًا، ثُمَّ مَسَحَ بِرَأْسِهِ، ثُمَّ غَسَلَ كُلَّ رِجْلٍ ثَلَاثًا، ثُمَّ قَالَ: رَأَيْتُ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَتَوَضَّأُ نَحْوَ وُضُوئِي هَذَا، وَقَالَ: «مَنْ تَوَضَّأَ نَحْوَ وُضُوئِي هَذَا ثُمَّ صَلَّى رَكْعَتَيْنِ لَا يُحَدِّثُ فِيهِمَا نَفْسَهُ غَفَرَ اللهُ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ». [صحيح] - [متفق عليه]

(106) – Osman ibn Əffanın (Allah ondan razı olsun) köləlikdən azad etdiyi Humran rəvayət edir ki, Osman (Allah ondan razı olsun) dəstəmaz almaq üçün su istədi. (Su gəlincə) qabdan əllərinə su tökərək əllərini üç dəfə yudu. Sonra sağ əlini qaba salıb su aldı sonra o su ilə həm ağzını yaxaladı, həm də burnunun içinə su səkdi sonra da suyu burnundan ifraz etdi. Sonra üç dəfə üzünü və üç dəfə qollarını dirsəklərə qədər yudu. Sonra başına məsh çəkdi. Sonra hər bir ayağını üç dəfə yudu. Sonra da belə dedi: Mən, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) mənim dəstəmaz aldığım kimi dəstəmaz aldığını gördüm. O (dəstəmaz alıb qutardıqdan sonra) belə dedi: "Kim mənim bu aldığım dəstəmaz kimi dəstəmaz alar sonra qəlbindən heç bir şey keçirtmədən iki rükət namaz qılarsa Allah onun keçmiş günahlarını bağışlayar". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Osman (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) aldığı dəstəmazı daha aydın bir şəkildə anlatması üçün bunu şəxsən özü dəstəmaz alaraq öyrətmişdir. Belə ki, bir qab su istəmiş və öncə əllərinə üç dəfə su töküb yumuşdur. Sonra sağ əlini qabın içinə salıb bir ovuç su almış bu su ilə ağzını yaxalayıb suyu ağzından ifraz etmişdir. Sonra nəfəsi ilə burnunun daxilinə qədər su çəkmiş sonra isə suyu burnundan ifraz etmişdir. Sonra üzünü üç dəfə yumuş sonra da əllərini dirsəklərlə bərabər üç dəfə yumuşdur. Əllərini islatdıqdan

sonra yaş əlləri ilə başını bir dəfə məsh etmişdir. Sonda isə topuqlar da daxil olmaqla ayaqlarını üç dəfə yumuşdur.

Osman (Allah ondan razı olsun) dəstəmaz alıb qutardıqdan sonra Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) bu şəkildə dəstəmaz aldığını ətrafındakılara xəbər vermişdir. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) onun dəstəmaz aldığı kimi dəstəmaz alıb sonra da xuşu ilə Rəbbinin huzurunda iki rükət namaz qılan kimsəyə, aldığı kamil dəstəmazına və həmçinin xuşu ilə qıldığı namazına görə Uca Allahın onun keçmiş günahlarını bağışlanacağı müjdəsini vermişdir.

## Hədisin faydalarından:

1. Gecə yuxusundan oyandıqdan sonra əllərin qaba salmazdan öncə yuyulması vacibdir. Yuxu xaricindəki hər hansi bir zamanda isə dəstəmaz almağa başlamadan əvəll əllərin qaba salmazdan öncə yuyulması isə müstəhəbdir.
2. Müəllim dərsi, tələbənin bildiyi ən asan şəkildə və onun anlayıb qavraya biləcəyi ən rahat yolla izah etməlidir. Dərsin əməli şəkildə izah edilməsi də bu qəbildəndir.
3. Namaz qılan insan dünya işləri ilə bağlı düşüncələrdən uzaq durmalıdır. Namazın kamil və tam olması qəlbin namazda hazır olmasına bağlıdır. Əks təqdirdə insanın düşüncələrdən qurtulaması çətindir. Bundan dolayı namaz qılan insan nəfsiylə

mücadələ etməli və bu düşüncələri davam etdirməməlidir.

4. Dəstəmaz alarkən sağdan başlamaq müstəhəbdir.
5. “Madmada” (yəni: suyu ağıza daxil etmək və orada hər tərəfə dövr etdirmək sonra ağızdan çıxarmaq), “istinşaq” (yəni: sağ əli ilə suyu, hava ilə birğə buruna çəkmək) və “istinsar” (yəni: suyu burnuna çəkdikdən sonra sol əli ilə suyu burnundan ixrac etmək) arasındakı sıralamaya əməl etmək buyurulmuşdur.
6. Dəstəmaz alarkən: üzün, əllərin və ayaqların üç dəfə yuyulması müstəhəbdir. Vacib olan isə bu əzaların bir dəfə yuyulmasıdır.
7. Uca Allahın keçmiş günahları bağışlaması iki şeyin gerçəkləşməsinə bağlıdır: hədisdə bildirildiyi kimi dəsəmaz almaq və iki rükət namaz qılmaq.
8. Dəstəmaz əzalarından hər birinin müəyyən həddi vardır. Üzün uzununa həddi: saçların başlanğıcından çənənin altına, eninə həddi isə bir qulaqdan o biri qulağa qədərdir. Əlin həddi: barmaq uclarından dirsəklərlə qədər olan hissəsidir. Dirsək, qol ilə bilək arasında olan büküyün bayır hissəsinin adıdır. Başın həddi: saçın adətən bitdiyi yerdən, saçın ön hisssi ilə boynun ən hündür yerinə qədərdir. Qulaqların məsh edilməsi də başdan sayılır. Ayaqların həddi: baldırla ayaq arasında olan topuqlar daxil olmaqala ayağın bütün hissəsidir.

(3313)

(107) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «إِذَا تَوَضَّأَ أَحَدُكُمْ فَلْيَجْعَلْ فِي أَنْفِهِ ثُمَّ لِيَنْثُرْ، وَمَنِ اسْتَجْمَرَ فَلْيُوتِرْ، وَإِذَا اسْتَيْقَظَ أَحَدُكُمْ مِنْ نَوْمِهِ فَلْيَغْسِلْ يَدَهُ قَبْلَ أَنْ يُدْخِلَهَا فِي وَضُوئِهِ، فَإِنَّ أَحَدَكُمْ لاَ يَدْرِي أَيْنَ بَاتَتْ يَدُهُ».

ولفظ مسلم: «إِذَا اسْتَيْقَظَ أَحَدُكُمْ مِنْ نَوْمِهِ فَلَا يَغْمِسْ يَدَهُ فِي الْإِنَاءِ حَتَّى يَغْسِلَهَا ثَلَاثًا، فَإِنَّهُ لَا يَدْرِي أَيْنَ بَاتَتْ يَدُهُ». [صحيح] - [متفق عليه]

(107) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Sizlərdən biriniz dəstəmaz alarsa, ilk olaraq suyu burnuna çəkib, ardınca nəfəsiylə onu çıxarmalıdır, kim təbii ehtiyacını ödədikdən sonra, daş parçası ilə təmizlənmək istərsə bunu tək sayda etsin, (gecə) yuxudan oyandıqdan sonra, əlini dəstəmaz almaq üçün qaba salmadan öncə yusun, çünki o, əlinin harada gecələdiyini bilmir". İmam Muslimin rəvayət etdiyi ifadə bu cürdür: "Sizlərdən biriniz yuxudan oyanarsa, əlini üç dəfə yumadan qaba salmasın, çünki o, əlinin harada gecələdiyini bilmir». [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) təmizlənməyin bəzi əhkamlarını açıqlamışdır, bunlardan: Birincisi: kim dəstəmaz alarsa, suyu burnuna nəfəsiylə çəkməli, sonra nəfəsiylə də çıxarmalıdır. İkincisi:

kim təbii ehtiyacını ödədikdən sonra önünü və ya arxasını sudan savayı başqa vasitəylə, məsələn, daş parçası və buna bənzər vasitələrlə təmizləmək istəsə, onu tək sayda, ən azı üç, ən çoxu isə nəcasətin çıxışını dayandıracaq və həmin yeri təmizləyəcək miqdarda etməlidir. Üçüncüsü: gecə yuxusundan oyanan şəxs dəstəmaz almaq üçün üç dəfə əlini qabın xaricində taki yumayınca, onu qaba salmasın, çünki o, əlinin harada gecələdiyini bilmir və nəcasətə bulaşdığından əmin də deyil. Və ola bilər ki, şeytan suyu qarışdıraraq insanlara zərərli və ya suyu korlayan şeyləri ona əlavə etsin.

**Hədisin faydalarından:**

1. Dəstəmazda "istinşaq" vacibdir ki, bu da - nəfəslə buruna su daxil etməkdir. Həmçinin "istinsar" da vacibdir ki, bu da nəfəslə burundan suyu çıxartmaqdır.
2. İfrazatdan sonra sudan başqa digər vasitələrlə təmizlənməyin, "isticmarın" tək olaraq edilməsinin müstəhəb olması.
3. Gecə yuxusundan sonra əlləri üç dəfə yumaq buyurulmuşdur.

(3033)

(108) – عَنِ ابْنِ عَبَّاسٍ رضي الله عنهما قَالَ: مَرَّ النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ بِقَبْرَيْنِ، فَقَالَ: «إِنَّهُمَا لَيُعَذَّبَانِ، وَمَا يُعَذَّبَانِ فِي كَبِيرٍ، أَمَّا أَحَدُهُمَا فَكَانَ لاَ يَسْتَتِرُ مِنَ البَوْلِ، وَأَمَّا الآخَرُ فَكَانَ يَمْشِي بِالنَّمِيمَةِ» ثُمَّ أَخَذَ جَرِيدَةً رَطْبَةً، فَشَقَّهَا نِصْفَيْنِ، فَغَرَزَ

فِي كُلِّ قَبْرٍ وَاحِدَةً، قَالُوا: يَا رَسُولَ اللَّهِ، لِمَ فَعَلْتَ هَذَا؟ قَالَ: «لَعَلَّهُ يُخَفِّفُ عَنْهُمَا مَا لَمْ يَيْبَسَا». [صحيح] - [متفق عليه]

(108) – İbn Abbasdan (Allah ondan və atsından razı olsun) belə dediyi rəvayət edilir: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) iki qəbrin yanından keçərkən belə dedi: "Bu qəbirdəkilər əzab çəkirlər, əzabları isə böyük günahlarına görə deyil. Qəbirdəkilərdən birinə sidikdən qorunmadığına görə, digərinə isə insanlar arasında söz gəzdirdiyinə görə əzab verilir". Sonra yaş bir xurma budağı götürüb, iki yarıya böldü və hər qəbirə birini basdırdı. Soruşdular ki: "Ey Allahın Rəsulu, niyə belə etdin?". Buyurdu ki: "Ümid edirəm ki, bu budaqlar yaş qaldıqca onların da əzabı yüngülləşər". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) iki qəbrin yanından keçərkən belə dedi: Bu iki qəbrin sahibinə əzab verilir; bu əzab onlar üçün sizin nəzərinizə görə böyük bir məsələdə olmasa da, Allah qatında o böyükdür. Onlardan biri, ehtiyacını ödəyərkən bədənini və paltarını sidikdən qorumağa önəm verməzdi. Digəri isə insanlar arasında söz gəzirməklə məşğul idi, zərər vermək və insanlar arasında ixtilaf və çəkişmə salmaq məqsədiylə başqasının sözünü nəql edirdi.

## Hədisin faydalarından:

1. Söz gəzdirmək və sidikdən təmizlənməmək böyük günahlardandır və qəbir əzabının səbəblərindəndir.
2. Pak olan Allah qəbir əzabı kimi bəzi qeybi məsələləri, Allah Elçisinin (Allahın salavatı və salamı onun üzərinə olsun) peyğəmbərliyinin əlamət olaraq izhar edir.
3. İki xurma budağını kəsib qəbrin üstünə qoymaq kimi bu əməl Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) xasdır. Çünki Allah Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) qəbirdəki iki insanın halından xəbər verib, ona görə də heç kəs onunla müqayisə oluna bilməz, çünki qəbirdəki insanların halını heç kim bilmir.

(3010)

(109) – عَنْ أَنَسٍ رضي الله عنه قَالَ: كَانَ النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ إِذَا دَخَلَ الخَلاَءَ قَالَ: «اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الخُبُثِ وَالخَبَائِثِ». [صحيح] - [متفق عليه]

(109) – Ənəsdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: "Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) hər dəfə ayaqyoluna girdikdə belə deyərdi: “Allahummə inni əuzu bikə minəl-xubusi val-xəbəis”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) sidiyin və ya nəcisin ifrazı üçün ayaqyoluna daxil

olmaq istədikdə, Allaha sığınar, kişi və qadın şeytanların şərrindən qorunmaq üçün Ona pənah aparardı. Hədisdə keçən “əl-xubsi val-xəbəis" - şərr və nəcasətlər kimi təfsir edilir.

## Hədisin faydalarından:

1. Bu duanın ayaqyoluna girərkən edilməsinin müstəhəb olması.
2. Bütün məxluqat, özlərindən əziyyətləri və zərərləri dəf etmək üçün hər bir halda Rəbblərinə möhtacdırlar.

(3150)

(110) – عَنْ عَائِشَةَ أُمِّ الْمُؤْمنينَ رَضيَ اللهُ عنها: أَنَّ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ كَانَ إِذَا خَرَجَ مِنَ الغَائِطِ قَالَ: «غُفْرَانَكَ». [صحيح] - [رواه أبو داود والترمذي وابن ماجه وأحمد]

(110) – Möminlərin anası Aişədən (Allah ondan razı olsun) belə nəql edilir: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ayaqyolundan çıxdıqda - "Ğufranəkə" deyərdi. [Səhih] - [Əbu Davud, Ət-Tirmizi, İbn Məcə, Əhməd rəvayət ediblər]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ehtiyacını ödədikdən sonra ayaqyolundan çıxanda belə deyərdi: “(Ğufranəkə) Allahım, səndən məni bağışlamanı istəyirəm".

## Hədisin faydalarından:

1. Ayaqyolundan çıxdıqdan sonra: «غُفْرَانَكَ» [Ğufranəkə] "(Allahım!) Məni bağışla!" deməyin müstəhəb olması.
2. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) bütün hallarda Rəbbindən bağışlanma istəməsi.
3. Təbii ehtiyacı ödədikdən sonra bağışlanma diləməyin səbəbi haqqında deyilib: Allahın çoxlu nemətlərinə şükür etməkdəki naqisliyə görə, məsələn, zərərli şeylərin bədəndən çıxmasının asanlaşdırması nemətinə görə və ehtiyacın aradan qaldırılması zamanı səni xatırlamaqdan yayındığıma görə bağışlama diləyirəm.

(10046)

(111) – عن عائشة رضي الله عنها قالت: قال رسول الله صلى الله عليه وسلم:

«السِّوَاكُ مَطْهَرَةٌ لِلْفَمِ، مَرْضَاةٌ لِلرَّبِّ». [صحيح] - [رواه النسائي وأحمد]

(111) – Aişə - Allah ondan razı olsun - rəvayət edildiyinə görə Allah Rəsulu - salləllahu aleyhi va səlləm - belə buyurmuşdur: "Misvak ağzın təmizliyi, Rəbbin isə razılığıdır". [Səhih] - [Ən-Nəsai və Əhməd rəvayət ediblər]

## Şərh (izah):

Peyğəmbər - salləllahu aleyhi va səlləm - bizə arak ağacı və ona bənzər şeylər ilə dişləri fırçalamağın ağzı qida qalıqları və pis qoxulardan təmizlədiyini xəbər vermişdir. Misvakdan istifadə etmək Uca Allahın qulundan razı olmasının səbəblərindən biridir. Çünki bu əməldə Allaha

itaat və Onun əmrinə boyun əymək və həmçinin Allahın sevdiyi təmizlikdən bir pay vardır.

**Hədisin faydalarından:**

1. Hədisdə ağzı misvakla təmizləməyin fəziləti və Peyğəmbərin - salləllahu aleyhi va səlləm - ümmətinə misvakdan tez-tez istifadə etməyə təşviq etməsi vurğulanmışdır.
2. Ağız təmizliyində ən fəzilətli olan arak ağacının budağından əldə edilən misvakdan istifadə edilməsidir. Diş fırçası və məcundan istifadə edilməsi də misvakın yerini verir.

(3588)

(112) – عَنْ حُذَيْفَةَ رضي الله عنه قَالَ: كَانَ النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ إِذَا قَامَ مِنَ اللَّيْلِ يَشُوصُ فَاهُ بِالسِّوَاكِ. [صحيح] - [متفق عليه]

(112) – Huzeyfədən (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) gecə yuxudan duranda misvakla ağzını sürtərək təmizləyərdi. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ağzını tez-tez misvaklayar və bunu əmr edərdi. Bəzi vaxtlarda bunu etmək təkidlə buyurulmuşdur ki, bunlardan biri: gecə yuxudan qalxanda dişləri

misvaklamaqdır, belə ki, o (Allahın salavatı və salamı onun üzərinə olsun) ağzını misvakla sürtərək təmizləyərdi.

**Hədisin faydalarından:**

1. Gecə yuxusundan sonra misvakdan istifadə etmənin sünnət olmasının təsdiqi, çünki, yuxu ağız iyinin dəyişməsinə səbəb olur və misvak da məhz təmizləyici vasitədir.
2. Yuxarıdakı hədisin mənasına əsasən ağızda hər bir xoşagəlməz dəyişiklik baş verdikdə misvakdan istifədənin təkidlə buyurulması.
3. Ümumilikdə təmizliyin buyurulması və onun Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) sünnəsindən və yüksək ədəblərdən olması.
4. Bütün ağızın misvaklanması: dişlər, diş ətləri və dili şamil edir.
5. Misvak, ərak ağacından (misvak ağacından) və ya başqa bir ağacdan kəsilən çubuqdur, ağız və dişləri təmizləməkdə istifadə edilir, ağızı təravətləndirir və pis qoxuları aradan qaldırır.

(3063)

(113) – عن أبي هريرة قال: قال رسول الله صلى الله عليه وسلم: «حَقٌّ عَلَى كُلِّ مُسْلِمٍ أَنْ يَغْتَسِلَ فِي كُلِّ سَبْعَةِ أَيَّامٍ يَوْمًا، يَغْسِلُ فِيهِ رَأْسَهُ وَجَسَدَهُ». [صحيح] - [متفق عليه]

(113) – Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı

onun üzərinə olsun) belə buyurmuşdur: «Yeddi gündə bir dəfə yuyunmaq, başını və bədənini yumaq hər bir müsəlman üzərində haqqdır». [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) həddi-buluğa çatmış, ağlı başında olan hər bir müsəlmanın həftədə, yəni: yeddi gündə bir dəfə yuyunmasının təkid olunan haqq olduğunu xəbər vermişdir. Müsəlman bu gündə paklanmaq və təmizlənmək üçün başını və bədənini yuyur. Bəzi rəvayətlərdən də anlaşıldığı kimi bunun cümə günü edilməsi daha əfzəldir. Dördüncü günü yuyumuş olsa da belə cümə günü, cümə namazından öncə yuyunmaq təkid olunmuş müstəhəb əməldir. Aişənin (Allah ondan razı olsun): "İnsanlar işləyib və elə o halda da cüməyə gəlirdilər. Onlara: Kaş ki yuyunardız deyildi" sözü bunu vacib olmaqdan çıxartmışdır. Bu əsəri Buxari rəvayət etmişdir. Buxarinın başqa bir rəvayətində isə: "Onların üzərində qoxu var idi." Yəni: Tər və buna bənzəri bir qoxu. Bununla yanaşı onlara sadəcə olaraq: "Kaş ki yuyunardız"- deyilmişdir. Əgər tər və buna bənzəri qoxuya görə yuyunmaq vacib deyilsə, bundan başqa qoxuların aradan qaldırılması üçün də yuyunmaq vacib deyildir.

## Hədisin faydalarından:

1. İslamın, təmizlik və paklığa önəm verməsi.
2. Cüma namazı üçün yuyunmaq təkid olunan müstəhəb bir əməldir.

3. Başın, bədənin bir parçası olmasına rəğmən xüsusi olaraq zikr edilməsi, onun önəmini ifadə edir.
4. Bədənindən, insanlara əziyyət verən pis qoxu gələn hər bir kimsənin yuyunması vacibdir.
5. Yuyunmaq üçün təkid edilmiş ən əfzəl gün, cümə günüdür.

(65084)

(114) – عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ: سَمِعْتُ النَّبِيَّ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ:

«الْفِطْرَةُ خَمْسٌ: الْخِتَانُ وَالِاسْتِحْدَادُ وَقَصُّ الشَّارِبِ وَتَقْلِيمُ الْأَظْفَارِ وَنَتْفُ الْآبَاطِ».

[صحيح] - [متفق عليه]

(114) – Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə demişdir: Mən Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Beş şey fitrətdəndir: sünnət olmaq, övrət yerini qırxmaq, bığları qısaltmaq, dırnaqları tutmaq və qoltuq altındakı tükləri yolmaq". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bu hədisdə İslam dininin beş xüsusiyyətini və peyğəmbərlərin sünnətini bəyan etmişdir:

Birincisi: Sünnət olmaq. Bu, kişinin cinsiyyət orqanının baş tərəfində olan artıq dərinin və həmçinin qadının vaginasındaki uşaqlıq yolunun üzərində olan dərinin baş hissəsinin kəsilməsidir.

İkincisi: Övrət yerini qırxmaq. Bu, övrət yerinin ətrafında olan tüklərin qırxılmasıdır.

Üçüncüsü: Bığları qısaltmaq. Bu, kişinin üst dodağı görünənə qədər bığların qısaldılmasıdır.

Dördüncüsü: Dırnaqların qısaldılmasıdır.

Beşincisi: Qoltuq altındakı tüklərin yolunmasıdır.

## Hədisin faydalarından:

1. Allahın sevdiyi, razı olduğu və əmr etdiyi peyğəmbərlərin bu sünnətləri kamilliyə, təmizliyə və gözəlliyə çağırır.
2. Bunların vaxtı-vaxtında edilməsinin şəriətdə buyurulması və bunlara səhlənkar yanaşılmaması.
3. Bu xüsusiyyətlərin dini və dünyavi bir çox faydaları vardır. Bu faydalardan bəziləri aşağıdakılardır: Zahiri görünüşü gözəlləşdirmək, bədəni təmiz saxlamaq, təmizliyə diqqət etmək, kafirlərə bənzəməmək, Allahın əmrinə itaat etmək.
4. Başqa hədislərdə bu beş xüsusiyyətə əlavə olaraq: saqqal buraxmaq, misvakdan istifadə etmək kimi fitri sünnətlərin digər növləri də qeyd edilmişdir.

(3144)

(115) – عَنْ عَلِيٍّ رضي الله عنه قَالَ: كُنْتُ رَجُلًا مَذَّاءً وَكُنْتُ أَسْتَحْيِي أَنْ أَسْأَلَ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ لِمَكَانِ ابْنَتِهِ فَأَمَرْتُ الْمِقْدَادَ بْنَ الْأَسْوَدِ فَسَأَلَهُ فَقَالَ: «يَغْسِلُ ذَكَرَهُ وَيَتَوَضَّأُ».

وَلِلْبُخَارِيِّ: فَقَالَ: «تَوَضَّأْ وَاغْسِلْ ذَكَرَكَ». [صحيح] - [متفق عليه]

(115) – Əlidən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Məndən tez-tez məzi gələrdi və Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) qızı Fatiməyə (Allah ondan razı olsun) görə ondan bu haqda soruşmağa utanırdım. Miqdad bin Əl-Əsvəda dedim ki, o soruşsun. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Cinsiyyət üzvünü yusun və dəstəmaz alsın".

Buxarinin qeyd etdiyi rəvayətdə isə: "Dəstəmaz al və cinsi orqanını yu" demişdir. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Əli bin Əbu Talib (Allah ondan razı olsun) xəbər verir ki, tez-tez ondan məzi çıxardı, bu da şəhvət zamanı və ya cinsi əlaqədən öncə kişidə cinsi orqanından axan ağ nazik yapışqan mayedir. Nə edəcəyini bilmir və Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşmağa utanır, çünki xanımı Fatimə (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) qızıdır. Buna görə Miqdad bin Əl-Əsvəddən xahiş edir ki, Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) bu haqda soruşsun. Allah Rəsulu da (Allahın salavatı və salamı onun üzərinə olsun) cinsiyyət orqanını yumasını, sonra isə dəstəmaz almasını bildirir.

**Hədisin faydalarından:**

1. Əli bin Əbi Talibin (Allah ondan razı olsun) fəziləti, çünki onun həya etməsi, dolayı yolla olsa belə sual verməyə mane olmadı.
2. Sual soruşmaq üçün digər şəxsdən xahiş etməyin caizliyi.
3. Fayda üçün insanın özündə mövcud olan utandırıcı bir hal barədə xəbər verməsinin icazəli olması.
4. Məzinin nəcis olması, bədənin və paltarın ondan yuyub təmizlənməsinin vacibliyi.
5. Məzinin çıxması dəstəmazı pozan amillərdəndir.
6. Başqa bir hədisdə qeyd olunduğu kimi, cinsi orqanının və xayaların yuyulması vacibdir.

(3348)

(116) – عَنْ عَائِشَةَ أُمِّ المؤمنين رضي الله عنها قَالَتْ: كَانَ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ إِذَا اغْتَسَلَ مِنَ الجَنَابَةِ، غَسَلَ يَدَيْهِ، وَتَوَضَّأَ وُضُوءَهُ لِلصَّلَاةِ، ثُمَّ اغْتَسَلَ، ثُمَّ يُخَلِّلُ بِيَدِهِ شَعَرَهُ، حَتَّى إِذَا ظَنَّ أَنَّهُ قَدْ أَرْوَى بَشَرَتَهُ، أَفَاضَ عَلَيْهِ المَاءَ ثَلَاثَ مَرَّاتٍ، ثُمَّ غَسَلَ سَائِرَ جَسَدِهِ، وَقَالَتْ: كُنْتُ أَغْتَسِلُ أَنَا وَرَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ مِنْ إِنَاءٍ وَاحِدٍ، نَغْرِفُ مِنْهُ جَمِيعًا. [صحيح] - [رواه البخاري]

(116) – Möminlərin anası Aişədən (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) cənabətdən qüsl aldıqda əllərini yuyardı, ardınca namaz üçün aldığı kimi dəstəmaz alardı, sonra bütün bədəninə su tökərdi, başının dərisinə suyun çatdığını yəqin edənə qədər əliylə suyu

saçların dibinə çatdırardı, ardınca üzərinə üç dəfə su tökər, sonra bədəninin qalan hissəsini yuyardu. Dedi: Mən və Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bir qabdan qüsl alardıq, birlikdə ondan su götürərdik. [Səhih] - [Əl-Buxari rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) cənabətdən qüsl almaq istəyəndə, əllərini yumaqla başlayardı. Sonra namaz üçün dəstəmaz aldığı kimi dəstəmaz alar, daha sonra bədəninə su tökər, ardınca saçın köklərinə suyun keçməsini və başın dərisinə suyun çatdığını yəqin edənə qədər əlləri ilə saçlarını aralayar, sonra başına üç dəfə su tökər və sonra bədəninin qalan hissəsini yuyardı. Aişə (Allah ondan razı olsun) dedi: Mən və Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bir qabdan qüsl alardıq, hər birimiz həmin qabdan su götürərdik.

## Hədisin faydalarından:

1. Qüsl iki cür olur: Kifayət edən və kamil qüsl. Kifayət edən qüsldə insan təmizlənməyə niyyət edir, sonra ağzını və burnunu yaxalayaraq su ilə bədənini yuyur. Tam qüsl isə hədisdə qeyd edilən Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) qüsl aldığı kimidir.
2. Cənabət məfhumu, məninin-spermanın çıxması və ya sperma çıxmasa belə, cinsi əlaqədə olan kəsə aid edilir.

3. Ərlə xanımın bir-birinin övrət yerlərinə baxmasının və eyni qabdan qüsl almalarının icazəli olması.

(3316)

(117) – عَنْ عَمَّارِ بنِ ياسِرٍ رضي الله عنه قال: بَعَثَنِي رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ فِي حَاجَةٍ، فَأَجْنَبْتُ فَلَمْ أَجِدِ الْمَاءَ، فَتَمَرَّغْتُ فِي الصَّعِيدِ كَمَا تَمَرَّغُ الدَّابَّةُ ثُمَّ أَتَيْتُ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، فَذَكَرْتُ ذَلِكَ لَهُ فَقَالَ: «إِنَّمَا كَانَ يَكْفِيكَ أَنْ تَقُولَ بِيَدَيْكَ هَكَذَا» ثُمَّ ضَرَبَ بِيَدَيْهِ الْأَرْضَ ضَرْبَةً وَاحِدَةً، ثُمَّ مَسَحَ الشِّمَالَ عَلَى الْيَمِينِ، وَظَاهِرَ كَفَّيْهِ وَوَجْهَهُ. [صحيح] - [متفق عليه]

(117) – Ammar bin Yasirdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) məni bir iş üçün göndərdi. Mən də cünub oldum, lakin su tapa bilmədim, buna görə də heyvanın torpaqda yuvarlandığı kimi yuvarlandım. Sonra Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldim və bunu ona xəbər verdim. O, dedi: “Əllərinlə belə etməyin sənə kifayət idi". Sonra əlləri ilə bir dəfə yerə vurdu. Sonra sol əlini sağ əlinə sürtdü, əllərinin üzərinə və üzünə məsh çəkdi. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Ammar bin Yasiri (Allah ondan razı olsun) bəzi ehtiyacları üçün səfərə göndərdi. Və o, qadınla yaxınlıq etmək və ya şəhvət səbəbi ilə məni çıxdığına görə cünub

oldu. Lakin qüsl almağa su tapmadı. Və cənabət üçün təyəmmüm almağın (icazəli olduğu) hökmünü bilmirdi, yalnız onun kiçik hədəs üçün olan hökmünü bilirdi. O, da ictihad etdi və zənn etdi ki, kiçik hədəsdən təyəmmüm alarkən yerin üzərindəki torpaqla bəzi dəstəmaz əzalarına məsh etdiyi kimi, su ilə muqayisə olaraq, cənabətdən təyəmmüm alarkən də bütün bədəni torpağa sürtmək lazımdır. Bu səbəblə bütün bədənini torpağa batırıncaya qədər torpağın içində çevrildi və namaz qıldı. O, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldikdə doğru olub-olmadığını bilmək üçün bunu ona bildirdi. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) də ona sidik ifrazı kimi kiçik hədəs və cənabət kimi böyük hədəsdən necə təmizlənməli olduğunu izah etdi: Bu iki əli ilə torpağa bir dəfə vurmaq, sol əliylə sağ əlinə, əllərinin üzərinə və üzünə məsh etməkdir.

### Hədisin faydalarından:

1. Təyəmmüm etməmişdən əvvəl su axtarmağın vacibliyi.
2. Cənabət olan və su tapmayan kəs üçün təyəmmümün icazəli olması.
3. Böyük hədəs üçün təyəmmümün şəkli kiçik hədəs üçün edilən təyəmmüm kimidir.

(3461)

(118) – عَنْ الْمُغِيرَةِ رضي الله عنه قَالَ: كُنْتُ مَعَ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ فِي سَفَرٍ، فَأَهْوَيْتُ لِأَنْزِعَ خُفَّيْهِ، فَقَالَ: «دَعْهُمَا، فَإِنِّي أَدْخَلْتُهُمَا طَاهِرَتَيْنِ» فَمَسَحَ عَلَيْهِمَا.

[صحيح] - [متفق عليه]

(118) – Muğiradan (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Peyğəmbərlə (Allahın salavatı və salamı onun üzərinə olsun) səfərlərdən birində idim, (o dəstəmaz alarkən) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) (ayağını yuması üçün onun ayağındakı) xuflarını çıxartmaq üçün əllərimi uzatdım, bu zaman belə dedi: “Onları çıxarma, çünki mən təharətli (dəstəmazlı) olarkən onları geymişəm”. Sonra onlara məsh çəkdi. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) səfərlərdən birində idi və dəstəmaz aldı. Ayaqların yumasına çatdıqda, Muğirə bin Şubə (Allah ondan razı olsun) əllərini uzadaraq, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) ayağını yumaq üçün onun ayağındakı xufları çıxartmaq istədi. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ona belə buyurdu: Onları çıxarma, çünki, mən təharətli (dəstəmazlı) olarkən onları geymişəm. Beləliklə, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ayaqlarını yumaq əvəzinə xuflarına məsh çəkdi.

## Hədisin faydalarından:

1. Dəstəmazı gərəkdirən amillərdən dəstəmaz alarkən xufların üzərinə məsh çəkməyə izn verilməsi, lakin qüsl tələb olunan hallarda ayaqları yumaq vacibdir.

2. Məsh, yaş əli bir dəfə xufların altına deyil, üstünə sürtməklə olur.
3. Xoflar üzərinə məsh çəkmək üçün şərt, ayaqları su ilə yuyub dəstəmazı tam bitirdikdən sonra geyinmək, həmçinin xufların pak olması, ayağdakı yuyulması vacib olan hissələrini örtməsidir. Həmçinin sidik və nəcis ifrazından sonra xuflara məsh etmək icazəlidir, lakin cənabəti və ya qüslü vacib edən halları aradan qaldırmaq üçün bədənin hər yeri yuyulmalıdır. Məsh çəkmək üçün digər bir şərt isə şəriətin müəyyən etdiyi müddətdir - yəni səfərdə olmayan şəxslər üçün bir gün, bir gecə, səfərdə olanlar üçün isə üç gün, üç gecədir.
4. Ayaqları örtən corab və ya buna bənzər şeylər də xuflara qiyas edilərək onlara da məsh çəkilir.
5. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) gözəl əxlaqı və təlimi, belə ki, Muğiranı xufları çıxarmağa qoymadı və narahat olmasın deyə və bu əhkamı bilsin deyə bildirdi ki, onları dəstəmaz aldıqdan sonra geyinib.

(3014)

(119) – عَنْ عَائِشَةَ أُمِّ المؤمنين رضي الله عنها أَنَّ فَاطِمَةَ بِنْتَ أَبِي حُبَيْشٍ سَأَلَتِ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَتْ: إِنِّي أُسْتَحَاضُ فَلاَ أَطْهُرُ، أَفَأَدَعُ الصَّلاَةَ؟ فَقَالَ: «لَا، إِنَّ ذَلِكِ عِرْقٌ، وَلَكِنْ دَعِي الصَّلاَةَ قَدْرَ الأَيَّامِ الَّتِي كُنْتِ تَحِيضِينَ فِيهَا، ثُمَّ اغْتَسِلِي وَصَلِّي». [صحيح] - [متفق عليه]

(119) – Möminlərin anası Aişədən (Allah ondan razı olsun) rəvayət edilir ki, Fatimə bint Əbi Hubeyş Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) belə soruşdu: "Mən davamlı olaraq heyz oluram, (həmin müddətdə) namazı tərk edimmi?”. Cavab verdi: “Xeyr, bu qanaxmadır, sadəcə sənin bildiyin heyz günlərinin müddətində namazı tərk et, (bu müddətdən) sonra isə qüsl al və namaz qıl". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Fatimə bint Hubeyş Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşdu və dedi: Məndən heyz qanı kəsilmir və heyz, ədəti günlərdən başqa dövrdə də davam edir, o zaman bunun hökmü heyzin hökmü kimidirmi və namazı tərk edimmi? Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ona dedi: Bu qanaxmadır və uşaqlıq yolunda qanaxmanın kəsilməsi nəticəsində yaranan patoloji qandır, heyz qanı deyil. Qanaxma xəstələliyindən əvvəl olduğu kimi, aylıq adətinə uyğun heyz müddəti gələrsə, namazı, orucu və qadına heyz zamanı qadağan olan digər işləri tərk et. Həmin müəyyən müddət bitdikdə, heyzdən təmizlənmiş olursan, qan yerini yu və natəmizliyi aradan qaldırmaq üçün kamil qüsl al, sonra namaz qıl.

## Hədisin faydalarından:

1. Qadına, heyz günlərini bitirdiyi zaman qüslün vacibliyi.

2. Qanaxmadan əziyyət çəksə belə qadına namaz qılmaq vacibdir.
3. Heyz: müəyyən günlərdə yetkin qadının rəhmindən cinsi orqan yolu ilə ayrılan təbii qandır.
4. İstihazə: uşaqlığın ən aşağı nöqtəsindən, amma dibindən (dərinliklərindən) deyil, səthi hissəsindən axan, vaxtının adəti üzrə olmayan qanaxmadır.
5. Heyz qanı ilə istihazə qanının fərqi: heyz qanı qara, qatı və pis qoxulu, istihazə qanı isə duru, qırmızı və qoxusuzdur.

(3029)

(120) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «إِذَا وَجَدَ أَحَدُكُمْ فِي بَطْنِهِ شَيْئًا، فَأَشْكَلَ عَلَيْهِ أَخَرَجَ مِنْهُ شَيْءٌ أَمْ لَا، فَلَا يَخْرُجَنَّ مِنَ الْمَسْجِدِ حَتَّى يَسْمَعَ صَوْتًا، أَوْ يَجِدَ رِيحًا». [صحيح] - [رواه مسلم]

(120) – Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: «Sizdən biri qarnında bir şey hiss edib, ondan bir şey çıxıb və ya çıxmadığını şübhə edərsə, səs eşitmədikcə yaxud iy duymadıqca məsciddən çıxmasın». [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) namaz qılan bir kimsənin qarnında bir şey hiss edib, ondan bir şey çıxıb və ya çıxmadığına tərəddüd etdiyi bir

durumda, yelin səsini eşidib ya da iyini hiss etmək kimi dəstəmazı pozan amilin varlığına əmin oluncaya qədər yenidən dəstəmaz almaq üçün namazdan çıxmamasını xəbər vermişdir. Çünki yəqin olan bir şey, şübhə ilə batil olmaz. Bu kimsənin dəstəmazlı olması yəqindir, dəstəmazının pozulması isə şübhəlidir.

### Hədisin faydalarından:

1. Bu hədis, İslam əsaslarından bir əsas və fiqhi qaydalardan bir fiqhi qaydadır. Bu qayda: Yəqin olan bir şey şübhə ilə aradan qalxmaz. Müxalif olan şey yəqinləşənə qədər, həmin şeyin olduğu hal üzərində qalması əsildir.
2. Şübhə, dəstəmaza zərər verməz. Namaz qılan kimsə dəstəmazının pozulduğuna yəqin olmadığı müddətcə dəstəmazlıdır.

(65083)

(121) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: إِنَّ رَسُولَ اللهِ صلى الله عليه وسلم قَالَ:

«إِذَا شَرِبَ الْكَلْبُ فِي إِنَاءِ أَحَدِكُمْ فَلْيَغْسِلْهُ سَبْعًا».

ولمسلم: « أولاهُنَّ بالتُّراب». [صحيح] - [متفق عليه]

(121) – Əbu Hureyradan (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "Əgər it birinizin qabından içərsə, onu yeddi dəfə yusun".

Müslimin rəvayətində "Birincisini torpaqla" sözləri keçir. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) əgər - it qaba dilini salarsa, onu yeddi dəfə yumağı əmr etmişdir. Ardınca su ilə yuyulması üçün onlardan birincisi torpaqla olur və beləliklə qabın (itin ağız suyunun) nəcasət və zərərindən tam təmizlənməsi hasil olur.

**Hədisin faydalarından:**

1. İtin ağız suyu çox güclü nəcasətdir.
2. İtin qabı yalaması onu da, içindəki suyu da nəcis edir.
3. Torpaqla təmizlənmək və yeddi dəfə təkrar yumaq yalnız itin ağız suyundan təmizlənməyə aiddir, lakin onun sidiyi, nəcisi və digər bulaşdırdığı şeylərə aid deyil.
4. Qabın torpaqla yuyulma şəkli: qabın içinə su tökülür və ona torpaq əlavə edilir, sonra bu qarışıqla qab yuyulur.
5. Hədisin zahiri mənası bütün itlərə, hətta ov, gözətçi və mal-qara (çoban) itləri kimi şəriətin saxlanılmasına icazə verdiyi itlərə də aiddir.
6. Sabun və aşnan bitkisi (paltarı və əlləri yumaqda istifadə edilən bitki) torpağı əvəz etmir; çünki Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) torpağı birmənalı olaraq qeyd etmişdir.

(3143)

(122) – عن عمر بن الخطاب رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «إِذَا قَالَ الْمُؤَذِّنُ: اللهُ أَكْبَرُ اللهُ أَكْبَرُ، فَقَالَ أَحَدُكُمْ: اللهُ أَكْبَرُ اللهُ أَكْبَرُ، ثُمَّ قَالَ: أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللهُ، قَالَ: أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللهُ، ثُمَّ قَالَ: أَشْهَدُ أَنَّ مُحَمَّدًا رَسُولُ اللهِ، قَالَ: أَشْهَدُ أَنَّ مُحَمَّدًا رَسُولُ اللهِ، ثُمَّ قَالَ: حَيَّ عَلَى الصَّلَاةِ، قَالَ: لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللهِ، ثُمَّ قَالَ: حَيَّ عَلَى الْفَلَاحِ، قَالَ: لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللهِ، ثُمَّ قَالَ: اللهُ أَكْبَرُ اللهُ أَكْبَرُ، قَالَ: اللهُ أَكْبَرُ اللهُ أَكْبَرُ، ثُمَّ قَالَ: لَا إِلَهَ إِلَّا اللهُ، قَالَ: لَا إِلَهَ إِلَّا اللهُ مِنْ قَلْبِهِ دَخَلَ الْجَنَّةَ». [صحيح] - [رواه مسلم]

(122) – Ömər bin əl-Xəttabdan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: "Müəzzin: "Allahu Əkbər, Allahu Əkbər" dediyi zaman sizlərdən biri ixlasla: "Allahu Əkbər, Allahu Əkbər" desə, sonra: "Əşhədu əllə iləhə illəllah" dediyi zaman: "Əşhədu əllə iləhə illəllah" desə, sonra: "Əşhədu ənnə Muhamməddən rasulullah" dediyi zaman: "Əşhədu ənnə Muhamməddən rasulullah" desə, sonra: "Həyyə aləs-salə!" dediyi zaman: "Lə həulə va lə quvvətə illə billəh" desə, sonra: "Həyyə aləl-fələ**h**!" dediyi zaman: "Lə həulə va lə quvvətə illə billəh" desə, sonra: "Allahu Əkbər, Allahu Əkbər" dediyi zaman: "Allahu Əkbər, Allahu Əkbər" desə və sonra da: "Lə İləhə illəllah" dediyi zaman: ürəkdən "Lə İləhə illəllah" desə Cənnətə girər". [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Azan, insanlara namaz vaxtının girdiyini bildirməkdir. Azanın sözləri islam əqidəsini özündə əhatə edən sözlərdir.

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bu hədisdə əzan eşidildiyi zaman deyilməsi lazım olan şeyi açıqlamışdır. Bu da, azanı eşidən kimsənin müəzzinin söylədiyini təkrar etməsidir. Müəzzin: "Allahu Əkbər" dediyi zaman azanı eşidən kimsə: "Allahu Əkbər" deməlidir. Azanı eşidən kimsə müəzzinin: "Həyyə aləs-saləh!" sözünə qədər bu şəkildə müəzzinin söylədiyi sözlərin eynisi ilə təkrar edir. "Həyyə aləs-salə!", "Həyyə aləl-fələh!" dediyi zaman: "Lə həvlə va lə quvvətə illə billəh" deyir.

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) müəzzinlə birlikdə ixlaslı bir şəkildə azanı təkrar edən kimsənin Cənnətə girəcəyini xəbər vermişdir.

Azanın sözlərinin mənası: "Allahu Əkbər". Yəni: Uca Allah hər şeydən böyük, uca və əzəmətlidir.

"Əşhədu əllə iləhə illəllah". Yəni: Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur.

"Əşhədu ənnə Muhammədən rasulullah". Yəni: Dilimlə və qəlbimlə Muhammədin (Allahın salavatı və salamı onun üzərinə olsun) Allahın insanlara göndərdiyi rəsulu olduğunu və ona itaət etməyin vacib olduğunu iqrar edirəm və həmçinin buna şahidlik edirəm.

"Həyyə aləs-salə!". Yəni: Namaza gəlin, bunu eşidən kimsənin: "Lə həvlə va lə quvvətə illə billəh" deməsi, Allahın müvəffəq etməsi istisna olmaqla, itaətə mane olan

şeylərdən qurtarmağa heç bir gücü və itaətləri edə biləcək heç bir qüvvəsi və qüdrəti yoxdur anlamındadır.

"Həyyə aləl-fələh!". Yəni: Qurtuluşa səbəb olan şeyə gəlin. Bu da, Cənnəti qazanmaq və Cəhənnəmdən xilas olmaqdır.

**Hədisin faydalarından:**

1. Müəzzinin söylədiyi sözləri eyni şəkildə təkrarlamağın fəzilətli. Ancaq müəzzin: "Həyyə aləs-saləh!" və "Həyyə aləl-fələh!" dediyi zaman: "Lə həvlə va lə quvvətə illə billəh" deyilməlidir.

(65086)

(123) – عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رضي الله عنها أَنَّهُ سَمِعَ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «إِذَا سَمِعْتُمُ الْمُؤَذِّنَ فَقُولُوا مِثْلَ مَا يَقُولُ، ثُمَّ صَلُّوا عَلَيَّ، فَإِنَّهُ مَنْ صَلَّى عَلَيَّ صَلَاةً صَلَّى اللهُ عَلَيْهِ بِهَا عَشْرًا، ثُمَّ سَلُوا اللهَ لِيَ الْوَسِيلَةَ، فَإِنَّهَا مَنْزِلَةٌ فِي الْجَنَّةِ، لَا تَنْبَغِي إِلَّا لِعَبْدٍ مِنْ عِبَادِ اللهِ، وَأَرْجُو أَنْ أَكُونَ أَنَا هُوَ، فَمَنْ سَأَلَ لِيَ الْوَسِيلَةَ حَلَّتْ لَهُ الشَّفَاعَةُ». [صحيح] - [رواه مسلم]

(123) – Abdullah bin Amr bin əl-Asdan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dedyini eşitmişdir: «Müəzzini eşitdiyinizdə, siz də onun söylədiklərini təkrar edin. Sonra mənə salavat gətirin. Kim mənə bir salavat gətirirsə, Allah da bunun qarşılığında ona on salavat edər. Sonra da Allahdan mənim üçün ''Vəsiləni" istəyin. O, Cənnətdə elə bir dərəcədir ki, Allahın

qullarından yalnız bir quluna yaraşır. Ümid edirəm ki, o qul, mənəm. Kim mənim üçün ''Vəsiləni'' istəyərsə şəfaət ona halal olar». [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) namaz üçün azan verildiyi zaman müəzzini eşidən kimsənin: "Həyyə ələs-saləh, Həyyə aləl-fələh" sözləri müstəsna olmaqla söylədiyinin eynisini təkrar etməsinə yönəltmişdir. Azan eşidən kimsə müəzzinin: "Həyyə ələs-saləh, Həyyə aləl-fələh" sözlərindən sonra: "Lə həulə va lə quvvətə illə billəh" (Qüdrət və güc yalnız Allahdadır) deyir. Azan bitdikdən sonra isə Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) salavat gətirir. Kim Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) bir salavat deyərsə, bu salavat qarşılığında Uca Allah ona on salavat edər. Uca Allahın quluna salavat etməsi, yəni: o qulunu, mələklər qatında tərif etməsi anlamındadır.

Sonra Uca Allahdan Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) üçün "Vəsiləni" verməsini istəməyi əmr etmişdir. O, Cənnətdəki ən uca məqamdır. O məkan, Uca Allahın bütün qulları arasında yalnız bir qula yaraşar və yalnız onun üçün asanlaşar. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) o kimsənin: "Ümid edirəm ki, o qul, mən olacağam" deyərək təvazökarlıq etmişdir. Çünki bu uca məqam bütün insanlar arasında yalnız bir insana aid olacaqsa, bu zaman bu insan Allahın

Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) olmalıdır. Çünki o yaradılmışların ən fəzilətlisidir.

Sonra kim, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) Vəsiləyə nail olması üçün dua edərsə, qiyamət günü o kimsəyə şəfaət edəcəyini bəyan etmişdir.

## Hədisin faydalarından:

1. Hədisdə azan verilərkən müəzzinin dediklərini təkrar etməyə təşviq edilmişdir.
2. Azan verilərkən müəzzinin dediklərini təkrar etdikdən sonra Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) salavat deməyin fəziləti.
3. Hədisdə, Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) salavat dedikdən sonra Uca Allahdan onun Vəsiləyə nail olmasını istəməyə təşviq edilmişdir.
4. Hədisdə vəsilənin manası, yalnız bir insana layiq olduğu məqamının ucalığı bəyan edilmişdir.
5. Hədisdə Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) fəziləti bəyan edilmişdir, belə ki, bu uca məqam məxluqat arasında yalnız ona xasdır.
6. Kim, Uca Allahdan, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) Vəsiləyə nail olmasını istəyərsə, qiyamət günü Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) şəfaəti ona halal olacaqdır.
7. O uca məqama nail olması üçün ümmətindən dua etməsini istəməsi onun nə qədər təvazökar bir şəxs

olduğunu ifadə edir. Baxmayaraq ki, o məqamın sahibi yalnız odur.

8. Uca Allahın rəhməti və fəziləti genişdir. Buna görə də Uca Allah hər yaxşı bir əmələ on misli ilə qarşılıq verir.

(65087)

(124) – عَنْ سَعْدِ بْنِ أَبِي وَقَّاصٍ رضي الله عنه عَنْ رَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ أَنَّهُ قَالَ: «مَنْ قَالَ حِينَ يَسْمَعُ الْمُؤَذِّنَ أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ، رَضِيتُ بِاللهِ رَبًّا وَبِمُحَمَّدٍ رَسُولًا، وَبِالْإِسْلَامِ دِينًا، غُفِرَ لَهُ ذَنْبُهُ».

[صحيح] - [رواه مسلم]

(124) – Sə'd bin Əbi Vaqqasdan (Allah ondan razı olsun) rəvayət edilir ki, Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Kim müəzzini eşitdikdə, "Əşhədu əllə iləhə illallah vəhdəhu lə şərikə ləhu və ənnə Muhəmmədən əbduhu və rasuluhu, radiytu bi-Lləhi Rabbən və bi-Muhəmmədin rasulən, və bil-İsləmi dinən" (şəhadət verirəm ki, Allahdan başqa haqq məbud yoxdur. O, təkdir və şəriki yoxdur, Muhəmməd Onun qulu və elçisidir. Mən Rəbb olaraq Allahdan, rəsul olaraq Muhəmməddən, din olaraq İslamdan razıyam) deyərsə, onun günahları bağışlanar". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, hər kim müəzzini eşidəndə bu cür deyərsə: "Əşhədu əllə iləhə illallah vəhdəhu lə şərikə

ləhu" yəni, təsdiq və etiraf edirəm və xəbər verirəm ki, Allahdan başqa ibadətə layiq həqiqi məbud yoxdur, Ondan başqa bütün ibadət olunanlar batildir, "Və ənnə Muhəmmədən əbduhu və rasuluhu". Yəni, Muhəmməd, bir quldur, ona ibadət edilməz və bir elçidir, yalan danışmaz, "Radiytu bi-Lləhi Rabbən". Yəni: Allahın Rəbbliyindən, ilahlığından, ad və sifətlərindən razıyam. "Və bi-Muhəmmədin rasulən" (Və rəsul olaraq Muhəmməddən razı qaldım)". Yəni onunla bizə göndərilən və bizə çatdırdığı hər bir şeydən, "Və bil İsləmi" (İslamdan). Yəni: Əmr və qadağaları ilə, İslamın bütün hökmlərindən, "Dinən" (Din olaraq). Yəni: etiqad edərək və boyun əyərək. "Günahları bağışlanar". Yəni: kiçik günahları.

## Hədisin faydalarından:

1. Azanı eşidərkən bu duanı təkrar etmək günahları təmizləyən şeylərdən biridir.

(6272)

(125) – عن أبي هريرة رضي الله عنه قال: أَتَى النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ رَجُلٌ أَعْمَى، فَقَالَ: يَا رَسُولَ اللهِ، إِنَّهُ لَيْسَ لِي قَائِدٌ يَقُودُنِي إِلَى الْمَسْجِدِ، فَسَأَلَ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ أَنْ يُرَخِّصَ لَهُ فَيُصَلِّيَ فِي بَيْتِهِ، فَرَخَّصَ لَهُ، فَلَمَّا وَلَّى دَعَاهُ، فَقَالَ: «هَلْ تَسْمَعُ النِّدَاءَ بِالصَّلَاةِ؟» فَقَالَ: نَعَمْ، قَالَ: «فَأَجِبْ». [صحيح] - [رواه مسلم]

(125) – Əbu Hureyradan (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Bir kor kişi Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəlib: "Ey Allahın Rəsulu, məni məscidə aparacaq bir kimsəm

yoxdur" - deyərək, Allah Rəsulundan ona öz evində namaz qılmağı icazə verməsini istədi. İlkin olaraq ona icazə verdi, lakin adam çıxıb getmək istəyəndə onu çağırıb dedi: “Azanı eşidirsənmi?”. O: “Bəli!” - dedi. Bu zaman Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "O zaman cavab ver (camaat namazına gəl)". [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Kor bir kişi Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəlib, "Ey Allahın Rəsulu, beş vaxt namazda mənə kömək edərək əlimdən tutub məscidə aparan kimsəm yoxdur" - deyərək Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) ona camaat namazında iştirak etməmək üçün rüxsət istədi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) da əvvəl ona icazə verdi, lakin sonra adam çıxıb getmək istədikdə onu çağırıb dedi: Namaz üçün azanı eşidirsənmi? "Bəli" - dedi. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) də: "Azan verənə cavab ver" - deyə buyurdu.

## Hədisin faydalarından:

1. Camaat namazının vacibliyi, çünki yüngülləşdirmə icazə istəmək yalnız vacib məsələlərə aiddir.
2. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) "Azan verənə cavab ver" sözü camaat namazının vacibliyinə işarədir, çünki qayda budur ki, müəyyən bir şey əmr olunubsa, bu onun vacibliyinin göstəricisidir.

(11287)

(126) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «أَرَأَيْتُمْ لَوْ أَنَّ نَهَرًا بِبَابِ أَحَدِكُمْ يَغْتَسِلُ فِيهِ كُلَّ يَوْمٍ خَمْسًا، مَا تَقُولُ ذَلِكَ يُبْقِي مِنْ دَرَنِهِ؟» قَالُوا: لَا يُبْقِي مِنْ دَرَنِهِ شَيْئًا، قَالَ: «فَذَلِكَ مِثْلُ الصَّلَوَاتِ الخَمْسِ، يَمْحُو اللَّهُ بِهِ الخَطَايَا». [صحيح] - [متفق عليه]

(126) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdiyi rəvayət edilir: «Sizin birinizin qapısının önündə bir çay olsa və o, həmin çayda hər gün beş dəfə yuyunsa o kəsdə çirkdən bir şey qalarmı?». Səhabələr: "O kəsin üzərində çirkdən heç bir şey qalmaz" dedilər. Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: «Beş vaxt namaz da bunun kimidir, Allah onunla günahları silib yox edir». [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) kiçik günahların və xətaların aradan qaldırılması və bağışlanması üçün hər gün qılınan beş vaxt namazı insanın qapısının ağzından axan və gündə beş dəfə yuyunduğu bir çaya bənzətmişdir. Belə birinin üzərində çirkdən və kirdən heç bir şey qalmaz.

## Hədisin faydalarından:

1. Bu fəzilət kiçik günahların bağışlanmasına aiddir, böyük günahlar üçün isə tövbə etmək lazımdır.

2. Şərtlərinə, rukunlarına, vaciblərinə və sünnətlərinə əməl edərək beş vaxt namazı qılmağın fəziləti.

(4968)

(127) – عَنْ عَبْدِ اللَّهِ بِن مَسْعُودٍ رضي الله عنه قَالَ: سَأَلْتُ النَّبِيَّ صَلَّ اللهُ عَلَيْهِ وَسَلَّمَ: أَيُّ العَمَلِ أَحَبُّ إِلَى اللَّهِ؟ قَالَ: «الصَّلاَةُ عَلَى وَقْتِهَا»، قَالَ: ثُمَّ أَيٌّ؟ قَالَ: «ثُمَّ بِرُّ الوَالِدَيْنِ» قَالَ: ثُمَّ أَيٌّ؟ قَالَ: «الجِهَادُ فِي سَبِيلِ اللَّهِ» قَالَ: حَدَّثَنِي بِهِنَّ، وَلَوِ اسْتَزَدْتُهُ لَزَادَنِي. [صحيح] - [متفق عليه]

(127) – Abdullah bin Məsudun (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşdum: “Hansı əməl Allaha daha sevimlidir?”. Buyurdu: "Vaxtında qılınan namaz". Dedi: "Sonra hansı?". Buyurdu: “Valideynə yaxşılıq" Dedi: Sonra hansı?". Buyurdu: "Allah yolunda cihad". Dedi: Allah Rəsulu mənə bunları söylədi. Əgər soruşmağa davam etsəydim, o da cavab verməyə davam edərdi. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşulur: Hansı əməl Allaha daha sevimldir? Buyurdu ki: "Şəriətin təyin etdiyi vaxtlarda fərz namazlarını qılmaq". Sonra valideynlərə yaxşılıq etmək, onlara münasibətdə mehriban olub ən gözəl tərzdə davranmaq, haqlarını ödəmək və onların üzünə ağ olmamaq. Sonra izzət və cəlal sahibi olan Allahın

kəliməsini uca tutmaq, İslam dinini, əhlini, İslamın ayinlərini qorumaq üçün Allah yolunda cihad. Bu isə can və mal-dövlətlə olur.

Və İbn Məsud (Allah ondan razı olsun) dedi: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) mənə bu əməllərdən xəbər verdi, əgər ona "sonra hansı" deyə sual versəydim, artırardı (yəni növbəti əməlləri söylərdi).

## Hədisin faydalarından:

1. Allahın əməllərə bəslədiyi sevgi nisbətinə görə, bu əməllərin bir-birindən fərqlənməsi.
2. Müsəlmanı ən xeyirli əməllər etməyə həvəsləndirmək.
3. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) ən üstün əməllər haqqında verdiyi cavablar insanların fərqliliyinə, onların vəziyyətinə və onların hər biri üçün ən faydalı olanına görə dəyişir.

(3365)

(128) – عَنْ عُثْمَانَ رضي الله عنه قَالَ: سَمِعْتُ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «مَا مِنَ امْرِئٍ مُسْلِمٍ تَحْضُرُهُ صَلَاةٌ مَكْتُوبَةٌ فَيُحْسِنُ وُضُوءَهَا وَخُشُوعَهَا وَرُكُوعَهَا، إِلَّا كَانَتْ كَفَّارَةً لِمَا قَبْلَهَا مِنَ الذُّنُوبِ، مَا لَمْ يُؤْتِ كَبِيرَةً، وَذَلِكَ الدَّهْرَ كُلَّهُ».

[صحيح] - [رواه مسلم]

(128) – Osmandan (Allah ondan razı olsun) rəvayət olunur ki, o, dedi: Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğunu eşitdim: "Elə bir

müsəlman kişi yoxdur ki, fərz namazının vaxtına yetişib, gözəl şəkildə dəstəmaz alsın, namazda xuşunu və rukunu gözəl şəkildə yerinə yetirsin və böyük günah işləməsin ki, bu namaz özündən əvvəlki günahlara kəffarə olmasın. Və bu hər zaman belədir”. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etmişdir ki, bir müsəlman fərz namazının vaxtı daxil olduqda, gözəl şəkildə dəstəmaz alar və onu tamamlayar, sonra isə namazı, Allahın əzəmətini xatırlayaraq, qəlbi və bütün əzaları ilə Allaha yönələrək - yəni xuşu ilə qılarsa, namazın ruku, səcdə və başqa əməllərini yerinə yetirərsə, böyük günahlar etmədikcə, bu namaz özündən əvvəlki kiçik günahların kəffarəsi olar. Bu fəzilət hər vaxt və hər namazda davam edir.

**Hədisin faydalarından:**

1. Günahlara kəffarə olan (günahları təmizləyən) namaz, qulun gözəl şəkildə dəstəmaz alıb, Allahın razılığını qazanmaq üçün xuşu ilə qıldığı namazdır.
2. İbadətlərə davamlı olmağın fəziləti. Və o kiçik günahların bağışlanmasına səbəbdir.
3. Gözəl şəkildə dəstəmaz almağın, namazı gözəl şəkildə və xuşu ilə qılmağın fəziləti.
4. Kiçik günahların bağışlanması üçün böyük günahlardan uzaq durmağın əhəmiyyəti.
5. Böyük günahlar yalnız tövbə ilə bağışlanır.

(6254)

(129) – عن أبي هريرة رضي الله عنه أن رسول الله صلى الله عليه وسلم كان يقول: «الصَّلَوَاتُ الْخَمْسُ، وَالْجُمُعَةُ إِلَى الْجُمُعَةِ، وَرَمَضَانُ إِلَى رَمَضَانَ، مُكَفِّرَاتٌ مَا بَيْنَهُنَّ إِذَا اجْتَنَبَ الْكَبَائِرَ». [صحيح] - [رواه مسلم]

(129) – Əbu Hureyradan - Allah ondan razı olsun - rəvayət edildiyinə görə Allah Rəsulu -salləllahu aleyhi va səlləm - belə buyurmuşdur: "Böyük günahlardan çəkindiyi müddətcə, beş vaxt namaz, iki Cümə və iki Ramazan, aralarında edilən kiçik günahlara kəffarədir". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va səlləm - gün ərzində qılınan beş vaxt namazın, hər həftə qılınan cümə namazının və hər il tutulan Ramazan orucunun böyük günahlardan çəkinilməsi şərti ilə aralarında edilən kiçik günahlara kəffarə olacağını xəbər vermişdir. Amma zina, içki içmək kimi büyük günahlara gəldikdə isə, yalnız tövbə edildiyində bağışlanar.

**Hədisin faydalarından:**

1. Günahlardan bəziləri kiçik, bəziləri isə böyükdür.
2. Kiçik günahların bağışlanması böyük günahlardan çəkinmə şərtinə bağlıdır.
3. Böyük günahları edənə bu dünyada hədd cəzası, axirətdə isə əzab və ya qəzəb yaxud da lənət təhdidi vardır. Zina etmək və içki içmək kimi əməllər böyük günahlara misaldır.

(3591)

(130) – عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ عَنْ أَبِيهِ عَنْ جَدِّهِ قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ: «مُرُوا أَوْلَادَكُمْ بِالصَّلَاةِ وَهُمْ أَبْنَاءُ سَبْعِ سِنِينَ، وَاضْرِبُوهُمْ عَلَيْهَا وَهُمْ أَبْنَاءُ عَشْرٍ، وَفَرِّقُوا بَيْنَهُمْ فِي الْمَضَاجِعِ». [حسن] - [رواه أبو داود]

(130) – Amr bin Şueyb, atası vasitəsilə babasından rəvayət edərək dedi: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: “Övladlarınıza yeddi yaşında ikən namaz qılmağı əmr edin, on yaşında ikən onları namaza görə (əgər qılmasalar) vurun və onların yataqlarını da ayırın”. [Həsən] - [Əbu Davud rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etmişdir ki, ata övladlarına - oğlan və qızlara - yeddi yaşında ikən namaz qılmağı əmr etməli və onlara namaz qılmaq üçün lazım olan şeyləri öyrətməlidir. Onlar on yaşına çatdıqda bunu daha çox əmr etməlidir. Övlad bu işdə səhlənkarlıq edərsə, ata onu vurur və onların yatağını ayırır.

**Hədisin faydalarından:**

1. Balaca uşaqlara həddi-buluğa çatmamışdan əvvəl din məsələlərini öyrətmək və bunların ən əhəmiyyətlilərindən biri namazdır.
2. Uşağı vurmaq ona işgəncə etmək üçün deyil, onu tərbiyələndirmək üçündür. Ona görə də uşağın halı nəzərə alınaraq vurulmalıdır.

3. Şəriətin irzin (namusun) qorunmasına diqqət yetirməsi və fitnə-fəsada səbəb ola biləcək hər bir yolun qarşısını alması.

(5272)

(131) – عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللهُ عنه سَمِعْتُ رَسُولَ اللهِ صلى الله عليه وسلم يَقُولُ: «قَالَ اللهُ تَعَالَى: قَسَمْتُ الصَّلَاةَ بَيْنِي وَبَيْنَ عَبْدِي نِصْفَيْنِ، وَلِعَبْدِي مَا سَأَلَ، فَإِذَا قَالَ الْعَبْدُ: {الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ}، قَالَ اللهُ تَعَالَى: حَمِدَنِي عَبْدِي، وَإِذَا قَالَ: {الرَّحْمَنِ الرَّحِيمِ}، قَالَ اللهُ تَعَالَى: أَثْنَى عَلَيَّ عَبْدِي، وَإِذَا قَالَ: {مَالِكِ يَوْمِ الدِّينِ}، قَالَ: مَجَّدَنِي عَبْدِي، -وَقَالَ مَرَّةً: فَوَّضَ إِلَيَّ عَبْدِي-، فَإِذَا قَالَ: {إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ}، قَالَ: هَذَا بَيْنِي وَبَيْنَ عَبْدِي وَلِعَبْدِي مَا سَأَلَ، فَإِذَا قَالَ: {اهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ، صِرَاطَ الَّذِينَ أَنْعَمْتَ عَلَيْهِمْ غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلا الضَّالِّينَ}، قَالَ: هَذَا لِعَبْدِي وَلِعَبْدِي مَا سَأَلَ». [صحيح] - [رواه مسلم]

(131) – Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə demişdir: Mən Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Uca Allah belə buyurmuşdur: Namazı qulumla Özüm aramda iki yerə böldüm, qulum üçün istədiyi vardır. Qul: (Həmd, aləmlərin Rəbbi olan Allaha məxsusdur) deyincə, Uca Allah: (Qulum Məni həmd etdi) deyə buyurar. Qul: (Mərhəmətli və Rəhmli olana) deyincə, Allah: (Qulum Məni öydü) deyər. Qul: (Din gününün Sahibinə) deyincə, (Qulum Məni ucaltdı) yaxud da: (Qulum işini Mənə həvalə etdi) deyər. Qul: (Biz yalnız Sənə ibadət edir və yalnız

Səndən kömək diləyirik) deyincə, (Bu, qulumla Mənim aramda ortaq olan qisimdir və quluma istədiyi olacaqdır) diyə buyurar. Qul: (Bizi doğru yola yönəlt! Nemət bəxş etdiyin kimsələrin yoluna, qəzəbə uğramışların və azmışların (yoluna) yox!) deyincə, Allah: (Bu, quluma aiddir, quluma istədiyi veriləcəkdir) diyə buyurar”. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Uca Allahın qüdsi bir hədisdə belə buyurduğunu xəbər vermişdir: Namazda Fatihə surəsini qulumla Özüm aramda iki yerə böldüm, Fatihə surəsinin yarısı Mənim, yarısı isə onundur.

Fatihə surəsinin birinci yarısı: Uca Allaha həmd-səna və Ona tərifdir. Buna görə qulumu ən xeyirli qarşılıqla mükafatlandıracağam.

Fatihə surəsinin ikinci yarısı: Yalvarmaq və duadır. Qulumun duasını qəbul edəcəm və ona istədiyini verəcəm.

Namaz qılan kimsə: (Həmd, aləmlərin Rəbbi olan Allaha məxsusdur) deyincə, Uca Allah: (Qulum Məni həmd etdi) deyə buyurar. Qul: (Mərhəmətli və Rəhmli olana) deyincə, Allah: (Qulum Məni təriflədi, Mənə həmd etdi və qullarıma olan nemətimi itiraf etdi) deyər. Qul: (Din gününün Sahibinə) deyincə, Allah: (Qulum Məni ucaltdı, bu böyük şərəfdir) deyər.

Namaz qılan kimsə: (Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik) deyincə, Allah: (Bu, qulumla Mənim aramda ortaq olan qisimdir) deyə buyurar.

Bu ayənin birinci qismi: (Biz yalnız Sənə ibadət edir) Allaha aiddir. Bu, Uca Allahın ibadətə layiq tək haqq ilah olduğunu etiraf etmək və Onun ibadət çağrısına icabət etməkdir və bununla da Uca Allaha aid olan qisim burada bitir.

Ayənin ikinci qismi: (və yalnız Səndən kömək diləyirik) isə qula aiddir. Bu, Uca Allahdan yardım diləməyi və Ondan yardım diləyənə yardım edəcəyinə dair vədinin gerçəkləşəcəyini ifadə edir.

Namaz qılan kimsə: (Bizi doğru yola yönəlt! Nemət bəxş etdiyin kimsələrin yoluna, qəzəbə uğramışların və azmışların (yoluna) yox!) deyincə, Allah: (Bu, qulumun yalvarması və dua etməsidir, quluma istədiyi veriləcəkdir, Mən artıq onun duasına icabət etdim) diyə buyurar.

## Hədisin faydalarından:

1. Bu hədisdə Fatihə surəsinin önəminin böyüklüyü ifadə edilmiş və Uca Allah bu surəni namaz olaraq adlandırmışdır.
2. Hədisdə Uca Allahın quluna olan qayğısı ifadə edilmiş, həmçinin, qulunun Onu həmd-səna etməsindən dolayı qulunu mədh etməsi xəbər verilmiş və sonda isə qulun Ondan istədiyinin ona verəcəyini vəd etmişdir.
3. Bu surə özündə, Uca Allaha həmd-səna etməyi, öldükdən sonra yenidən dirilməyi, Allaha dua etməyi, ixlasla Ona ibadət etməyi, doğru yola yönəltməsini istəməyi və batil yollardan çəkindirməyi əhatə etmişdir.

4. Namaz qılan kimsə - Fatihə surəsini oxuduğu zaman - bu hədisi xatırlayarsa bu onun namazdakı xuşusunu artırar.

(65099)

(132) – عن بريدة رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «إِنَّ الْعَهْدَ الَّذِي بَيْنَنَا وَبَيْنَهُمُ الصَّلَاةُ، فَمَنْ تَرَكَهَا فَقَدْ كَفَرَ». [صحيح] - [رواه الترمذي والنسائي وابن ماجه وأحمد]

(132) – Bureydədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: "Bizimlə onlar arasındakı olan əhd namazdır. Kim namazı tərk etsə, artıq küfr etmişdir". [Səhih] - [Ət-Tirmizi, Ən-Nəsai, İbnu Məcə və Əhməd rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlmanlarla, kafirlər və münafiqlər arasındaki əhd-peymanın namaz olduğunu və onu tərk edənin kafir olacağını bəyan etmişdir.

**Hədisin faydalarından:**

1. Hədisdə namazın dəyərinin nə qədər əzəmətli olduğu ifadə edilmişdir. Namaz, mömin ilə kafiri bir-birindən ayıran bir özəllikdir.
2. İslamın əhkamları, insanın qəlbindəki ilə deyil, zahirdəki halı ilə sabit olur.

(65094)

(133) – عن جابرٍ رضي الله عنه قال: سمعتُ النبيَّ صلى الله عليه وسلم يقول: «إِنَّ بَيْنَ الرَّجُلِ وَبَيْنَ الشِّرْكِ وَالْكُفْرِ تَرْكَ الصَّلَاةِ». [صحيح] - [رواه مسلم]

(133) – Cabirdən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə demişdir: Mən Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Kişi ilə şirk və küfür arasında namazı tərk etməsi vardır". [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) fərz namazların tərk edilməsindən çəkindirmiş, kişi ilə şirkə və küfrə düşməsi arasında namazın tərk edilməsi olduğunu xəbər vermişdir. Namaz İslamin ikinci rükunudur. Namazın İslamda yeri əzəmətlidir. Kim namazın vacib olunduğunu inkar edərək tərk edərsə, o, müsəlmanların icması ilə kafir olar. Namazı səhlənkarlıq və tənbəllikdən dolayı bütünlüklə tərk edən kimsə də kafirdir. Bu məsələdə bizə səhabələrin icması nəql edilmişdir. Əgər bir kimsə namazı bəzən qılıb, bəzən də tərk edərsə, o, bu şiddətli təhdidə məruz qalar.

## Hədisin faydalarından:

1. Hədisdə namazın əhəmiyyəti və namazları vaxtı-vaxtında qılmasının vacibliyi ifadə edilmişdir. Namaz, iman ilə küfür arasını ayıran bir özəllikdir.
2. Namazı tərk etmək və namaza qarşı səhlənkar yanaşmaq qadağan edilmişdir.

(65093)

(134) – عَنْ سَالِمِ بْنِ أَبِي الْجَعْدِ قَالَ: قَالَ رَجُلٌ: لَيْتَنِي صَلَّيْتُ فَاسْتَرَحْتُ، فَكَأَنَّهُمْ عَابُوا ذَلِكَ عَلَيْهِ، فَقَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «يَا بِلَالُ، أَقِمِ الصَّلَاةَ، أَرِحْنَا بِهَا». [صحيح] - [رواه أبو داود]

(134) – Səlim bin Əbil-Caddan rəvayət edildiyinə görə bir kişi: “Kaş ki namaz qılmış olsaydım, istirahət edərdim” deyincə, orada olanlar sanki onun bu sözündə ayıb gördülər, bu zaman kişi onlara belə dedi mən: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: «Ey Bilal! Namaz üçüm iqamə ver. Bizi namazla rahatlat». [Səhih] - [Əbu Davud rəvayət etdi]

**Şərh (izah):**

Səhabələrdən bir kişi: "Kaş ki namaz qılmış olsaydım, istirahət edərdim" dedi. Sanki ətrafında olanlar onun söylədiyi bu sözündən dolayı qınadılar. Bunun üzərinə o, ətrafında olanlara, mən Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Ey Bilal! Namaz üçün azan oxu və iqamə ver ki, biz namazla rahatlaşaq". Çünki namazda Uca Allahla münacat, qəlbin və ruhun rahatlığı vardır.

**Hədisin faydalarından:**

1. Namazda Uca Allahı yalvararaq çağırmaq olduğu üçün orada qəlbin rahatlığı olur.
2. İbadətdə tənbəllik edən kimsənin qınanması.
3. Kim, üzərinə düşən vacibi yerinə yetirərsə, onun məsuliyyətini üzərindən götürər və beləliklə də o, rahatlıq və arxayınlıq hissinə ovuşar.

(65095)

(135) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: كَانَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، إِذَا كَبَّرَ فِي الصَّلَاةِ، سَكَتَ هُنَيَّةً قَبْلَ أَنْ يَقْرَأَ، فَقُلْتُ: يَا رَسُولَ اللهِ بِأَبِي أَنْتَ وَأُمِّي أَرَأَيْتَ سُكُوتَكَ بَيْنَ التَّكْبِيرِ وَالْقِرَاءَةِ، مَا تَقُولُ؟ قَالَ «أَقُولُ: اللهُمَّ بَاعِدْ بَيْنِي وَبَيْنَ خَطَايَايَ كَمَا بَاعَدْتَ بَيْنَ الْمَشْرِقِ وَالْمَغْرِبِ، اللهُمَّ نَقِّنِي مِنْ خَطَايَايَ كَمَا يُنَقَّى الثَّوْبُ الْأَبْيَضُ مِنَ الدَّنَسِ، اللهُمَّ اغْسِلْنِي مِنْ خَطَايَايَ بِالثَّلْجِ وَالْمَاءِ وَالْبَرَدِ». [صحيح] - [متفق عليه]

(135) – Əbu Hureyradan (Allah ondn razı olsun) belə dediyi rəvayət edilir: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) namaz əsnasında təkbir gətirdikdə, Quran oxumazdan əvvəl qısa bir müddət susardı. Ona görə dedim: Ey Allahın Elçisi - anam və atam sənə fəda olsun - təkbir və qiraət arasında sakit durduqda nə söyləyirsən? O, dedi: “Allahummə bəid bəyni və bəynə xatayəyə kəmə bəədtə bəynəl-məşriqi vəl-məğribi, Allahummə nəqqini min xatayəyə, kəmə yunəqqas-səvbul-əbyadu minəd-dənəsi, Allahummə-ğsilni min xatayəyə bilməi, vəs-səlci, vəl-bərdi” - deyirəm. (Allahım, şərqlə qərbin arasını uzaqlaşdırdığın kimi məni də günahlarımdan uzaq et. Allahım, ağ paltar çirkdən təmizləndiyi kimi, məni də günahlarımdan təmizlə. Allahım, mənim günahlarımı su, qar və dolu ilə yu). [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) namaz üçün təkbir (Allahu Əkbər) dedikdən sonra,

“Fatihə” surəsini oxumazdan əvvəl azacıq sakit durardı, orada bəzi dualarla namazına başlayardı. Və bu dualardan varid olanlardan biri: "Allahummə bəid bəyni və bəynə xatayəyə kəmə bəadtə bəynəl-məşriqi vəl-məğribi, Allahummə nəqqini min xatayəyə, kəmə yunəqqas-səvbul-əbyadu minəd-dənəsi, Allahummə-ğsilni min xatayəyə bilməi vəs-səlci vəl-bərdi".

Allahım, şərqlə qərbin arasını uzaqlaşdırdığın kimi məni də günahlarımdan uzaq et. Allahım, ağ paltar çirkdən təmizləndiyi kimi, məni də günahlarımdan təmizlə. Allahım, mənim günahlarımı su, qar və dolu ilə yu. O, Uca Allaha dua edir ki, onu günahlardan uzaq etsin ki, günaha düşməsin. Elə bir şəkildə uzaq etsin ki, günahla qarşılaşmasın, necə ki, şərqlə qərb heç zaman qarşılaşmaz. Əgər o günahlara düşsə, çirk ağ paltardan çıxarıldığı kimi, onu da günahlardan təmizləsin, günahlarını su, qar və dolu kimi soyuq təmizləyicilərlə yusun, onların alovunu və istiliyini soyutsun.

### Hədisin faydalarından:

1. Səsli namazda olsa da belə, açılış duasını gizli oxumaq.
2. Səhabələrin (Allah onlardan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) hərəkətlərində və sükunətindəki hallarını bilməyə can atmaları.
3. Açılış duasının başqa formaları da varid olmuşdur. Yaxşı olar ki, insan ondan (Allahın salavatı və salamı

onun üzərinə olsun) varid və sabit olan açılış dualarını öyrənsin və hər dəfə birini söyləsin.

(3104)

(136) – عَن ابْنِ عُمَرَ رضي الله عنهما: أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ كَانَ يَرْفَعُ يَدَيْهِ حَذْوَ مَنْكِبَيْهِ إِذَا افْتَتَحَ الصَّلَاةَ، وَإِذَا كَبَّرَ لِلرُّكُوعِ، وَإِذَا رَفَعَ رَأْسَهُ مِنَ الرُّكُوعِ، رَفَعَهُمَا كَذَلِكَ أَيْضًا، وَقَالَ: «سَمِعَ اللَّهُ لِمَنْ حَمِدَهُ، رَبَّنَا وَلَكَ الحَمْدُ»، وَكَانَ لاَ يَفْعَلُ ذَلِكَ فِي السُّجُودِ. [صحيح] - [متفق عليه]

(136) – İbn Ömərdən (Allah onların hər ikisindən razı olsun) rəvayət edilir ki: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) namaza başlayanda əllərini çiyinləri səviyyəsində qaldırardı, həmçinin rukuya getmək üçün təkbir gətirdikdə və başını rukudan qaldırdıqda da əllərini qaldırardı və "Səmia-Llahu limən həmidəh, Rabbənə və ləkəl-həmd" deyərdi, səcdə edərkən isə bunu etməzdi. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) namaz əsnasında üç yerdə əllərini çiyin səviyyəsində qaldırardı ki, bu da çiyin sümüyü ilə qol sümüyünün birləşdiyi yerdir.

Birinci yer: Namaza ihram (açılış) təkbiri ilə başladıqda.

İkincisi: Rukuya getmək üçün “Allahu Əkbər” dedikdə.

Üçüncüsü: Rukudan başını qaldırdıqda və "Səmiəllahu limən həmidəh, Rabbənə və ləkəl-həmd" dedikdə.

Nə səcdə etməyə başlayanda, nə də səcdədən qalxarkən əllərini qaldırmazdı.

## Hədisin faydalarından:

1. Namazda əlləri qaldırmağın hikmətlərindən biri, onun namazın bəzəyi olması və pak olan Allahın təzim edilməsidir.
2. Əbu Davud və başqalarının Əbu Humeyd əs-Səididən nəql etdikləri rəvayətdə, Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) əllərini dördüncü yerdə də qaldırması sabit olmuşdur. Bu isə üç və dörd rükətli namazlarda, birinci təşəhhüddən ayağa qalxdıqdadır.
3. Həmçinin iki “Səhih”də (Buxari və Muslimin səhihləri) Malik bin Əl-Hüveyrisin nəql etdiyi rəvayətdə olduğu kimi, onun (Allahın salavatı və salamı onun üzərinə olsun) əllərini qulaqlarına toxunmadan, qulaqları səviyyəsində qaldırması sabit olub: “Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) təkbir gətirdikdə əllərini qulaqları səviyyəsində olana qədər qaldırardı”.
4. "Səmiəllahu limən həmidəh" və “Rabbənə və ləkəl-həmd " zikrlərinin hər ikisini də demək, imama və namazı tək qılan kəsə aiddir, məmum (imamın arxasında namaz qılan) kəs isə yalnız : “Rabbənə və ləkəl-həmd " deyir .

5. Rukudan sonra deyilən “Rabbənə və ləkəl-həmd " sözü Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) dörd formada səhih olaraq sabit olmuşdur ki, bu onlardan biridir.
6. Daha yaxşı olar ki, insan bu formaların hər birini öyrənsin və hər dəfə birini söyləsin.

(3095)

(137) – عَنْ عُبَادَةَ بْنِ الصَّامِتِ رضي الله عنه أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «لَا صَلَاةَ لِمَنْ لَمْ يَقْرَأْ بِفَاتِحَةِ الكِتَابِ». [صحيح] - [متفق عليه]

(137) – Ubədə bin Samit (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət etmişdir: "Fatihə surəsini oxumayanın namazı yoxdur (səhih deyildir)". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Fatihə surəsini oxumadan namazın səhih olmadığını bildirmişdir. Çünki o hər rükətdə namazın rukunlarından biridir.

**Hədisin faydalarından:**

1. Oxumağa qadir olduğu halda Fatihə oxumağı başqa heç bir şey əvəz etməz.
2. Qəsdən, bilmədən və ya unudaraq fatihə surəsi oxunmayan rükət batildir. Çünki o, bir rukndur və namazın ruknları heç vaxt düşməz.

3. Əgər imamın arxasında qılan, imama rukuda olan zaman yetişərsə, (həmin rükətdə) fatihə surəsini oxumaq onun üzərindən düşər.

(5378)

(138) – عن أَبِي هُرَيْرَةَ رضي الله عنه: أنه كَانَ يُكَبِّرُ فِي كُلِّ صَلَاةٍ مِنَ الْمَكْتُوبَةِ وَغَيْرِهَا، فِي رَمَضَانَ وَغَيْرِهِ، فَيُكَبِّرُ حِينَ يَقُومُ، ثُمَّ يُكَبِّرُ حِينَ يَرْكَعُ، ثُمَّ يَقُولُ: سَمِعَ اللهُ لِمَنْ حَمِدَهُ، ثُمَّ يَقُولُ: رَبَّنَا وَلَكَ الْحَمْدُ، قَبْلَ أَنْ يَسْجُدَ، ثُمَّ يَقُولُ: اللهُ أَكْبَرُ حِينَ يَهْوِي سَاجِدًا، ثُمَّ يُكَبِّرُ حِينَ يَرْفَعُ رَأْسَهُ مِنَ السُّجُودِ، ثُمَّ يُكَبِّرُ حِينَ يَسْجُدُ، ثُمَّ يُكَبِّرُ حِينَ يَرْفَعُ رَأْسَهُ مِنَ السُّجُودِ، ثُمَّ يُكَبِّرُ حِينَ يَقُومُ مِنَ الْجُلُوسِ فِي الِاثْنَتَيْنِ، وَيَفْعَلُ ذَلِكَ فِي كُلِّ رَكْعَةٍ، حَتَّى يَفْرُغَ مِنَ الصَّلَاةِ، ثُمَّ يَقُولُ حِينَ يَنْصَرِفُ: وَالَّذِي نَفْسِي بِيَدِهِ، إِنِّي لَأَقْرَبُكُمْ شَبَهًا بِصَلَاةِ رَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، إِنْ كَانَتْ هَذِهِ لَصَلَاتَهُ حَتَّى فَارَقَ الدُّنْيَا. [صحيح] - [متفق عليه]

(138) – Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o, Fərz və digər bütün namazlarda, Ramazan ayında və ramazandan başqa aylarda hər namazda təkbir gətirirdi. Namaza qalxdıqda təkbir gətirərdi, rüku edərkən də təkbir gətirərdi. Sonra: "Səmi Allahu limən həmidəh" deyib rükudan qalxdıqdan sonra səcdə etməzdən əvvəl: "Rabbənə və ləkə-l-həmd" deyərdi. Sonra səcdə etmək üçün əyildiyində təkbir edir, səcdədən başını qaldırınca yenə də təkbir gətirirdi sonra təkrar səcdə etmək üçün təkbir gətirir sonra səcdədən başını qaldırınca yenə də təkbir gətirirdi. İkinci rükəti qılıb

qurtardıqdan sonra üçüncü rükətə qalxarkən yenə təkbir gətirirdi. Sonra da bunu namazın hər rükətində namazı bitirənə qədər edirdi. Namazı bitirib insanlara tərəf dönüb: Nəfsim əlində olana and olsun ki, aranızda namazı Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) namazına ən çox oxşayan mənim namazımdır. Bu onun dünyadan ayrılana qədər qıldığı namaz idi" deyirdi. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Əbu Hureyrə (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) necə namaz qılmasının bir qismini rəvayət etmişdir. O Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) namaza qalxdıqda qiyamda olarkən Təkbiratul-ihram edərək namaza başlayar sonra rüku, səcdə, başını səcdədən qaldırarkən, ikinci səcdəni edərkən, başını ikinci səcdədən qaldırarkən, üç və dörd rükətli namazlarda ilk təşəhüddən qalxarkən də təkbir gətirdiyini xəbər vermişdir. Sonra da bunu namazın hər rükətində namazı bitirincəyə qədər etdiyini, başını rükudan qaldırdığında: "Səmi Allahu limən həmidəh" deyib rükudan qalxdıqdan sonra belini düz tutunca: "Rabbənə va ləkəl-həmd" dediyini xəbər vermişdir.

Əbu Hureyrə (Allah ondan razı olsun) namazı bitirdikdən sonra insanlara tərəf dönüb: "Nəfsim əlində olana and olsun ki, aranızda namazı Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) namazına

ən çox oxşayan mənim namazımdır. Bu, onun dünyadan ayrılana qədər qıldığı namazın sifəti idi" dedi.

**Hədisin faydalarından:**

1. Rükudan qalxarkən: "Səmia-Llahu limən həmidəh" demək istisna olmaqla, namazda bütün əyilmək və qalxmalarda təkbir edilir.
2. Səhabələrin, Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) tabe olmalarına və həmçinin onun sünnəsini qorumağa həris olmaları.

(65098)

(139) – عن ابنِ عَبَّاسٍ رضي الله عنهما عن النبيِّ صلى الله عليه وسلم قال: «أُمِرْتُ أَنْ أَسْجُدَ عَلَى سَبْعَةِ أَعْظُمٍ: عَلَى الْجَبْهَةِ وَأَشَارَ بِيَدِهِ عَلَى أَنْفِهِ، وَالْيَدَيْنِ، وَالرُّكْبَتَيْنِ، وَأَطْرَافِ الْقَدَمَيْنِ، وَلَا نَكْفِتَ الثِّيَابَ وَالشَّعَرَ». [صحيح] - [متفق عليه]

(139) – İbn Abbasdan (Allah onların hər ikisindən razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Mənə yeddi əza üzərində səcdə etmək əmr edildi: Alın üzərinə - əli ilə də burununa işarə etdi -, iki əl, iki diz və iki ayağın ön tərəfdən uclarına və mənə namaz əsnasında saç və paltarı yığmamaq əmr edildi". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, Allah ona namazda bədənin yeddi əzası üzərində səcdə etməyi əmr edir və bunlar:

Birincisi: alın: o, insan sifətinin yuxarı hissəsi, burun və gözlərin üstüdür. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) əli ilə burnuna işarə edərək bəyan edir ki, alınla burun birlikdə sözügedən yeddi əzadan biridir və bu işarə ilə əsaslandırır ki, səcdə edən burnu ilə mütləq yerə toxunmalıdır.

İkinci və üçüncü əza: İki əldir.

Dördüncü və beşinci isə dizlərdir.

Altıncı və yeddinci isə ayaqların barmaqlarıdır.

Həməçinin bizə saçlarımızı düyünləyib sarımamağı və səcdə edərkən paltarımızı yuxarı çəkib bir tərəfini digər tərəfin üzərinə yığmamağı, əksinə yerə dəyməsini və əzalarla birlikdə yerə səcdə etməsini əmr etdi.

## Hədisin faydalarından:

1. Namazda yeddi əza üzərində səcdə etməyin vacibliyi.
2. Namazda saçı və paltarı yığmağın məkruh olması.
3. Namaz qılan namazında rahat olmalıdır, yeddi səcdə əzasını yerə qoymalı və tələb olunan zikri deyənə qədər bu üzrə qalmalıdır.
4. Saç yığmaq qadağası qadınlara yox kişilərə aiddir, çünki qadına namazda örtünmək əmr edilib.

(10925)

(140) – عَن أَبِي أُمَامَةَ قَالَ: حَدَّثَنِي عَمْرُو بْنُ عَبَسَةَ رضي الله عنه أَنَّهُ سَمِعَ النَّبِيَّ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «أَقْرَبُ مَا يَكُونُ الرَّبُّ مِنَ العَبْدِ فِي جَوْفِ اللَّيْلِ الآخِرِ،

فَإِنْ اسْتَطَعْتَ أَنْ تَكُونَ مِمَّنْ يَذْكُرُ اللَّهَ فِي تِلْكَ السَّاعَةِ فَكُنْ». [صحيح] - [رواه أبو داود والترمذي والنسائي]

(140) – Əbu Umamədən rəvayət edilir ki, o, belə dedi: Amr ibn Əbəsə (Allah ondan razı olsun) mənə dedi ki, o, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdi: Rəbbin qula ən yaxın olan vaxtı gecənin sonudur, əgər sən o vaxt Allahı zikr edənlərdən ola bilirsənsə, ol." [Səhih] - [Əbu Davud, Ət-Tirmizi,Ən-Nəsai rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə xəbər verir ki, Rəbbin qula ən yaxın olduğu vaxtı gecənin son üçdə biridir. Ey mömin, əgər sən həmin vaxta müvəffəq olmusansa və bu vaxt ibadət edən, namaz qılan, zikr edən və tövbə edənlərdən olmağı bacarırsansa, (bil ki) həqiqətən də bu faydalanmağın və çalışmağın lazım olduğu bir fürsətdir.

**Hədisin faydalarından:**

1. Müsəlmanı gecənin sonunda zikr etməyə həvəsləndirmək.
2. Zikr, dua və namaz üçün vaxtların bəzilərinin digərindən daha üstün olması.
3. Mayrak (Allah ona rəhmət etsin) demişdir: "Rəbbin qula ən yaxın olan vaxtı" sözü ilə "Qulun Rəbbinə ən yaxın olan halı səcdə halıdır" sözləri arasında fərq budur: Birincidən məqsəd Rəbbin qula ən yaxın olan

vaxtın bəyanıdır ki, bu gecənin son vaxtıdır, ikincidən məqsəd isə qulun Allaha ən yaxın olan halının bəyanıdır ki, o da səcdə halıdır”.

(3236)

(141) – عن جَرِيْر بنِ عبدِ الله رضي الله عنه قال: كُنَّا عِنْدَ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، فَنَظَرَ إِلَى الْقَمَرِ لَيْلَةً -يَعْنِي الْبَدْرَ- فَقَالَ: «إِنَّكُمْ سَتَرَوْنَ رَبَّكُمْ كَمَا تَرَوْنَ هَذَا الْقَمَرَ، لَا تُضَامُونَ فِي رُؤْيَتِهِ، فَإِنِ اسْتَطَعْتُمْ أَنْ لَا تُغْلَبُوا عَلَى صَلَاةٍ قَبْلَ طُلُوعِ الشَّمْسِ وَقَبْلَ غُرُوبِهَا فَافْعَلُوا» ثُمَّ قَرَأَ: «{وَسَبِّحْ بِحَمْدِ رَبِّكَ قَبْلَ طُلُوعِ الشَّمْسِ وَقَبْلَ الْغُرُوبِ}»

[صحيح] - [متفق عليه]

(141) – Cərir bin Abdullahın (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Biz Peyğəmbərlə (Allahın salavatı və salamı onun üzərinə olsun) birlikdə idik. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Bədr gecəsi bütöv olan aya baxdı və dedi: "Həqiqətən də siz Rəbbinizi, bu ayı gördüyünüz kimi görəcəksiniz. Onu görməkdə bir çətinlik və sıxıntı çəkməyəcəksiniz. Elə isə günəş doğmamışdan öncəki namaza və gün batmamışdan qabaq qılınan namaza gücünüz çatdığı qədər davamlı riayət edin". Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) sonra bu ayəni oxudu: "Günəş doğmamışdan əvvəl və batmamışdan əvvəl Rəbbini həmd ilə tərif et (şəninə təriflər de)!" (Qaf 50 surəsi, ayə 3). [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Sahabələr gecələrin birində Allah Rəsulu - (Allahın salavatı və salamı onun üzərinə olsun) ilə bir yerdə idilər, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) on dörd gecəlik aya baxıb dedi: Şübhəsiz ki, möminlər Rəbblərini gözləri ilə aydın şəkildə görəcəklər və onlar basırıq olmadan, yorğunluq və sıxıntı çəkmədən uca Allahı görəcəklər. Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: Əgər bacarsanız sübh və əsr namazında sizi yayındaracaq səbəbləri aradan qaldırın və bu namazları vaxtında camaatla qılın, çünki bu, izzət və cəlal sahibi olan Allahın üzünü görmək nemətinə nail olmaq üçün səbəblərindəndir. Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bu ayəni oxudu: "Günəş doğmamışdan əvvəl və batmamışdan əvvəl Rəbbini həmd ilə tərif et (şəninə təriflər de)!" (Qaf 50 surəsi, ayə 3).

## Hədisin faydalarından:

1. İman əhlinə uca Allahı cənnətdə görmək müjdəsi.
2. İnsanları haqqa çağırmağın üslublarından biri: təkid etmək, təşviq etmək və misallar çəkməkdir.

(5657)

(142) – عن أَبِي مُوسَى الأَشْعَرِيِّ رضي الله عنه: أَنَّ رَسُولَ اللَّهِ صلى الله عليه وسلم قَالَ: «مَنْ صَلَّى الْبَرْدَيْنِ دَخَلَ الْجَنَّةَ» [صحيح] - [متفق عليه]

(142) – Əbu Musa Əl-Əşəridən (Allah ondan razı olsun) rəvayət edilir ki, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: “Hər kim əl-bərdeyn

namazlarını qılarsa, Cənnətə daxil olar”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) əl-bərdeyn namazlarına həris olmağa təşviq etmişdir. Bunlar sübh və əsr namazlarıdır. Onları vaxtında, camaatla və digər haqları ilə yerinə yetirəni, bu namazların onun cənnətə girməsinə səbəb olması ilə müjdələmişdir.

**Hədisin faydalarından:**

1. Sübh və əsr namazlarını qorumağın fəziləti, çünki sübh namazı yuxunun şirin olduğu vaxt, əsr namazı isə insanın öz işi ilə məşğul olduğu vaxt olur. Ona görə də bu namazlara diqqət edən kəs, digər namazlara da diqqət yetirər.
2. Sübh və əsr namazları bərdeyn adlanır ("iki sərinlik"; yəni sərin havada qılınan namazlar), çünki sübh namazında gecənin sərinliyi, əsr namazında isə günortanın sərinliyi vardır (bərd - ərəbcə “sərinlik” deməkdir). Əsr namazı isti vaxtda olsa da belə, istiliyi özündən əvvəlki vaxtdan daha yüngüldür. Və ya onun bu cür adlandırılması üstünlük yönündəndir, (ərəblərdə) ay və günəşə iki ay deyilməsi kimi.

(4198)

(143) – عن جُندب بن عبد الله القَسْرِي رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «مَنْ صَلَّى صَلَاةَ الصُّبْحِ فَهُوَ فِي ذِمَّةِ اللهِ، فَلَا يَطْلُبَنَّكُمُ اللهُ مِنْ ذِمَّتِهِ بِشَيْءٍ، فَإِنَّهُ مَنْ يَطْلُبْهُ مِنْ ذِمَّتِهِ بِشَيْءٍ يُدْرِكْهُ، ثُمَّ يَكُبَّهُ عَلَى وَجْهِهِ فِي نَارِ جَهَنَّمَ».

[صحيح] - [رواه مسلم]

(143) – Cundub bin Abdullah əl-Qasridən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Kim sübh namazını qılarsa, Allah onu himayəsi altına alar. Ona görə Allahın himayəsi altında olan kəsə əziyyət verməkdən çəkinin və özünüz də bu əhdi, himayəni pozmayın, kim bunu edərsə cəzaya uğrayar və cəhənnəmə üzü üstə atılar". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, sübh namazını qılan kəsi Allah qoruyur və o Allahın mühafizəsi və himayəsi altındadır, onu müdafiə edər, həmçinin ona yardım edər.

Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbərdarlıq edir ki, sübh namazını tərk etmək, həmçinin sübh namazını qılan kəsə əngəl törədmək, ona zor tətbiq etmək, əhdin (himayənin) pozulmasına və onun ləğvinə gətirib çıxarar. Kim bunu edərsə, Allahdan uzaqlaşar, Onun haqqını ödəməkdə səhlənkar olduğu üçün şiddətli təhdidə layiq olar, o üzü üstə cəhənnəmə atılar.

### Hədisin faydalarından:

1. Sübh namazının əhəmiyyəti və fəzilətinin bəyanı.
2. Sübh namazını qılan insana əngəl törətməkdən şiddətli çəkindirmə.
3. Uca Allahın saleh qullarına pislik edənlərdən intiqam alması.

(5435)

(144) – عن بريدة بن الحصيب رضي الله عنه أنه قال: بَكِّرُوا بِصَلَاةِ الْعَصْرِ، فَإِنَّ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «مَنْ تَرَكَ صَلَاةَ الْعَصْرِ فَقَدْ حَبِطَ عَمَلُهُ». [صحيح] - [رواه البخاري]

(144) – Bureydə bin Əl-Huseybin (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: "Əsr namazını ilk çağında qılın, çünki Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Əsr namazını tərk edənin əməli batil olar". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

### Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) əsr namazını qəsdən vaxtını gecikdirməkdən çəkindirir və bunu edənin əməlinin batil və puç olması və boşa çıxması barədə xəbərdarlıq edir.

### Hədisin faydalarından:

1. Əsr namazını vaxtının daxil olduğu ilk anlarında qılmağa və buna daima çalışmağa təşviq.
2. Əsr namazını tərk edən üçün şiddətli xəbərdarlıq, onun vaxtını qaçırmağın digər namazların vaxtını

qaçırmaqdan daha şiddətli olması. Çünki o, uca Allahın Quranda xüsusi olaraq əmr etdiyi orta namazdır: “Namazları və (günortadan sonrakı) orta namazı qoruyun” [Əl-Bəqərə surəsi, ayə 238].

(6261)

(145) – عن أنس بن مالك رضي الله عنه عن النبي صلى الله عليه وسلم قال: «مَنْ نَسِيَ صَلَاةً فَلْيُصَلِّ إِذَا ذَكَرَهَا، لَا كَفَّارَةَ لَهَا إِلَّا ذَلِكَ: {وَأَقِمِ الصَّلَاةَ لِذِكْرِي} [طه: 14]». [صحيح] - [متفق عليه]

(145) – Ənəs bin Məlik (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət etmişdir: "Kim bir namazı unudarsa onu xatırladığı zaman qılsın. Onun kəffarəsi ancaq budur". “Məni xatırlamaq üçün namaz qıl!” [Ta-Ha 20 surəsi, ayə 14]. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) fərz namazlarından hər hansı birini vaxtı çıxdıqdan sonra xatırlayan kimsənin, xatırladığı zaman o namazı qəza etməyə tələsməsini və bu namazı tərk etmənin günahını, xatırladığı an qılmasından başqa bir şey örtüb, silə bilməyəcəyini bəyan etmişdir. Uca Allah Qurani Kərimdə belə buyurmuşdur: “Məni xatırlamaq üçün namaz qıl!” [Ta-Ha 20 surəsi, ayə 14]. Bunun mənası, yəni: unutduğun namazı xatırladığın zaman qıl deməkdir.

## Hədisin faydalarından:

1. Bu hədisdə namazın əhəmiyyəti, namazı qılmaqda və ya qəza etməkdə səhlənkar yaşmamaq bəyan edilmişdir.
2. Heç bir üzür olmadan, qəsdli bir şəkildə namazın vaxtını gecikdirmək caiz deyildir.
3. Unudan kimsə xatırladığı, yatan kimsə də oyandığı zaman namazı qəza etməsi vacibdir.
4. Namaz qılınması qadağan olan vaxtlar da olsa belə namazların dərhal qəza edilməsi vacibdir.

(65088)

(146) – عن أبي هريرة رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم:
«إِنَّ أَثْقَلَ صَلَاةٍ عَلَى الْمُنَافِقِينَ صَلَاةُ الْعِشَاءِ وَصَلَاةُ الْفَجْرِ، وَلَوْ يَعْلَمُونَ مَا فِيهِمَا لَأَتَوْهُمَا وَلَوْ حَبْوًا، وَلَقَدْ هَمَمْتُ أَنْ آمُرَ بِالصَّلَاةِ فَتُقَامَ، ثُمَّ آمُرَ رَجُلًا فَيُصَلِّيَ بِالنَّاسِ، ثُمَّ أَنْطَلِقَ مَعِي بِرِجَالٍ مَعَهُمْ حُزَمٌ مِنْ حَطَبٍ إِلَى قَوْمٍ لَا يَشْهَدُونَ الصَّلَاةَ، فَأُحَرِّقَ عَلَيْهِمْ بُيُوتَهُمْ بِالنَّارِ». [صحيح] - [متفق عليه]

(146) – Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Münafiqlərə ən ağır gələn namaz, işa və fəcr namazlarıdır. Əgər onlar bu iki namazda olan savabı bilsəydilər, sürünərək də olsa bu namazlara gələrdilər. Mən, namazın iqamə edilməsini, sonra da bir kişiyə camaata namaz qıldırmağı əmr etməyi daha sonra isə əllərində odun bağları olan kişilərlə birlikdə gedib, namaza gəlməyənlərin evlərini yandırmağı istədim".

[Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) münafiqlərin, xüsusən də sübh və işa namazlarına gəlmə məsələsində tənbəl olmaları, əgər onlar müsəlmanlarla birlikdə camaatla namaz qılmanın əcr və savabını bilsəydilər, uşaqların əlləri və dizləri üzərində iməklədikləri kimi bu iki namaza gəlmələri barədə xəbər vermişdir.

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) namazın qılınmasını əmr edib sonra öz yerinə bir kişiyə camaata namaz qıldırmağı tapşırmağı sonra isə əllərində odun bağları olan kişilərlə birlikdə gedib, camaat namazına gəlməyənlərin etdikləri günahın böyüküyündən dolayı evlərini yandırmağı istəmişdir. Lakin evlərdə qadınlar, məsum uşaqlar və digər üzürlü və bu işdə günahı olmayan kimsələrin olması, Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) bunu etməsinə mane olmuşdur.

**Hədisin faydalarından:**

1. Məsciddə camaat namazına getməməyin təhlükəli olması.
2. Münafiqlər, ibadətlərini, özlərini insanlara göstərmək və eşitdirməkdən başqa bir məqsədlə etməzlər. Onlar namazlara, insanlar onları gördükləri vaxtlarda gələrlər.

3. Sübh və işa namazlarının camaatla birgə qılınmasındakı savabın böyüklüyü və iməkləyərək də olsa məscidə bu iki namazı qılmaq üçün gəlməyin əhəmiyyəti.
4. Sübh və işa namazını camaatla birgə qılmağa həris olan kimsə nifaqdan uzaq olar. Bu namazlara gəlməmək isə münafiqlərin sifətlərindəndir.

(3366)

(147) – عَنِ ابْنِ أَبِي أَوْفَى رضي الله عنه قَالَ: كَانَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ إِذَا رَفَعَ ظَهْرَهُ مِنَ الرُّكُوعِ قَالَ: «سَمِعَ اللهُ لِمَنْ حَمِدَهُ، اللَّهُمَّ رَبَّنَا لَكَ الْحَمْدُ، مِلْءَ السَّمَاوَاتِ وَمِلْءَ الْأَرْضِ وَمِلْءَ مَا شِئْتَ مِنْ شَيْءٍ بَعْدُ». [صحيح] - [رواه مسلم]

(147) – İbn Əbu Əvfədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə belə demişdir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) rükudan belini qaldırdığı zaman belə deyərdi: "Səmi Allahu limən həmidəh, Allahummə Rabbənə va ləkəl-həmd, miləs-səməvati va miləl-ardi, va milə mə şitə min şeyin bəd". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) namazda rükudan belini qaldırdığı zaman belə deyərdi: Səmi Allahu limən həmidəh. Yəni: Kim Uca Allah həmd edərsə Uca Allah ona icabət edər, Onun həmd etməsini qəbul edər və onu mükafatlandırar. Sonra "Allahummə Rabbənə va ləkəl-həmd, miləs-səməvati va

milәl-ardi, va milә mә şitә min şeyin bәd'' sözü ilә Allaha hәmd edәr. Yәni: Göylәr dolusu, yerlәr dolusu, onların arasında olanlar vә bundan sonra dilәdiyin şeylәr dolusu Uca Allaha hәmd sәnalar olsun.

## Hәdisin faydalarından:

1. Namaz qılan kimsә rükudan qalxdığı zaman söylәmәsi müstәhәb olan duanın bәyanı.
2. Rükudan qalxdıqdan sonra hәr bir әza öz yerini tutana qәdәr tәlәsmәdәn gözlәmәyin vacib olması. Çünki rükudan tam qalxıb hәr bir әza öz yerini tutana qәdәr gözlәmәdәn bu zikrin söylәnmәsi mümkün deyildir.
3. Bu zikirin fәrz vә ya nafilә namazı olmasından aslı olmayaraq bütün namazlarda söylәnilmәsi buyurulmuşdur.

(65101)

(148) – عن حُذَيْفَةَ رضي الله عنه: أَنَّ النَّبِيَّ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ كَانَ يَقُولُ بَيْنَ السَّجْدَتَيْنِ: «رَبِّ اغْفِرْ لِي، رَبِّ اغْفِرْ لِي». [صحيح] - [رواه أبو داود والنسائي وابن ماجه وأحمد]

(148) – Huzeyfәdan (Allah ondan razı olsun) rәvayәt edildiyinә görә: Peyğәmbәr (Allahın salavatı vә salamı onun üzәrinә olsun) iki sәcdә arasında belә deyәrdi: «Rabbi-ğfir li, Rabbi-ğfir li». [Sәhih] - [Әbu Davud, Әn-Nәsai, İbnu Mәcә vә Әhmәd rәvayәt etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) iki səcdə arasında oturduğu zaman «Rabbi-ğfir li, Rabbi-ğfir li» diyərək bunu təkrar edərdi.

"Rabbi-ğfir li" zikrinin mənası: Qulun, Rəbbindən günahlarını silməsi və eyiblərini örtməsini istəməsidir.

**Hədisin faydalarından:**

1. Bu duanın fərz və ya nafilə namazı olmasından aslı olmayaraq bütün namazlarda iki səcdə arasında söylənilməsinin məşru olması.
2. "Rabbi-ğfir li" zikrini təkrar etmək müstəhəbdir. Bir dəfə söyləmək isə vacibdir.

(65104)

(149) – عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا: كَانَ النَّبِيُّ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ بَيْنَ السَّجْدَتَيْنِ: «اللَّهُمَّ اغْفِرْ لِي، وَارْحَمْنِي، وَعَافِنِي، وَاهْدِنِي، وَارْزُقْنِي». [حسن بشواهده] - [رواه أبو داود والترمذي وابن ماجه وأحمد]

(149) – İbn Abbasdan (Allah onların hər ikisindən razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) iki səcdə arasında deyərdi: "Allahummə-ğfirli, varhəmni, və afini, vəhdini vərzuqni" - (Allahım məni bağışla, mənə rəhm et və əfv et, məni doğru yola yönəlt və mənə ruzi yetir). [Şahidləriylə həsən olan] - [Əbu Davud, Ət-Tirmizi, İbn Məcə, Əhməd rəvayət ediblər]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) namazda iki səcdə arasında müsəlmanın ən çox ehtiyacı olduğu bu beş duanı edərdi. Bu dualar dünya və axirət xeyrini, bağışlanma diləyini, günahların yad nəzərlərdən gizlədilməsini və onların əfvini, son dərəcə bol rəhməti, şübhələrdən, nəfsani istəklərdən, xəstəliklərdən, dərdlərdən salamat olmağı, Allahdan haqq üzərində hidayət diləyini və onun üzərində sabit olmağı, imandan, elmdən, saleh əməllərdən, təmiz halal qazancdan ruzi istəyini özündə birləşdirir.

**Hədisin faydalarından:**

1. İki səcdə arasndakı oturuşda bu duanı etmək namazın qaydalarındandır.
2. Dünya və axirət xeyirlərini əhatə etdiyinə görə bu dualar fəzilətlidir.

(10930)

(150) – عَنْ حِطَّانَ بْنِ عَبْدِ اللهِ الرَّقَاشِيِّ قَالَ: صَلَّيْتُ مَعَ أَبِي مُوسَى الْأَشْعَرِيِّ صَلَاةً، فَلَمَّا كَانَ عِنْدَ الْقَعْدَةِ قَالَ رَجُلٌ مِنَ الْقَوْمِ: أُقِرَّتِ الصَّلَاةُ بِالْبِرِّ وَالزَّكَاةِ، قَالَ: فَلَمَّا قَضَى أَبُو مُوسَى الصَّلَاةَ وَسَلَّمَ انْصَرَفَ فَقَالَ: أَيُّكُمُ الْقَائِلُ كَلِمَةَ كَذَا وَكَذَا؟ قَالَ: فَأَرَمَّ الْقَوْمُ، ثُمَّ قَالَ: أَيُّكُمُ الْقَائِلُ كَلِمَةَ كَذَا وَكَذَا؟ فَأَرَمَّ الْقَوْمُ، فَقَالَ: لَعَلَّكَ يَا حِطَّانُ قُلْتَهَا؟ قَالَ: مَا قُلْتُهَا، وَلَقَدْ رَهِبْتُ أَنْ تَبْكَعَنِي بِهَا، فَقَالَ رَجُلٌ مِنَ الْقَوْمِ: أَنَا قُلْتُهَا، وَلَمْ أُرِدْ بِهَا إِلَّا الْخَيْرَ، فَقَالَ أَبُو مُوسَى: أَمَا تَعْلَمُونَ كَيْفَ تَقُولُونَ فِي صَلَاتِكُمْ؟ إِنَّ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ خَطَبَنَا فَبَيَّنَ لَنَا سُنَّتَنَا وَعَلَّمَنَا صَلَاتَنَا، فَقَالَ: «إِذَا صَلَّيْتُمْ

فَأَقِيمُوا صُفُوفَكُمْ، ثُمَّ لِيَؤُمَّكُمْ أَحَدُكُمْ فَإِذَا كَبَّرَ فَكَبِّرُوا، وَإِذْ قَالَ: {غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلا الضَّالِّينَ} [الفاتحة: 7]، فَقُولُوا: آمِينَ، يُجِبْكُمُ اللهُ، فَإِذَا كَبَّرَ وَرَكَعَ فَكَبِّرُوا وَارْكَعُوا، فَإِنَّ الْإِمَامَ يَرْكَعُ قَبْلَكُمْ، وَيَرْفَعُ قَبْلَكُمْ»، فَقَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «فَتِلْكَ بِتِلْكَ، وَإِذَا قَالَ: سَمِعَ اللهُ لِمَنْ حَمِدَهُ، فَقُولُوا: اللَّهُمَّ رَبَّنَا لَكَ الْحَمْدُ، يَسْمَعِ اللهُ لَكُمْ، فَإِنَّ اللهَ تَبَارَكَ وَتَعَالَى قَالَ عَلَى لِسَانِ نَبِيِّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: سَمِعَ اللهُ لِمَنْ حَمِدَهُ، وَإِذَا كَبَّرَ وَسَجَدَ فَكَبِّرُوا وَاسْجُدُوا، فَإِنَّ الْإِمَامَ يَسْجُدُ قَبْلَكُمْ وَيَرْفَعُ قَبْلَكُمْ»، فَقَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «فَتِلْكَ بِتِلْكَ، وَإِذَا كَانَ عِنْدَ الْقَعْدَةِ فَلْيَكُنْ مِنْ أَوَّلِ قَوْلِ أَحَدِكُمْ: التَّحِيَّاتُ الطَّيِّبَاتُ الصَّلَوَاتُ لِلهِ، السَّلَامُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللهِ وَبَرَكَاتُهُ، السَّلَامُ عَلَيْنَا وَعَلَى عِبَادِ اللهِ الصَّالِحِينَ، أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللهُ وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ». [صحيح] - [رواه مسلم]

(150) – Hittan bin Abdullah ər-Rəqqaşi belə demişdir: Əbu Musa əl-Əşari (Allah ondan razı olsun) ilə birlikdə namaz qıldım. Oturuş əsnasında camaatdan bir kişi: “Namaz, yaxşılıq və zəkatla birlikdə iqrar olundu” dedi. Əbu Musa namazı qılıb qurtardıqdan sonra: “Sizdən bu sözü söyləyən kim idi?” diyə soruşdu. Camaat susdu. O yenədə: “Sizdən bu sözü söyləyən kim idi?” diyə təkrar soruşdu. Camaat yenədə susdu. O da: “Ola bilsin o sözü söyləyən sənsən ey Hittan!” dedi. Hittan da: “Mən söyləmədim" dedi. Hittan deyir ki: “Bundan dolayı məni danlayacağından qorxdum”. Bu zaman camaatdan bir kişi: “Onu mən söylədim, ancaq bunu söylərkən niyyətim xeyirdən başqa bir şey deyildir” dedi. Əbu Musa da: “Məgər

siz namazınızda nə söyləyəcəyinizi bilmirsinizmi? dedi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə bir xütbə verdi və o xütbədə bizə sünnəmizi bəyan etdi və namazımızı bizə öyrətdi və belə buyurdu: «Namaz qıldığınız zaman səflərinizi düz tutun sonra sizdən biri sizə imam olsun. İmam təkbir etdiyi zaman siz də təkbir edin» "Ğayril-məğdubi aleyhim valad-dallin" (Bizi doğru yola yönəlt! Nemət bəxş etdiyin kimsələrin yoluna, qəzəbə uğramışların və azmışların (yoluna) yox!) [Fatihə surəsi: 7] dediyi zaman siz: "Əmin" deyin ki, Allah duanıza cavab versin. İmam təkbir edib, rükuya getdiyi zaman siz də təkbir edin və rükuya gedin. Çünki imam sizdən öncə rüku edər və sizdən öncə rükudan qalxar». Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: «O, bu şəkildədir. İmam: "Səmi Allahu limən həmidəh" dediyi zaman: "Allahummə Rabbənə va ləkə-l-həmd" deyin. Allah sizi eşidər. Uca Allah Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) dili ilə "Səmiallahu limən həmidəh" (Allah Ona həmd edəni eşitdi!)» buyurmuşdur. İmam təkbir edib, səcdəyə getdiyi zaman siz də təkbir edib, səcdəyə gedin. Çünki imam sizdən öncə səcdəyə gedir və sizdən öncə səcdədən qalxır». Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: «O da, bu şəkildədir». İmam oturduğu zaman sizin ilk sözünüz bu olsun: «Ət-Təhiyyatu, ət-Tayyibətu, əs-Saləvatu lilləhi, əs-Sələmu aleykə əyyuhən-nəbiyyu va rahmətullahi va bərakətuhu, əs-Sələmu aleynə va alə ibədil-ləhis-salihin. Əşhədu əllə iləhə

illəllahu va əşhədu ənnə Muhammədən abduhu va rasuluhu». [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Səhabələrdən olan Əbu Musa əl-Əşari (Allah ondan razı olsun) bir namaz qıldı. Təşəhhüdə oturduğları zaman arxasındakı camaatdan bir kişi: “Quranda, namaz, yaxşılıq və zəkatla birlikdə zikir edildi" dedi. Əbu Musa (Allah ondan razı olsun) namazı qılıb qutardıqdan sonra camaata tərəf döndü və kimin: “Quranda, namaz, yaxşılıq və zəkatla birlikdə zikir edildi" dediyini soruşdu. Camaat susdu və kimsə ona cavab vermədi. Bunun üzərinə o: “Bu sözü hansınız söylədi?” diyə təkrarən soruşdu. Camaat yenə də susub kimsə cavab vermədikdə, Əbu Musa (Allah ondan razı olsun): “Ola bilsin bunu söyləyən sənsən ey Hittan!” dedi. Əbu Musa (Allah ondan razı olsun) Hittanın cəsarəti, özünə yaxın olması və aralarındakı qohumluq bağının olmasından dolayı - onu bu şəkildə itham etməsi ilə sözün həqiqi sahibinin ortaya çıxıb etiraf etməsini istəmişdir, və Hittana qarşı bu söz - ona heç bir narahatlıq yaratmayacaq. Hittan da: “Mən söyləmədim" deyərək bunu inkar etdi. Hittan deyir ki: "Əbu Musanın bundan dolayı məni danlayacağından qorxdum". Bu zaman camaatdan bir kişi: “Onu mən söylədim, ancaq bunu söylərkən niyyətim xeyirdən başqa bir şey deyildir” dedi. Əbu Musa (Allah ondan razı olsun) da ona öyrətmək məqsədi ilə: “Siz namazınızda nə söyləyəcəyinizi bilmirsinizmi?" diyərək kişiyə təəccüb etdi. Sonra Əbu Musa, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) bir gün onlara bir

xütbə verdiyini, onlara şəriətlərini və namazlarını öyrətdiyini xəbər verərək Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) onlara belə buyurduğunu dedi:

Namaz qıldığınız zaman səflərinizi düz tutun sonra sizdən biri sizə imam olsun. İmam, Təkbiratul-ehram etdiyi zaman siz də onun kimi təkbiratul-ehram edin. Fatihə surəsini oxuyub: «Ğayril-məğdubi aleyhim valad-dallin” (Bizi doğru yola yönəlt! Nemət bəxş etdiyin kimsələrin yoluna, qəzəbə uğramışların və azmışların (yoluna) yox!) [Fatihə surəsi: 7] ayəsinə çatdığı zaman: “Əmin” deyin. Əgər belə desəniz, Uca Allah duanıza cavab verər. İmam təkbir edib, rükuya getdiyi zaman sizdə təkbir edib rükuya gedin. İmam sizdən öncə rüku edir və sizdən öncə rükudan qalxır. Elə isə onu qabaqlamayın. Çünki rükuya gedərkən imamın sizdən öncə rükuya getməsi, rükudan qalxarkən siz gecikdiyiniz zamanı əvəz edər. Rükuya gedərkən azca gecikməniz, qalxarkən gec qalxmanızı əvəz edər. Beləcə də sizin rüku miqdarınız ilə imamın rüku miqdarı bərabər olur.  İmam: "Səmi Allahu limən həmidəh” dediyi zaman: “Siz: Allahummə Rabbənə va ləkəl-həmd” deyin. Camaat bunu söyləyərsə Allah onların duasını və sözünü eşidər. Uca Allah, Peyğəmbərinin (Allahın salavatı və salamı onun üzərinə olsun) dili ilə Allahın Ona həmd edən qulunu eşitdiyini xəbər vermişdir. Sonra imam təkbir edib səcdəyə getdiyi zaman camaat da təkbir edib səcdəyə gedir. İmam camaatdan öncə səcdəyə gedir və səcdədən qalxır. Beləcə də camaatın səcdə miqdarı ilə imamın səcdə miqdarı

bərabər olur. Təşəhhüd duasını oxumaq üçün oturduğu zaman namaz qılan kimsə ilk olaraq: “Ət-Təhiyyatu, ət-Tayyibətu, əs-Saləvatu lillahi" Mülk, əbədilik və əzəmət Uca Allahın haqqıdır. Eyni şəkildə beş vaxt namaz da Uca Allah üçündür. "əs-Sələmu aleykə əyyuhən-nəbiyyu va rahmətullahi va bərakətuhu, əs-Sələmu aleynə va alə ibədil-ləhis-salihin". Hər növ ayıb, naqislik, əksiklikdən və fitnə-fəsaddan salamat olmaq üçün Uca Allaha dua edin. Birinci Peyğəmbərimiz MuhamməDə (Allahın salavatı və salamı onun üzərinə olsun) sonra da özümüzə daha sonra isə Uca Allahın və qullarının haqqını yerinə yetirən saleh qullarına salam veririk. Sonra da Uca Allahdan başqa ibadətə haqqı olan haqq məbud olmadığına və Muhammədin (Allahın salavatı və salamı onun üzərinə olsun) Allahın qulu və rəsulu olduğuna şahidlik edirik.

## Hədisin faydalarından:

1. Hədisdə Təşəhhüdün növlərindən bir növü bəyan edilmişdir.
2. Namazdakı söz və hərəkətlər Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) sabit olduğu kimi olmalıdır. Hər hansı bir kimsənin namaz içində sünnətdə sabit olmayan söz və ya hərəkətlər uydurması qəbul edilməzdir.
3. Namazda imamı qabaqlamaq və ya imamdan geridə qalmaq icazəli deyildir. Əksinə, camaatın, imamın hərəkətlərinin arxasınca hərəkət etməsi lazımdır.

4. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) dini təbliğ etməyə və dinin əhkamlarını ümmətinə öyrətməyə verdiyi önəmin zikr edilməsi.
5. İmam, namazda axrasında duran camaat üçün örnəkdir. Namaz qılarkən imamdan öncə keçmək, onunla birlikdə və ya ondan geridə qalarak hərəkət etmək caiz deyildir. Əksinə, camaatın hərəkətləri, imamın etmək istədiyi hərəkətə başladığına əmin olduqdan sonra həmən arxasınca o hərəkətin edilməsi gərəkdir. Sünnə, namazda ona tabe olmaqdır.
6. Namazda səflərın düz tutulması buyurulmuşdur.

(65097)

(151) – عَنِ ابْنَ مَسْعُودٍ رضي الله عنه قَالَ: عَلَّمَنِي رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، وَكَفِّي بَيْنَ كَفَّيْهِ، التَّشَهُّدَ، كَمَا يُعَلِّمُنِي السُّورَةَ مِنَ الْقُرْآنِ: «التَّحِيَّاتُ لِلَّهِ، وَالصَّلَوَاتُ وَالطَّيِّبَاتُ، السَّلَامُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ، السَّلَامُ عَلَيْنَا وَعَلَى عِبَادِ اللَّهِ الصَّالِحِينَ، أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ، وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ».

وفي لفظ لهما: «إِنَّ اللهَ هُوَ السَّلَامُ، فَإِذَا قَعَدَ أَحَدُكُمْ فِي الصَّلَاةِ فَلْيَقُلْ: التَّحِيَّاتُ لِلَّهِ وَالصَّلَوَاتُ وَالطَّيِّبَاتُ السَّلَامُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللهِ وَبَرَكَاتُهُ، السَّلَامُ عَلَيْنَا وَعَلَى عِبَادِ اللهِ الصَّالِحِينَ، فَإِذَا قَالَهَا أَصَابَتْ كُلَّ عَبْدٍ لِلَّهِ صَالِحٍ فِي السَّمَاءِ وَالْأَرْضِ، أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللهُ، وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ، ثُمَّ يَتَخَيَّرُ مِنَ الْمَسْأَلَةِ مَا شَاءَ». [صحيح] - [متفق عليه]

(151) – İbn Məsudun (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) mənə Qurandan surə öyrətdiyi kimi, əlim onun əlləri arasında olduğu halda mənə namazda deyilən təşəhhüdü öyrətdi." "Əttəhiyyətu lilləhi vas-salavatu vat-tayyibətu. Əssələmu aleykə əyyuhən Nəbiyyu və rahmətullahi və bərakətuh. Əssələmu aleynə və alə ibədilləhissalihin, əşhədu əllə iləhə illaAllah və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluhu".

Buxari və Muslimin rəvayət etdiyi başqa ləfzdə: "Həqiqətən Allah Salamdır, sizlərdən biriniz namazda oturanda desin: "Ət-təhiyyətu lilləhi vas-salavatu, vat-tayyibətu. Əssələmu aleykə eyyuhən-nəbiyyu və rahmətullahi va barakatuhu. Əssələmu aleynə va alə ibədilləhis-salihin". Bunu dedikdə, yer üzərində və səmada olan hər saleh qul (bundan) faydalanır. "Əşhədu əllə iləhə illaAllah və əşhədu ənnə Muhəmmədən abduhu və rəsuluhu". Sonra istədiyi duanı edə bilər". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ibn Məsudun (Allah ondan razı olsun) diqqətini və fikrini cəm etmək üçün onun əllərindən tutaraq Qurandan surə öyrətdiyi kimi namazda deyilən təşəhhüdü öyrədir. Bu da Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) təşəhhüdə söz və məna baxımından əhəmiyyət verməsini göstərir. Və dedi: "Əttəhiyyətu

lilləhi": Bunlar - Allahın əzəmətinə dəlalət edən söz və fellərdir, bütün bunlar izzət və cəlal sahibi Allaha aiddir. "Əs-salavat": Bu - məlum olan və Uca Allah üçün qılınan vacib və nafilə namazlardır. "Ət-tayyibət": Bunlar kamilliyə dəlalət edən gözəl sözlər, fellər, vəsflərdir. Hamısı uca Allaha aiddir. "Əssələmu aleykə əyyuhən-nəbiyyu va rahmətullahi va barakatuhu": Ona hər bəladan, pislikdən salamatlıq və onun üçün hər xeyirin artıb çoxalması üçün (Allaha) dua etmək". Əssələmu aleynə və alə ibədilləhis-salihin". Səmada və yerdə hər namaz qılan və hər saleh qula salamatlıq duası. "Əşhədu əllə iləhə illallah": Yəni qəti olaraq təsdiq edirəm ki, Allahdan başqa haqq məbud yoxdur. "Və ənnə Muhəmmədən abduhu və rəsuluhu": Muhəmmədin (Allahın salavatı və salamı onun üzərinə olsun) Allahın qulu və son rəsulu olduğunu təsdiq edirəm.

Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) namaz qılanı dualardan istədiyini seçməsinə təşviq edir.

## Hədisin faydalarından:

1. Bu təşəahhüdün deyilən yeri, hər namazda sonununcu səcdədən sonra oturarkən, həmçinin üç və ya dörd rükətli namazlarda ikinci rükətdən sonradır.
2. Təşəhhüddə təhiyyətin oxunmasının vacibliyi və Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə çatan şəriətlə sübuta yetirilmiş istənilən təşəhhüd kəlimələrini oxumaq olar.
3. Namazda günah sayılan şeylərdən başqa, istənilən duanı etmək olar.

4. Duada özündən başlamağın müstəhəbliyi.

(3096)

(152) – عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَدْعُو وَيَقُولُ: «اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ عَذَابِ القَبْرِ، وَمِنْ عَذَابِ النَّارِ، وَمِنْ فِتْنَةِ المَحْيَا وَالمَمَاتِ، وَمِنْ فِتْنَةِ المَسِيحِ الدَّجَّالِ».

وفِي لَفْظٍ لِمُسْلِمٍ: «إِذَا فَرَغَ أَحَدُكُمْ مِنَ التَّشَهُّدِ الْآخِرِ، فَلْيَتَعَوَّذْ بِاللهِ مِنْ أَرْبَعٍ: مِنْ عَذَابِ جَهَنَّمَ، وَمِنْ عَذَابِ الْقَبْرِ، وَمِنْ فِتْنَةِ الْمَحْيَا وَالْمَمَاتِ، وَمِنْ شَرِّ الْمَسِيحِ الدَّجَّالِ». [صحيح] - [متفق عليه]

(152) – Əbu Hureyradan (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dua edərdi: «Allahım qəbr əzabından, cəhənnəm əzabından, həyatın və ölümün fitnəsindən, məsih dəccəlin fitnəsindən Sənə sığınıram".

Muslimdə keçən ifadə isə belədir: "Sizlərdən biriniz sonuncu təşəhhüdü bitirdikdə dörd şeydən Allaha sığınsın: Cəhənnəm əzabından, qəbr əzabından, həyat və ölümün fitnəsindən və Məsih Əd-Dəccəlin şərindən". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) namazın sonunda təşəhhüddən sonra, salamdan əvvəl dörd şeydən Allaha sığınardı və onlardan Allaha sığınmağı bizə əmr etmişdir, bunlar:

Birincisi: Qəbr əzabından.

İkincisi: Cəhənnəm əzabından - bu isə Qiyamət günü olacaq.

Üçüncüsü: Həyatın fitnəsindən - dünyanın haram şəhvətlərindən, onun azdıran şübhələrindən və ölümün fitnəsindən yəni ölüm anı, İslamdan və ya sünnədən uzaqlaşmaqdan və qəbir fitnəsindən - bu da iki mələyin sorğu sualıdır.

Dördüncüsü: Axır zamanda zühur edəcək Dəccalın fitnəsindən, çünki Allah bəndələrini bununla imtahan edəcək. Böyük fitnəsinə və azğınlığına görə onu xüsusilə qeyd etmişdir.

**Hədisin faydalarından:**

1. Bu sığınma, dünya və axirət şərlərini ehtiva etdiyi üçün duaların ən mühümüdür və böyük mənaları əhatə edir.
2. Qəbr əzabının sübutu və onun haqq olması.
3. Fitnələrin təhlükəli olması və onlardan qurtulmaq üçün Allaha sığınmağın və dua etməyin əhəmiyyəti.
4. Dəccalın çıxacağının isbatı və fitnəsinin təhlükəli olması.
5. Bu duanı sonuncu təşəhhüdün ardınca oxumağın müstəhəbliyi.
6. Saleh əməldən sonra dua etməyin müstəhəb olması.

(3103)

(153) – عَنْ مَعْدَانَ بْنِ أَبِي طَلْحَةَ الْيَعْمَرِيِّ قَالَ: لَقِيتُ ثَوْبَانَ مَوْلَى رَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، فَقُلْتُ: أَخْبِرْنِي بِعَمَلٍ أَعْمَلُهُ يُدْخِلُنِي اللهُ بِهِ الْجَنَّةَ؟ أَوْ قَالَ قُلْتُ: بِأَحَبِّ الْأَعْمَالِ إِلَى اللهِ، فَسَكَتَ. ثُمَّ سَأَلْتُهُ فَسَكَتَ. ثُمَّ سَأَلْتُهُ الثَّالِثَةَ فَقَالَ: سَأَلْتُ عَنْ ذَلِكَ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، فَقَالَ: «عَلَيْكَ بِكَثْرَةِ السُّجُودِ لِلَّهِ، فَإِنَّكَ لَا تَسْجُدُ لِلَّهِ سَجْدَةً، إِلَّا رَفَعَكَ اللهُ بِهَا دَرَجَةً، وَحَطَّ عَنْكَ بِهَا خَطِيئَةً» قَالَ مَعْدَانُ: ثُمَّ لَقِيتُ أَبَا الدَّرْدَاءِ فَسَأَلْتُهُ فَقَالَ لِي: مِثْلَ مَا قَالَ لِي: ثَوْبَانُ. [صحيح] - [رواه مسلم]

(153) – Mədən ibn Əbi Talha Əl-Yəməridən belə söylədiyi rəvayət edilir: Mən Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) xidmətçisi Səvbanla görüşdüm və dedim: “Mənə, edəcəyim elə bir əməl haqqında xəbər ver ki, Allah onunla məni Cənnətə daxil etsin?”. Yaxud dedi: Dedim: “Mənə əməllərin Allaha ən sevimlisini xəbər ver”. O, isə susdu. Sonra ondan yenə soruşdum və o, susdu. Sonra üçüncü dəfə ondan souşdum və dedi: Mən bu haqda Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşdum, o, isə belə dedi: “Allaha çoxlu səcdə et, çünki Allah üçün etdiyin elə bir səcdə yoxdur ki, Allah ona görə sənin dərəcəni yüksəltməsin və günahını bağışlamasın”. Mədən dedi: Sonra Əbu Dərda ilə görüşdüm və ondan da bu haqda soruşdum, o, da mənə Səvbanın dediyinin eynisini dedi. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Cənnətə girməyə səbəb olan və ya Allaha ən sevimli olan əməl haqqında soruşuldu .

O, (Allahın salavatı və salamı onun üzərinə olsun) sual verənə dedi: Namaz qılmaqla çoxlu səcdə et, çünki Allaha etdiyin hər bir səcdəyə görə, Allah səni bir dərəcə yüksəldər və bir günahını bağışlayar.

**Hədisin faydalarından:**

1. Müsəlmanı, içində səcdə olduğu üçün fərz və nafilə namazlarına həris olmağa çağırmaq.
2. Səhabələrin fiqhinin bəyanı və cənnətin - Allahın rəhmətindən sonra - yalnız əməllə əldə oluna biləcəyini bilmələri.
3. Namazda səcdə etmək, qulun dərəcəsini yüksəltmək və günahlarının bağışlanması üçün ən böyük səbəblərdəndir.

(3732)

(154) – عن عَائِشَةَ رضيَ الله عنها قالت: إِنِّي سمعْتُ رسولَ الله صلى الله عليه وسلم يقول: «لَا صَلَاةَ بِحَضْرَةِ الطَّعَامِ، وَلَا هُوَ يُدَافِعُهُ الْأَخْبَثَانِ». [صحيح] - [رواه مسلم]

(154) – Aişədən (Allah ondan razı olsun) rəvayət edildiyinə o görə belə demişdir: Mən Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Yemək hazır olarkən və bir də böyük və kiçik ayaq yolu ehtiyacı olarkən namaz qılınmaz". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) yemək hazır olarkən, namaz qılan insanın iştahını çəkib, fikri yeməkdə qalacağı hallarda namaz qılmasını qadağan etmişdir.

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) eyni şəkildə böyük və kiçik ayaq yoluna olan ehtiyac insanı narahat etdiyi durumlarda da namaz qılmağı qadağan etmişdir.

**Hədisin faydalarından:**

1. İnsan, namaza başlamazdan əvvəl onu namazda məşğul edəcək hər bir şeydən uzaq durmalıdır.

(3088)

(155) – عن عُثْمَانَ بْنَ أَبِي الْعَاصِ رضي الله عنه: أنه أَتَى النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ فَقَالَ: يَا رَسُولَ اللهِ، إِنَّ الشَّيْطَانَ قَدْ حَالَ بَيْنِي وَبَيْنَ صَلَاتِي وَقِرَاءَتِي يَلْبِسُهَا عَلَيَّ، فَقَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «ذَاكَ شَيْطَانٌ يُقَالُ لَهُ خِنْزِبٌ، فَإِذَا أَحْسَسْتَهُ فَتَعَوَّذْ بِاللهِ مِنْهُ، وَاتْفُلْ عَلَى يَسَارِكَ ثَلَاثًا»، قَالَ: فَفَعَلْتُ ذَلِكَ فَأَذْهَبَهُ اللهُ عَنِّي.

[صحيح] - [رواه مسلم]

(155) – Osman bin Əbil-Asdan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə: o, Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gələrək: "Ey Allahın Rəsulu şeytan mənimlə namazım və qiraətim arasına girdi, namazımı və qiraətimi qarışdırdı" dedi. Bunun üzərinə Allah Rəsulu (Allahın salavatı və salamı

onun üzərinə olsun) ona belə buyurdu: "Bu Xinzəb deyilən şeytandır. Onu hiss etdiyin an ondan Allaha sığın və sol tərəfinə üç dəfə yavaşca tüpür". Osman dedi ki: mən elə etdim, Allah da onu məndən uzaqlaşdırdı. [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Osman bin Əbil-As (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gələrək belə dedi: "Ey Allahın Rəsulu, şeytan mənimlə namazım və qiraətim arasına girdi, namazı xuşu ilə qılmağıma mane oldu, qiraətimi qarışdırmağa və namazda şəkk etməyimə səbəb oldu - dedi. Bunun eşidən Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona: «Bu Xinzəb deyilən Şeytandır. Onu hiss etdiyin zaman Allaha üz tut, ondan Allaha sığın və xəfif bir şəkildə üç dəfə sol tərəfinə tüpür». Osman (Allah ondan razı olsun): Mən, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) mənə əmr etdiyi şeyi etdim. Allah da onu məndən uzaqlaşdırdı - dedi.

## Hədisin faydalarından:

1. Namazda xuşu və qəlbin hazır olmasının önəmi, şeytanın namaz qılan kimsənin fikrini yayındırıb, namazında şübhəyə düşürməyə çalışdığı ifadə edilmişdir.
2. Namazda vəsvəsə gəldiyi zaman sol tərəfə üç dəfə tüpürərək şeytandan Allaha sığınmağın müstəhəb olması.

3. Hədisdə, səhabələr (Allah onlardan razı olsun) başlarına gələn problemli məsələləri Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) anlatdıqları zaman onlara həmin məsələnin çözümünü tapması ifadə edilmişdir.
4. Səhabələrin qəlblərinin diri və onların bütün dərd-sərlərinin axirəti qazanmaq olması.

(65105)

(156) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ: «أَسْوَأُ النَّاسِ سَرَقَةً الَّذِي يَسْرِقُ صَلَاتَهُ» قَالَ: وَكَيْفَ يَسْرِقُ صَلَاتَهُ؟ قال: «لَا يُتِمُّ رُكُوعَهَا، وَلَا سُجُودَهَا». [صحيح] - [رواه ابن حبان]

(156) – Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: "Oğruların ən pisi, (tələsik namaz qılıb) namazından oğruyandır". Ondan: Kişi namazından necə oğruya bilər? deyə soruşulunca, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun): "Namazın rükusunu və səcdəsini tam olaraq etməz" deyərək cavab verdi. [Səhih] - [İbnu Hibbən rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) oğruluq edənlərin ən pisinin, namazından oğruluq edən kimsənin olduğunu bildirmişdir. Çünki başqasının malını oğrayan kimsə bəlkə bu dünyada o maldan özünə fayda verə bilər. Amma namazından oğrayan kimsə isə

özünün namazdan ona çatan savab və əcrdən olan haqqını oğurlamış olur. Səhabələr: "Ey Allahın elçisi! Kişi namazından necə oğraya bilər axı?" diyə soruşunca, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun): "Kişi namazın rükusunu və səcdəsini tələsik etdiyi üçün namazın rükusunu və səcdəsini tam kamil bir şəkildə əda etməz" deyərək cavab verdi.

**Hədisin faydalarından:**

1. Namazın ərkanlarnı xuşu ilə və tələsmədən, rahat bir halda qılınmasının və namazı ən gözəl bir şəkildə əda edilməsinin önəmi.
2. Rüku və səcdəni tam bir şəkildə əda etməyən kimsənin oğru olaraq vəsf edilməsi, həmçinin bu əməlin haram olduğuna diqqət çəkilməsi.
3. Namazda rüku və səcdənin tam bir şəkildə əda etməyin, rüku və səcdə edərkən hər bir əza öz yerini tutana qədər tələsmədən gözləməyin vacib olması.

(65100)

(157) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «أَمَا يَخْشَى أَحَدُكُمْ - أَوْ: لاَ يَخْشَى أَحَدُكُمْ - إِذَا رَفَعَ رَأْسَهُ قَبْلَ الإِمَامِ، أَنْ يَجْعَلَ اللَّهُ رَأْسَهُ رَأْسَ حِمَارٍ، أَوْ يَجْعَلَ اللَّهُ صُورَتَهُ صُورَةَ حِمَارٍ». [صحيح] - [متفق عليه]

(157) – Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Sizdən kimsə qorxmurmu ki, başını imamdan öncə qaldırmaqla Allah

onun başını uzunqulaq başı edər, yada ki, Allah onun xarici görkəmini uzunqulaq görkəmində edər". [Səhih] - [Müttüfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) imamdan əvvəl başını qaldıran kəsə şiddətli xəbərdarlıq edir ki, Allah onun başını uzunqulaq başı edər, yaxud onun xarici görünüşünü uzunqulaq şəklinə çevirər.

**Hədisin faydalarından:**

1. İmama tabe olan şəxsin imamla birlikdə dörd halı vardır: onlardan üçü qadağandır, bunlar: İmamdan önə keçmək, onunla eyni anda hərəkət etmək və onun hərəkətlərindən gecikib arxada qalmaq. Dördüncü: İmamın arxasında qılan şəxsin imama tabe olaraq ardıcıl hərəkət etməsi isə buyurulmuş haldır.
2. İmamın arxasında namaz qılan şəxsin namazda imama tabe olmasının vacibliyi.
3. İmamdan əvvəl başını qaldıran adamın görkəminin uzunqulağa çevrilmək təhlükəsi mümkündür və bu, Allahın onu çirkin görünüşə salmasıdır.

(3086)

(158) – عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «إِذَا شَكَّ أَحَدُكُمْ فِي صَلَاتِهِ، فَلَمْ يَدْرِ كَمْ صَلَّى ثَلَاثًا أَمْ أَرْبَعًا، فَلْيَطْرَحِ الشَّكَّ، وَلْيَبْنِ عَلَى مَا اسْتَيْقَنَ، ثُمَّ يَسْجُدُ سَجْدَتَيْنِ قَبْلَ أَنْ يُسَلِّمَ، فَإِنْ كَانَ صَلَّى خَمْسًا

شَفَعْنَ لَهُ صَلَاتَهُ، وَإِنْ كَانَ صَلَّى إِتْمَامًا لِأَرْبَعٍ كَانَتَا تَرْغِيمًا لِلشَّيْطَانِ». [صحيح] - [رواه مسلم]

(158) – Əbu Səid Əl-Xudridən (Allah ondan razı olsun) Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: "Əgər sizdən biriniz öz namazında şəkk edərsə və neçə rükət - üç yoxsa dörd rükət qıldığını bilməzsə, şübhəni kənara atsın və əmin olduğu şeyə əsaslansın, sonra, salam verməzdən əvvəl iki səcdə etsin, əgər beş rükət namaz qılıbsa, namazı (səhv səcdəsi ilə) cütə tamamlanar və əgər dörd rükət qılaraq tamamlamışdısa, bu iki səcdə şeytanı zəlil edər". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etmişdir ki, əgər namaz qılan şəxs namazında tərəddüd edərsə və neçə rükət namaz qıldığını bilməzsə, üç yoxsa dörd qılıb deyə çəkk edərsə, şübhəli olan artıq rükəti uzaq tutsun və ona əsaslanmasın; üç rükət yəqin olandır və ona görə dördüncü (şübhəli olan) rükəti qılsın, sonra salam verməzdən əvvəl iki səcdə etsin.

Əgər qıldığı namaz həqiqətdə dörd rükət idisə; bir rükət əlavə edilməklə beş rükət oldu və iki səhv səcdəsi bir rükəti əvəzlədi və (beləliklə ümumi) say cüt oldu, tək olmadı. Əgər bu əlavə bir rükətlə dörd rükət qılmışsa, o zaman heç bir əlavə və nöqsan olmadan üzərinə vacib olanı artıq yerinə yetirmişdir.

İki səhv səcdəsi şeytanı zəlil etmək, ona qalib gəlmək və onu istəyindən uzaqlaşdıraraq qovmaqdır. Çünki o, namaz qılanı namazında çaşdırmış, onu pozmağa çalışmışdır. Adəm övladının namazı, Allahın səcdə etmək əmrinə tabe olmaqla kamilləşmişdir. Hansı ki, İblis Adəmə səcdə etməyərək Allaha itaət etməkdən imtina etdiyi zaman artıq Allaha asi olmuşdur.

## Hədisin faydalarından:

1. Əgər namaz qılan şəxs öz namazında şəkk edərsə və iki haldan biri onun üçün daha çox ehtimal daşımarsa, şübhəni tərk edib yəqin olan ilə əməl etməlidir ki, bu da ən az olanıdır. Beləliklə o, namazını tamamlamalı, salamdan öncə səhv səcdəsi etməli, sonra isə salam verməlidir.
2. Bu iki səcdə, namazı bərpa etmək üçün bir yol və şeytanı alçaldılmış və zəlil vəziyyətdə, istədiyindən uzaqlaşdıraraq rədd etməkdir.
3. Hədisdəki şəkk, (iki hal arasında) heç bir üstünlük olmadan edilən tərəddüddür, lakin, nə zaman böyük güman yaranarsa və (yaxud hallardan biri) üstünlük təşkil edərsə, onunla əməl edilər.
4. Şəriətin əmrinə tabe olaraq vəsvəsə ilə mübarizə aparmağa və onu dəf etməyə təşviq etmək.

(11231)

(159) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه أَنَّ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «خَيْرُ يَوْمٍ طَلَعَتْ عَلَيْهِ الشَّمْسُ يَوْمُ الْجُمُعَةِ، فِيهِ خُلِقَ آدَمُ، وَفِيهِ أُدْخِلَ الْجَنَّةَ، وَفِيهِ أُخْرِجَ مِنْهَا، وَلَا تَقُومُ السَّاعَةُ إِلَّا فِي يَوْمِ الْجُمُعَةِ». [صحيح] - [رواه مسلم]

(159) – Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: “Günəşin üzərinə doğduğu ən xeyirli gün cümə günüdür, Adəm həmin gün yaradılıb, həmin gün Cənnətə daxil edilib, həmin gün oradan çıxarılıb və Qiyamət yalnız cümə günü qopacaq». [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, günəşin üzərinə doğduğu ən xeyirli gün cümə günüdür. Onun xüsusiyyətlərindən: Allah Adəmi o gündə yaratdı və o gündə onu Cənnətə daxil etdi və o gündə onu oradan çıxarıb yerə endirdi və Qiyamət yalnız cümə günündə qopacaq.

**Hədisin faydalarından:**

1. Cümə gününün həftənin digər günləri üzərində olan üstünlüyü.
2. Cümə günü saleh əməllərə həvəsləndirmək və çoxaltmaq, Uca Allahın rəhmətinə nail olmaq və qəzəbini dəf etmək üçün hazırlaşmaq.
3. Deyilir ki, hədisdə qeyd olunan cümə gününün bu xüsusiyyətləri: cümə gününün fəzilətini qeyd etmək üçün deyildir, çünki Adəmin cənnətdən çıxarılması və

qiyamətin qopması fəzilət sayılmır. (Digər bir görüşə görə isə) deyilir: Əksinə, onların hamısı fəzilətdir və Adəmin cənnətdən çıxması elçilər, peyğəmbərlər və salehlərin nəslinin mövcüd olmasının səbəbidir. Qiyamətin qopması isə salehlərin mükafatının tezləşdirilməsi və Allahın onlar üçün hazırladığı kəramətlərə çatmaları üçün səbəbdir.

4. Cümə gününün, bu rəvayətdə qeyd olunanlardan başqa digər xüsusiyyətləri də qeyd edilmişdir. Onlardan bəziləri: O gün Adəmin tövbəsi qəbul edildi, o gün vəfat etdi  və o gündə elə bir saat vardır ki, həmin saata müvafiq olan və namaz qılaraq Allahdan bir şey istəyən mömin bəndəyə, Allah o şeyi verər.
5. İlin ən fəzilətli günü Ərafə günüdür və (digər bir görüşə görə) deyilir ki: Qurban bayramı günüdür. Və həftənin ən fəzilətli günü cümə günü, ən fəzilətli gecə isə Qədr gecəsidir.

(3711)

(160) – عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «مَنِ اغْتَسَلَ يَوْمَ الجُمُعَةِ غُسْلَ الجَنَابَةِ ثُمَّ رَاحَ، فَكَأَنَّمَا قَرَّبَ بَدَنَةً، وَمَنْ رَاحَ فِي السَّاعَةِ الثَّانِيَةِ، فَكَأَنَّمَا قَرَّبَ بَقَرَةً، وَمَنْ رَاحَ فِي السَّاعَةِ الثَّالِثَةِ، فَكَأَنَّمَا قَرَّبَ كَبْشًا أَقْرَنَ، وَمَنْ رَاحَ فِي السَّاعَةِ الرَّابِعَةِ، فَكَأَنَّمَا قَرَّبَ دَجَاجَةً، وَمَنْ رَاحَ فِي السَّاعَةِ الخَامِسَةِ، فَكَأَنَّمَا قَرَّبَ بَيْضَةً، فَإِذَا خَرَجَ الإِمَامُ حَضَرَتِ المَلاَئِكَةُ يَسْتَمِعُونَ الذِّكْرَ». [صحيح] - [متفق عليه]

(160) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: “Kim cümə günü cənabət qüslu alar, sonra cüməyə gedərsə, sanki (Allah yolunda) dəvə kəsmiş kimi olar, kim ikinci saatda gedərsə, inək kəsmiş kimi olar. Kim üçüncü saatda gedərsə, sanki buynuzlu qoç kəsmiş kimi olar. Kim dördüncü saatda gedərsə, sanki bir toyuq kəsmiş kimi olar və hər kim beşinci saatda gedərsə, sanki yumurta sədəqə etmiş kimi olar. İmam xütbə verməyə çıxdıqda isə mələklər zikri dinləmək üçün gələrlər”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) cümə namazına tez getməyin fəziləti haqqında xəbər verir. Tez gəlmək günəş çıxandan imamın gəlişinə qədərki müddətdə başlayır. Bu isə beş saatdır ki, günəşin çıxması ilə imamın daxil olması və xütbə verməsi üçün minbərə qalxana qədər olan zaman arasındakı vaxta görə beş hissəyə bölünür:

Birinci: Kim cənabət qüslü kimi kamil qüsl alarsa, sonra cümə məscidinə ilk saatda gedərsə, sanki dəvə sədəqə vermiş olar.

İkinci: Hər kim ikinci saatda gedərsə, sanki bir inək sədəqə vermiş kimi olar.

Üçüncü: Kim üçüncü saatda gedərsə, sanki buynuzlu bir qoç - erkək qoyun - sədəqə vermiş kimi olar.

Dördüncüsü: Hər kim dördüncü saatda gedərsə, sanki bir toyuq sədəqə vermiş kimi olar.

Beşinci: Hər kim beşinci saatda gedərsə, sanki yumurta sədəqə vermiş kimi olar.

İmam xütbə vermək üçün çıxdıqda; qapılarda əyləşən mələklər bir-birinin ardınca (ilk olaraq) məscidə girənləri yazmağı dayandırar, zikr və xütbəni dinləməyə gələrlər.

**Hədisin faydalarından:**

1. Cümə günü namaza getməzdən əvvəl qüsl almağa təşviq etmək.
2. Günün ilk saatlarından cümə namazına tez gəlməyin fəziləti.
3. Saleh əməllər işləməyə tələsməyə həvəsləndirmək.
4. Mələklərin cümə namazında iştirak etməsi və xütbəni dinləmələri.
5. Mələklər məscidlərin qapılarında durub, cümə namazına ilk olaraq gələnləri yazır.
6. İbn Rəcəb (Allah ona rəhmət etsin) demişdir: “Onun: “Kim cümə günü qüsl alıb sonra gedərsə” sözü, dəlalət edir ki, cümə günü üçün müstəhəb olan qüslün ilk vaxtı sübh namazının girməsi ilə başlayıb, cüməyə getməklə bitir”.

(5393)

(161) – عن ثَوْبَانَ رضي الله عنه قال: كَانَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ إِذَا انْصَرَفَ مِنْ صَلَاتِهِ اسْتَغْفَرَ ثَلَاثًا، وَقَالَ: «اللَّهُمَّ أَنْتَ السَّلَامُ، وَمِنْكَ السَّلَامُ، تَبَارَكْتَ ذَا

الْجَلَالِ وَالْإِكْرَامِ»، قَالَ الْوَلِيدُ: فَقُلْتُ لِلْأَوْزَاعِيِّ: كَيْفَ الاسْتِغْفَارُ؟ قَالَ: تَقُولُ: أَسْتَغْفِرُ اللهَ، أَسْتَغْفِرُ اللهَ. [صحيح] - [رواه مسلم]

(161) – Sovbəndən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) namazını bitirdikdə üç dəfə (əstəğfirullah deyərək) istiğfar edər və belə deyərdi: "Allahummə əntəs-sələmu, və minkəs-sələmu, təbəraktə zəl-cələli vəl-ikram (Allahım! Salam Sənsən və əminamanlıq Səndəndir. Ey əzəmət və ehtiram sahibi! Sən xeyirxahsan". Əl-Vəlid buyurur ki: "Əvzaiyədən soruşdum: İstiğfar necə olur?". Dedi: Əstəğfirullah, Əstəğfirullah (Allahdan bağışlanma diləyirəm)". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) namazını bitirdikdən sonra: "Əstəğfirullah, Əstəğfirullah, Əstəğfirullah (Allahdan bağışlanma diləyirəm)" - deyərdi.

Sonra Rəbbinin şənini bu sözlərlə ucaldardı: Allahummə əntəs-sələmu, və minkəs-sələmu, təbəraktə zəl-cələli vəl-ikram (Allahım! Salam Sənsən və əminamanlıq Səndəndir. Ey əzəmət və ehtiram sahibi! Sən xeyirxahsan). Allah Öz sifətlərində kamil və nöqsansızdır, bütün noqsan və eyblərdən pakdır. Buna görə də uca Allahdan dünya və axirət şərlərindən salamatlıq istəyirsən, Ondan başqasından istəyə bilməzsən. Bütün nöqsanlardan

pak, ehsan və əzəmət sahibi olan Allahın hər iki dünyada xeyiri saysız hesabsızdır.

**Hədisin faydalarından:**

1. Namazdan sonra istiğfar etməyin və bunda davamlı olmağın müstəhəb olması.
2. İbadətdəki nöqsanları tamamlamaq, itaətdəki nöqsanları aradan qaldırmaq üçün istiğfar etməyin müstəhəb olması.

(10947)

(162) – عَنْ أَبِي الزُّبَيْرِ قَالَ: كَانَ ابْنُ الزُّبَيْرِ يَقُولُ فِي دُبُرِ كُلِّ صَلَاةٍ حِينَ يُسَلِّمُ: «لَا إِلَهَ إِلَّا اللهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللهِ، لَا إِلَهَ إِلَّا اللهُ، وَلَا نَعْبُدُ إِلَّا إِيَّاهُ، لَهُ النِّعْمَةُ وَلَهُ الْفَضْلُ وَلَهُ الثَّنَاءُ الْحَسَنُ، لَا إِلَهَ إِلَّا اللهُ مُخْلِصِينَ لَهُ الدِّينَ وَلَوْ كَرِهَ الْكَافِرُونَ» وَقَالَ: «كَانَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يُهَلِّلُ بِهِنَّ دُبُرَ كُلِّ صَلَاةٍ». [صحيح] - [رواه مسلم]

(162) – Əbu Zubeyrdən belə dediyi rəvayət edilir: İbn Zubeyr hər namazı salam verib bitirdikdən sonra deyərdi: "Lə iləhə illə-Llah vahdəhu ləə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu, və huva alə kulli şeyin qadir, lə həvlə və lə quvvətə illə bi-Lləh, və lə nəbudu illə iyyəhu, ləhu-nniməti və ləhul-fadlu və ləhus-sənəul-həsənu, lə iləhə illə-Llahu muxlisinə ləhud-dinə və-ləu kərihəl kəfirun" (Mənası): "Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur, mülk Ona məxsudur, həmd Ona məxsusdur və O hər şeyə qadirdir, güc və qüdrət sahibi

ancaq Allahdır, Allahdan başqa ibadətə layiq ilah yoxdur və biz Ondan başqa heç kəsə ibadət etmirik, nemət və fəzilət Ona məxsusdur. Gözəl tərif Ona məxsusdur. Kafirlərin xoşuna gəlməsə belə, dini yalnız ixlasla Ona aid edərik". Və sonra dedi: "Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) hər namazdan sonra bu zikrləri edərdi". [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) hər namazda salam verdikdən sonra bu əzəmətli zikri edərdi.

"Ləə iləhə illəllah"- yəni Allahdan başqa ibadətə layiq məbud yoxdur.

"Təkdir, Onun şəriki yoxdur" - yəni Onun uluhiyyətdə, rububiyyətdə, isim və sifətlərində şəriki yoxdur.

Mülk Ona məxsusdur - yəni, tam bütün mülk - hər şeyi - yerləri və göyləri və onlar arasında olanları əhatə edən bütün mülk Ona məxsusdur, sahibi Odur.

"Həmd Ona məxsusdur" - yəni O, tam bütün kamilliklə vəsf edilib, hər bir halda - çətin və xoş günlərdə, sevgi və təzimlə kamilliklə Ona tərif və şükür edilir.

"O hər şeyə qadirdir" - qüdrəti hər yöndən kamil və tamdır, Onu heç nə aciz edə bilməz və hər hansı işi etməsinə mane ola bilməz.

"Allahdan başqa güc və qüvvət sahibi yoxdur" - yəni bir haldan başqa hala və Allaha asilikdən itaətə keçmək, yalnız güc və qüvvət sahibi Allahın yardımıyla mümkündür. Yardım edən Odur və yalnız Ona güvənilir.

"Allahdan başqa ibadətə layiq olan ilah yoxdur, və yalnız Ona ibadət edirik" - uluhiyyət-ilahlıq mənasının təkidlə vurğulanması və şirkin inkar edilməsi və ibadətin yalnız Ona layiq olması deməkdir.

"Nemət Ona məxsusdur və fəzilət Onundur" - yəni neməti yaradan və onun sahibi olan Odur və qullarından istədiyinə onu verən də Odur.

"Gözəl tərif Ona məxsusdur" - Hər bir halda gözəl tərif Özünə, sifətlərinə, fellərinə və nemətlərinə aiddir.

"Allahdan başqa ibadətə layiq ilah yoxdur. Dini yalnız Ona məxsus edərik" - yəni biz Allaha itaətdə riya və şan-söhrət güdmədən tövhid əhliyik.

"Kafirlərin xoşuna gəlməsə belə" - yəni kafirlər sevməsə belə Allahın tövhidində, Ona ibadətdə sabitik.

## Hədisin faydalarından:

1. Hər fərz namazdan sonra bu zikrə riayət etməyin müstəhəb olması.
2. Müsəlman öz diniylə qürur duyar, kafirlər sevməsə belə şüarlarını izhar edər.
3. Əgər hədisdə "namazın sonunda" sözü işlədilibsə və bu hədisdə zikr qeyd olunubsa, qayda budur ki, həmin zikr salamdan sonra deyilir, və əgər duadırsa, salamdan öncə deyilməsinə işarədir.

(6203)

(163) – عَنْ وَرَّادٍ كَاتِبِ الْمُغِيرَةِ بْنِ شُعْبَةَ قَالَ: أَمْلَى عَلَيَّ الْمُغِيرَةُ بْنُ شُعْبَةَ فِي كِتَابٍ إِلَى مُعَاوِيَةَ: أَنَّ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ كَانَ يَقُولُ فِي دُبُرِ كُلِّ صَلَاةٍ مَكْتُوبَةٍ: «لَا إِلَهَ إِلَّا اللهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، اللَّهُمَّ لَا مَانِعَ لِمَا أَعْطَيْتَ، وَلَا مُعْطِيَ لِمَا مَنَعْتَ، وَلَا يَنْفَعُ ذَا الْجَدِّ مِنْكَ الْجَدُّ». [صحيح] - [متفق عليه]

(163) – Muğirə bin Şöbənin (Allah ondan razı olsun) katibi Ravvaddan rəvayət edildiyinə görə o belə demişdir: Muğirə bin Şöbə (Allah ondan razı olsun), Müaviyəyə (Allah ondan razı olsun) göndərdiyi məktubda mənə bunu imla etdi: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) hər fərz namazdan sonra bu zikri edərdi: «Lə iləhə illə-Llahu vahdəhu lə şərikə ləhu. Ləhul-mulku va ləhul-həmdu va huvə alə kulli şeyin qadir. Allahummə, lə məniə limə ə'taytə va lə mu'tiyə limə mənə'tə va lə yənfəu zəl-cəddi minkəl-cədd». [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) hər fərz namazını qılıb qutardıqdan sonra bu zikri edərdi: «Lə iləhə illəl-lahu vahdəhu lə şərikə ləh. Ləhul-mulku va ləhul-həmdu va huvə alə kulli şeyin qadir. Allahummə, lə məniə limə ə'taytə va lə mu'tiyə limə mənə'tə va lə yənfəu zəl-cəddi minkəl-cəddu».

Yəni: Mən tövhid kəlməsi olan Lə iləhə illallahı qəbul və təsdiq edirəm. Həqiqi ibadətə yalnız Uca Allahın layiq olduğunu təsdiq edir və Ondan başqasına edilməsini isə

inkar edirəm. Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. Mülkün bütünlükə Uca Allaha aid olduğunu, səma və yer əhlinin bütün həmdləri yalnız Uca Allaha xas olduğunu və Onun hər bir şeyə qadir olduğunu, Uca Allahın təqdir edib verdiyinə kiminsə mane olacağını və verməyib mane olduğunu da kiminsə verə bilməyəcəyini iqrar edirəm. Həmçinin zəngin olanın zənginliyi Allah qatında heç bir fayda verməyəcəyini, insana yalnız saleh əməllərin fayda verəcəyini də iqrar edirəm.

**Hədisin faydalarından:**

1. Bu zikr özlüyündə tövhid və həmd-səna dolu mənalar əhatə etdiyinə görə fərz namazlardan sonra söylənməsi müstəhəbdir.
2. Sünnəni yerinə yetirməyə və onu insanlar arasında yaymağa tələsmək.

(65102)

(164) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه عَنْ رَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «مَنْ سَبَّحَ اللهَ فِي دُبُرِ كُلِّ صَلَاةٍ ثَلَاثًا وَثَلَاثِينَ، وَحَمِدَ اللهَ ثَلَاثًا وَثَلَاثِينَ، وَكَبَّرَ اللهَ ثَلَاثًا وَثَلَاثِينَ، فَتْلِكَ تِسْعَةٌ وَتِسْعُونَ، وَقَالَ: تَمَامَ الْمِائَةِ: لَا إِلَهَ إِلَّا اللهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ غُفِرَتْ خَطَايَاهُ وَإِنْ كَانَتْ مِثْلَ زَبَدِ الْبَحْرِ».

[صحيح] - [رواه مسلم]

(164) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: "Kim hər namazdan sonra

otuz üç dəfə "subhənallah", otuz üç dəfə "əlhəmdulilləh", otuz üç dəfə "Allahu Əkbər" deyərsə və bunlar doxsan doqquz edir və yüzüncü dəfədə: "ləə iləhə illallah vəhdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin  qadir" söyləyərsə, xətaları dəniz köpüyü qədər də olsa, bağışlanar". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etmişdir ki, kim fərz namazı bitdikdən sonra bunları desə:

Otuz üç dəfə: "Subhənallah" və bu Allahı nöqsanlardan tənzih etməkdir.

Otuz üç dəfə: "Əlhəmdulilləh" və bu Allahı sevərək və təzim edərək, Onu kamil sifətləri ilə tərifləməkdir.

Otuz üç dəfə: "Allahu Əkbər" və bu Allahın hər şeydən böyük və əzəmətli olması deməkdir.

Yüz rəqəminin tamamlanması: “Ləə iləhə illallah vəhdəhu ləə şərikə ləhu, ləhulmulku, və ləhulhəmdu və huvə alə kulli şeyin qadir" sözü ilədir ki, onun da mənası budur: "Allahdan başqa ibadətə layiq məbud yoxdur, O, təkdir və heç bir şəriki yoxdur, mülk yalnız Ona məxsusdur, yalnız O, məhəbbət və təzimlə bərabər həmd və tərifə layiqdir  və O, hər şeyə qadirdir, heç nə Onu aciz buraxa bilməz".

Və hər kim bunu desə, dəniz dalğalananda və hiddətlənəndə onun üstünə çıxan ağ köpük kimi onun günahları çox olsa da belə, silinər və bağışlanar.

## Hədisin faydalarından:

1. Fərz namazlarından sonra bu zikri etməyin müstəhəb (bəyənilən) olması.
2. Bu zikr günahların bağışlanmasına səbəbdir.
3. Uca Allahın lütfü, rəhməti və bağışlamasının böyüklüyü.
4. Bu zikr günahların bağışlanması üçün səbəbdir və burada nəzərdə tutulan: kiçik günahların təmizlənməsidir. Böyük günahlara gəlincə, onları yalnız tövbə təmizləyər.

(10948)

(165) – عَنْ أَبِي أُمَامَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «مَنْ قَرَأَ آيَةَ الْكُرْسِيِّ فِي دُبُرِ كُلِّ صَلَاةٍ مَكْتُوبَةٍ لَمْ يَمْنَعْهُ مِنْ دُخُولِ الْجَنَّةِ إِلَّا أَنْ يَمُوتَ». [صحيح] - [رواه النسائي في الكبرى]

(165) – Əbu Umamədən (Allah ondan razı olsun) Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: “Kim hər vacib namazdan sonra “Ayətul-Kürsi”ni oxuyarsa, onun cənnətə girməsinə ölümündən başqa heç nə mane olmaz”. [Səhih] - [Ən-Nəsai "Əl-Kubra" əsərində rəvayət etmişdir]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, hər kim fərz namazı bitdikdən sonra “Ayətul-Kürsi”ni oxuyarsa, onun cənnətə girməsinə ölümdən başqa heç nə mane olmaz. Bu ayə, bəqərə

surəsində, Uca Allahın bu ayəsidir: “Allahdan başqa ilah yoxdur! O, diridir, bütün məxluqatı idarə edir. O, nə mürgüləyər, nə də yuxulayar. Göylərdə və yerdə nə varsa hamısı Onundur. Onun izni olmadan Onun yanında kim şəfaət edə bilər?! Önlərindəkini də (qulların edəcəkləri əməlləri), arxalarındakını da (etdikləri əməlləri) O, bilir. Onlar Allahın elmindən, Onun dilədiyi qədərindən başqa heç nəyi qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Onları mühafizə etmək isə Ona çətin gəlmir. O, ucadır, əzəmətlidir” [Əl-Bəqərə 2 surəsi, ayə 255].

**Hədisin faydalarından:**

1. Bu əzəmətli ayənin fəziləti, özündə Uca Allahın ən gözəl adlarını və uca sifətlərini ehtiva etdiyinə görədir.
2. Hər fərz namazından sonra bu əzəmətli ayəni oxumaq müstəhəbdir.
3. Saleh əməllər cənnətə girmək üçün səbəbdir.

(10950)

(166) – عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: حَفِظْتُ مِنَ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ عَشْرَ رَكَعَاتٍ: رَكْعَتَيْنِ قَبْلَ الظُّهْرِ، وَرَكْعَتَيْنِ بَعْدَهَا، وَرَكْعَتَيْنِ بَعْدَ المَغْرِبِ فِي بَيْتِهِ، وَرَكْعَتَيْنِ بَعْدَ العِشَاءِ فِي بَيْتِهِ، وَرَكْعَتَيْنِ قَبْلَ صَلاَةِ الصُّبْحِ، وَكَانَتْ سَاعَةً لاَ يُدْخَلُ عَلَى النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ فِيهَا، حَدَّثَتْنِي حَفْصَةُ أَنَّهُ كَانَ إِذَا أَذَّنَ المُؤَذِّنُ وَطَلَعَ الفَجْرُ صَلَّى رَكْعَتَيْنِ، وَفِي لَفْظٍ: أَنَّ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ كَانَ يُصَلِّي بَعْدَ الْجُمُعَةِ رَكْعَتَيْنِ.

[صحيح] - [متفق عليه بجميع رواياته]

(166) – İbn Ömər (Allah onların hər ikisindən) razı olsun dedi: "Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) on rükət öyrəndim: Zöhrdən öncə və sonra iki rükət, məğribdən sonra evində iki rükət, işa namazından sonra evində iki rükət və sübh namazından əvvəl iki rükət. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına daxil olmaq mümkün olmayan müəyyən bir vaxt var idi. Hafsa mənə dedi ki, müəzzin azan verdikdə, sübh vaxtı Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) iki rükət namaz qılardı. Başqa rəvayətdə: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) cümə namazından sonra iki rükət namaz qılardı". [Səhih] - [Bütün rəvayətləri müttəfəqun aleyhidir]

**Şərh (izah):**

Abdullah ibn Ömər (Allah onlardan razı olsun) izah edir ki, Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) öyrəndiyi on rükət nafilə namaz vardır ki, bunlara ratibə sünnətləri deyilir. Günorta namazından əvvəl iki rükət, ondan sonra iki rükət. Axşam namazından sonra evində iki rükət. İşa namazından sonra evində iki rükət. Fəcrdən öncə iki rükət. On rükət tamamlandı. Cümə namazından sonra isə iki rükət qılır.

**Hədisin faydalarından:**

1. Ratibə sünnələrinin müstəhəb olması və onlara davamlı olmaq.
2. Sünnə namazlarının evdə qılınmasının məqsədə uyğunluğu.

(3062)

(167) – عَنْ عَبْدِ اللهِ بْنِ مُغَفَّلٍ رضي الله عنه قَالَ: قَالَ النَّبِيُّ صلى الله عليه وسلم: «بَيْنَ كُلِّ أَذَانَيْنِ صَلَاةٌ، بَيْنَ كُلِّ أَذَانَيْنِ صَلَاةٌ» ثُمَّ قَالَ فِي الثَّالِثَةِ: «لِمَنْ شَاءَ». [صحيح] - [متفق عليه]

(167) – Abdullah bin Muğaffəldən (Allah ondan razı olsun) rəvayət edilir ki, o, dedi: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: "Hər iki azan (azan və iqamə) arasında namaz vardır, hər iki azan arasında namaz vardır". Sonra üçüncü dəfədə əlavə etdi: "İstəyən üçün". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) hər azan və iqamə arasında nafilə namazı olduğunu bəyan edərək bunu üç dəfə təkrar etdi və üçüncü dəfədə bunun namaz qılmaq istəyən kəs üçün müstəhəb olduğunu bildirdi.

**Hədisin faydalarından:**

1. Azan və iqamə arasında namaz qılmağın müstəhəbliyi.
2. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) dediklərini eşitdirmək və əhəmiyyətini təsdiq etmək üçün sözünü təkrarlamaq metodu.
3. (Ərəb dilində) İki azan dedikdə: azan və iqamə nəzərdə tutulur və onlar üçün iki azan sözünün işlənməsi (azanın) üstünlük təşkil etdiyinə görədir,

necə ki, iki ay (günəş və ay üçün) və iki Ömər (Əbu Bəkr və Ömər üçün) işlədilir.

4. Azan namaz vaxtının daxil olmasının xəbərdarlığı, iqamə isə namazın indi yerinə yetirilməsinin xəbərdarlığdır.

(65479)

(168) – عَنْ أَبِي قَتَادَةَ السَّلَمِيِّ رضي الله عنه أَنَّ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «إِذَا دَخَلَ أَحَدُكُمُ الْمَسْجِدَ فَلْيَرْكَعْ رَكْعَتَيْنِ قَبْلَ أَنْ يَجْلِسَ». [صحيح] - [متفق عليه]

(168) – Əbu Qatədə əs-Sələmidən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: «Sizdən biri məscidə daxil olduqda, oturmazdan əvvəl iki rükət namaz qılsın». [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) günün hər hansı bir vaxtında və həmçinin hər hansı bir məqsəd üçün olmasından aslı olmayaraq məscidə daxil olan hər kəsin oturmadan öncə iki rükət namaz qılmasına təşviq etmişdir. Qılınan bu iki rükət namaz "Təhiyyətul-məscid" namazı adlanır.

**Hədisin faydalarından:**

1. Məscidə daxil olduqdan sonra oturmadan öncə iki rükət "Təhiyyətul-məscid" namazı qılmaq müstəhəbdir.
2. Hədisdə gələn bu əmr, məscidə daxil olub oturmak istəyən kimsəyə aiddir. Məscidə daxil olub, oturmadan öncə çıxan kimsəyə bu əmr aid deyildir.
3. Məscidə daxil olduqda insanların camaatla namaza başladığını görərsə, onlarla birlikdə qılınan namaza qoşulmalıdır. Bu zaman camaatla birlikdə qıldığı namaz həmin iki rükəti əvəz edir.

(65091)

(169) – عن أَبِي هُرَيرَةَ رضي الله عنه أنَّ رسول الله صلى الله عليه وسلمَ قال: «إذا قُلْتَ لِصَاحِبِكَ: أَنْصِتْ، يَومَ الجُمعَةِ، والْإِمامُ يَخْطُبُ، فَقَدْ لَغَوْتَ». [صحيح] - [متفق عليه]

(169) – Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: "Cümə günü imam xütbə oxuyarkən yanındakı yoldaşına "Sus!" dersən, artıq lağlağa etmiş (cümənin savabını itirmiş) olursan". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) cümə xütbəsində iştirak edən kimsənin, imamın xütbədə söylədiyi nəsihəti tədəbbür etmək üçün ona sakitcə qulaq asması cümə xütbəsinin vacib olan

ədəblərindən biri olduğunu həmçinin bir şəxsin imam xütbə verərkən yanında əlyəşən qardaşına: "sus" və ya "qula as" hətta bundan az olan bir kəlmə söyləyərsə belə, cümə namazının fəzilətini itirdiyini bəyan etmişdir.

**Hədisin faydalarından:**

1. Xütbəyə qulaq asarkən: danışmaq, hətta münkər bir şeyi inkar etmək, salam verənin salamını almaq, asqıran kimsəyə: "Yarhəmukə Allah" demək olsa belə haramdır.
2. Xütbə əsnasında imamı danışdıran və ya imamın özü danışdırdığı kimsə bu haramlıqdan istisna edilir.
3. Ehtiyac anında iki xütbə arasında (imamın minbərdə əyləşdiyi vaxt) danışmaq icazəlidir.
4. İmam xütbə verərkən Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) adı zikir edilərsə, xütbəni dinliyən sakitcə salat və salam gətirər və imamın etdiyi dualarına da amin deyər.

(3107)

(170) – عن عمران بن حصين رضي الله عنه قال: كَانَتْ بِي بَوَاسِيرُ، فَسَأَلْتُ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ عَنِ الصَّلَاةِ، فَقَالَ: «صَلِّ قَائِمًا، فَإِنْ لَمْ تَسْتَطِعْ فَقَاعِدًا، فَإِنْ لَمْ تَسْتَطِعْ فَعَلَى جَنْبٍ». [صحيح] - [رواه البخاري]

(170) – İmran bin Hüseyndən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: “Mənim babasilim var idi, ona görə də Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) namaz haqqında soruşdum və o dedi:

"Namazı ayaq üstə qıl, bacarmırsansa oturaraq qıl, ona da gücün çatmırsa, uzanaraq qıl". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) izah edir ki, namazda qayda odur ki, ayaq üstə qılınır, buna aciz olarsa oturaraq qılır, oturub qılmağa gücü yetməzsə bu zaman yan tərəfinin üzərinə uzanaraq namaz qıla bilər.

**Hədisin faydalarından:**

1. Ağıl cəhətdən sağlam olduğu müddətcə insanın boynundan namaz qılmaq hökmü düşməz, namazın qılınma qaydasına gəlincə isə insanın sağlamlıq durumuna və imkanına görə o bir formadan digər formaya dəyişə bilər.
2. İslamın lütfü və asanlığı budur ki, bəndə öz gücü daxilində ibadət etsin.

(10951)

(171) – عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللهُ عَنْهُ: أَنَّ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «صَلَاةٌ فِي مَسْجِدِي هَذَا خَيْرٌ مِنْ أَلْفِ صَلَاةٍ فِيمَا سِوَاهُ إِلَّا الْمَسْجِدَ الْحَرَامَ». [صحيح] - [متفق عليه]

(171) – Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: «Mənim bu məscidimdə qılınan bir namaz, Məscidul-Haram istisna olmaqla, başqa məscidlərdə qılınan min namazdan daha

xeyirlidir». [Səhih] - [Müttəfəqun aleyhi (əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) öz məscidində qılınan namazın fəziləti haqqında Məkkədəki Məscidul-Haram xaric, yer üzündəki digər məscidlərdə qılınan min namazdan daha xeyirli olduğunu bəyan etmişdir. Məscidul-Haramda qılınan namaz, Məscidun-Nəbəvidə qılınan namazdan daha fəzilətlidir.

**Hədisin faydalarından:**

1. Məscidul-Haram və Məscidun-Nəbəvidə qılınan namazın savabının qat-qat olması.
2. Məscidul-Haramda qılınan bir namaz, digər məscidlərdə qılınan yüz min namazdan daha xeyirlidir.

(65090)

(172) – عَنْ مَحْمُودِ بْنِ لَبِيدٍ رضي الله عنه: أَنَّ عُثْمَانَ بْنَ عَفَّانَ أَرَادَ بِنَاءَ الْمَسْجِدِ فَكَرِهَ النَّاسُ ذَلِكَ، وَأَحَبُّوا أَنْ يَدَعَهُ عَلَى هَيْئَتِهِ، فَقَالَ: سَمِعْتُ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «مَنْ بَنَى مَسْجِدًا لِلَّهِ بَنَى اللهُ لَهُ فِي الْجَنَّةِ مِثْلَهُ». [صحيح] - [متفق عليه]

(172) – Mahmud bin Ləbiddən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Osman bin Affan (Allah ondan razı olsun) Məscidun-Nəbəvini yenidən inşa etmək istədikdə, insanlar bunu xoş görməyərək Məscidin olduğu kimi qalmasını istədilər. Bunun üzərinə Osman (Allah ondan razı olsun): mən, Allah Rəsulunun (Allahın salavatı və

salamı onun üzərinə olsun) belə dediyini eşitdim: «Kim Allah üçün bir məscid bina edərsə, Allah o kimsə üçün Cənnətdə o məscidin bənzərini bina edər» - dedi. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Osman bin Affan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) məscidinin binasını ilk inşaasından daha yaxşı bir şəkildə yenidən inşa etmək istədi. Məscidun-Nəbəvinin yenidən inşa edilməsi, Məscidin, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) dönəmindəki şəklinin dəyişəcəyi bilən insanlar Osmanın (Allah ondan razı olsun) bu fikrini xoş qarşılamadılar. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) məscidi kərpicdən, tavanı da xurma liflərindən edilmişdir. Lakin Osman (Allah ondan razı olsun) məscidi daş və kirəcdən yenidən inşa etmək istədi və insanlara Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə deyərkən eşitdiyini xəbər verdi: "Kim, riya və şan-şöhrət olmadan, yalınz Uca Allahın rizasına nail olma üçün bir məscid inşa edərsə, Allah, qulun etdiyi bu əməlin qarşılığını, etdiyi əməldən ən gözəli ilə mükafatlandıracaqdır. Bu mükafat da, Allahın Cənnətdə onun üçün bina etdiyinin bir bənzərini inşa etməsidir.

## Hədisin faydalarından:

1. Hədisdə məscid inşa etməyə təşviq edilmiş və bunun fəziləti ifadə edilmişdir.

2. Məscidin genişləndirilməsi və binasının yenilənməsi, məscid bina etmək fəzilətinə daxildir.
3. Bütün əməllərdə Uca Allah üçün ixlaslı olmanın önəmi bəyan edilmişdir.

(65089)

(173) – عن أبي هريرة رضي الله عنه عن رسول الله صلى الله عليه وسلم قال: «مَا نَقَصَتْ صَدَقَةٌ مِنْ مَالٍ، وَمَا زَادَ اللهُ عَبْدًا بِعَفْوٍ إِلَّا عِزًّا، وَمَا تَوَاضَعَ أَحَدٌ لِلَّهِ إِلَّا رَفَعَهُ اللَّهُ». [صحيح] - [رواه مسلم]

(173) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Sədəqə, var-dövlətdən bir şey əksiltməz, nə qədər ki, qul mərhəmətlidir, əvəzində Allah da onun izzətini artırar. Kim Allah üçün təvazökarlıq edərsə, Allah onu ucaldar". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, sədəqə sərvəti əksiltməz, əksinə var-dövlətə ziyan vura biləcək bəlaları dəf edər və həmçinin Allah sədəqə verənə mükafatını böyük xeyirlə əvəzləyər, bu isə öz növbəsində malı azaltmaz, əksinə artırar.

İntiqama və cəzalandırmağa imkanı olduğu halda bağışlamaq, sahibinin yalnız qüvvət və izzətini artırar.

İnsan Allahın razılığını qazanmaq üçün, kimdənsə qorxduğuna görə yox və yaxud yaltaqlığa görə deyil, mənfəət əldə etmək məqsədi güdmədən, məhz Allahın

Üzünü (razılığını) qazanmaq üçün itaətlik və təvazökarlıq edərsə, mükafatı sözügedən insan üçün ucalıq və şərəf olar.

**Hədisin faydalarından:**

1. Bəzi insanlar əksini düşünsələr belə, xeyir və nicat, şəriətə tabe olmaqda və xeyir əməl etməkdədir.

(5512)

(174) – عن أبي هريرة رضي الله عنه أن رسول الله صلى الله عليه وسلم قال: «قَالَ اللهُ: أَنْفِقْ يَا ابْنَ آدَمَ أُنْفِقْ عَلَيْكَ». [صحيح] - [متفق عليه]

(174) – Əbu Hureyrədən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: Allah buyurdu: "Ey Adəm övladı mənim yolumda xərclə ki, mən də sənə yetirim". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, uca və pak Allah buyurdu: Ey Adəm övladı, vacib və müstəhəb sədəqələrdən xərclə ki, mən də sənin ruzini artırım, xərclədiyinin əvəzini sənə yetirim və onu sənə bərəkətli edim.

**Hədisin faydalarından:**

1. Sədəqəyə, Allah yolunda xərcləməyə təşviq.

2. Xeyriyyə işlərində xərcləmək ruzini bərəkətləndirən və onu artıran və Allahın bəndəyə xərclədiyinin əvəzini verməsi üçün ən böyük səbəblərdəndir.
3. Bu hədis Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) öz Rəbbindən nəql etdiyi hədisdir və bu hədis qüdsü və ya ilahi hədis adlanır və onun ləfzi və mənası Allahdandır. Lakin bu hədislərdə, Quranda olan fərqləndirici xüsusiyyətlər yoxdur, məsələn, qiraəti ilə ibadət etmək, onun üçün dəstəmazlı olmaq, Quranın mislinin olmaması, ona qarşı nəyisə çıxartmaqda insanların aciz olması və s. kimi xüsusiyyətlərin bu hədislərə olmaması ilə fərqlənməsidir.

(5805)

(175) – عن أبي مسعود رضي الله عنه عن النبي صلى الله عليه وسلم قال: «إِذَا أَنْفَقَ الرَّجُلُ عَلَى أَهْلِهِ يَحْتَسِبُهَا فَهُوَ لَهُ صَدَقَةٌ». [صحيح] - [متفق عليه]

(175) – Əbu Məsuddan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Əgər kişi ailəsinə Allahın razılığını qazanmaq üçün xərcləyirsə, bu onun üçün sədəqədir". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gürdöyö hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, öz xanımı, valideyni, övladı və digərləri kimi baxmağı vacib olan kəslərə kişi malından

xərcləyərsə və bunu da uca Allaha yaxınlaşmaq və savab əldə etmək məqsədilə edərsə, bu xərclədiyi onun üçün sədəqə kimidir.

**Hədisin faydalarından:**

1. Ailəyə yönələn xərclərlə əcr və savaba nail olunur.
2. Mömin əməlində Allahın Üzünü, Onun əcr və savabına nail olmağı hədəf tutar.
3. Ailə üçün xərcləmək də daxil olmaqla hər bir əməldə saleh niyyət xatırlanmalıdır.

(6460)

(176) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه أَنَّ رَسُولَ اللهِ صلى الله عليه وسلم قَالَ: «إِذَا مَاتَ الْإِنْسَانُ انْقَطَعَ عَنْهُ عَمَلُهُ إِلَّا مِنْ ثَلَاثَةٍ: إِلَّا مِنْ صَدَقَةٍ جَارِيَةٍ، أَوْ عِلْمٍ يُنْتَفَعُ بِهِ، أَوْ وَلَدٍ صَالِحٍ يَدْعُو لَهُ». [صحيح] - [رواه مسلم]

(176) – Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edilir ki, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "İnsan vəfat etdikdə üç əməldən başqa bütün əməlləri dayanar: bu davamlı sədəqə, fayda verən elm və ya onun üçün dua edən saleh övladdır”. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, ölən kəsin əməli onun ölümü ilə sona çatır, ona görə də, ölümündən sonra bu üç şeydən başqa o, savab əldə edə bilmir; çünki bu üş şeyə onun özü səbəb olub:

Birincisi: Vəqf, məscid tikmək, quyu qazmaq və s. kimi savabı axarlı və davamlı, fasiləsiz olan sədəqə.

İkincisi: Elm kitabları yazmaq və ya kiməsə elm öyrədib, öldükdən sonra həmin şəxsin bu elmi yayması kimi insanların faydalandığı elm.

Üçüncüsü: Valideynlərinə dua edən saleh mömin övlad.

## Hədisin faydalarından:

1. Alimlər icma etmişdirlər ki, insanın ölümündən sonra aldığı savablar arasında davamlı sədəqə, faydalı elm və dua vardır. Digər hədislərdə həmçinin həcc də qeyd olunmuşdur.
2. Hədisdə bu üç əməl xüsusi olaraq qeyd edilmişdir. Çünki onlar xeyirin əsaslarıdır və adətən fəzilət sahiblərinin özlərindən sonra qalmağını qəsd etdikləri şeylərdir.
3. Faydalı olan hər bir elm üçün savab əldə edilir, lakin onun başında və zirvəsində şəriət elmi və onu dəstəkləyən elmlər dayanır.
4. Bu üç şeyin ən faydalısı elmdir. Çünki elm həm onu öyrənən insana fayda verir, həm də şəriətin qorunmasına xidmət edir, ümumilikdə bütün insanlara xeyir gətirir. O, daha geniş və əhatəlidir. Çünki insan sənin elminlə həm həyatında, həm də ölümündən sonra faydalana bilər.
5. Saleh övladlar yetişdirməyə təşviq etmək. Çünki məhz onlar axirətdə valideynlərinə fayda verəcəklər.

Onların faydalarından biri də valideynləri üçün dua etmələridir.

6. Valideynlər öldükdən sonra onlara yaxşılıq etməyə təşviq etmək. Bu həmçinin övladın özünə fayda verən xeyirxahlığın bir növüdür.
7. Dua, övlad tərəfindən edilməsə belə, ölüyə fayda verir. Lakin hədisdə övladın xüsusilə qeyd olunmasının səbəbi budur ki, valideynləri üçün ölümündən sonra da davamlı şəkildə dua edənlər əsasən məhz övladlardır.

(65566)

(177) – عَنْ عَبْدُ اللَّهِ بْنُ سَلَامٍ رضي الله عنه قَالَ: لَمَّا قَدِمَ النَّبِيُّ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ الْمَدِينَةَ انْجَفَلَ النَّاسُ قِبَلَهُ، وَقِيلَ: قَدِمَ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ، قَدِمَ رَسُولُ اللَّهِ، قَدِمَ رَسُولُ اللَّهِ، ثَلَاثًا، فَجِئْتُ فِي النَّاسِ لِأَنْظُرَ، فَلَمَّا تَبَيَّنْتُ وَجْهَهُ، عَرَفْتُ أَنَّ وَجْهَهُ لَيْسَ بِوَجْهِ كَذَّابٍ، فَكَانَ أَوَّلُ شَيْءٍ سَمِعْتُهُ تَكَلَّمَ بِهِ أَنْ قَالَ: «يَا أَيُّهَا النَّاسُ، أَفْشُوا السَّلَامَ، وَأَطْعِمُوا الطَّعَامَ، وَصِلُوا الْأَرْحَامَ، وَصَلُّوا بِاللَّيْلِ وَالنَّاسُ نِيَامٌ، تَدْخُلُوا الْجَنَّةَ بِسَلَامٍ». [صحيح] - [رواه الترمذي وابن ماجه وأحمد]

(177) – Abdullah bin Sələmdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilmişdir: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Mədinəyə gəldikdə, insanlar ona tərəf qaçdılar və: “Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) gəldi" deyə üç dəfə səsləndilər, mən də camaatın arasında baxmağa gəldim və onun üzünü görəndə bildim ki, onun üzü yalançı birisinin üzü deyil və

ondan eşitdiyim ilk şey belə söyləməsi oldu: “Ey insanlar, salamı yayın, yemək yedizdirin, qohumluq əlaqələrini qoruyun və gecələr insanlar yatarkən namaz qılın ki, Cənnətə salamatlıqla daxil olasınız”. [Səhih] - [Ət-Tirmizi, İbnu Məcə və Əhməd rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Mədinəyə gələndə insanlar onu gördükdə sürətlə ona tərəf getdilər və ona tərəf gedənlərin arasında Abdullah bin Sələm (Allah ondan razı olsun) də var idi. O, yəhudilərdən idi, onu görəndə bildi ki, onun üzü, nuruna, gözəlliyinə və dürüstlük saçan heybətinə görə yalançı insanın üzü deyil. Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) eşitdiyi ilk şey, insanları, Cənnətə girməyə səbəb olacaq əməllərə təşviq etməsi oldu. Onlar:

Birincisi: Salamı yaymaq, onu izhar etmək və tanıdığın və tanımadığın kəslərə salam verməyi çoxaltmaq.

İkincisi: Sədəqə, hədiyyə və qonaqpərvərliklə insanları yedizdirmək.

Üçüncüsü: Ata və ya ana tərəfdən ailə və ya qohumluq bağının səni birləşdirdiyi kəslərlə qohumluq əlaqələrini saxlamaq.

Dördüncüsü: Gecə vaxtı insanlar yatarkən nafilə namazı qılmaq.

**Hədisin faydalarından:**

1. Müsəlmanlar arasında salamı yaymaq müstəhəbdir, qeyri-müsəlmana gəldikdə isə ona ilk olaraq salam

verilmir və əgər o, "əs-sələmu aleykum" deyərək salam verərsə, ona “va aleykum” deyərək cavab verilməlidir.

(5520)

(178) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «أَيُّهَا النَّاسُ، إِنَّ اللهَ طَيِّبٌ لَا يَقْبَلُ إِلَّا طَيِّبًا، وَإِنَّ اللهَ أَمَرَ الْمُؤْمِنِينَ بِمَا أَمَرَ بِهِ الْمُرْسَلِينَ، فَقَالَ: {يَا أَيُّهَا الرُّسُلُ كُلُوا مِنَ الطَّيِّبَاتِ وَاعْمَلُوا صَالِحًا، إِنِّي بِمَا تَعْمَلُونَ عَلِيمٌ} [المؤمنون: 51] وَقَالَ: {يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُلُوا مِنْ طَيِّبَاتِ مَا رَزَقْنَاكُمْ} [البقرة: 172] ثُمَّ ذَكَرَ الرَّجُلَ يُطِيلُ السَّفَرَ أَشْعَثَ أَغْبَرَ، يَمُدُّ يَدَيْهِ إِلَى السَّمَاءِ: يَا رَبِّ، يَا رَبِّ، وَمَطْعَمُهُ حَرَامٌ، وَمَشْرَبُهُ حَرَامٌ، وَمَلْبَسُهُ حَرَامٌ، وَغُذِيَ بِالْحَرَامِ، فَأَنَّى يُسْتَجَابُ لِذَلِكَ؟». [صحيح] - [رواه مسلم]

(178) – Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edilir ki, Allahın Rəsulu (sallallahu aleyhi və səlləm) belə demişdir: “Ey insanlar, həqiqətən, Uca Allah pakdır və yalnız pak olanları qəbul edər. Allah peyğəmbərlərə əmr etdiyini möminlərə də əmr etmişdir. Uca Allah buyurur: “Ey peyğəmbərlər, təmiz və halal nemətlərdən yeyin və yaxşı işlər görün! Mən, həqiqətən, sizin nə etdiklərinizi bilirəm!” [Muminun 23 surəsi, ayə 51]. O, həmçinin, buyurur: “Ey iman gətirənlər! Sizə ruzi olaraq verdiyimiz təmiz və halal nemətlərdən yeyin!” [Bəqərə 2 surəsi, ayə 172]. Sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) uzun müddətli səfərə çıxmış, saçları dağınıq, üst-başı da toz-torpaq içində olan və bu halda əllərini göyə qaldırıb: “Ya

Rəbb, ya Rəbb!” – deyə yalvaran birisini xatırlatdı. Peyğəmbər (sallallahu aleyhi və səlləm) davam edib dedi: "Onun yediyi haram, içdiyi haram, geydiyi haram – haramla qidalanmışdır. Beləsinin duası necə qəbul ola bilər?!”. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (sallallahu aleyhi və səlləm) Uca Allahın pak, müqəddəs, bütün naqisliklərdən və eyiblərdən uzaq olduğunu, Onun kamillik sifətləri ilə vəsfləndiyini, əməllərdən, sözlərdən və əqidədən yalnız pak olanları, yəni: xalis Allah üçün və Peyğəmbərin (sallallahu aleyhi və səlləm) yoluna müvafiq olanı qəbul etdiyini, Uca Allaha yalnız belə əməllərlə yaxınlaşmağın mümkün olduğunu xəbər vermiş və həmçinin, mömin kimsəni yaxşı əməllərə nail edəcək ən əzəmətli şeyin, yeməyinin pak olması, bu da onun yeməyinin halal olması ilə ola biləcəyini və nəticədə əməlinin də yaxşı olacağını bildirmişdir. Buna görə də Uca Allah peyğəmbərlərə halal yemək və saleh əməllər barədə nəyi əmr etmişdirsə, möminlərə də eyni ilə onu əmr etmişdir. Uca Allah buyurur: “Ey peyğəmbərlər, təmiz və halal nemətlərdən yeyin və yaxşı işlər görün! Mən, həqiqətən, sizin nə etdiklərinizi bilirəm!”. Uca Allah başqa bir ayədə belə buyurur: “Ey iman gətirənlər! Sizə ruzi olaraq verdiyimiz təmiz və halal nemətlərdən yeyin!”.

Sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) əməli korlayan və əməlin qəbul olunması üçün nə qədər zahiri səbəblər işlənsə də, onun qəbul olunmasına mane olan

haram yeməkdən çəkindirmişdir. Əməlin qəbul olunması üçün zahiri səbəblərdən bəziləri aşağıdakılardır:

Birincisi: Həcc, cihad və qohumluq əlaqələrini birləşdirmək və s. bu kimi itaət məqsədləri üçün uzunmüddətli səfərə çıxmaq.

İkincisi: Saçlarını daramadığı üçün saçları dağınıq, toz-torpaqdan üz-gözünün və üst-başının rəngi dəyişmiş və özüdə möhtac bir halda olmaq.

Üçüncüsü: Dua etmək üçün iki əlini göyə qaldırır.

Dördüncüsü: Uca Allaha gözəl adları ilə təvəssül edib: “Ya Rəbb, ya Rəbb!” – deyə yalvararaq israrla dua etməsi.

Duanın qəbul olunma səbəblərinin olmasına baxmayaraq, onun duası qəbul olunmadı. Çünki onun yediyi, içdiyi, geydiyi haramdır və o, haramla qidalanmışdır. Belə vəsfə sahib olan kimsənin duasının qəbul olunması mümkün deyil. Axı beləsinin duasına necə cavab verilə bilər?!

## Hədisin faydalarından:

1. Uca Allahın zatında, sifətlərində, feillərində və hökmlərində kamilliyi.
2. Əməlin ixlasla, yalnız Allah üçün və Peyğəmbərin (sallallahu aleyhi və səlləm) sünnəsinə müvafiq şəkildə edilməsinin əmr olunması.
3. Dəvət edərkən Peyğəmbərin (sallallahu aleyhi və səlləm) hədisdə: "Allah peyğəmbərlərə əmr etdiyini möminlərə də əmr etmişdir" buyurduğu kimi, əmələ təşviq edən üslubdan istifadə etmək. Əgər mömin bunun peyğəmbərlərə əmr edilmiş şeylərdən biri

olduğunu bilərsə, bu zaman o, əməl etməyə özündə qüvvət toplayar və tabe olmağa həvəslənər.

4. Duanın qəbul olunmasına mane olan səbəblərdən biri də haram yeməkdir.
5. Duanın qəbul olunması səbəbləri arasında beş şey vardır ki, onlardan birincisi: uzun müddətli məşəqqətli bir səfər səbəbi ilə yaranan, duanın qəbul edilməsinin ən əzəmətli səbəblərindən biri olan nəfsin sınmağı. İkincisi: zərurət halı. Üçüncüsü: İki əli səmaya qaldırmaq. Dördüncüsü: Uca Allahın rübubiyyətini təkrar-təkrar zikr edərək Ona israrla dua etmək. Bu, duaya cavab verilməsinin ən əzəmətli səbəblərindən biridir. Beşincisi: Halal olan şeylərdən yemək və içmək.
6. Yemək-içməyin halal, təmiz olması saleh əməl işləməyə yardım edən səbəblərdən biridir.
7. Qadi belə demişdir: "Yaxşı sözü xəbis sözünün ziddidir. Əgər Uca Allah yaxşı sözü ilə vəsf edilirsə bu, Onun nöqsanlardan və eyib sifətlərdən pak və münəzzəh olduğu anlamındadır. Əgər bir qul ümumən yaxşı sözü ilə vəsf edilirsə bu, onun çirkin əxlaqlardan, pis əməllərdən uzaq olduğuna və onun bu şeylərin ziddinə sahib olduğu anlamındadır. Əgər mal-dövlət yaxşı sözü ilə vəsf edilirsə bu, o mal-dövlətin halal və ən xeyirli mal-dövlət olduğu anlamındadır".

(4316)

(179) – عن أبي هريرة رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم:
«مَنْ أَنْظَرَ مُعْسِرًا، أَوْ وَضَعَ لَهُ، أَظَلَّهُ اللهُ يَوْمَ الْقِيَامَةِ تَحْتَ ظِلِّ عَرْشِهِ يَوْمَ لَا ظِلَّ إِلَّا ظِلُّهُ». [صحيح] - [رواه الترمذي وأحمد]

(179) – Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Borcu qaytarmaqda çətinlik çəkənə möhlət verən və ya borcunu ona tamamilə əfv edən kəsi, Allah Qiyamət günü Öz ərşinin kölgəsi altına alacaq, həmin gün o kölgədən savayı sığınılacaq heç bir kölgə olmayacaq". [Səhih] - [Ət-Tirmizi və Əhməd rəvayət ediblər]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, borcluya möhlət verən və ya ona borcunu bağışlayan kəsin mukafatı: Qiyamət günü günəşin insanların başları üzərinə yaxınlaşacağı, istiliyinin şiddətləndiyi bir vaxtda o kəsin Allahın ərşinin kölgəsi altında olmasıdır. (O gün) heç kim Allahın kölgəsindən başqa kölgə tapa bilməz.

## Hədisin faydalarından:

1. Allahın bəndələri üçün asanlaşdırmağın fəziltəi və bu, Qiyamət gününün dəhşətlərindən qurtulmaq üçün səbəbdir.
2. Əməlin mükafatı yaxud cəzası, onun növünə uyğundur.

(4186)

(180) – عن جابر رضي الله عنه أن رسول الله صلى الله عليه وسلم قال: «رَحِمَ اللَّهُ رَجُلًا سَمْحًا إِذَا بَاعَ، وَإِذَا اشْتَرَى، وَإِذَا اقْتَضَى». [صحيح] - [رواه البخاري]

(180) – Cabirdən - Allah ondan razı olsun - rəvayət edildiyinə görə, Allah Rəsulu - salləllahu aleyhi va səlləm - belə buyurmuşdur: "Allah satarkən, alarkən, borcunu istəyərkən insanlarla mülayim davranan kimsəyə rəhm etsin". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va səlləm - insanlarla alqı-satqı edərkən xoş əxlaq göstərən (satarkən asanlaşdıran), əli açıq və comərd olan hər kəsə mərhəmət olunması üçün dua etmişdir. Satıcı malı müştəriyə həqiqi qiymətindən baha satmaz və onunla gözəl əxlaqla rəftar edər. Bir şeyi satın aldığında da satıcıya qarşı mülayim, əli açıq və comərd olar. Malın qiymətini həddindən ziyadə düşürüb qiymətini azaltmaz. Borcludan borcunu istəyərkən onunla mülayim rəftar edər, ona qarşı əli açıq və cömərd olar. Fəqir və yoxsul kimsələrə qarşı şiddətli olmaz. Əksinə borcunu onlardan şəfqətli və yumşaq bir şəkildə istəyər. Borcunu ödəməyə imkanı olmayan kimsəyə də möhlət verərdi.

**Hədisin faydalarından:**

1. İslam dininin məqsədlərindən biri də insanlar arasındakı gözəl əlaqələri qorumaqdır.

2. Hədisdə insanlarla alqı-satqı və s. buna bənzər müamilələr zamanı gözəl əxlaqla (ən yüksək əxlaqi keyfiyyətlərlə) davranılmasına təşviq vardır.

(3716)

(181) – عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «كَانَ رَجُلٌ يُدَايِنُ النَّاسَ، فَكَانَ يَقُولُ لِفَتَاهُ: إِذَا أَتَيْتَ مُعْسِرًا فَتَجَاوَزْ عَنْهُ، لَعَلَّ اللَّهَ يَتَجَاوَزُ عَنَّا، فَلَقِيَ اللَّهَ فَتَجَاوَزَ عَنْهُ». [صحيح] - [متفق عليه]

(181) – Əbu Hureyradən - Allah ondan razı olsun - rəvayət edildiyinə görə, Allah Rəsulu - salləllahu aleyhi va səlləm - belə buyurmuşdur: "İnsanlara tez-tez borc verən bir adam var idi. O, xidmətçisinə (borcları toplayan) belə deyərdi: Borcunu qaytara bilməkdə çətinlik çəkən birinə getsən, onun borcundan keç. Bəlkə Allah da bizim günahlarımızdan keçər. Nəhayət o kişi Allaha qovuşdu və Allah da onun günahlarından keçdi". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va səlləm - bu hədisdə insanlara borc verən və ya uzun müddətli ödəmə ilə satış edən bir adam barədə xəbər vermişdir. O, insanlardan borclarını toplayan xidmətçisinə belə deyərdi: İmkanı olmadığına görə bizə olan borcunu qaytara bilməyən kimsənin yanına borcu tələb etməyə getdiyində, alacağını almaqda israrlı olmayıb ona möhlət verməklə borcundan keç. Yaxud naqis olsa da verdiyini qəbul edib borcundan

keç. O, bütün bunları Uca Allahın onun günahlarından keçərək əfv edib bağışlamasını ümid edərək etmişdir. Bu adam vəfat etdiyində, Uca Allah da onu əfv edib günahlarını bağışladı.

**Hədisin faydalarından:**

1. İnsanlarla gözəl bir şəkildə davranmaq, onları əfv etmək və maddi sıxıntıları olduğunda onlara möhlət vermək Qiyamət günündə insanın ən böyük qurtuluş səbəblərindən biridir.
2. Canlılara qarşı mülayim davranmaq, Allaha qarşı ixlaslı olmaq və Onun rəhmətinə ümid bəsləmək günahların bağışlanma səbəblərindəndir.

(3753)

(182) – عن خَولة الأنصاريةِ رضي الله عنها قالتْ: سمعتُ النبيَّ صلى الله عليه وسلم يقول: «إِنَّ رِجَالًا يَتَخَوَّضُونَ فِي مَالِ اللهِ بِغَيْرِ حَقٍّ، فَلَهُمُ النَّارُ يَوْمَ الْقِيَامَةِ».

[صحيح] - [رواه البخاري]

(182) – Xovlə Əl-Ənsaridən (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edildir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Şübhəsiz ki, Allahın sərvətini haqsız yerə istifadə edənlərə Qiyamət günü cəhənnəm əzabı var".

[Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlmanların varını, sərvətini batil yolla

xərcləyən, haqsız yerə əldə edənlər haqqında xəbər verir. Burada maliyyə vəsaitinin qanunsuz toplanması, onun saxta yolla əldə edilməsi, düzgün xərclənməməsi barədə ümumi mənanı açıqlayır. Bura həmçinin yetimlərə, vəqfə ayrılan maliyyə vəsaitlərini batil yolla mənimsəmək, (onlara həvalə edilən) əmanətə xəyanət etmək, haqqı olmadığı halda ümumi maliyyə və əmlak sərvətlərindən şəriətə zidd olaraq götürmək də daxildir.

Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Qiyamət günü onların cəzası cəhənnəmdir.

## Hədisin faydalarından:

1. İnsanların əlində olan var-dövlət Allahın sərvətidir. O bu sərvəti qullarına batil xərclərdən çəkinərək, şəriətlə icazəli üsullarla istifadə etməsi üçün vermişdir. Bu, həm rəhbərlərə, həm də sıravi insanlara aiddir.
2. Şəriətin ümumi mal-dövlət barədə şiddətlə göstərdiyi önəm. Kim mal-dövlətə sahib olarsa, Qiyamət günü bu sərvətin əldə edilməsinə və istifadəsinə görə sorğu sual edilər.
3. Bu xəbərdarlığa - istər öz sərvətini, istərsə də başqasının var dövlətini qeyri-şərii üsullarla istifadə edənlər daxildir.

(5331)

(183) – عن أبي هريرة رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «مَنْ صَامَ رَمَضَانَ إِيمَانًا وَاحْتِسَابًا غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ» [صحيح] - [متفق عليه]

(183) – Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Kim Ramazan orucunu imanla və savabını yalnız Allahdan umaraq tutarsa, o kəsin keçmiş günahları bağışlanar". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, hər kimsə Allaha iman edərək, orucun fərz olduğunu və uca Allahın oruc tutanlara böyük mükafat və savab hazırladığını təsdiq edərək, riyakarlıqdan və şöhrətpərəslikdən uzaq duraraq, məhz uca Allahın razılığını diləyərək Ramazan ayını oruc tutarsa, onun keçmiş günahları bağışlanar.

**Hədisin faydalarından:**

1. İxlasın fəziləti və onun Ramazan orucunda və digər saleh əməllərdə əhəmiyyəti.

(4196)

(184) – عن أبي هريرة رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «مَنْ يَقُمْ لَيْلَةَ الْقَدْرِ إِيمَانًا وَاحْتِسَابًا غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ» [صحيح] - [متفق عليه]

(184) – Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun

üzərinə olsun) belə demişdir: "Kim Qədr gecəsini imanla və savabını yalnız Allahdan umaraq ibadətlə keçirərsə, o kəsin keçmiş günahları bağışlanar”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Ramazan ayının son on gecəsində olan Qədr gecəsini ibadətlə keçirməyin fəziləti barədə xəbər vermiş və bildirmişdir ki, kim bu gecəni namaz qılmaqla, Quran oxumaqla, dua və zikr etməklə keçirib, həmin gecənin varlığına və fəzilətinə iman gətirər, bu əməllərin savabını yalnız Allahdan umar, riyadan və şan-şöhrətdən uzaq durarsa, Allah onun keçmiş günahlarını bağışlayar.

## Hədisin faydalarından:

1. Qədr gecəsinin fəziləti və onu ibadətlə keçirməyə təşviq.
2. Saleh əməllər yalnız səmimi, doğru niyyətlə qəbul edilir.
3. Allahın qullarına lütfü və rəhmətidir ki, hər kimsə imanla və savabını yalnız Allahdan umaraq Qədr gecəsini ibadətlə keçirərsə, keçmiş günahları bağışlanar.

(4202)

(185) – عن أبي هريرة رضي الله عنه قال: سمعتُ النبيَّ صلى الله عليه وسلم يقول:

«مَنْ حَجَّ لِلَّهِ فَلَمْ يَرْفُثْ وَلَمْ يَفْسُقْ رَجَعَ كَيَوْمِ وَلَدَتْهُ أُمُّهُ». [صحيح] - [متفق عليه]

(185) – Rəvayət edilir ki, Əbu Hureyra -Allah ondan razı olsun- belə demişdir: “Mən Peyğəmbərin - salləllahu aleyhi va səlləm - belə dediyini eşitdim: "Kim Allah üçün həcc edərsə, (həcc əsnasın-da qadını ilə) yaxınlıq etməsə və söyüş söyüb pis sözlər danışmasa, həccdən anadan doğulduğu kimi (günahsız) qayıdar". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər - salləllahu aleyhi va səlləm - bu hədisdə, kim Allah üçün həcc edərsə, həcc ibadətlərini yerinə yetirərkən xanımı ilə cinsi əlaqədə olmaq və buna təhrik edən öpmək, qucaqlamaq və s. bu kimi əməllərdən uzaq olarsa, həccindən yeni doğulan uşaq kimi günahsız olaraq döndüyünü bəyan etmişdir. Hədisdə ərəb dilində keçən: "rafəs" sözü, cinsi əlaqə mənasını bildirməklə yanaşı, söyüş söyüb pis sözlər danışmaq mənasını da bildirir.

Yəni: Həcc edərkən fasiqlik (asiliklər və pis əməllər) etməz. Ehramda olarkən qadağan olan əməlləri etmək fasiqliyin növlərindən biridir. Kim həcc ibadətlərini yerinə yetirərkən özünü günahlardan qoruyarsa, həccindən bir uşağın günahsız şəkildə anadan olduğu kimi bağışlanmış olaraq geri dönər.

## Hədisin faydalarından:

1. Fasiqlik, zaman və məkandan asılı olmayaraq, hər bir halda qadağan edilsə də, həcc ayinlərinin əzəmətinə görə belə əməllərin həcc mərasimində edilməsi daha şiddətli bir şəkildə qadağan edilmişdir.

2. İnsan, xətasız və günahlardan uzaq olaraq dünyaya gəlir. O, başqasının günahını daşımaz.

(2758)

(186) – عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ: «مَا مِنْ أَيَّامٍ الْعَمَلُ الصَّالِحُ فِيهَا أَحَبُّ إِلَى اللَّهِ مِنْ هَذِهِ الْأَيَّامِ» يَعْنِي أَيَّامَ الْعَشْرِ، قَالُوا: يَا رَسُولَ اللَّهِ، وَلَا الْجِهَادُ فِي سَبِيلِ اللَّهِ؟ قَالَ: «وَلَا الْجِهَادُ فِي سَبِيلِ اللَّهِ، إِلَّا رَجُلٌ خَرَجَ بِنَفْسِهِ وَمَالِهِ فَلَمْ يَرْجِعْ مِنْ ذَلِكَ بِشَيْءٍ». [صحيح] - [رواه البخاري وأبو داود، واللفظ له]

(186) – İbn Abbasdan (Allah onların ikisindən də razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Zülhiccənin ilk on günündə edilən saleh əməl kimi Allaha ən sevimli olan başqa günlər yoxdur". Dedilər: “Ey Allahın Rəsulu, Allah yolunda cihad belə?”. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: “Allah yolunda savaş belə. Yalnız öz canı və malıyla döyüşə çıxıb və şəhid olub geri dönməyən kimsə istisnadır". [Səhih] - [Əl-Buxari və Əbu Davud rəvayət etmiş və ləfzi/ mətn sonuncuya aiddir]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, zülhiccənin ilk on günündə edilən saleh əməllər ilin digər günlərindən daha xeyirlidir.

Bu zaman sahabələr (Allah onlardan razı olsun) Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) qeyd edilən on gündən savayı digər günlərdə Allah yolunda cihadınmı yoxsa sözügedən on gündə saleh

əməllərin üstün olması barədə soruşur. Çünki cihadın, əməllərin ən fəzilətli olması onlarda bilinən bir məsələ idi.

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) cavab verir ki, həmin günlərdə edilən saleh əməllər, digər günlərdəki edilən cihaddan fəzilətlidir. Yalnız o kəsdən başqa ki, cihada çıxıb, özünü və sərvətini Allah yolunda təhlükəyə atar, mal-dövlətini və həyatını Allah yolunda itirər. Yalnız sözügedən əməl həmin fəzilətli günlərdəki saleh əməllərdən üstündür.

**Hədisin faydalarından:**

1. Zülhiccənin on günündə edilən saleh əməlin üstünlüyü. Ona görə müsəlman bu günlərdən faydalanmalı, izzət və cəlal sahibi olan Allahı zikr etmək kimi itaətləri çoxaltmalı, Quran oxumalı, təkbir və təhlil, təhmid kimi zikrləri, namazı, sədəqəni, orucu və bütün xeyir əməlləri həmin günlərdə artırmalıdır.

(6255)

(187) – عَنْ أَبِي الحَوْرَاءِ السَّعْدِيِّ قَالَ: قُلْتُ لِلْحَسَنِ بْنِ عَلِيٍّ رضي الله عنهما: مَا حَفِظْتَ مِنْ رَسُولِ اللهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ؟ قَالَ: حَفِظْتُ مِنْ رَسُولِ اللهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ: «دَعْ مَا يَرِيبُكَ إِلَى مَا لاَ يَرِيبُكَ، فَإِنَّ الصِّدْقَ طُمَأْنِينَةٌ، وَإِنَّ الكَذِبَ رِيبَةٌ».

[صحيح] - [رواه الترمذي والنسائي وأحمد]

(187) – Əbu əl-Həvra əs-Sədi rəvayət edir ki, mən Həsən bin Əliyə (Allah onların hər ikisindən razı olsun) dedim: Sən Allahın Rəsulundan (sallallahu aleyhi və səlləm) nə

əzbərləmisən? O, dedi: Mən Allah Rəsulundan (sallallahu aleyhi və səlləm) bunu əzbərləmişəm: "Səni şübhəyə salan şeyi, şübhəyə salmayan şeylə dəyiş. Çünki düzlük arxayınlıqdır, yalan isə şübhədir". [Səhih] - [Ət-Tirmizi, Ən-Nəsai və Əhməd rəvayət etmişdir]

## Şərh (izah):

Peyğəmbər (sallallahu aleyhi və səlləm) qadağan olub-olmamasında, haram və ya halal olub-olmamasında şəkk etdiyin söz və əməlləri, şəkk etmədiyin, yaxşı və caiz olduğuna əmin olduğun şeylərlə dəyişməyi əmr etmişdir. Çünki qəlb, yaxşı və caiz olanla arxayınlıq və rahatlıq tapır. Şübhə olan hər bir şey isə qəlbin narahat və təlaş içərisində olmasına səbəb olur.

## Hədisin faydalarından:

1. Müsəlman öz işlərini yəqinlik üzərində qurmalı, şübhəli olan şeyləri tərk etməli və dinində bəsirətli olmalıdır.
2. Şübhəli şeylərə düşməyin qadağan olunması.
3. Əgər arxayınlıq və rahatlıq istəyirsənsə, şübhə etdiyin şeyi tərk et və onu bir kənara qoy.
4. Allahın qullarına olan rəhməti. Belə ki, Uca Allah onlara nəfsə və ağıla rahatlıq gətirən işləri əmr etmiş, onları narahatlıq və çaşqınlıqa salan şeylərdən isə çəkindirmişdir.

(4564)

(188) – عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «إِنَّ اللَّهَ تَجَاوَزَ عَنْ أُمَّتِي مَا حَدَّثَتْ بِهِ أَنْفُسَهَا، مَا لَمْ تَعْمَلْ أَوْ تَتَكَلَّمْ». [صحيح] - [متفق عليه]

(188) – Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: “Həqiqətən, Allah mənim ümmətimin, əməl etmədikcə və söyləmədikcə nəfsində danışdıqlarının üstündən keçmişdir”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə xəbər verir ki, bir müsəlman pis əməl etməmişdən və ya onun haqqında danışmamışdan əvvəl öz nəfsində danışmasına görə cəzalandırılmaz, çünki Allah çətinliyi aradan qaldırıb və əfv etmişdir və Muhəmmədin (Allahın salavatı və salamı onun üzərinə olsun) ümməti ağlına gələn və nəfsində keçirdiyinə görə onunla razılaşıb və qəlbində yerləşdirmədikcə cəzalandırılmaz. Lakin əgər qəlbində təkəbbür, lovğalıq və ya nifaq yerləşərsə, yaxud əzaları ilə əməl edərsə və ya dili ilə söyləyərsə, bunun hesabını verəcəkdir.

## Hədisin faydalarından:

1. Uca Allah insanın nəfsinə gələn fikirləri və vəsvəsələri, yəni insanın öz-özünə danışdığı, düşündüyü və könlündən keçən şeyləri bağışlamış və onlardan keçmişdir.

2. Əgər bir insan boşanma barədə fikirləşər, bu fikir onun zehnindən keçər, lakin o, bunu nə dillə söyləyər, nə də yazarsa, bu halda boşanma sayılmaz.
3. İnsanın qəlbindən keçən daxili düşüncələrə — nə qədər böyük olsa da — o, onları qəlbində qərarlaşdırmadıqca, dilə gətirmədikcə və ya onlara əməl etmədikcə görə məsuliyyət daşımır.
4. Bizdən əvvəlki ümmətlərdən fərqli olaraq, qəlbindən keçirdiyi fikirlərə görə məsul tutulmamaq xüsusiyyəti ilə Muhəmməd ümmətinin (sallallahu əleyhi və səlləm) dəyəri çox böyükdür.

(58144)

(189) – عن أبي هريرة رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم:

«إِنَّ اللهَ لَا يَنْظُرُ إِلَى صُوَرِكُمْ وَأَمْوَالِكُمْ، وَلَكِنْ يَنْظُرُ إِلَى قُلُوبِكُمْ وَأَعْمَالِكُمْ».

[صحيح] - [رواه مسلم]

(189) – Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: “Həqiqətən Allah sizin zahirinizə, var-dövlətinizə yox, qəlblərinizə və əməllərinizə baxar”. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, uca və pak olan Allah qulların zahiri görünüşlərinə və bədənlərinə baxmaz ki, onlar gözəldir və yaxud eyiblidir, böyükdür yoxsa kiçikdir, sağlamdır və

yoxsa xəstədir? Həmçinin onların mal-dövlətinə da baxmaz ki, çoxdur və ya azdır? İzzət və cəlal sahibi olan Allah qullarını bu meyarlara və fərqliliklərə görə hesaba çəkib qınamaz. Əksinə onların qəlblərinə, qəlblərindəki yəqinliyə və təqvaya, səmimiliyə və ixlasa baxar, həmçinin qəlblərindəki riyakarlıq və şan-şöhrət meyillərinə, əmməllərin doğru olub olmamasına baxar. Buna əsasən də mükafat və ya cəza verər.

### Hədisin faydalarından:

1. Qəlbin islahı və bütün çirkinliklərdən təmizlənməsinə önəm verməK.
2. Qəlbin islahı ixlas, əməlin islahı isə Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) tabe olmaqla gerçəkləşir və bunlar uca Allah dərgahında ölçü və meyardır.
3. İnsan öz var-dövlətinə, zahiri gözəlliyinə, bədəninə, bu dünyada olan heç nəyə aldanmamalıdır.
4. Daxili islah etmədən, zahirə önəm verməkdən çəkindirmək.

(4555)

(190) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قال: قال رَسُولُ الله صلى الله عليه وسلم:

«إِنَّ اللهَ يَغَارُ، وَإِنَّ الْمُؤْمِنَ يَغَارُ، وَغَيْرَةُ اللهِ أَنْ يَأْتِيَ الْمُؤْمِنُ مَا حَرَّمَ عَلَيْهِ». [صحيح]

- [متفق عليه]

(190) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun)

belə dediyi rəvayət edilir: "Həqiqətən Allah qısqanır və mömin qısqanır, Allahın qısqanclığı mömininin haramlara əl atmasına görədir". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, həqiqətən Allah qısqanır, kin bəsləyir, nifrət edir necə ki, mömin qısqanır, nifrət edir və kin bəsləyir. Allahın qısqanmasının səbəbi mömin tərəfindən, Allahın ona haram etdiyi zina, homoseksuallıq, oğruluq, şərab içmək və digər çirkin əməlləri etməsidir.

## Hədisin faydalarından:

1. Haramları aşıb, onlara qoyulan həddin pozulmasına görə Allahın qəzəbindən və cəzasından çəkinmək.

(3354)

(191) – عن أبي هريرة رضي الله عنه عن النبي صلى الله عليه وسلم قال: «اجْتَنِبُوا السَّبْعَ الْمُوبِقَاتِ»، قَالُوا: يَا رَسُولَ اللهِ وَمَا هُنَّ؟ قَالَ: «الشِّرْكُ بِاللهِ، وَالسِّحْرُ، وَقَتْلُ النَّفْسِ الَّتِي حَرَّمَ اللهُ إِلَّا بِالْحَقِّ، وَأَكْلُ الرِّبَا، وَأَكْلُ مَالِ الْيَتِيمِ، وَالتَّوَلِّي يَوْمَ الزَّحْفِ، وَقَذْفُ الْمُحْصَنَاتِ الْمُؤْمِنَاتِ الْغَافِلَاتِ». [صحيح] - [متفق عليه]

(191) – Əbu Hureyrədən - Allah ondan razı olsun - rəvayət edilir ki, Peyğəmbər - salləllahu aleyhi va sələm - belə demişdir: "Həlak edən yeddi günahdan çəkinin!" “(Səhabələr:) “Nədir onlar, ey Allahın Rəsulu?” deyə soruşdular. Peyğəmbər - salləllahu aleyhi va sələm - buyurdu: “Allaha şərik qoşmaq, sehir etmək, Allahın haram

buyurduğu canı haqsız yerə öldürmək, sələm yemək, yetimin malını yemək, döyüş meydanından qaçmaq və (zinadan) xəbəri olmayan namuslu və ismətli mömin qadınları zinada ittiham etmək". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va səlləm - bu hədisdə ümmətinə yeddi həlak edici günahlardan uzaq durmalarını əmr edir.  Peyğəmbərdən - salləllahu aleyhi va səlləm - bu günahların hansı günahlar olduğu sorulunca, Peyğəmbər - salləllahu aleyhi va səlləm - bu günahları onlara açıq-aydın bəyan edərək belə dedi:

Birinci: Uca Allaha şəkil və görünüşündən asılı olmayaraq hər hansı bir şeyi Ona oxşadaraq və ya bənzədərək tay tutmaqla yaxud ibadətin hər hansı bir növünü Uca Allahdan başqasına sərf etməklə şərik qoşmaq. Peyğəmbər - salləllahu aleyhi va səlləm - böyük günahları sayarkən birinci Allaha şərik qoşmaqdan başladı, çünki Allaha şərik qoşmaq günahların ən böyüyüdür.

İkinci: Sehir etmək. Bu: düyünlərdən, ovsunlardan, dərmanlardan və tüstülərdən ibarət bir əməldir. Sehir, (sehir) edilmiş kimsənin bədəninə, onu qətlə yetirməklə və ya xəstələndirməklə yaxud ərlə-arvadın arasını ayırmaqla təsir göstərir. Sehir, şeytani əməldir. Sehirbazlar çox vaxt sehiri, Allaha şərik qoşmaqla və xəbis (murdad) ruhlara onların sevdikləri əməlləri edərək yaxınlaşmaqla edirlər.

Üçüncü: Şəri dəlil olmadan Uca Allahın qadağan etdiyi bir nəfsi qətlə yetirmək. Əgər bir kimsəni qətlə yetirmək

üçün şəri dəlil (əsaslanma) olarsa, o zaman bu, fərdi şəxslərin deyil, hakimin göstərişi altında həyata keçirilməlidir.

Dördüncü: Sələm yemək yaxud müxtəlif yollarla sələmdən yararlanmaq.

Beşinci: Atası ölmüş, həddi-büluğa çatmayan yetim uşağın malını haqsız yerə yemək.

Altıncı: Kafirlərə qarşı edilən döyüşdən qaçmaq.

Yeddinci: İsmətli və azad qadınları və kişiləri zinada ittiham etmək.

## Hədisin faydalarından:

1. Böyük günahlar, hədisdə qeyd edildiyi kimi heç də yeddi böyük günahlardan ibarət deyildir. Böyük günahların məhdud yeddi sayı ilə bildirilməsi, bu günahların başqa günahlardan daha əzəmətli və daha təhlükəli olmasına görədir.
2. Qisas almaq, dindən çıxmaq və evləndikdən sonra zina etmək kimi haqlı yerə bir nəfsin qətlə yetirilməsi icazəlidir. Lakin bu, fərdi şəxslərin deyil, şəri hakimin göstərişi altında həyata keçirilməlidir.

(3331)

(192) – عن أبي بكرة رضي الله عنه قال: قال النبي صلى الله عليه وسلم: «أَلَا أُنَبِّئُكُمْ بِأَكْبَرِ الْكَبَائِرِ؟» ثَلَاثًا، قَالُوا: بَلَى يَا رَسُولَ اللهِ، قَالَ: «الْإِشْرَاكُ بِاللهِ، وَعُقُوقُ الْوَالِدَيْنِ» وَجَلَسَ وَكَانَ مُتَّكِئًا، فَقَالَ: «أَلَا وَقَوْلُ الزُّورِ»، قَالَ: فَمَا زَالَ يُكَرِّرُهَا حَتَّى قُلْنَا: لَيْتَهُ سَكَتَ. [صحيح] - [متفق عليه]

(192) – Əbu Bəkrədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət etmişdir: "Sizə günahların ən böyüyü barədə xəbər verimmi?" – deyə bunu üç dəfə soruşdu. Səhabələr: “Bəli, ey Allahın Rəsulu!” – deyə cavab verdilər. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun): "Allaha şərik qoşmaq və valideynlərin üzünə ağ olmaq" – dedi. (Bunu deyərkən) o söykənmişdi sonra qalxıb oturdu və: "Yalan söz danışmaq" – deyə əlavə etdi. O bunu durmadan o qədər təkrar etdi ki, biz (bir-birimizə): "Kaşki, susaydı!" – dedik”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) əshabına ən böyük günahları xəbər vermiş və bu üç günahı zikr etmişdir:

1 - Allaha şərik qoşmaq. Bu, hər hansı bir ibadət növünü Allahdan başqasına sərf etməkdir. Həmçinin, Allahdan başqasını, Allahın uluhiyyəti, rububiyyəti, ad və sifətlərində Uca Allaha bərabər tutmaqdır.

2 - Valideynlərin üzünə ağ olmaq. Bura, söz və ya əməl olmasından asılı olmayaraq ata-anaya qarşı edilən bütün növ əziyyətlər, həmçinin onlara yaxşılıq etməyi tərk etmək də daxildir.

3 - Yalan danışmaq, yalandan şahidlik etmək: Yalan demək dedikdə bura, başqasının malını mənimsəmək,

başqasının namusuna toxunmaq və s. buna bənzər şeylər üçün  yalandan deyilən hər bir söz daxildir.

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) yalan demənin çirkinliyini və cəmiyyətdə pis nəticələrə səbəb olmasına diqqətə çəkmək üçün bunu dəfələrlə təkrarlamışdır. Hətta sahabələr Peyğəmbərimizə (Allahın salavatı və salamı onun üzərinə olsun) olan şəfqətlərindən və onu rahatsız edən şeydən xoşlanmadıqlarından dolayı onun susmasını arzu etmişdilər.

## Hədisin faydalarından:

1. Günahların ən böyüyü Allaha şərik qoşmaqdır. Buna görə də Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) onu böyük günahların ən birincisi və ən böyüyü olaraq qeyd etmişdir. Uca Allahın: "Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan başqa olan günahları isə istədiyi kəsə bağışlayar" (Ən-Nisə 4 surəsi, 48, 116) ayəsi də bunu təsdiqləyir.
2. Valideyin haqqlarının böyüklüyü. Belə ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) onların haqqını Uca Allah haqqı ilə birlikdə zikr etmişdir.
3. Günahlar, böyük və kiçik olmaqla iki qismə bölünür. Böyük günahlar: Hədd və lənət kimi dünyada cəzası olan yaxud Cəhənnəmə daxil olmaq kimi axirətdə cəzası olan bütün günahlardır. Böyük günahların bəzisi haramlıq baxımından digərlərindən daha

şiddətlidir. Böyük günahlar xaricində qalan günahlar isə kiçik günahlardır.

(2941)

(193) – عن عبد الله بن عمرو بن العاص رضي الله عنهما عن النبي صلى الله عليه وسلم قال: «الْكَبَائِرُ: الْإِشْرَاكُ بِاللهِ، وَعُقُوقُ الْوَالِدَيْنِ، وَقَتْلُ النَّفْسِ، وَالْيَمِينُ الْغَمُوسُ». [صحيح] - [رواه البخاري]

(193) – Abdullah bin Amr bin As (Allah ondan və atasından razı olsun) rəvayət edir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Ən böyük günahlar: Allaha şərik qoşmaq, valideyinlərin üzünə ağ olmaq, adam öldürmək və yalandan (Allaha) and içməkdir". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) böyük günahları bəyan etmişdir. Bunlar da, bu günahları edən kimsələri dünyada və axirətdə şiddətli bir əzabla təhdid edilən günahlardır.

Bunların birincisi: Allaha şərik qoşmaqdır. Bu, hər hansı bir ibadət növünü Allahdan başqasına sərf etməkdir. Həmçinin, Uca Allahdan başqasını, Allaha aid olan uluhiyyət, rububiyyət, ad və sifətlərlə bağlı xüsuslarda Allahla bərabər tutmaqdır.

İkincisi: Valideyinlərin üzünə ağ olmaq. Bura, söz və əməl olmasından aslı olmayaraq, ata-anaya qarşı edilən

bütün növ əziyyətlər və həmçinin onlara yaxşılıq etməyi tərk etmək də daxildir.

Üçüncüsü: Haqsız yerə adam öldürməkdir. Zülüm və düşmənçilik edərək adam öldürmək da bura daxildir.

Dördüncüsü: Yalan söylədiyini bildiyi halda, yalandan (Allaha) and içməkdir. Andın bu növü, sahibini Cəhənnəmə saldığı yaxud günaha batırdığı üçün ərəb dilində "əl-Yəminul-Ğamus" olaraq adlandırılmışdır.

## Hədisin faydalarından:

1. Andın "əl-Yəminul-Ğamus" növü yəni yalandan (Allaha) and içməyin, günahının və təhlükəsinin böyüklüyündən dolayı kəffarəsi yoxdur. Buna görə ancaq tövbə edilməsi vacibdir.
2. Hədisdə sadəcə bu dörd böyük günahın zikr edilməsi, bu günahların nə qədər böyük günah olduğunu göstərir. Çünki böyük günahlar yalnız bu günahlardan ibarət deyildir.
3. Günahlar, böyük və kiçik olmaqla iki qismə bölünür. Böyük günahlar: hədd və lənət kimi dünyada cəzası olan yaxud Cəhənnəmə daxil olmaq kimi axirətdə cəzası olan bütün günahlardır. Böyük günahların bəzisi haramlıq baxımından digərlərindən daha şiddətlidir. Böyük günahlar xaricində qalan günahlar isə kiçik günahlardır.

(3044)

(194) – عَنْ عَبْدِ اللهِ بنِ مَسْعُودٍ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «أَوَّلُ مَا يُقْضَى بَيْنَ النَّاسِ يَوْمَ الْقِيَامَةِ فِي الدِّمَاءِ». [صحيح] - [متفق عليه]

(194) – Abdullah bin Məsuddan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: "Qiyamət günü insanlar arasında ilk mühakimə olunacaq məsələ qantökmə məsələsi olacaq". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) qeyd etdi ki, Qiyamət günü bir-birilərinə zülm edən insanlar arasında ilk veriləcək hökm, qətl və yaralamaq kimi qantökmə məsələsində olacaq.

**Hədisin faydalarından:**

1. Qan axıtmağın əzəmətli iş olması, çünki bir şeyə ən mühüm məsələlərlə başlanılır.
2. Günahlar törədilən fəsadın ciddiliyinə görə böyüyür, sözsüz ki, günahsız insanların canını almaq ən böyük fəsadlardan biridir, bundan da ən əzəmətli fəsad isə Allah Təalaya küfr etmək və şərik qoşmaqdır.

(2962)

(195) – عن عبد الله بن عمرو رضي الله عنهما عن النبي صلى الله عليه وسلم قال: «مَنْ قَتَلَ مُعَاهَدًا لَمْ يَرِحْ رَائِحَةَ الْجَنَّةِ، وَإِنَّ رِيحَهَا تُوجَدُ مِنْ مَسِيرَةِ أَرْبَعِينَ عَامًا».

[صحيح] - [رواه البخاري]

(195) – Abdullah bin Amr bin As (Allah hər ikisindən razı olsun) rəvayət edir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Kim əhd verilən birini öldürərsə, Cənnətin iyini almaz. Halbuki onun iyi qırx illik məsa-fədən hiss edilir". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etmişdir ki, kim muahadı – muahad isə, müsəlman ölkəsinə əhd və əmin-əman içində daxil olmasına izin verilən kafirdir - öldürərsə, onu öldürən kimsə Cənnətin iyini belə hiss etməyəcəyək. Halbuki onun iyi qırx illik məsafədən hiss edilir.

## Hədisin faydalarından:

1. Muahadı, zimmi və müstəmən olan kafirlərin öldürülməsi haramdır və böyük günahlardan biridir.
2. Muahad: Kafirlərdən olub özündən əhd alınan, ölkəsində yaşayıb müsəlmanlara qarşı döyüşməyən və müsəlmanların da onunla döyüşmədikləri kimsədir.
3. Zimmi: Müsəlman diyarında yaşayıb cizyə ödəyən kafirdir.
4. Müstəmən: Müəyyən bir vaxta qədər müsəlman diyarına əmin-aman girməsinə izin verilən kafirdir.
5. Qeyri-müsəlmanlarla bağlanan əhdlərə xəyanət edilməsi qadağan edilmişdir.

(64637)

(196) – عن جُبَير بن مُطْعِم رضي الله عنه أنه سمع النبيَّ صلى الله عليه وسلم يقول: «لَا يَدْخُلُ الْجَنَّةَ قَاطِعُ رَحِمٍ». [صحيح] - [متفق عليه]

(196) – Cubeyr bin Mutimdən (Allah ondan razı olsun) rəvayət edilir ki, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: "Qohumluq əlaqələrini kəsən cənnətə daxil olmaz" .[Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, qohumlarla əlaqəni kəsən, haqlarını ödəməyən, onlara pislik edib əziyyət verən şəxs cənnətə layiq deyildir.

**Hədisin faydalarından:**

1. Qohumluq əlaqələrini kəsmək böyük günahlardandır.
2. Qohumluq əlaqələri, insanlar arasındakı münasibətə, adət ənənəyə əsasən qurulur və zamana, məkana və şəxslərə görə dəyişə bilər.
3. Qohumluq əlaqələri, onları ziyarət etməklə, sədəqə verməklə, onlara yaxşılıq etməklə, həmçinin xəstəni ziyarət etmək kimi, xeyir işləri əmr edib, pis əməllərdən çəkindirmək kimi və buna bənzər əməllərlə mümkündür.
4. Qohumluğun yaxınlıq dərəcəsi artdıqca, onlarla əlaqələri kəsməyin günahı daha da artır.

(5367)

(197) – عن أنس بن مالك رضي الله عنه أن رسول الله صلى الله عليه وسلم قال: «مَنْ أَحَبَّ أَنْ يُبْسَطَ لَهُ فِي رِزْقِهِ، وَيُنْسَأَ لَهُ فِي أَثَرِهِ، فَلْيَصِلْ رَحِمَهُ». [صحيح] - [متفق عليه]

(197) – Ənəs bin Malikdən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Kim ruzisinin artmasını və ömrünün uzanmasını istəyirsə, qohumluq əlaqələrini qorusun". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) qohumları ziyarət etməyə, onlara şəxsi və maddi dəstək olmağa çağırış edir. Bildirir ki, bu əməllər, ruzinin artmasına və ömrün uzanmasına səbəb olur.

## Hədisin faydalarından:

1. Qohumlar - ata və ana tərəfdən olan yaxınlardır və ona görə də qohumluq telləri (bağları) nə qədər yaxındırsa, onlarla əlaqələri sıx saxlamaq da bir o qədər vacibdir.
2. Əməlin mükafatı yaxud cəzası, onun növündəndir, kim qohumlarla xeyir və yaxşılıq edərək əlaqə saxlayarsa, Allah onun ömrünə və ruzisinə bərəkət verər.
3. İnsanın əcəli və ruzisi, qədər kitabında müəyyən həddə yazılmasına baxmayaraq, qohumlarla gözəl davranmaq onun qədərində ruzinin və ömrünün bərəkətli olmasına səbəb ola bilər. Digər insanlardan

fərqli olaraq, qohumlarla əlaqə saxlayan insan daha çox və daha faydalı ömür sürür. Hədisdə ruzinin və ömrün həqiqi mənada artdığını da söyləyən alimlər var.

(5372)

(198) – عن عبد الله بن عمرو رضي الله عنهما عن النبي صلى الله عليه وسلم قال: «لَيْسَ الْوَاصِلُ بِالْمُكَافِئِ، وَلَكِنِ الْوَاصِلُ الَّذِي إِذَا قُطِعَتْ رَحِمُهُ وَصَلَهَا». [صحيح] - [رواه البخاري]

(198) – Abdullah ibn Amr - Allah ondan və atasından razı olsun - rəvayət edir ki, Peyğəmbər - sallallahu aleyhi va səlləm - belə demişdir: "Qohum-əqrəbasının yaxşılıq etməsinə eynisiylə cavab verən insan heç də qohumluq əlaqələrini birləşdirən kimsə deyildir. Qohumluq əlaqələrini birləşdirən kimsə, qohumları onunla əlaqəni kəsdikləri zaman onlarla əlaqə saxlayıb bu əlaqəni birləşdirən kimsədir". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər - sallallahu aleyhi va səlləm - bu hədisdə bizə xəbər verir ki, qohum-əqrəba əlaqələrini birləşdirmədə və qohum-əqrəbaya yaxşılıq etmədə mükəmməl insan, heç də yaxşılığa yaxşılıqla qarşılıq verən insan deyildir. Əksinə, qohum-əqrəba əlaqələrini həqiqi mənada birləşdirən insan, qohumları onunla əlaqəni kəsdikləri, hətta ona pislik etdikləri zaman belə qohum-əqrəbalarına yaxşılıq etməyə davam edən insandır.

## Hədisin faydalarından:

1. Şəriətin dəyər verdiyi qohumluq əlaqələri heç də sadəcə qarşılıqlı yaxşılıq etmək və mükafat verməklə deyil, əksinə səninlə qohumluq əlaqələrini kəsən kimsələrlə qohumluq əlaqələrini kəsməməyin, sənə zülm edənləri bağışlamağın, pislik edən kimsələrə yaxşılıq etməyinlə olur.
2. Qohumluq əlaqələrini birləşdirmək, mümkün olduğu qədər onlara maddi yardım göstərmək, onlar üçün dua etmək, yaxşılığı əmr edib pislikdən çəkindirmək kimi şeylərlə və həmçinin imkan daxilində xoşagəlməz şeyləri onlardan uzaqlaşdırmaqla olur.

(3854)

(199) – عن أبي هريرة رضي الله عنه أن رسول الله صلى الله عليه وسلم قال: «أَتَدْرُونَ مَا الْغِيبَةُ؟»، قَالُوا: اللهُ وَرَسُولُهُ أَعْلَمُ، قَالَ: «ذِكْرُكَ أَخَاكَ بِمَا يَكْرَهُ»، قِيلَ: أَفَرَأَيْتَ إِنْ كَانَ فِي أَخِي مَا أَقُولُ؟ قَالَ: «إِنْ كَانَ فِيهِ مَا تَقُولُ فَقَدِ اغْتَبْتَهُ، وَإِنْ لَمْ يَكُنْ فِيهِ فَقَدْ بَهَتَّهُ». [صحيح] - [رواه مسلم]

(199) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Bilirsinizmi qeybət nədir?". Sahabələr: "Allah və Rəsulu ən doğrusunu bilir!" - dedilər. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "(Din) qardaşını onun xoşuna gəlmədiyi bir vəsflə xatırlamaqdır". Soruşdular: “Bəs əgər qardaşımda söylədiyim vəsf olarsa?”. Allah Rəsulu (Allahın

salavatı və salamı onun üzərinə olsun) dedi: "Dediyin vəsf o kəsdə olarsa, sən onun qeybətini etmiş olarsan, əgər bu olmazsa, ona böhtan atmış olarsan". [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) haram olan qeybətin həqiqətini bəyan edərək buyurur ki, müsəlman qardaşını onun arxasınca sevmədiyi bir vəsflə xatırlamaqdır. Bu vəsf istər yaradılış sifətləri olsun, istər əxlaqi xüsusiyyətləri olsun, fərqi yoxdur. Məsələn, kor, fırıldaqçı, yalançı kimi xoşa gəlməz sifətlər, hətta sahibində olsa belə bu qeybətdir.

Lakin onun haqqında söylədiyin (sevmədiyi) sifət onda olmazsa, bu qeybətdən daha ağır olur, bu da artıq böhtandır, yəni - insanda olmayan xüsusiyyəti ona iftira olaraq aid etməkdir.

## Hədisin faydalarından:

1. Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) gözəl təlim üsulu - belə ki, məsələləri sual verməklə izah edir.
2. Sahabələrin Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ilə gözəl ədəbi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) onlara sual verdikdə, "Allah və Rəsulu ən doğrusunu bilir!" - deyə cavab verdilər.
3. Sual verilən kəs cavabını bilmədikdə, ən doğrusunu "Allah bilir" deyər.

4. Şəriət fərdlər arasındakı qardaşlığı və onların hüquqlarını mühafizə etməklə cəmiyyəti qoruyur.
5. Qeybət ümumiyyətlə haramdır, amma bəzi məsləhətlərə görə icazəli növləri vardır. Bunlardan: Zülmü dəf etmək - yəni məzlum haqqını alıb ona qaytarmağı bacaranın yanında zalımın ona etdiklərini bildirməsi və "filankəs mənə zülm etdi və ya belə etdi" - deməsi, həmçinin evlilik, şəriklik və ya qonşuluq kimi məsələlərdə bir kəslə məsləhətləşmək.

(5326)

(200) – عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ: «كُلُّ مُسْكِرٍ خَمْرٌ، وَكُلُّ مُسْكِرٍ حَرَامٌ، وَمَنْ شَرِبَ الْخَمْرَ فِي الدُّنْيَا فَمَاتَ وَهُوَ يُدْمِنُهَا لَمْ يَتُبْ، لَمْ يَشْرَبْهَا فِي الْآخِرَةِ». [صحيح] - [رواه مسلم وأخرج البخاري الجملة الأخيرة منه]

(200) – İbn Ömərdən (Allah hər ikisindən razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: “Hər sərxoşedici alkaqollu içkidir və hər bir sərxoşedici haramdır və kim dünyada sərxoşedici içkiyə aludə olub onu daima içərsə və tövbə etmədən ölərsə, onu axirətdə içməyəcəkdir”. [Səhih] - [Hədisi Müslim rəvayət etmiş və Əl-Buxari onun son cümləsini nəql etmişdir]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etmişdir ki, ağlı bulandıran və onu aparan hər bir şey - istər içmək, yemək, nəfəs almaq, istərsə də başqa

şəkildə olsun - sərxoşedici içki (hökmündədir) və Uca Allah hər sərxoş edən və ağlı aparan şeyi - istər az, istərsə də çox olsun - haram və qadağan etmişdir. Bu sərxoşedicilərin hər hansı bir növündən içən, buna davam edən və ölənə qədər bundan tövbə etməyən hər kəs; onu cənnətdə içməkdən məhrum edilməklə Allahın cəzasına layiqdir.

### Hədisin faydalarından:

1. Alkaqollu içkinin haram edilməsinin səbəbi, sərxoşedici olmasıdır və hansı növ olmasından asılı olmayaraq hər sərxoşedici şey haramdır.
2. Uca Allah tərkibindəki böyük zərər və fəsadlara görə alkaqollu içkini haram etmişdir.
3. Cənnətdə şərab içmək, ləzzətin kamilliyi və nemətin tam olmasındandır.
4. Kim bu dünyada öz nəfsini içki içməkdən saxlamazsa, Allah ona cənnətdə şərab içməyi haram edər. Çünki, cəza əməlin cinsindəndir.
5. Ölümdən əvvəl günahlardan tövbə etməyə tələsməyə təşviq etmək.

(58259)

(201) – عن أبي هريرة رضي الله عنه قال: لَعَنَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ الرَّاشِيَ وَالْمُرْتَشِيَ فِي الْحُكْمِ. [صحيح] - [رواه الترمذي وأحمد]

(201) – Əbu Hureyra (Allah ondan razı olsun) demişdir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə

olsun) hökm verərkən rüşvət verənə və rüşvət alana lənət etmişdir. [Səhih] - [Ət-Tirmizi və Əhməd rəvayət ediblər]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) rüşvət verənə və rüşvət alana Allahın rəhmətindən uzaq olması və qovulması üçün bəd dua etmişdir.

Bura, rüşvət verənin istədiyini haqsız yerə əldə edə bilməsi üçün hökm verdiyi məsələdə rüşvət alan hakimlər də daxildir.

**Hədisin faydalarından:**

1. Rüşvət vermək, rüşvət almaq və bu işdə araçılıq etmək, batilə yardım və kömək olunduğu üçün haramdır.
2. Rüşvət böyük günahlardandır. Çünki Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) rüşvət alana da verənə də lənət etmişdir.
3. Rüşvət, məhkəmə və hökm məsələlərində, hakimləri insanlara zülüm etməyə və Allahın endirdiyindən başqası ilə hökm yerməyə sövq etdiyi üçün ən ağır və ən böyük günahdır.

(64689)

(202) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «لَا تَحَاسَدُوا، وَلَا تَنَاجَشُوا، وَلَا تَبَاغَضُوا، وَلَا تَدَابَرُوا، وَلَا يَبِعْ بَعْضُكُمْ عَلَى بَيْعِ بَعْضٍ، وَكُونُوا عِبَادَ اللهِ إِخْوَانًا الْمُسْلِمُ أَخُو الْمُسْلِمِ، لَا يَظْلِمُهُ وَلَا يَخْذُلُهُ، وَلَا يَحْقِرُهُ التَّقْوَى

هَاهُنَا» وَيُشِيرُ إِلَى صَدْرِهِ ثَلَاثَ مَرَّاتٍ «بِحَسْبِ امْرِئٍ مِنَ الشَّرِّ أَنْ يَحْقِرَ أَخَاهُ الْمُسْلِمَ، كُلُّ الْمُسْلِمِ عَلَى الْمُسْلِمِ حَرَامٌ، دَمُهُ، وَمَالُهُ، وَعِرْضُهُ». [صحيح] - [رواه مسلم]

(202) – Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Allahın Rəsulu (sallallahu aleyhi va səlləm) belə demişdir: "Bir-birinizə həsəd etməyin, bir-birinizi aldadaraq qiyməti qaldırmayın, bir-birinizə nifrət bəsləməyin, bir-birinizə arxa çevirməyin, biriniz digərinizin satışı üzərinə satış etməsin. Ey Allahın qulları, qardaş olun! Müsəlman müsəlmanın qardaşıdır, ona zülm etməz, onu köməksiz qoymaz və onu alçatmaz". Peyğəmbər (sallallahu aleyhi va səlləm) sinəsinə işarə edərək üç dəfə: "Təqva buradadır" – deyə təkrar etdi. "Kişiyə müsəlman qardaşını alçaltması şər olaraq kifayət edər. Hər bir müsəlman üçün digər bir müsəlmanın qanı, malı və namusu haramdır". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (sallallahu əleyhi va səlləm) müsəlmana digər müsəlman qardaşına yaxşılıq etməsini tövsiyə etmiş və müsəlman qardaşına qarşı yerinə yetirməsi lazım olan bəzi vacibləri və ədəbləri izah etmişdir. Bunlardan bəziləri aşağıdakılardır: Birinci tövsiyə: Bir-birinizə həsəd etməyin. Yəni biriniz digərinin sahib olduğu nemətin əlindən çıxmasını arzulamasın. İkinci tövsiyə: Aldadaraq qiyməti qaldırmayın. Bu, (kənar şəxsin) bir şeyi almaq niyyəti olmadan sadəcə satıcıya fayda vermək və ya alıcıya zərər vermək üçün qiyməti artırmasıdır. Üçüncü tövsiyə: Bir-birinizə nifrət etməyin. Bu, zərər verməyi arzulamaqdır ki,

bu da sevgiyə ziddir. Lakin nifrət Allah üçün olarsa, bu zaman nifrət etmək vacibdir. Dördüncü tövsiyə: Bir-birinizə arxa çevirməyin. Yəni: Sizdən kimsə qardaşına arxa çevirməsin, ondan üz döndərməsin, onu tərk edib, əlaqəni kəsməsin. Beşinci tövsiyə: Bir-birinizin satışı üzərinə satış etməyin. Yəni: mal alan müştəriyə: "Məndə daha ucuz qiymətə eynisi var və ya eyni qiymətə ondan daha yaxşısı var" - deməsin. Sonra Peyğəmbər (sallallahu əleyhi va səlləm) ümumi bir tövsiyə edərək belə dedi: Bir-birinizə qarşı, qeyd olunan haram şeylərdən çəkinməklə, sevgi, mərhəmət, şəfqət, mülayimlik və xeyir işlərdə yardımlaşmaqla, həmçinin qəlblərin saflığı və hər bir halda məsləhət verməklə qardaş olun. Bu qardaşlığın tələblərindən bəziləri: Müsəlman qardaşına zülm etməsin və ona qarşı həddi aşmasın. Müsəlman qardaşı zülmə məruz qaldığı zaman onu tək buraxmasın, ona yardım edə biləcəyi və zülmü ondan uzaqlaşdırmağa gücü çatdığı bir yerdə onu köməksiz qoymasın. Onu təhqir etməsin, onu kiçik görməsin, ona dəyərsiz və alçaq nəzərlə baxmasın. Bu, qəlbdə olan təkəbbürlükdən qaynaqlanır. Sonra Peyğəmbər (sallallahu əleyhi va səlləm) üç dəfə təkrar edərək təqvanın qəlbdə olduğunu və kimin qəlbində insanı gözəl əxlaqa, Allahdan qorxmağa və daima ona, Allahın müşahidəsi altında olduğunu xatırladan təqva olarsa, belə bir şəxsin - heç vaxt müsəlman qardaşına aşağı baxmayacağını bəyan etmiş və müsəlman qardaşına qarşı aşağı baxmağın şərli xüsusiyyətlərdən və pis əxlaqdan olduğunu xəbər vermişdir. Bu isə onun qəlbində olan

təkəbbürlüyün nəticəsidir. Daha sonra Peyğəmbər (sallallahu əleyhi va səlləm) əvvəldə söylədiyi sözlərini bir daha qüvvətləndirərək vurğuladı ki, bir müsəlmanın digər müsəlmanı öldürərək, yaralayaraq yaxud döyərək qanını axıtması haramdır. Eynilə, müsəlmanın malını haqsız mənimsəmək və həmçinin onu, həm şəxsiyyətinə, həm də nəsəbinə görə pisləmək haramdır.

## Hədisin faydalarından:

1. İman qardaşlığının tələb etdiyi hər bir şey əmr edilmiş və ona zidd olan söz və əməllər isə qadağan olunmuşdur.
2. Təqvanın təməli qəlbdə Allahı tanımaq, Ondan qorxmaq və Onun nəzarətini hiss etməkdir. Bu təqva nəticəsində, saleh əməllər meydana gəlir.
3. Zahiri azğınlıq, qəlbdə təqvanın zəifliyinə dəlalət edir.
4. Müsəlmana hər hansı bir şəkildə, istər sözlə, istərsə də əməllə əziyyət vermək qadağandır.
5. Bir müsəlmanın başqasının sahib olduğu nemətlərin ondan getməsini istəmədən, onda olan nemətlərə sahib olmağı istəməsi həsəd sayılmaz, buna "qibtə" deyilir. Qibtə icazlidir və insana xeyir işlərdə yarışmağa yardım edir.
6. İnsan təbiəti etibarı ilə istəmir ki, kimsə fəzilət baxımından hər hansısa bir şeydə onu üstələsin. Əgər o, başqasının sahib olduğu nemətlərin ondan getməsini arzulayırsa, bu, məzəmmət olunan "həsəd"-dir. Amma xeyir işlərdə onunla yarışmağı istəyərsə, bu, icazəli olan "qibtə"-dir.

7. Bir müsəlmanın, müştəriyə aldığı malda çox aldadıldığını başa salması, "müsəlman qardaşın satışı üzərinə satış etməkdən" deyil. Bu, müsəlman qardaşına nəsihət verməyin tələblərindəndir. Lakin bu, müştəri qardaşına nəsihət etmək niyyəti ilə olmalıdır, heç də satıcıya zərər vermək niyyəti ilə deyil. Çünki əməllər niyyətlərə görədir.
8. Əgər alıcı və satıcı razılaşmayıbsa və qiymət hələ müəyyən edilməyibsə, (başqa bir satıcının müştəriyə öz malını təklif etməsi) müsəlman qardaşının satışı üzərinə satış etməkdən sayılmaz.
9. "Allah üçün nifrət etmək" hədisdə qadağan olunan nifrətdən deyil. Çünki bu, vacibdir və imanın ən möhkəm bağlarından biridir.

(4706)

(203) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه عَنِ النَّبِيِّ صلى الله عليه وسلم قَالَ: «إِيَّاكُمْ وَالظَّنَّ؛ فَإِنَّ الظَّنَّ أَكْذَبُ الْحَدِيثِ، وَلَا تَحَسَّسُوا، وَلَا تَجَسَّسُوا، وَلَا تَحَاسَدُوا، وَلَا تَدَابَرُوا، وَلَا تَبَاغَضُوا، وَكُونُوا عِبَادَ اللهِ إِخْوَانًا». [صحيح] - [متفق عليه]

(203) – Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: “Zənn etməkdən çəkinin; çünki zənn, ən yalan ifadədir. Bir-birinizin gizli işlərini araşdırmayın, qüsurlarını axtarmayın, bir-birinizə paxıllıq etməyin, bir-birinizdən üz çevirməyin, bir-birinizə nifrət etməyin və ey Allahın qulları, qardaş olun!”. [Səhih] -

[Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlmanlar arasında təfriqə və düşmənçiliyə səbəb olan bəzi şeyləri qadağan edir və onlardan çəkindirir. Bunlardan:

(Zənn) - o, qəlbdə yer alan dəlil-sübutsuz ittihamdır və onun ən yalan ifadələrdən olduğunu bəyan edir.

(Ət-Təhəssus): Insanların şəxsi həyatlarını baxmaqla və ya dinləməklə araşdırmaq.

(Ət-Təcəssus) - gizli işləri araşdırmaqdır və bu daha çox şərr və pislikləri nəzərdə tutur.

(Əl-Həsəd) - başqalarının əldə etdiyi nemətə qərəzli olmaq, nifrət etmək.

(Ət-Tədəbur) - Bir-birindən üz çevirmək, bir birinə salam verməmək və ziyarət etməmək.

(Ət-Təbağud) - Nifrət və sevməmək, başqalarına əziyyət vermək, qaşqabaqlı olub, insanları pis qarşılamaq.

Sonra müsəlmanların bir-birinə qarşı davranışlarını yoluna qoyacaq geniş mənalı bir kəlmə dedi: "Ey Allahın qulları, qardaş olun". Qardaşlıq insanlar arasındakı münasibətləri tənzimləyən və onlar arasında sevgi və ünsiyyəti artıran bir bağdır.

**Hədisin faydalarından:**

1. Pis əlamətləri ortaya çıxan kəsdən pis zənn etmək zərər yetirməz, mömin ağıllı və müdrik olmalıdır, pis və günahkar insanlara aldanmamalıdır.

2. Zənndən çəkindirməkdən məqsəd, onun insanın nəfsində qərarlaşmamasına və israr etməməsinə nail olmaqdır, amma öncəliklə qəlbdə yer alıb, sonradan keçib-gedən zənnə görə insan hesaba çəkilməz.
3. Nifrət, kin və müsəlman toplumun fərdləri arasında ayrıseçkiliyə səbəb olan həsəd, insanların şəxsi həyatlarını qeyri etik yollarla araşdırma və bu kimi bənzər vasitələrin haramlığı.
4. Müsəlmana qardaş davranışı ilə nəsihət vermək və sevgi bildirmək tövsiyyəsi.

(5332)

(204) – عن حذيفة رضي الله عنه قال: سمعتُ النبيَّ صلى الله عليه وسلم يقول:

«لَا يَدْخُلُ الْجَنَّةَ قَتَّاتٌ». [صحيح] - [متفق عليه]

(204) – Huzeyfə (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "İnsanlar arasında söz gəzdirən cənnətə daxil olmaz". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, insanlar arasında fəsad törətmək məqsədiylə söz gəzdirənlər cəzaya layiqdirlər ki, buna görə cənnətə girməzlər.

**Hədisin faydalarından:**

1. Nəmimə - insanlar arasında söz gəzdirmək böyük günahlardandır.

2. İnsanlar arasında söz gəzdirmək toplu və fərdlər arasında zərər və fəsad törətdiyinə görə qadağan edilmişdir.

(5368)

(205) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «كُلُّ أُمَّتِي مُعَافًى إِلَّا المُجَاهِرِينَ، وَإِنَّ مِنَ المُجَاهَرَةِ أَنْ يَعْمَلَ الرَّجُلُ بِاللَّيْلِ عَمَلًا، ثُمَّ يُصْبِحَ وَقَدْ سَتَرَهُ اللَّهُ عَلَيْهِ، فَيَقُولَ: يَا فُلَانُ، عَمِلْتُ البَارِحَةَ كَذَا وَكَذَا، وَقَدْ بَاتَ يَسْتُرُهُ رَبُّهُ، وَيُصْبِحُ يَكْشِفُ سِتْرَ اللَّهِ عَنْهُ». [صحيح] - [متفق عليه]

(205) – Əbu Hureyradan (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: “Mən Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: Günahını aşkarda edənlərdən başqa bütün ümmətim bağışlanacaq. Bir kişinin gecə pis iş görüb, sonra Allah o əməlini örtdüyü halda səhər qalxıb: Ey filankəs! - mən axşam belə bir iş etmişəm - deməsi, günahı aşkara çıxarmaqdan sayılır. Rəbbi gecə günahını örtdüyü halda, o, isə səhər Allahın örtdüyünü aşkar edir”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etmişdir ki, günahkar müsəlmanı Allahın əfv edib, bağışlayacağına ümid edilir. Lakin günahını təkəbbürlə və həyasızcasına insanlara bildirən kəs isə istisnadır-bağışlanmağa layiq deyidir. O, gecə günah işləyir, Allah da o günahı örtdüyü halda səhər başqasına dünən

filan günahı işlətdiyini danışır. Rəbbi onun günahını örtdüyü halda gecələyir, səhər durduqda isə o, Allahın örtdüyünü açır (öz günahını aşkara çıxarır)!!

**Hədisin faydalarından:**

1. Uca Allah günahı örtdükdən sonra onu aşkara çıxarmağın çirkinliyi.
2. Günahı açığa çıxarmaqda möminlər arasında əxlaqsızlığı yaymaq var.
3. Allah bu dünyada kimin günahını örtərsə, axirətdə də örtəcək və bu Uca Allahın qullarına olan rəhmətinin genişliyindəndir.
4. Kim günaha düçar olarsa, öz günahını örtməli və Allaha tövbə etməlidir.
5. Günahlarını açığa çıxaran kəslərin əməllərinin günah baxımından böyüklüyü və özlərini bağışlanmadan məhrum etmələri.

(3756)

(206) – عَنِ ابْنِ عُمَرَ رضي الله عنهما: أَنَّ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ خَطَبَ النَّاسَ يَوْمَ فَتْحِ مَكَّةَ، فَقَالَ: «يَا أَيُّهَا النَّاسُ، إِنَّ اللهَ قَدْ أَذْهَبَ عَنْكُمْ عُبِّيَّةَ الْجَاهِلِيَّةِ وَتَعَاظُمَهَا بِآبَائِهَا، فَالنَّاسُ رَجُلَانِ: بَرٌّ تَقِيٌّ كَرِيمٌ عَلَى اللهِ، وَفَاجِرٌ شَقِيٌّ هَيِّنٌ عَلَى اللهِ، وَالنَّاسُ بَنُو آدَمَ، وَخَلَقَ اللهُ آدَمَ مِنْ تُرَابٍ، قَالَ اللهُ: {يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُمْ مِنْ ذَكَرٍ وَأُنْثَى وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللهِ أَتْقَاكُمْ إِنَّ اللهَ عَلِيمٌ خَبِيرٌ} [الحجرات: 13]». [صحيح] - [رواه الترمذي وابن حبان]

(206) – İbn Ömərdən (Allah ondan və atasından razı olsun) rəvayət edildiyinə görə (o belə demişdir): Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Məkkənin fəthi günü insanlara xitabən belə buyurmuşdur: «Ey insanlar! Allah sizdən cahiliyətin təkəbbürünü və ata-babalarınızla gürurlanmağı aradan qaldırmışdır. İnsanlar iki qisimdir. Birisi: İtaətkar, müttəqi və Allah qatında dəyərlidir. Digəri də facir, bədbəxt və Allah qatında rəzil bir kimsədir. İnsanlar Adəmin övladlarıdır. Allah Adəmi torpaqdan yaratmışdır. Uca Allah belə buyurmuşdur: “Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız (Ondan) ən çox qorxanınızdır. Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır”. [Hücurat 49 surəsi: ayə 13]». [Səhih] - [Ət-Tirmizi, İbnu Hibbən rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Məkkənin fəth edildiyi gün insanlara xitab edərək belə buyurmuşdur: Ey insanlar, Allah sizdən cahiliyə təkəbbürünü və qürurunu, ata-babalar ilə fəxr etməyi aradan qaldırmışdır. İnsanlar iki növdür:

Birinci növ: İzzət və cəlal sahibi olan Allaha ibadət edən saleh, təqva sahibi, itaətkar bir mömindir. Belə kimsə insanlar arasında əsil-nəcabət sahibi olmasa da Allah qatında dəyərli bir kimsədir.

İkinci növ isə: Kafir, facir və bədbəxt olan kimsədir. Belə kimsə insanlar arasında əsil-nəcabət, hörmət və sayğıya sahib olsa da Allah qatında dəyərsiz, zəlil kimsədir.

Bütün insanlar Adəmin övladlarıdır, Uca Allah Adəmi toraqdan yaratmışdır. Əsli torapaqdan olan bir kimsənin təkəbbürlük etməsi və özünü bəyənməsi yaraşmaz. Bunun dəlili izzət və cəlal sahibi olan Allahın bu ayəsidir: “Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız (Ondan) ən çox qorxanınızdır. Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır”. [Hücurat 49 surəsi, ayə 13].

## Hədisin faydalarından:

1. Hədisdə əsil-nəcabətlə öyünüb, fəxr etmək qadağan edilmişdir.

(65074)

(207) – عن عائشة رضي الله عنها عن النبي صلى الله عليه وسلم قال: «إِنَّ أَبْغَضَ الرِّجَالِ إِلَى اللهِ الْأَلَدُّ الْخَصِمُ». [صحيح] - [متفق عليه]

(207) – Aişədən (Allah ondan razə olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Allah dərgahında ən qəzəbinə gələn insanlar, mübahisə etdikdə həddi aşanlardır" .[Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Uca və Müqəddəs Allah insanlar arasında haqqa tabe olmayıb, şiddətli şəkildə və çox mübahisə edən, onu rədd etməyə çalışan və yaxud haqlı olaraq mübahisə edən, lakin mübahisədə həddi aşaraq mübaliğə edən və elmsiz höcətləşən kəsə nifrət bəsləyir.

**Hədisin faydalarından:**

1. Şərii məhkəmə yolu ilə haqqını tələb edən məzlum, sözügedən məzəmmətli mübahisə mövzusuna daxil deyildir.
2. Höcətləşmə və mübahisə müsəlmanların arasında ayrılıq və düşmənçiliyə səbəb olacaq dilin bəlalarındandır.
3. Gözəl mübahisə, haqq üzərində qurulan və gözəl üslubla edilən müzakirədir, lakin haqqı inkar etməklə, batilə üstünlük vermək və dəlilsiz, sübutsuz mübahisə etmək məzəmmət olunan mübahisədir.

(5474)

(208) – عن أبي بَكرة رضي الله عنه قال: سمعتُ رسولَ الله صلى الله عليه وسلم يقول: «إِذَا الْتَقَى الْمُسْلِمَانِ بِسَيْفَيْهِمَا فَالْقَاتِلُ وَالْمَقْتُولُ فِي النَّارِ»، فَقُلْتُ: يَا رَسُولَ اللهِ هَذَا الْقَاتِلُ، فَمَا بَالُ الْمَقْتُولِ؟ قَالَ: «إِنَّهُ كَانَ حَرِيصًا عَلَى قَتْلِ صَاحِبِهِ». [صحيح] - [متفق عليه]

(208) – Əbu Bəkrədən (Allah ondan razı olsun) rəvayət edilən hədisdə Peyğəmbər (Allahın salavatı və salamı onun

üzərinə olsun) belə demişdir: "İki müsəlman qılıncla (bir-birini öldürmək üçün) qarşı-qarşıya gəlirsə, öldürən də, ölən də cəhənnəmdədir". Dedim: "Ey Allahın Rəsulu, bu qatildir, bəs ölənin günahı nədir? (O niyə cəhənnəmdədir?) Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "O da, müsəlman qardaşını öldürmək istəyirdi". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, iki müsəlman bir-birini öldürmək üçün qarşılaşdıqda, öldürən kəs əks tərəfi öldürdüyü üçün cəhənnəmdədir. Lakin səhabələr: "Öldürülən necə cəhənnəmdə olur?" deyə heyrətə düşmüşdülər. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) də bildirdi ki, o da öz qardaşını öldürməyə cəhd etdiyi üçün cəhənnəmdədir. Onun öldürə bilməməsi, öldürənin daha cəld olduğuna görə rəqibini qabaqlamasına görədir.

## Hədisin faydalarından:

1. Günaha əzm və ona aparan səbəbləri edənin əzaba layiq olması.
2. Müsəlmanlar öz aralarında döyüşməkdən şiddətli şəkildə çəkindirilmiş və Cəhənnəmlə xəbərdarlıq edilmişdirlər.
3. Müsəlmanların, fəsad törədən və həddi aşanlarla haqlı olaraq döyüşməsi bu xəbərdarlığa aid deyildir.
4. Böyük günah sahibi bu əməlinə görə küfr etmir, çünki Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə

olsun) öz aralarında döyüşən həmin kəsləri müsəlman adlandırdı.

5. İki müsəlman hər hansı vasitə ilə bir-birini öldürmək üçün üz-üzə gələrsə, biri digərini öldürərsə, öldürən və ölən də cəhənnəmdədir. Hədisdə qılınc misal olaraq qeyd edilmişdir.

(4304)

(209) – عن أبي موسى الأشعري رضي الله عنه عن النبي صلى الله عليه وسلم قال:

«مَنْ حَمَلَ عَلَيْنَا السِّلَاحَ فَلَيْسَ مِنَّا». [صحيح] - [متفق عليه]

(209) – Əbu Musa əl-Əşaridən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: "Kim bizə silah çəkərsə, o bizdən deyildir". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlmanları qorxutmaq və ya mal-dövlətlərini qəsb etmək məqsədi ilə onlara qarşı silah qaldırılmasını qadağan etmişdir. Kim bunu haqsız yerə edərsə, o, böyük bir xəta və böyük günahlardan birini etmiş olar və o kimsə bu şiddətli təhdidə layiq olar.

## Hədisin faydalarından:

1. Müsəlmanın digər müsəlman qardaşları ilə döyüşməsi şiddətli bir şəkildə qadağan edilmişdir.

2. Yer yüzündəki ən böyük fitnə və pisliklərdən biri də, müsəlmanlara silah çəkmək və insanları öldürərək yer yüzündə fitnə-fəsad yaymaqdır.
3. Bu hədisdə gələn şiddətli təhdid, qiyamçılara, yer yüzündə fitnə çıxaranlara və s. bu kimi fitnə-fəsad yayanlara qarşı döyüşməyi qadağan etmir.
4. Hətta zarafatla da olsa belə silah və ona bənzər şeylərlə müsəlmanı qorxutmağın haram olması.

(2997)

(210) – عن عائشة رضي الله عنها قالتْ: قال النبي صلى الله عليه وسلم: «لَا تَسُبُّوا الْأَمْوَاتَ، فَإِنَّهُمْ قَدْ أَفْضَوْا إِلَى مَا قَدَّمُوا». [صحيح] - [رواه البخاري]

(210) – Aişədən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Ölüləri söyməyin, çünki onlar artıq dünyada ikən etdikləri əməllərə qovuşublar". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, ölüləri söymək, onların şərəf-ləyaqətləri barədə nalayiq sözlər demək haram və pis əxlaqdandır, çünki onlar dünyada ikən etdikləri istər saleh, istərsə də pis əməllərə artıq qovuşublar və bu söyüş onlara çatmır, lakin sağ olan insanlara əziyyət verir.

**Hədisin faydalarından:**

1. Bu hədis ölüləri söyməyin haramlığına dəlalət edir.

2. Ölüləri söyməyi tərk etməkdə, sağ olanların mənafeyinin hifz edilməsi, cəmiyyətin qarşılıqlı düşmənçilik və nifrətdən qorunması kimi xeyirlər vardır.
3. Dünyasını dəyişmiş insanların söyməyin qadağa edilməsinin hikməti budur ki, onlar etdikləri əməllərə qovuşublar və ölüləri söymək heç kimə fayda verməz, əksinə bu ölənin yaxınlarına əziyyət verməkdir.
4. İnsan xeyir olmayan sözləri dilinə gətirməməlidir.

(5364)

(211) – عن أبي أيوب الأنصاري رضي الله عنه أن رسول الله صلى الله عليه وسلم قال: «لَا يَحِلُّ لِرَجُلٍ أَنْ يَهْجُرَ أَخَاهُ فَوْقَ ثَلَاثِ لَيَالٍ، يَلْتَقِيَانِ، فَيُعْرِضُ هَذَا وَيُعْرِضُ هَذَا، وَخَيْرُهُمَا الَّذِي يَبْدَأُ بِالسَّلَامِ». [صحيح] - [متفق عليه]

(211) – Əbu Əyyub Əl-Ənsaridən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Bir insana din qardaşını üç gecədən artıq tərk edərək küsülü qalması caiz deyildir, onlar görüşdükdə birisi digərindən üz çevirər, digəri də bunu təkrar edər. Sözsüz ki, onların ən xeyirlisi birinci salamlaşandır". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlmanın din qardaşını üç gecədən artıq tərk

edərək küsülü qalmasını, üz-üzə gəldikdə ona salam verməyərək danışdırmamasını qadağan etmişdir.

Bu iki küsülü kəsin ən xeyirlisi, aranı düzəltməyə çalışan, önə keçib birinci salam verəndir. Burda "hicr", yəni tərk etmək sözündə məqsəd, nəfsi üçün hicr etməyə aiddir. Amma Allah rizası üçün günahkarları, bidət əhlini, əxlaq cəhətdən pis yoldaşları tərk etmək, bu müəyyən bir vaxtla məhdudlaşmır, çünki bu növ insanları tərk etmək ümumi xeyir və fayda üçündür və islah olunduqca onlara qarşı tətbiq olunan hicr də aradan qaldırılır.

## Hədisin faydalarından:

1. İnsan təbiətini nəzərə alaraq üç və daha az vaxt küsülü qalmağa icazə verilmişdir, və üç gün ərzində tərk etmə qəlblərdə baş verən bu inciklik və sıxıntının aradan qalxması üçündür.
2. Salam verməyin fəziləti, çünki o, nəfslərdə olan kin-küdurəti aradan qaldırır və eyni zamanda bu, sevgi və mehribançılığın bir əlamətidir.
3. İslamın qardaşlığa və müsəlmanlar arasında birliyə çağırışı.

(5365)

(212) – عن سهل بن سعد رضي الله عنه عن رسول الله صلى الله عليه وسلم قال:

«مَنْ يَضْمَنْ لِي مَا بَيْنَ لَحْيَيْهِ وَمَا بَيْنَ رِجْلَيْهِ أَضْمَنْ لَهُ الْجَنَّةَ». [صحيح] - [رواه البخاري]

(212) – Səhl bin Səad - Allah ondan razı olsun - rəvayət edir ki, Allah Rəsulu - salləllahu aleyhi va səlləm - belə buyurmuşdur: "Kim mənə iki çənəsi arasındakını (dilini) və iki ayağı arasındakını (övrət yerini haramdan qorumağa) zəmanət verərsə, mən də ona Cənnəti zəmanət verərəm". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va səlləm - bu hədisdə bizə iki iş barəsində xəbər verir. Əgər müsəlman bunların hər ikisinə əməl edərsə, Cənnətə daxil olar.

Birincisi: Dilin Uca Allahı qəzəbləndirən sözlərdən qorunması.

İkincisi: Cinsiyyət orqanının zinaya düşməkdən qorunması.

Çünki bu iki əza ilə daha çox günahlar işlənilir.

**Hədisin faydalarından:**

1. Dilin və övrətin qorunması Cənnətə aparan yoldur.
2. Bu hədisdə dil və cinsiyyət orqanı xüsusi olaraq zikr edilmişdir. Çünki bu iki əza dünya və axirətdə insanı bəlaya salan iki əsas əzadır.

(3475)

(213) – عَنْ أَبِي سَعِيدٍ الخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ -وَكَانَ غَزَا مَعَ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ ثِنْتَيْ عَشْرَةَ غَزْوَةً- قَالَ: سَمِعْتُ أَرْبَعًا مِنَ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، فَأَعْجَبْنَنِي، قَالَ: «لاَ تُسَافِرِ المَرْأَةُ مَسِيرَةَ يَوْمَيْنِ إِلَّا وَمَعَهَا زَوْجُهَا أَوْ ذُو مَحْرَمٍ، وَلاَ صَوْمَ فِي يَوْمَيْنِ: الفِطْرِ وَالأَضْحَى، وَلاَ صَلاَةَ بَعْدَ الصُّبْحِ حَتَّى تَطْلُعَ الشَّمْسُ، وَلاَ بَعْدَ العَصْرِ

حَتَّى تَغْرُبَ، وَلاَ تُشَدُّ الرِّحَالُ إِلَّا إِلَى ثَلاَثَةِ مَسَاجِدَ: مَسْجِدِ الحَرَامِ، وَمَسْجِدِ الأَقْصَى، وَمَسْجِدِي هَذَا». [صحيح] - [متفق عليه]

(213) – Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ilə on iki döyüşdə iştirak etmiş Əbu Səid Əl-Xudridən (Allah ondan razı olsun) rəvayət edilir ki, o, demişdi: Mən Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) dörd söz eşitdim və mənim xoşuma gəldi. O, belə dedi: “Yanında əri və ya məhrəmi olmayan qadın iki günlük məsafəyə yola çıxmasın. İki gün: Fitr (Ramazan) və Qurban bayramı günləri oruc tutulmaz. Sübh namazından sonra günəş çıxana qədər və əsr namazından sonra günəş batana qədər namaz yoxdur. (İbadət üçün) üç məsciddən başqasına səfər edilməz: Məscidul-Həram, Məscidul-Əqsa və mənim bu məscidim”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) dörd şeyi qadağan etdi:

Birincisi: Qadının, əri və ya məhrəmlərindən biri - oğul, ata, qardaş oğlu, bacı oğlu, əmi və dayı kimi qadına evlənməsi əbədiyyən haram olan kişilərdən biri - olmadan iki günlük məsafəyə səfər etməsinin qadağan edilməsi.

İkincisi: İstər nəzir, istər nafilə, istərsə də kəffarə orucu olsun, Ramazan bayramı və Qurban bayramı günü müsəlmanın oruc tutmasının qadağan edilməsi.

Üçüncüsü: Əsr namazından sonra günəş batana qədər və sübh namazından sonra günəş çıxana qədər nafilə namazı qılmağın qadağan edilməsi.

Dördüncüsü: Bu üç məsciddən başqa hər hansı bir yerə səfər etmək, oranın fəzilətli olduğuna inanmaq və orada yaxşı əməllərin savabının qat-qat artacağına inanmaq qadağandır. Ona görə namaz qılmaq üçün başqa yerlərə səfər etməyin, çünki savab yalnız bu üç məsciddə, Məscidul-Həram, Peyğəmbər məscidi və Məscidul-Əqsada qat-qat artıq yazılır.

## Hədisin faydalarından:

1. Qadının, yanında məhrəmi olmadan səfər etməsinin icazəli olmaması.
2. Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) "Əri və ya məhrəmi" sözünə əsasən, heç bir qadın səfərdə digər qadın üçün məhrəm deyil.
3. Qadına, əri və məhrəmi olmadan səfər adlanan hər bir səyahətə çıxmaq qadağan edilir və bu hədis sual verənin vəziyyətinə və yaşayış yerinə uyğun olmuşdur.
4. Qadının məhrəmi əri və ya ata, oğul, əmi və dayı kimi qohumluq əlaqəsinə görə evlənməsi həmişəlik haram olan və ya süd atası, süd əmisi kimi süd vermə yolu ilə yaxud ərin atası kimi evlilik yolu ilə evlənməsi həmişəlik haram olan şəxslərdir. O (məhrəm olan kəs), həddi-buluğa çatmış, ağıllı, etibarlı və güvənilən müsəlman olmalıdır. (Səfərdə qadının yanında)

məhrəmin olmasının məqsədi qadını himayə etmək, onu qorumaq və onun işlərini yoluna qoymaqdır.

5. İslam şəriətinin qadına verdiyi diqqət, onu himayə etməsi və onu qoruması.
6. Sübh və əsr namazlarından sonra qılınan nafilə namazının səhih (doğru, keçərli) olmaması. Fərz namazlarının qəzaları, məscidə girərkən qılınan namaz və bunun kimi səbəblərə bağlı namazlar bundan istisnadır.
7. Günəş çıxandan dərhal sonra namaz qılmaq qadağandır. Əksinə, günəşin nizə hündürlüyündə yüksəlməsi lazımdır. Bu da təxminən on dəqiqə ilə on beş dəqiqəyə qədər vaxta bərabərdir.
8. Əsr namazının vaxtı günəşin batmasına qədər davam edir.
9. Bu hədisdə üç məscidə səfər etməyin icazəli olmasına işarə vardır.
10. Üç məscidin fəziləti və digərlərindən üstünlüyü.
11. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) qəbri olsa da belə, qəbirləri ziyarət etmək üçün səfər etmək icazəli deyil. Mədinədə olan, yaxud şər'i və ya icazəli bir məqsədlə oraya gələn kəsə isə, o qəbiri ziyarət etmək icazəlidir.

(10603)

(214) – عن أسامة بن زيد رضي الله عنهما عن النبي صلى الله عليه وسلم قال:

«مَا تَرَكْتُ بَعْدِي فِتْنَةً أَضَرَّ عَلَى الرِّجَالِ مِنَ النِّسَاءِ». [صحيح] - [متفق عليه]

(214) – Usamə bin Zeyddən (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Məndən sonra kişilər üçün ən təhlükəli fitnə (yoldan çıxaran) qadınlar olacaq".
[Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, özündən sonra kişilər üçün qadınlardan daha zərərli sınaq və imtahan yoxdur. Məsələn qadın kişinin öz ailəsindəndirsə, o qadına şəriətə zidd olan məsələlərdə tabe olur, və yaxud qadın yad biridirsə, kişinin o qadınla bir məkanda olması və tək qalması fitnə-fəsada gətirib çıxara bilir.

**Hədisin faydalarından:**

1. Müsəlman, qadınların fitnəsindən ehtiyat etməlidir, fitnəyə aparan hər bir vasitənin qarşısını almalıdır.
2. Mömin Allaha sarılmalı və fitnələrdən qorunmaq üçün Ona sığınmalıdır.

(5830)

(215) – عَن عَبْدِ اللَّهِ بنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كُنَّا مَعَ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، فَقَالَ: «مَنِ اسْتَطَاعَ البَاءَةَ فَلْيَتَزَوَّجْ، فَإِنَّهُ أَغَضُّ لِلْبَصَرِ، وَأَحْصَنُ لِلْفَرْجِ، وَمَنْ لَمْ يَسْتَطِعْ فَعَلَيْهِ بِالصَّوْمِ، فَإِنَّهُ لَهُ وِجَاءٌ». [صحيح] - [متفق عليه]

(215) – Abdullah bin Məsuddan (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Biz Peyğəmbərin (Allahın

salavatı və salamı onun üzərinə olsun) yanında idik və o, belə dedi: "Kim evlənə bilirsə, evlənsin. Çünki evlənmək, gözü naməhrəmlərə baxmaqdan, ayıb yerlərini isə zinadan qoruyur. Kim evlənə bilmirsə, oruc tutsun. Həqiqətən oruc (axtalama kimi) şəhvəti qırır". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) cinsi yaxınlıq və nikah yükünə (ailəni dolandırmağa) qadir olanları evlənməyə təşviq etmişdir, çünki, o haramlara baxmaqdan qoruyur və cinsi orqanı hifz edir və əxlaqsızlığa düşməyə maneə olur. Kimin nikah yükünə gücü çatmaz, lakin cinsi əlaqəyə qadir olarsa, o kəs isə oruc tutsun, çünki o cinsi orqanın şəhvətini kəsir və məninin şərrinin qarşısını alır.

## Hədisin faydalarından:

1. İslamın iffət səbəblərinə və fuhuşdan salamat qalmağa hərisliyi.
2. Evliliyə maddi gücü çatmayanları oruc tutmağa təşviq etmək, çünki o cinsi şəhvəti zəiflədir.
3. Orucun *kastrasiyaya* bənzədilməsi yönü budur ki, kastrasiya xayaların damarlarına zərbədir ki, onların məhv olması ilə cinsi əlaqəyə olan həvəs də aradan qalxır, eləcə də oruc, o da cinsi əlaqəyə olan həvəsi zəiflədir.

(5863)

(216) – عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رضي الله عنه عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ:

«إِنَّ الدُّنْيَا حُلْوَةٌ خَضِرَةٌ، وَإِنَّ اللهَ مُسْتَخْلِفُكُمْ فِيهَا، فَيَنْظُرُ كَيْفَ تَعْمَلُونَ، فَاتَّقُوا الدُّنْيَا وَاتَّقُوا النِّسَاءَ، فَإِنَّ أَوَّلَ فِتْنَةِ بَنِي إِسْرَائِيلَ كَانَتْ فِي النِّسَاءِ». [صحيح] - [رواه مسلم]

(216) – Əbu Səid Əl-Xudridən (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Dünya şirin və valehedicidir. Həqiqətən, Allah sizi dünyaya varis təyin etmiş və ondan necə istifadə edəcəyinizə nəzarət edir. Dünyadan qorxun! Qadınlardan qorxun! Həqiqətən İsrail oğullarının ilk dəfə azmaları (fitnəyə düşmələri) qadınlar səbəbindən olmuşdur”. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) izah edir ki, dünya, ləzzəti şirin, görkəmi gözəldir, ona görə də insan ona aldanar, ona qərq olar və onu ən böyük marağına çevirər. Uca Allah bu həyatda hər nəslimizdən sonra gələn digər nəsillərimizi varis etdi ki, necə əməl edəcəyimizə baxsın, Ona itaət edəcəyik, yoxsa asi olacağıq? Sonra buyurdu: Ehtiyatlı olun ki, dünya ləzzətləri və zinətləri sizi aldatmasın və bu sizi Allahın sizə əmr etdiklərini tərk edib, haram buyurduqlarına düşməyə vadar etməsin. Ehtiyat edilməli olan ən böyük dünya fitnələrindən biri, qadınların fitnəsidir və bu, İsrail övladlarının düçar olduğu ilk fitnə idi.

**Hədisin faydalarından:**

1. Təqvalı olmağa, dünyanın ləzzətləri və zinətləri ilə başı qarışdırmamağa təşviq.
2. Qadınların fitnəsindən kişiləri çəkindirmək: onlara baxmaq, onların yad kişilərlə qaynayıb-qarışmağına laqeyid yanaşmaq və sairə bu kimi əməllərin qadağan edilməsi.
3. Qadınların fitnəsi dünyanın ən böyük fitnələrindəndir.
4. Keçmiş xalqlardan ibrət götürmək, İsrail oğullarının başına gələnlər, başqalarının da başına gələ bilər.
5. Həyat yoldaşı misalında qadınların fitnəsi, kişini gücü çatmadığı xərclərə vadar etməsi, onu dinlə əlaqəli əməllərdən yayındırması və onun dünya ləzzətlərinə həris olmağa sövq etməsidir. Naməhrəm qadın fitnəsi isə, qadın evdən kənara çıxıb yad kişilərlə qaynayıb-qarışarsa, xüsusən də açıq-saçıq və bər-bəzəkli geyinərsə, bu halda onun fitnəsi kişiləri yoldan çıxarar, onları haqdan uzaqlaşdıra bilər. Bəzən bu zinaya gətirib çıxara bilər (və ya onun müxtəlif formalarına). Buna görə, də mömin Allaha sarılmalı və onların fitnələrindən xilas olmaq üçün Ona üz tutmalıdır.

(3053)

(217) – عن أبي موسى رضي الله عنه أن النبي صلى الله عليه وسلم قال: «لَا نِكَاحَ إِلَّا بِوَلِيٍّ». [صحيح] - [رواه أبو داود والترمذي وابن ماجه وأحمد]

(217) – Əbu Musa Əl-Əşaridən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: "Vəlisiz nikah yoxdur". [Səhih] - [Əbu Davud, Ət-Tirmizi, İbn Məcə, Əhməd rəvayət ediblər]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) qadının vəlisi olmadan nikah bağlanmasının səhih olmadığını bəyan etmişdir.

**Hədisin faydalarından:**

1. Vəli, nikahın səhih olması üçün şərtdir. Əgər nikah, qadının vəlisi olmadan bağlanarsa yaxud qadın özü özünü evləndirərsə nikah səhih sayılmaz.
2. Vəli, qadına ən yaxın olan kişidir. Əgər qadına daha yaxın bir vəli varsa, bu zaman ona uzaq olan bir vəlinin onu evləndirməsi xətadır.
3. Vəlinin: mükəlləf, kişi, nikahın məsləhətini bilən bir şəxs olması və həmçinin vəlisi olduğu qadın ilə vəlinin eyni bir dindən olması şərtdir. Kimdə bu şətrlərdən biri yoxdursa o, nikah əqdində qadına vəlilik etmə hüquqna sahib deyildir.

(58066)

(218) – عن عقبة بن عامر رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «أَحَقُّ الشُّرُوطِ أَنْ تُوفُوا بِهِ مَا اسْتَحْلَلْتُمْ بِهِ الْفُرُوجَ». [صحيح] - [متفق عليه]

(218) – Uqbə bin Amirdən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Yerinə yetirməli olduğunuz şərtlərin ən vacibi, evlilikdə qoyulan şərtlərdir." [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) yerinə yetirilməsi üçün ən vacib şərtləri, qadınla yaxınlıq etməni icazəli edən səbəbi açıqlayır. İzah edir ki, bu qadının nikah müqaviləsində tələb etdiyi caiz şərtlərdir.

**Hədisin faydalarından:**

1. Haramı halal edən, halalı haram edən şərtlər istisna olmaqla, tərəflərdən birinin söz verdiyi şərtlərə sadiq olmağın vacibdir.
2. Nikahın şərtlərinə sadiq olmaq digərlərindən daha mühümdür, çünki cinsi əlaqənin halal edilməsi qarşılığında edilən şərtlərdəndir.
3. İslamda evliliyin ali dərəcəyə malik olması, belə ki, evlilik şərtlərinə riayət etməyi xüsusi olaraq vurğulamışdır.

(6021)

(219) – عن عبد الله بن عمرو رضي الله عنهما أن رسول الله صلى الله عليه وسلم قال: «الدُّنْيَا مَتَاعٌ، وَخَيْرُ مَتَاعِ الدُّنْيَا الْمَرْأَةُ الصَّالِحَةُ». [صحيح] - [رواه مسلم]

(219) – Abdullah bin Amrdan (Allah onların hər ikisindən razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Dünya keçici bir ləzzətdir. Dünya ləzzətinin ən xeyirlisi saleh qadındır". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, dünya nemətlərinin ləzzətləri müəyyən bir zaman ötdükcə bitir, saleh həyat yoldaşı isə bu dünyada olan ən gözəl nemətdir, o qadın ki, əri ona nəzər salanda sevinər, əmr etdikdə itaət edər, ərinin yoxluğunda onun şərəf-ləyaqətini və var-dövlətini qoruyar.

**Hədisin faydalarından:**

1. İsraf və təkəbbürlük etmədən Allahın qullarına halal etdiyi dünyanın təmiz nemətlərindən istifadəsinin icazəli olması.
2. Saleh zövcə seçməyə təşviq, çünki o, Rəbbinə itaətdə ərinə dayaqdır.
3. Dünya nemətlərinin ən xeyirlisi Allaha itaətdə olan və ya Ona itaət etməyə yardım edəndir.

(5794)

(220) – عَنْ جَرِيرِ بْنِ عَبْدِ اللهِ رَضِيَ اللهُ عنه قَالَ: سَأَلْتُ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ عَنْ نَظَرِ الْفُجَاءَةِ فَأَمَرَنِي أَنْ أَصْرِفَ بَصَرِي. [صحيح] - [رواه مسلم]

(220) – Cərir bin Abdullahdan (Allah ondan razı olsun) rəvayət edilir ki, o belə dedi: Allah Rəsulundan (Allahın

salavatı və salamı onun üzərinə olsun) (əcnəbi qadına) qəflətən (qeyri-qəsdli) olan baxış haqqında soruşdum və mənə baxışımı kənara çəkməyi əmr etdi. [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Cərir bin Abdullah (Allah ondan razı olsun) Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) kişinin qəflətən, qəsdsiz yad qadına baxması haqqında soruşdu? O (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu ki, həmən o, üzünü digər tərəfə və yönə çevirməlidir və bu zaman ona heç bir günah yoxdur.

## Hədisin faydalarından:

1. Baxışları aşağı salmağa təşviq.
2. Gözün qəflətən və qeyri-ixtiyari şəkildə baxmağın haram olduğu bir şeyi gördüyü zaman, ona baxmağa davam etməkdən çəkindirmək.
3. Hədisdən anlaşılır ki, qadına baxmağın haram olması səhabələr arasında sabit bir məsələ idi. Cəririn (Allah ondan razı olsun) Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) onun nəzərlərinin qeyri-qəsdli olaraq qadına düşdüyü təqdirdə, bunun hökmünün qadına qəsdlə baxanın hökmü ilə eyni olub-olmaması haqqında soruşması buna dəlildir.
4. Bu, şəriətin bəndələrin mənafeyinə göstərdiyi diqqəti ifadə edir. Çünki şəriət, həm dünya, həm də axirət baxımından fəsadlara səbəb olduğuna görə, yad qadına baxmağı qadağan etmişdir.

5. Səhabələrin Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına qayıtmaları və onlara qaranlıq qalan məsələlər haqqında ondan soruşmaları. Beləcə də avam insanlar alimlərə qayıtmalı və onlara qaranlıq qalan məsələləri alimlərdən soruşmalıdır.

(8902)

(221) – عَنْ أَنَسٍ رَضِيَ اللهُ عنهُ قَالَ: ضَحَّى النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ بِكَبْشَيْنِ أَمْلَحَيْنِ أَقْرَنَيْنِ، ذَبَحَهُمَا بِيَدِهِ، وَسَمَّى وَكَبَّرَ، وَوَضَعَ رِجْلَهُ عَلَى صِفَاحِهِمَا. [صحيح] - [متفق عليه]

(221) – Ənəsdən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə belə dedi: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) əli ilə ağ-qara buynuzlu iki qoç qurban kəsdi və "Bismilləh, Allahu Əkbər!" dedi və ayağını onların boynuna qoydu. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Ənəs (Allah ondan razı olsun) xəbər verir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) qurban bayramı günündə əli ilə ağ-qara buynuzlu iki qoç kəsdi və dedi: "Bismilləh, Allahu Əkbər!" və ayağını onun boynuna qoydu.

## Hədisin faydalarından:

1. Qurban kəsməyin məşru (İslam şəriətindən) olması və müsəlmanlar bunun üzərində ittifaq etmişlər.

2. Gözəl görkəminə, piyi və əti daha yaxşı olduğuna görə qurbanlığın Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) kəsdiyi cinsdən olması daha yaxşıdır.
3. İmam Nəvəvi demişdir: “Bu hədisdə insanın öz qurbanını şəxsən özü kəsməsinin müstəhəb olduğu bildirilir. Üzrlü səbəb olmadan qurbanı başqasına kəsməyə həvalə etməməlidir. Lakin zərurət olduqda başqasına tapşırarsa, bu zaman onun kəsilməsində iştirak etməsi (yəni: orada olması) müstəhəbdir. Əgər bu işi bir müsəlmana həvalə etsə, bu ixtilaf olmadan icazəlidir”.
4. İmam İbn Həcər demişdir: “Bu hədisdə qurban kəsərkən: "Bismilləh" və “Allahu Əkbər” deməyin və həmçinin ayağını qurbanın boynunun sağ tərəfinə qoymağın müstəhəbliyinə işarə vardır. Alimlər yekdilliklə bildirmişlər ki, heyvan sol tərəfi üstə uzadılmalıdır, kəsən şəxs isə sağ ayağını heyvanın sağ tərəfinə qoymalıdır ki, sağ əli ilə bıçağı tutmaq, sol əli ilə də başını saxlamaq daha asan olsun”.
5. Buynuzlu heyvanın qurban kəsilməsi müstəhəbbdir, lakin başqası da icazəlidir.

(2971)

(222) – عَن عَبْدِ الرَّحْمَنِ بْنِ أَبِي لَيْلَى أَنَّهُمْ كَانُوا عِنْدَ حُذَيْفَةَ، فَاسْتَسْقَى فَسَقَاهُ مَجُوسِيٌّ، فَلَمَّا وَضَعَ القَدَحَ فِي يَدِهِ رَمَاهُ بِهِ، وَقَالَ: لَوْلاَ أَنِّي نَهَيْتُهُ غَيْرَ مَرَّةٍ وَلاَ مَرَّتَيْنِ - كَأَنَّهُ يَقُولُ: لَمْ أَفْعَلْ هَذَا-، وَلَكِنِّي سَمِعْتُ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «لاَ

تَلْبَسُوا الحَرِيرَ وَلاَ الدِّيبَاجَ، وَلاَ تَشْرَبُوا فِي آنِيَةِ الذَّهَبِ وَالفِضَّةِ، وَلاَ تَأْكُلُوا فِي صِحَافِهَا، فَإِنَّهَا لَهُمْ فِي الدُّنْيَا وَلَنَا فِي الآخِرَةِ». [صحيح] - [متفق عليه]

(222) – Abdurrəhman bin Əbi Leylədən rəvayət edildiyinə görə, onlar Huzeyfənin (Allah ondan razı olsun) yanında idilər və o, su istədi və bir məcusi ona içməyə bir şey verdi və məcusi fincanı onun əlinə qoyduqda, Huzeyfə onu məcusinin üstünə atıb dedi: əgər onu dəfələrlə qadağan etməsəydim - sanki demək istəyirdi ki: mən bu cür etməzdim - lakin mən Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "İpək və atlaz geyinməyin, qızıl və gümüş qablardan içməyin və onlardan hazırlanmış qablarda yemək yeməyin, çünki bunlar dünyada onlar (kafirlər) üçün, axirətdə isə bizim üçündür". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) kişilərə ipəyin istənilən növünü geyinməyi qadağan etmişdir. Həmçinin kişilərə və qadınlara qızıl və gümüş qablardan yemək və içməyi qadağan etmişdir. Və xəbər vermişdir ki, bunlar Qiyamət günü yalnız möminlərə aid olacaq. Çünki möminlər dünyada ikən Allaha itaət etdikləri üçün bu şeylərdən uzaq dururdular. Kafirlərə gəlincə, bu şeylər axirətdə onlara aid olmayacaq. Çünki onlar bu gözəlliklərdən istifadə etməklə və Allahın əmrinə asi olmaqla dünya həyatında onu əldə etməkdə tələsdilər.

## Hədisin faydalarından:

1. Kişilərə ipək və atlaz geyinmək qadağan edilmişdir və onları geyinənlərə şiddətli təhdid vardır.
2. Qadınlara ipək və atlaz geyinmək icazəlidir.
3. Kişi və qadınlara qızıl və gümüş qablarda yemək və içməyin qadağan edilməsi.
4. Huzeyfə (Allah ondan razı olsun) inkarında sərt idi və bunu, həmin adamı dəfələrlə qızıl və gümüş qablardan istifadə etməkdən çəkindirməsi, lakin onun hələ də buna son qoymamağı ilə izah etdi.

(2985)

(223) – عَنْ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «رُفِعَ الْقَلَمُ عَنْ ثَلَاثَةٍ: عَنِ النَّائِمِ حَتَّى يَسْتَيْقِظَ، وَعَنِ الصَّبِيِّ حَتَّى يَحْتَلِمَ، وَعَنِ الْمَجْنُونِ حَتَّى يَعْقِلَ». [صحيح] - [رواه أبو داود والترمذي والنسائي في الكبرى وابن ماجه وأحمد]

(223) – Əlidən (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "Qələm üç nəfərdən qaldırılmışdır: yuxudan oyanana qədər yatan kəsdən, həddi-büluğa çatana qədər uşaqdan və ağlı başına gələnə qədər dəlidən". [Səhih] - [Əbu Davud, Ət-Tirmizi, Ən-Nəsai Əl-Kubrada, İbnu-Məcə və Əhməd rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bu üç sinif istisna olmaqla, təklifin (şər'i vəzifələrin) Adəm övladı üçün vacib olduğunu bildirmişdir:

Böyüyüb həddi-büluğa çatana qədər kiçik uşaqdan.

Ağlı özünə qayıdana qədər ağlını itirmiş dəlidən.

Yuxudan oyanana qədər yatmış kəsdən.

Onlardan cavabdehlik götürülüb, onların günah etməkləri onların əleyhinə yazılmır, lakin dəli və yatmış kəsdən fərqli olaraq yaxşılıq kiçik uşaq üçün yazılar. Çünki onlar, şüurun yox olmasına görə ibadəti səhih olmayan kəslərin sırasındadırlar.

## Hədisin faydalarından:

1. İnsanın şəri vəzifələrə əhliyyətini itirməsi ya onun vəzifəsini yerinə yetirmək üçün oyanmasına mane olan yuxu, ya yaşının az olması, ya ağlın vəzifələrinin pozulması olan dəlilik və ona bənzər olan sərxoşluq səbəbi ilədir. Kim doğru şəkildə fərqləndirmək və təsəvvür etmək qabiliyyətini itirərsə, bu üç səbəbdən dolayı onun  şəri vəzifələrə olan əhliyyəti itər. Uca Allah Öz ədaləti, həlimliyi və səxavəti ilə onu, Uca Allahın haqqlarında etdiyi hər hansısa bir həddi aşmağına və ya səhlənkarlığına görə cəzadan azad etmişdir.
2. Günahların onların əleyhinə yazılmaması bəzi dünyəvi hökmlərin tətbiq edilməsinə mane olmur. Məsələn: əgər dəli kimisə öldürərsə, ona nə ölüm, nə də kəffarə yoxdur, lakin onun (əqiləsi; atası tərəfindən) qohumları (diyəni) qanbahasını verməlidir.
3. Həddi-büluğa çatmanın üç əlaməti var: ihtiləm (yuxuda bir şey görmək) səbəbiylə və digər

səbəblərlə sperma ifrazı və yaxud cinsi orqan ətrafında tüklərin çıxması və ya on beş yaşın tamamlanması. Qadın üçün dördüncü əlamət əlavə edilir: o da heyzdir.

4. Əs-Subki demişdir: "Sabiy" və "ğuləm" eynidir. Başqa alimlər isə deyiblər: Ana bətnində olan uşaq "cənin", doğulduqda "sabiy", süddən kəsilib yeddi yaşına qədər "ğuləm", on yaşına qədər "yəfi", sonra on beş yaşına qədər "həzur" adlanır. Dəqiq olan odur ki, bütün bu hallarda ona "sabiy" deyilir, necə ki, bunu Əs-Suyuti demişdir".

(58148)

(224) – عن ابن عمر رضي الله عنهما: أَنَّ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ نَهَى عَنِ الْقَزَعِ. [صحيح] - [متفق عليه]

(224) – İbn Ömərdən (Allah onların hər ikisindən razı olsun) rəvayət edilir ki: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) saçın bir hissəsinin kəsib, digər hissəsini saxlamağı qadağan etdi. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) başda saçın bir hissəsini qırxıb, digər hissəsini saxlamağı (başın qismən qırxılması) qadağan etmişdir.

Qadağa yetkin və kiçik yaşlı kişi cinsindən olanlara şamildir, qadınlara gəldikdə isə onlara ümumiyyətlə saçlarını qırxmaq olmaz.

**Hədisin faydalarından:**

1. İslam şəriətinin insanın zahiri görünüşünə önəm verməsi.

(8914)

(225) – عن ابن عمر رضي الله عنهما عن النبي صلى الله عليه وسلم قال: «أَحْفُوا الشَّوَارِبَ وأَعْفُوا اللِّحَى». [صحيح] - [متفق عليه]

(225) – İbn Ömərdən (Allah onların hər ikisindən razı olsun) rəvayət edildiyinə görə Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: "Bığlarınızı qısaldın, saqqallarınızı uzadın". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bığları uzatmamağı, əksinə, hətta daha çox qısaltmağı əmr etmişdir.

Bunun müqabilində də saqqalı qısaltmadan uzadılmasını əmr etmişdir.

**Hədisin faydalarından:**

1. Saqqalın qırxılmasının haram olması.

(3279)

(226) – عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رضي الله عنه أَنَّ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ:
«لَا يَنْظُرُ الرَّجُلُ إِلَى عَوْرَةِ الرَّجُلِ، وَلَا الْمَرْأَةُ إِلَى عَوْرَةِ الْمَرْأَةِ، وَلَا يُفْضِي الرَّجُلُ إِلَى الرَّجُلِ فِي ثَوْبٍ وَاحِدٍ، وَلَا تُفْضِي الْمَرْأَةُ إِلَى الْمَرْأَةِ فِي الثَّوْبِ الْوَاحِدِ». [صحيح] - [رواه مسلم]

(226) – Əbu Səid Əl-Xudridən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Kişi kişinin övrətinə, qadın da qadının övrətinə baxmasın, kişi bir paltar altında başqa bir kişi ilə, qadın da bir paltar altında başqa bir qadınla qalmasın". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bir kişinin digər kişinin övrətinə, qadının da digər qadının övrətinə baxmağını qadağan etmişdir.

Övrət: Göründüyü zaman utanılan hər şeydir, kişinin övrəti göbəklə dizləri arasında olandır. Naməhrəm kişilərə nisbətdə qadının bütün bədəni övrətdir. Qadınlara və məhrəmlərinə gəldikdə isə, evdə işləyərkən adətən görünən yerlərini onlara göstərə bilər.

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) kişinin bir paltar və ya bir örtük altında başqa kişiylə çılpaq olaraq qalmasını, qadının da bir paltar və ya bir örtük altında başqa bir qadınla çılpaq qalmasını qadağan etmişdir. Çünki bu, birinin digərinin övrətinə toxunmasına səbəb ola bilər ki, övrətə toxunmaq ona baxmaq kimi qadağan edilmişdir. Hətta, böyük fəsada yol

açdığı üçün o (övrətə toxunmaq) qadağa baxımından daha şiddətlidir.

**Hədisin faydalarından:**

1. Ər və arvadın bir-birlərinin övrət yerlərinə baxmağı istisna, digər şəxslərin övrət yerlərinə baxılmasının qadağan edilməsi.
2. İslam dininin, cəmiyyətin saflığına hərisliyi və əxlaqsızlığa aparan yolları bağlaması.
3. Müalicə və buna bənzər ehtiyac yaranarsa, şəhvətlə olmamaq şərti ilə övrətə baxmaq icazəlidir.
4. Müsəlmana öz övrətini örtmək və başqalarının övrət yerlərinə baxmamaq əmr olunmuşdur.
5. Hədisdəki qadağa kişilərin kişilərlə və qadınların qadınlara olan münasibəti üçün xüsusiləşdirilib. Çünki bu halda (eyni cinsli fərdlərin) bir-birlərinin övrət yerlərinə baxılmasına və övrətin aşkara çıxarılmasına (onlar tətəfindən) daha sadə qəbul etməyə meyllidi.

(8904)

(227) – عن عبد الله بن عمرو رضي الله عنهما قال: لَمْ يَكُنِ النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ فَاحِشًا وَلَا مُتَفَحِّشًا، وَكَانَ يَقُولُ: «إِنَّ مِنْ خِيَارِكُمْ أَحْسَنَكُمْ أَخْلَاقًا». [صحيح] - [متفق عليه]

(227) – Abdullah bin Amrdan (Allah onların hər ikisindən razı olsun) belə dediyi rəvayət edilir: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) çirkin sözlər

danışmaz və çirkin işlərə də can atmazdı və buyurardı: “Həqiqətən, sizin ən xeyirliniz gözəl əxlaq sahibi olanınızdır”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Çirkin sözlər danışmaq və ya çirkin əməllər etmək Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) əxlaqından deyildi və o, nə bu əməllərə niyyət etmiş, nə də qəsd etmişdir. Çünki o, (Allahın salavatı və salamı onun üzərinə olsun) böyük əxlaq sahibi idi.

O, (Allahın salavatı və salamı onun üzərinə olsun) deyirdi: Allah dərgahında sizin ən xeyirliniz, ən gözəl əxlaqa sahib olanınızdır: yaxşılıq edən, gülərüzlü olan, insanlara əziyyət verməkdən çəkinən və onların əziyyətinə dözümlülük göstərən, insanlarla gözəl şəkildə qaynıyıb qarışandır.

**Hədisin faydalarından:**

1. Mömin nalayiq sözlərdən və çirkin əməllərdən uzaq durmalıdır.
2. Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) əxlaqının kamilliyi, ondan ancaq saleh əməl görünər və xoş sözlər eşidilərdi.
3. Gözəl əxlaq rəqabət meydanıdır, kim öndə gedərsə möminlərin ən yaxşılarından və imanı ən kamil olanlardandır.

(5803)

(228) – عن عائشة رضي الله عنها قالتْ: سمعتُ رسولَ الله صلى الله عليه وسلم يقول: «إِنَّ الْمُؤْمِنَ لَيُدرِكُ بِحُسْنِ خُلُقِهِ دَرَجَةَ الصَّائِمِ القَائِمِ». [صحيح بشواهده] - [رواه أبو داود وأحمد]

(228) – Aişədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə belə demişdir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Həqiqətən mömin gözəl əxlaqla, oruc tutan və gecələri namaz qılan kəsin dərəcəsinə çatır". [Şahidlərlə səhih olan] - [Əbu Davud, Əhməd rəvayət ediblər]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, gözəl əxlaq insanı gündüzlər oruc tutan, gecələr namaz qılanın dərəcəsinə çatdırır. Gözəl əxlaq - yaxşılıq etməyi, xeyir söyləməyi, gülərüzlü olmağı, insanlara əziyyət verməməyi və onlardan gələ biləcək əziyyətə dözümlü olmağı özündə ehtiva edir.

**Hədisin faydalarından:**

1. İslamın, əxlaqın saflığına və kamilliyinə diqqətinin böyüklüyü.
2. Gözəl əxlaqın üstünlüyü. Qul bu əxlaqla davamlı oruc tutan, gecələr yorulmadan namaz qılan bəndənin dərəcəsinə yüksəlməyə müvəffəq olur.
3. Gündüz oruc tutmaq və gecə namaz qılmaq nəfsə ağır gələn böyük əməllərdəndir, gözəl əxlaq sahibi təqdirəlayiq davranışı ilə nəfsinə qalib gəldiyi üçün bu iki əməlin dərəcəsinə çatmışdır.

(5799)

(229) – عن أبي هريرة رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم:

«أَكْمَلُ الْمُؤْمِنِينَ إِيمَانًا أَحْسَنُهُمْ خُلُقًا، وَخَيْرُكُمْ خَيْرُكُمْ لِنِسَائِهِمْ».  [حسن] - [رواه أبو داود والترمذي وأحمد]

(229) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Möminlərdən ən kamil iman sahibləri, gözəl əxlaqa malik olanlardır, sözsüz ki, sizin ən xeyirliniz qadınlarına qarşı xoş rəftar edənlərdir". [Həsən] - [Əbu Davud, Ət-Tirmizi, Əhməd]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, iman baxımından ən kamil insan - əxlaqı gözəl olandır, o bu əxlaqa üzündəki təbəssümlə, xeyir əməllər etməklə, ədəbli danışmaqla və heç kəsə əziyyət verməməklə nail olur.

Möminlərin xeyirlisi qadınlarına - həyat yoldaşına, qızlarına, bacılarına, yaxınlarında olan digər qadınlara qarşı qayğıkeş və diqqətli olanıdır. Çünki adıçəkilən qadınlar gözəl əxlaqa daha çox layiqdirlər.

**Hədisin faydalarından:**

1. Gözəl əxlaqın fəziləti və onun imandan olması.
2. Əməl imandandır, iman isə artır və azalır.
3. İslamın qadına verdiyi dəyər və ona yaxşılıq etməyə təşviq.

(5792)

(230) – عن أبي هريرة رضي الله عنه قال: سُئِلَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ عَنْ أَكْثَرِ مَا يُدْخِلُ النَّاسَ الْجَنَّةَ، فَقَالَ: «تَقْوَى اللهِ وَحُسْنُ الْخُلُقِ»، وَسُئِلَ عَنْ أَكْثَرِ مَا يُدْخِلُ النَّاسَ النَّارَ فَقَالَ: «الْفَمُ وَالْفَرْجُ». [حسن صحيح] - [رواه الترمذي وابن ماجه وأحمد]

(230) – Əbu Hureyrə (Allah ondan razı olsun) demişdir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanları ən çox cənnətə salan meyar haqqında soruşuldu. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) isə belə buyurdu: "Təqva və gözəl əxlaq". Sonra insanları ən çox cəhənnəmə aparan məsələ haqqında soruşuldu və buyurdu ki: "Ağız (dil) və cinsiyyət orqanı". [Həsən səhih] - [Ət-Tirmizi, İbnu Məcə və Əhməd rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, insanı cənnətə salan səbəblərin ən başlıcası iki səbəbdir:

Allah qorxusu və gözəl əxlaq.

Allah qorxusu: bu, özünlə Allahın əzabı arasında sədd qoymaqdır, bu isə Onun əmirlərini yerinə yetirməklə və qadağalarından çəkinməklə baş verir.

Gözəl əxlaq: gülər üzlü olmaq, xeyir etməyə can atmaq və  əziyyət verməkdən çəkinməklə olur.

İnsanı cəhənnəmə salan səbəblərin ən başlıcası iki səbəbdir:

Dil və cinsiyyət orqanı.

Dilin işlətdiyi günahlar: yalan, qeybət, sözgəzdirmə və başqalarıdır.

Cinsiyyət orqanının işlətdiyi günahlar: zina, homoseksuallıq və başqalarıdır.

## Hədisin faydalarından:

1. Cənnətə daxil olmaq üçün uca Allahla əlaqəli səbəblərindən biri də təqvadır. İnsanlarla əlaqəli səbəblər var ki, bunlardan da biri gözəl əxlaqdır.
2. Dilin, sahibi üçün təhlükə mənbəyi və cəhənnəmə daxil edən səbəblərdən olması.
3. Şəhvət və pozğunluğun insan üçün təhlükəsi və onun, insanları ən çox cəhənnəmə aparan səbəblərindən olması.

(5476)

(231) – عن أنس بن مالك رضي الله عنه قال: كَانَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ أَحْسَنَ النَّاسِ خُلُقًا. [صحيح] - [متفق عليه]

(231) – Ənəs bin Məlik (Allah ondan razı olsun) dedi: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanlar arasında ən gözəl əxlaqa sahib idi. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanlar arasında ən kamil əxlaqa malik idi, özündə bütün ali əxlaqları və gözəl keyfiyyətləri - gözəl söz

söyləmək, xeyirxahlıq etmək, təbəssüm etmək, insanlara əziyyət verməmək və əziyyətlərinə dözümlülük göstərmək kimi xüsusiyyətləri cəm etmişdi, və başqalarını ötmüşdür (üstələmişdir).

**Hədisin faydalarından:**

1. Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) əxlaqının kamil olması.
2. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) gözəl əxlaqda kamil nümunədir.
3. Gözəl əxlaqda Allah Rəsulunu (Allahın salavatı və salamı onun üzərinə olsun) örnək götürməyə təşviq.

(6180)

(232) – قال سعد بن هشام بن عامر -عندما دخل على عائشة رضي الله عنها-: يَا أُمَّ الْمُؤْمِنِينَ، أَنْبِئِينِي عَنْ خُلُقِ رَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، قَالَتْ: أَلَسْتَ تَقْرَأُ الْقُرْآنَ؟ قُلْتُ: بَلَى، قَالَتْ: فَإِنَّ خُلُقَ نَبِيِّ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ كَانَ الْقُرْآنَ.

[صحيح] - [رواه مسلم في جملة حديثٍ طويلٍ]

(232) – Sad bin Hişam bin Amir Aişənin (Allah ondan razı olsun) otağına daxil olub dedi: Ey möminlərin anası, mənə Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) əxlaqından xəbər ver! Aişə anamız (Allah ondan razı olsun) isə belə cavab verdi: "Sən Quran oxumursanmı?". Dedim: “Əlbəttə oxuyuram”. O dedi: “Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) əxlaqı Quran idi”. [Səhih] - [Muslim uzun bir hədisdə rəvayət etmişdir]

## Şərh (izah):

Möminlərin anası Aişə (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) əxlaqı haqqında soruşulduqda o, geniş məna daşıyan bir neçə sözlə cavab verdi və sual verəni, bütün kamillik sifətlərini özündə cəmləşdirən Qurani-Kərimə yönləndirdi. Ona dedi: "Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Quran əxlaqını mənimsəmişdi, Quranda olan əmrləri yerinə yetirir, Quranın qadağan etdiklərindən isə çəkinirdi və əxlaqı sırf ona əməl etmək, onun məhdudiyyətlərinə riayət etmək, ədəb-ərkanı ilə ədəbli olmaq, Qurandakı misal qissələrdən ibrət almaq idi.

## Hədisin faydalarından:

1. Quran əxlaqını mənimsəyən Peyğəmbəri (Allahın salavatı və salamı onun üzərinə olsun) örnək götürməyə təşviq edilmişdir.
2. Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) əxlaqının mədhi və onun vəhydən qaynaqlanması.
3. Quran, bütün gözəl əxlaqın qaynağıdır.
4. İslam əxlaqı, əmrləri yerinə yetirib, qadağalardan çəkinməklə dini tam əhatə edir.

(8265)

(233) – عَنْ عَائِشَةَ أُمِّ المُؤمنينَ رضي الله عنها قَالَتْ: كَانَ النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يُعْجِبُهُ التَّيَمُّنُ، فِي تَنَعُّلِهِ، وَتَرَجُّلِهِ، وَطُهُورِهِ، وَفِي شَأْنِهِ كُلِّهِ. [صحيح] - [متفق عليه]

(233) – Möminlərin anası Aişədən (Allah ondan razı olsun) rəvayət edilir ki, o belə demişdir: “Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ayaqqabısını geyindiyi, saçlarını daradığı, təmizləndiyi zaman və bütün işlərində sağla başlamağı sevərdi”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) şərəfli işlərdə sağla başlamağı xoşlayar və üstün tutardı, o cümlədən: ayaqqabısını geyinməyə sağ ayaqla başlayır, saç və saqqallara baxım, daramaq və yağlamaqda sağla başlayır, dəstəmazda isə sağ əli və ayağı soldan əvvəl yuyardı.

**Hədisin faydalarından:**

1. Nəvəvi demişdir: “Bu şəriətdə davamlı olan bir qaydadır ki, o da budur: (şəriətdə) hörmətli və şərəfli hesab edilən əməllərdə - paltar, şalvar və xuf geyinmək, məscidə girmək, misvaklanmaq, sürmə sürtmək, dırnaqları kəsmək və bığları qısaltmaq, saçı daramaq, qoltuqaltı tükləri yolmaq, baş qırxmaq, namazın sonunda salam vermək və təharət əzalarını yumaq və tualetdən çıxmaq, yemək-içmək, əl sıxmaq, qara daşa toxunmaq və bu mənada olan digər əməllərdə - sağla başlamaq müstəhəbdir (bəyənilədir). Lakin bunun əksi olan şeylərə gəlincə, məsələn, tualetə girmək, məsciddən çıxmaq, burnu

təmizləmək, ayaqyolundan çıxdıqdan sonra təmizlənmək, paltar, şalvar, corabı soyunmaq və buna bənzər şeyləri solla etmək müstəhəbdir. Bütün bunlar isə sağ tərəfin hörməti və şərəfinə görədir".

2. "O, sağla başlamağı sevir" sözü: hərəkətlərə sağ əllə, sağ ayaqla, sağ tərəflə başlamaq və işləri sağ əllə görmək kimi əməlləri əhatə edir.
3. Nəvəvi demişdir: "Bil ki, dəstəmaz əzaları arasında elələri var ki, orada sağla başlamaq müstəhəb deyil; bunlar qulaqlar, əllər və yanaqlardır ki, onlar bir anda yuyulur. Lakin, bədən üzvlərində kəsikliyi olan və bənzəri şəxslərdə bu çətinlik yaradarsa, sağ tərəfdən başlayır".

(3018)

(234) – عن شداد بن أوس رضي الله عنه قال: ثِنْتَانِ حَفِظْتُهُمَا عَنْ رَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «إِنَّ اللهَ كَتَبَ الْإِحْسَانَ عَلَى كُلِّ شَيْءٍ، فَإِذَا قَتَلْتُمْ فَأَحْسِنُوا الْقِتْلَةَ، وَإِذَا ذَبَحْتُمْ فَأَحْسِنُوا الذَّبْحَ، وَلْيُحِدَّ أَحَدُكُمْ شَفْرَتَهُ، فَلْيُرِحْ ذَبِيحَتَهُ».

[صحيح] - [رواه مسلم]

(234) – Şəddad bin Əvs (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) iki şey əzbərlədim: O buyurdu: "Həqiqətən, Allah hər bir şeydə və əməldə gözəl davranmağı əmr edib, əgər (haqlı olaraq kimisə) öldürəcəksinizsə onu gözəl qaydada öldürün, heyvan kəsəcəksinizsə, onu gözəl üslubla kəsin. Sizdən biriniz

bıçağını itiləsin, heyvanı kəsdikdə ona əziyyət verməsin.".
[Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) uca Allahın bütün işlərdə “ihsanı” bizə vacib buyurduğunu xəbər verir. İhsan - insanın ibadətdə, xeyir əməl etməkdə, məxluqata əziyyət verməməkdə daima Allahın nəzarəti altında olduğunu bilməsidir. Qətldə və heyvanın kəsilməsində də ihsan məhz bu qəbildəndir.

Qisas hökmünün həyata keçirilməsində ihsan: məhkum üçün ən asan, ən yüngül və ən sürətli qətl vasitəsini seçməkdir.

Heyvanı kəsərkən ihsan: kəsici aləti heyvandan aralı məsafədə itiləmək, həmçinin onu digər heyvanların gözü önündə kəsməməklə şəfqət göstərməkdir.

**Hədisin faydalarından:**

1. İzzət və Cəlal sahibi Allahın qullarına lütfü və rəhməti.
2. Qətl və heyvan kəsimində ihsan, şəriətə uyğun olmasıdır.
3. Şəriətin kamiliyyi və bütün xeyirləri əhatə etməsi. Heyvana rəhmət və şəfqət də buna misaldır.
4. Bir insanın öldürüldükdən sonra orqanlarını kəsməyin (eybəcərləşdirməyin) qadağan edilməsi.
5. Heyvana əziyyət verən hər bir şeyin haramlığı.

(4319)

(235) – عن عبد الله بن عمرو رضي الله عنهما قال: قال رسول الله صلى الله عليه وسلم: «إِنَّ الْمُقْسِطِينَ عِنْدَ اللهِ عَلَى مَنَابِرَ مِنْ نُورٍ، عَنْ يَمِينِ الرَّحْمَنِ عَزَّ وَجَلَّ، وَكِلْتَا يَدَيْهِ يَمِينٌ، الَّذِينَ يَعْدِلُونَ فِي حُكْمِهِمْ وَأَهْلِيهِمْ وَمَا وَلُوا». [صحيح] - [رواه مسلم]

(235) – Abdullah bin Amrdan (Allah onların hər ikisindən razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Ədalətli olanlar Allah qatında, izzət və cəlal sahibi Rəhmanın sağındakı nurdan olan minbərlər üzərindədirlər. Allahın hər iki əli də sağdır, onlar hökmlərində, ailələrində və idarə etdikləri məsələlərdə adil davrananlardır". [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, əmrləri və hökmləri altında olan insanlar arasında və ailələrində ədalət və haqla hökm verənlər Qiyamət günü onlara hörmət olaraq nurdan yaradılmış yüksək taxtlarda əyləşəcəklər. Bu minbərlər uca Rəhmanın sağındadır. Pak olan Allahın hər iki əli sağdır.

## Hədisin faydalarından:

1. Ədalətin fəziləti və ona təşviq.
2. Ədalət məfhumu ümumidir, bütün idarəçiliyi və insanlar arasında hökm verməni, qadınlar və övladlar arasında ədalətli davranışı və başqa halları belə əhatə edir.
3. Qiyamət günü adil kəslərin məqamının bəyanı.

4. Qiyamət günü iman əhlinin əməllərinə görə dərəcələrinin fərqliliyi.
5. Həvəsləndirici üsullar, insanı haqqa, itaətə dəvət etmək üçün çağırış metodlarındandır.

(4935)

(236) – عن أبي سعيد الخدري رضي الله عنه أن رسول الله صلى الله عليه وسلم قال: «لَا ضَرَرَ وَلَا ضِرَارَ، مَنْ ضَارَّ ضَرَّهُ اللَّهُ، وَمَنْ شَاقَّ شَقَّ اللَّهُ عَلَيْهِ». [صحيح بشواهده] - [رواه الدارقطني]

(236) – Əbu Səid Əl-Xudridən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: “Nə (özünə və ya başqasına) zərər vermək, nə də zərərə zərərlə qarşılıq vermək olmaz, kim başqasına zərər verərsə, Allah onu zərərə uğradar, kim başqasına çətinlik törədərsə, Allah onu çətinliyə salar”. [Şahidlərlə səhih olan] - [Əd-Dəraqutni rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, növündən asılı olmayaraq zərəri özündən və başqalarından uzaqlaşdırmaq vacibdir və heç kəs nə özünə, nə də başqalarına zərər verməməlidir.

Heç kəs zərərə zərərlə cavab verməməlidir, qisas istisna olmaqla, heç bir halda zərər, ona müqabil zərər verməklə aradan qalxmaz.

Sonra Allah rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanlara zərər verənlərin özlərinin zərərə uğrayacaqlarını, insanları çətinliyə salanların özlərinin çətinliyə düşəcəyini xəbər verir.

**Hədisin faydalarından:**

1. Günahın mislindən artıq cəza verilməsinin qadağan edilməsi.
2. Allah qullarına, onlara zərər verəcək şeyi əmr etməz.
3. Sözlə, əməllə və ya tərk etməklə zərər vermək və zərərə zərərlə cavab verməyin haramlığı.
4. Əməlin mükafatı və ya cəzası, onun növündədir, kim zərər verərsə, Allah onu zərərə uğradar, kim çətinlik törədərsə, Allah onu çətinliyə salar.
5. Şəriətin qaydalarından biri də: "Zərər aradan qalxmalıdır" qaydasıdır və şəriət zərəri qəbul etmir və başqalarına zərər verməyi də inkar edir.

(4711)

(237) – عَنْ أَبِي مُوسَى رضي الله عنه عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «إِنَّمَا مَثَلُ الْجَلِيسِ الصَّالِحِ وَالْجَلِيسِ السَّوْءِ كَحَامِلِ الْمِسْكِ وَنَافِخِ الْكِيرِ، فَحَامِلُ الْمِسْكِ: إِمَّا أَنْ يُحْذِيَكَ، وَإِمَّا أَنْ تَبْتَاعَ مِنْهُ، وَإِمَّا أَنْ تَجِدَ مِنْهُ رِيحًا طَيِّبَةً، وَنَافِخُ الْكِيرِ: إِمَّا أَنْ يُحْرِقَ ثِيَابَكَ، وَإِمَّا أَنْ تَجِدَ رِيحًا خَبِيثَةً». [صحيح] - [متفق عليه]

(237) – Əbu Musadan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: “Yaxşı və pis dostun misalı, müşk (ətir) satanla körük vuranın misalına

bənzəyir. Ətir satan ya sənə ətir bağışlayar, ya ondan ətir alarsan, ya da ondan xoş bir qoxu duyarsan. Körük vuran isə ya sənin paltarını yandırar, ya da sən ondan pis qoxu duyarsan". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) iki növ insana misal çəkdi:

Birinci növ: Allaha və Onun razılığına yönəldən, itaətdə kömək edən saleh yoldaş və dost. O, müşk (ətir) satıcısına bənzəyir, ya sənə ətir verəcək, ya sən ondan pulla alacaqsan, ya da ondan xoş ətir iyisi duyacaqsan.

İkinci növ: İnsanları Allahın yolundan azdıran və günah işlətməkdə kömək edən pis yoldaş və dost. Ondan çirkin əməl görərsən, onun kimi bir şəxslə yoldaşlıq edib, onunla oturub-durduğuna görə qınanarsan. O, oda üfürən dəmirçi kimidir; ya uçan qığılcımlarından sənin paltarın yanar, ya da onun yanından pis qoxu duyarsan.

## Hədisin faydalarından:

1. Mənanı dinləyiciyə daha yaxşı çatdırmaq üçün misallar verməyin icazəli olması.
2. İtaətkar və saleh insanlarla yoldaşlıq etməyə, fəsadçı və pis əxlaq sahiblərindən isə uzaq durmağa təşviq etmək və rəğbətlənidrmək.

(3127)

(238) – عن أبي هريرة رضي الله عنه: أَنَّ رَجُلًا قَالَ لِلنَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: أَوْصِنِي، قَالَ: «لَا تَغْضَبْ» فَرَدَّدَ مِرَارًا قَالَ: «لَا تَغْضَبْ». [صحيح] - [رواه البخاري]

(238) – Əbu Hureyradan (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Bir kişi Allah Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: Mənə nəsihət et. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona buyurdu: "Qəzəblənmə". Kişi istədiyini bir neçə dəfə təkrarladı, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) yenə: "Qəzəblənmə" - dedi. [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Sahabələrdən biri (Allah onlardan razı olsun) Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) ona fayda verəcək əmələ yönəltməsini istədi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) isə ona qəzəblənməməyi əmr etdi. Bunun mənası odur ki, qəzəbə aparacaq səbəblərdən uzaq olsun və qəzəbləndikdə özünü cilovlasın, qəzəblə əl-qol atıb qətl törətməsin, heç kimi vurmasın və ya söyməsin və digər bu kimi əməllərdən daima uzaq dursun.

Kişi nəsihət tələbinə davam etdi, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) isə "Qəzəblənmə" nəsihətinə başqa bir şey əlavə etmədi.

## Hədisin faydalarından:

1. Qəzəbdən və səbəblərindən çəkindirmə, çünki o şərin birləşməsidir, ondan uzaqlaşmaq isə xeyirlərin cəmidir.
2. Allahın haramları baş verəndə qəzəblənmək kimi olan Allah üçün olan qəzəb, dində öyülən, təriflənən qəzəbdir.
3. Dinləyənin məsələnin mahiyyətinə varması və əhəmiyyətini dərk etməsi üçün lazm gəldikdə sözlərin təkrarlanması.
4. Alimdən nəsihət istəməyin fəziləti.

(4709)

(239) – عن أبي هريرة رضي الله عنه أن رسول الله صلى الله عليه وسلم قال:

«لَيْسَ الشَّدِيدُ بِالصُّرَعَةِ، إِنَّمَا الشَّدِيدُ الَّذِي يَمْلِكُ نَفْسَهُ عِنْدَ الْغَضَبِ». [صحيح] - [متفق عليه]

(239) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Güclü, güləşdə qalib gələn deyil, həqiqi güclü, qəzəb zamanı nəfsini cilovlayan insandır". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, həqiqi qüvvət bədən gücü deyil və ya güclülərlə əlbəyaxa olub onlara qalib gəlmək deyil, həqiqi

güclü, qəzəblənən zaman öz nəfsiylə mubarizə aparıb, özünü ələ alandır. Bu isə onun çox təmkinli olmasına və şeytana qalib gəlməsinə dəlalət edir.

### Hədisin faydalarından:

1. Yumşaqlığın və qəzəb zamanı insanın nəfsini cilovlamasının fəziləti və bunun, İslamın çağırdığı saleh əməllərdən olması.
2. Qəzəb zamanı nəfslə mübarizə, düşmənlə mubarizədən daha çətindir.
3. İslamın, cahiliyyədəki güc-qüvvət anlayışını dəyişərək onu uca əxlaqla dəyərləndirməsi, İslama görə insanların ən qüvvətlisi hisslərini cilovlayan kəsdir.
4. Fərdlərə və cəmiyyətə zərər verdiyi üçün qəzəbdən uzaqlaşmaq.

(5351)

(240) – عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو رضي الله عنهما قال: قال رَسولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «أَرْبَعٌ مَنْ كُنَّ فِيهِ كَانَ مُنَافِقًا خَالِصًا، وَمَنْ كَانَتْ فِيهِ خَلَّةٌ مِنْهُنَّ كَانَتْ فِيهِ خَلَّةٌ مِنْ نِفَاقٍ حَتَّى يَدَعَهَا: إِذَا حَدَّثَ كَذَبَ، وَإِذَا عَاهَدَ غَدَرَ، وَإِذَا وَعَدَ أَخْلَفَ، وَإِذَا خَاصَمَ فَجَرَ». [صحيح] - [متفق عليه]

(240) – Abdullah ibn Amrdan (Allah ondan razı olsun) rəvayət edilir ki, o, belə dedi: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Dörd xislət kimdə olarsa o, xalis münafiq olar, kimdə bunlardan bir xislət olarsa, onu tərk edənə qədər özündə nifaqdan bir xislət qalmış deməkdir: danışdığı zaman yalan danışar, əhd

etdiyi zaman sözündə durmaz, vəd verdiyi zaman ona xilaf çıxar, düşmənçilik etdiyi zaman da ədalətsiz olar". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) dörd xüsusiyyət barədə xəbərdarlıq etmişdir ki, əgər müsəlmanda bunlar cəm olarsa, bu xüsusiyyətlərə görə münafiqlərə çox bənzəyər və bu, həmin xüsusiyyətlərin üstünlük təşkil etdiyi şəxslərə aiddir, lakin nadir hallarda (bu xüsusiyyətləri) olanlar, bura daxil deyildir və bu xüsusiyyətlər:

Birincisi: Danışdıqda bilərəkdən yalan danışar və sözlərində doğru olmaz.

İkincisi: Əhd bağlayanda ona əməl etməz və yoldaşına xəyanət edər.

Üçüncüsü: Vəd verdiyi zaman vədinə xilaf çıxar, onu yerinə yetirməz.

Dördüncüsü: Bir kəslə ixtilaf və mübahisə etdikdə, mübahisəsi şiddətli olar, haqqdan sapar, mübahisə etdiyi kəsi inkar etmək və batil çıxarmaqda hiyləgərlik edər, batil və yalan söz danışar.

Münafiqlik, gizlətdiyi şeyin əksini izhar etməkdir və bu məna bu xüsusiyyətlərə malik olan şəxsdə mövcuddur və onun nifaqı danışdığı kəslərə, söz verdiklərinə, ona güvənənlərə, onunla mübahisə edənlərə, onunla əhd bağlayanlara qarşıdır. Yoxsa o, dində İslamını izhar edib küfrünü gizlədən münafiq deyil. Kimdə bu

xüsusiyyətlərdən biri olarsa; onu tərk edənə qədər onda nifaqdan bir sifət qalar.

## Hədisin faydalarından:

1. Onlara düşməkdən çəkindirmək və qorxutmaq üçün münafiqin bəzi əlamətlərinin izahı.
2. Hədisdən nəzərdə tutulan: Bu xüsusiyyətlər nifaq xüsusiyyətləridir və onlara malik olan şəxs bu xüsusiyyətlərdə münafiqlərə bənzəyir və onların əxlaqına tabe olur, lakin o küfrü gizlədərək İslamı zahir etdirən münafiq deyil. Həmçinin deyilmişdir ki, bu, həmin xüsusiyyətlərin üstünlük təşkil etdiyi, onlara etinasız yanaşan və onları kiçik görən şəxsə aid edilir; Çünki kim belə olarsa, o, çox vaxt fasid etiqadda olur.
3. Əl-Qəzali demişdir: “Dinin əsli üç şeylə məhdudlaşır: söz, əməl və niyyət, yalanla sözün pozulmasına, xəyanətlə əməlin pozulmasına və vədə xilaf çıxmaqla niyyətin pozulmasına işarə etmişdir. Çünki vədə xilaf çıxmaq qəsdi vəd verən zaman olarsa, bu pis sayılır. Lakin əgər o, vədində qərarlı olarsa və sonra qarşısına bir maneə  çıxsa və ya (fərqli) rəyə gəlsə, bunda nifaq xüsusiyyəti olmaz".
4. Nifaq iki növdür: sahibini imandan çıxaran, İslamı göstərib, küfrü gizlətmək olan "etiqad" nifaqı və münafiqlərə, onların əxlaqında oxşamaq olan "əməli" nifaqdır ki, bu da sahibini imandan çıxarmaz, lakin bu böyük günahlardan bir günahdır.

5. İbn Həcər demişdir: "Alimlər həmrəydirlər ki, kim qəlbi və dili ilə iman gətirib - bu xüsusiyyətləri edərsə, ona kafir hökmü verilməz və o, cəhənnəmdə əbədi qalacaq münafiq deyil".
6. Ən-Nəvəvi dedi: "Bir qrup alim demişdir: “Hədisdə nəzərdə tutulan Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) zamanında olan münafiqlərdir ki, iman etdiklərini söyləyib haqqı yalan saydılar, dində olduqlarına güvənildilər, lakin xəyanət etdilər, dinə və ona dəstək verməyə vəd verdilər, lakin vədlərinə xilaf çıxdılar və mübahisələrində ədalətsizlik etdilər".

(65124)

(241) – عَنْ عَبْدِ اللهِ بْنِ مَسْعُودٍ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ: «لَيْسَ الْمُؤْمِنُ بِالطَّعَّانِ وَلاَ اللَّعَّانِ وَلاَ الفَاحِشِ وَلاَ البَذِيءِ». [صحيح] - [رواه الترمذي]

(241) – Abdullah bin Məsuddan (Allah ondan razı olsun) rəvayət edilir ki, o, belə demişdir: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: “Mömin tənə edən, lənət edən, pis söz danışan və ədəbsiz davranan deyildir”. [Səhih] - [Ət-Tirmizi rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, insanları nəsillərinə görə ayıblamaq,

tez-tez söyüş söymək və lənət etmək, ədəbsiz, çirkin söz danışmaq və hərəkət etmək möminin sifəti deyil.

**Hədisin faydalarından:**

1. Şəriət mətnlərində imanın inkar edilməsi yalnız haramın işlənməsi və ya vacibin tərki səbəbi ilə olur.
2. Əzaları, xüsusən də dili pisliklərdən qorumağa təşviq etmək.
3. Sindi demişdir: "(ət-Taan, əl-Ləən) Tənə edən və lənət edən" kəlmələrinin mübaliğə formasında gəlməsi onun göstəricisidir ki, az halda bu ifadələrin layiq olan şəxsə söylənməsi iman əhlinin bu sifətlə vəsf olunmasına xələl gətirmir".

(65869)

(242) – عن عبد الله بن عمر رضي الله عنهما قال: سَمِعَ النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ رَجُلًا يَعِظُ أَخَاهُ فِي الْحَيَاءِ، فَقَالَ: «الْحَيَاءُ مِنَ الْإِيمَانِ». [صحيح] - [متفق عليه]

(242) – Abdullah bin Amr (Allah onların hər ikisindən razı olsun) dedi: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bir nəfərin din qardaşına, artıq dərəcədə həyalı olduğu üçün bu xislətini tərk etməyi nəsihət etdiyini eşidir və deyir: "Həya imandandır". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) qardaşına çox həya etməsini tərk etməyi tövsiyə edən adamın sözlərini eşidir və ona bildirir ki, həya imandandır və yalnız xeyir gətirər.

Həya gözəl əməl etməyə və çirkin əməli tərk etməyə sövq edən əxlaqdır.

**Hədisin faydalarından:**

1. Səni xeyirdən çəkindirən şey həya adlanmaz, bu, xəcalət, acizlik, zəiflik, qorxaqlıq adlanar.
2. İzzət və Cəlal sahibi olan Allahdan həya etmək, Onun əmrlərini yerinə yetirməklə və qadağalarından çəkinməklə gerçəkləşir.
3. Yaradılmışlardan həya etmək, onlara ehtiram etməklə, onlara layiq olduqları dəyəri verməklə və ümumiyyətlə çirkin olaraq qəbul edilən əməllərdən uzaq durmaqla gerçəkləşir.

(5478)

(243) – عن المِقدام بن معدي كرب رضي الله عنه عن النبي صلى الله عليه وسلم قال: «إِذَا أَحَبَّ الرَّجُلُ أَخَاهُ فَلْيُخْبِرْهُ أَنَّهُ يُحِبُّهُ». [صحيح] - [رواه أبو داود والترمذي والنسائي في الكبرى وأحمد]

(243) – Miqdəm bin Maədi Kəribdən - Allah ondan razı olsun - rəvayət edilir ki, Peyğəmbər - salləllahu aleyhi va sələm - belə demişdir: "Əgər biriniz qardaşını (Allah üçün) sevərsə, ona, sevdiyini söyləsin". [Səhih] - [Əbu Davud, Ət-Tirmizi, Ən-Nəsai Əl-Kubrada, Əhməd rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va sələm - bu hədisdə, möminlər arasında əlaqəni gücləndirən və onlar arasında bir-birlərinə qarşı sevgini yayan səbəblərdən birini bəyan

etmişdir. Əgər kimsə bir mömin qardaşını (Allah üçün) sevərsə, ona, sevdiyini xəbər verməlidir.

**Hədisin faydalarından:**

1. Dünya mənfəəti üçün deyil, Uca Allah üçün olan xalis sevginin fəziləti.
2. Möminlər arasında məhəbbət və dostluğun daha da artması üçün sevdiyi insana, onu, Allah üçün sevdiyini xəbər vermənin müstəhəb olması.
3. Möminlər arasında bir-birinə qarşı sevginin yayılması iman qardaşlığını gücləndirir və cəmiyyəti parçalanmaq və təfriqəyə düşməkdən qoruyur.

(3017)

(244) – عن جابر بن عبد الله رضي الله عنهما عن النبي صلى الله عليه وسلم قال: «كُلُّ مَعْرُوفٍ صَدَقَةٌ». [صحيح] - [رواه البخاري من حديث جابر، ورواه مسلم من حديث حذيفة]

(244) – Cabir bin Abdullahdan (Allah onların hər ikisindən razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Hər bir xeyirxahlıq sədəqədir". [Səhih] - [Əl-Buxari Cabirin hədisini, Muslim Huzeyfə hədisini rəvayət etdilər]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) hər bir xeyir əməlin və başqalarına fayda verəcək hər bir söz və hərəkətin sədəqə olduğunu, buna görə əcr və savab yazıldığını xəbər verir.

## Hədisin faydalarından:

1. Sədəqə yalnız insanın mal-dövlətindən xərclədiyi vəsaitlərlə məhdudlaşmır, o, həmçinin insanın etdiyi və söylədiyi və insanlara faydası olan bütün xeyirləri əhatə edir.
2. Xeyir əmələ və başqalarına fayda verəcək işlərə təşviq.
3. Kiçik və cüzi  olsa belə, xeyirdən olan heç bir şeyi kiçik görməmək.

(5346)

(245) – عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ:
«كُلُّ سُلَامَى مِنَ النَّاسِ عَلَيْهِ صَدَقَةٌ، كُلَّ يَوْمٍ تَطْلُعُ فِيهِ الشَّمْسُ يَعْدِلُ بَيْنَ الِاثْنَيْنِ صَدَقَةٌ، وَيُعِينُ الرَّجُلَ عَلَى دَابَّتِهِ فَيَحْمِلُ عَلَيْهَا أَوْ يَرْفَعُ عَلَيْهَا مَتَاعَهُ صَدَقَةٌ، وَالْكَلِمَةُ الطَّيِّبَةُ صَدَقَةٌ، وَكُلُّ خُطْوَةٍ يَخْطُوهَا إِلَى الصَّلَاةِ صَدَقَةٌ، وَيُمِيطُ الْأَذَى عَنِ الطَّرِيقِ صَدَقَةٌ». [صحيح] - [متفق عليه]

(245) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: “İnsandakı hər bir oynaq sümüyünə görə sədəqə vermək lazımdır, günəşin doğduğu hər gündə iki insanın arasında ədalətlə hökm verməyin sədəqədir, bir kişini miniyinə mindirməyin və ya onun yükünü miniyinə yükləməyin sədəqədir, gözəl söz sədəqədir. Namaz qılmaq üçün məscidə atdığın hər addımın sədəqədir, yoldan insanlara əziyyət verən şeyləri

götürmək sədəqədir". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) hər bir mükəlləf müsəlmanın sağlam olduğu üçün və bədən üzvlərinin yığılıb-açılması üçün sümüklərində oynaqlar yaratdığına görə Allaha şükür olaraq hər gün hər sümük birləşməsinin sayı qədər Allaha könüllü olaraq sədəqə verməsi lazım olduğunu bəyan edir. Bu sədəqə bütün yaxşı əməllərlə həyata keçirilir və yalnız pul verməklə olmur, bu əməllərdən: sənin ədalətli olmağın və münaqişə edən iki tərəfin arasını islah etməyin sədəqədir. Aciz olan bir kəsə yardım edib onu heyvanın üzərinə mindərməyin və ya onun əşyalarını qaldırmağın sədəqədir. Zikr, dua, salam və digər xoş sözlər sədəqədir. Namaza doğru (məscidə gedərkən) atdığın hər addım sədəqədir. Yolda əziyyət verən bir şeyi yoldan götürmək sədəqədir.

**Hədisin faydalarından:**

1. İnsan sümüklərinin quruluşu və sağlamlığı Uca Allahın ona verdiyi ən böyük nemətlərdən biridir. Bu nemətə tam şükür etmək üçün hər bir sümüyə görə xüsusi olaraq bir sədəqə verməyə ehtiyac vardır.
2. Bu nemətlərin davamlı olduğuna görə hər gün şükürü təzələməyə təşviq etmək.
3. Hər gün nafilə ibadətlər etmək və sədəqə verməkdə davamlı olmağa təşviq etmək.
4. İnsanların arasını islah etməyin fəziləti.

5. İnsanı, qardaşına kömək etməyə təşviq etmək; çünki, ona kömək etməyi sədəqədir.
6. İnsanları camaat namazlarında iştirak etməyə və ona tərəf getməyə və bununla məscidləri abadlaşdırmağa təşviq etmək.
7. Müsəlmanlara əziyyət və ya zərər verən hər şeydən uzaq durmaqla, onların (üzərində gəzdiyi) yollarına hörmət etməyin vacibliyi.

(4568)

(246) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «مَنْ نَفَّسَ عَنْ مُؤْمِنٍ كُرْبَةً مِنْ كُرَبِ الدُّنْيَا نَفَّسَ اللهُ عَنْهُ كُرْبَةً مِنْ كُرَبِ يَوْمِ الْقِيَامَةِ، وَمَنْ يَسَّرَ عَلَى مُعْسِرٍ يَسَّرَ اللهُ عَلَيْهِ فِي الدُّنْيَا وَالْآخِرَةِ، وَمَنْ سَتَرَ مُسْلِمًا سَتَرَهُ اللهُ فِي الدُّنْيَا وَالْآخِرَةِ، وَاللهُ فِي عَوْنِ الْعَبْدِ مَا كَانَ الْعَبْدُ فِي عَوْنِ أَخِيهِ، وَمَنْ سَلَكَ طَرِيقًا يَلْتَمِسُ فِيهِ عِلْمًا سَهَّلَ اللهُ لَهُ بِهِ طَرِيقًا إِلَى الْجَنَّةِ، وَمَا اجْتَمَعَ قَوْمٌ فِي بَيْتٍ مِنْ بُيُوتِ اللهِ يَتْلُونَ كِتَابَ اللهِ وَيَتَدَارَسُونَهُ بَيْنَهُمْ إِلَّا نَزَلَتْ عَلَيْهِمِ السَّكِينَةُ، وَغَشِيَتْهُمُ الرَّحْمَةُ، وَحَفَّتْهُمُ الْمَلَائِكَةُ، وَذَكَرَهُمُ اللهُ فِيمَنْ عِنْدَهُ، وَمَنْ بَطَّأَ بِهِ عَمَلُهُ لَمْ يُسْرِعْ بِهِ نَسَبُهُ». [صحيح] - [رواه مسلم]

(246) – Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Allahın Rəsulu (salləllahu aleyhi va səlləm) belə demişdir: "Kim bir mömini dünya sıxıntılarının birindən qurtararsa, Allah da onu Qiyamət gününün sıxıntılarının birindən qurtarar. Kim borcunu qaytara bilməyən bir kimsənin işini asanlaşdırarsa, Allah da onun dünya və

axirətdəki işlərini asanlaşdırar. Kim bir müsəlmanın eyblərini örtərsə, Allah da onun həm bu dünyada, həm də axirətdə eyblərini örtər. Kişi mömin qardaşına kömək etdiyi müddətdə, Allah da ona kömək edər. Kim elm öyrənmək üçün yola çıxarsa, Allah bununla onun Cənnətə gedən yolunu asanlaşdırar. Əgər bir toplum Allahın evlərindən hər hansı birində yığışıb Allahın Kitabını oxuyarsa və onu bir-birinə öyrədərsə, onların üzərinə sükunət nazil olar, rəhmət onları bürüyər, mələklər onları əhatə edər və Allah onları Öz yanında olanlar arasında yad edər. Kimin əməli onu geriyə çəkərsə, nəsəbi onu irəliyə apara bilməz". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (sallallahu əleyhi va səlləm) bu hədisdə bəyan etmişdir ki, müsəlmanın Uca Allah yanında mükafatı, onun digər müsəlmanlara qarşı etdiyi yaxşılıqlara uyğundur. Kim bir mömini dünya çətinlikləri və məşəqqətlərinin birindən xilas edər, onları aradan qaldırar, mömini qurtarar və onun sıxıntısını həll edərsə, Uca Allah onun bu əməlinə mükafat olaraq, onun Qiyamət günündəki sıxıntılarından birini aradan qaldırar. Kim borcluya asanlıq yaradar, çətinliyini yüngülləşdirər və onun ağır vəziyyətini aradan qaldırarsa, Uca Allah da ona dünyada və axirətdə asanlıq bəxş edər. Kim bir müsəlmanın bildiyi və açıqlanması gərəkməyən qüsurlarını və səhvlərini gizlədərsə, Uca Allah da onu (qüsurlarını və səhvlərini) həm dünyada, həm də axirətdə gizlədər. Kişi, qardaşına din və dünya işlərində yardım

etməyə davam etdikcə, Uca Allah da ona kömək etməyə davam edər. Bu yardım dua ilə, fiziki güclə, mal ilə və ya başqa vasitələrlə olur. Kim Allahın razılığını qazanmaq niyyəti ilə şəri elm öyrənmək üçün səfərə çıxarsa, Allah bunun sayəsində ona Cənnətə gedən yolu asanlaşdırar. Əgər bir toplum Allahın evlərindən hər hansı birində toplanıb Allahın Kitabını oxuyarsa və onu bir-birinə öyrədərsə, onların üzərinə əmin-amanlıq və sakitlik nazil olar, Allahın rəhməti onları əhatə edər və bürüyər, mələklər onları dövrəyə alar və Allah onları, Ona yaxın olan mələklər yanında tərifləyər. Allahın qulunu uca toplumda anması, ona şərəf olaraq yetər. Kimin əməlləri naqis olarsa, bu onu, yaxşı əməl sahiblərinin dərəcəsinə çatdırmaz. Buna görə də insan, nəslinin şərəfli olmasına və ata-babalarının fəzilətinə güvənib, saleh əməllər işləməyə laqeyid olmamalıdır.

## Hədisin faydalarından:

1. İbn Dəqiq əl-İd belə demişdir: “Bu, əzəmətli bir hədisdir, özündə müxtəlif elm növlərini, qaydaları və ədəbləri cəm edir. Bu hədisdə müsəlmanların ehtiyaclarını mümkün qədər ödəməyin və onlara elm, mal, fiziki yardım, məsləhət, nəsihət və digər yollarla fayda verməyin fəziləti qeyd olunur”.
2. Çətin vəziyyətdə olana (borcu qaytara bilməyənə) asanlıq göstərməyə təşviq etmək.
3. Müsəlman qula kömək etməyə təşviq etmək. Çünki Uca Allah da qardaşına kömək edən kimsəyə, köməyi qədərində yardım edər.

4. Bir müsəlmanı örtmək: onun eyiblərini axtarmamaq anlamındadır. Bəzi sələflərin belə dediyi rəvayət olunur: “Elə bir qövmə rast gəldim ki, onların eyibləri yox idi. Lakin başqalarının eyiblərini danışdılar və nəticədə - insanlar da onların eyiblərini aşkara çıxartdı. Elə bir qövmə də rast gəldim ki, onların eyibləri var idi. Lakin başqalarının eyiblərini ört-basdır etdilər və nəticədə onların eyibləri də unuduldu”.
5. İnsanların eyiblərini örtmək, heç də pisliyi görməməzlikdən gəlmək və onu dəyişdirməmək anlamına gəlmir. Əksinə, pislik aradan qaldırılmalı və eyib örtülməlidir. Bu, xüsusən fəsad törətməklə tanınmayan və azğınlıqda israrlı olmayan kəslər üçün tətbiq edilir. Amma bu cür tanınan şəxsə gəldikdə isə, onun eyibini örtmək bəyənilmir. Əksinə, əgər fitnə-fəsadın çıxması qorxusu olmasa, onun işi səlahiyyətli şəxslərə çatdırılmalıdır. Çünki onun eyibini örtmək, onu fəsadda daha da cəsarətləndirər, insanlara zərər verməyə təşviq edər və digər pis niyyətli, inadkar insanları da bu yolda davam etməyə sövq edər.
6. Elm öyrənməyə, Quran oxumağa və öyrətməyə təşviq etmək.
7. Nəvəvi belə demişdir: “Bu hədisdə məsciddə Quran oxumaq üçün bir araya gəlməyin fəzilətinə dəlil vardır... Məscidlə yanaşı, bu fəziləti əldə etmək üçün məktəb, qarnizon və ya buna bənzər yerlərdə bir araya gəlmək də bura daxildir”.

8. Allah yalnız əməllərə görə mükafat verir, nəsil-nəcabətə görə deyil.

(4801)

(247) – عَنْ أَبِي بَرْزَةَ الأَسْلَمِيِّ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ: «لَا تَزُولُ قَدَمَا عَبْدٍ يَوْمَ القِيَامَةِ حَتَّى يُسْأَلَ عَنْ عُمُرِهِ فِيمَا أَفْنَاهُ، وَعَنْ عِلْمِهِ فِيمَ فَعَلَ، وَعَنْ مَالِهِ مِنْ أَيْنَ اكْتَسَبَهُ وَفِيمَ أَنْفَقَهُ، وَعَنْ جِسْمِهِ فِيمَ أَبْلَاهُ». [صحيح] - [رواه الترمذي]

(247) – Əbu Bərzə əl-Əsləmidən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: «Qiyamət günü, heç bir qul həyatını necə keçirməsi, elmi ilə nə işlər görməsi, malını haradan qazanıb hara xərcləməsi və bədənini harada yorduğu haqqında soruşulmadıqca yerindən tərpənməyəcək». [Səhih] - [Ət-Tirmizi rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, Qiyamət günü bu suallar soruşulmadan heç kəs hesab yerindən Cənnət və ya Cəhənnəmə getməyəcək:

Birincisi: Həyatı haqqında. Onu nəyə sərf etdi və necə keçirdi?

İkincisi: Elmi haqqında. Onu Allahın razılığı üçün öyrəndimi? Onunla əməl etdimi? Bu elmi layiq olan kəslərə çatdırdımı?

Üçüncüsü: Malı haqqında. Onu haradan qazandı, halal yoxsa haram yoldan qazandı? Qazancını nəyə xərclədi, Allahı razı salacaq şeylərə yoxsa Onu qəzəbləndirəcək şeylərə?

Dördüncüsü: Bədəni, gücü, sağlamlığı və gəncliyi haqqında. Gəncliyini necə keçirdi və nəyə sərf etdi?

**Hədisin faydalarından:**

1. Həyatı Uca Allahı razı salacaq şəkildə yaşamağa təşviq etmək.
2. Allahın qullarına verdiyi nemətlər çoxdur. Allah quluna verdiyi bu nemətlər haqqında ondan soruşacaq. Buna görə də o, Allahın nemətlərini Onun razı qaldığı şeylərdə istifadə etməlidir.

(4950)

(248) – عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «السَّاعِي عَلَى الأَرْمَلَةِ وَالمِسْكِينِ، كَالْمُجَاهِدِ فِي سَبِيلِ اللَّهِ، أَوِ القَائِمِ اللَّيْلَ الصَّائِمِ النَّهَارَ». [صحيح] - [متفق عليه]

(248) – Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: “Dul qadına və kasıba əl tutan şəxs, Allah yolunda cihad edən və ya gecələri yorulmadan namaz qılıb, gündüzləri oruc tutan şəxs kimidir”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurur ki, əri vəfat etmiş və heç kimdən maddi dəstəyi olmayan bir qadına, həmçinin maddi ehtiyacları olan insanlara yardım edən və savabını uca Allahdan umaraq onlara xərcləyən kəs, Allah yolunda cihad edən və ya yorulmadan gecə namazlarını qılan, oruc tutub iftarını açmayan şəxs kimi savab sahibidir.

## Hədisin faydalarından:

1. Xeyir işlərdə əməkdaşlığa, həmrəyliyə təşviq, kasıbların ehtiyacını ödəməyə çağırış.
2. İbadət bütün saleh əməlləri əhatə edir, dul qadına və kasıblara yardım etməyə çalışmaq da ibadətdəndir.
3. İbn Hubeyra demişdir: “Burada nəzərdə tutulan odur ki, Allah-təala həmin adamın tək bir əl tutmaq əməlinə görə, oruc tutanın, gecələr namaz qılanın və mücahidin - bunların hər birinin qazandığı üç əməlin savabını cəm olaraq ona bir dəfəyə verir. Çünki o, dul qadına ərinin əvəzinə maddi baxımdan dayaq oldu, özünü dolandıra bilməyən kasıba əl tutdu, bununla da öz gündəlik payından bir hissəsini xərclədi və sədəqə verdi. Ona görə də onun əcri oruc tutmağın, gecə namazının və cihadın savabına bərabər oldu”.

(3135)

(249) – عن أبي هريرة رضي الله عنه عن رسول الله صلى الله عليه وسلم قال:

«مَنْ كَانَ يُؤْمِنُ بِاللهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيَقُلْ خَيْرًا أَوْ لِيَصْمُتْ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللهِ وَالْيَوْمِ

الْآخِرِ فَلْيُكْرِمْ جَارَهُ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيُكْرِمْ ضَيْفَهُ». [صحيح] - [متفق عليه]

(249) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Allaha və axirət gününə iman gətirən, ya xeyir söyləsin, ya da sussun, Allaha və axirət gününə iman gətirən qonşusuna yaxşılıq etsin, kim Allaha və axirət gününə iman gətirirsə, qonağına qarşı səxavətli və əliaçıq olsun". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Allaha və dönəcəyi axirət gününə iman gətirən mömin barədə bəhs edir, etdiyi əməlin müqabilini alacağı barədə xəbər verir. İmanı onu aşağıdakı xüsusi keyfiyyətlərə yiyələnməsinə təşviq edir:

Birincisi: Təsbih (Subhəna-Allah), təhlil (lə iləhə iləlla-Allah), xeyir işlərə çağırmaq və qadağalardan çəkindirmək, insanların arasını gözəl sözlərlə islah etmək kimi xoş ifadələr. Bunu etmək iqtidarında olmazsa, susmalı, əziyyət verməkdən çəkinməli və dilini pislikdən qorumalıdır.

İkincisi: Qonşuya qarşı ehtiramla yanaşmaq: ona xeyirxahlıq etmək, əziyyət verməmək.

Üçüncüsü: Səni ziyarətə gələn qonağa: gözəl söz, yemək təqdim etmək və buna  bənzər səxavətli əməllərlə yaxşılıq etmək.

## Hədisin faydalarından:

1. Allaha və axirət gününə iman etmək bütün xeyirlərin əsasıdır, iman xeyir işlər görməyə həvəsləndirir.
2. Dilin bəlalarından çəkindirmək.
3. İslam dini ülfət, birlik və səxavət dinidir.
4. Bu xüsusiyyətlər imanın şaxələrindən və tərifəlayiq ədəblərdəndir.
5. Çox danışmaq bəzən bəyənilməyənə və ya haram sözə gətirib çıxara bilər, salamatlıq yalnız xeyir söyləməkdədir.

(5437)

(250) – عن أبي ذر رضي الله عنه قال: قال لي النبي صلى الله عليه وسلم: «لَا تَحْقِرَنَّ مِنَ الْمَعْرُوفِ شَيْئًا، وَلَوْ أَنْ تَلْقَى أَخَاكَ بِوَجْهٍ طَلْقٍ». [صحيح] - [رواه مسلم]

(250) – Əbu Zərrdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) mənə belə dedi: "Din qardaşını sadəcə gülər üzlə qarşılamaq olsa belə, xeyirdən sayılan heç bir əməli kiçik zənn etmə". [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) cüzi olsa belə xeyir əmələ təşviq edir və onun şənini kiçiltməməyi tövsiyə edir. Buna misal olaraq görüş zamanı təbəssüm etməyi göstərmək olar. Müsəlman qardaşla ünsiyyətdə səmimiyyət, qəlbinə sevinc bəxş etmək kimi

xüsusiyyətlərə malik olmaq üçün hər bir müsəlman bu kimi əməllərə həris olmalıdır.

### Hədisin faydalarından:

1. Möminlər arasında məhəbbət, görüşdükdə təbəssüm və bir-birini sevindirməyin fəziləti.
2. Şəriətin hər bir məsələni özündə ehtiva etməsi və kamilliyi. O müsəlmanların islahı və sözlərinin birliyini təsbit etmək üçün bərqərar olmuşdur.
3. Az olsa belə, xeyir əməli etməyə təşviq.
4. Müsəlmanları sevindirməyin müstəhəbliyi, belə ki, bu onların birliyini reallaşdırır.

(5348)

(251) – عَنْ عَبْدِ اللهِ بنِ مَسعُودٍ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «عَلَيْكُمْ بِالصِّدْقِ، فَإِنَّ الصِّدْقَ يَهْدِي إِلَى الْبِرِّ، وَإِنَّ الْبِرَّ يَهْدِي إِلَى الْجَنَّةِ، وَمَا يَزَالُ الرَّجُلُ يَصْدُقُ وَيَتَحَرَّى الصِّدْقَ حَتَّى يُكْتَبَ عِنْدَ اللهِ صِدِّيقًا، وَإِيَّاكُمْ وَالْكَذِبَ، فَإِنَّ الْكَذِبَ يَهْدِي إِلَى الْفُجُورِ، وَإِنَّ الْفُجُورَ يَهْدِي إِلَى النَّارِ، وَمَا يَزَالُ الرَّجُلُ يَكْذِبُ وَيَتَحَرَّى الْكَذِبَ حَتَّى يُكْتَبَ عِنْدَ اللهِ كَذَّابًا». [صحيح] - [متفق عليه]

(251) – Abdullah bin Məsuddan (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: «Dürüstlük (doğru danışmaq) üzərinizə vacibdir, çünki dürüstlük xeyirə, xeyir isə cənnətə aparır, insan o qədər doğru danışar və ona bağlı qalar ki, hətta Allah yanında doğru danışan kimi yazılar. Yalandan çəkinin, çünki, yalan

pisliyə, pislik isə cəhənnəmə aparır. İnsan o qədər yalan danışar və ona bağlı qalar ki, hətta Allah yanında yalançı kimi yazılar». [Səhih] - [Mıttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) dürüstlüyü (doğru danışmağı) əmr etmiş və ona bağlılığın daimi saleh əmələ səbəb olduğunu və xeyir əməl etməkdə davamlı olmağın isə sahibini Cənnətə aparacağını xəbər vermişdir.

İnsan gizli və aşkarda dürüstlüyə davam etdikcə "siddiq" adını qazanmağı haqq edər. Bu dürüstlük sözünün mübaliğə (gücləndirilmiş) şəklidir. Sonra o (Allahın salavatı və salamı onun üzərinə olsun), yalan və batil söz danışmaqdan çəkindirmişdir. Çünki, yalan (insanı) doğru yoldan kənara çıxmağa, şərrə, fitnə-fəsad və günah əməllərə sövq edir ki, bu da sonra onu cəhənnəmə aparır və (insan) o qədər çox yalan danışmağa davam edər ki, Allah yanında yalançılardan yazılar.

## Hədisin faydalarından:

1. Dürüstlük çalışmaqla qazanılan və əldə edilən nəcib bir əxlaqdır ki, insan o qədər doğru danışar və ona bağlı qalar ki, doğruluq onun üçün bir xüsusiyyət və təbiət halına gələr, o, Allah yanında siddiq və xeyirxah kəslərdən biri kimi yazılar.
2. Yalan məzəmmət olunan (pislənən) bir əxlaqdır, onun sahibi bunu uzun müddət sözdə və əməldə işləməklə qazanar ki, hətta artıq onun əxlaq və

xasiyyətinə çevrilər, sonra da həmin kəs Allah yanında yalançılardan yazılar.

3. Dürüstlük yalanın əksi olan dilin doğruluğunu, ixlas olan niyyətin düzgünlüyünü və niyyət edilən xeyirə əzmkarlıqda sadiqliyi, əməldə dürüstlüyü - bu da ən azından gizli və aşkar halın bərabər olmasıdır - ümid, qorxu və digər məqamlarda doğruluğu ifadə edir. Bunların hamısı kimdə olarsa o, siddiq olar, bunların bəzisi kimdə olarsa, o, sadiq olar.

(5504)

(252) – عن جرير بن عبد الله رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «مَنْ لَا يَرْحَمِ النَّاسَ لَا يَرْحَمْهُ اللهُ عَزَّ وَجَلَّ». [صحيح] - [متفق عليه]

(252) – Cərir bin Abdullahdan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "İnsanlara rəhm etməyənə izzət və cəlal sahibi olan Allah rəhm etməz". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, insanlara rəhm etməyənə izzət və cəlal sahibi olan Allah rəhm etməz. Qulun yaradılmış varlıqlara qarşı rəhmli olması, onun uca Allahın rəhmətinə nail olması üçün ən böyük səbəblərdən biridir.

## Hədisin faydalarından:

1. Rəhmət keyfiyyəti tək insanlara deyil, bütün yaradılmışlara qarşı tələb olunandı, lakin burada insana verilən xüsusi dəyərə görə o, fərdi surətdə qeyd edilmişdir.
2. Allah rəhmlidir, rəhmli qullarına mərhəmət edir. Əməlin mükafatı yaxud cəzası, onun növündəndir.
3. İnsanlara rəhmət - onlara xeyiri çatdırmağı, şəri onlardan uzaqlaşdırmağı, onlarla gözəl davranmağı əhatə edir.

(5439)

(253) – عن عبد الله بن عمرو رضي الله عنهما أن النبي صلى الله عليه وسلم قال:
«الرَّاحِمُونَ يَرْحَمُهُمُ الرَّحمَنُ، ارْحَمُوا أَهْلَ الْأَرْضِ يَرْحَمْكُم مَن فِي السَّمَاءِ». [صحيح] - [رواه أبو داود والترمذي وأحمد]

(253) – Abdullah bin Amr bin As (Allah hər ikisindən razı olsun) rəvayət edir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Rəhm edənlərə (mərhəmətli olanlara) Rəhman olan Allah rəhm edər. Yer üzündə olanlara rəhm edin ki, səmada Olan da sizə rəhm etsin". [Səhih] - [Əbu Davud, Ət-Tirmizi, Əhməd]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) başqalarına mərhəmət edən kimsələrə, bu yaxşı əməllərinin qarşılığı olaraq, rəhməti ilə hər şeyi əhatə edən Rəhman olan Allahın mərhəmət edəcəyini xəbər vermişdir.

Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) istər insan, istər heyvan, istər quş, istərsə də digər canlılar olsun, yer üzündəki hər bir canlıya mərhəmət edilməsini əmr etmişdir. Bunun qarşılığı isə yeddi qat səmanın üzərindəki Allahın sizə mərhəmət etməsidir.

**Hədisin faydalarından:**

1. İslam dini rəhmət dinidir. Bu din bütünlüklə, Allaha itaat etmək və canlılara yaxşılıq etmək üzərində qurulmuşdur.
2. İzzət və uca olan Allah rəhmət sifəti ilə vəsf edilmişdir. Bütün naqisliklərdən pak olan O, Rəhman və Rəhimdir. Onun rəhməti qullarına çatandır.
3. Əməlin mükafatı yaxud cəzası onun növündəndir. Mərhəmətli olanlara Allah rəhm edər.

(8289)

(254) – عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «الْمُسْلِمُ مَنْ سَلِمَ الْمُسْلِمُونَ مِنْ لِسَانِهِ وَيَدِهِ، وَالْمُهَاجِرُ مَنْ هَجَرَ مَا نَهَى اللَّهُ عَنْهُ». [صحيح] - [متفق عليه]

(254) – Abdullah ibn Amrdan (Allah onların hər ikisindən razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Müsəlman o kəsdir ki, digər müsəlmanlar onun dilindən və əlindən əmin-amanlıqda olar, mühacir isə Allahın haram

etdiklərini tərk edəndir”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, İslamı kamil olan müsəlman - o kəsdir ki, digər müsəlmanlar onun dilindən əmin-amanlıqdadırlar, belə isə o onları söyməz, lənətləməz, onların qeybətini etməz, dili ilə onlara heç bir zərər yetirməyə çalışmaz. Onlar onun əlindən əmin-amanlıqdadırlar, onlara hücum etməz, onların mallarını haqsız yerə almaz və buna bənzər heç bir şey etməz. Mühacir isə Uca Allahın haram etdiklərini tərk edən kəsdir.

**Hədisin faydalarından:**

1. İslamın kamilliyi, yalnız başqalarına maddi və mənəvi zərər verməməklə hasil olur.
2. Dilin və əlin xüsusi olaraq qeyd edilməsi, onların çoxlu xəta və zərərlərinə görədir. Çünki, şərlərin çoxu onlardan çıxır.
3. Günahları tərk etməyə və Uca Allahın əmr etdiklərini yerinə yetirməyə təşviq.
4. Müsəlmanların ən üstünü Uca Allahın haqqını və müsəlmanların haqlarını yerinə yetirəndir.
5. Başqalarının haqlarını tapdalamaq, sözlə və ya əməllə ola bilər.
6. Kamil hicrət, Uca Allahın haram etdiklərini tərk etməkdir.

(10101)

(255) – عن أبي هريرة رضي الله عنه قال: سمعتُ رسولَ الله صلى الله عليه وسلم يقول: «حَقُّ الْمُسْلِمِ عَلَى الْمُسْلِمِ خَمْسٌ: رَدُّ السَّلَامِ، وَعِيَادَةُ الْمَرِيضِ، وَاتِّبَاعُ الْجَنَائِزِ، وَإِجَابَةُ الدَّعْوَةِ، وَتَشْمِيتُ الْعَاطِسِ». [صحيح] - [متفق عليه]

(255) – Əbu Hureyradən - Allah ondan razı olsun - rəvayət edildiyinə görə, belə demişdir: Mən Allah Rəsulunun - salləllahu aleyhi va səlləm - belə dediyini eşitdim: "Müsəlmanın müsəlman üzərində beş haqqı vardır: Salamını almaq, xəstələndiyində ziyarət etmək, cənazəsini müşayiət etmək, dəvətinə icabət etmək və asqırdıqda: (əlhəmdu-li-Lləh) deyənə: (yərhəmukə-Llah) (yəni: Allah sənə rəhmət etsin) deməkdir". [Səhih] - [Məttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va səlləm - bu hədisdə bir müsəlmanın müsləman qardaşı üzərindəki haqqlarından bəzilərini bəyan etmişdir. Bu haqqlardan birincisi, salam verən kimsənin salamını almaqdır.

İkincisi: Xəstənin ziyarət edilməsidir.

Üçüncüsü: Cənazəni evindən cənazə namazı qılınan yerə gətirilməsinə, oradan da məzarlığa dəfn edilməsinə qədər müşayiət etməkdir.

Dördüncüsü: Toya və s. buna bənzər məclislərə dəvət ediləndə qardaşının dəvətinə icabət etməkdir.

Beşincisi: Asqırdıqda: (əlhəmdulilləh) deyən kimsəyə: (yərhəmukə-Llah) (yəni: Allah sənə rəhm etsin) deməkdir.

Asqıran kimsə də buna cavab olaraq: (yəhdikumu-Llahu və yuslih bələkum) (yəni: Allah sizi doğru yola yönəltsin və halınızı islah etsin) deyə cavab verir.

## Hədisin faydalarından:

1. Hədisdə müsəlmanlar arasında haqlara diqqət edilməsi, qardaşlıq və sevgi bağlarının qüvvətləndirilməsində İslamın böyüklüyü ifadə edilmişdr.

(3706)

(256) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «لَا تَدْخُلُونَ الْجَنَّةَ حَتَّى تُؤْمِنُوا، وَلَا تُؤْمِنُوا حَتَّى تَحَابُّوا، أَوَلَا أَدُلُّكُمْ عَلَى شَيْءٍ إِذَا فَعَلْتُمُوهُ تَحَابَبْتُمْ؟ أَفْشُوا السَّلَامَ بَيْنَكُمْ». [صحيح] - [رواه مسلم]

(256) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Siz iman gətirməyincə cənnətə daxil olmazssızvə bir-birinizi sevməyincə də iman gətirmiş sayılmazsınız. Sizə elə bir şey deyimmi ki, onu etsəniz bir-birinizi sevərsiz? Aranızda salamı yayın". [Səhih] [Muslim rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Cənnətə yalnız möminlərin daxil olacağını, bir-birilərini sevməyincə də imanlarının kamil olmayacağını və nəticə etibarı ilə müsəlman toplumun islah olmayacağını açıqlamışdır. Bələliklə Peyğəmbər (Allahın salavatı və

salamı onun üzərinə olsun) müsəlmanlar arasında məhəbbətə səbəb ola biləcək ən faydalı əmələ, Allahın qulları üçün salamlaşma olaraq təyin etdiyi, salamı yaymağa yönləndirdi.

**Hədisin faydalarından:**

1. Cənnətə yalnız imanla daxil olmaq mümkündür.
2. Müsəlman özünə rəva bilib sevdiyini (istədiyini), qardaşı üçün də sevməsi imanın kamilliyindəndir.
3. İnsanlar arasında sevgi və əminamanlığın genişlənməsi nöqteyi nəzərindən, salam vermək və müsəlmanları da ona təşviq etməyin müstəhəb olması.
4. Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) "aranızda" sözünə əsasən salam yalnız müsəlmana verilir.
5. Salamı yaymaq - ayrılıq, bir-birini tərk etmə və düşmənçiliyi aradan qaldırır.
6. Müsəlmanlar arasında sevginin əhəmiyyəti və imanın kamilliyinin bir parçası olması.
7. Başqa bir hədisdə isə salamın tam forması: “Əssələmu aleykum va rahmətullahi va barakatuhu (Allahın salamı, rəhməti və bərəkəti üzərinizə olsun)" varid olmuşdur. “Əs-sələmu aleykum” da kifayət olan formasıdır.

(3361)

(257) – عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو رَضِيَ اللَّهُ عَنْهُمَا: أَنَّ رَجُلًا سَأَلَ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: أَيُّ الإِسْلَامِ خَيْرٌ؟ قَالَ: «تُطْعِمُ الطَّعَامَ، وَتَقْرَأُ السَّلَامَ عَلَى مَنْ عَرَفْتَ وَمَنْ لَمْ تَعْرِفْ». [صحيح] - [متفق عليه]

(257) – Abdullah bin Amrdan (Allah onların hər ikisindən razı olsun) rəvayət edilir: Bir kişi Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşdu: “İslamın hansı əməli daha xeyirlidir?”. O, dedi: “Yemək yedirtməyin, tanıdığın və tanımadığın hərkəsə salam verməyin”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşuldu: İslamın hansı xüsusiyyəti daha üstündür? Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) iki xüsusiyyəti qeyd etdi:

Birincisi: Sədəqə vermək, hədiyyə etmək, qonaqpərvərlik və ziyafət vermək kimi əməlləri əhatə edən kasıbları yedizdirməyi çoxaltmaq. Aclıq və bahalıq dövründə kasıbları yedizdirməyin fəziləti daha da artır.

İkincisi: Tanıdığın və tanımadığın hər bir müsəlmana salam vermək.

## Hədisin faydalarından:

1. Səhabələrin dünya və axirətdə faydalı olan xüsusiyyətləri öyrənməyə olan hərisliyi.

2. Salam vermək və yemək yedizdirmək fəzilətinə və hər zaman insanların onlara ehtiyac duyduqlarına görə İslamda ən fəzilətli əməllərdəndir.
3. Ehsan (xeyirxahlıq) bu iki xislətlə söz və əməldə birləşir və bu ehsanın ən kamil formasıdır.
4. Bu xüsusiyyətlər müsəlmanların öz aralarında necə rəftar etmələri ilə əlaqədardır. Həmçinin qulun öz Rəbbi ilə rəftarında da müəyyən xüsusiyyətlər vardır.
5. İlk olaraq salam vermək müsəlmanlara xasdır, kafirə isə ilk olaraq salam verilməməlidir.

(5808)

(258) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه أَنَّ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «أَلَا أَدُلُّكُمْ عَلَى مَا يَمْحُو اللهُ بِهِ الْخَطَايَا، وَيَرْفَعُ بِهِ الدَّرَجَاتِ؟» قَالُوا بَلَى يَا رَسُولَ اللهِ قَالَ: «إِسْبَاغُ الْوُضُوءِ عَلَى الْمَكَارِهِ، وَكَثْرَةُ الْخُطَا إِلَى الْمَسَاجِدِ، وَانْتِظَارُ الصَّلَاةِ بَعْدَ الصَّلَاةِ، فَذَلِكُمُ الرِّبَاطُ». [صحيح] - [رواه مسلم]

(258) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: “Sizi Allahın günahları sildiyi və dərəcələri yüksəltdiyi şeyə yönəldimmi?”. Dedilər: “Bəli Ey Allahın elçisi”. Dedi: "Çətinliklərə baxmayaraq dəstəmazı tam almaq, məscidlərə çoxlu addımlar atmaq, namazdan sonra növbəti namazı gözləmək və bu ribatdır".
[Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) səhabələrindən soruşdu ki, onları, günahların bağışlanmasına, onların əməllərin yazan mələklərin kitabından silinməsinə və cənnətdə yüksək məqama səbəb olacaq əməllərə yönəltməyini istəyirlərmi?

Səhabələr dedilər: Bəli, biz bunu istəyirik. O, dedi:

Birincisi: Soyuq hava, su azlığı, bədən ağrısı və qaynar su kimi çətinliklər olsa da belə, dəstəmazı kamil və tam şəkildə almaq.

İkincisi: Evin uzaq olması səbəbiylə və təkrar-təkrar məscidlərə gedərək, atılan - iki ayaq arasında olan - addımları çoxaltmaq.

Üçüncüsü: Namazın vaxtını gözləmək, qəlbi ona (namaza) bağlamaq, ona hazırlıq görmək və onu camaatla qılmaq üçün məsciddə oturub gözləmək və namazı qıldıqda növbəti namaz üçün öz yerində gözləmək.

Sonra, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bu işlərin həqiqi keşik çəkmək olduğunu izah etdi. Çünki o şeytanın insan üzərindəki yollarını bağlayır, nəfsi istəklərə qalib gəlir və onun vəsvəsələri qəbul etməsinə mane olur və onun vasitəsilə Allahın ordusu şeytanın əsgərlərini məğlub edir. Bu, ən böyük cihaddır və düşmənin sərhədində keşik çəkmək kimidir.

## Hədisin faydalarından:

1. Məsciddə camaat namazını qılmağın, namazlara diqqət yetirməyin və ondan yayınmamağın əhəmiyyəti.

2. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) gözəl təqdimatı və səhabələrini təşviq etməsi. Belə ki o, sual şəklində böyük bir savaba işarə edərək başladı və bu, öyrətmə üsullarından biridir.
3. Məsələni sual və cavab şəklində təqdim etməyin faydası: söhbətin qeyri-müəyyən olması, sonra isə izah edilməsinə görə insana daha çox təsir edir.
4. Ən-Nəvəvi (Allah ona rəhmət etsin) demişdi: “Bu, keşik çəkməkdir, yəni, təşviq edilən keşik çəkmək və keşik çəkməyin əsası bir şeyə bağlı qalmaqdır, sanki o, özünü bu itaətə həbs etmişdir. Həmçinin deyilmişdir: Bu, ən yaxşı keşik çəkməkdir, necə ki - Cihad nəfsin cihadıdır - deyilmişdir. Ola bilsin ki, mövcud və mümkün olan keşik çəkmək olsun, yəni: bu keşik çəkmənin növlərindən biridir”.
5. "Ər-Ribat" kəliməsi təkrar-təkrar işlədilmiş və "ال" artiklı ilə müəyyən edilmişdir; bu isə bu əməllərin qədr-qiymətini böyütmək üçündür.

(3574)

(259) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ:

«الْمُؤْمِنُ الْقَوِيُّ، خَيْرٌ وَأَحَبُّ إِلَى اللهِ مِنَ الْمُؤْمِنِ الضَّعِيفِ، وَفِي كُلٍّ خَيْرٌ، احْرِصْ عَلَى مَا يَنْفَعُكَ، وَاسْتَعِنْ بِاللهِ وَلَا تَعْجَزْ، وَإِنْ أَصَابَكَ شَيْءٌ، فَلَا تَقُلْ لَوْ أَنِّي فَعَلْتُ كَانَ كَذَا وَكَذَا، وَلَكِنْ قُلْ قَدَرُ اللهِ وَمَا شَاءَ فَعَلَ، فَإِنَّ (لَوْ) تَفْتَحُ عَمَلَ الشَّيْطَانِ». [صحيح] - [رواه مسلم]

(259) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Güclü mömin zəif mömindən daha xeyirli və Allaha daha sevimlidir. Və hər ikisində də xeyir vardır. Sənə faydalı olan şeylərə həris ol. Allahdan yardım istə və acizlik etmə. Başına bir müsibət gəldiyi zaman "əgər belə etsəydim bu cür olardı, belə olardı" demə. Lakin de ki, "Allahın qədəridir və O, istədiyini edir". Çünki "əgər" kəliməsi şeytanın edəcəyi işlərə qapı açır". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, hər bir mömin xeyirlidir. Lakin imanı, əzmi, malı və digər cəhətləri ilə güclü olan mömin, Allah üçün zəif mömindən daha xeyirli və daha sevimlidir. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) mömin olan kəsə Uca Allaha etimad edərək, Ondan yardım istəyərək və ona təvəkkül edərək, özünə fayda verəcək, dünya və axirətlə bağlı işlərdə səbəbləri götürməsini tövsiyə etmişdir. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) hər iki dünyada faydalı olan işləri etməkdə acizlik göstərməyi, tənbəllik etməyi və qəfləti qadağan etdi. Əgər mömin Allahdan kömək istəyərək səylə çalışarsa və səbəblərdən yapışarsa və Allahdan xeyir istəyərsə, o zaman bütün işlərini yalnız Allaha həvalə etməli və Uca Allahın seçiminin daha xeyirli olduğunu bilməlidir. Bundan sonra başına bir müsibət gələrsə belə deməsin: "Əgər belə etsəydim, belə olardı".

Qədərə etiraz edərək, olub keçənlərə kədərlənərək "əgər və ya kaşki" demək şeytana qapı açır. Lakin təslimiyyət və razılıqla "Allahın qədəridir və O, istədiyini edir" desin. Baş verən hər şey Allahın istədiyi kimi olmuşdur. Çünki O, istədiyini edəndir. Onun hökmünü rədd edəcək (ortadan qaldıracaq) və hökmünü qınayacaq heç kim yoxdur.

### Hədisin faydalarından:

1. İnsanların imanlarına görə fərqlənməsi
2. Əməllərdə qüvvətli olmağın sevilməsi, çünki güc ilə əldə edilən faydalar zəifliklə əldə edilmir.
3. İnsan özünə fayda verən şeylərə həris olmalı, ona fayda verməyən şeyləri isə tərk etməlidir.
4. Mömin bütün işlərində Allahdan kömək istəməli, özünə güvənməməlidir.
5. Qəza və qədəri isbat etmək. Bu xeyir əldə etmək üçün səbəblərdən yapışmağı və çalışmağı inkar etmir.
6. Müsibət zamanı qəzəblənərək "əgər" deməyin qadağan edilməsi və Uca Allahın qəza və qədərinə etiraz etməyin haramlığı.

(5493)

(260) – عن ابن عمر رضي الله عنهما قال: قال رسول الله صلى الله عليه وسلم:

«مَا زَالَ يُوصِينِي جِبْرِيلُ بِالْجَارِ، حَتَّى ظَنَنْتُ أَنَّهُ سَيُوَرِّثُهُ». [صحيح] - [متفق عليه]

(260) – İbn Ömərdən (Allah onların hər ikisindən razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilmişdir: "Cəbrayıl mənə qonşu haqqında o qədər tövsiyə etdi ki, ona da

mirasdan pay düşəcəyini zənn etdim". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Cəbrayıl israrla, təkrar-təkrar ona qonşuya diqqət göstərməyi əmr etdi. Evi yaxın olan qonşu, müsəlman və ya kafir, insana qohum olub-olmamasından asılı olmayaraq, haqqının qorunmasını, ona əziyyət verməməsini, ona qarşı xeyirxahlıq göstərməsini, əziyyətinə səbr etməsini tövsiyə etdi. Qonşu haqqının belə böyük olduğundan və Cəbrayılın bunu təkrar-təkrar xatırlatmasından Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanın ölümündən sonra tərk etdiyi əmlakından qonşusuna da verməli olduğu haqda vəhyin enəcəyini zənn etdi.

## Hədisin faydalarından:

1. Qonşu haqqının möhtəşəmliyi və buna riayət etməyin vacibliyi.
2. Qonşu haqqını israrla tövsiyə etməsi, ona hörməti, sevgini, xeyirxahlıq etməyi, ondan zərəri uzaqlaşdırmağı, xəstəliyində onu ziyarət etməyi, sevincli halında onu təbrik etməyi, müsibətə uğradıqda başsağlığı verməyi gərəkdirir.
3. Qonşunun qapısı nə qədər yaxındırsa, haqqı o qədər böyükdür.

4. Qonşuya xeyirxahlıq etmək, ondan zərəri dəf etmək kimi əməllərin cəmiyyətin islahında rol oynaması, bu şəriətin kamilliyinin göstəricisidir.

(4965)

(261) – عن أبي الدرداء رضي الله عنه عن النبي صلى الله عليه وسلم قال: «مَنْ رَدَّ عَنْ عِرْضِ أَخِيهِ رَدَّ اللهُ عَنْ وَجْهِهِ النَّارَ يَوْمَ الْقِيَامَةِ». [صحيح] - [رواه الترمذي وأحمد]

(261) – Əbu Dərdadan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilmişdir: "Kim qardaşının ismətini qoruyarsa, Allah da onu Qiyamət günü cəhənnəm əzabından qoruyar". [Səhih] - [Ət-Tirmizi və Əhməd rəvayət ediblər]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, kim müsəlman qardaşının yoxluğunda onun qınanmasının, haqqında pis söylənilməsinin qarşısını alarsa, Qiyamət günü Allah da onu əzabdan qoruyar.

**Hədisin faydalarından:**

1. Müsəlmanların şərəf-ləyaqətləri barədə söz-söhbət etmək qadağan edilmişdir.
2. Əməlin mükafatı yaxud cəzası onun növündəndir, kim qardaşının şərəf-ləyaqətini qoruyarsa, Allah da onu cəhənnəm əzabından qoruyar.
3. İslam, qardaşlıq və dəstək dinidir.

(5514)

(262) – عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قالَ: «لاَ يُؤْمِنُ أَحَدُكُمْ، حَتَّى يُحِبَّ لِأَخِيهِ مَا يُحِبُّ لِنَفْسِهِ». [صحيح] - [متفق عليه]

(262) – Ənəsdən (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Sizlərdən biriniz özü üçün istədiyini qardaşına istəmədikcə (kamil) iman gətirmiş olmaz". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) açıq şəkildə bildirmişdir ki, hər bir müsəlman özü üçün sevdiyi itaətləri, dində və dünyada olan xeyir növlərini qardaşı üçün istəmədikcə, özü üçün sevmədiyi şeyi də onun üçün sevməyənə qədər onun imanı kamil olmaz. Buna görə də o, müsəlman qardaşının dinində bir nöqsan görərsə, onu düzəltməyə çalışar, onda xeyir görərsə onu xeyirə istiqamətləndirər və ona yardım edər, din və dünya işlərində ona nəsihət edər.

## Hədisin faydalarından:

1. İnsanın özü üçün sevdiyini qardaşı üçün də sevməsinin vacibliyi. Çünki özü üçün sevdiyini qardaşı üçün sevməyən bir kəsdən imanın inkar olunması bunun vacibliyinə dəlalət edir.
2. Allah üçün olan qardaşlıq nəsil (qan) qardaşlığından üstündür, ona görə də onun haqqı daha vacibdir.

3. Aldatma, qeybət, həsəd, müsəlmanın özünə, malına və namusuna təcavüz kimi sevgiyə zidd olan bütün söz və hərəkətlərin haram olması.
4. (İnsanı) həvəsləndirəcək - "Qardaşına” sözü kimi bəzi sözlərdən istifadə etmək.
5. Əl-Kirmani - rahiməhullah - demişdir: “Özünün sevmədiyi şərri qardaşı üçün də sevməməyi imandandır və o, bunu qeyd etməmişdir. Çünki bir şeyi sevmək onun əksinə nifrət etməyi zəruri edir, ona görə də (qeyd olunanlarla) kifayətlənərək bunu deməmişdir”.

(4717)

(263) – عن عائشة رضي الله عنها زوج النبي صلى الله عليه وسلم عن النبي صلى الله عليه وسلم قال: «إِنَّ الرِّفْقَ لَا يَكُونُ فِي شَيْءٍ إِلَّا زَانَهُ، وَلَا يُنْزَعُ مِنْ شَيْءٍ إِلَّا شَانَهُ». [صحيح] - [رواه مسلم]

(263) – Peyğəmbərimizin (Allahın salavatı və salamı onun üzərinə olsun) zövcəsi Aişədən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: “Həqiqətən hər bir əməldə yumşaq davranmaq əməli bəzəyər, yoxluğu isə həmin əməli çirkin edər”. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, sözdə və əməldə yumşaqlıq, mülayimlik, ehtiyatlı davranma hər bir işin gözəlliyini,

keyfiyyətini və mükəmməlliyini artırır və ehtiyacı olana daha rahat anlatmağa yardım edir.

Həlim olmamaq işləri qüsurlu edər, qəbahətli edər və ehtiyac sahibinin istədiyi şeyə nail olmasına mane olar və nail olsa belə çətinliklə əldə edər.

**Hədisin faydalarından:**

1. Yumşaq xasiyyətə yiyələnməyə təşviq.
2. Yumşaqlıq insanı gözəlləşdirir və bu dünya və axirətdə ümumi xeyirlərə nail olmağa səbəb olur.

(5796)

(264) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «إِنَّ الدِّينَ يُسْرٌ، وَلَنْ يُشَادَّ الدِّينَ أَحَدٌ إِلَّا غَلَبَهُ، فَسَدِّدُوا وَقَارِبُوا، وَأَبْشِرُوا، وَاسْتَعِينُوا بِالْغَدْوَةِ وَالرَّوْحَةِ وَشَيْءٍ مِنَ الدُّلْجَةِ». [صحيح] - [رواه البخاري]

(264) – Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: “Həqiqətən din asandır. Kim dini çətinləşdirərsə, din ona üstün gələr. Düzgünlüyə riayət edin, (bacarmasanız çalışın ona) yaxınlaşın və sevinin. Səhər tezdən, günorta vaxtı və gecənin bir hissəsindən istifadə edin”. [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) açıq şəkildə bildirmişdir ki, İslam dini bütün işlərində asanlıq və rahatlıq üzərində bina edilimiş və

acizlik və ehtiyac üçün bir səbəb olduqda isə asanlıq daha da artırılmışdır. Çünki, dini işlərdə dərinliyə getmək və yumşaqlığı tərk etməyin aqibəti acizlik və əməllərin hamısının və ya bir hissəsinin tərk edilməsi ilə nəticələnir. Sonra o (Allahın salavatı və salamı onun üzərinə olsun) həddi aşmadan orta yol tutmağa çağırmışdır. Qul, ona əmr olunan əməldə səhlənkar davranmasın, gücü çatmayacağını isə özünə yük etməsin. Əməli kamil şəkildə etməkdən aciz qalarsa, kamilliyə yaxınlaşmağa çalışsın.

O (Allahın salavatı və salamı onun üzərinə olsun) əməli kamil şəkildə yerinə yetirməyə qadir olmayanları, az da olsa daimi əmələ görə böyük mükafatın olması ilə müjdələmişdir. Çünki acizlik onun öz tərəfindən (öz səhlənkarlığından) deyilsə, bu, onun əcrinin azalmasını gərəkdirmir.

Bu dünya, əslində səfər yeri və axirətə keçid yeri olduğundan, o (Allahın salavatı və salamı onun üzərinə olsun) ibadətdə davamlı olmağa yardım etmək üçün onları üç stimullaşdırıcı vaxtlara həyata keçirtməyi əmr etmişdir:

Birincisi: səhər: günün əvvəli; sübh namazı ilə günəşin doğması arasında.

İkincisi: rovhə: günorta günəşin zeniti keçməsindən sonra.

Üçüncüsü: gecə: bütün gecə və ya onun bir hissəsi. Gecənin işi gündüzün işindən daha çətin olduğu üçün "və gecədən bir hissə" deyərək onun bir hissəsini əmr etmişdir.

## Hədisin faydalarından:

1. İslam şəriətinin asanlığı və mərhəməti və onun “ifrat və təfrit” arasında orta yol tutması.
2. Qul səhlənkarlıq etmədən və həddi aşmadan bacardığı qədər Allahın əmrini yerinə yetirməlidir.
3. Qul ibadətdə gümrah olduğu vaxtları seçməlidir və xüsusən bu üç vaxt bədənin ibadət etmək üçün ən yaxşı vaxtlarıdır.
4. İbn Həcər Əsqaləni demişdir: “Sanki Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) müəyyən bir yerə gedən müsafirə xitab edir və bu üç vaxt müsafirin ən yaxşı vaxtıdır, buna görə də onun fəal olduğu vaxtlara diqqət çəkmişdir. Çünki müsafir gecə-gündüzün hamısını səfərdə keçirsə, acizləşər və səfəri yarımçıq qalar, lakin gümrah olduğu vaxtlarda hərəkət edərsə, çətinlik çəkmədən yoluna davam edə bilər”.
5. İbn Həcər demişdir: “Bu hədisdə şəriət rüxsəti ilə əməl etməyə işarə vardır, çünki rüxsət məqamında əsil olanı götürmək özünü çətinliyə salmaqdır. Bu, sudan istifadə edə bilməyən kəsin təyəmmümü tərk edərək sudan istifadə etməklə özünə zərər vurmasına bənzəyir”.
6. İbn əl-Munir dedi: “Bu hədisdə peyğəmbərlik əlamətlərindən bir əlamət vardır və biz görmüşük və bizdən əvvəlkilər də görüblər ki, dində çətinləşdirən hər kəs əməlini dayandırır və burada nəzərdə tutulan ibadətdə kamilliyə nail olmağı qadağan etmək deyil,

əksinə bu tərif olunan işdir. Lakin, qəsd olunan bezməyə aparan həddi aşmaq və ya əfzəl olanı tərk etməyə səbəb olan könüllü işlərdə mübaliğə etmək və ya fərz ibadətini vaxtından sonraya saxlamaqdır, necə ki, bütün gecəni namaz qılan kəs camaat namazından yatıb qalır və ya günəş doğub namazın vaxtı çıxana qədər yatıb qalır”.

(5795)

(265) – عن أنس بن مالك رضي الله عنه عن النبي صلى الله عليه وسلم قال:

«يَسِّرُوا وَلَا تُعَسِّرُوا، وَبَشِّرُوا وَلَا تُنَفِّرُوا». [صحيح] - [متفق عليه]

(265) – Ənəs bin Məlikdən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Asanlaşdırın, çətinləşdirməyin, sevindirin, hürküdüb qaçırtmayın". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) insanlara Allahın icazə verdiyi və şəriət buyurduğu hüdudlar daxilində bütün din və dünya işlərində yüngülləşdirməyi, asanlaşdırmağı, çətinləşdirməməyi əmr etmişdir.

Xeyir işlərdə insanları müjdələməyə, sevindirməyə və hürküdməməyə, xeyirdən uzaqlaşdırmamağa çağırır.

**Hədisin faydalarından:**

1. Mömin Allahı insanlara sevdirməli və onları xeyir işlər görməyə təşviq etməlidir.

2. Allahın yoluna dəvət edən insan, İslam dəvətini insanlara çatdıracağı üsluba hikmətlə yanaşmalıdır.
3. Dəvətçinin insanlara təqdim etdiyi müjdə onlarda sevinc, rahatlıq, maraq doğurur.
4. Çətinlik isə dəvətçinin sözlərində şübhə, nifrət və üz çevirmə doğurur.
5. Allahın rəhmətinin qullarına genişliyi, onlara rahat din və asan şəriət nəsib etmişdir.
6. Asanlaşdırmaq şəriətlə əmr edilmişdir.

(5866)

(266) – عن أنس رضي الله عنه قال: كُنَّا عِنْدَ عُمَرَ فَقَالَ: «نُهِينَا عَنِ التَّكَلُّفِ».

[صحيح] - [رواه البخاري]

(266) – Ənəsin (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Biz bir gün Ömərin yanında idik, o, belə dedi: “Bizə, təkəlluf etmək (çətinləşdirmək) qadağan edildi”. [Səhih] - [Əl-Buxari rəvayət etdi]

## Şərh (izah):

Ömər (Allah ondan razı olsun) xəbər verir ki, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) zərurət olmadığı halda, sözdə və əməldə çətinliyə səbəb olan hər şeyi qadağan etmişdir.

## Hədisin faydalarından:

1. Qadağan edilən dərinə getmək arasında: çox sual vermək və ya kiminsə bilmədiyi məsələlərdə onu həmin məsələlərlə çətinliyə salmaq və ya Allahın bəxş

etdiyi geniş və asan bir məsələdə sərt olub, onu daraldıb çətinə salmaq.

2. Müsəlman sözündə, əməlində: yeməyində, içməyində və bütün hallarda özünü yumşaqlığa və çətinləşdirməməyə alışdırmalıdır.
3. İslam asanlıq dinidir.

(8945)

(267) – عن ابن عمر رضي الله عنهما أن رسول الله صلى الله عليه وسلم قال: «إِذَا أَكَلَ أَحَدُكُمْ فَلْيَأْكُلْ بِيَمِينِهِ، وَإِذَا شَرِبَ فَلْيَشْرَبْ بِيَمِينِهِ، فَإِنَّ الشَّيْطَانَ يَأْكُلُ بِشِمَالِهِ، وَيَشْرَبُ بِشِمَالِهِ». [صحيح] - [رواه مسلم]

(267) – İbn Ömər (Allah onların hər ikisindən razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət etmişdir: "Sizdən biri yediyi zaman sağ əli ilə yesin, içdiyi zaman da sağ əli ilə içsin. Çünki şeytan, sol əli ilə yeyir və sol əli ilə içir". [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlmana sağ əli ilə yeyib içməsini əmr etmiş və sol əli ilə yeyib içməyi də qadağan etmişdir. Çünki şeytan sol əl ilə yeyib içir.

## Hədisin faydalarından:

1. Sol əl ilə yeyib içməyin şeytana bənzəmək olduğu üçün qadağan edilməsi.

(58122)

(268) – عن عُمر بن أبي سلمة رضي الله عنه قال: كُنْتُ غُلَامًا فِي حَجْرِ رَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، وَكَانَتْ يَدِي تَطِيشُ فِي الصَّحْفَةِ، فَقَالَ لِي رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «يَا غُلَامُ، سَمِّ اللهَ، وَكُلْ بِيَمِينِكَ، وَكُلْ مِمَّا يَلِيكَ» فَمَا زَالَتْ تِلْكَ طِعْمَتِي بَعْدُ. [صحيح] - [متفق عليه]

(268) – Ömər ibn Əbu Sələmədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə demişdir. Mən Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) himayəsində olan bir uşaq idim. Yemək yeyərkən əlim yemək qabının hər yanına dolaşırdı. Bunu görən Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) mənə belə dedi: «Ey oğlan, Bismilləh de. Sağ əlinlə ye və sənə yaxın olan yerdən ye”. Bundan sonra mənim yemək yemə tərzim Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) mənə öyrədiyi kimi oldu. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) tərbiyəsi və himayəsi altında böyüyən, xanımı Ummu Sələmənin (Allah ondan razı olsun) oğlu Ömər bin Əbu Sələmə (Allah ondan razı olsun) yemək yeyərkən yeməyi almaq üçün əlinin qabın hər tərəfində gəzib dolaşdığını və bunun üzərindən Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) ona yemək yemə

ədəblərindən üçünü öyrətdiyini xəbər vermişdir. Bu ədəblər aşağıdakılardır:

Birincisi: Yeməyə başlamazdan öncə: "Bismilləh" demək.

İkincisi: Sağ əl ilə yemək.

Üçüncüsü: Qabda yeməyin özünə yaxın olan tərəfindən yemək.

## Hədisin faydalarından:

1. Yemək-içmək ədəblərindən biri də, yemək və ya içməyə başlayarkən: "Bismilləh" deməkdir.
2. Uşaqlara, xüsusən də insanın himayəsi altnda olan uşaqlara ədəb-ərkan öyrədilməsi.
3. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) uşaqları təlim-tərbiyə etmə məsələsində səbirli və onlara qarşı şəfqətli olması.
4. Yemək ədəblərindən biri də, insanın, qabda ona yaxın olan yerdən yeməsidir. Amma yemək bir neçə növdən ibarətdirsə, bu zaman yeməyi qabın müxtəlif yerindən ala bilər.
5. Səhabələrin, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) onlara öyrətdiyi ədəb-ərkana riayət etmələri. Bu fayda, Ömərin: "Bundan sonra mənim yemək yemə tərzim Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) mənə öyrədiyi kimi oldu" sözündən alınmışdır.

(58120)

(269) – عن أنس بن مالك رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «إِنَّ اللهَ لَيَرْضَى عَنِ الْعَبْدِ أَنْ يَأْكُلَ الْأَكْلَةَ فَيَحْمَدَهُ عَلَيْهَا، أَوْ يَشْرَبَ الشَّرْبَةَ فَيَحْمَدَهُ عَلَيْهَا». [صحيح] - [رواه مسلم]

(269) – Ənəs bin Məlikdən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Həqiqətən Allah, yedikdən sonra həmd edən və içdikdən sonra həmd edən qulundan razıdır". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, Rəbbinin lütfü və nemətinə görə qulun həmd etməsi, Allahın razılığını qazandıran əməllərdən hesab edilir: yemək yeyir və əlhəmdulilləh deyir, su içir və əlhəmdulilləh deyir.

**Hədisin faydalarından:**

1. İzzət və cəlal sahibi olan Allahın səxavəti, lütf olaraq ruzi verir və qulun həmd etməsindən razı qalır.
2. Allahın razılığı, yedikdən və içdikdən sonra həmd etmək kimi ən asan səbəblərlə əldə edilir.
3. Yemək və içmək ədəblərindən biri: Yemək və içməkdən sonra uca Allaha həmd etmək.

(5798)

(270) – عَنْ سَلَمَةَ بْنِ الْأَكْوَعِ رضي الله عنه: أَنَّ رَجُلًا أَكَلَ عِنْدَ رَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ بِشِمَالِهِ، فَقَالَ: «كُلْ بِيَمِينِكَ»، قَالَ: لَا أَسْتَطِيعُ، قَالَ: «لَا اسْتَطَعْتَ»، مَا مَنَعَهُ إِلَّا الْكِبْرُ، قَالَ: فَمَا رَفَعَهَا إِلَى فِيهِ. [صحيح] - [رواه مسلم]

(270) – Sələmə bin Əl-Əkvadən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Bir kişi Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ilə bir süfrə arxasında sol əli ilə yemək yeyirdi, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun): “Sağ əlinlə ye”- dedi. O isə "Bacarmıram" deyə cavab verdi. Dedi: "Heç bacarmayasan", bunu etməyə onun təkəbbürlüyü mane oldu. Buyurdu ki: Sağ əlini bir daha ağzına apara bilmədi. [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bir kişinin sol əli ilə yemək yediyini görüb, ona sağ əli ilə yeməyi əmr etdi. Kişi isə ona yalan olaraq və təkəbbürlük edərək bacarmadığını cavab verdi. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ona bəd dua etdi ki, sağ əliylə yeməkdən məhrum olsun. Allah Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) duasına cavab verərək adamın sağ əlini iflic etdi, ona görə də bir daha sağ əlini yemək və ya içmək üçün ağzına qaldıra bilmədi.

## Hədisin faydalarından:

1. Sağ əl ilə yeməyin vacibliyi və sol əl ilə yeməyin haramlılığı.

2. Şəriət hökmlərinin icrasından təkəbbürlük edən kəs cəzaya layiqdir.
3. Duasına cavab verməklə Allahın öz Peyğəmbəri Muhəmmədin (Allahın salavatı və salamı onun üzərinə olsun) duasını qəbul etməklə ona verdiyi dəyər.
4. Bütün hallarda-hətta yemək əsnasında olsa belə-xeyir işləri əmr etmək və qadağanlardan çəkindirmənin zəruriliyi.

(3372)

(271) – عَنْ سَهْلِ بْنِ مُعَاذِ بْنِ أَنَسٍ عَنْ أَبِيهِ قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ: «مَنْ أَكَلَ طَعَامًا فَقَالَ: الحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمَنِي هَذَا وَرَزَقَنِيهِ مِنْ غَيْرِ حَوْلٍ مِنِّي وَلاَ قُوَّةٍ، غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ». [حسن] - [رواه أبو داود والترمذي وابن ماجه وأحمد]

(271) – Səhl bin Muaz bin Ənəs atasından rəvayət edərək belə demişdir: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: “Kim yemək yeyib: “Əlhəmdu-lilləhil-ləzi ətaməni həzə va razəqanihi min ğeyri həvlin minni və ləə qüvvətin (Mənim tərəfimdən heç bir güc və qüvvət sərf olmadan bunu mənə yedizdirən və mənə ruzi olaraq verən Allaha həmd olsun” desə, onun keçmiş günahları bağışlanar”. [Həsən] - [Əbu Davud, Ət-Tirmizi, İbn Məcə, Əhməd rəvayət ediblər]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) yemək yeyən kəsi Allaha həmd etməyə təşviq edir,

çünki insanın Uca Allah və Onun köməyi olmadan yeməyi əldə etməyə və yeməyə gücü yoxdur. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bu sözləri deyəni, Allah tərəfindən ötüb-keçmiş kiçik günahlarının bağışlanmasına layiq olduğu ilə müjdələdi.

**Hədisin faydalarından:**

1. Yeməyin sonunda Uca Allaha həmd etməyin müstəhəbliyi.
2. Uca Allahın qulları üzərindəki lütfünün böyüklüyünün bəyanı, belə ki, onları ruziləndirdi, ruzi səbəblərini onlar üçün asanlaşdırdı və bunu onların günahlarının təmizlənməsi səbəbi etdi.
3. Qulların bütün işləri onların gücü və qüvvəti ilə deyil, əksinə izzət və Cəlal sahibi olan Allahdandır və (bununla yanaşı) bəndəyə səbəbləri yerinə yetirmək əmr edilmişdir.

(5431)

(272) – عن أبي هريرة رضي الله عنه قال: كان رسولُ الله صلى الله عليه وسلم إِذَا عَطَسَ وَضَعَ يَدَه -أَوْ ثَوْبَهُ- عَلَى فِيهِ، وَخَفَضَ -أَوْ غَضَّ- بِهَا صَوتَهُ. [صحيح] - [رواه أبو داود والترمذي وأحمد]

(272) – Əbu Hureyradan (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: "Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) asqırdığı zaman əlini və ya paltarını ağzının üstünə qoyar və onunla səsini aşağı salardı". [Səhih] - [Əbu Davud, Ət-Tirmizi, Əhməd]

**Şərh (izah):**

Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) asqırdığı zaman:

Birincisi: Əlini və ya paltarını ağzının üstünə qoyardı ki, onun ağzından və ya burnundan yanındakı şəxsə narahatlığa səbəb olan (əziyyətverici) heç bir şey çıxmasın.

İkincisi: Səsini aşağı salar, qaldırmazdı.

**Hədisin faydalarından:**

1. Asqırmaqda onun (Allahın salavatı və salamı onun üzərinə olsun) yolunun bəyanı və bu işdə ona tabe olmaq.
2. Bir kəs asqıran zaman onunla oturan şəxsə zərər verə biləcək bir şey çıxmasın deyə ağzına və burnuna paltar, dəsmal və ya bu kimi şeylər qoymasının bəyənilən olması.
3. Asqırarkən səsi aşağı salmaq tələb olunandır və bu, kamil ədəb və gözəl əxlaqdandır.

(3317)

(273) – عَنِ ابْنِ عَبَّاسٍ رضي الله عنهما قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ:

«إِنَّ اللَّهَ يُحِبُّ أَنْ تُؤْتَى رُخَصُهُ، كَمَا يُحِبُّ أَنْ تُؤْتَى عَزَائِمُهُ». [صحيح] - [رواه ابن حبان]

(273) – İbn Abbasdan (Allah ondan və atasından razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: “Həqiqətən Allahın sizə buyurduğu vacib əməlləri sevdiyi kimi, rüxsətlə (yüngülləşdirici) buyurduğu əməlləri də etmənizi sevir”. [Səhih] - [İbnu Hibbən rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, həqiqətən Allah əhkam və ibadətlərdəki buyurduğu yüngüllükləri, səfər zamanı namazı qısaltmaq və cəm etmək kimi mükəlləflərə asanlaşdırdığı rüxsətlərin edilməsini sevir. Eyni şəkildə Uca Allah, əmrlərinin də yerinə yetirilməsini sevir, çünki Onun rüxsətlərdə və fərzlərdəki əmrləri eynidir.

## Hədisin faydalarından:

1. Uca Allahın qullarına rəhmkar olması. Pak və nöqsansız uca Allah şəriət rüxsətlərinin yerinə yetirilməsini sevir.
2. Şəriətin kamilliyi və müsəlmanın üzərindən çətinliyin götürülməsi.

(65017)

(274) – عن أبي هريرة رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم:

«مَنْ يُرِدِ اللهُ بِهِ خَيْرًا يُصِبْ مِنْهُ». [صحيح] - [رواه البخاري]

(274) – Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Allah kimə xeyir istərsə, onu müsibətlə imtahana çəkər". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Allah mömin qullarından birinə xeyir istərsə, onu özü ilə, var-dövləti ilə, ailəsi ilə imtahana

çəkər. Nəticə olaraq mömin də, günahlarının təmizlənməsi və dərəcəsinin artması üçün duaya sarılar.

## Hədisin faydalarından:

1. Həqiqətən mömin müxtəlif növ bəlalara məruz qalır.
2. Bəla, müsibət Allahın qulunu sevməsinin işarəsi ola bilər. Onun dərəcəsini artırar, məqamını yüksəldər və günahlarını silər.
3. Müsibətlərə səbr etməyə və dözümlüyə təşviq.

(4204)

(275) – عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ وَعَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنهما عَنِ النَّبِيِّ صلى الله عليه وسلم قَالَ: «مَا يُصِيبُ الْمُسْلِمَ مِنْ نَصَبٍ وَلَا وَصَبٍ وَلَا هَمٍّ وَلَا حُزْنٍ وَلَا أَذًى وَلَا غَمٍّ حَتَّى الشَّوْكَةِ يُشَاكُهَا إِلَّا كَفَّرَ اللهُ بِهَا مِنْ خَطَايَاهُ». [صحيح] - [متفق عليه]

(275) – Əbu Səid əl-Xudridən və Əbu Hureyradan (Allah onlardan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilmişdir: “Müsəlmanın başına gələn bəlalar içərisində elə bir yorğunluq, xəstəlik, dərd, kədər, əziyyət və sıxıntı, qəm, hətta bədəninə batan tikan kimi bəla yoxdur ki, Allah buna görə onun günahlarını bağışlamasın.” [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) izah edir ki, müsəlmanın başına gələn hər hansı xəstəlik, narahatlıq, qəm-qüssə, sıxıntı, bəla, çətinlik, qorxu və aclıq - hətta bədəninə batıb  ağrı verən tikan belə - onun

günahlarının təmizlənməsinə və xətalarının bağışlanmasına səbəbdir.

**Hədisin faydalarından:**

1. Mömin bəndələrin başına gələn ən kiçik əziyyətlərə görə günahlarının bağışlaması, Allahın onlara olan lütfünün və onlara qarşı mərhəmətinin təzahürüdür.
2. Müsəlman, başına gələn müsibətin mükafatını Allahdan ummalı, baş verəcək hər bir böyük və ya kiçik hadisəyə səbr etməlidir ki, bununla da dərəcəsi yüksəlsin və günahları silinsin.

(3701)

(276) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ: «مَا يَزَالُ البَلَاءُ بِالمُؤْمِنِ وَالمُؤْمِنَةِ فِي نَفْسِهِ وَوَلَدِهِ وَمَالِهِ حَتَّى يَلْقَى اللَّهَ وَمَا عَلَيْهِ خَطِيئَةٌ».

[حسن] - [رواه الترمذي وأحمد]

(276) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Mömin kişi və mömin qadının, günahlardan tam təmizlənmiş halda Allahla qarşılaşana qədər özündə, övladlarında və malında bəla baş verməyə davam edər". [Həsən] - [Ət-Tirmizi və Əhməd rəvayət ediblər]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, bəla və imtahan mömin kişi və mömin qadına, özlərinin sağlamlığında və bədənində,

övladlarının xəstəliyində, ölümündə, valideyinlərinin üzünə ağ olmaqda və başqa şeylərində, mallarında isə kasıbçılığın olması, ticarətin yox olması, oğurluq, həyatın çətinliyi və ruzinin azalması şəklində baş verməyə davam edər ki, Allah bu bəlalarla onu bütün günah və xətalardan təmizləyər, hətta o, Allahla qarşılaşdığı vaxt artıq işlədiyi bütün günah və asiliklərdən təmizlənmiş olar.

## Hədisin faydalarından:

1. Allahın mömin qullarına olan mərhəmətindən biri də odur ki, O,  dünyada ikən onların günahlarını dünya müsibətləri və bəlaları ilə təmizləyir.
2. Təkcə bəla (müsibət) imanın olması şərti ilə günahları yuyar, ona görə də qul səbr edib qəzəblənməsə, savab qazanar.
3. (Qulu) sevdiyi və sevmədiyi hər bir işdə səbirli olmağa təşviq etmək. O, Allahın mükafatına ümid edərək və Onun əzabından qorxaraq, Allahın vacib etdiyini yerinə yetirmək üçün səbr edər, həmçinin Allahın haram etdiklərindən uzaq durmaq üçün də səbr edər.
4. Onun (Allahın salavatı və salamı onun üzərinə olsun): “mömin kişi və mömin qadın” deməsi, yəni “mömin qadın” sözünü əlavə etməsi, qadınlara önəm verilməsinə dəlildir. Yoxsa, sadəcə “mömin” söyləsəydi, bu kəlimə qadını da özündə əhatə edərdi, çünki bu yalnız kişilərə aid deyil. Buna görə qadına da bəla toxunduqda, ona da günah və xətalarının təmizlənməsi olaraq eyni mükafat vəd edilir.

5. Qulun hər dəfə üzləşdiyi ağrı-acıları ona asanlaşdıran, bu bəlaya görə verilən fəzilətdir.

(3159)

(277) – عَنْ صُهَيْبٍ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «عَجَبًا لِأَمْرِ الْمُؤْمِنِ، إِنَّ أَمْرَهُ كُلَّهُ خَيْرٌ، وَلَيْسَ ذَاكَ لِأَحَدٍ إِلَّا لِلْمُؤْمِنِ، إِنْ أَصَابَتْهُ سَرَّاءُ شَكَرَ، فَكَانَ خَيْرًا لَهُ، وَإِنْ أَصَابَتْهُ ضَرَّاءُ صَبَرَ، فَكَانَ خَيْرًا لَهُ». [صحيح] - [رواه مسلم]

(277) – Suheybdən (Allah ondan razı olsun) rəvayət edilir ki, Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dedi: “Möminin halı necə də təəccüblüdür, onun hər halı xeyirdir və bu, mömindən başqa heç kəsə aid deyil. Əgər ona bir sevinc toxunsa, şükür edər və bu onun üçün xeyir olar. Əgər başına bir müsibət gəlsə, səbir edər və bu onun üçün xeyir olar”. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) möminin vəziyyətinə və halına gözəl şəkildə təəccüb edir. Çünki onun hər bir halı xeyirdir və bu mömindən başqa heç kəs üçün belə deyil. Əgər ona bir sevinc toxunsa, buna görə Allaha şükür edər və şükrünə görə əcr qazanar. Əgər başına bir müsibət gəlsə, səbr edər və mükafatını Allahdan umar və səbr etdiyinə görə əcr qazanar. Beləliklə o, hər bir halında savab qazanar.

## Hədisin faydalarından:

1. Yaxşı günlərə [görə Allaha] şükür etmək və çətinliyə səbr etməyin fəziləti. Hər kim bunu edərsə, hər iki dünyanın xeyrinə nail olar. Hər kim nemətə şükr və müsibətə səbr etməzsə, savabdan məhrum olar və günah qazanar.
2. İmanın fəziləti və hər bir halda mükafatın yalnız iman sahiblərinə aid olması.
3. Yaxşı günlərdə şükr etmək, sıxıntıda isə səbr etmək möminlərin xüsusiyyətlərindəndir.
4. Özünə bir zərər toxunduğu zaman daim qəzəb içində olan kafirdən fərqli olaraq, Allahın qəza və qədərinə iman, mömini bütün hallarında tam razı salır. Kafir Allahdan bir nemət əldə edərsə, bu onu nəinki Allaha itaətdən yayındırar, üstəlik bu neməti Ona asi olmağa sərf edər.

(3298)

(278) – عن أبي موسى الأشعري رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «إِذَا مَرِضَ الْعَبْدُ أَوْ سَافَرَ كُتِبَ لَهُ مِثْلُ مَا كَانَ يَعْمَلُ مُقِيمًا صَحِيحًا». [صحيح]

- [رواه البخاري]

(278) – Əbu Musa əl-Əşaridən - Allah ondan razı olsun - rəvayət edilən hədisdə Allah Rəsulu - salləllahu aleyhi va səlləm - belə buyurmuşdur: "Bir qul xəstələndiyindən və ya səfərə çıxdığından dolayı davamlı olaraq etdiyi ibadətləri etməzsə, ona müqim (sakin olduğu) və sağlam

olarkən etdiyi əməllərin savabı kimi savab yazılar". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər - salləllahu aleyhi va səlləm - bir müsləmanın sağlam və müqim olarkən adəti üzrə etmiş olduğu saleh bir əməli xəstəlik, səfər və ya hər hansı bir üzürdən dolayı etmədiyində, ona, sağlam və müqim olarkən etmiş kimi savab yazılmasının Allahın lütfu və rəhməti olduğunu xəbər vermişdir.

**Hədisin faydalarından:**

1. Hədisdə Allahın qulları üzərindəki lütfünün genişliyi ifadə edilmişdir.
2. Hədisdə saleh əməllərə can atmağa, sağlamlıq və boş vaxtlardan faydalı istifadə etməyə təşviq vardır.

(3553)

(279) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه أَنَّ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ:
«بَادِرُوا بِالْأَعْمَالِ فِتَنًا كَقِطَعِ اللَّيْلِ الْمُظْلِمِ، يُصْبِحُ الرَّجُلُ مُؤْمِنًا وَيُمْسِي كَافِرًا، أَوْ يُمْسِي مُؤْمِنًا وَيُصْبِحُ كَافِرًا، يَبِيعُ دِينَهُ بِعَرَضٍ مِنَ الدُّنْيَا». [صحيح] - [رواه مسلم]

(279) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Zülmət gecənin parçaları kimi fitnələr gəlmədən öncə saleh əməllərə tələsin, insan mömin olaraq sabahlayıb, kafir olaraq axşamlayar, mömin olaraq axşamlayıb, kafir olaraq sabahlayar. Az dünya malı qarşılığında dinini satar". [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) mömini həvəsləndirir ki, saleh əməllər qeyri-mümkün olmamış və ya onlara mane olan fitnə və şübhələr gəlməmiş, saleh əməllər işləməyi tezləşdirsinlər və çoxaltsınlar. Çünki, bu şübhə və fitnələr gecə kimi zülmətdir, orada haqq batilə qarışır və insanlar üçün onları bir-birindən ayırmaq çətinləşir. Və onun şiddətindən insan o qədər çaşqınlığa düşür ki, hətta o, mömin kimi sabahlayıb, axşam kafir olur və ya axşam mömin olduğu halda, kafir kimi sabahlayır, dünya həyatının keçici ləzzətlərinə görə dinini tərk edir.

## Hədisin faydalarından:

1. Dinə bağlı olmağın vacibliyi və maneələr meydana gəlməzdən əvvəl yaxşı işlərə tələsmək.
2. Axır zamanda azdırıcı fitnələrin ardıcıl baş verəcəyinə işarə edilir və hər dəfə bir fitnə ortadan qalxdıqda, onun ardınca başqa bir fitnə gələcək.
3. Əgər insanın dini zəifləyərsə və dünyəvi işlər, məsələn, pul və ya digər şeylər qarşılığında dinində güzəştə gedərsə, bu onun azmasına, dini tərk etməsinə və fitnələrə qapılmasına səbəb olar.
4. Hədisdə saleh əməllərin fitnələrdən qurtuluş vasitəsi olduğuna dəlil vardır.
5. Fitnələr iki növdür: Şübhələrin fitnəsi və onun müalicəsi elmdir və şəhvətlərin fitnəsi və onun müalicəsi isə iman və səbrdir.

6. Hədisdə işarə vardır ki, kimin əməli az olarsa, fitnə ona daha tez təsir edər. Əməli çox olan isə, etdiyi əməllərə aldanmamalı, əksinə artırmalıdır.

(3138)

(280) – عن معاوية رضي الله عنه قال: سمعتُ النبيَّ صلى الله عليه وسلم يقول: «مَنْ يُرِدِ اللهُ بِهِ خَيْرًا يُفَقِّهْهُ فِي الدِّينِ، وَإِنَّمَا أَنَا قَاسِمٌ، وَاللهُ يُعْطِي، وَلَنْ تَزَالَ هَذِهِ الْأُمَّةُ قَائِمَةً عَلَى أَمْرِ اللهِ، لَا يَضُرُّهُمْ مَنْ خَالَفَهُمْ، حَتَّى يَأْتِيَ أَمْرُ اللهِ». [صحيح] - [متفق عليه]

(280) – Muaviyə (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət edir: "Allah kimə xeyir diləsə, onu dində anlayış sahibi edər, mən sadəcə nemətləri bölüb paylayanam, (nemətləri) yetirən isə Allahdır. Bu ümmət Allahın əmri gəlincəyə (Qiyamətə) qədər Onun əhkamları üzərində olacaq, onlara müxalif olanlar onlara zərər vura bilməyəcəklər”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, Allah kimə xeyir istəsə, onu pak olan Allahın dinində anlayış istedadına yiyələndirər. Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) uca Allahın verdiyi ruzini, elmi və digər şeyləri bərabər bölüb paylayandır. Həqiqi mənada yetirən Allahdır, başqaları isə yalnız Allahın izni ilə fayda verə biləcək səbəblərdəndir. Bu ümmət Qiyamətə qədər Allahın

əhkamları üzərində olacaq, əleyhdarları isə onlara zərər verə bilməyəcəklər.

**Hədisin faydalarından:**

1. Şəriət elminin və onu öyrənməyin əzəməti və fəziləti, və bu elmə təşviqin önəmi.
2. Bu ümmət üçün haqqı uca tutmaq mütləqdir, əgər bir qrup insan buna əməli etməzsə, digərləri onları əvəz edər.
3. Dini düzgün anlamaq neməti, uca Allahın quluna xeyir istəməsindən irəli gəlir.
4. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) yalnız Allahın əmri və istəyi ilə bəxş edir və o heç bir şeyin sahibi deyildir.

(5518)

(281) – عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ رضي الله عنهما أَنَّ النَّبِيَّ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ:
«لَا تَعَلَّمُوا الْعِلْمَ لِتُبَاهُوا بِهِ الْعُلَمَاءَ، وَلَا لِتُمَارُوا بِهِ السُّفَهَاءَ، وَلَا تَخَيَّرُوا بِهِ الْمَجَالِسَ، فَمَنْ فَعَلَ ذَلِكَ، فَالنَّارُ النَّارُ». [صحيح] - [رواه ابن ماجه]

(281) – Cabir bin Abdullahdan (Allah onların hər ikisindən razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: “Alimlərin qarşısında lovğalanmaq, səfehlərlə mübahisə etmək, məclislərdə seçilmək üçün elm öyrənməyin. Kim belə edərsə, o oddadır, oddadır”. [Səhih] - [İbnu Məcə rəvayət etdi]

## Şərh (izah):

Burada Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) elm tələbəsini alimlərin iştirak etdiyi məclislərdə özü ilə fəxr edib öyünməsindən, "mən də sizin kimi elmə sahibəm" düşüncəsini izhar etməkdən, səfehlərlə, dar düşüncəli insanlarla mübahisə etməkdən, məclislərdə öndə olmaq və digərlərindən önə çıxmaq məqsədilə elm öyrənilməsindən çəkindirmişdir. Kim bunu edərsə, riyakarlığına görə və elm tələbində ixlaslı olmadığı üçün Cəhənnəmə girməyə layiq olar.

## Hədisin faydalarından:

1. Elmi, fəxr etmək, mubahisə etmək və məclislərdə baş tərəfdə oturmaq və bənzər məqsədlərlə öyrənənlər üçün cəhənnəm vəd edilmişdir.
2. Elmi ixlasla öyrənməyin və bu elmi başqlarına öyrətməyin əhəmiyyəti.
3. Niyyət əməllərin əsasıdır və mükafat ona görə olur.

(65047)

(282) – عن عثمان رضي الله عنه عن النبي صلى الله عليه وسلم قال: «خَيْرُكُمْ مَنْ تَعَلَّمَ الْقُرْآنَ وَعَلَّمَهُ». [صحيح] - [رواه البخاري]

(282) – Osmandan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Sizin ən xeyirliniz Quranı öyrənən və onu öyrədəndir". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurur ki, müsəlmanların ən xeyirlisi və Allah qatında ən yüksək dərəcəyə malik olanı Quranı tilavətlə oxumaqla, əzbərləməklə, onun təfsirini və elmini öyrənər və bilik əldə edər. Onun əhkamlarına əməl edər və bildiyi Quran elmlərini başqalarına öyrədər.

## Hədisin faydalarından:

1. Quranın şərəfli olmasının və kəlamlarının ən xeyirli olmasının açıqlaması. Çünki bu, Allahın kəlamıdır.
2. Öyrənənlərin ən xeyirlisi özünün öyrənməsi ilə kifayətlənməz, əksinə öyrəndiklərini başqalarına öyrədər.
3. Quranı öyrənmək və öyrətmək - tilavəti, mənaları və əhkamları da ehtiva edir.

(5913)

(283) – عَنْ أَبِي عَبْدِ الرَّحْمَنِ السُّلَمِي رحمه الله قَالَ: حَدَّثَنَا مَنْ كَانَ يُقْرِئُنَا مِنْ أَصْحَابِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ أَنَّهُمْ كَانُوا يَقْتَرِئُونَ مِنْ رَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ عَشْرَ آيَاتٍ، فَلَا يَأْخُذُونَ فِي الْعَشْرِ الْأُخْرَى حَتَّى يَعْلَمُوا مَا فِي هَذِهِ مِنَ الْعِلْمِ وَالْعَمَلِ، قَالُوا: فَعَلِمْنَا الْعِلْمَ وَالْعَمَلَ. [حسن] - [رواه أحمد]

(283) – Əbu AbdurRahmən Əs-Suləmidən (Allah ona rəhmət etsin) belə dediyi rəvayət edilir: Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) sahabələrindən bizə Quran öyrədənlər danışırdılar ki, onlar Allah Rəsulundan (Allahın salavatı və salamı onun

üzərinə olsun) on ayə öyrənərdilər və bu ayələrdəki elm və əməli həyatlarında tətbiq etməyincə digər ayələrə keçməzdilər. Onlar – "Bu sayədə elm və əməli öyrəndik" - deyərdilər. [Həsən] - [Əhməd rəvayət etdi]

## Şərh (izah):

Sahabələr (Allah onlardan razı olsun) Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) Quranın on ayəsini öyrənərdilər. Bu on ayədəki elmi öyrənib, həmin ayələrə əməl etmədən başqasına keçməzdilər. Ona görə də, elmi və əməli birikdə öyrənərdilər.

## Hədisin faydalarından:

1. Sahabələrin (Allah onlardan razı olsun) fəziləti və onların Quran öyrənməyə hərislikləri.
2. Quranı öyrənmək, elm və ayələrə əməl etməklə olur, sadəcə oxumaq və əzbərləməklə deyil.
3. Elm, sözdən və əməldən öncədir.

(65058)

(284) – عن عبد الله بن مسعود رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «مَنْ قَرَأَ حَرْفًا مِنْ كِتَابِ اللهِ فَلَهُ بِهِ حَسَنَةٌ، وَالْحَسَنَةُ بِعَشْرِ أَمْثَالِهَا، لَا أَقُولُ {الم} حَرْفٌ، وَلَكِنْ {أَلِفٌ} حَرْفٌ، وَ{لَامٌ} حَرْفٌ، وَ{مِيمٌ} حَرْفٌ». [حسن] - [رواه الترمذي]

(284) – Abdullah bin Məsud (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət edir: "Kim Allahın kitabından bir hərf oxuyarsa, ona bir savab yazılar. Savab isə on

mislindədir. Deməzdim ki, “Əlif ləm mim” bir hərfdir, lakin “əlif” bir hərf, “ləm” bir hərf və “mim” də bir hərfdir". [Həsən] - [Ət-Tirmizi rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, hər bir müsəlman Allahın kitabından bir hərf oxusa bir savab qazanar, bu savab da on qat mislində artar.

Sonra “Deməzdim ki, əlif, ləm, mim bir hərfdir, lakin əlif bir hərf, ləm bir hərf, mim də bir hərfdir” deyərək bəyan edir ki, üç savab burada otuz savaba bərabər olur.

**Hədisin faydalarından:**

1. Quran tilavətini artırmağa təşviq.
2. Quran oxuyan kəsin oxuduğu sözlərdə hər hərfə qarşılıq on qat savab vardır.
3. Allahın rəhmət və lütfünün genişliyi, çünki qula lütfündən və fəzilətindən dolayı onun əcrini qat qat artırmışdır.
4. Quranın digər sözlərdən üstünlüyü, onu tilavət etmək ibadətdir, çünki o uca Allahın kəlamıdır.

(6275)

(285) – عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ: «يُقَالُ لِصَاحِبِ الْقُرْآنِ: اقْرَأْ وَارْتَقِ، وَرَتِّلْ كَمَا كُنْتَ تُرَتِّلُ فِي الدُّنْيَا، فَإِنَّ مَنْزِلَكَ عِنْدَ آخِرِ آيَةٍ تَقْرَؤُهَا». [حسن] – [رواه أبو داود والترمذي والنسائي في الكبرى وأحمد]

(285) – Abdullah bin Amrdan (Allah onların hər ikisindən razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Quran sahibinə deyiləcək: Oxu və yüksəl, dünyada tərtil ilə oxuduğun kimi burada da tərtillə oxu, şübhəsiz ki, sənin dərəcən, oxuduğun son ayəyə qədərdir". [Həsən] - [Əbu Davud, Ət-Tirmizi, Ən-Nəsai Əl-Kubrada, Əhməd rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Quranı oxuyana, əhkamlarına əməl edənə, oxuyaraq əzbərləyənə, cənnətə daxil olarkən deyiləcək: Quranı oxu və cənnətin dərəcələrinə bununla yüksəl, dünyada tələsmədən rahatlıqla aramla oxuduğun kimi burada da elə oxu. Şübhəsiz ki, sənin son yerin, oxuduğun son ayəyə qədərdir.

## Hədisin faydalarından:

1. Mukafat əməllərin keyfiyyət və kəmiyyətinə uyğun verilir.
2. Quranı oxumağa, əzbərləməyə, onu düşünüb anlamağa çalışmağa və əhkamlarına əməl etməyə təşviq.
3. Cənnətdə bir çox məqamlar və dərəcələr vardır. Quran sahibləri orada ən üstün dərəcələrə nail olur.

(65054)

(286) – عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «أَيُحِبُّ أَحَدُكُمْ إِذَا رَجَعَ إِلَى أَهْلِهِ أَنْ يَجِدَ فِيهِ ثَلَاثَ خَلِفَاتٍ عِظَامٍ سِمَانٍ؟» قُلْنَا: نَعَمْ. قَالَ: «فَثَلَاثُ آيَاتٍ يَقْرَأُ بِهِنَّ أَحَدُكُمْ فِي صَلَاتِهِ خَيْرٌ لَهُ مِنْ ثَلَاثِ خَلِفَاتٍ عِظَامٍ سِمَانٍ». [صحيح] - [رواه مسلم]

(286) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Sizlərdən biriniz ailəsinin yanına döndüyündə orada üç kök böyük hamilə dəvə görmək istəyərmi?". Biz: "Bəli" dedik. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun): "Sizlərdən birinizin namazda oxuduğu üç ayə, üç böyük, kök, hamilə dəvəyə sahib olmaqdan daha xeyirlidir" - deyə buyurdu. [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, namazda üç ayə oxumağın savabı, insanın evindəki üç kök, böyük, hamilə dəvədən daha xeyirlidir.

## Hədisin faydalarından:

1. Namazda Quran oxumağın fəziləti.
2. Saleh əməllər fani dünya ləzzətlərindən daha xeyirli və davamlıdır.
3. Bu fəzilət sadəcə üç ayə oxunmaqla kifayətlənmir. Namaz qılan kəs namazında oxuduğu Quran ayələrini

artırarsa, əldə edəcəyi savab, ayələrin sayı qədər kök böyük hamilə dəvələrdən daha xeyirli olar.

(65053)

(287) – عن أبي موسى الأشعري رضي الله عنه عن النبي صلى الله عليه وسلم قال:

«تَعَاهَدُوا هَذَا الْقُرْآنَ، فَوَالَّذِي نَفْسُ مُحَمَّدٍ بِيَدِهِ لَهُوَ أَشَدُّ تَفَلُّتًا مِنَ الْإِبِلِ فِي عُقُلِهَا».

[صحيح] - [متفق عليه]

(287) – Əbu Musa Əl-Əşaridən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Bu Quranı daima oxuyun! Canım əlində olan Allaha and olsun ki, o (sahibini) kəndirdən açılıb qaçan dəvədən daha tez tərk edir". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) sinələrdə əzbərlənən Quranı unutmamaq üçün ona bağlı qalmağı və onu mütəmadi olaraq oxumağı əmr etmişdir. O (Allahın salavatı və salamı onun üzərinə olsun) and içərək təkid edir ki, Quranın sinələrdən itməsi və getməsi, ayağının ortasından iplə bağlanmış dəvənin ipdən qurtulub qaçmasından daha asandır. Əgər insan Quranı oxumağa davam edərsə, onu saxlayar, əgər oxumağı buraxarsa, əzbərlədiyi gedər və itər.

## Hədisin faydalarından:

1. Əgər Quran əzbərləyən onu mütəmadi oxuyarsa, yaddaşına həkk olar, əks halda əzbərlədikləri onun yaddaşından itər və onları unudar.
2. Quranı davamlı oxumağın faydalarından: mükafat və savab, və Qiyamət günü oxuyanın dərəcəsinin ucalığı.

(5907)

(288) – عن أبي هريرة رضي الله عنه: أن رسول الله صلى الله عليه وسلم قال: «لَا تَجْعَلُوا بُيُوتَكُمْ مَقَابِرَ، إِنَّ الشَّيْطَانَ يَنْفِرُ مِنَ الْبَيْتِ الَّذِي تُقْرَأُ فِيهِ سُورَةُ الْبَقَرَةِ».

[صحيح] - [رواه مسلم]

(288) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Evlərinizi qəbirstanlığa çevirməyin. Həqiqətən şeytan Bəqərə surəsi oxunan evdən qaçır". [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) evlərdə namaz qılınmasının tərkini qadağan etmişdir. Çünki namaz qılınmayan ev qəbirstanlıq kimidir.

Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, şeytan Bəqərə surəsi oxunan evdən qaçar.

## Hədisin faydalarından:

1. Evlərdə ibadətləri və nafilə namazlarını çoxaltmağın müstəhəb olması.

2. Qəbirstanlıqda namaz qılmaq icazəli deyil, çünki şirkə sürükləyən vasitələrdəndir və həmçinin qəbirdəkilərin şənini ifrat etməkdir. Orada yalnız cənazə namazı icazəlidir.
3. Qəbirlər olan yerdə namaz qılmağın qadağan edilməsi sahabələr arasında artıq aydın məsələ idi. Buna görə də Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) evləri, qəbirstanlıqlarda olduğu kimi namaz qılınmayan məkana çevirməyi qadağan etmişdir.

(6208)

(289) – عَنْ أُبَيِّ بْنِ كَعْبٍ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «يَا أَبَا الْمُنْذِرِ، أَتَدْرِي أَيُّ آيَةٍ مِنْ كِتَابِ اللهِ مَعَكَ أَعْظَمُ؟» قَالَ: قُلْتُ: اللهُ وَرَسُولُهُ أَعْلَمُ. قَالَ: «يَا أَبَا الْمُنْذِرِ، أَتَدْرِي أَيُّ آيَةٍ مِنْ كِتَابِ اللهِ مَعَكَ أَعْظَمُ؟» قَالَ: قُلْتُ: {اللهُ لا إِلَهَ إِلا هُوَ الْحَيُّ الْقَيُّومُ} [البقرة: 255]. قَالَ: فَضَرَبَ فِي صَدْرِي، وَقَالَ: «وَاللهِ لِيَهْنِكَ الْعِلْمُ، أَبَا الْمُنْذِرِ». [صحيح] - [رواه مسلم]

(289) – Ubey bin Kəbdan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Ey Əbul Munzir, bilirsənmi ki, Allahın kitabındakı hansı ayə daha əzəmətlidir?". Dedi: Mən cavab verdim: Allah və Rəsulu ən doğrusunu bilir! Dedi: "Ey Əbul Munzir, bilirsənmi, Allahın kitabındakı hansı ayə daha əzəmətlidir?". Dedi: Mən cavab verdim: “Allah, Ondan başqa ibadətə layiq məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur”. [Əl

bəqərə 2 surəsi, ayə 255]. O sinəmə vurub dedi: "Ey Əbul Munzir, vallahi elm sənə mübarək olsun". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Ubey bin Kabdən Allahın kitabında olan ən əzəmətli ayə haqqında soruşur. O isə tərəddüd edir, sonra deyir: Bu kürsi ayəsidir: “Allah, Ondan başqa ibadətə layiq məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur”. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) onu dəstəkləyib, sinəsinə vuraraq qəlbinin elm və hikmətlə dolu olduğuna işarə edir. Bu elmlə xoşbəxt olması üçün və elmin ona asanlaşdırılması üçün Allaha dua edir.

**Hədisin faydalarından:**

1. Bu, Ubey bin Kabın (Allah ondan razı olsun) fəzilətinə dair önəmli qissədir.
2. Kürsi ayəsi uca Allahın kitabında ən əzəmətli ayədir, onu əzbərləmək, mənaları haqda düşünmək və ona əməl etmək lazımdır.

(65059)

(290) – عن أبي مسعود رضي الله عنه قال: قال النبي صلى الله عليه وسلم: «مَنْ قَرَأَ بِالْآيَتَيْنِ مِنْ آخِرِ سُورَةِ الْبَقَرَةِ فِي لَيْلَةٍ كَفَتَاهُ». [صحيح] - [متفق عليه]

(290) – Əbu Məsuddan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Kim gecə Bəqərə

surəsinin son iki ayəsini oxuyarsa, ona yetər". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, kim gecə Bəqərə surəsinin son iki ayəsini oxuyarsa, Allah onu şər və pisliklərdən qoruyar. Həmçinin deyilmişdir: Gecə namazının əvəzini verər. Həmçinin: Zikr və Quran oxumağın əvəzini verər. Həmçinin deyilmişdir ki: Ən azı, gecə namazında bu iki ayə miqdarında oxumaq yetərli olur və bu kimi digər rəylər mövcuddur. Bütün bu deyilənlərin hamısının doğru olması və həmin sözün bütün bu mənaları ehtiva etməsi ehtimal olunur.

## Hədisin faydalarından:

1. Bəqərə surəsinin son ayələrinin fəzilətinin bəyanı və bu uca Allahın: "Rəsul iman etdi" sözündən, surənin sonuna qədər olan hissəsidir.
2. Gecə Bəqərə surəsinin son ayələrini oxuyanı, bu ayələr pislikdən, şərdən və şeytandan qoruyar.
3. Gecə, günəşin batmasıyla başlayır və sübhün girməsiylə - dan yeri ağaranda bitir.

(6274)

(291) – عن النعمان بن بَشِير رضي الله عنه قال: سمعتُ النبيَّ صلى الله عليه وسلم يقول: «الدُّعَاءُ هُوَ الْعِبَادَةُ»، ثُمَّ قَرَأَ: «{وَقَالَ رَبُّكُمُ ادْعُونِي أَسْتَجِبْ لَكُمْ إِنَّ

الَّذِينَ يَسْتَكْبِرُونَ عَنْ عِبَادَتِي سَيَدْخُلُونَ جَهَنَّمَ دَاخِرِينَ} [غافر: 60]». [صحيح] - [رواه أبو داود والترمذي وابن ماجه وأحمد]

(291) – Numan bin Bəşirdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Dua ibadətdir", sonra bu ayəni oxudu: “Rəbbiniz belə buyurdu: “Mənə dua edin ki, dualarınızı qəbul edim! Mənə ibadət etməyə təkəbbür göstərənlər zəlil bir halda cəhənnəmə girəcəklər” [Ğafir 40 surəsi, ayə 60]. [Səhih] - [Əbu Davud, Ət-Tirmizi, İbn Məcə, Əhməd rəvayət ediblər]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, dua ibadətin əsasıdır. Burada önəmli olan budur ki, edilən dua sırf Allah üçün olmalıdır, bu dua istər istək və tələb duası olsun, belə ki, Allah Təalədən dünya və axirətdə özünə fayda verən şeyləri umub və zərər verən şeyləri dəf etməyi istəsin, yaxud da ibadət duası olsun, bu isə Allahın sevib və razı qaldığı zahiri və batini əməllərdən və sözlərdən, həmçinin qəlbi ilə, bədəni ilə və mal-dövləti ilə icra edilən ümumi ibadətlərdən ibarətdir.

Arxasınca Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) uca Allahın bu kəlamını dəlil gətirərək deyir: Uca Allah buyurur: “Mənə dua edin ki, dualarınızı qəbul edim! Mənə ibadət etməyə təkəbbür göstərənlər zəlil bir halda cəhənnəmə girəcəklər”.

### Hədisin faydalarından:

1. Dua ibadətin əsasıdır və Allahdan başqasına yönəltmək olmaz.
2. Dua qulluğun həqiqətini, Uca Rəbbin qüdrətini, Onun kimsəyə ehtiyacı olmadığını və qulun Ona möhtaclığının etirafını özündə ehtiva edir.
3. Duanı tərk etməyə görə və Allaha ibadətdə təkəbbürlük etməyə görə şiddətli xəbərdarlıq edilmişdir. Allaha dua etməyə təkəbbürlük edənlər cəhənnəmə alçaldılmış və zəlil vəziyyətdə girəcəklər.

(5496)

(292) – عن عائشة رضي الله عنها قالت: كَانَ النَّبِيُّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَذْكُرُ اللهَ عَلَى كُلِّ أَحْيَانِهِ. [صحيح] - [رواه مسلم]

(292) – Aişədən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) hər zaman Allahı zikr edərdi. [Səhih] - [Muslim rəvayət etdi]

### Şərh (izah):

Aişə, möminlərin anası (Allah ondan razı olsun) xəbər verir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Uca Allahı zikr etməyə çox həris idi və uca Allahı hər zaman, hər yerdə və hər halda zikr edərdi.

### Hədisin faydalarından:

1. Uca Allahı zikr etmək üçün dəstəmaz və ya qüsl şərt deyil.

2. Peyğəmbərin - sallallahu aleyhi və səlləm - Uca Allahı davamlı zikr etməsi.
3. Uca Allahı Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) sünnəsinə uyğun olaraq hər zaman və hər halda daha çox zikr etməyə təşviq, istisna hal insanın ehtiyacını ödədiyi məkan və zamandır, bu halda zikr etmək qadağandır.

(8402)

(293) – عن أبي هريرة رضي الله عنه عن النبي صلى الله عليه وسلم قال: «لَيْسَ شَيْءٌ أَكْرَمَ عَلَى اللهِ تَعَالَى مِنَ الدُّعَاءِ». [حسن] - [رواه الترمذي وابن ماجه وأحمد]

(293) – Əbu Hureyrədən (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilmişdir: "Uca Allah qatında duadan daha dəyərli bir şey yoxdur". [Həsən] - [Ət-Tirmizi, İbnu Məcə və Əhməd rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, Allaha edilən ibadətlər arasında duadan daha üstünü yoxdur, çünki dua etməklə uca və pak olan Allahın məxluqatdan ali və zəngin olması ilə bərabər qulun aciz və Ona möhtac olması etiraf olunur.

**Hədisin faydalarından:**

1. Duanın fəziləti, belə ki, Allaha dua etmək - Onu əzəmətləndirməkdir, pak olan Allahın hər kəsdən ehtiyacsız olmasıdır, çünki yoxsula dua edilməz, Allah eşidəndir, çünki kar olan birinə dua edilməz, Allah

Kərimdir, xəsisdən bir şey istənilməz, O mərhmətlidir, qəddardan rəhmət dilənilməz, O qüdrət sahibidir, acizdən nəsə istənilməz, O yaxındır, uzaqda olan eşitməz. Bu və digər  Allaha xas olan uca və gözəl sifətlərini etiraf etməkdir.

(5509)

(294) – عَنْ أَنَسٍ رضي الله عنه قَالَ: كَانَ رَسُولُ اللهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ يُكْثِرُ أَنْ يَقُولَ: «يَا مُقَلِّبَ الْقُلُوبِ ثَبِّتْ قَلْبِي عَلَى دِينِكَ»، فَقُلْتُ: يَا رَسُولَ اللهِ، آمَنَّا بِكَ وَبِمَا جِئْتَ بِهِ فَهَلْ تَخَافُ عَلَيْنَا؟ قَالَ: «نَعَمْ، إِنَّ الْقُلُوبَ بَيْنَ أُصْبُعَيْنِ مِنْ أَصَابِعِ اللهِ يُقَلِّبُهَا كَيْفَ يَشَاءُ». [صحيح] - [رواه الترمذي وأحمد]

(294) – Ənəsdən (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) tez-tez deyərdi: “Ey qəlbləri çevirən, mənim qəlbimi öz dinində sabit et”.  Mən dedim: “Ey Allahın Rəsulu, biz sənə və sənin gətirdiyinə iman gətirdik. Sən bizim üçün qorxursan?”. O dedi: “Bəli, qəlblər Allahın barmaqlarından iki barmağı arasındadır, onları istədiyi kimi çevirər". [Səhih] - [Ət-Tirmizi və Əhməd rəvayət ediblər]

## Şərh (izah):

Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) ən çox etdiyi dua, Allahdan dində və itaətdə sabitlik, azğınlıqdan və zəlalətdən uzaq olmağı istəmək idi. Ənəs bin Malik (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) bu duanı tez-tez

etməsinə təəccübləndi və Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ona xəbər verdi ki, qəlblər Allahın barmaqlarından iki barmağı arasındadır və onları istədiyi kimi çevirir. Qəlb iman və küfrün qərar tutduğu yerdir və tez-tez dəyişdiyi üçün qəlb adlandırılmışdır. Onun dəyişməsi, qaynayan qazanın dəyişməsindən daha güclüdür. Allah kimi istəsə, qəlbini hidayətə yönəldər, dində sabit edər və Allah kimi istəsə, onun qəlbini hidayətdən azğınlığa və zəlalətə yönəldər.

## Hədisin faydalarından:

1. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) öz Rəbbinə təslim olması və Ona yalvarması və ümmətini bunu istəməyə yönəltməsi.
2. Doğru yolda olmağın və dində sabitliyin əhəmiyyəti və ibrətin (əməllərin qiymətləndirilməsinin) sonluğa görə olması.
3. Bəndə bir göz qırpımı olsa da belə, Allahın onu İslam üzərində sabit etməsindən ehtiyacsız deyil.
4. Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) nümunə götürərək bu duanı çox etməyə təşviq etmək.
5. İslamda sabitlik, bəndənin səy göstərməli olduğu və Mövlasına (Rəbbinə) şükür etməli olduğu ən böyük nemətdir.

(3142)

(295) – عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رضي الله عنهما قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «إِنَّ الْإِيمَانَ لَيَخْلَقُ فِي جَوْفِ أَحَدِكُمْ كَمَا يَخْلَقُ الثَّوْبُ الْخَلِقُ، فَاسْأَلُوا اللَّهَ أَنْ يُجَدِّدَ الْإِيمَانَ فِي قُلُوبِكُمْ». [صحيح] - [رواه الحاكم والطبراني]

(295) – Abdullah bin Amrdan (Allah onların ikisindən də razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Paltar köhnəldiyi kimi içinizdəki iman da köhnəlir. Allahdan qəlblərinizdəki imanın yenilənməsini istəyin”. [Səhih] - [Əl-Hakim və Ət-Tabarani rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, uzun müddət isifadə olunan yeni geyim köhnəldiyi kimi, müsəlmanın qəlbindəki iman da köhnəlir və zəifləyir. Bu, ibadətdəki zəiflik, günahlara bulaşmaq və şəhvətlərə qapılmaq səbəbilədir. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bizi uca Allaha imanımızın təzələnməsi üçün dua etməyə, fərzləri yerinə yetirməyə və çoxlu zikr və istiğfar etməyə istiqamətləndirir.

## Hədisin faydalarından:

1. Allahdan sabitlik və qəlblərmizdəki imanın yeniləməsini diləməyə təşviq etmək.
2. İman söz, əməl və etiqaddır, itaətlə artır, günahla azalır.

(65020)

(296) – عَنِ الْعَبَّاسِ بْنِ عَبْدِ الْمُطَّلِبِ رضي الله عنه أَنَّهُ سَمِعَ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، يَقُولُ: «ذَاقَ طَعْمَ الْإِيمَانِ مَنْ رَضِيَ بِاللهِ رَبًّا، وَبِالْإِسْلَامِ دِينًا، وَبِمُحَمَّدٍ رَسُولًا». [صحيح] - [رواه مسلم]

(296) – Abbas bin Əbdul Muttalibdən (Allah ondan razı olsun) rəvayət edilir ki, o, Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitmişdir: “Allahdan rəbb olaraq, İslamdan din olaraq, Muhəmməddən rəsul olaraq razı olan kəs imanın şirinliyini dadmışdır”. [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, imanında sadiq olan və qəlbi bununla aram tapan mömin əgər üç şeydən razı olarsa, qəlbində açıqlıq, genişlik, sevinc, şirinlik və Uca Allaha yaxınlığın ləzzətini hiss edər:

Birincisi: O, Rəbb olaraq Allahdan razı olarsa və bu, rububiyyətin gərəyi olaraq Allahdan gələn ruzi və şərait bölgüsünə qəlbinin açılması (qane olması) və bunlardan heç birinə qəlbində etiraz olmaması və Uca Allahdan başqa bir Rəbb istəməməsi ilə olur.

İkincisi: İslamı din olaraq razı olmaq. Bu, insanın qəlbinin İslamın ehtiva etdiyi hökmlər və vacibatlara qarşı genişlənməsi, onları məmnuniyyətlə qəbul etməsi və İslamdan başqa bir yola yönəlməməsi ilə olur.

Üçüncüsü: Rəsul olaraq Muhəmməddən (Allahın salavatı və salamı onun üzərinə olsun) razı olarsa və bu,

tərəddüd və şübhə etmədən onun gətirdiyi hər bir şeyə qəlbini açması və buna sevinməsiylə və yalnız onun hidayətinə uyğun olan yolu izləməsi ilə olur.

## Hədisin faydalarından:

1. Yeməyin və içkinin şirinliyi ağızda hiss olunduğu kimi, imanın da qəlbdə hiss olunan bir şirinliyi və dadı vardır.
2. Bədən yeməyin və içkinin dadını yalnız sağlam olduqda hiss etdiyi kimi, qəlb də azdırıcı arzulardan və haram istəklərdən sağlam olduqda imanın şirinliyini daddar. Əgər qəlb xəstələnsə və zəifləsə, artıq imanın şirinliyini hiss etməz, əksinə, onu məhv edəcək istəkləri və günahları şirin hesab edə bilər.
3. Əgər insan bir şeydən razı qalar və onu bəyənərsə, onu etmək onun üçün asan olar, bundan heç bir şey onun üçün çətin gəlməz və onun gətirdiyi hər bir şey ilə fərəhlənər, qəlbi onunla sevinər. Eləcə də mömin, əgər iman onun qəlbinə daxil olarsa, Rəbbinə itaət onun üçün asanlaşar, nəfsi bundan ləzzət alar və itaətin əziyyəti ona çətin gəlməz.
4. İbn əl-Qeyyim demişdir: “Bu hədis, pak və nöqsansız Allahın rububiyyətindən və ilahlığından razılıq, rəsulundan razılıq və ona tabe olmaq, dinindən razılıq və ona təslim olmağı əhatə edir”.

(65116)

(297) – عن أبي هريرة رضي الله عنه أن رسول الله صلى الله عليه وسلم قال: «أَقْرَبُ مَا يَكُونُ الْعَبْدُ مِنْ رَبِّهِ وَهُوَ سَاجِدٌ، فَأَكْثِرُوا الدُّعَاءَ». [صحيح] - [رواه مسلم]

(297) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Qulun Allaha ən yaxın olduğu an, səcdədə olduğu məqamdır. Səcdədə olarkən duanı çoxaldın". [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, qulun Rəbbinə ən yaxın olduğu an, səcdə etdiyi andır və buna səbəb namaz qılanın səcdə əsnasında bədəninin ən uca və ən şərəfli hissəsini izzət və cəlal sahibi olan Allaha itaətkarlıqla, zəlilliklə və təvazökarlıqla yerə qoymasıdır.

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) səcdədə duanı artırmağı əmr edir. Nəticədə Allaha zəlilliklə edilən səcdədə, söz və feil birləşir.

## Hədisin faydalarından:

1. İtaət, qulun uca və pak olan Allaha yaxınlığını artırır.
2. Səcdədə duanı artırmağın müstəhəbliyi, çünki duanın qəbul olunma məqamlarındandır.

(5382)

(298) – عَنْ أَنَسٍ رضي الله عنه قَالَ: كَانَ أَكْثَرُ دُعَاءِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «اللَّهُمَّ رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً، وَفِي الآخِرَةِ حَسَنَةً، وَقِنَا عَذَابَ النَّارِ». [صحيح] - [متفق عليه]

(298) – Ənəsdən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o, belə dedi: Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) ən çox etdiyi duası bu idi: "Allahummə Rabbənə ətinə fiddunyə həsənətən və fil-əxirati həsənətən və qinə əzəbən-nər” (Ey Rəbbimiz olan Allahım, bizə dünyada da, axirətdə də gözəl nemətlər ver və bizi od əzabından (Cəhənnəmdən) qoru). [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) başqa duaları özündə cəm edən duaları daha çox edərdi, onlardan biri budur: "Allahummə Rabbənə ətinə fiddunyə həsənətən və fil-əxirati həsənətən və qinə əzəbən-nər”. Və bu, bol, geniş, halal ruzi və saleh həyat yoldaşı, gözün sevinci olan övlad, rahatlıq faydalı elm və saleh əməl və digər sevimli, mübah istəklər kimi dünya xeyirlərini  əhatə edir və eyni zamanda qəbrdə, məhşərdə və cəhənnəmdə əzabdan salamat qalmaq və Allahın razılığına, əbədi nemətə və Rəhimli Rəbbə yaxın olmağa nail olmaq kimi axirət xeyirlərini də əhatə edir.

**Hədisin faydalarından:**

1. Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) nümunə götürərək əhatəli-geniş dualar etməyin bəyənilən olması.
2. İnsanın duasında dünya və axirət xeyirlərini cəm etməsi daha kamildir.

(5502)

(299) – عَنْ أَبِي الدَّرْدَاءِ رضي الله عنه قَالَ: قَالَ النَّبِيُّ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ: «أَلاَ أُنَبِّئُكُمْ بِخَيْرِ أَعْمَالِكُمْ، وَأَزْكَاهَا عِنْدَ مَلِيكِكُمْ، وَأَرْفَعِهَا فِي دَرَجَاتِكُمْ وَخَيْرٌ لَكُمْ مِنْ إِنْفَاقِ الذَّهَبِ وَالوَرِقِ، وَخَيْرٌ لَكُمْ مِنْ أَنْ تَلْقَوْا عَدُوَّكُمْ فَتَضْرِبُوا أَعْنَاقَهُمْ وَيَضْرِبُوا أَعْنَاقَكُمْ؟» قَالُوا: بَلَى. قَالَ: «ذِكْرُ اللهِ تَعَالَى». [صحيح] - [رواه الترمذي وابن ماجه وأحمد]

(299) – Əbu Dərdadan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: “Sizə əməllərinizin ən xeyirlisini, Hökmradınızın yanında ən pak olanını, dərəcələrinizi ən çox artıranı sizin üçün qızıl və gümüş xərcləməkdən daha xeyirlisini və sizin üçün düşməninizlə qarşılaşıb onların boyunlarını vurmaqdan, onların da sizin boynunuzu vurmaqdan daha xeyirli olanını xəbər verimmi?”. Onlar dedilər: “Bəli”. O, dedi: “Uca Allahı zikr etməkdir”. [Səhih] - [Ət-Tirmizi, İbnu Macə və Əhməd rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) səhabələrindən soruşdu:

İstəyirsinizmi ki, sizə izzət və cəlal sahibi olan, hökmdar Allahın yanında əməllərinizin ən fəzilətlisi, ən şərəflisi, ən üstünü, ən pakı və ən təmizi haqqında xəbər verim və sizi öyrədim?

Cənnətdə dərəcələrinizi ən çox artıracaq əməli?

Sizin üçün qızıl və gümüşü sədəqə verməkdən daha xeyirli olanı?

Sizin üçün kafirlərlə döyüşmək üçün qarşılaşıb onların boyunlarını vurmaqdan, onların da sizin boyunlarınızı vurmaqdan daha xeyirli olanı?

Səhabələr dedilər: Bəli, biz bunu istəyirik.

O (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: (Bu əməl) hər zaman, hər şəkildə və hər vəziyyətdə Uca Allahı zikr etməkdir.

## Hədisin faydalarından:

1. Həm zahirdə, həm də batində Uca Allahı zikr etməkdə davamlı olmaq, Uca Allaha yaxınlaşdıran ən böyük və ən faydalı əməllərdən biridir.
2. Bütün əməllər Uca Allahın zikrini yerinə yetirmək üçün fərz edilmişdir. Uca Allah buyurmuşdur: “Və Məni zikr etmək üçün namaz qıl”. Və o (Allahın salavatı və salamı onun üzərinə olsun) demişdir: "Kəbə ətrafında təvaf etmək, Səfa ilə Mərvə arasında səy etmək və Camaratda daş atmaq yalnız Uca Allahın

zikrini yerinə yetirmək üçündür". Hədisi Əbu Davud və Tirmizi rəvayət etmişlər.

3. Əl-İzz bin Əbdis-Sələm “Qavəid” kitabında belə demişdir: “Bu hədis ona dəlalət edir ki, savab bütün ibadətlərdə çəkilən əziyyətin miqdarına görə olmur. Hərdən Uca Allah az əməllərə görə çox əməllərin savabından artıq savab verir. Buna görə də savabın miqdarı (əməlin) şərəf dərəcəsindəki fərqindən asılıdır”.
4. Əl-Munəvi “Feydul-Qadir”də demişdir: “Bu hədis belə təfsir edilmişdir ki, zikr, onunla xitab edilən kəslər üçün daha xeyirli idi . Əgər bu xitab döyüşdə İslama fayda vermiş şücaətli, cəsur birisinə yönəlsə idi, ona cihad, kasıblara fayda verən varlıya yönəlsə idi, ona sədəqə, həccə qadir olan birisinə yönəlsə idi, ona həcc etmək və ata-anası sağ olan birisinə yönəlsə idi, ona, onlara yaxşılıq etmək (ən xeyirli əməl kimi) deyilərdi. Və bununla da xəbərlər arasında uyğunluq hasil olur”.
5. Ən kamil zikr, qəlbin təfəkkürü (fikirləşməsi) ilə birgə dilin söylədiyi zikrdir. Sonra yalnız təfəkkür kimi qəlblə olan, sonra isə yalnız dillə olan zikrdir. Və hər birində in şəə Allah mükafat vardır.
6. Müsəlmanın səhər və axşam zikrləri, məscidə, evə, ayaqyoluna girib-çıxarkən və sair kimi hallarla bağlı zikrləri davamlı etməsi, onu Allahı çox zikr edənlərdən edir.

(3575)

(300) – عَنْ مُعَاذِ بْنِ جَبَلٍ رضي الله عنه قَالَ: كُنْتُ مَعَ النَّبِيِّ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ فِي سَفَرٍ، فَأَصْبَحْتُ يَوْمًا قَرِيبًا مِنْهُ وَنَحْنُ نَسِيرُ، فَقُلْتُ: يَا رَسُولَ اللهِ أَخْبِرْنِي بِعَمَلٍ يُدْخِلُنِي الجَنَّةَ وَيُبَاعِدُنِي عَنِ النَّارِ، قَالَ: «لَقَدْ سَأَلْتَنِي عَنْ عَظِيمٍ، وَإِنَّهُ لَيَسِيرٌ عَلَى مَنْ يَسَّرَهُ اللَّهُ عَلَيْهِ، تَعْبُدُ اللَّهَ وَلاَ تُشْرِكْ بِهِ شَيْئًا، وَتُقِيمُ الصَّلاَةَ، وَتُؤْتِي الزَّكَاةَ، وَتَصُومُ رَمَضَانَ، وَتَحُجُّ البَيْتَ» ثُمَّ قَالَ: «أَلاَ أَدُلُّكَ عَلَى أَبْوَابِ الخَيْرِ: الصَّوْمُ جُنَّةٌ، وَالصَّدَقَةُ تُطْفِئُ الخَطِيئَةَ كَمَا يُطْفِئُ الْمَاءُ النَّارَ، وَصَلاَةُ الرَّجُلِ مِنْ جَوْفِ اللَّيْلِ» قَالَ: ثُمَّ تَلاَ: «{تَتَجَافَى جُنُوبُهُمْ عَنِ الْمَضَاجِعِ}، حَتَّى بَلَغَ {يَعْمَلُونَ}» ثُمَّ قَالَ: «أَلاَ أُخْبِرُكَ بِرَأْسِ الأَمْرِ كُلِّهِ وَعَمُودِهِ، وَذِرْوَةِ سَنَامِهِ؟» قُلْتُ: بَلَى يَا رَسُولَ اللهِ، قَالَ: «رَأْسُ الأَمْرِ الإِسْلاَمُ، وَعَمُودُهُ الصَّلاَةُ، وَذِرْوَةُ سَنَامِهِ الجِهَادُ» ثُمَّ قَالَ: «أَلاَ أُخْبِرُكَ بِمِلاَكِ ذَلِكَ كُلِّهِ؟» قُلْتُ: بَلَى يَا نَبِيَّ اللهِ، فَأَخَذَ بِلِسَانِهِ قَالَ: «كُفَّ عَلَيْكَ هَذَا» فَقُلْتُ: يَا نَبِيَّ اللهِ، وَإِنَّا لَمُؤَاخَذُونَ بِمَا نَتَكَلَّمُ بِهِ؟ فَقَالَ: «ثَكِلَتْكَ أُمُّكَ يَا مُعَاذُ، وَهَلْ يَكُبُّ النَّاسَ فِي النَّارِ عَلَى وُجُوهِهِمْ أَوْ عَلَى مَنَاخِرِهِمْ إِلاَّ حَصَائِدُ أَلْسِنَتِهِمْ». [صحيح بمجموع طرقه] - [رواه الترمذي وابن ماجه وأحمد]

(300) – Muaz bin Cəbəl (Allah ondan razı olsun) demişdir: Mən Peyğəmbərlə (sallallahu aleyhi və səlləm) birgə səfərdə idim. Bir gün, biz yol gedərkən ona yaxınlaşdım və dedim: "Ey Allahın Rəsulu, məni Cənnətə daxil edəcək və Cəhənnəmdən uzaqlaşdıracaq əməl barədə mənə xəbər ver!". Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Sən məndən əzəmətli bir əməl barədə soruşdun. Həqiqətən də o Allahın asanlaşdırdığı kimsələr üçün

asandır. Gərək, Allaha ibadət edəsən və Ona heç bir şeyi şərik qoşmayasan, namazı qılasan, zəkat verəsən, ramazan ayını oruc tutasan və Kəbəni ziyarət edəsən". Sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) dedi: "Səni xeyir qapılarına yönəldimmi? Oruc qalxandır. Sədəqə suyun odu söndürdüyü kimi günahları söndürür (silir). Kişinin gecənin ortasında qıldığı namazı da, habelə". Sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) bu ayəni oxudu: "Onlar gecə namazını qılmaq üçün böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən Allah yolunda xərcləyirlər. Etdikləri əməllərin mükafatı olaraq onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir". Sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) dedi: "Sənə dinin başı, onun dirəyi və ən uca zirvəsi barədə xəbər verimmi?". Mən dedim: "Bəli, Ey Allahın Rəsulu". O, buyurdu: "Dinin başı İslam, dirəyi namaz, ən uca zirvəsi isə cihaddır". Sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) dedi: "Sənə bunların hamısını özündə cəm edən xislət barədə xəbər verimmi?". Mən dedim: "Əlbəttə, Ey Allahın Rəsulu". O, əli ilə öz dilini tutub dedi: "Bunu, saxla!". Mən dedim: "Ey Allahın Peyğəmbəri! Məgər biz, danışdığımız sözlərə görə hesaba çəkiləcəyik?!". Peyğəmbər (sallallahu aleyhi və səlləm) dedi: "Anan səni itirsin ey Muaz! Məgər insanları üzüstə yaxud burunları üzərində Cəhənnəmə sürükləyən yalnız dilləri ilə əkdiklərinin bəhrəsi deyilmi?!". [Rəvayət yollarının məcmusuyla səhih olan] - [Ət-Tirmizi, İbnu Məcə və Əhməd rəvayət etdi]

**Şərh (izah):**

Muaz (Allah ondan razı olsun) demişdir: Mən Peyğəmbərlə (sallallahu aleyhi və səlləm) birgə səfərdə idim. Bir gün biz yol gedərkən ona yaxınlaşdım və dedim: "Ey Allahın Rəsulu, məni Cənnətə daxil edəcək və Cəhənnəmdən uzaqlaşdıracaq əməl barədə mənə xəbər ver!". Peyğəmbər (sallallahu aleyhi və səlləm) dedi: “Sən artıq edilməsi nəfslərə əzəmətli gələn bir əməl barədə soruşdun. Həqiqətən də o Allahın asanlaşdırdığı kimsələr üçün asan və rahahatdır; İslamın fərzlərini yerinə yetir:

Birincisi: Tək Allaha ibadət et və Ona heç bir şeyi şərik qoşma.

İkincisi: Gecə və gündüz, şərtlərini, rukunlarını və vaciblərini yerinə yetirərək: fəcr, zöhr, əsr, məğrib və işa olmaqla beş vaxt fərz namazlarını doğru-düzgün qıl.

Üçüncüsü: Fərz olan zəkatı ver. Zəkat, şəriətdə müəyyən miqdara çatan hər bir maldan çıxarılıb, zəkata layiq kimsələrə verilən, vacib və mal ilə olan ibadətidir.

Dördüncüsü: Ramazan ayını oruc tut. Oruc sübh namazı girdikdən günəş batana qədər yeməkdən, içməkdən və orucu batil edən digər şeylərdən ibadət niyyəti ilə imtina etməkdir.

Beşincisi: Uca Allaha ibadət etmək məqsədi ilə - müəyyən ayinləri icra etmək üçün Məkkəyə gedib, Allahın Evinə həcc et.

Sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) belə dedi: Sənə xeyir qapılarına aparan yolu öyrədimmi? Bu, o fərzlərin ardınca nafilə ibadətlər etməklədir:

Birincisi: Nafilə orucdur. Bu, şəhvəti sındıraraq və nəfsi zəiflədərək insanın günahlara düşməsinə maneə olur.

İkincisi: Nafilə sədəqə insan günah etdikdən sonra günahı söndürür, onu yuyub aparır və əsərini silir.

Üçüncü: Kişinin gecənin axırıncı üçdə birində qıldığı təhəccüd namazı. Sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) Uca Allahın bu ayəsini oxudu: “Onlar gecə namazını qılmaq üçün böyürlərini yataqdan” yəni: yatdıqları yerdən qaldırır, “qorxu və ümid içində öz Rəbbinə yalvarır” yəni: namaz, zikr, Quran oxumaq və dua etməklə və “onlara verdiyimiz ruzilərdən Allah yolunda xərcləyirlər. Onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir” yəni: Qiyamət günü və Cənnətdə onlar üçün gözlərini sevindirəcək hansı nemətlər saxlandığını kimsə bilməz “etdikləri əməllərin mükafatı olaraq”.

Sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) dedi: Sənə dinin əsası, dinin sökəndiyi dirəyi və ən uca zirvəsi haqqında xəbər verimmi?

Muaz (Allah ondan razı olsun) dedi: Bəli, Ey Allahın Rəsulu.

Peyğəmbər (sallallahu aleyhi və səlləm) dedi: Dinin başı İslamdır və onun əsası iki şəhadətdir və bu ikisi ilə insan dinin əslinə sahib olur. Dinin dirəyi isə namazdır. Dirəksiz ev olmadığı kimi namazsız da İslam yoxdur. Kim namaz qılarsa dini qüvvətlənər və ucalar. Dinin ən uca və ən ali zirvəsi isə cihad və həmçinin Allahın kəlməsini uca tutmaq üçün dinin düşmənləri ilə mübarizədə səy göstərməklə əldə edilir.

Sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) dedi: Sənə bütün bu dediklərimi möhkəmlədən və kamilləşdirən bir şey haqqında xəbər verimmi? Peyğəmbər (sallallahu aleyhi və səlləm) dilini tutub belə dedi: Bunu qoru və sənə aid olmayan şeylər haqqında danışma. Muaz dedi: Rəbbimiz bizi danışdığımız hər bir sözə görə hesaba çəkəcək və cəza verəcəkmi?!

Peyğəmbər (sallallahu aleyhi və səlləm) dedi: "Anan səni itirsin ey Muaz!". Bu, Peyğəmbərin (sallallahu aleyhi və səlləm) Muaza (Allah ondan razı olsun) heç də bəddua etməsi anlamında deyil, sadəcə bu kəlimə, ərəblərin qarşısındakı insanı, bilib, diqqət etməli olduğu bir işə xəbərdarlıq etməsi üçündür. Sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) belə dedi: Məgər insanları üzüstə Cəhənnəmə sürükləyib atan onların dilləri ilə etdikləri küfr, iftira, söyüş, qeybət, nəmmamlıq, böhtan və s. bu kimi günahları deyilmi?!

## Hədisin faydalarından:

1. Səhabələrin (Allah onlardan razı olsun) elmə olan hərisliyi. Buna görə də onlar Peyğəmbərə (sallallahu aleyhi və səlləm) çoxlu suallar verərdilər.
2. Səhabələrin (Allah onlardan razı olsun) əməllərin Cənnətə daxil olmaq üçün səbəb olduğunu bilmələri onların dini bilgilərindən qaynaqlanırdı.
3. Muazın (Allah ondan razı olsun) verdiyi sual əzəmətli sualdır. Çünki əslində bu sual, həyatın və varlığın sirridir. İstər insan, istərsə də cin olmasından aslı olmayaraq dünyada mövcud olan varlığın sonu ya

Cənnətdir va da Cəhənnəm. Ona görə də bu sual əzəmətli sual idi.

4. Cənnətə daxil olmaq İslamın beş şərtinə əməl etməkdən asılıdır. Bunlar: İki şəhadət kəlməsini (mənasını anlayaraq) tələffüz etmək, namaz qılmaq, oruc tutmaq, zəkat vermək və Həccə getməkdir.
5. Dinin başı, işlərin ən qiymətlisi və vacibərin ən üstünü heç bir şəriki olmayan Tək Uca Allahı ibadətdə təkləşdirməkdir.
6. Uca Allah öz qullarına xeyir qapılarını açmaqla onlara rəhm edir ki, onlar savab qazanmaq və günahlarının bağışlanması üçün vasitələr əldə etsinlər.
7. Fərz ibadətləri yerinə yetirdikdən sonra nafilə ibadətlərlə Uca Allaha yaxınlaşmağın fəziləti.
8. İslamda namaz, çadırın üzərində dayandığı dirəyinə (sütununa) bənzəyir. Dirək yıxıldıqda çadır da yıxıldığı kimi, namaz da olmasa İslam yox olub gedər.
9. Dili, insana dinində zərər verən şeylərdən qorumaq vacibdir.
10. Dili cilovlamaq, ona nəzarət etmək və qoruyub-saxlamaq hər bir xeyirin əsasıdır.

(4303)

(301) – عَنْ عَائِشَةَ رضي الله عنها: أَنَّ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ كَانَ إِذَا أَوَى إِلَى فِرَاشِهِ كُلَّ لَيْلَةٍ جَمَعَ كَفَّيْهِ، ثُمَّ نَفَثَ فِيهِمَا فَقَرَأَ فِيهِمَا: {قُلْ هُوَ اللهُ أَحَدٌ}، وَ{قُلْ أَعُوذُ بِرَبِّ الْفَلَقِ}، وَ{قُلْ أَعُوذُ بِرَبِّ النَّاسِ}، ثُمَّ يَمْسَحُ بِهِمَا مَا اسْتَطَاعَ مِنْ جَسَدِهِ، يَبْدَأُ

بِهِمَا عَلَى رَأْسِهِ وَوَجْهِهِ وَمَا أَقْبَلَ مِنْ جَسَدِهِ، يَفْعَلُ ذَلِكَ ثَلَاثَ مَرَّاتٍ. [صحيح] - [رواه البخاري]

(301) – Aişədən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) hər gecə çarpayısına uzandıqda, ovuclarını birləşdirərək onlara üfləyər və onlara İxlas, Fələq, Nəs sürələrini oxuyar, sonra isə əllərini bədənin bacardığı qədər hər yerinə sürtərdi. Başından, üzündən, bədənin ön hissəsindən başlayardı. Bunu üç dəfə edərdi. [Səhih] - [Əl-Buxari rəvayət etdi]

**Şərh (izah):**

Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yatmaq üçün yatağına girərkən etdiyi şeylərdən biri də, ovuclarını birləşdirərək, dua edən insan kimi əllərini qaldırar, xəfif tüpürərək ovuclarına üfürər, İxlas, Fələq, Nəs sürələrini oxuyar, sonra isə başından, üzündən, bədənin ön qismindən başlayaraq, əllərini bədənin bacardığı qədər hər yerinə sürtərdi. Bunu üç dəfə edərdi.

**Hədisin faydalarından:**

1. Yatmazdan öncə əllərin içinə üfürməklə İxlas, Fələq, Nəs surələrini oxuyub, sonra bədənin bacarıldığı qədər hər yerinə sürtməyin müstəhəb olması.

(65060)

(302) – عَنْ شَدَّادِ بْنِ أَوْسٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «سَيِّدُ الِاسْتِغْفَارِ أَنْ تَقُولَ: اللَّهُمَّ أَنْتَ رَبِّي لاَ إِلَهَ إِلَّا أَنْتَ، خَلَقْتَنِي وَأَنَا عَبْدُكَ، وَأَنَا عَلَى عَهْدِكَ وَوَعْدِكَ مَا اسْتَطَعْتُ، أَعُوذُ بِكَ مِنْ شَرِّ مَا صَنَعْتُ، أَبُوءُ لَكَ بِنِعْمَتِكَ عَلَيَّ، وَأَبُوءُ لَكَ بِذَنْبِي فَاغْفِرْ لِي، فَإِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلَّا أَنْتَ» قَالَ: «وَمَنْ قَالَهَا مِنَ النَّهَارِ مُوقِنًا بِهَا، فَمَاتَ مِنْ يَوْمِهِ قَبْلَ أَنْ يُمْسِيَ، فَهُوَ مِنْ أَهْلِ الجَنَّةِ، وَمَنْ قَالَهَا مِنَ اللَّيْلِ وَهُوَ مُوقِنٌ بِهَا، فَمَاتَ قَبْلَ أَنْ يُصْبِحَ، فَهُوَ مِنْ أَهْلِ الجَنَّةِ». [صحيح] - [رواه البخاري]

(302) – Şəddəd bin Əvsdən (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Seyyidul-istiğfar (istiğfarın seyyidi) "Allahummə əntə Rabbi ləə iləhə illə əntə, xaləqtəni və ənə abdukə və ənə alə əhdikə və vədikə məstətatu, əuzu bikə min şərri mə sanətu, əbuu ləkə binimətikə aləyyə və əbuu ləkə bizənbi, fəğfir li, fəinnəhu lə yəğfiruz-zunubə illə əntə" (Allahım, Sən mənim Rəbbimsən, Səndən başqa haqq məbud yoxdur, məni Sən yaratdın, mən də Sənin qulunam, bacardığım qədər Sənin əhdinə və vədinə sadiqəm. Etdiklərimin şərrindən sənə sığınıram. Sənin üzərimə olan  nemətini və günahlarımı etiraf edirəm. Məni bağışla, çünki Səndən başqa heç kim günahları bağışlamaz”) - söyləməyindir. Kim bunu əminliklə gündüz desə və o gün axşamdan əvvəl ölsə, Cənnət əhlindən olar, kim bunu gecə əminliklə desə və səhərə çıxmamış ölsə o, Cənnət əhlindən olar". [Səhih] - [Əl-Buxari rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, istiğfarın (bağışlanmaq istəməyin) bir neçə sözləri vardır və onların ən üstünü və ən böyüyü qulun belə deməsidir: "Allahım, Sən mənim Rəbbimsən, Səndən başqa haqq məbud yoxdur, məni Sən yaratdın, mən də Sənin qulunam, bacardığım qədər Sənin əhdinə və vədinə sadiqəm. Etdiklərimin şərrindən sənə sığınıram. Sənin üzərimə olan nemətini və günahlarımı etiraf edirəm. Elə isə məni bağışla, çünki Səndən başqa heç kim günahları bağışlamaz". Qul ilk olaraq Allahın tövhidini (təkliyini) və Uca Allahın Onun yaradıcısı olduğunu və Allahın heç bir şəriki olmadığını etiraf edir və gücü çatdığı qədər Uca Allaha iman və itaətlə bağlı verdiyi əhdinə bağlı qalacağını bildirir. Çünki qul nə qədər ibadət etsə də, Allahın ona əmr etdiyi hər bir şeyi yerinə yetirməyə və nemətlərə lazımi qədər şükür etməyə gücü çatmır. Və qul Allaha üz tutub Ona sığınmalıdır. Çünki qulun etdiyi pislikdən yalnız Allaha sığınılar. Və o, könüllü olaraq Allahın ona olan nemətini təsdiqləyir və etiraf edir. Öz nəfsinə günahını və Allaha etdiyi itaətsizliyini iqrar və etiraf edir. Allaha bu şəkildə yaxınlaşdıqdan sonra Rəbbinə dua edir ki, Allah əfvi, lütfü və rəhməti ilə onun günahlarını örtərək və onu günahlardan qoruyaraq, onu bağışlasın. Çünki Allahdan başqa heç kəs günahları bağışlamaz. Sonra o, sallallahu aleyhi və səlləm xəbər vermişdir ki, bu, səhər və axşam zikrlərindən biridir. Və hər kim günün əvvəlində, günəşin doğuşu ilə günorta vaxtı günəşin zəvalı (zeniti keçməsi)

arasında, bunu yəqinliklə, mənalarını düşünərək və iman gətirərək desə və sonra ölsə, Cənnətə girər. Və hər kim bunu gecə - günəşin batmağından sonra səhərə kimi desə və səhər açılmamış ölsə, Cənnətə daxil olar.

**Hədisin faydalarından:**

1. Bağışlanma istəmək formaları müxtəlifdir və onların bəziləri digərlərindən daha üstündür.
2. Qul bu dua ilə Allaha dua etməyə həris olmalıdır, çünki bu dua seyyidul istiğfardır (Bağışlanma istəməyin ən fəzilətli formasıdır).

(5503)

(303) – عَن عبدِ اللهِ بن خُبَيب رضي الله عنه أنه قال: خَرَجْنَا فِي لَيْلَةٍ مَطِيرَةٍ وَظُلْمَةٍ شَدِيدَةٍ، نَطْلُبُ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ؛ يُصَلِّي لَنَا، قَالَ: فَأَدْرَكْتُهُ، فَقَالَ: «قُلْ»، فَلَمْ أَقُلْ شَيْئًا، ثُمَّ قَالَ: «قُلْ»، فَلَمْ أَقُلْ شَيْئًا، قَالَ: «قُلْ»، فَقُلْتُ: مَا أَقُولُ؟ قَالَ: «{قُلْ هُوَ اللهُ أَحَدٌ} وَالْمُعَوِّذَتَيْنِ حِينَ تُمْسِي وَتُصْبِحُ ثَلَاثَ مَرَّاتٍ، تَكْفِيكَ مِنْ كُلِّ شَيْءٍ». [صحيح] - [رواه أبو داود والترمذي والنسائي]

(303) – Abdullah bin Xubeybdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Yağışlı və şiddətli zülmət bir gecədə Allah Rəsulunu (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə namaz qıldırması üçün axtarmağa çıxdıq və onu tapdıq. O, dedi: “De”. Mən isə heç bir şey demədim. Sonra yenə dedi: “De”. Mən yenə heç bir şey demədim. Sonra yenə "De" dedi. Mən də: "Nə deyim?" dedim. Buyurdu: "Səhərə və axşama çıxdığında üç dəfə

«Qul huvallahu əhəd və "Fələq" və "Nəss" surələrini oxu, hər cür şərrə qarşı sənə kifayət edər". [Səhih] - [Əbu Davud, Ət-Tirmizi, Ən-Nəsai rəvayət etdi]

**Şərh (izah):**

Böyük səhabə Abdullah bin Xubeyb (Allah ondan razı olsun) xəbər verir ki, onlar bol yağışlı və şiddətli qaranlıq bir gecədə, özlərinə namaz qıldırması üçün Allah Rəsulunu (Allahın salavatı və salamı onun üzərinə olsun) axtarmaq üçün çıxdılar və onu tapdılar. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ona dedi: “De”, yəni "oxu", amma o, heç nə oxumadı. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) sözünü ona təkrar dedi və Abdullah dedi: Nə oxuyum, ey Allahın Rəsulu? Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "Səhər və axşam üç dəfə "İxlas" surəsini –“De: O, Allah birdir” və "Fələq" və "Nəss" surələrini : “De: sübhün Rəbbinə sığınıram” və “De: insanların Rəbbinə sığınıram” oxu, səni hər cür şərdən və bütün pisliklərdən qoruyar.

**Hədisin faydalarından:**

1. Səhər-axşam "İxlas, Fələq və Nəss" surələrini oxumağın bəyənilən olması və bu bütün şərrdən qorunmadır.
2. "İxlas, Fələq və Nəss" surələrini oxumağın fəziləti.

(6082)

(304) – عن سَمُرَة بن جندبٍ رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «أَحَبُّ الْكَلَامِ إِلَى اللهِ أَرْبَعٌ: سُبْحَانَ اللهِ، وَالْحَمْدُ لِلَّهِ، وَلَا إِلَهَ إِلَّا اللهُ، وَاللهُ أَكْبَرُ، لَا يَضُرُّكَ بِأَيِّهِنَّ بَدَأْتَ». [صحيح] - [رواه مسلم]

(304) – Səmura bin Cundəbdən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Allaha ən sevimli olan dörd kəlimə vardır: Subhanallah (Allah nöqsanlardan pakdır), əlhəmdulilləh (həmd yalnız Allaha məxsusdur), ləə iləhə illəllah (Allahdan başqa ibadətə layiq ilah yoxdur), Allahu əkbər (Allah ən böyükdür). Hansıyla başlasan zərəri olmaz". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, uca Allaha ən sevimli olan kəlimələr dörddür:

Subhanallah: Yəni uca Allahın bütün nöqsanlardan uzaq olması.

Əlhəmdulilləh: Bu, sevgi və təzim bəsləməklə Allahı ən mükəmməl sifətlə vəsf etməkdir.

Lə iləhə illəllah: Yəni, Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur.

Allahu əkbər: Yəni, O hər şeydən ən izzətli, ən əzəmətli, ən böyükdür.

Bu fəziləti və savabını əldə etmək üçün bu kəlimələri tələffüz edərkən onları sıra qaydasında söyləmək vacib deyildir.

**Hədisin faydalarından:**

1. Şəriətin asanlığı, belə ki, hansı biri ilə başlasan fərq etmir.

(5475)

(305) – عن أبي أيوب رضي الله عنه عن النبي صلى الله عليه وسلم قال: «مَنْ قَالَ: لَا إِلَهَ إِلَّا اللهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، عَشْرَ مِرَارٍ كَانَ كَمَنْ أَعْتَقَ أَرْبَعَةَ أَنْفُسٍ مِنْ وَلَدِ إِسْمَاعِيلَ». [صحيح] - [متفق عليه]

(305) – Əbu Əyyubdan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Kim on dəfə, "Lə iləhə illallah vəhdəhu lə şərikə ləhu, ləhulmulku və ləhulhəmdu və huva alə kulli şeyin qadir" söylərsə, İsmayıl nəslindən dörd qul azad etmiş kimi olar”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki: Kim "lə iləhə illallah, vahdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huva alə kulli şeyin qadir " deyərsə - mənası: "Allahdan başqa ibadətə layiq məbud yoxdur, O təkdir, şəriki yoxdur. Pak olan uca Allah mütləq hakimiyyət sahibidir, yalnız O, məhəbbətlə, və təzim olunaraq mədh və sənaya layiqdir. Onun üçün heç bir şey əngəl deyildir, O hər şeyə qadirdir. Kim bu əzəmətli zikri gün ərzində on dəfə söylərsə, İbrahim oğlu İsmayılın (Allahın onlara salamı olsun) soyundan dörd qul azad edən

kəsin əcri qədər savab qazanar. Hədisdə İsmayılın züriyyəti (Allahın onun üzərinə salamı olsun) digərlərindən daha şərəfli olduğu üçün xüsusi qeyd edilmişdir.

**Hədisin faydalarından:**

1. Uca Allahın uluhiyyətdə, mülkündə, həmd olunmasında, kamil qüdrət sahibliyində tək olmasını özündə ehtiva edən bu zikrin fəziləti.
2. Bu zikri istər ardıcıl, istərsə də ayrı-ayrılıqda söyləyən kəs onun savabına çatar.

(5517)

(306) – عن أبي هريرة رضي الله عنه عن النبي صلى الله عليه وسلم قال: «كَلِمَتَانِ خَفِيفَتَانِ عَلَى اللِّسَانِ، ثَقِيلَتَانِ فِي الْمِيزَانِ، حَبِيبَتَانِ إِلَى الرَّحْمَنِ: سُبْحَانَ اللهِ الْعَظِيمِ، سُبْحَانَ اللهِ وَبِحَمْدِهِ». [صحيح] - [متفق عليه]

(306) – Əbu Hureyrədən (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilmişdir: "Dildə yüngül, tərəzidə ağır, Rəhmana sevimli gələn iki kəlimə vardır: Subhənallahil-Azim, Subhənallahi və bihəmdihi". [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanın çətinlik çəkmədən, hər zaman bu iki kəliməni tələffüz etməsi barədə xəbər verir və vurğulayır

ki, əməl tərəzisində bu iki kəlimənin mükafatı möhtəşəmdir və həmçinin bildirir ki, bunlar Rəhman olan uca və müqəddəs Rəbbimizə sevimli olan kəlimələrdəndir:

"Subhənallahil-Azim, Subhənallahi və bihəmdihi" sözləri uca və müqəddəs Allahın əzəmət və kamillik sifətləriylə vəsfini və nöqsanlardan uzaq olmasını ehtiva edir.

## Hədisin faydalarından:

1. Ən möhtəşəm zikr - Allahı eyiblərdən münəzzəh edən və Ona həmd səna edilən zikrin bir yerdə, bir araya gəlməsidir.
2. Allahın qullarına qarşı olan rəhmətinin genişliyinin bəyanı, və az əməl olsa belə O, əvəzini böyük mükafatla verir.

(5507)

(307) – عن أبي هريرة رضي الله عنه أن رسول الله صلى الله عليه وسلم قال: «مَنْ قَالَ: سُبْحَانَ اللهِ وَبِحَمْدِهِ، فِي يَوْمٍ مِائَةَ مَرَّةٍ، حُطَّتْ خَطَايَاهُ وَإِنْ كَانَتْ مِثْلَ زَبَدِ الْبَحْرِ».

[صحيح] - [متفق عليه]

(307) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Kim gün ərzində yüz dəfə Subhənallahi və bihəmdihi deyərsə, günahları dəniz köpüyü qədər olsa belə bağışlanar”. [Səhih] - [Müttəfəqun aleyhi (Əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, kim gün ərzində yüz dəfə: "Subhənallahi və bihəmdihi" deyərsə, günahları coşan dənizin üzərini alan köpüklər qədər çox olsa belə silinər.

**Hədisin faydalarından:**

1. Bu savaba gün ərzində istər ardıcıl surətdə, istərsə də ayrı-ayrılıqda deməklə nail olunur.
2. Təsbih (subhanallah): Allah nöqsansızdır -deməkdir.
3. Əlhəmdulilləh: Allahı sevərək və təzim edərək, kamillik sifəti ilə vəsf etməkdir.
4. Hədisdə nəzərdə tutulan kiçik günahların bağışlanmasıdır, böyük günahlara gəldikdə isə onlara tövbə etmək gərəkdir.

(5516)

(308) – عن أبي مالكٍ الأشعريِّ رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: «الطُّهُورُ شَطْرُ الْإِيمَانِ، وَالْحَمْدُ لِلَّهِ تَمْلَأُ الْمِيزَانَ، وَسُبْحَانَ اللهِ وَالْحَمْدُ لِلَّهِ تَمْلَآنِ -أَوْ تَمْلَأُ- مَا بَيْنَ السَّمَاوَاتِ وَالْأَرْضِ، وَالصَّلَاةُ نُورٌ، وَالصَّدَقَةُ بُرْهَانٌ، وَالصَّبْرُ ضِيَاءٌ، وَالْقُرْآنُ حُجَّةٌ لَكَ أَوْ عَلَيْكَ، كُلُّ النَّاسِ يَغْدُو، فَبَايِعٌ نَفْسَهُ فَمُعْتِقُهَا أَوْ مُوبِقُهَا».

[صحيح] - [رواه مسلم]

(308) – Əbu Malik Əl-Əşaridən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: "Təmizlik imanın yarısıdır. Əlhəmdulilləh tərəzini doldurur.

Subhənallah və əlhəmdulilləh sözləri isə yerlər və göylərin arasını doldurur. Namaz nurdur, sədəqə burhandır (dəlildir), səbr isə işıqdır. Quran ya sənin leyhinə ya da əleyhinə dəlildir. Hər kəs sabahlayaraq öz nəfsini satar, kimisi (Allaha itaət etməklə Cəhənnəm əzabından) onu azad edər, kimisi isə (şeytana tabe olmaqla) onu həlak edər". [Səhih] - [Muslim rəvayət etdi]

**Şərh (izah):**

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) zahiri təmizliyin dəstəmaz və qüsl ilə olacağını və bunun namazın şərti olduğunu xəbər vermişdir. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) "Əlhəmdulilləh tərəzini doldurur" - sözü, Uca Allaha tərifdir və Onu kamil sifətlərlə vəsf etməkdir. Bu söz, qiyamət günü tərəzidə çəkiləcək və əməllər tərəzisini dolduracaqdır. Peyğəmbərin (Allahın salamı və salavatı onun üzərinə olsun) "Subhənallah və əlhəmdulilləh" - sözü, Uca Allahı  bütün nöqsanlardan uca tutmaq, Onu, Cəlalına layiq bir şəkildə kamil sifətlərlə vəsf edərək, Ona məhəbbət bəsləmək və Ona təzim etmək göylər və yer arasını doldurur. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) "Namaz nurdur" - sözü, qulun qəlbində, üzündə, qəbrində və həşr edildiyində nur olacağı mənasındadır. "Sədəqə bürhandır" - sözü, mömінin imanında səmimi olduğuna və imanının qarşılığında veriləcək vədə inanmadığı üçün ondan üz çevirən münafiqdən fərqli olduğuna dəlildir. "Səbr işıqdır" - sözü, nəfsi, dözümsüzlük nümayiş etdirməkdən və

qəzəblənməkdən saxlaması deməkdir. Bu işıq, günəş işığı kimi hərarətli və yandıran bir işıqdır. Çünki, səbr etmək məşəqqətli bir işdir və insanın nəfsi ilə mübarizə aparıb, onun istəklərindən əngəllməsi lazımdır. Səbr sahibi nur, hidayət və haqq üzərində davam edir. Allaha itaətdə səbr etmək, günahlara qarşı səbr etmək və dünyada başına gələn müsibətlərə və müxtəlif çətinliklərə səbr etmək səbrin növlərindəndir. "Quran ya sənin leyhinə dəlildir" - oxumaqla və ona əməl etməklə sənin lehinə dəlildir, "ya da aleyhinə dəlildir" - ondan qaynaqlanan əməlləri və tilavətini tərk etməklə sənə qarşı hüccətdir. Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, bütün insanlar yataqlarından qalxıb evlərindən çıxaraq müxtəlif işlər görmək üçün yer üzünə yayılırlar və çalışmağa başlayırlar. Onlardan bir qismi Allaha itaət üzərində olaraq özlərini cəhənnəmdən xilas edir, bir qismi isə, bu yoldan azaraq haramlara düşür və cəhənnəmə daxil olaraq özlərini həlak edirlər.

## Hədisin faydalarından:

1. Təmizlik iki növdür: Zahiri təmizlik və bu, dəstəmaz və qüslla baş verir.
2. Daxili təmizlik - bu isə iman, tövhid və saleh əməllərlə hasil olur.
3. Namazlara diqqət edib, vaxtında qılmağın əhəmiyyəti və onun bu dünyada da, qiyamət günündə də, insan üçün nur olması.
4. Sədəqə imanın səmimiliyinə dəlildir.

5. Quranın hökmlərinə əməl etməyin əhəmiyyəti və onun sənin əleyhinə yox, leyhinə dəlil olması üçün təsdiq etməyin önəmi.
6. Nəfsi itaətlə məşğul etməsən, səni günahlarla məşğul edər.
7. Hər bir insanın müəyyən əməllər etməsi qaçılmazdır, o ya itaətlə özünü cəhənnəmdən xilas edər, ya da asiliklə özünü cəhənnəmə atar.
8. Səbr dözümlülüyü və qarşılığını Allahdan gözləməyi tələb edir və bunda da çətinlik var.

(65004)

(309) – عن أبي هريرة رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم:
«لَأَنْ أَقُولَ: سُبْحَانَ اللهِ، وَالْحَمْدُ لِلَّهِ، وَلَا إِلَهَ إِلَّا اللهُ، وَاللهُ أَكْبَرُ، أَحَبُّ إِلَيَّ مِمَّا طَلَعَتْ عَلَيْهِ الشَّمْسُ». [صحيح] - [رواه مسلم]

(309) – Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Subhənallah valhəmdulilləh, və ləə iləhə illallah, vallahu əkbər" söyləmək günəşin üzərinə doğduğu hər şeydən mənə sevimlidir". [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, uca Allahı bu əzəmətli kəlimələrlə zikr etmək dünya və dünyada nə varsa ondan xeyirlidir. Bunlar:

"SubhanAllah": Uca Allahı hər cür nöqsanlardan pak tutmaq.

"Əlhəmdulilləh": kamil sifətləriylə Ona məhəbbət bəsləyərək və təzim edərək Onu təriflənmək.

"Ləə iləhəh illallah": Allahdan başqa haqq məbud yoxdur.

"Allahu əkbər": hər şeydən ən böyük və ən əzəmətli olan.

### Hədisin faydalarından:

1. Allahı zikr etməyə təşviq və zikrin günəşin üzərinə doğduğu hər şeydən sevimli olması.
2. Savabına və fəzilətinə görə zikri çoxaltmağa təşviq.
3. Dünya ləzzəti az və ehtirasları keçicidir.

(6211)

(310) – عن جابر رضي الله عنه قال: سمعتُ رسولَ الله صلى الله عليه وسلم يقول: «أَفْضَلُ الذِّكْرِ: لَا إِلَهَ إِلَّا اللهُ، وَأَفْضَلُ الدُّعَاءِ: الْحَمْدُ لِلَّهِ». [حسن] - [رواه الترمذي والنسائي في الكبرى وابن ماجه]

(310) – Cabir bin Abdullahdan - Allah ondan razı olsun - rəvayət edildiyinə görə o, belə demişdir: Mən Allah Rəsulunun - salləllahu aleyhi va səlləm- belə dediyini eşitdim: "Zikrin ən fəzilətlisi: «Lə iləhə illəllah» kəlməsidir, duanın ən fəzilətlisi isə: «Əlhəmdulilləh» sözüdür". [Həsən] - [Ət-Tirmizi, Ən-Nəsai Əl-Kubrada və İbn Məcə rəvayət ediblər]

## Şərh (izah):

Peyğəmbər - salləllahu aleyhi va səlləm - bizə ən fəzilətli zikrin “Lə iləhə illallah" kəlməsi olduğunu, yəni: Uca Allahdan başqa ibadətə layiq haqq məbud olmadığını və eyni zamanda ən fəzilətli duanın da "Əlhəmdulillah" sözü olduğunu, yəni: Uca Allahın nemətləri bəxş edən, bütün kamil və gözəl vəsflərə layiq olan mənasına gəldiyini xəbər vermişdir.

## Hədisin faydalarından:

1. Bu hədis Uca Allahı tövhid kəlməsi ilə çoxlu zikr etməyə və həmd-səna edərək Ona dua etməyə təşviq etmişdir.

(3567)

(311) – عن خَوْلَةَ بِنْتَ حَكِيمٍ السُّلَمِيَّةَ قَالتْ: سَمِعْتُ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «مَنْ نَزَلَ مَنْزِلًا ثُمَّ قَالَ: أَعُوذُ بِكَلِمَاتِ اللهِ التَّامَّاتِ مِنْ شَرِّ مَا خَلَقَ، لَمْ يَضُرَّهُ شَيْءٌ حَتَّى يَرْتَحِلَ مِنْ مَنْزِلِهِ ذَلِكَ». [صحيح] - [رواه مسلم]

(311) – Xəvlə bint Həkim əs-Suləmiyyədən (Allah ondan razı olsun) rəvayət edilir ki, o dedi: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: “Kim bir məkana çatıb, orada dayanıb qalarsa, ardınca “Yaratdıqlarının şərindən Allahın kamil kəlmələrinə sığınıram” duasını oxuyarsa, ona, həmin yeri tərk edənə qədər heç bir ziyan dəyməz”. [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) öz ümmətini, yer üzündə hər hansı bir yerdə müvəqqəti olsa belə məskunlaşarkən qorxduğu bütün təhlükələrdən qorunmaq üçün faydalı vasitələrdən bərk yapışmağa və onlara sarılmağa çağırır, bu istər səfərdə, istər gəzintidə və ya buna bənzər hallarda ola bilir: müsəlman, Allahın bütün eyb və nöqsanlardan uzaq olan kamil kəlamlarının fəzilətinə, bərəkətinə və faydasına görə, bu kəlamlara sarılar, şəri olan hər bir canlının şərrindən bu kəlamlara sığınar və beləliklə də qərarlaşdığı yerdə təhlükədən qorunub əmin-amanlıqda olar.

## Hədisin faydalarından:

1. Allaha sığınmaq ibadətdir və bu uca Allaha, həmçinin Onun isim və sifətlərinə sığınmaqla olur.
2. Allahın kəlamlarına sığınmağın icazəli olması, çünki o uca Allahın sifətlərindən biridir. Lakin hər hansı yaradılmışa sığınmaq isə şirkdir.
3. Bu duanın fəziləti və bərəkəti.
4. Zikrlərlə qorunmaq qulun pisliklərdən himayə olunmasına səbəbdir.
5. Cin, sehrbaz, saxtakarlara və Allahdan başqa digərlərinə sığınmaq qadağan edilmişdir.
6. Yaşayış yerində və ya səfərdə olarkən bu duanı etməyin şəriətdə buyurulması.

(5932)

(312) – عَنْ أَبِي حُمَيْدٍ أَوْ عَنْ أَبِي أُسَيْدٍ قَالَ: قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «إِذَا دَخَلَ أَحَدُكُمُ الْمَسْجِدَ فَلْيَقُلِ: اللَّهُمَّ افْتَحْ لِي أَبْوَابَ رَحْمَتِكَ، وَإِذَا خَرَجَ فَلْيَقُلِ: اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنْ فَضْلِكَ». [صحيح] - [رواه مسلم]

(312) – Əbu Humeyddən və ya Əbu Useyiddən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: "Sizdən biri məscidə daxil olduqda: Allahummə-ftəh li əbvabə rahmətik [Allahım, Öz mərhəmət qapılarını mənim üçün aç!], məsciddən çıxdığı zaman isə: Allahummə inni əsəlukə min fədlik [Allahım, Sənin lütfündən di-ləyirəm] desin". [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) məscidə daxil olarkən ümmətinə: **«Allahım, Öz mərhəmət qapılarını mənim üçün aç!»** deməsini, Uca Allahdan onun üçün rəhmət səbəblərini asanlaşdırmasını, məsciddən çıxakən: **«Allahım, Sənin lütfündən diləyirəm»** deməsini, Uca Allahdan lütfünü və halal ruzidən olan ehsanını onun üçün artırmasını istəməyi öyrətmişdir.

## Hədisin faydalarından:

1. Məscidə daxil olarkən və oradan çıxarkən bu duanı oxumağın müstəhəb olması.
2. Məscidə daxil olarkən Uca Allahdan rəhmət, çıxarkən Uca Allahın lütfünü istəməsinin hikmətlərindən də

biri budur ki, məscidə daxil olan kimsə, onu, Allaha və Cənnətə yaxınlaşdıracaq şeylərlə məşğul olacağı üçün rəhmət ibarəsi istifadə edilmişdir. Məsciddən çıxdığında isə Allahın bəxş edəcəyi ruzini eldə etmək üçün yer üzündə səy edəcəyinə görə lütf ibarəsi istifadə edilmişdir.

3. Bu zikirlər, məscidə daxil olmaq və məsciddən çıxmaq istənildiyində deyilir.

(65092)

(313) – عَنْ جَابِرِ بْنِ عَبْدِ اللهِ رضي الله عنهما أَنَّهُ سَمِعَ النَّبِيَّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ يَقُولُ: «إِذَا دَخَلَ الرَّجُلُ بَيْتَهُ، فَذَكَرَ اللهَ عِنْدَ دُخُولِهِ وَعِنْدَ طَعَامِهِ، قَالَ الشَّيْطَانُ: لَا مَبِيتَ لَكُمْ، وَلَا عَشَاءَ، وَإِذَا دَخَلَ، فَلَمْ يَذْكُرِ اللهَ عِنْدَ دُخُولِهِ، قَالَ الشَّيْطَانُ: أَدْرَكْتُمُ الْمَبِيتَ، وَإِذَا لَمْ يَذْكُرِ اللهَ عِنْدَ طَعَامِهِ، قَالَ: أَدْرَكْتُمُ الْمَبِيتَ وَالْعَشَاءَ».

[صحيح] - [رواه مسلم]

(313) – Cabir bin Abdullahdan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "İnsan evinə daxil olduğu zaman və yeməyə başlayarkən Allahı zikr edərsə, şeytan köməkçilərinə deyər: Sizə bu evdə gecələmək üçün yer və şam yeməyindən pay yoxdur. Lakin insan evinə girərərkən Allahı zikr etməzsə, şeytan öz ardıcıllarına deyər: Gecələməyə yeriniz var. Yemək yediyində Allahı zikr etməzsə şeytan onlara deyər ki, artıq həm gecələməyə yeriniz, həm də yeməkdən payınız vardır”. [Səhih] - [Muslim rəvayət etdi]

## Şərh (izah):

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) evə girərkən və yeməyə başlamazdan əvvəl Allahı zikr etməyi əmr edir və bildirir ki, əgər bir kəs evinə girərkən və yeməyə başlayarkən Allahı "bismilləh" (Allahın adı ilə) deyərək zikr edərsə: şeytan köməkçilərinə deyər: Sizə bu evdə gecələmək və şam etmək üçün pay yoxdur, çünki ev sahibi uca Allahı zikr etməklə öz toxunulmazlığını təmin etdi. Lakin  əgər insan nə evə girdiyi zaman, nə də ki, yemək yeyərkən Allahı zikr etməzsə, şeytan öz köməkçilərinə onların bu evdə gecələyib, şam edəcəklərini xəbər verər.

## Hədisin faydalarından:

1. Evə girərkən və yemək yeyərkən Allahı zikr etməyin müstəhəb olması. Çünki şeytan, uca Allahın adını zikr etməyən kəslərin evlərində gecələyir və onların yeməklərini yeyir.
2. Şeytan Adəm övladının bütün əməllərinə, davranışına və bütün işlərinə nəzarət edir, elə ki, insan zikr etməkdən yayınır, şeytan onun bu halından istifadə edərək öz istəyinə nail olur.
3. Zikr şeytanı qovur.
4. Hər bir şeytanın, onun sözlərinə sevinən, əmrlərinə əməl edən ardıcılları və dostları vardır.

(3037)

**Table of Contents**

Müqəddimə........................................................................................ 2

Əməllər niyyətlərə görədir, hər kəsə niyyətinə görə verilir ........ 4

“Kim bizim yolumuza zidd , ona aid olmayan bir yenilik gətirərsə, o rədd olunar ................................................................ 5

İslam, Allahdan başqa ibadətə layiq ilah olmadığına, Muhəmmədin Allahın elçisi olduğuna şəhadət etməyin, namaz qılmağın, zəkat verməyin, Ramazan ayının orucunu tutmağın və imkanın olduğu təqdirdə Allahın evini (Kəbəni) həcc etməyindir .......................................................................................... 7

İslam beş təməl üzərində qurulub ............................................. 13

Allahın qulları üzərində haqqı Ona ibadət edərək, Ona heç bir şeyi şərik qoşmamaqdır. Qulların Allah üzərində haqları isə, Ona şərik qoşmayan kəsə əzab verməməsidir .................................. 14

Kim Allahdan başqa məbud olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna ürəkdən ixlasla şəhadət edərsə, Allah cəhənnəmi ona haram edər......................................................... 16

Kim "Ləə iləhə illallah" deyər və Allahdan başqa ibadət edilənləri inkar edərsə, malı, qanı toxunulmaz olar, hesabı isə Allaha aiddir ........................................................................... 19

Kim Allaha şərik qoşmadan ölərsə cənnətə daxil olar, kim Allaha şərik qoşaraq ölərsə cəhənnəmə daxil olar ................................ 20

Kim Allahdan başqasına dua edərsə və bunun üzərində ölərsə cəhənnəmə girər ........................................................................ 22

Sən  kitap əhli olan bir qövmə gedəcəksən. Onların yanına getdikdə, onları Allahdan başqa haqq bir ilah olmadığına, Muhammədin də Onun Rəsulu olduğuna şəhadət etməyə dəvət et........................................................................................... 23

Qiyamət günü şəfaətimə nail olan ən xoşbəxt insan qəlbindən və ya içindən ixlasla “Lə iləhə illallah” deyən kimsədir". deyə buyurdu........................................................................................ 26

İman, yetmiş və bir neçə, və ya altmış və bir neçə şaxədən ibarətdir. Ən üstünü ləə iləhə illallah söyləmək, ən zəifi isə yolda olan maneəni aradan qaldırmaqdır ................................. 27

Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) Allah qatında ən böyük günah hansıdır?”- deyə soruşduğumda: “Səni yaratmış olduğu halda Allaha şərik qoşmağındır ............ 29

Mən, şərik olmağa  möhtac deyiləm.Kim bir əməl edərsə və etdiyi əməldə bir başqasını Mənə şərik qoşarsa, Mən onu və şərik qoşduğunu tərk edərəm ................................................... 31

Ümmətimdən hər kəs cənnətə daxil olacaq,  ondan üz çevirənlərdən başqa .............................................................. 32

Xristianlar Məryəm oğlu İsanı ucaltdıqları (həddindən artıq tərifləməklə) kimi siz də məni ucaltmayın. Mən Allahın quluyam. (Mənə) Allahın qulu və Onun rəsulu deyin ................................ 33

Sizlərdən biriniz, mən ona valideynindən, övladından və bütün insanlardan sevimli olmayınca iman gətirmiş olmaz ................ 35

Sizlərə tərk etdiyim (haqqında əmr və qadağa gəlməyən) şeylərdə məni rahat buraxın (artıq suallar verməyin). Sizdən öncəkilər verdikləri sual və peyğəmbərlərinə müxalif olmaları səbəbi ilə həlak oldular ............................................................ 36

Məndən bir ayə olsa belə insanlara çatdırın. İsrail oğullarından da danışın, bunda bir qəbahət yoxdur. Kim mənim adımdan qəsdən yalan danışarsa, Cəhənnəmdə yerini hazırlasın ........... 39

Bilin ki, bir kişinin ona çatan hədis barədə öz oturacağının qoltuğuna rahat söykənərək belə söyləyəcəyi zaman yaxındadir: Bizimlə sizin aranızda Allahın kitabı var ................................... 40

Allah yəhudilərə və xristianlara lənət eləsin! Onlar peyğəmbər-ləri-nin qəbirlərini məscidlərə çevirdi-lər ............. 42

Allahım! Qəbrimi ibadət edilən bir büt (ibadət və sitayiş yeri) etmə! ..................................................................................... 44

Evlərinizi qəbirsanlıqlara və mənim qəbrimi də ziyarətgaha çevirməyin, mənə salavat (salallahu aleyhi va səlləm) deyin, siz harada olsanız , dediyiniz salavatlar mənə çatar ........................ 46

Onlar elə bir tayfadır ki, içərilərindən əməlisaleh bir qul və ya əməlisaleh kişi öldüyü zaman onun qəbri üzərində məscid tikərlər ........................................................................ 47

Mən aranızda sizlərdən birinin dostumun olmasından Allaha sığınıram. Çünki Uca Allah İbrahimi Özünə dost etdiyi kimi məni də Özünə dost etmişdir ........................................................ 49

Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) məni göndərdiyi tapşırıqla mən də səni göndərimmi? Bütün heykəlləri məhv et, hündür qəbrləri yerlə bir et ......................... 52

( Bədbinlik etiqadı ilə) "Quş uçurmaq şirkdir"-üç dəfə təkrarladı-bizdən hər birimizin ağlına belə bir fikir gələ bilər, lakin izzət və cəlal sahibi olan Allah onu bizim qəlblərimizdən təvəkkül etməklə uzaqlaşdırır ................................................... 53

Bəxti, uğuru öyrənmək iddiası ilə quş uçuran və ya bu məqsədləri güdən quş uçurana müraciət edən, fala baxan və baxdıran, sehr etməklə məşğul olan və ya ona sehrbazlıq tələbi ilə müraciət şəxs bizdən deyil ................................................... 54

Özbaşına yoluxma yoxdur, uğursuzluq yoxdur və mən fə'li sevirəm. Deyildi : Fə'l nədir? Dedi: "Yaxşı söz............................ 56

Bilirsinizmi, Rəbbiniz nə buyurdu?" Oradakılar: "Allah və Rəsulu daha doğrusunu bilir" dedilər. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "(Allah buyurdu ki) Qullarımdan bir qismi mənə iman, bir qismi isə mənə küfr edərək sabahladı ........................................................................ 58

Kim təmimə taxarsa, artıq Allaha şərik qoşmuş olar ................ 60

Həqiqətən, ruqyə, tilsimlər və tivələ (sevgi duası) şirkdir......... 62

Kim bir baxıcının yanına gedərsə və ondan bir şey soruşarsa, qırx gün namazı qəbul edilməz ................................................. 64

Kim Allahdan başqasına and içərsə ya küfür edər ya da şərik qoşar....................................................................................65

Allaha and olsun ki-Allah istəyərsə-mən and içirəm, sonra bundan (and içdiyimdən) daha xeyirlisini gördüyümdə andımın kəffarəsini verirəm və daha xeyirli olanı edirəm” .......................66

Deməyin ki, Allah və filankəs istədiyi oldu , əksinə deyin ki, “Allah istədi sonra isə filankəs istədi oldu” .................................69

Sizin üçün ən çox qorxduğum kiçik şirkdir" Dedilər: Kiçik şirk nədir, ey Allahın Rəsulu? Belə buyurdu: “Riya............................70

Qəbirlər üzərində oturmayın və orada namaz qılmayın............72

“İçində it və şəkil olan evə mələklər girməz.” .............................73

“Aralarında it və zəng olan bir camaata mələklər yoldaşlıq etməz..............................................................................................74

Şeytan, sizdən birinizə gələrək "bunu kim yaratdı, onu kim yaratdı? suallarını verər və ən son olaraq "Sənin Rəbbini kim yaratdı?" sualını ortaya atar. Kim belə bir vəziyyətlə qarşılaşarsa, Allaha sığınsın və bu vəsvəsələrə son qoysun......76

Kim mənim bir vəlimə (dostuma) düşmənçilik edərsə, mən ona müharibə elan edərəm. Qulum ona fərz etdiyim şeydən daha sevimli olan heç bir şeylə mənə yaxınlaşmaz .............................77

Sizə Allahdan qorxmağı tövsiyyə edirəm, (rəhbəriniz) həbəşi bir kölə olsa belə, ona tabe olub, itaət edin. Məndən sonra şiddətli ixtilaflar görəcəksiniz, mənim və doğru yolda olan raşidi xəlifələrin yoluna tabe olun.......................................................80

Kim itaətdən çıxar, camaatdan ayrılar və bu hal üzərində ölərsə, cahiliyyə ölümü ilə ölmüş olur....................................................83

Allah kimə rəhbərlik etməyi nəsib edərsə, rəhbərliyi altında olan insanları aldadaraq ölərsə, Allah cənnəti ona haram edər 85

Elə rəhbərlər hakimiyyətə gələcəklər, siz onların əməllərini görəcək və inkar edəcəksiniz. Beləliklə, kim qəlblə etiraz edəcəksə qurtulacaq, kim inkar edəcəksə xilas olacaq, amma

həmin əməllərdən razı qalıb ardınca gedənlər günah qazanacaqlar........................................................................ 86

Sizin (başınızda duracaq rəhbərlər tərəfindən) inkar edəcəyiniz işlər və mənimsəmələr görəcəksiniz. "Soruşdular: Ey Allahın Rəsulu, bizə nə əmr edirsən? O Dedi: Üzərinizdə olan haqqı yerinə yetirin, öz haqqınızı isə Allahdan istəyin......................... 88

Sizin hər biriniz başçısınız və  hamınız öz əlinizin altında olanlara cavabdehsiniz ................................................................ 90

Allahım, hər kim ümmətimin işlərinə rəhbərlik edib, onlara çətinlik yaradarsa, Sən də onun üçün çətinlik yarat. Hər kim də, ümmətimin işlərinə rəhbərlik edib, onlarla yumşaq davranarsa, Sən ona rəhm et........................................................................ 92

Din nəsihətdir........................................................................ 93

Əgər mütəşabihlərdən yapışanları görsən, bil ki, onları Allah bu cür adlandırdı və onlardan uzaq durun...................................... 95

Sizlərdən biriniz bir münkər gördükdə, onu əli ilə dəyişsin, əgər bacarmırsa, dili ilə dəyişsin, əgər onu da bacarmırsa, qəlbi ilə dəyişsin, bu isə imanın ən zəif dərəcəsidir ................................ 99

Allahın qayda-qanunlarına riayət edən və onları tərk edən toplumun məsəli gəmidə püşk atıb, onların bir qisminə gəminin yuxarısı, digər bir qisminə isə aşağı hissəsi............................ 101

Kim doğru yola dəvət edərsə, o kəs, arxasınca gedənlərin savabı qədər savab qazanar və bu onların savablarından heç nəyi əksiltməz........................................................................ 103

Kim xeyirə yönəldərsə, o, xeyir iş görənlə əcrdə şərik olar ..... 105

Allaha and olsun ki, Allahın, sənin əlinlə tək bir insana hidayət etməsi, sənin üçün qırmızı dəvələrə sahib olmağından daha xeyirlidir ........................................................................ 106

Kim özünü bir topluma oxşadarsa, o da onlardandır.............. 110

İnsan dostunun dini üzərindədir və sizdən hər biriniz kiminlə dostluq etdiyinə baxsın........................................................ 111

“Gecə və gündüzün çatdığı hər yerə bu iş də (İslam dini) çatacaqdır. Allah, qüdrətlinin izzəti və zəlilin zilləti ilə, bu dini daxil etmədiyi nə bir şəhər, nə də ki bir kənd evi buraxmayacaq ...... 112

Muhəmmədin nəfsi əlində olan Allaha and olsun ki, bu ümmətdən  yəhudi və ya xristian mənim haqqımda eşidərsə, sonra göndərildiyimə (bu dinə) iman gətirmədən ölərsə, cəhənnəm əhlindən olar ...... 114

“Ey insanlar, dində həddi aşmaqdan çəkinin, həqiqətən də sizdən əvvəlkiləri dində həddi aşmaqları məhv etdi” ...... 116

İfratçılar həlak oldular ...... 117

Yəhudilər qəzəbə düçar olmuş, xristianlar isə zəlalətə düşmüşlər ...... 118

Allah məxluqatın qədərini, yeri və göyləri yaratmazdan əlli min il öncə yazmışdır ...... 119

Doğru söz sahibi və doğruluğu Allah tərəfindən təsdiqlənən Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə belə buyurdu: "Sizlərdən birinizin yaradılışının başlanğıcı (embrion) anasının bətnində qırx gün və qırx gecədə toplanır ...... 120

Cənnət sizə ayaqqabınızın bağından daha yaxındır. Cəhənnəm də həmçinin ...... 123

Cəhənnəm şəhvətlərlə(nəfsə xoş gələn şeylərlə), Cənnət isə nəfsin istəmədiyi şeylərlə əhatə edilmişdir ...... 123

Allah cənnət və cəhənnəmi yaradanda Cəbrayılı (Allahın salamı onun üzərinə olsun) ...... 125

Yandırdığınız alov, cəhənnəm alovunun yetmiş qatından bir qatıdır ...... 128

Allah Qiyamət günü yeri ovucuna alar, göyləri isə sağ əlində bükər, sonra deyər: Mənəm hökmdar, yer üzünün hökmdarları haradadır? ...... 129

Qiyamət günü Allah yanında insanların ən şiddətli əzab olunanları, Allahın yaratmasına bənzəməyə çalışanlardır ...... 130

Nəfsim əlində olan Allaha and olsun ki, Məryəm oğlunun yer üzünə enərək sizin aranızda ədalətlə hökm verəcəyi, xaçı sındıracağı, donuzları öldürəcəyi, cizyəni aradan qaldıracağı, bolluğa görə heç kimin mal-dövlətə ehtiyacı olmayacağı zaman artıq yaxındır ........................................................................ 132

Lə iləhə illallah" de ki, buna görə Qiyamət günü sənə şahidlik edim ........................................................................ 133

Mənim hovuzum bir aylıq yol məsafəsi qədər böyükdür, suyu süddən daha ağdır, qoxusu miskdən daha gözəldir.................. 135

Ölüm, ağ-qara qoç şəklində gətiriləcək .................................... 136

Əgər siz Allaha layiqincə təvəkkül etsəniz, O sizə də ruzini səhər yuvasından ac çıxıb, (axşam) tox qayıdan quşun ruzisi kimi yetirər........................................................................ 138

Minik üzərində olan piyada gəzənə, piyada gəzən oturan kəsə, az olanlar isə çoxluğa salam verir.................................................. 140

Ey qullarım, Mən zülmü Özümə haram etdim və sizin də aranızda onu haram buyurdum, elə isə bir-birinizə zülm etməyin ........................................................................ 141

“Zülm etməkdən çəkinin, çünki zülm Qiyamət günü zülmət olacaq və xəsislik etməkdən çəkinin, həqiqətən də xəsislik sizdən əvvəlkiləri məhv etdi,.................................................... 145

Həqiqətən, Allah zalıma möhlət verir ki, onu yaxalayanda boyun qaçırmasın ........................................................................ 146

Şübhəsiz ki, Allah yaxşılıq və pislikləri yazdıqdan sonra, onları belə açıqladı: Kim bir yaxşılıq etmək istərsə, lakin bunu edə bilməzsə, Allah bunu onun üçün Öz dərgahında bir yaxşılıq kimi yazar. Əgər bir kəs xeyir əməli istəyib onu edərsə, Allah Öz dərgahında həmin şəxs üçün bu yaxşılığı on mislindən yeddi yüz mislinə qədər, hətta daha çox yazar. Əgər insan pis bir əməli etmək istəyər, lakin onu etməkdən əl çəkərsə, Allah bunu onun

üçün bir yaxşılıq olaraq yazar, əgər bu pis əməli etmək istəyər və edərsə, Allah sadəcə onun üçün bunu bir günah olaraq yazar ........................................................................................ 148

Kim İslamda yaxşı işlər görərsə, cahiliyyədə etdiklərinə görə hesaba çəkilməz, kim İslamda pis işlər görərsə, cahilikdə və İslamda etdiyi əməllərə görə hesaba çəkilər ............................ 150

Sənin söylədiklərin və dəvət etdiyin şey gözəldir. Kaş ki bizim etdiyimiz günahların bir kəfarəsi olduğunu bizə xəbər versəydin - dedilər................................................................................ 151

Sən keçmişdə etdiyin xeyir əməllərlə müsəlman oldun........... 153

Şübhəsiz ki, Allah mömինin yaxşı əməlinin savabını silməklə ona zülm etməz, yaxşılığın əvəzini bu dünyada verər və axirətdə də mukafatlandırar ..................................................................... 154

Ey Adəm oğlu, nə qədər ki, Mənə dua edib ümid bəsləyirsən, sənin etdiyin günahları bağışlayaram və onlara əhəmiyyət verməræm .......................................................................... 155

Bir qul günah edərək: "Ey Rəbbim, günahımı bağışla!............. 157

Əgər bir kəs günah edər, sonra dəstəmaz alaraq namaz qılar, sonra Allahdan bağışlanma diləyərsə, Allah onu bağışlayar ... 160

“Həqiqətən, Allah Əzzə və Cəllə günəş batdığı yerdən çıxana qədər gecə əlini uzadır ki, gündüzün günahkarı tövbə etsin, gündüz də əlini uzadır ki, gecənin günahkarı tövbə etsin ....... 162

Hər gecə uca və müqəddəs Rəbbimiz gecənin son üçdə birində dünya səmasına enərək ......................................................... 163

Şübhəsiz ki, halal olan şeylər bəllidir, haram olan şeylər bəllidir ........................................................................................ 164

“Səhabələrimi söyməyin! Əgər sizdən biriniz Uhud dağı qədər qızıl xərcləsə belə, onların birinin bir müdd (bir ovuc qədər) sədəqəsinə, hətta onun yarısına da çata bilməz”...................... 166

Oğul! Mən sənə bir neçə kəlimə öyrədəcəm: Allahın hududlarına qərəzsiz riayət et ki, Allah da səni qorusun. Allahın hüdudlarına

riayət et ki, Onu öz qarşında görəsən. Nəyisə istədikdə, Allahdan istə. Kömək istədikdə, yalnız Allahdan kömək istə.................. 167

mənə İslamda elə bir şey söylə ki, onu səndən başqa heç kimdən soruşmayım. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: De ki: "Allaha iman gətirdim, ardınca da doğru yolu tut ........................................................................ 169

Möminlər bir-birlərini sevməkdə, bir-birlərinə mərhəmət etməkdə və bir-birlərinə qarşı şəfqətli olmaqda bir bədən kimidirlər. Bədənin bir üzvü şikayət etsə (xəstə olsa), digər bədən üzvləri də bu səbəbdən yuxusuzluğa və qızdırmaya tutular ............................................................................................ 171

Kim gözəl surətdə dəstəmaz alarsa, günahları cəsədindən, hətta dırnaqlarının altından çıxar ................................................... 172

Ayaqyoluna getdiyiniz zaman üzünüzü və arxanızı qibləyə tərəf çevirməyin, əksinə, şərqə və ya qərbə tərəf çevirin.” ............... 173

Sizin heç biriniz kiçik su başına çıxarkən cinsi orqanını sağ əli ilə tutmasın, ayaqyolunda sağ əli ilə təmizlənməsin və qaba üfürməsin.......................................................................................... 175

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bir saa ilə beş mudd arası miqdarında su ilə qüsl və bir mudd ilə dəstəmaz alardı ................................................................................ 176

Sizlərdən birinizin dəstmazı pozulduqda, dəstəmaz almayınca Allah onun namazını qəbul etməz ........................................... 177

Bir kişi dəstəmaz aldı və ayağında dırnaq boyda yuyulmayan yer buraxdı. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bunu gördü və dedi: “Geri qayıt və dəstəmazı gözəl şəkildə al!” O kişi qayıdıb yenidən dəstəmaz aldı, sonra namaz qıldı ............................................................................................... 178

Cəhənnəm odunda (yanan) dabanlara vay olsun, dəstəmazı tam alın................................................................................................. 180

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) hər namaz üçün dəstəmaz alardı.................................................... 182

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) (dəstəmaz azalarının hər birini) bir dəfə yuyaraq dəstəmaz aldı ........................................................................................ 183

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) (dəstəmaz azalarını) iki dəfə yuyaraq dəstəmaz aldı............... 183

Kim mənim bu aldığım dəstəmaz kimi dəstəmaz alar sonra qəlbin-dən heç bir şey keçirtmədən iki rükət namaz qılarsa Allah onun keçmiş günahlarını bağışlayar ................................ 184

Sizlərdən biriniz dəstəmaz alarsa, ilk olaraq suyu burnuna çəkib, ardınca nəfəsiylə onu çıxarmalıdır, kim təbii ehtiyacını ödədikdən sonra, daş parçası ilə təmizlənmək istərsə bunu tək sayda etsin ........................................................................ 188

“Bu qəbirdəkilər əzab çəkirlər, əzabları isə böyük günahlarına görə deyil. Qəbirdəkilərdən birinə sidikdən qorunmadığına görə, digərinə isə insanlar arasında söz gəzdirdiyinə görə əzab verilir......................................................................................... 189

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) hər dəfə ayaqyoluna girdikdə belə deyərdi: “Allahummə inni əuzu bikə minəl-xubusi val-xəbəis” .................................................. 191

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ayaqyolundan çıxdıqda-"Ğufranəkə" deyərdi .......................... 192

Misvak ağzın təmizliyi, Rəbbin isə razılığıdır .......................... 193

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) gecə yuxudan duranda misvakla ağzını sürtərək təmizləyərdi ....... 194

Yeddi gündə bir dəfə yuyunmaq, başını və bədənini yumaq hər bir müsəlman üzərində haqqdır ............................................... 195

Beş şey fitrətdəndir: sünnət olmaq, övrət yerini qırxmaq, bığları qısaltmaq, dırnaqları tutmaq və qoltuq altındakı tükləri yolmaq ........................................................................................ 197

Məndən tez-tez məzi gələrdi və Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) qızı Fatiməyə (Allah

ondan razı olsun) görə ondan bu haqda soruşmağa utanırdım. Miqdad bin Əl-Əsvəda dedim ki, o soruşsun. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Cinsiyyət üzvünü yusun və dəstəmaz alsın ............................................. 198

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) cənabətdən qüsl aldıqda əllərini yuyardı, ardınca namaz üçün aldığı kimi dəstəmaz alardı ..................................................... 200

Əllərinlə belə etməyin sənə kifayət idi." Sonra əlləri ilə bir dəfə yerə vurdu.Sonra sol əlini sağ əlinə sürtdü, əllərinin üzərinə və üzünə məsh çəkdi................................................................... 202

Onları çıxarma, çünki mən təharətli(dəstəmazlı) olarkən onları geymişəm......................................................................................... 203

bu qanaxmadır, sadəcə sənin bildiyin heyz günlərinin müddətində namazı tərk et, (bu müddətdən) sonra isə qüsl al və namaz qıl........................................................................................... 205

Sizdən biri qarnında bir şey hiss edib, ondan bir şey çıxıb və ya çıxmadığını şübhə edərsə, səs eşitmədikcə yaxud iy duymadıqca məsciddən çıxmasın................................................................. 207

Əgər it birinizin qabından içərsə, onu yeddi dəfə yusun ......... 208

Müəzzin: "Allahu Əkbər, Allahu Əkbər" dediyi zaman sizlərdən biri ixlasla: "Allahu Əkbər, Allahu Əkbər" desə ........................ 210

Müəzzini eşitdiyinizdə, siz də onun söylədiklərini təkrar edin. Sonra mənə salavat gətirin ....................................................... 212

Kim müəzzini eşitdikdə, "Əşhədu əllə iləhə illallah vəhdəhu lə şərikə ləhu və ənnə Muhəmmədən əbduhu və rasuluhu, radiytu billəhi Rabbən və bimuhəmmədin rasulən, və bil-isləmi dinən" (şəhadət verirəm ki, Allahdan başqa haqq məbud yoxdur. O, təkdir və şəriki yoxdur, Muhəmməd Onun qulu və elçisidir. Mən Rəbb olaraq Allahdan, rəsul olaraq Muhəmməddən, din olaraq İslamdan razıyam) deyərsə, onun günahları bağışlanar.......... 215

Azanı eşidirsənmi? O: “Bəli!” - dedi. Bu zaman Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "O zaman cavab ver( camaat namazına gəl)............................................ 216

Sizin birinizin qapısının önündə bir çay olsa və o, həmin çayda hər gün beş dəfə yuyunsa o kəsdə çirkdən bir şey qalarmı? ... 218

Hansı əməl Allaha daha sevimlidir? Buyurdu: "Vaxtında qılınan namaz" Dedi: "Sonra hansı?" Buyurdu: Valideynə yaxşılıq" Dedi: Sonra hansı?" Buyurdu: "Allah yolunda cihad.......................... 219

Elə bir müsəlman kişi yoxdur ki, fərz namazının vaxtına yetişib, gözəl şəkildə dəstəmaz alsın, namazda xuşunu və rukunu gözəl şəkildə yerinə yetirsin və böyük günah işləməsin ki, bu namaz özündən əvvəlki günahlara kəffarə olmasın. Və bu hər zaman belədir........................................................................ 220

Böyük günahlardan çəkindiyi müddətcə, beş vaxt namaz, iki Cümə və iki Ramazan, aralarında edilən kiçik günahlara kəffarədir.................................................................... 222

“Övladlarınıza yeddi yaşında ikən namaz qılmağı əmr edin, on yaşında ikən onları namaza görə (əgər qılmasalar) vurun və onların yataqlarını da ayırın” .................................................. 223

Uca Allah belə buyurmuşdur: Namazı qulumla Özüm aramda iki yerə böldüm, qulum üçün istədiyi vardır................................ 224

Bizimlə onlar arasındakı olan əhd namazdır. Kim namazı tərk etsə, artıq küfr etmişdir......................................................... 227

Kişi ilə şirk və küfür arasında namazı tərk etməsi vardır........ 228

Ey Bilal! Namaz üçüm iqamə ver. Bizi namazla rahatlat.......... 229

Allahummə bəid bəyni və bəynə xatayəyə kəmə bəədtə bəynəl-məşriqi vəl-məğribi,............................................................... 230

Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) namaza başlayanda əllərini çiyinləri səviyyəsində qaldırardı, 232

Fatihə surəsini oxumayanın namazı yoxdur (səhih deyildir) .. 234

Nəfsim əlində olana and olsun ki, aranızda namazıAllah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) namazına ən çox oxşayan mənim namazımdır. Bu onun dünyadan ayrılana qədər qıldığı namaz idi" deyirdi ................ 235

Mənə yeddi əza üzərində səcdə etmək əmr edildi ................... 237

Rəbbin qula ən yaxın olan vaxtı gecənin sonudur .................... 238

Həqiqətən də siz Rəbbinizi, bu ayı gördüyünüz kimi görəcəksiniz. Onu görməkdə bir çətinlik və sıxıntı çəkməyəcəksiniz .......................................................................... 240

“Hər kim əl-bərdeyn namazlarını qılarsa, Cənnətə daxil olar” 241

Kim sübh namazını qılarsa, Allah onu himayəsi altına alar ..... 243

Əsr namazını tərk edənin əməli batil olar ................................. 244

Kim bir namazı unudarsa onu xatırladığı zaman qılsın. Onun kəffarəsi ancaq budur ............................................................. 245

Münafiqlərə ən ağır gələn namaz, işa və fəcr namazlarıdır. Əgər onlar bu iki namazda olan savabı bilsəydilər, sürünərək də olsa bu namazlara gələrdilər.......................................................... 246

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) rükudan belini qaldırdığı zaman belə deyərdi: "Səmi Allahu limən həmidəh,......................................................................... 248

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) iki səcdə arasında belə deyərdi: «Rabbiğfir li, Rabbiğfir li............ 249

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) iki səcdə arasında deyərdi: "Allahumməğfirli, varhəmni, və afini, vəhdini vərzuqni" (Allahım məni bağışla, mənə rəhm et və əfv et, məni doğru yola yönəlt və mənə ruzi yetir)........................ 250

Namaz qıldığınız zaman səflərinizi düz tutun sonra sizdən biri sizə imam olsun. İmam təkbir etdiyi zaman siz də təkbir edin ............................................................................................. 251

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) mənə Qurandan surə öyrətdiyi kimi, əlim onun əlləri arasında olduğu halda mənə namazda deyilən təşəhhüdü öyrətdi........ 257

Allahım qəbr əzabından, cəhənnəm əzabından, həyatın və ölümün fitnəsindən,................................................................ 260

Allaha çoxlu səcdə et, çünki Allah üçün etdiyin elə bir səcdə yoxdur ki, Allah ona görə sənin dərəcəni yüksəltməsin və günahını bağışlamasın .” ........................................................ 262

Yemək hazır olarkən və bir də böyük və kiçik ayaq yolu ehtiyacı olarkən namaz qılınmaz ........................................................ 263

Bu Xinzəb deyilən şey-tandır. Onu hiss etdiyin an ondan Allaha sığın və sol tərəfinə üç dəfə yavaşca tüpür .............................. 264

Oğruların ən pisi, (tələsik namaz qılıb) namazından oğruyandır". Ondan: Kişi namazından necə oğruya bilər? deyə soruşulunca, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun): "Namazın rükusunu və səcdəsini tam olaraq etməz" deyərək cavab verdi........................................................................ 266

Sizdən kimsə qorxmurmu ki, başını imamdan öncə qaldırmaqla Allah onun başını uzunqulaq başı edər, yada ki, Allah onun xarici görkəmini uzunqulaq görkəmində edər.................................. 267

Əgər sizdən biriniz öz namazında şəkk edərsə və neçə rükət- üç yoxsa dörd rükət qıldığını bilməzsə, şübhəni kənara atsın və əmin olduğu şeyə əsaslansın, sonra, salam verməzdən əvvəl iki səcdə etsin ................................................................................ 268

Günəşin üzərinə doğduğu ən xeyirli gün cümə günüdür ......... 271

Kim cümə günü cənabət qüslu  alar, sonra cüməyə gedərsə, sanki (Allah yolunda) dəvə kəsmiş kimi olar........................... 272

Allahummə əntəs-sələmu, və minkəs-sələmu, təbəraktə zəl-cələli vəl-ikram. (Allahım!  Salam Sənsən və əminamanlıq Səndəndir. Ey əzəmət və ehtiram sahibi! Sən xeyirxahsan...... 274

Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) hər namazdan sonra bu zikrləri edərdi.................................. 276

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) hər fərz namazdan sonra bu zikri edərdi....................................... 279

Kim hər namazdan sonra otuz üç dəfə "subhənallah", otuz üç dəfə "əlhəmdulilləh", otuz üç dəfə "Allahu Əkbər" deyərsə və bunlar doxsan doqquz edir və yüzüncü dəfədə: "ləə iləhə illallah vəhdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir" söyləyərsə, xətaları dəniz köpüyü qədər də olsa, bağışlanar........................................................................ 280

“Kim hər vacib namazdan sonra “Ayətul-Kürsi”ni oxuyarsa, onun cənnətə girməsinə ölümündən başqa heç nə mane olmaz” ................................................................................................. 282

Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) on rükət öyrəndim ........................................................................ 283

Hər iki azan (azan və iqamə) arasında namaz vardır, hər iki azan arasında namaz vardır" Sonra üçüncü dəfədə əlavə etdi: "İstəyən üçün.................................................................................. 285

Sizdən biri məscidə daxil olduqda, oturmazdan əvvəl iki rükət namaz qılsın.......................................................................................... 286

Cümə günü imam xütbə oxuyarkən yanındakı yoldaşına "Sus!" dersən, artıq lağlağa etmiş (cümənin savabını itirmiş) olursan ................................................................................................. 287

Namazı ayaq üstə qıl, bacarmırsansa oturaraq qıl, ona da gücün çatmırsa, uzanaraq qıl.......................................................... 288

Mənim bu məscidimdə qılınan bir namaz, Məscidul-Haram istisna olmaqla, başqa məscidlərdə qılınan min namazdan daha xeyirlidir ......................................................................................... 289

Kim Allah üçün bir məscid bina edərsə, Allah o kimsə üçün Cənnətdə o məscidin bənzərini bina edər» -dedi..................... 290

Sədəqə, var-dövlətdən bir şey əksiltməz, nə qədər ki, qul mərhəmətlidir, əvəzində Allah da onun izzətini artırar. Kim Allah üçün təvazökarlıq edərsə, Allah onu ucaldar .................. 292

Allah buyurdu:" Ey Adəm övladı mənim yolumda xərclə ki, mən də sənə yetirim ........................................................................ 293

Əgər kişi ailəsinə Allahın razılığını qazanmaq üçün xərcləyirsə, bu onun üçün sədəqədir .................................................................. 294

İnsan vəfat etdikdə üç əməldən başqa bütün əməlləri dayanar: bu davamlı sədəqə, fayda verən elm və ya onun üçün dua edən saleh övladdır ........................................................................ 295

“Ey insanlar, salamı yayın, yemək yedizdirin, qohumluq əlaqələrini qoruyun və gecələr insanlar yatarkən namaz qılın ki, Cənnətə salamatlıqla daxil olasınız” ......................................... 297

“Ey insanlar, həqiqətən, Uca Allah pakdır və yalnız pak olanları qəbul edər. Allah peyğəmbərlərə əmr etdiyini möminlərə də əmr etmişdir. Uca Allah buyurur ............................................... 299

Borcu qaytarmaqda çətinlik çəkənə möhlət verən və ya borcunu ona tamamilə əfv edən kəsi, Allah Qiyamət günü Öz ərşinin kölgəsi altına alacaq, həmin gün o kölgədən savayı sığınılacaq heç bir kölgə olmayacaq ......................................................... 303

Allah satarkən, alarkən, borcunu istəyərkən insanlarla mülayim davranan kimsəyə rəhm etsin ................................................... 304

İnsanlara tez-tez borc verən bir adam var idi.O,xidmətçisinə(borcları toplayan) belə deyərdi: Borcunu qaytara bilməkdə çətinlik çəkən birinə getsən, onun borcundan keç. Bəlkə Allah da bizim günahlarımızdan keçər ..................... 305

Şübhəsiz ki, Allahın sərvətini haqsız yerə istifadə edənlərə Qiyamət günü cəhənnəm əzabı var ............................................ 306

Kim Ramazan orucunu imanla və savabını yalnız Allahdan umaraq tutarsa, o kəsin keçmiş günahları bağışlanar.............. 308

Kim Qədr gecəsini imanla və savabını yalnız Allahdan umaraq ibadətlə keçirərsə, o kəsin keçmiş günahları bağışlanar ......... 308

Kim Allah üçün həcc edərsə, (həcc əsna-sın-da qadını ilə) yaxınlıq etməsə və söyüş söyüb pis sözlər danışmasa, həccdən anadan doğulduğu kimi (günahsız) qayıdar ............................. 309

Zülhiccənin ilk on günündə ..................................................... 311

Səni şübhəyə salan şeyi, şübhəyə salmayan şeylə dəyiş. Çünki düzlük arxayınlıqdır, yalan isə şübhədir ................................... 312

Həqiqətən, Allah mənim ümmətimin, əməl etmədikcə və söyləmədikcə nəfsində danışdıqlarının üstündən keçmişdir” 314

Həqiqətən Allah sizin zahirinizə, var-dövlətinizə yox, qəlblərinizə və əməllərinizə baxar ........................................... 315

Həqiqətən Allah qısqanır və mömin qısqanır, Allahın qısqanclığı mömininin haramlara əl atmasına görədir ................................. 316

Həlak edən yeddi günahdan çəkinin!” ...................................... 317

Sizə günahların ən böyüyü barədə xəbər verimmi? ................. 319

Ən böyük günahlar: Allaha şərik qoşmaq, valideyinlərin üzünə ağ olmaq, adam öldürmək və yalandan (Allaha) and içməkdir322

Qiyamət günü insanlar arasında ilk mühakimə olunacaq məsələ qantökmə məsələsi olacaq ...................................................... 324

Kim əhd verilən birini öldürərsə, Cənnətin iyini almaz. Halbuki onun iyi qırx illik məsa-fədən hiss edilir .................................. 324

Qohumluq əlaqələrini kəsən cənnətə daxil olmaz.................... 326

Kim ruzisinin artmasını və ömrünün uzanmasını istəyirsə, qohumluq əlaqələrini qorusun ................................................. 327

Qohum-əqrəbasının yaxşılıq etməsinə eynisiylə cavab verən insan heç də qohumluq əlaqələrini birləşdirən kimsə deyildir. Qohumluq əlaqələrini birləşdirən kimsə, qohumları onunla əlaqəni kəsdikləri zaman onlarla əlaqə saxlayıb bu əlaqəni birləşdirən kimsədir ............................................................. 328

Bilirsinizmi qeybət nədir?" Sahabələr: "Allah və Rəsulu ən doğrusunu bilir!"- dedilər. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "(Din) qardaşını onun xoşuna gəlmədiyi bir vəsflə xatırlamaqdır ................................ 329

“Hər sərxoşedici alkaqollu içkidir və hər bir sərxoşedici haramdır və kim dünyada sərxoşedici içkiyə aludə olub onu daima içərsə və tövbə etmədən ölərsə, onu axirətdə içməyəcəkdir” ........................................................................ 331

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) hökm verərkən rüşvət verənə və rüşvət alana lənət etmişdir 332

Bir-birinizə həsəd etməyin, bir-birinizi aldadaraq qiyməti qaldırmayın, bir-birinizə nifrət bəsləməyin, bir-birinizə arxa çevirməyin, biriniz digərinizin satışı üzərinə satış etməsin. Ey Allahın qulları, qardaş olun! ................................................... 333

“Zənn etməkdən çəkinin; çünki zənn, ən yalan ifadədir .......... 337

İnsanlar arasında söz gəzdirən cənnətə daxil olmaz................ 339

Günahını aşkarda edənlərdən başqa bütün ümmətim bağışlanacaq ......................................................................... 340

Ey insanlar! Allah sizdən cahiliyətin təkəbbürünü və ata-babalarınızla gürurlanmağı aradan qaldırmışdır ..................... 341

Allah dərgahında ən qəzəbinə gələn insanlar, mübahisə etdikdə həddi aşanlardır ................................................................. 343

İki müsəlman qılıncla (bir-birini öldürmək üçün) qarşı-qarşıya gəlirsə, öldürən də, ölən də cəhənnəmdədir............................. 344

Kim bizə silah çəkərsə, o bizdən deyildir .................................. 346

Ölüləri söyməyin, çünki onlar artıq dünyada ikən etdikləri əməllərə qovuşublar ............................................................... 347

Bir insana din qardaşını üç gecədən artıq tərk edərək küsülü qalması caiz deyildir, onlar görüşdükdə birisi digərindən üz çevirər, digəri də bunu təkrar edər. Sözsüz ki, onların ən xeyirlisi birinci salamlaşandır ................................................................ 348

Kim mənə iki çənəsi arasındakını (dilini) və iki ayağı arasındakını (övrət yerini haramdan qorumağa) zəmanət verərsə, mən də ona Cənnəti zəmanət verərəm ........................ 349

Yanında əri və ya məhrəmi olmayan qadın iki günlük məsafəyə yola çıxmasın ........................................................................ 350

Məndən sonra kişilər üçün ən təhlükəli fitnə( yoldan çıxaran) qadınlar olacaq .................................................................... 353

Kim evlənə bilirsə, evlənsin. Çünki evlənmək, gözü naməhrəmlərə baxmaqdan, ayıb yerlərini isə zinadan qoruyur. Kim evlənə bilmirsə, oruc tutsun. Həqiqətən oruc şəhvəti qırır ........................................................................................ 354

Dünya şirin və valehedicidir. Həqiqətən, Allah sizi dünyaya varis təyin etmiş və ondan necə istifadə edəcəyinizə nəzarət edir. Dünyadan qorxun! Qadınlardan qorxun! .................................. 356

Vəlisiz nikah yoxdur ............................................................. 357

Yerinə yetirməli olduğunuz şərtlərin ən vacibi, evlilikdə qoyulan şərtlərdir ........................................................................ 358

Dünya keçici bir ləzzətdir. Dünya ləzzətinin ən xeyirlisi saleh qadındır .................................................................................. 359

Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) (əcnəbi qadına) qəflətən(qeyri-qəsdli) olan baxış haqqında soruşdum və mənə baxışımı kənara çəkməyi əmr etdi ........................................................................................ 360

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) əli ilə ağ-qara buynuzlu iki qoç qurban kəsdi və "Bismilləh, Allahu Əkbər!" dedi və ayağını onların boynuna qoydu ...................... 362

İpək və atlaz geyinməyin, qızıl və gümüş qablardan içməyin və onlardan hazırlanmış qablarda yemək yeməyin, çünki bunlar dünyada onlar (kafirlər) üçün, axirətdə isə bizim üçündür” ... 363

“Qələm üç nəfərdən qaldırılmışdır: Yuxudan oyanana qədər yatan kəsdən, həddi-büluğa çatana qədər uşaqdan və ağlı başına gələnə qədər dəlidən” ........................................................ 365

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) saçın bir hissəsinin kəsib, digər hissəsini saxlamağı qadağan etdi ........................................................................................ 367

Bığlarınızı qısaldın, saqqallarınızı uzadın ................................ 368

“Kişi kişinin övrətinə, qadın da qadının övrətinə baxmasın .... 369

Həqiqətən, sizin ən xeyirliniz gözəl əxlaq sahibi olanınızdır”. 370

Həqiqətən mömin gözəl əxlaqla, oruc tutan və gecələri namaz qılan kəsin dərəcəsinə çatır ................................................... 372

Möminlərdən ən kamil iman sahibləri, gözəl əxlaqa malik olanlardır, sözsüz ki, sizin ən xeyirliniz qadınlarına qarşı xoş rəftar edənlərdir ........................................................................ 373

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanları ən çox cənnətə salan meyar haqqında soruşuldu. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) isə belə buyurdu: "Təqva və gözəl əxlaq .............................................. 374

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanlar arasında ən gözəl əxlaqa sahib idi ............................. 375

Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) əxlaqı Quran idi ........................................................... 376

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ayaqqabısını geyindiyi, saçlarını daradığı, təmizləndiyi zaman və bütün işlərində sağla başlamağı sevərdi .................................. 377

Həqiqətən, Allah hər bir şeydə və əməldə gözəl davranmağı əmr edib, ..................................................................................... 379

Ədalətli olanlar Allah qatında, izzət və cəlal sahibi Rəhmanın sağındakı nurdan olan minbərlər üzərindədirlər. Allahın hər iki əli də sağdır ......................................................................... 381

Nə (özünə və ya başqasına) zərər vermək, nə də zərərə zərərlə qarşılıq vermək olmaz, kim başqasına zərər verərsə, Allah onu zərərə uğradar, kim başqasına çətinlik törədərsə, Allah onu çətinliyə salar ........ 382

“Yaxşı və pis dostun misalı, müşk (ətir) satanla körük vuranın misalına bənzəyir ........ 383

Qəzəblənmə ........ 385

Güclü, güləşdə qalib gələn deyil, həqiqi güclü, qəzəb zamanı nəfsini cilovlayan insandır ........ 386

Dörd xislət kimdə olarsa o, xalis münafiq olar, kimdə bunlardan bir xislət olarsa, onu tərk edənə qədər özündə nifaqdan bir xislət qalmış deməkdir: danışdığı zaman yalan danışar, əhd etdiyi zaman sözündə durmaz, vəd verdiyi zaman ona xilaf çıxar, düşmənçilik etdiyi zaman da ədalətsiz olar ........ 387

“Mömin tənə edən, lənət edən, pis söz danışan və ədəbsiz davranan deyildir” ........ 390

Həya imandandır ........ 391

Əgər biriniz qardaşını (Allah üçün) sevərsə, ona, sevdiyini söyləsin ........ 392

Hər bir xeyirxahlıq sədəqədir ........ 393

İnsandakı hər bir oynaq sümüyünə görə sədəqə vermək lazımdır ........ 394

Kim bir mömini dünya sıxıntılarının birindən qurtararsa, Allah da onu Qiyamət gününün sıxıntılarının birindən qurtarar ........ 396

Qiyamət günü, heç bir qul həyatını necə keçirməsi, elmi ilə nə işlər görməsi, malını haradan qazanıb hara xərcləməsi və bədənini harada yorduğu haqqında soruşulmadıqca yerindən tərpənməyəcək ........ 400

Dul qadına və kasıba əl tutan şəxs, Allah yolunda cihad edən və ya gecələri yorulmadan namaz qılıb, gündüzləri oruc tutan şəxs kimidir” ........ 401

Allaha və axirət gününə iman gətirən, ya xeyir söyləsin, ya da sussun ........................................................................... 402

Din qardaşını sadəcə gülər üzlə qarşılamaq olsa belə, xeyirdən sayılan heç bir əməli kiçik zənn etmə........................................ 404

Dürüstlük (doğru danışmaq) üzərinizə vacibdir, çünki dürüstlük xeyirə, xeyir isə cənnətə aparır ................................................ 405

İnsanlara rəhm etməyənə izzət və cəlal sahibi olan Allah rəhm etməz.............................................................................. 407

Rəhm edənlərə (mərhəmətli olanlara) Rəhman olan Allah rəhm edər. Yer üzündə olanlara rəhm edin ki, səmada Olan da sizə rəhm etsin......................................................................... 408

Müsəlman o kəsdir ki, digər müsəlmanlar onun dilindən və əlindən əmin-amanlıqda olar, mühacir isə Allahın haram etdiklərini tərk edəndir”........................................................... 409

Müsəlmanın müsəlman üzərində beş haqqı vardır: Salamını almaq, xəstələndiyində ziyarət etmək, cənazəsini müşayiət etmək, dəvətinə icabət etmək və asqırdıqda: (Əlhəmdulilləh) deyənə: (Yərhəmukəllah) (yəni: Allah sənə rəhmət etsin) deməkdir.......................................................................... 411

Siz iman gətirməyincə cənnətə daxil olmazssızvə bir-birinizi sevməyincə də iman gətirmiş sayılmazsınız. Sizə elə bir şey deyimmi ki, onu etsəniz  bir-birinizi sevərsiz ? "Aranızda salamı yayın ........................................................................... 412

Bir kişi Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşdu: İslamın hansı əməli daha xeyirlidir? O, dedi: “Yemək yedirtməyin, tanıdığın və tanımadığın hərkəsə salam verməyin”......................................................................... 414

Sizi Allahın günahları sildiyi və dərəcələri yüksəltdiyi şeyə yönəldimmi?......................................................................... 415

Güclü mömin zəif mömindən daha xeyirli və Allaha daha sevimlidir. Və hər ikisində də xeyir vardır ................................ 417

Cəbrayıl mənə qonşu haqqında o qədər tövsiyə etdi ki, ona da mirasdan pay düşəcəyini zənn etdim ........................................ 419

Kim qardaşının ismətini qoruyarsa, Allah da onu Qiyamət günü cəhənnəm əzabından qoruyar ................................................ 421

Sizlərdən biriniz özü üçün istədiyini qardaşına istəmədikcə (kamil) iman gətirmiş olmaz.................................................. 422

Həqiqətən hər bir əməldə yumşaq davranmaq əməli bəzəyər, yoxluğu isə həmin əməli çirkin edər......................................... 423

“Həqiqətən din asandır. Kim dini çətinləşdirərsə, din ona üstün gələr. Düzgünlüyə riayət edin, (bacarmasanız çalışın ona) yaxınlaşın............................................................................ 424

Asanlaşdırın, çətinləşdirməyin, sevindirin, hürküdüb qaçırtmayın............................................................................. 427

Biz bir gün Ömərin yanında idik, o, belə dedi: “Bizə, təkəlluf etmək (çətinləşdirmək) qadağan edildi”.................................. 428

Sizdən biri yediyi zaman sağ əli ilə yesin, içdiyi zaman da sağ əli ilə içsin. Çünki şeytan, sol əli ilə yeyir və sol əli ilə içir ........... 429

Ey oğlan, Bismilləh de. Sağ əlinlə ye və sənə yaxın olan yerdən ye”..................................................................................... 430

Həqiqətən Allah, yedikdən sonra həmd edən və içdikdən sonra həmd edən qulundan razıdır.................................................. 432

Bir kişi Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ilə bir süfrə arxasında sol əli ilə yemək yeyirdi, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun): “Sağ əlinlə ye”- dedi. O isə "Bacarmıram" deyə cavab verdi. Dedi: "Heç bacarmayasan.......................................................................... 433

Kim yemək yeyib: “Əlhəmdu-lilləhil-ləzi ətaməni həzə va razəqanihi min ğeyri həvlin minni və ləə qüvvətin (Mənim tərəfimdən heç bir güc və qüvvət sərf olmadan bunu mənə yedizdirən və mənə ruzi olaraq verən Allaha həmd olsun” desə, onun keçmiş günahları bağışlanar.......................................... 434

Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) asqırdığı zaman əlini və ya paltarını ağzının üstünə qoyar və onunla səsini aşağı salardı........................................................ 435

Həqiqətən Allahın sizə buyurduğu vacib əməlləri sevdiyi kimi, rüxsətlə (yüngülləşdirici) buyurduğu əməlləri də etmənizi sevir ......................................................................................... 436

Allah kimə xeyir istərsə, onu müsibətlə imtahana çəkər......... 437

“Müsəlmanın başına gələn bəlalar içərisində elə bir yorğunluq, xəstəlik, dərd, kədər, əziyyət və sıxıntı, qəm, hətta bədəninə batan tikan kimi bəla yoxdur ki, Allah buna görə onun günahlarını bağışlamasın”......................................................... 438

Mömin kişi və mömin qadının, günahlardan tam təmizlənmiş halda Allahla qarşılaşana qədər özündə, övladlarında və malında bəla baş verməyə davam edər.................................... 439

“Möminin halı necə də təəccüblüdür, onun hər halı xeyirdir və bu, mömindən başqa heç kəsə aid deyil.................................. 441

Bir qul xəstələndiyindən və ya səfərə çıxdığından dolayı davamlı olaraq etdiyi ibadətləri etməzsə, ona müqim(sakin olduğu) və sağlam olarkən etdiyi əməllərin savabı kimi savab yazılar ..... 442

Zülmət gecənin parçaları kimi fitnələr gəlmədən öncə saleh əməllərə tələsin,.......................................................................... 443

Allah kimə xeyir dilərsə, onu dində anlayış sahibi edər........... 445

Alimlərin qarşısında lovğalanmaq, səfehlərlə mübahisə etmək446

Sizin ən xeyirliniz Quranı öyrənən və onu öyrədəndir ............ 447

onlar Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) on ayə öyrənərdilər və bu ayələrdəki elm və əməli həyatlarında tətbiq etməyincə digər ayələrə keçməzdilər ...... 448

Kim Allahın kitabından bir hərf oxuyarsa, ona bir savab yazılar. Savab isə on mislindədir.......................................................... 449

Quran sahibinə deyiləcək: Oxu və yüksəl, dünyada tərtil ilə oxuduğun kimi burada da tərtillə oxu, şübhəsiz ki, sənin dərəcən, oxuduğun son ayəyə qədərdir .................................. 450

Sizlərdən biriniz ailəsinin yanına döndüyündə orada üç kök böyük hamilə dəvə görmək istəyərmi? .................................. 452

Bu Quranı daima oxuyun! Canım əlində olan Allaha and olsun ki, o (sahibini) kəndirdən açılıb qaçan dəvədən daha tez tərk edir .................................................................................. 453

Evlərinizi qəbirstanlığa çevirməyin. Həqiqətən şeytan Bəqərə surəsi oxunan evdən qaçır. ...................................................... 454

Ey Əbul Munzir, bilirsənmi, Allahın kitabındakı hansı ayə daha əzəmətlidir?" Dedi: Mən cavab verdim :{Allah, Ondan başqa ibadətə layiq məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur.} [Əl bəqərə:255] O sinəmə vurub dedi: "Ey Əbul Munzir, vallahi elm sənə mübarək olsun.......... 455

Kim gecə Bəqərə surəsinin son iki ayəsini oxuyarsa, ona yetər .................................................................................. 456

Dua ibadətdir.................................................................... 457

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) hər zaman Allahı zikr edərdi.................................................... 459

Uca Allah qatında duadan daha dəyərli bir şey yoxdur............ 460

Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) tez-tez deyərdi: “Ey qəlbləri çevirən, mənim qəlbimi öz dinində sabit et.”.............................................................................. 461

Paltar köhnəldiyi kimi içinizdəki iman da köhnəlir. Allahdan qəlblərinizdəki imanın yenilənməsini istəyin .......................... 463

Allahdan rəbb olaraq, İslamdan din olaraq, Muhəmməddən rəsul olaraq razı olan kəs imanın şirinliyini dadmışdır ........... 464

Qulun Allaha ən yaxın olduğu an, səcdədə olduğu məqamdır. Səcdədə olarkən duanı çoxaldın ............................................ 466

Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) ən çox etdiyi duası bu idi: "Allahummə Rabbənə ətinə fiddunyə həsənətən və fil-əxirati həsənətən və qinə əzəbən-nər". (Ey Rəbbimiz olan Allahım, bizə dünyada da, axirətdə də gözəl nemətlər ver və bizi od əzabından (Cəhənnəmdən) qoru)...... 467

Sizə əməllərinizin ən xeyirlisini, Hökmradınızın yanında ən pak olanını, dərəcələrinizi ən çox artıranı...................................... 468

Sən məndən əzəmətli bir əməl barədə soruşdun. Həqiqətən də o Allahın asanlaşdırdığı kimsələr üçün asandır........................... 471

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) hər gecə çarpayısına uzandıqda, ovuclarını birləşdirərək onlara üfləyər və onlara İxlas, Fələq, Nəs sürələrini oxuyar ............... 476

Seyyidul-istiğfar ......................................................................... 478

{Qul huvallahu əhəd} və "Fələq" və "Nəss" surələrini oxu, hər cür şərrə qarşı sənə kifayət edər ............................................. 480

Allaha ən sevimli olan dörd kəlimə vardır: Subhanallah (Allah və nöqsanlardan pakdır), əlhəmdulilləh (həmd yalnız Allaha məxsusdur), ləə iləhə illəllah (Allahdan başqa ibadətə layiq ilah yoxdur), Allahu əkbər (Allah ən böyükdür).Hansıyla başlasan zərəri olmaz.................................................................................. 482

Kim on dəfə................................................................................ 483

Dildə yüngül, tərəzidə ağır, Rəhmana sevimli gələn iki kəlimə vardır........................................................................................... 484

Kim gün ərzində yüz dəfə Subhənallahi və bihəmdihi deyərsə, günahları dəniz köpüyü qədər olsa belə bağışlanar................. 485

Təmizlik imanın yarısıdır. Əlhəmdulilləh tərəzini doldurur. Subhənallah və əlhəmdulilləh sözləri isə yerlər və göylərin arasını doldurur .......................................................................... 486

Subhənallah valhəmdulilləh, və ləə iləhə illallah,vallahu əkbər" söyləmək günəşin üzərinə doğduğu hər şeydən mənə sevimlidir ...................................................................................................... 489

Zikrin ən fəzilətlisi: «Lə iləhə illəllah» kəlməsidir, duanın ən fəzilətlisi isə: «Əlhəmdulilləh» sözüdür ..................................... 490

“Kim bir məkana çatıb, orada dayanıb qalarsa, ardınca “Yaratdıqlarının şərindən Allahın kamil kəlmələrinə sığınıram” duasını oxuyarsa, ona, həmin yeri tərk edənə qədər heç bir ziyan dəyməz.” ........................................................................................ 491

Sizdən biri məscidə daxil olduqda: Allahumməftəh li əbvabə rahmətik [Allahım, Öz mərhəmət qapılarını mənim üçün aç!], məsciddən çıxdığı zaman isə: Allahummə inni əsəlukə min fədlik [Allahım, Sənin lütfündən di-ləyirəm] desin .................. 493

İnsan evinə daxil olduğu zaman və yeməyə başlayarkən Allahı zikr edərsə, şeytan köməkçilərinə deyər: Sizə bu evdə gecələmək üçün yer və şam yeməyindən pay yoxdur ............. 494



Peyğəmbərin hədisləri Şəriətin ikinci mənbəyidir. Uca Allah buyurmuşdur: {O, öz hava-istəyi ilə danışmır Bu, ona təlqin edilən bir vəhydir}. [ən-Nəcm 3-4].

Hədis ensiklopediyasından edilmiş bu seçmələr müsəlmanın dinində və gündəlik həyatında ehtiyac duyduğu geniş mənalı hədisləri, onların qısa izahı, məna və dəlalətlərinin və bəzi faydalarının açıqlanması ilə birlikdə özündə cəm etmişdir. Həmçinin hər kəsə faydalı olması və Allah Rəsulunun (sallallahu aleyhi və səlləm) sünnəsinin bəşəriyyətə öz dillərində çatdırılması üçün dünyanın bir sıra dillərinə tərcümə edilmişdir.

9 786038 517222

موسوعة الأحاديث النبوية
HadeethEnc.com